

# QURANDA CƏMİYYƏT VƏ TARİX

Misbah Yəzdi

# QURANDA CƏMİYYƏT VƏ TARİX

Misbah Yəzdi

Azərbaycan Respublikasinin Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin
09 iyul 2009-ci il Dk-269/ H saylı məktubu əsasında
«Zərdabi LTD» MMC-nin mətbəəsində çap olunmuşdur.

# Müqəddimə

Əziz oxucular, qarşınızdakı bu kitab müsəlman mütəfəkkir-filosof Misbah Yəzdinin dəyərli əsərlərindən olan «Quranda cəmiyyət və tarix» kitabının doğma dilimizə tərcüməsidir. Burada müəllifin toxunduğu bir sıra mühüm məsələlər sosioloji mövzuların bəzi ayələrlə qarşılıqlı münasibəti və bununla əlaqədar araşdırmalara yönəlmişdir.

Bu kitabda bir sıra filosof və sosioloqların cəmiyyət və tarixə aid görüşləri araşdırılmış, sonra isə həmin nəzəriyyələr sözü gedən mövzu ilə əlaqədar Quran ayələri ilə müqayisə edilmişdir. Müəllif öz tənqidi mülahizələrini təqdim etməklə yanaşı sosioloji və fəlsəfi görüşlərini Quran həqiqətləri ilə əsaslandırmışdır. Bu gün Azərbaycan gənclərinin maariflənməsində əsərin mövzu baxımdan aktuallığı danılmazdır. Çünki burada biz bir tərəfdən müxtəlif mütəfəkkir-sosioloq və filosofların nəzəriyyələri ilə tanış oluruq, digər tərəfdən də müqəddəs kitabımız Quranın cəmiyyətşünaslıqla bağlı bir çox açıqlamalarının şahidi oluruq. Bunu nəzərə alaraq Azərbaycanın bütün ziyalı insanlarına, xüsusilə gənclərə hazırki kitabı mütaliə etməyi tövsiyə edirik.

*Mail Yaqubov*
*08.03.2009*

# Ön söz

«Haqq yolunda» ali təhsil müəssisəsinin dərslik proqramını təkmilləşdirmək məqsədilə «Quran maarifi» adlı silsilə dərsliklər hazırlandı. Burada Quranın mühüm mövzuları müxtəlif elmi-fəlsəfi məsələlərlə əlaqədar olaraq vahid ideoloji sistem şəklində qısa da olsa araşdırılırdı. Həmin istiqamətdə Qurani-kərimin aşağıdakı mövzuları tədris edildi:

– Allahşünaslıq
– Kainatla tanışlıq
– İnsanşünaslıq
– Rəhbərin xüsusiyyətləri
– Quranşünaslıq
– Əxlaq

Sonra Quranın ictimai mövzularının tədqiqinə başladıq. İlk öncə «cəmiyyət və tarix» haqda araşdırma apardıq. Qarşınızda olan bu kitab həmin araşdırmaların nəticəsidir. Bu kitab on iki hissədən ibarətdir. Onun üç hissəsi ictimai elmlərin fəlsəfəsinə aid olur və cəmiyyət məfhumu, fərdin və ya cəmiyyətin fəlsəfi reallığı və cəmiyyətin qanunauyğunluğu kimi mövzuları əhatə edir.

Bu kitabın sonrakı hissələri isə cəmiyyətin fərdlər üzərindəki təsiri, fərdlərin cəmiyyətdəki təsiri, sosial institutlar, ideal cəmiyyət və digər mövzuları ehtiva edir.

Ümid edirik ki, bu səylər müsəlman cəmiyyətinin mədəni inkişafında mühüm rol oynayacaq, Allah dərgahında qəbul ediləcək və İmam Zamanın razılığına səbəb olacaqdır.

# I FƏSİL

# Giriş

Əziz oxucunun qarşısında olan bu kitab, sosiologiya elminə aid dərslik kitabı olmadığından, sosiologiya elminin problemlərinə toxunmur, hətta sosiologiya «ədəbiyyatı»nı tanıtdırmaq və bu elmin terminologiyasını izah etmək məqsədini güdmür, lakin, «ictimai elmlər», «sosiologiya» və «cəmiyyət» terminləri bu kitabda geniş yer aldığı üçün öncə onların hər biri haqda qısa da olsa məlumat verməк faydasız olmazdı.

Sosiologiya sözünün dilimizdə ümumiləşməsindən xeyli vaxt ötür.[1] Lakin indiyə qədər «ictimai elm» və «sosiologiya» arasındakı qarşılıqlı münasibət qaranlıq olmuşdur. Bu qeyri-müəyyənlik Avropa dillərində də öz əksini tapmışdır. Həm Avropada, həm də bizdə «ictimai elmlər» və «sosiologiya» sözləri eyni mənada işlədilmişdir. Lakin, bu gün bəzi elmi dairələrdə «sosiologiya» sözü «ictimai elmlər» terminindən daha məhdud mənada istifadə olunur. Hər halda, birinci və ikinci fəsillərdə bu iki sözün terminoloji mənaları barədə qısa məlumat verəcəyik.

Üçüncü fəsildə ingilis dilində «sosiety» fransız dilində «sosiete» və latın dilində «socius» sözlərinin tərcüməsi kimi işlənən «cəmiyyət» sözünün izahını vermişik. Yunanlılar «cəmiyyət» anlayışını «polis» sözü ilə ifadə edirdilər. Bu, «mütəşəkkil (nizamlı) siyasi cəmiyyət», «bir ölkənin digər ölkələrlə bağlı siyasi publikası» və yaxud daha dəqiq təbirlə desək, «bir ölkənin beynəlxalq şəxsiyyəti» mənasını daşıyırdı. Müsəlman tərcüməçiləri isə polis sözünü «mədinə» sözü ilə əvəzlədilər. Lakin müasir ərəb dilində «mədinə» sözünün yerinə «müctəmə» ifadəsi işlənir. Bilməliyik ki, Quarani-kərimdə «cəmiyyət» və «müctəmə» sözləri işlənməmişdir. Bu səmavi kitabda «mədinə» sözü 14 dəfə işlənsə də, bu, cəmiyyət mənasını deyil, «şəhər», yəni çox saylı insanların məskunlaşdığı yer mənasını ifadə edir. Cəmiyyət məfhumunu çatdırmaq üçün Quarani-kərimdə digər ibarələrdən istifadə edilmişdir. Biz ikinci hissənin səkkizinci fəslində bu barədə izahat verəcəyik.

# 1. «İctimai elmlər»

Düzdür, ilk baxışda «ictimai elmlər» məfhumunu tərif etmək asan görünür və bunun «ictimai hadisələri araşdıran elmlər» kimi təqdim etmək mümkündür, lakin obyektiv fikirləşsək görərik ki, «ictimai elmlər» birləşməsi müxtəlif mənalarda işlənmiş və məhz elə bu rəngarənglik onun tərifini bir sıra problemlərlə üzləşdirmişdir. Qeyd edirik ki, «ictimai elmlər» məfhumunun tərifi və bu haqda mövcud problemlərin izahı bu kitabda bizim üçün zəruri deyildir. Bu səbəbdən, yalnız «ictimai elmlər» birləşməsinin üç terminoloji mənasaının izahı ilə kifayətlənirik:

1. Bəzən bu söz «humanitar elmlər» termini ilə eyniləşdirilir. Misal üçün, məşhur bölümlərin birində bütün bəşəriyyətin elm və maarifi (riyaziyyat istisna olmaqla) üç hissəyə bölünmüşdür.

a) Cansız materiya elmləri, fizika, kimya, torpaqşünaslıq (aqrar elmlər) və astronomiya kimi, bu elmlər «fizika elmləri» adlanır.

b) Canlı materiya elmləri, biologiya, fiziologiya, botanika, zoologiya kimi, bunlar isə «təbiət elmləri» adlanır.

v) İnsana aid elmlər, tarix, iqtisadiyyat, psixologiya və hüquq kimi, bu elmlər müxtəlif adlarla o cümlədən «humanitar elmlər», «ictimai elmlər», «tarix elmləri», «etika elmləri», «mədəni elmlər», «psixoloji elmlər», «ideologiya elmləri» ilə də tanınmışdır.

Aydındır ki, burada «ictimai elmlər» dedikdə bütün «humanitar elmlər» nəzərdə tutulur, istər insanın fərdi vəziyyətini araşdıran elmlər, (psixologiya kimi) istərsə də, insanın ictimai problemlərini tədqiq edən sahələr (iqtisadiyyat və hüquq kimi).

2. Bəzən sözü gedən terminin dairəsi məhdudlaşdırılır və təkcə insanın ictimai məsələlərini araşdıran elmlərə «ictimai elmlər» deyilir. Deməli, insanın fərdi və şəxsi problemlərinə aid elmlər «ictimai elmlər» çərçivəsinə daxil olunmur. İkinci mənada işlənən elmlər iki hissəyə ayrılır: Onlardan bir hissəsi insanların ictimai həyatının həqiqətlərini tapmağa çalışan elmlərdir.

Digəri isə insanın ictimai həyatındakı «qanunlar» və «dəyərlər» toplusunu təqdim edən elmlərdir. İctimai həyatın iqtisadi hadisələrinə hakim olan obyektiv qanunların axtarışında olan «iqtisadiyyat» elmi birinci qrupa, insanların qarşılıqlı münasibətlərində əsas tutulan qanunlar toplusunu təqdim edən hüquq elminin əsas hüquqlar, siyasi hüquq, iqtisadi hüquq, cinayət hüququ və beynəlxalq hüquq kimi şöbələri isə ikinci hissəyə aid edilir.

3. Bəzi vaxtlar ictimai elimlər ifadəsinin daha da məhdudlaşdırırlar. Bu vaxt, yalnız insanın ictimai həyatını araşdıran və təkcə onun obyektiv həqiqətlərini kəşf etməyə çalışan humanitar elmlərə ictimai elmlər deyilir. Təbiidir ki, ictimai münasibətlərdəki qanunlara aid olan hüquq elmi bu dairədən kənarda qalacaqdır.

# 2. Sosiologiya

Fransız filosofu Ogüst Kont[2] (1798-1857) tərəfindən təqdim edilmiş «Sosiologiya» sözü də müxtəlif mənalarda işlənmişdir. Sosiologiyanın tərifi çox çətin bir iş kimi nəzərə çarpır.

Müasir fransız sosioloqu Reymond Bod[3] deyir: Sosiologiyanı tərif edərkən Reymond Ardenin bu cümləsini xatırlayırıq, o deyirdi: Sosioloqlar təkcə bir məsələdə müttəfiqdirlər, bu sosiologiyanın tərifinin çətin olmasıdır. İndi isə sosiologiyanın terminoloji mənalarından bir neçəsini sadalayırıq: Bir sıra tədqiqatçılar «sosiologiya» sözünü ictimai elmlər terminində izah edilən üçüncü məna ilə bir tuturlar. Yəni sosiologiya insanın ictimai həyatındakı obyektiv həqiqətləri araşdıran bir elmdir. Sosiologiya bu tərifə əsasən bir çox elmlərə şamil olur, o cümlədən insan coğrafiyası, cəmiyyətşünaslıq, iqtisadiyyat, siyasət, insanşünaslıq, tarix və dinşünaslıq.

Corc Qurvic, (1894-1965) fransız filosof və sosioloqu deyir: «Biz etnologiyanı sosiologiyanın bir hissəsi hesab edirik. Çünki burada qədim dövrlərə aid cəmiyyətlərin ümumi vəziyyəti araşdırılır.» Fransız sosioloqu Hanri Mindras isə deyir: «Bizim əqidəmizə görə sosiologiya elmi ictimai psixologiya və cəmiyyətşünaslığa da aid olur.» Qeyd edək ki bu iki sosioloqun sosiologiya haqda tərifləri «sosiologiya»-nın universal mənasını çatdırır. Buna baxmayaraq, bəzi sosioloqlar sosiologiyanın tərif dairəsini «ictimai elm»dən daha məhdud hesab etmişlər. Baxmayaraq ki, bu məhdudlaşma tam dəqiq və müəyyən deyil. Buna görə də bəzən sosiologiya sözü elə bir mənada istifadə edilir ki, daha cəmiyyətşünaslıq, siyasi iqtisadiyyat, politologiya, etnologiya və tarix kimi elmlərə şamil olunmur, lakin bir sıra sahələrə, o cümlədən, fikir, dil, etika, din, incəsənət, estetika, hüquq, siyasət, iqtisadiyyat, məhkəmə, cinayət, sənaye şəhər, kənd və idarə sosiologiyaları kimi sahələrə aid olunur.

Təkidlə deyirik ki, «ictimai elmlər» və «sosiologiya» sözlərinin terminoloji izahı hələ tam dəqiqliklə verilməmişdir. Bu iki termini eynimənalı hesab etməyənlər də «sosiologiya» məfhumunun «ictimai elmlər»lə müqayisədə hansı məna məhdudiyyətinə malik olması haqda tam müttəfiq deyildirlər.

Əlbəttə, biz sosioloqların fikir ayrılıqları üzərində düşünüb-daşınmaq əzmində deyilik. Lakin bu məsələni yaddan çıxarmamalıyıq ki, bütün tədqiqatçılar «sosiologiya»nı sosial qanunları tədqiq edən elm deyil, ictimai həyatı vəsf edən elm kimi təqdim edirlər. «(İctimai) etika» və «hüquq elm»lərinin «etika sosiologiyası» ilə fərqi həmin məsələdən qaynaqlanır. İctimai etika və hüquq hər bir şəxsin cəmiyyət qarşısındakı vəzifələrini daha dəqiq desək, insanın başqalarına qarşı vəzifələrini təyin edərək ideal insan və ya ideal dövlət məfhumunun tərif və izahını verir.

Ümumiyyətlə, bu elmlər daha yaxşı olan işləri müəyyənləşdirir və görüləsi işlər barədə qəzavət edir. Halbuki, etika və ya hüquq sosiologiyasında, yalnız obyektiv varlıq mütaliə edilir, pis, gözəl çirkin, şərafətli alçaq, bəyənilən-bəyənilməyən və bu kimi dəyərləndirici məfhumlar müzakirə obyektinə çevrilmir. Misal üçün sosiologiyada müxtəlif insan cəmiyyətlərində adət halını almış nikah mərasimləri tədqiq edilir. Lakin həmin mərasimlərin hansı birisinin daha yaxşı olması barədə qəzavət «etika» elminə həvalə edilir. Habelə sosiologiya, hakimiyyətdə olan iqtidarın müxtəlif formalarını araşdırır. Amma hakimiyyətlərin düzgün olub-olmamağını və yaxud onlardan bəzisinin üstün olması haqda suallara cavab vermir və bunu hüquq elminə ötürür. Həmçinin estetika və təlim-tərbiyə elmləri bağlı olduqları sosiologiya ilə fərqlənirlər. Qeyd edək ki, sosiologiya elminin izahedici xarakterə malik olması, onun qanunverici elmlərlə qarşılıqlı əlaqədə olmamağına sübut deyil. Həqiqətən sosiologiya həmin elmlərin bəzisinə tədqiqat üçün zəmin yaradır. Bu səbəbdəndir ki, onun elmi fəaliyyətləri xeyli əməli funksiyalara malik olur. Buna baxmayaraq, sosioloji araşdırmaların nəticələri, təlim-tərbiyə, incəsənət, texniki elmlər və hüququn müxtəlif sahələrində praktik istifadə mənbəyinə çevrilsə də, sosiologiyanın qanunverici elmlərlə fərqi yenə də mövcud olmaqda davam edir.

Sonralar biz sosiologiya və tarix fəlsəfəsinin əlaqələri haqda[4] habelə sosiologiya və psixologiyanın münasibətləri barədə[5] danışacağıq.

# 3. Cəmiyyət məfhumu

Cəmiyyət sözü bir dəstə insan toplumunu çatdırır. Kənddə, şəhərdə, ölkədə və ya bir qitədə bir araya toplaşıb yaşayan insanlar haqda cəmiyyət ifadəsi işlənə bilər. Bu digər faktlar əsasında da ola bilər. Misal üçün, oxşar din və ya məzhəbə sitayiş edən insan cəmiyyəti, eyni sənət sahibi olan insanlar, yaxud yer kürəsində yaşayan insan cəmiyyəti, ümumiyyətlə hər bir toplumda müştərək və ortaq xüsusiyyət varsa, bu topluma cəmiyyət deyilə bilər. İstər kiçik bir kəndin müəllim cəmiyyəti, istərsə də dünya yaranandan indiyə qədərki insan cəmiyyəti.

İndiyə qədər dediklərimiz cəmiyyət sözünün lüğətdə və insanlar arasında işlədilən mənalarına aid idi. İctimai elmləri tədqiq edənlər və sosioloqlar bu söz haqda digər mənalar da vurğulamışlar. Həmin mənalar nə o qədər genişdir ki, yer kürəsində indiyə qədər yaşamış, hazırda yaşayan və gələcəkdə yaşayacaq insanların hamısını əhatə etsin və nə də o qədər məhduddur ki, kiçik bir kəndi də cəmiyyət adlandıra bilərik. Təəssüflər olsun ki, bu orta məna dəqiq məlum deyil. Yəni hələ də cəmiyyət məfhumunun bütün və yaxud bir çox sosioloqlar tərəfindən qəbul olunan tərifi təqdim olunmamışdır. Sosioloqların özü də bunu etiraf edirlər. Müasir sosioloq Botomor deyir: «Üzləşəcəyimiz digər bir problem də mövcuddur. O da bundan ibarətdir ki, hər bir cəmiyyətin ictimai forması vardır. Hərçənd bir neçə cəmiyyət oxşar ictimai formalara malik ola bilər. Lakin müəyyən bir cəmiyyəti necə tərif etmək olar. Başqa sözlə müəyyən ictimai formanın hüdudlarını hansı əsaslarla dəqiqləşdirmək mümkündür? Keçmiş Yunanıstan bir cəmiyyət idimi və yaxud burada olan dövlət və şəhərlər öz-özlüyündə müstəqil cəmiyyətlər adlanırdılarmı? Son illərə qədər Hindistan vahid bir cəmiyyət idi, yoxsa yeganə mədəniyyət və yaxud məzhəb vasitəsilə bir araya gələn bir neçə cəmiyyət toplumu idi? Çox vaxt müəyyən bir cəmiyyətin hüdudlarını müəyyənləşdirmək çətin bir işdir. «(Şübhəsiz sosioloqların fikir ayrılığı burada bitmir, onlar bir çox digər məfhumların

mənaları haqda da ortaq məxrəcə gələ bilmirlər.) İctimai elmlər tədqiqatçısı, Fransız Dovirje deyir: «Ümumiyyətlə ictimai elmlər terminologiyasında gözə çarpacaq qədər təzadlar mövcuddur. Hətta sosioloqlar ilkin təriflər, bünövrə məfhumlar və kateqoriyalar haqda da yeganə fikir söyləyə bilmirlər və onların hər biri özünəməxsus dildə danışırlar, bu isə sosioloqlar arasında əlaqələrin düzgün formada bərqərar olmasını çətinləşdirir.»

Filosof və sosioloqların indiyə qədər cəmiyyət məfhumu barədə aydın və hərtərəfli tərif təqdim edə bilməmələrindən digər bir problem də yaranmışdır: «Müxtəlif cəmiyyətləri bir-birindən ayıran amillər nədir?» Bu məsələ iki hissəyə ayrıla və hər bölmənin özünəməxsus cavabı ola bilər: Bir dəfə biz müəyyən bir zaman kəsiyində yaşamış cəmiyyətlərin hansı meyarla bir-birindən ayrılmasını nəzərdə tuturuq, növbəti dəfə isə sabit bir məkanda indiyə qədər yaşamış və indi də yaşayan bir cəmiyyətin nə vaxta qədər həmin cəmiyyət kimi qalması və nə vaxtdan sonra başqa bir cəmiyyətə çevrilməsi müzakirə obyektli olur. Misal üçün, soruşa bilərik ki, nəyə görə İspaniya və Portuqaliya iki müstəqil cəmiyyətdirlər? Və yaxud nə üçün şimali və cənubi Koreya ölkələri bir cəmiyyət deyil, iki cəmiyyət hesab olunurlar? Bu qəbildən olan suallar zaman baxımından eyni, lakin məkan baxımından ayrı olan cəmiyyətlər haqdadır. Yenidən sual oluna bilər ki, 1985-ci ildə yaşamış Britaniya cəmiyyəti 1885-ci ya 1685-ci ildə yaşayan Britaniya cəmiyyəti ilə eynidirmi? Və yaxud hazırkı Yaponiya cəmiyyəti yüz il bundan qabaqkı Yaponiya cəmiyyətidirmi? Gördüyünüz kimi, son iki sual təqribən məkan baxımından bir, lakin zaman baxımından ayrı olan cəmiyyətlərə aiddir. Ayrı-ayrı məkanlarda yaşayan cəmiyyətlər hansı əsasla bir-birindən ayrılırlar, Sosioloqlardan bəzisi məkan amilini əsas götürür və bildirirlər ki, müəyyən bir cəmiyyətin formalaşmasının əsas şərti bir dəstə insanların təbii-coğrafi sərhədlərə malik olan ərazidə yaşamasıdır. Bunlardan biri müasir İngilis tədqiqatçısı Reymond Firt deyir: «Heç bir cəmiyyət üçün qəti sərhəd müəyyənləşdirmək olmaz, bu, yalnız o zaman mümkündür ki, həmin cəmiyyət coğrafi baxımından özünü tamamilə digər cəmiyyətlərdən təcrid etsin.» Digər sosioloqlar cəmiyyətin formalaşmasında soy, rəng, dil və yaxud başqa ünsürləri əsas götürmüşlər. Lakin çox vaxt deyilənlərin heç biri cəmiyyəti formalaşdıran amil kimi nəzərdə tutulmur, əslində hər şeydən öncə iş rejiminin bölünməsi amilinə təkid olunur. Bu fikrə əsasən, bir araya toplaşan, məişətdə zəruri olan işləri idarə etmək üçün bir araya gəlib onların nəticəsindən birgə faydalanan insanlar vahid

cəmiyyətin üzvüdürlər. Deməli, «vahid cəmiyyət» birgə yaşayan insanlardan ibarət bir toplumdur, həmin insanlar bir-birindən müstəqil olmamalı, «vahid iş bölümü sistemi» daxilində bir-biri ilə əlaqədə olmalı və birgə əldə etdikləri məhsul hamısının arasında bölünməlidir.

İş bölümü sistemi cəmiyyətləri bir-birindən ayıran amil kimi nəzəri baxımdan iradsız görünsə də praktikada bu, vahid və siyasi cəhətdən müstəqil hökumətin qurulmasından sonra mümkündür. Bu səbəbdən bir çox sosioloqlar müəyyən bir cəmiyyətin hüdudlarının müəyyənləşməsi üçün vahid və siyasi cəhətdən müstəqil hökumətin olmasını zəruri hesab edirlər. Həmin sosioloqların qənaətinə görə, «vahid cəmiyyət» dedikdə xarici qüvvələrin nəzarətindən kənar və müstəqil bir sistem daxilində yaşayan insanlar nəzərdə tutulur. Düzdür, heç bir cəmiyyət başqalarından tamamilə təcrid oluna bilməz, lakin hər bir toplum özünün daxili məsələlərində müstəqil olaraq qərar çıxara bilirsə və qüdrətli dövlətlər tərəfindən həmin qərar hücuma məruz qalmırsa, həmin toplum vahid və müstəqil hökumətdir. Belə olan təqdirdə, həmin toplum vahid cəmiyyət hüququnu qazana bilər. Vahid cəmiyyətdə yaşayan insanlar müxtəlif soylara və rənglərə, habelə müxtəlif dillərə mənsub ola bilərlər, onlar həmçinin təbii coğrafi sərhədlərlə bir-birindən ayrılmış müxtəlif ərazi hüdudlarında yaşaya bilərlər. (Misal üçün, Pakistan 1947-ci ildə Hindistandan ayrılmış və müstəqil olmuşdur. 1971-ci ilə qədər vahid cəmiyyət hesab olunurdu. Halbuki, Hindistan ərazisinin bir hissəsi Pakistanın şərq və qərb nahiyəsini bir-birindən ayırırdı. Bu ona görə idi ki, bütün Pakistan ərazisində yeganə sistem hakimiyyətdə idi. Lakin 1971-ci ildən sonra həmin ərazilərdə hakimiyyət dəyişikliyi baş verdi və burada iki müstəqil cəmiyyət formalaşdı: şərq hissə Banqladeş, qərb isə Pakistan adı aldı.)

Şübhəsiz, «cəmiyyət məfhumunu» «ölkə» anlamı ilə eyniləşdirmək bəzi iradların ortaya çıxmasına səbəb ola bilər. Həmin iradlardan biri budur ki, siyasi müstəqillik nisbi bir anlamdır, deməli, cəmiyyətləri bir-birindən tam ayıran amil kimi qəbul edilə bilməz. Misal üçün, qüdrətli dövlətlərdən birinin siyasi müstəmləkəsi olan ölkələr barədə nə demək olar? Bu ölkələrin hər biri müstəmləkəsi olduğu dövlətə bağlıdır. Digər tərəfdən, onları tam surətdə qeyri-müstəqil adlandırmaq da yanlış olardı. Həmçinin, Argentina, Avstraliya, Amerika Birləşmiş Ştatları, Kanada, Meksika və Hindistan kimi federal dövlətlərə malik olan ölkələr haqda nə deyə bilərik? Bu ölkələrin hər birində dövlət bir neçə siyasi sistemdən təşkil olunmuş və bu sistemlərin

hər biri öz vətəndaşları üçün bir sıra hüdudlar müəyyənləşdirmişdir. Lakin onlar xarici məsələlərdə mərkəzi dövlətə müraciət edirlər. Müxtəlif ölkələrdə sistemlərin ixtiyar hüdudları, habelə mərkəzi dövlətin nəzarət çərçivəsi dəyişkəndir. Bəzi ölkələrdə mərkəzi dövləti təşkil edən siyasi sistemlərin ixtiyar hüdudları çox genişdir. Hər halda problem burdadır ki, müstəmləkə şəraitində yaşayan ölkələr, habelə federal dövlətləri təşkil edən siyasi sistemlərin hər biri cəmiyyət adı ala bilərmi? Başqa sözlə, bir qrup insanlar cəmiyyət təşkil etmək üçün müstəqilliyin hansı dərəcəsinə malik olmalıdırlar?

Bütün bunlara baxmayaraq, vahid bir cəmiyyətin formalaşması üçün siyasi müstəqillik və vahid hakimiyyət şərti mötəbər sayılır və demək olar ki, sosioloqların hamısı siyasi müstəqillik və vahid hakimiyyətə malik olan insan toplumunu «vahid və müstəqil bir cəmiyyət» adlandırırlar.

2. Bura qədər fərqli məkanlarda yaşayan cəmiyyətlər haqda danışdıq. Bəs zaman baxımından ayrı olan cəmiyyətlər haqda nə demək olar? Burada da sosioloqların fikirləri tam müxtəlifdir. Həmin görüşlərin hamısının burada izahına lüzum olmadığından, yalnız daha çox qəbul edilən bir nəzəriyyəni nəzərdən keçiririk. Həmin fikrə əsasən, müəyyən bir ərazidə yaşayan və vahid cəmiyyət formalaşdıran insan toplumunun ictimai strukturunda mühüm dəyişkənlik baş verərsə, həmin dəyişiklikdən sonra bu cəmiyyət yeni cəmiyyət adlanmalıdır. Lakin bu nəzəriyyənin əsas problemi odur ki, filan ictimai dəyişkənliyin mühüm olub-olmadığı necə müəyyənləşdirilsin? Onlar həmin problemi aradan qaldırmaq üçün belə demişlər: «Cəmiyyətin bütün və yaxud əksər strukturlarını dəyişdirən dəyişkənliklər mühüm adlanır. Britaniya və Fransanın feodal cəmiyyətlərinin ictimai strukturunda baş verən dəyişkənlik əhəmiyyət daşıyırdı. Çünki həmin cəmiyyətləri kapitalist cəmiyyətlərə çevirdi. Deməli, Britaniya və Fransanın kapitalist cəmiyyətlərini öncəki feodal cəmiyyətlərdən fərqli hesab etməliyik. Gələcək fəsillərdə sosioloqların «sosial quruluş» termininin tərifi, həmçinin həmin quruluşların cəmiyyətdə sayı haqda fikir ayrılığını müşahidə edəcəyik.

# II FƏSİL

# Fərd və yaxud cəmiyyətin obyektiv reallığı

# Ön söz

Birinci hissədə vurğulandı ki, indiyə qədər cəmiyyət məfhumuna bütün və yaxud əksər sosioloqlar tərəfindən qəbul olunan tərif verilməmişdir. Bununla belə, onlar «vahid hökumət» və «siyasi müstəqillik» amilini vahid cəmiyyətin formalaşması üçün dəyərli və mötəbər hesab edirlər. Qeyd etmək lazımdır ki, həmin prinsipi qəbul etmək cəmiyyəti obyektiv reallıq kimi səciyyələndirməyə əsas vermir. Çünki həmin şərt qeyri-obyektiv vəhdət təşkil edən insan toplumunda da mövcud ola bilər. Bu səbəbdən elə düşünülməməlidir ki, vahid hökumət və siyasi müstəqillik əldə edən insan toplumunu cəmiyyət adlandırsaq, daha cəmiyyət məfhumunun konkret və yaxud abstrakt olması haqda danışmaq absurd olacaq. Bunu nəzərə alaraq indi həmin bəhsi cəmiyyətin və yaxud fərdin obyektiv reallıq olması ünvanında önə çəkirik: Cəmiyyətin, yoxsa fərdin obyektiv (real) həqiqət olması sosioloji bəhslərə aid edilməməlidir. Bunun iki səbəbi var. Birinci: Heç bir elmdə həmin elmin mövzusu sübuta yetmir, çünki hər bir elm özünün müzakirə mövzusunu aksioma kimi qəbul edir və həmin mövzu ətrafında tədqiqat aparır. Sosiologiya elmi də bu qaydadan müstəsna deyil. İkinci: Bu bəhsdə işlədilən vücud, vəhdət, tərkib, ittihad və obyektiv reallıq kimi terminlər sosioloji terminlər deyil, fəlsəfi məfhumlardır. Deməli, cəmiyyətin, yoxsa fərdin obyektiv reallıq olması haqda araşdırma aparan şəxs fəlsəfə sahəsinə daxil olmuşdur. Biz bu kitabda Quran maarifindən daha çox faydalansaq da, bununla belə fəlsəfi müzakirələrdən yararlanmışıq. Bütövlükdə Quran barədə mütaliələr və araşdırmalar fəlsəfi bəhslərlə əlaqəsiz ola bilməz. İlk öncə ona görə ki, bəzi məsələlərin mahiyyəti fəlsəfidir, istər Qurani-kərimdə gəlsin, istər digər kitablarda. Kainatı yaradanın varlığı və vəhdəti (tövhid), insan ruhunun varlığı və əbədiliyi, cəbr və ixtiyar və bu qəbildən olan məsələlər mahiyyət baxımından fəlsəfəyə aid olurlar. Bu məfhumların Qurani-kərimdə gəlməsi onların fəlsəfi mahiyyətinə zidd deyil. Bundan əlavə, bu şərif kitabda

oxuduğumuz bir çox mətləblərin aydınlaşması və sübuta yetməsi kitabda oxuduğumuz bir sıra fəlsəfi bəhslərdən istifadə etmədən mümkün deyil.

Zəruri müqəddimə olaraq fərdin, yoxsa cəmiyyətin obyektiv reallıq olması bəhsinə varid olmazdan öncə vəhdət, ittihad, tərkib və obyektiv reallıq məfhumlarını izah etmişik. Şübhəsiz, həmin terminlərin geniş təfsilatını fəlsəfi kitablarda görmək mümkündür, biz isə burada bu terminlərin öz bəhsimiz üçün zəruri olan cəhətlərini araşdırmışıq. Beşinci fəsildə kollektivistlərin (cəmiyyəti obyektiv reallıq kimi qəbul edənlərin) və individualistlərin (yalnız fərdləri obyektiv reallıq kimi qəbul edənlərin) görüşlərini, altıncı fəsildə isə həmin iki məktəbi bir-birinə yaxınlaşdırmağa çalışan Marks və Dürkheymin nəzəriyyələrini izah etmişik. Yeddinci fəsildə kollektivistləri rasional müstəvidə, səkkizinci fəsildə isə Quran baxımından rədd etməyə çalışmışıq. Qeyd etmək lazımdır ki cəmiyyəti fəlsəfi baxımdan obyektiv reallıq kimi qəbul etməyə əsas səbəb bəlkə də hüquqi məsələlər olmuşdur. İnsanlar zalım hakimlərin haqsızlıqlarından yaxa qurtarmaq üçün individualist sistemləri nəzəri və praktiki baxımdan zəiflətməyə və məhv etməyə çalışmışlar. Çünki həmin sistemlərdə azlıq təşkil edən insanlar əhalinin çox hissəsinə hökmranlıq və onlara qarşı zülm tətbiq edirdilər. Onlar bu məqsədlə, yəni cəmiyyətin siyasi-iqtisadi hüquqlarını azlıq təşkil edən insanların təcavüzündən qorumaq və fəlsəfi-psixoloji sübutlara əsaslanaraq cəmiyyəti obyektiv reallıq kimi qələmə vermək üçün elmi əsaslar tapmağa cəhd etdilər. Lakin məqsədin düzgünlüyü hər hansı bir fikrin fəlsəfi baxımdan düzgünlüyünü isbat etmir.

# 1. Vəhdət

Fəlsəfədə «vəhdət» anlamı müxtəlif qisələrə bölünmüşdür. Biz burada onların ən əhəmiyyətlisini əziz oxucularımızın nəzərinə çatdırırıq. Belə ki, vəhdət bəzən məfhum və mahiyyətlərə, bəzən isə vücuda istinad edilir. Məfhum və vücud vəhdətini bir-birindən ayırd etməmək bir çox səhvlərə və anlaşılmazlığa səbəb olur.

1. Məfhum vəhdəti: Yalnız məfhum və mahiyyətlərə aid olan məfhum vəhdətinin bir neçə təsnifatı vardır, o cümlədən:

a) Növ vəhdəti: İnsan, at, ağac, su və bu kimi növlərə aid olan vəhdət «növ vəhdəti» adlanır.

b) Cins vəhdəti: Bir neçə mürəkkəb mahiyyətin (cinsin) arasında müştərək və ortaq olan vəhdət «cins vəhdəti» adlanır.

2. Vücud vəhdəti: Vücud vəhdəti (yaxud ədəd və ya şəxsdə cərəyan edən vəhdət) mahiyyətin hər bir fərdinə nisbət verilir. Hər bir fərd real varlıq olduğu üçün vəhdət vəsfinə malik ola bilər. Deməli, xarici mövcudatın hər biri ədəd və yaxud şəxs vəhdətinə malikdir.

Növlərə daxil olan fərdlərin hər birini nəzərə alarkən bir neçə məsələ aydınlaşır:

1.Onların hər biri ədəd və yaxud şəxs vəhdətinə malikdirlər.

2.Onların hamısı müxtəlif vücudlara malik olduqları üçün çoxluq təşkil edirlər.

3.Həmin fərdlər çoxluq təşkil etsələr, də yeganə mahiyyət və növ baxımından vahiddirlər.

Bu misala diqqət yetirin. Həsən, Cəfər, Əhməd və Əlinin hər biri ədəd baxımından vəhdət təşkil edirlər. Bu dörd nəfərin hər biri xarici obyektiv reallıq baxımından çox olsalar da, müştərək insan mahiyyəti baxımından vahiddirlər. Habelə, bir cinsin müxtəlif növləri çoxluq təşkil etsələr də vahid cinsə daxil olduqları üçün vəhdət təşkil edirlər. Misal üçün, insan, dəvə, qoyun və göyərçin müxtəlif növlərə aid olduqları üçün çoxluq təşkil

etsələr də, heyvan məfhumuna aid olduqları üçün cins vəhdəti təşkil edirlər. Aydındır ki, vəhdətin bu iki qismi, Yəni növ və cins vəhdəti növün fərdlərinin və yaxud cinsin növlərinin həqiqi sifəti deyildirlər və onlara vasitə ilə nisbət verilirlər.

Nəticə olaraq deyirik ki, məfhum vəhdəti zati olaraq növ və cinsin xüsusiyyətidir. Halbuki, vücud vəhdəti onun əksinədir. Yəni zati olaraq xarici obyektiv reallığın sifətidir.

Vəhdət təsnifatını əsas götürərək asanlıqla deyə bilərik ki, müəyyən bir mövzu üzərində ortaq məxrəcə gəlmiş iki və ya bir neçə şəxsin vahid əqidədə olmasını bildirsək, həmin vəhdət «şəxsi vəhdət» deyil, «növ vəhdətidir». Çünki həmin əqidənin bir vücudu yoxdur. Bu əqidəyə sahib olan fərdlərin sayı qədər həmin əqidənin də vücudu vardır. Lakin burada bir növ əqidə olduğu üçün həmin əqidə növ vəhdəti baxımından vahiddir. İki və yaxud bir neçə insanın müəyyən bir hadisəyə oxşar reaksiyasındakı vəhdət məfhum vəhdətidir. Deməli, «insanlar bir-biri ilə ünsiyyətdə olduqları zaman onların hissiyyatı və emosiyaları bir-biri ilə qarışır və burada vəhdət hasil olur» kimi təbirlər obyektiv görünə bilməz, çünki hər bir insanın nəfsi müstəqildir və insanların nəfsinə bağlı olan hissləri də müstəqil olduğu üçün onlar nə bir-birinə qarışa bilər və nə də burada vəhdət yarana bilər. Müxtəlif və rəngarəng emosiyaların bir-biri ilə oxşarlığı onların obyektiv vəhdətini deyil, məfhum vəhdətini yaradır.

# 2. İttihad

İttihad sözü lüğətdə iki və ya bir neçə şeyin birləşməsinə deyilir. İnsanlar arasında isə ittihad daha geniş mənada və hətta həmkarlıq sözü ilə sinonim kimi işlədilir. Lakin biz burada həmin sözün təkcə fəlsəfi mənasını nəzərdə tuturuq.

A və B-nin birləşməsindən danışarkən A-nın B və yaxud B-nin A olması, həmçinin onların hər ikisinin aradan getməsi, həmçinin onlardan birinin aradan gedib digərinin qalması və yaxud hər ikisinin aradan getməsi nəticəsində üçüncü bir şeyin meydana gəlməsi nəzərdə tutulmur. İttihad odur ki, iki şeyin hər ikisi öz-özlüyündə mövcud olduqları halda onların arasında müştərək bir xüsusiyyət tapılsın və bir növ vəhdət hasil olsun. Şübhəsiz, iki şey fərqləndikləri cəhətdən bir-biri ilə birləşə bilməzlər. Bu paradoksun bariz nümunəsidir. Deməli, iki şeyin birləşməsindən danışarkən onların arasında həm vəhdət həm də çoxluq cəhətləri nəzərdə tutulur.

İttihadın qisimləri barədə filosoflar arasında fikir ayrılığı mövcuddur. İttihadın növlərindən biri materiya və surət birləşməsidir. Demək olar ki, filosofların hamısı bildirirlər ki, ilkin materiya və surətin tərkibi ittihad növündəndir. Hərçənd onlar materiya və surətin digər tərkib qismi barədə, yəni ikinci materiya və surətin mürəkkəbliyi haqda belə bir fikir irəli sürmürlər. Aşağıdakıları ittihadın digər növləri hesab etmək olar:

– Ərəzin cövhərlə birləşməsi
– Ruhun bədənlə ittihadı
– Səbəbin nəticə ilə birləyi
– Dərk edənin dərk olunanla ittihadı

# 3. Tərkib

Tərkib sözü lüğətdə birləşdirmək mənasını ifadə edir. Şübhəsiz, tərkibdə çoxluq əsas götürülür. Yəni vahid bir şey vahid olduğu baxımından mürəkkəb adlana bilməz. Onu iki və ya bir neçə şeyin birləşməsindən əmələ gəldiyi üçün mürəkkəb adlandırırlar. Əlbəttə, tərkibdə olan çoxluq hazırda deyil, gələcəkdə də mövcud ola bilər. Misal üçün, bir bitkini təşkil edən ünsürlər hazırda mövcuddurlar. Lakin bir xətti yaradan ünsürlər və elementlər hazırda deyil, gələcəkdə mövcud olacaqlar. Bir xəttin hazırda çoxluq təşkil etməməyini anlamaq üçün bir metrlik xətt parçasını nəzərdə tutun. Həmin xətt parçası vahid bir varlıqdır. Yəni onun bir vücudu var və onda çoxluq yoxdur. Həmin xətti, yalnız iki yarım metrlik xətt parçasına böldükdən sonra onu mürəkkəb adlandırmaq olar. Lakin nəzərə almaq lazımdır ki, bir metrlik xətt parçasını iki yarım metrlik xətt parçasına bölən zaman bir metrlik xətt parçasının bütöv varlığını aradan götürürük. Yəni onun vücudunun vəhdətini pozur və iki digər vahid mövcud yaradırıq. Nəticədə ya bir metrlik xətt parçasını saxlamalı, ya da onu iki yarım metrlik xəttə bölməliyik. Onların hər ikisini eyni zamanda saxlamaq mümkün deyil. Deməli, bir xətti iki və ya bir neçə hissənin mürəkkəb forması hesab etmək dəqiq qərar deyil. Başqa sözlə, xəttin müəyyən hissələrdə təşkil tapması həmin hissələrin hazırda mövcudluğunu təsdiq etmir. Həmin hissələr, yalnız xətt bölünəndən sonra mövcud ola bilərlər. Bu vaxt isə daha vahid xətt ortada olmayacaqdır.

Hissələri hazırda mövcud olan tərkiblərə gəlincə isə iki və ya bir neçə şey bir araya toplaşaraq vahid bir varlıq təşkil edirlər ki, hissələrin hər biri həmin universal varlığın bir hissəsi olurlar. Həmin vahid varlıq iki cür ola bilər: Ya yeni surət və varlığa malik olur, ya da olmur. Birinci surətdə tərkib həqiqi tərkib adlanır. İkinci vəziyyətdə isə tərkib qeyri-həqiqi və qeyri-obyektiv tərkib adlanır. Başqa sözlə, hər bir mürəkkəb şeyin nəzdində həmin vahid varlığı təşkil edən hissələrdən əlavə, başqa bir obyektiv varlıq

mövcuddursa, həmin tərkib həqiqi və obyektiv tərkib adlanır. Və yaxud həmin mürəkkəb obyektiv mürəkkəb adlanır. Belə olmayan halda həmin hissələrin bir araya gəlməsi və mürəkkəb bir şeyin meydana gətirilməsindəki tərkib qeyri-obyektiv və abstrakt adlanır. Obyektiv mürəkkəbləşmə prosesində öncədən həqiqi obyektiv varlığa malik olan iki və yaxud bir neçə şey bir araya toplaşır və bu vaxt başqa bir obyektiv varlıq onların nəzdində ortaya çıxır və həmin hissələri öz çətirinin altına alaraq onları birləşdirir. Beləliklə müxtəlif şəxsiyyətlərin cəmləşməsi nəticəsində digər bir vahid şəxsiyyət yaranır. Mürəkkəbləşmə cərəyanında mürəkkəb varlığı təşkil edən hissələr materiya rolunu oynayırlar. Sonra onlara yeni bir ruh verilir. Bu səbəbdən yeni ruh hər bir obyektiv mürəkkəbin zəruri şərtidir. Misal üçün obyektiv mürəkkəb olan bir bitkini təşkil edən ünsürlər hazırda çoxluq təşkil edirlər və hazırda çoxluq təşkil edən varlıq çox olduğu üçün vahid ola bilməz. Deməli, onların arasında vəhdət yaradan bir amil tapmaq lazımdır. Bu vəhdət amili həmin bitki ünsürlərini bir-birinə yaxınlaşdıran və onları bir araya gətirən bitki ruhudur. Deməli, bitkiyə nisbət verilən vəhdətin əsas səbəbi vahid bitki ruhudur. Başqa sözlə, zati olaraq vahid adlanan varlıq təkcə bitki ruhudur. Bitkini təşkil edən ünsürlər isə heç bir vəhdətə malik deyildirlər və onlara nisbət verilən vəhdət ikinci dərəcəlidir. Bitki ruhu haqda dediklərimiz eynilə heyvan ruhu barədə də cərəyan edir. Həmçinin, vahid bir insanı vahid adlandırarkən burada həqiqi vahid adlanan şey insan bədənindəki insan ruhudur. Çünki insan bədənini təşkil edən milyonlarla ünsür arasında vəhdət yaratmaq mümkün deyil. Başqa sözlə, vahid bir insanın ruhu həmin insanın ruhunu və bədənini bütövlükdə vahid bir varlıq hesab etməyə əsas verir.

Abstrakt və qeyri-obyektiv tərkibdən ünsürlərdən əlavə olaraq digər bir obyektiv varlıq meydana gəlmir. Yəni müxtəlif və rəngarəng şəxsiyyətlərin cəmləşməsi nəticəsində digər vahid bir şəxsiyyət yaranmır. Qeyri-obyektiv mürəkkəbin hissələrinin hər biri müstəqil təsirə malikdirlər və burada mürəkkəbin təsiri həmin müstəqil hissələrin təsirindən başqa bir şey deyil. Nəhayət budur ki, müəyyən bir cəhəti əsas götürərək müstəqil hissələrdə toplaşmış bir mürəkkəbi vahid varlıq fərz edirik, halbuki, həmin mürəkkəb varlıq obyektiv olaraq həqiqi vəhdətə malik deyildir. Bunun əsas səbəbi ondadır ki, həmin müstəqil hissələrin yaranmasından yeni ruh meydana gəlməmişdir ki, onların vəhdətinə və vahid və obyektiv mürəkkəb olmasına zəmanət versin. Stol, stul, qələm, kitab, soyuducu və bu kimi mürəkkəb

əşyalar qeyri-obyektiv mürəkkəb adlanırlar. Çünki biz onların hər biri üçün vəhdət fərz edirik. Halbuki, onlar xaricdə və həqiqətdə vəhdət daşıyıcısı deyildirlər.

İnsan haqda danışarkən yeni ruhun və nəticədə obyektiv tərkibin yaranmasını isbat etmək çox asandır. Hər bir insan öz-özlüyündə səhv etmədən özünü milyardlarla ünsürün məcmusu kimi deyil, vahid bir varlıq kimi dərk edir. Başqa sözlə, o tam dərk edir ki, vahid və bəsit bir ruha malikdir. Hər halda, insan bədənindəki bütün üzvləri birləşdirən insanın ruhunun obyektiv vəhdətə malik olmasında heç bir şübhə yoxdur.

Lakin digər yerlərdə məsələnin aydınlaşması o qədər də asan deyil. Çünki əqli sübutlardan və hissi təcrübə və müşahidələrdən bu barədə kömək diləməliyik. Məhz bu səbəbdəndir ki, bəzən müəyyən bir toplumun obyektiv real vəhdət və tərkibini sübuta yetirmək bir sıra problemlərlə üzləşir və nəticə etibarı ilə obyektiv və qeyri-obyektiv tərkibin nümunələrini tapmaq və bir-birindən ayırmaq asanlıqla müyəssər olmur. Hər halda, müəyyən bir vəhdət və tərkibin obyektiv real həqiqət olmasını sübuta yetirmək üçün həmin mürəkkəbin onu təşkil edən ünsürlərdən əlavə, digər vahid və müstəqil bir ruha malik olmasını isbat etməliyik. Bu əsasla, heyvan və bitki tərkibləri onu təşkil edən hissələrdən əlavə başqa bir heyvan və ya bitki ruhuna malik olduqları üçün obyektiv mürəkkəb adlana bilərlər. Canlı mövcudatdan sonra cansızlar aləmində kimyəvi mürəkkəblərlə üzləşirik. Bu qisim tərkiblərdə mürəkkəbin obyektiv və ya qeyri-obyektiv olmasını müəyyənləşdirmək çətindir, bu tərkiblərin yeni ruha malik olmasını sübuta yetirə bilməsək həmin tərkib və vəhdətin qeyri-obyektiv olmasına qərar verəcəyik.

Sonda fəlsəfədə təsdiq edilən qəti bir qanunu xatırlatmaq faydasız olmazdı: Vücud vəhdətlə bərabərdir (şübhəsiz, burada məfhuma deyil, vücuda aid olan vəhdət nəzərdə tutulur). Yəni hər bir həqiqi və obyektiv mövcud mövcud olduğu baxımdan həqiqi vahiddir və hər bir vahid vahid olduğu baxımdan mövcuddur. Deməli, vücudun obyektivliyi sübuta yetərsə, vəhdətin obyektivliyi də sabit olacaqdır. Həmçinin əgər obyektiv vəhdət inkar edilərsə, bu, obyektiv varlığın inkarı ilə nəticələnəcəkdir. Deməli, vücuda nisbət verilən vəhdət aradan gedərsə, həmin mövcudun varlığı da aradan gedəcəkdir. Hərçənd həmin mövcudun yerinə digər mövcudlar yarana bilər ki, onların hər biri vahid və müstəqil vücuda malik olsunlar. (Bir xətt parçasının bir neçə xətt parçasına bölünmə misalını yada salın.)

Həmçinin, burada iki məsələni aydınlaşdırmaq zəruridir: Bəzən deyirlər: «Əgər iki və ya bir neçə şeyin birləşməsi nəticəsində mürəkkəbdən yeni tərkib meydana gələrsə, həmin tərkib obyektivdir.» Bəziləri həmin qaydanı əsas götürərək saat və miz kimi bəzi süni tərkibləri də obyektiv tərkib adlandırmışlar. Misal üçün, deyirlər «saat vaxtı bildirir.» Bu təsir və ya bu əsər saatın hissələrinin hər birində müstəqil olaraq müşahidə olunmur. Deməli. bu yeni təsir saatın obyektiv mürəkkəb olmasından irəli gəlir. Hərçənd saat təbii mürəkkəb deyil, süni mürəkkəbdir.

Bu fikrin müqabilində deməliyik ki, bütövlükdə saat vaxtı müəyyənləşdirmir və vaxtı bildirmək saatın obyektiv əsəri deyil. Saat bir neçə əşyanın müəyyən tərtiblə bir-birinin kənarında quraşdırılmasından ibarət olan bir sistemdir. Burada həmin əşyalardan biri enerji vasitəsilə hərəkət edir və həmin hərəkət nəticəsində saatın başqa bir hissəsi hərəkət etməyə başlayır. İkinci hissənin hərəkəti isə üçüncü hissənin hərəkətinə səbəb olur və beləliklə bir neçə hissə hərəkət etməyə başlayırlar və bu hərəkətlərin nəticəsində iki-üç əqrəb fırlanmağa başlayır. Onların fırlanmağında müəyyən nisbətlər mövcuddur. Saat bundan başqa bir şey deyil. Onun vaxtı bildirməsi isə bizim saatı öz məqsədimizə uyğun formada quraşdırmamızdan asılıdır. Vaxtı bilmək üçün digər əşyaları da məqsədə uyğun quraşdırmaq olar. Misal üçün, bir saat ərzində üç kilometr məsafə qət edən şəxs altı kilometr məsafə qət etdikdən sonra iki saat vaxt ötdüyünü biləcəkdir. Lakin bu o demək deyildir ki, həmin şəxsin addımlarının arasında obyektiv tərkib yaranmışdır. Deməli, burada obyektiv vəhdət və tərkibdən söhbət gedə bilməzsə, saat haqda da onun obyektiv və həqiqi mürəkkəb olmasını vurğulamaq olmaz. Başqa sözlə saatın hissələrinin məcmusu obyektiv təsirə malik deyildir. Bu səbəbdən saatın yeni ruha malik olması yanlış olardı.

Müharibə zamanı döyüşçülərin birgə fəaliyyəti nəticəsində əldə etdikləri qələbə onların bütöv qrup fəaliyyətinin nəticəsi olsa da, bu, həmin döyüşçülər dəstəsinin obyektiv mürəkkəb olmasına əsas vermir. Çünki həmin döyüşçülərin hər birinin müstəqil varlıq və şəxsiyyəti vardır ki, onları bir-birindən fərqləndirir və onların hər birinə özünəməxsus təsir bağışlayır. Deməli, «qələbə» döyüşçülərin bütövlükdə işi nəticəsində əldə edilən məfhumdur. Başqa sözlə, xaricdə həyata keçən qələbə vahid və obyektiv səbəbin nəticəsində deyil, yalnız çoxluq təşkil edən döyüşçülərin məcmusunun nəticəsində əldə edilən bir işdir. Deməli, döyüşçülərin

məcmusu onların müstəqil varlıqları, vücudları və şəxsiyyətlərindən başqa bir şey deyil.

İkinci məsələ budur ki, bəziləri iki şey arasında səbəb-nəticə nisbətinin mövcud olmasını onların obyektiv mürəkkəb olmasının əsası kimi qiymətləndirmişlər. Yəni bəzilərinin fikrincə, iki şeydən biri digərinin səbəbi olarsa, onlar obyektiv mürəkkəb adlanırlar. Bəziləri isə bildirmişlər ki, iki şeyin arasında təsiretmə və təsirlənmə nisbəti olarsa, onlar həqiqi tərkib adlana bilərlər. Misal üçün, suyun tərkibindəki oksigen və hidrogen arasında təsiretmə və təsirlənmə nisbəti olduğundan, onların tərkibini obyektiv adlandırmaq və suyu obyektiv vəhdətə malik olan mövcud kimi qiymətləndirmək olar.

Hesab edirik ki, bu iki fikrin hər ikisi yanlışdır:

Birinci: Əgər səbəb-nəticə nisbəti tərkibin obyektiv olmasına əsas verirsə, deməli bütün kainat və Allah bir-biri ilə həqiqi və obyektiv tərkib yarada bilərlər. Lakin yaradan və yaranmış arasında həqiqi və obyektiv tərkib meydana gələ bilərmi?

İkinci: Əgər təsiretmə və təsirlənmə nisbəti əşyaların bir-biri ilə obyektiv tərkibdə olmasını göstərirsə, deməli, bütün təbiət vahid və həqiqi mürəkkəbdir. Çünki bütün təbiətdə olan əşyaların arasında təsiretmə və təsirlənmə nisbəti bərqərardır. İstər bilavasitə, istərsə də müəyyən vasitələrlə. Əlbəttə, bəzi tədqiqatçılar bütün təbiət cisimləri arasında təsiretmə və təsirlənmə nisbətinin bərqərar olmasını bildirir və məhz bunu təbiət aləminin vəhdətinin sübutu kimi göstərirlər. Lakin bununla razılaşmaq olmaz. Misal üçün, müəllim və şagird arasında təsiretmə və təsirlənmə nisbəti olsa da, onların bir-biri ilə həqiqi və obyektiv tərkib yaratmasını və vahid varlıq olmasını bildirmək olarmı? Habelə, bir dərs otağında toplaşmış şagirdlərin arasında təsiretmə və təsirlənmə nisbəti olsa da, onların bir araya gəlməsi nəticəsində digər bir obyektiv mövcud ərsəyə gəlirmi? Aydındır ki, belə bir mülahizə düzgün deyil. Çünki belə olan halda təbiət aləmində heç bir çoxluqdan danışmaq olmaz.

Nəticə alırıq: Obyektiv ittihad və tərkibin əsas meyarı budur ki, vahid və bəsit ruh hazırda mövcud olan və çoxluq təşkil edən materiyaları bir araya toplasın və həmin vahid ruh onların hamısına şamil olsun. Əlbəttə, obyektiv bir mürəkkəbin üzvləri öz aralarında səbəb-nəticə və yaxud təsiretmə və təsirlənmə nisbətinə malikdirlər. Lakin əsas məsələ bundadır ki, həmin nisbətlər obyektiv ittihadın və tərkibin yaranmasının əsas səbəbi və

göstəricisi deyildir. Buradan məlum olur ki, cəmiyyətin fərdləri arasında həmkarlıq və onların arasındakı təsiretmə və təsirlənmə nisbəti cəmiyyətin vahid və obyektiv vəhdət və tərkibə malik olmasına əsas vermir. Cəmiyyətin obyektiv vəhdət və tərkibə malik olmasını qəbul etmək, yalnız vahid bir ruhun cəmiyyətə hakim olmasını təsdiq etdikdən sonra mümkündür. Biz yeddinci və səkkizinci fəsillərdə belə bir ruhun mövcudluğunu inkar etmişik.

# 4. Obyektiv reallıq

İctimai elmlərdə geniş yayılmış təbirlərdən biri obyektiv reallıq terminidir. Misal üçün, həmin elmlərdə çox vaxt bu məsələ ilə üzləşirik ki, cəmiyyət, yoxsa fərd obyektiv reallığa malikdir? Obyektiv reallıq termini müxtəlif sahələrdə işləndiyindən burada suallara cavab verməzdən öncə onun müxtəlif mənalarını bir-birindən ayırmalıyıq.

Cəmiyyətin, yoxsa fərdin obyektiv reallığı ictimai elmlərdə ən azı üç mənada işlənə bilər:

1. Hüquq sahəsindəki obyektiv reallıq: Hüquq zəminində, xüsusilə iqtisadi hüquq sahəsində cəmiyyətin, yoxsa fərdin obyektiv reallığa malik olması dedikdə, cəmiyyətin yoxsa fərdin hüquqlarının daha üstün olması nəzərdə tutulur. Burada hüquq və iqtisadiyyat sahəsindəki məktəblər iki böyük hissəyə ayrılmışlar: Cəmiyyətin obyektivliyini qəbul edən məktəblər, yəni kollektivistlər (sosialistlər) və fərdin obyektiv reallığını qəbul edən məktəblər, yəni individualistlər. Cəmiyyətin hüquqlarının fərdi hüquqlarla toqquşması zamanı kollektivistlər cəmiyyətin ümumi mənafeyini fərdlərin xüsusi mənafeyindən üstün tutur, bunun əksi olaraq individualistlər isə fərdlərin xüsusi hüquq və mənafeyinə təkid edirlər. İnfidualistlərin fikrincə fərdlərin xüsusi mənafeyini qorumaq cəmiyyətin ümumi mənafeyinin qorunmasına müncər olacaq. Kollektivistlər isə bu fikirlə razılaşmır və onu rədd edirlər. Onlar bildirirlər ki, cəmiyyət və dövlət birlikdə insanların nümayəndəsi olaraq onların ümumi hüquqlarını fərdlərin təcavüzündən qoruya bilərlər. Bu səbəbdən onlar iqtisadi və ictimai sahələrdə dövlətin hərtərəfli siyasi nəzarət etməsinin tərəfdarı olur və bildirirlər ki, dövlət xüsusi təbəqənin və fərdlərin öz şəxsi imkanlarından sui-istifadə etmələrinin qarşısını almalıdır. Hətta onlar bəzən iqtisadi layihələrin dövlət tərəfindən verilməsini tələb edirlər. Bir sözlə, kollektivistlər insanların ümumi mənafeyinin qorunması üçün iqtisadi və ictimai sahələrdə dövlətin qəti nəzarətini zəruri hesab edirlər. Bunun əksi olaraq individualistlər fərdin

xoşbəxtliyini ictimai həyatın qayəsi kimi hesab edir və deyirlər ki, fərdlərin varlanması cəmiyyətin varlanmasına müncər olacaqdır. Deməli, dövlətin ictimai məsələlərdə nəzarət və müdaxiləsi xeyli məhdudlaşmalıdır. Yəni dövlət, yalnız fərdlərin iş azadlığının təhlükəyə düşdüyü təqdirdə müdaxilə etmək hüququna malikdir. İndividualistlərin fikrincə, fərdin nəfspərəstliyi və onun ictimai vəsilələrdən boyun qaçırması bəyənilməz olsa da onun bir sıra şəxsi hüquq və azadlıqları, o cümlədən mülkiyyət hüququ dövlət tərəfindən təcavüzə məruz qalmamalıdır.

Məlum olur ki, bu mənada cəmiyyətin yoxsa fərdin obyektivliyindən danışmaq və sözügedən iki nəzəriyyə haqda fikir söyləmək fəlsəfə və sosiologiya sahələrinə deyil, hüquq məsələlərinə aiddir. Çünki sosiologiyada dəyərlərdən deyil, həqiqətlərdən danışılır, bu elmdə ideal ictimai sistem təsvir edilmir. Təkcə ictimai həyatın həqiqətlərinə hakim kəsilən təbii qanunlardan söhbət açılır. Deməli, cəmiyyətin, yoxsa fərdin hüquqlarının əsas götürülməsi sosiologiyada müzakirə obyekti deyildir. Bu səbəbdən, həm cəmiyyətin mənafeyini fərdi hüquqlardan üstün tutan kommunistlər və marksistlər, həm də fərdi hüquqları əsas götürən anarxistlər, liberallar və kapitalistlər hüquq sahəsinə varid olmuşlar.

Burada digər bir məsələyə diqqət yetirmək lazımdır. Cəmiyyət fərdlərin şəxsiyyətlərindən müstəqil olaraq obyektiv şəxsiyyətə malik olmadığından onun heç bir hüququ da yoxdur. Deməli, fərdin hüquqları cəmiyyətin hüquqları ilə toqquşa bilməz. Burada təsəvvür olunan təzadlar fərdlərin hüquqları və bir dəstə insanın hüquq və mənafeyi arasındakı ziddiyyətlərdir.

Nəticə alırıq ki, hüquq müstəvisində cəmiyyətin obyektivliyi cəmiyyətdaxili insanların əksəriyyətinin hüququnun azlığın hüququndan üstün tutulmasıdır və burada fərdin obyektivliyi dedikdə isə hər bir fərdin hüquq və azadlıqlarının üstün tutulmasıdır. (Şübhəsiz, heç bir hüquqi və iqtisadi sistem tamamilə individualist deyil. Əlbəttə, nəzəri baxımdan onlar bu iddia ilə çıxış etsələr də, praktikada bu, tam həyata keçə bilmir. Bu məsələ kollektivist hüquqi və iqtisadi sistemlərdə də cərəyan edir.)

Hərçənd burada İslamın nəzərini təfsilatı ilə bəyan etmək istəmirik (çünki bu, hüquqi bəhslərdə həyata keçməlidir), lakin bildirməliyik ki, bu müqəddəs din nə ifrata nə də təfritə varır. İslam dini bir tərəfdən dövlətin ictimai və iqtisadi həyatdakı rolunu məhdudlaşdırmır, digər tərəfdən fərdi fəaliyyətlərin qarşısını almır və cəmiyyətin hüquqlarını müdafiə etmək adı ilə bütün fərdi azadlıqlara qarşı çıxmır. İslam dövlətin nəzarətini tamamilə

rədd etmədiyi halda, fərdi azadlıqların da qorunmasını tələb edir. Beləliklə həm fərdlərin tam azadlığını, həm də dövlətin mütləq və birmənalı malikiyyətini məhkum edir.

2. Obyektivliyin ictimai-psixoloji mənası: Bəzən cəmiyyətin obyektivliyi dedikdə, hər bir insanın ictimai həyatda cəmiyyətin hərtərəfli təsirinə məruz qalması nəzərdə tutulur. Yəni cəmiyyətdə cərəyan edən qanunlar insan həyatının bütün aspektlərinə təsir bağışlayır. İnsanın yaşadığı cəmiyyət müəyyən ictimai rəftarlara, elm və maariflərə malikdir. Sosioloqlar insanın ictimai həyatında təsiredici qüvvə kimi çıxış edən amilləri iki kateqoriyada cəmləşdirmişlər: İctimai əlaqələr və ortaq inanclar.

Digər bir tərəfdən, hər bir cəmiyyətdə insanların bəzisi arasında şiddətli cazibə mövcuddur. Misal üçün, müəyyən bir ailə üzvləri arasında bunu müşahidə etmək olar. Bir sıra insanlara çox hörmət olunur. Digərləri isə hətta təhqir edilirlər. Bəzi insanlar arasında həmkarlıq hissi, digərlərində isə rəqabət hissi mövcuddur. Bəzi şəxslər arasında insanlar bərabər səviyyəyə malikdirlər. Digərləri arasında isə belə deyil.

Müəyyən bir cəmiyyətdə ictimai fərqlənmə çox olmadığı halda digər bir cəmiyyətdə həmin fərqlər o qədər çox ola bilər ki, müxtəlif ictimai kateqoriyaların rəftarlarını tamamilə bir-birindən ayırmaq asanlıqla mümkün olsun. Müəyyən bir cəmiyyətdə insanların həmkarlıq hissi yüksək, digərində isə zəif ola bilər. Fərdin ailəvi vəziyyəti, onun şəhərdə və yaxud kənddə yaşaması, onun müəyyən bir dinə və yaxud məzhəbə bağlı olması və bu kimi yüzlərlə amil ictimai əlaqələr kateqoriyasına aiddir. Digər bir tərəfdən, hər bir cəmiyyətdə bir sıra dəyərlər və qanunlar mövcuddur ki, həm əyri və düz rəftarları tərif edir, həm də həyatın ən müqəddəs və ülvi məqsədlərini müəyyənləşdirir. Bu dəyərlər və qanunlar hər bir cəmiyyətdə bir nəsildən digər nəsilə ötürülən mədəniyyət qanunlarıdır. Onlar insanın həyata gəlməsindən öncə mövcuddurlar. İnsan həyata gəldikdən sonra isə onun daxili aləmini müəyyən bir formaya salırlar. Bu mədəniyyət qanunları ortaq inanclar sahəsindən hesab olunurlar. Bir sözlə, cəmiyyət iki qüdrətli qüvvədən istifadə etməklə, yəni ictimai əlaqələrdən və ortaq inanclardan bəhrələnməklə hər bir insanı tərbiyə edir və ona müəyyən bir şəxsiyyət bağışlayır.

İctimai mühitin hər bir insanın şəxsiyyətinin formalaşmasında dərin təsir və nüfuza malik olması danılmazdır. Şübhəsiz, bir çox hallarda fərdin iradəsi cəmiyyətin iradəsinə tabe və məhkumdur. Yəni fərd ictimai adət və

ənənələrə zidd olan bir işi həyata keçirə bilmir. Misal üçün, isti bir yay günündə hər bir şəxs ən yüngül və nazik paltar geymək istəyir. Lakin öz mənzilindən insanlar arasına çıxdıqdan sonra onu həyata keçirə bilmir. O, ictimai meyarlara uyğun paltar geyir ki, özünün ictimai mövqeyini itirməsin. Həmçinin əgər bir şəxs müəyyən bir işi gördüyü təqdirdə başqaları tərəfindən təşviq olunduğunu güman edərsə həmin işi həyata keçirməyə çalışır. Belə olmayan halda isə bu işi görməyə cəhd etmir. Həmçinin danılmaz faktdır ki, bir çox hallarda fərd özünün fikirlərini şəxsi təfəkkür, təcrübə, müşahidə və hissiyyatla deyil, cəmiyyətin baxışları ilə formalaşdırır. Hətta bizim hər birimizin fizika, kimya, biologiya və bu kimi təcrübi elmlər sahəsində əldə etdiyimiz məlumatlar həmin elmlərdəki tədqiqatçı cəmiyyətinin qəbul etdiyindən başqa bir şey deyil. Şübhəsiz, hər bir şəxsin hüquq, əxlaq və estetika zəminində qəbul etdikləri də bir çox hallarda cəmiyyətdən əxz olunmuşdur.Bir sözlə, çox az hallarda insan suyun əks istiqamətində hərəkət edir və cəmiyyətdə hakim kəsilən ictimai rəyi sındırır. Bu səbəbdən deyə bilərik ki, cəmiyyət obyektiv reallıq, fərd isə ona tabedir. Lakin burada üç əsas məsələni diqqət mərkəzinə almalıyıq:

Birinci: Cəmiyyət fərdin şəxsiyyətinin formalaşmasında yeganə amil deyil. Burada varislik kimi digər amilləri də nəzərdən qaçırmamalıyıq.

İkinci: İnsan şəxsiyyətinin formalaşmasına təsir edən müxtəlif amillərin olması insanın ixtiyarını və onun azad iradəsinin yüksək təsirini inkar etmir. İnsan sözü gedən ictimai amillərin təsirinə məruz qaldığı halda tam məcbur deyil. O, müqavimət etməklə öz seçdiyi yolu gedə bilər. Deməli, burada tam ictimai məcburiyyətdən söhbət gedə bilməz.

Üçüncü: Cəmiyyətin psixoloji obyektivliyi onun fəlsəfi obyektivliyinə əsas vermir. Bu səhvə bir çox sosioloqlar düçar olmuşlar. Misal üçün, Polşanın məşhur filosofu Buxinski cəmiyyətin fərdlər üzərində danılmaz təsirindən danışdıqdan sonra bunu cəmiyyətin obyektiv və real varlıq olmasının sübutu kimi qiymətləndirir və deyir: «Bu səbəbdən heç bir şübhə yoxdur ki, cəmiyyət mütəfəkkir, yəni filosof bir insanın nəzərində daimi olaraq çox obyektiv bir qüvvədir. O «vardır» kainatda digər obyektiv və real həqiqətlər kimi. Bəlkə də cəmiyyət qüvvəsi bu dünyada hər bir ünsürün qüvvəsindən mənim üçün daha güclü və daha obyektivdir». Bu fikrin əsassız olmasını cəmiyyətin fəlsəfə baxımından obyektivliyini izah etdikdən sonra bildirəcəyik.

3. Fəlsəfə baxımından obyektivlik: Fəlsəfə məfhumları müstəvisində fərdin, yoxsa cəmiyyətin obyektivliyi dedikdə, fərdin və yaxud cəmiyyətin real və həqiqi varlığa malik olması, yoxsa onların hər ikisinin həqiqi və real həqiqətə malik olması nəzərdə tutulur. İndi biz burada həmin mühüm məsələni araşdırmaq istəyirik. Lakin ilk öncə bir neçə məqama diqqət yetirmək lazımdır:

Birinci: İctimai filosoflar və sosioloqlar həmin məsələni araşdırarkən vəhdət, ittihad, tərkib, obyektiv reallıq, maddə, surət və bu kimi fəlsəfi terminlərdən deyil, özünəməxsus lüğət və məfhumlardan istifadə etmişlər. Bu isə öz növbəsində məsələnin aydınlaşmasına mane və bir çox yanlış fikirlərin yaranmasına səbəb olmuşdur. Biz burada lazım olan yerdə onların nəzər və fikirlərini fəlsəfi dilə tərcümə etmişik ki, səhv yanaşmaların qarşısı alınsın.

İkinci: Biz filosof və sosioloqları müəyyən kateqoriyalara bölmüşük, lakin bu o demək deyil ki, müəyyən bir kateqoriyaya aid olan mütəfəkkirlərin hamısının fikirləri eynidir. Bu, yalnız onu bildirir ki, onların fikirləri arasında müəyyən müştərək və ortaq məqamlar mövcuddur.

Üçüncü: Əziz oxucularımızın bəzisi müəyyən bir mütəfəkkirin görüşlərini buradakından fərqli görə bilər. Bilmək lazımdır ki, bu, həmin mütəfəkkir və filosofun görüşlərindəki paradoksal məqamların göstəricisidir.

# 5. Kollektivizm və individualizm

Öncə dediyimiz kimi, ictimai elmlərdə müzakirə olunan ən mühüm məsələ cəmiyyətin, yoxsa fərdin obyektiv reallığa malik olması məsələsidir. Bu problemin həllinə çalışan tədqiqatçıları iki qismə bölmək olar: kollektivistlər-cəmiyyəti real və obyektiv həqiqət kimi qəbul edənlər və individualistlər-fərdi əsas götürərək onu obyektiv reallıq kimi qiymətləndirənlər.

**1. Kollektivistlər**

Onlar ictimai hadisələrin ictimai aspektlərinə təkid edirlər və cəmiyyəti onu təşkil edən fərdlərdən fərqləndirərək özünəməxsus təsir və xüsusiyyətlərə malik olan obyektiv real həqiqət kimi hesab edirlər. Başqa sözlə, onlar fərd və cəmiyyət əlaqələrində ikinci amilə təkid və cəmiyyəti insan həyatı ilə müqayisə edirlər. Hər bir insan onu təşkil edən bədən üzvlərinin məcmusudur. Üzvlərin hər biri təklikdə həyata malik deyildirlər. Lakin onlar bir araya toplandıqdan sonra insan adlı yeni bir varlıq yaranır. Cəmiyyət də belədir. Yəni cəmiyyət onu təşkil edən fərdlərin məcmusudur. Lakin fərdlərin hər biri öz-özlüyündə cəmiyyət realığını təşkil edə bilməz. Onlar bir araya gəlib toplaşdıqdan sonra «cəmiyyət» adlı yeni ruha malik olan bir reallıq yaranır.

Cəmiyyət ontologiyasının tərəfdarları adlanan bu mütəfəkkirlərin hamısı tanınmış alman filosofu Hegelin varisləridirlər. Hegelin fikrincə, yalnız mütləq ideya və ya ruh real həqiqətə malikdir. Real aləmdəki obyektlərin hər biri digər obyektlərlə, həmçinin mütləq ideya ilə elə bir sıx əlaqədədir ki, həmin obyektlərin hər birinə tərif vermək onları mütləq ruha nisbət vermədən mümkün olmur. Həmçinin, obyektlərin bir-biri ilə sıx əlaqədə olduğundan müəyyən bir obyekti tərif etmək eyni halda digər obyektlərin də mütləq ruhla hansı nisbətdə olmasını müəyyənləşdirir, deməli, yalnız mütləq ideyanı düzgün tərif etmək olar. Həmin obyektlərin hər biri mütləq

ideyadan ayrılarkən öz mahiyyətini itirir. Başqa sözlə, yalnız bir kateqoriya və bir reallıqdan danışmaq olar və bu da obyektlərin mütləq ruhla əlaqələridir. Bu səbəbdən insan fərdləri kimi substansiyaların mahiyyəti təkcə onların mütləq ruhla əlaqəsindən sonra müəyyənləşir. Substansiyaların varlığı, yalnız və yalnız mütləq ruha mənsub olduqları üçün formalaşır. Başqa sözlə, substansiyalar mütləq ruhla əlaqələrin məcmusudurlar. Belə olan halda cəmiyyət mütləq ruh hesab olunmalıdır. Hər bir insan öz reallığını ictimai əlaqələrin sayəsində tapdığı üçün onun reallığı cəmiyyətin reallığından daha azdır. Qısası, Hegel və onun tərəfdarlarının fikrincə, yalnız mütləq ideya real və substansional həqiqətə malikdir. Hər bir insan isə cəmiyyətin təkcə bir anlıq dialektikasını təşkil edir. Cəmiyyət substansional reallıqdır. Fərdlər isə yalnız cəmiyyətin sayəsində və cəmiyyətin daxilində öz mahiyyətini tapır.

Cəmiyyət ontologiyası fikrinin bəzi daşıyıcıları belə hesab edirlər ki, fərd ictimai həyata daxil olmazdan öncə hələ onun insanlıq şəxsiyyəti formalaşmamışdır. İctimailəşəndən sonra onun insanlıq istedadı tədricən çiçəklənir və aşkar olur. Onlardan biri alman filosofu Otto Şpan deyir: «İnsan cəmiyyətə daxil olmazdan öncə real varlıq deyildir, o, yalnız cəmiyyətdə özünün insan fərdiyyətini və etik mahiyyətini kamilləşdirə bilər.»

Hər halda, son iki əsrdə qərbin, xüsusilə Almaniyanın bir çox ictimai filosof və tədqiqatçıları belə bir görüşlərlə çıxış etmişlər. Misal üçün, burada 1859-cu ildə iki alman mütəfəkkiri, yəni Lazaros və Ştayn Hal tərəfindən təsis edilmiş «xalqların psixologiyası» məktəbini qeyd edə bilərik. Onlar «millət» məfhumunda universal və mütləq ruh adlanan bir reallıq görürdülər ki, fərdi ruhlar onun məhsulu hesab olunurlar. Həmçinin bu haqda alman sosioloq, filosof və politoloqu Şpenqlerin görüşlərini xatırlatmaq olar. O deyirdi ki, hər bir mədəniyyətin özünəməxsus xüsusiyyəti və dünyagörüşü vardır və hər bir mədəniyyətin həyata, incəsənətə, elmə və məzhəbə baxışlarında öz fəlsəfəsi vardır. Belə ki, iki müxtəlif mədəniyyətlər arasında anlaşmanın bərqərar olması mümkün deyildir.

Qədim sosioloqlardan bir çoxu da belə bir əqidə ilə çıxış etmişlər. Fransız politoloq və ictimai filosof Sen-Simun belələrindən biridir. O, cəmiyyəti elə bir qüvvə hesab edirdi ki, onun vəzifəsi nəinki fərdlər üzərində, hətta təbiətə belə qalib gəlməkdir.

Fransız ictimai mütəfəkkiri Prodon da hesab edirdi ki, cəmiyyət müəyyən fəaliyyət və huşa malik, həmçinin, yalnız müşahidə yolu ilə kəşf oluna bilən qanunlara tabe olan bir diri varlıqdır.

Fransız mütəfəkkir və sosioloqu Ögüst Kont da cəmiyyəti fərdlərdən asılı olmayan müstəqil bir reallıq kimi təsəvvür edirdi. O, ictimai hadisənin dəyişməz xüsusiyyətini vurğulayır və onu cəmiyyət məfhumu ilə əlaqələndirirdi. Kont həmçinin təbii qanunların ictimai hadisələrə tətbiqini rədd edir və sosiologiyanın özünəməxsus qanunlarını sadalayaraq onu təbii elmlərdən fərqləndirirdi.

Burada cəmiyyət ontologiyası ideyasının bütün tərəfdarlarının görüşlərini sadalamaq fikrində deyilik. Əhəmiyyətli məsələ odur ki, həmin müxtəlif görüşlərdəki müştərək və ortaq məxrəci önə çəkək ki, bu da cəmiyyəti obyektiv və real tərkib və vəhdətdə görməkdir. Kollektivistlərin bir sıra ixtilaflı məsələləri də vardır. O cümlədən: cəmiyyətdən kənarda insan şəxsiyyəti təsəvvür etmək olarmı, yoxsa insan, yalnız cəmiyyətə daxil olandan sonra fərdiyyət və insan mahiyyəti qazanır? Yaxud bəşər övladı ictimai həyata daxil olmazdan öncə müəyyən bir təsəvvürə, məfhuma, fikrə və fitri meyllərə malikdirmi? Başqa sözlə insan ictimailəşməzdən öncə ağ kağızamı bənzəyir yoxsa onda bəzi yazılar da mövcuddur? Habelə, cəmiyyətdəki fərdlər aktiv və fəal mövqedə ola bilərlərmi, yoxsa cəmiyyət onları tamamilə öz təsiri altında saxlayır? Kollektivistlər bu məsələlərə və onlarla digər problemlərə eyni cavab verməmişlər. Lakin onların bir ortaq məxrəci vardır ki, bu da cəmiyyətin real və obyektiv varlığa malik olmasıdır.

Əgər cəmiyyət obyektiv real bir mürəkkəbdirsə, deməli o cansız əşyalardan, bitkilərdən, heyvanlardan və insanlardan fərqlənərək özünəməxsus təsirə malik olacaqdır. Bu vaxt cəmiyyətə xüsusi qanunlar hakim olacaq və cəmiyyət müstəqil olaraq tədqiq obyektinə çevriləcəkdir. Bu səbəbdən kollektivistlər fərdi araşdıran elm kimi psixologiyanı və cəmiyyəti araşdıran elm kimi sosiologiyanı qəti surətdə bir-birindən fərqləndirir və bildirirlər ki, ictimai hadisələrin heç birini insanların fərdi rəftarını təhlil etməklə izah etmək, müəyyənləşdirmək və aydınlaşdırmaq olmaz. Kollektivistləri bu barədə üç qismə bölmək olar:

Birinci: Bütövlükdə sırf fərdi və psixoloji xarakterə malik olan hadisələrin reallığını inkar edənlər. Bunların fikrincə, ictimai olmayan insan ya real deyil, ya da insan şəxsiyyətinə malik deyildir. Cəmiyyətdən kənarda

insan fərdlərini təsəvvür etmək yanlışdır. Biz varlıq aləminə gələn kimi ictimailəşirik. Hər bir insan tarixin bir mərhələsində, müəyyən bir cəmiyyətdə doğulur və həyatının ilkin günlərindən onun şəxsiyyəti həmin cəmiyyətin vasitəsilə formalaşır. Onun danışdığı dil fərdi irs deyil – yaşadığı cəmiyyətin tarix boyu ictimai nailiyyətidir. İctimai mühit onun fikir tərzinin formalaşmasında tam təsirə malikdir. Onun bütün ibtidai fikirləri və düşüncələri başqalarından ona keçir. Deməli, cəmiyyətsiz fərd dilsiz və fikirsizdir. Dilsiz və fikirsiz fərd isə insan şəxsiyyətinə malik deyildir. Qısası, heç bir rəftarı sırf fərdi adlandırmaq olmaz. Çünki burada cəmiyyətin rolu danılmazdır. Belə görünür ki, insanın tam fərdi azadlıqla həyata keçirə biləcəyi yeganə iş intihardır. Bundan başqa bütün işlər fərdin cəmiyyətdə üzv olmasıyla əlaqədardır. Lakin Fransanın çox tanınmış filosof və sosioloqu Emil Durdkeymin özünün intihar əsərində göstərdiyi kimi, intihar da ictimai vəziyyətdən tam müstəqil deyildir. Bu əsasla psixologiya, obyektiv və həqiqi elm deyildir. Çünki insanın hissləri, həyəcanları, emosiyaları, meylləri, təsəvvürləri, fikirləri, xatirələri, elmi görüşləri, adət-ənənələri və iradəsinin heç biri tam fərdi deyil, onun ictimai həyatından təsirlənmişdir. Nəticədə bütün bunların hamısı sosiologiyada mütaliə olunmalıdır. Ögüst Kont psixologiyanı predmetsiz elm adlandıraraq elmlərin sırasından çıxarmışdır. O, elmləri müxtəlif kateqoriyalara ayırır. Burada riyaziyyat bütün elmlərdə istifadə olunduğu üçün ön sırada gedir, sonra isə astronomiya, fizika, kimya, biologiya və sosiologiya yerləşir. Kont bu təsnifatda psixologiya üçün yer ayırmadı. Çünki o, psixologiya ilə müxalif idi. Onun ən əsas məqsədi cəmiyyəti universal bir varlıq kimi araşdırmaq idi.

İkinci kateqoriyaya aid olan kollektivistlər sosiologiyanı psixologiyadan tam müstəqil bir elm kimi hesab etsələr də, psixologiyanı da qəbul edirlər. Onların fikrincə, bütün psixoloji hadisələr ictimai zəmində meydana gəlsə də bu, insanlardakı fitri hisslərin inkarına səbəb olmamalıdır. Hər bir insanın fitri və zati maraqları vardır. Hərçənd elə bunlar bir çox hallarda cəmiyyətin təzyiqi nəticəsində dəyişkənliyə məruz qalır və hər bir cəmiyyətdə müəyyən bir formada təzahür edirlər. Deməli, psixologiya predmetsiz elm deyildir. Burada insanın daxili və fitri maraqları təhqiq olunur. Nəhayətdə cəmiyyət fərdi rəftarların formalaşmasında mühüm təsirə malik olduğundan, ilk öncə cəmiyyətin və ictimai hadisələrin xüsusiyyətlərini öyrənməli, sonra nəfsani və insanın daxili aləmindəki

hadisələrin təhqiqinə nail olmalıyıq. Nəticədə məntiq baxımından sosiologiya psixologiyadan üstündür. Yəni fərdin tanınması cəmiyyətin tanınmasından sonra müyəssər olur.

Avstriyanın tanınmış psixiatr və psixoloqu Freydin tərəfdarlarından bir çoxu bu fikrin daşıyıcılarıdırlar. Burada xüsusilə Amerikanın müasir ictimai psixoloqu Karen Hurnay və almaniyalı ictimai psixoloq Earik Frommun səylərini xatırlamalıyıq. Earik Fromm deyir: İnsanda aclıq, susuzluq, cinsi instinktlər və bu kimi bəzi ehtiyaclar müştərək olsa da eşq, nifrət, qüdrətə meyl, hissi ləzzətlər və insanın rəftarlarını digərlərindən fərqləndirən sair amillərin hamısı ictimai hadisələrin məhsuludurlar. İnsanın ən gözəl və ən pis meyllərinin heç biri dəyişməz və bioloji təbiətin bir hissəsi deyil. Bütün bunlar insanı yaradan və formalaşdıran cəmiyyətin nəticəsidir. Başqa sözlə, cəmiyyətin bir vəzifəsi də yaratmaqdır. İnsanın iztirabları onun şəxsi xüsusiyyətləri və bütün bunlar cəmiyyətdəki mədəniyyətin nəticəsidir və insan bəşəriyyətin daimi səyləri nəticəsində meydana gələn ən mühüm yaranmışlardan biridir. Biz bu dastanın adını «tarix» qoymuşuq.

Üçüncü kateqoriyaya aid olan kollektivistlər hətta sosiologiyanın psixologiyadan üstün olmasına da təkid etmirlər. Onlar təkcə bu iki elm sahəsinin bir-birindən müstəqil olmasını bildirirlər. Misal üçün, ingilis insanşünası Radklif Braun deyir: Sosiologiya və psixologiya iki müxtəlif sistemdir. Onlardan biri ictimai məsələləri, digəri isə psixoloji dünyanı mütaliə və təhqiq edir. Deməli, bu iki elm müstəvisinin bir-birinə inteqrasiyası mümkün deyildir.

## 2. İndividualistlər

İndividualistlər ictimai hadisələrin fərdi aspektlərini əsas götürür və deyirlər: Cəmiyyətdə hadisələri düşünənlər və həyata keçirənlər fərdlərdir. Cəmiyyət isə öz-özlüyündə heç bir reallığı əks etdirmir və onu təşkil edən fərdlərdən və onların arasındakı əlaqə və münasibətlərdən başqa bir şey deyildir. Başqa sözlə, individualistlərin fikrincə «ailə» ata, ana və övladlardan başqa bir şey olmadığı kimi, «millət» də onu yaradan fərdlərdən savayı bir şey deyildir. Burada, yalnız fərdlər mövcuddur ki, onların məcmusu «cəmiyyət» adlanır. Şübhəsiz, bir cəmiyyətin üzvləri bir-birindən xəbərdar, bir-biri ilə əlaqəli və bir-birinə qarşı təsiretmə və təsirlənmə nisbətinə malikdirlər. Lakin əhəmiyyətlisi odur ki, müəyyən bir

cəmiyyətin fərdlərinin tərkibi və onların arasındakı təsiretmə və təsirlənmə qüvvəsi nisbətinin olması həmin tərkibin obyektiv olmasına əsas vermir ki, biz cəmiyyəti obyektiv vahid adlandıraq. Bu səbəbdən, kollektivistlərin cəmiyyətin fərdə təzyiqi barədəki müddəaları cəmiyyətin digər fərdlərinin müəyyən bir fərd üzərində olan təsirinin nəticəsindən başqa bir şey deyildir. Cisimdəki elektronlar, protonlar və neytronlar kimi ilkin hüceyrələr də atomdaxili təsiretmə və təsirlənmə nisbətinə malikdirlər və bir-birini cəzb və yaxud dəf edirlər. Lakin bu, atomun hüceyrələrdən və onların arasındakı qarşılıqlı münasibətlərdən savayı başqa bir varlıq olmasına əsas vermir. Habelə, fərdin cəmiyyət qarşısındakı hüquq və təklifləri həmin fərdin cəmiyyətin digər fərdləri qarşısında hüquq və təkliflərindən savayı bir şey deyildir. Misal üçün, bir şəxsin yaşadığı ölkə qarşısındakı vəzifəsi onun ölkə prezidenti qarşısında, hökumət məmurları qarşısında və digər vətəndaşlar qarşısındakı vəzifəsindən başqa bir şey deyildir.

Nəhayyət individualistlər insanlar arasında həyata keçən münasibətləri qeyri-obyektiv adlandırmırlar. Lakin onları təkcə fərdlərin özünə aid edir və onlara nisbət verirlər. İndividualistlərin görüşlərində fərdlərin və onların arasındakı nisbətlərin və əlaqələrin məcmusu olan «cəmiyyət» obyektiv və həqiqi mürəkkəb adlanmır. Bu səbəbdən onlar cəmiyyəti özünəməxsus xüsusiyyətlərə malik bilmir və bütün ictimai hadisələri psixoloji aspektdə aydınlaşdırmağa çalışırlar.

Qərbdə tanınmış ingilis iqtisadçısı və filosofu Con Stuart Mill individualizmin ən böyük carçısı adlanır. O deyirdi: «İnsanlar bir araya toplaşdıqdan sonra yeni bir maddə və ya varlıq yaratmırlar. Yəni burada cəmiyyət adlanan yeni təsirli bir obyekt meydana gəlmir. O «Məntiq sistemi» əsərində yazır: «Cəmiyyətdə yaşayan insanların xüsusiyyətləri, yalnız fərdlərdə mövcud olan təbiət qanunlarından qaynaqlanır. Con Stuart Mill çalışırdı ki, insan təbiətində hakim olan qanunları əldə etsin. O bu qanunları araşdıran elmi «etologiya» adlandırırdı. Elmlərin təsnifatında psixologiyanı elm sahəsinə aid etməyən Kontun əksi olaraq Mill təcrübi psixologiyanı ictimai və humanitar elmlərin əsası adlandırırdı. O, ümumi elmlərdə alimlərin axtarış yolu ilə əldə etdikləri qanunları müqayisə yolu ilə insan zehnində hakim olan təbiət qanunlarından əldə etmək istəyirdi.

Burada həmçinin fransız sosioloqu və ictimai psixologiyanın banisi Qabriel Dütardın səylərini qeyd etmək lazımdır. O deyir: «Cəmiyyət fərdlərdən müstəqil və fərqli bir xüsusiyyətə malik deyildir. Cəmiyyətin

əsası fərdi xüsusiyyətlərə köklənmişdir. Burada fərdi xüsusiyyətlərdən başqalarına təqlid hissi xüsusi qeyd olunmalıdır. İnsanlar uşaqlıq dövründə böyüklərin rəftarlarını özlərinə nümunə götürür, cavanlıq dövründə isə tanınmış şəxslərin təsiri altına düşürlər. Nəticədə onlara təqlid edirlər. Beləliklə, insanların fərdi və ictimai rəftarlarının mənşəyini onların başqalarına olan təqlidində axtarmalıyıq.» Buna görə Dütard hesab edir ki, sosiologiya müstəqil bir elm ola bilməz. O, psixologiya elminə tabe olmalıdır. Başqa sözlə, o, sosiologiyanı psixologiyanın xüsusi bir növü adlandırır ki, burada insanların bir-biri ilə əlaqəsi nəticəsində yaranan insani hisslər və emosiyalar mütaliə olunur. O, psixologiyanın həmin xüsusi növünü ortaq psixologiya adlandırır. Xülasə Kontdan fərqli olaraq Dütard sosiologiya elminə əhəmiyyət vermir və bildirir ki, ictimai cərəyanların və dini meyllərin səbəblərini tapmaq üçün biz, yalnız insanlardakı təqlid məsələsini və onun qanunlarını düzgün başa düşməli və araşdırmalıyıq.

Burada digər bir alim Lakomb sosiologiyanı psixologiya ilə əlaqələndirir. O deyir: «Düzdür, tarix elmində həmişə müəyyən bir xüsusi hadisələr araşdırılır. Sosiologiyada isə ümumi forma alan sosial institutlar (müəssisələr) təhqiq olunur. Lakin bilmək lazımdır ki, həmin sosial institutlar ilkin mərhələlərdə xüsusi hadisələr olmuş, sonra ümumiləşmişdir. Başqa sözlə, ictimai institutlar xüsusi və fərdi hadisələr olmuş, müvəffəqiyyət qazandıqdan sonra isə universallaşmışdır. Onların müvəffəqiyyətinin əsas səbəbi isə bundadır ki, onlar insanların ictimai ehtiyacları ilə uzlaşmışlar. Deməli, sosial institutları araşdıran sosiologiya elmi həm tarixdən, həm də psixologiyadan kömək alır. Misal üçün, psixologiyada məlum olur ki, insanların ən zəruri ehtiyacı onların iqtisadiyyatı, yəni yemək, paltar və mənzillə bağlı ehtiyaclarıdır. İndi biz tarixi faktlardan istifadə etməklə bu fərziyyəni araşdırır, sonra sosiologiyada sübut edirik ki, iqtisadi məsələlər digər ictimai məsələlərdə mühüm təsir mexanizminə malikdir. Beləliklə, biz həmin sosioloji qanunun vasitəsilə digər ictimai hadisələri öncədən təhlil edə bilərik.

Tardın nəzəriyyəsi anqlosakson ölkələrdə, xüsusilə Amerika Birləşmiş Ştatlarında geniş nüfuz qazanmışdır. İngilis ictimai psixoloqu Mak Duqal və amerikalı sosioloq Henri Giddinkz kimi alimlər Tardın nəzəriyyələrini əsas götürərək sosiologiyanın predmetini cəmiyyətdəki fərdlərin və insanların rəftarlarını və ictimai əlaqələri hesab etmiş və beləliklə, sosiologiyanı bir növ psixologiyaya çevirmişlər.

Cəmiyyəti obyektiv reallıq hesab etməyən sosioloqlardan biri tanınmış alman tarixçisi, hüquqşünas və sosioloqu Maks Veberdir. O, cəmiyyət vicdanı fərziyyəsini sırf xəyal adlandırırdı. Veberin fikrincə, sosioloji baxımdan cəmiyyət real gerçəklik adlanmır. Burada, yalnız fərd yeganə gerçəklikdir. Müəyyən bir məqsədi seçmək, problemləri və maneələri öncədən təhlil etmək, məqsədi həyata keçirmək üçün qərara gəlmək, nəhayət müəyyən bir işi həyata keçirmək bütün bunlar hamısı fərdlərdən qaynaqlanır. Deməli, sosioloji aspektdə ictimai hadisələr, yalnız fərdlərin mənalı rəftarlarını araşdırdıqdan sonra aydınlaşa bilər. Hüquq elmində dövlət müstəqil və substansional, həmçinin etik və hüquqi şəxsiyyətə malik olan gerçəklik kimi təsəvvür olunsa da, bu, dövlətin obyektiv şəxsiyyət və gerçəkliyə malik olmasına əsas vermir. Çünki hüquq elmində ana bətnində olan uşaq da etik və hüquqi şəxsiyyətə malikdir. Bu, bioloqlar və sosioloqlar üçün əsas verə bilərmi ki, həmin uşağı şüurlu varlıq hesab etsinlər? Dövlət onu təşkil edən şəxslərdən və onların mənalı rəftarlarından savayı bir şey deyildir. Habelə, millət onu təşkil edən fərdlərdən, onların arasında cərəyan edən münasibətlərdən və onlardan baş verən rəftarlardan başqa bir şey deyildir. Ailə, dəstə, təbəqə, cəmiyyət və bu qəbildən olan digər məfhumlar da belədir. Maks Veber özünün banisi olduğu sosiologiyanı şüur sosiologiyası adlandırır və deyir: «Şüur sosiologiyasında fərd və onun rəftarı vahid gerçəklik kimi nəzərdə tutulur. Hətta mənə irad tutmasaydılar, deyərdim ki, onlar bir atoma bənzəyirlər. Fərd yüksək səviyyəni təşkil edir. Çünki o, mənalı rəftarın yeganə daşıyıcısıdır». Qısası, Maks Veberin sosiologiyası fərdi rəftarların tanınması və düşünülməsinə yönəlmişdir. Bu səbəbdən Veber ictimai hadisələrin sosioloji tərəflərini və cəhətlərini psixoloji aspektlərə tərəf yönəldir və psixoloji təhlillərlə ictimai hadisələri həll etmək istəyir.

Bura qədər kollektivistlərin və invidualistlərin əsas nümayəndələrinin görüşlərini nəzərdən keçirdik. Bəlkə də əziz oxucu bu fəsildə ingilis filosofu Herbert Spenserin adının çəkilməməyindən təəccüblənsin. Halbuki, o, fərdin yoxsa cəmiyyətin obyektivliyi probleminə çoxlu səs-küyə səbəb olan cavablar vermişdir. Spenserin bu barədə görüşləri iki müxtəlif və təzadlı, yəni iki müxtəlif və təzadlı təfsir aldığından, biz onun fikirlərinin izahını təxirə saldıq. Təfsirlərin birində o, kollektivizmin tərəfdarı, digərində isə invidualizmin tərəfdarı olur.

Spenser bildirirdi ki, cəmiyyət canlı bir bədənə bənzəyir. İnsan bədənində müşahidə olunan bütün üzvlər cəmiyyətdə də mövcuddur. Bu ictimai varlıq fərdi varlıq kimi bir neçə xüsusiyyətə malikdir: qidalanır, inkişaf edir, tədricən onun üzvlərinin əlaqələri çoxalır, cəmiyyətin həyatının davamı isə onu təşkil edən fərdlərin çoxluğundan və növlərin müxtəlifliyindən və rəngarəngliyindən asılıdır. Bir sözlə, cəmiyyətin strukturu və onun fərdlərinin funksiyası bədən və bədən üzvlərinin strukturu və funksiyası kimidir.

Spenserin bu fikri ən azı iki cür təfsir olunmuşdur:

Birinci təfsir: Spenser cəmiyyəti, yalnız canlı bir bədənə bənzətmişdir. Burada oxşar cəhət canlı bədəndir. Yəni Spenser hesab edir ki, canlı mövcudların bədəninin bütövlüyü əsas və obyektiv gerçəklik olduğu kimi, cəmiyyətdə də onu təşkil edən fərdlər deyil, cəmiyyət əsas obyektiv gerçəklik hesab olunmalıdır. Spenser bu bənzətmə ilə cəmiyyətin obyektivliyini və fərdlərin ikinci dərəcəli olmasını bildirməklə yanaşı, həmçinin cəmiyyətin onun üzvlərinə reduksiya olunmasının mümkünsüzlüyünü vurğulayır. Yəni cəmiyyət özünəməxsus təsirə malik olan bir gerçəklikdir və bu, onu təşkil edən fərdlərin təsirindən tam fərqlidir. Deməli, cəmiyyət universal və bütöv bir varlıq kimi təhqiq olunmalı və araşdırılmalıdır. Cəmiyyətdə ictimai kateqoriyalar, sosial institutlar, fərdlər və bu kimi üzvlər bədən üzvləri kimi bir-birinə tam bağlıdır və onların pərakəndə olması bədən üzvlərinin parçalanması kimi mümkünsüzdür. Hər bir insan ana bətnindən başlayaraq kamilləşməyə doğru getdiyi kimi, cəmiyyət də bütöv bir gerçəklik olaraq təkamül yolunu qət edir. Nəticədə Spenser cəmiyyətin bütövlüyünə və onun üzvlərinin daxili əlaqələrinə tam təkid edirdi.

Bir çox sosioloqlar, o cümlədən Corc Qurviç və Moris Duverje tərəfindən qəbul olunan bu təfsirə əsasən, Spenser tamam bir kollektivist sosioloq olmuşdur. Məhz buna görədir ki, Duverje kollektivist nəzəriyyələrdən danışarkən bildirir ki, orqanisizm (Spenserin əqidəsi) həmin kollektivist görüşlərin ilkin forması və ən idealıdır.

Bu təfsirə əsasən (ki, orqanisizm, yalnız bir bənzətmədir), Spenser cəmiyyəti gerçək olaraq canlı bir varlıq hesab etmir. Bu təfsir Spenserin öz yazılarında bir çox hallarda təsdiq olunur. O cümlədən, Spenser bildirir ki, cəmiyyət və canlı mövcudlar arasında dörd mühüm fərq mövcuddur:

1. Canlı varlıqların hər birinin xüsusi və müəyyən bədəni vardır. Cəmiyyət isə belə deyildir;
2. Canlı varlıqlar pərakəndə deyildir. Cəmiyyətdəki fərdlər isə öz yerdəyişmələrində azaddırlar;
3. Cəmiyyətin strukturu və onun üzvlərinin yeri sabit və daimi deyildir.
4. Canlı varlıqlarda şüur əsəb mərkəzinə bağlıdır. Halbuki, cəmiyyətdə şüurun müəyyən və xüsusi bir yeri yoxdur və pərakəndədir;

İkinci təfsir: Spenserin məqsədi burada təkcə bənzətmə deyil. O həqiqətən cəmiyyəti canlı bir bədən hesab edirdi. Bu o deməkdir ki, ictimai hadisələrin izahında biologiya terminlərindən və bioloji elmlərdə istifadə edilən elmi üsullardan yararlanmaq tamamilə doğru və problemin həllində təsirlidir. Başqa sözlə, cəmiyyəti təhqiq edən sosioloq və təhqiqatçı burada bioloji terminlərdən və üslublardan bəhrələnsə, öz işində həllolunmaz problemlə üzləşməyəcəkdir. Spenserin əqidəsinə görə, cəmiyyətdə yaşayan insanların əlaqələrinə və ictimai hadisələrə hakim olan qanunları kəşf etmək üçün bioloji üsullardan istifadə etməliyik. Belə olmayan halda sosiologiyanı bir elm adlandırmaq olmaz.

Bu təfsirin qəribə görünməməyi üçün elm tarixinə nəzər salmaq zəruridir. On yeddinci əsrdən sonra riyaziyyat və fizika parlaq şəkildə insanların təbiət aləmi haqda biliklərini artırdığından, bir çox alim və mütəfəkkirlər bu fikrə düşdülər ki, bu iki elm digər sahələrdə, o cümlədən bitkilər, heyvanlar və humanitar sahələrdə də bizi xeyli məlumatlandıra bilər. İtaliyalı Qaliley və ingiltərəli Nyuton kimi böyük fizik və riyaziyyatçılar tərəfindən həyata keçən bir çox nailiyyətlər buna səbəb oldu ki, bəzi alimlər cansız təbiəti təhqiq edən üsullarla canlıları araşdırmağa cəhd etsinlər. Bunlar guman edirdilər ki, bitkiləri, canlıları və insanları riyaziyyat və fizika terminləri ilə tanımaq olar. Onların iddiasına görə, hətta həyatın bütün aspektlərini, o cümlədən insan həyatını mexaniki qanunlarla təfsir etmək mümkündür. 18-ci əsrdə fransız filosof və həkim Lametri özünün «insan maşın» əsərində bu nəzəriyyəni önə çəkir və bildirir ki, insan şüuru atomların hərəkətinin məhsuludur. Elm tarixçilərindən biri deyir: Fizikada mexaniki məfhumların vasitəsilə varlığın bütün aspektlərinin təhlili müddəası yeni elmin geniş nailiyyətlərinin təsiri nəticəsində baş

vermişdir.» Hər halda, əsas məqsəd bu idi ki, kainatda hər bir şeyi tamamilə mexaniki dəyişkənlik səviyyəsinə endirsinlər. Bu isə «mexanizm» adlanırdı.

19-cu əsrdə elm biologiyada xüsusi nailiyyətlər əldə etdi, bu əsrdə ingilis təbiətşünası Darvin, Qaliley və Nyutonun 17-ci əsrdə olduğu kimi zirvədə idi. Bundan sonra mexaniki terminlərin yerini bioloji terminlər tutdu. Bu vaxt təbii qanunların elmi-fəlsəfi izahında canlıların bir-biri ilə əlaqəsi, yəni orqanizm termini əsas götürülürdü. Daha heç kim insanın ictimai və fərdi rəftarlarını kəşf etmək üçün riyaziyyata ehtiyac duymurdu. Çünki onlar dərk etmişdilər ki, riyaziyyat və fizika ilə nəinki insanlar aləminə, hətta bitkilər və canlılar dünyasına da daxil olmaq mümkün deyildir. Lakin burada yeni xəyallar meydana gəldi. Bu isə insanın psixoloji dünyasını bioloji terminlərlə izah etmək müddəası idi. Burada insanın xüsusiyyətləri, həyəcanları və hissləri bioloji üsullarla kəşf olunur və insanda iman, isar və bu kimi ülvi xüsusiyyətlərin aydınlaşması və izahında bioloji elmi üsullar faydalı və kafi hesab edilirdi.

Spenserin əqidəsinin bu təfsirinə əsasən, o, biologiyadakı elmi məfhumları və terminləri nəfsani və insani hisslərin mütaliə və təhqiqində tətbiq edirdi. Bir çox tədqiqatçılar bu təfsiri qəbul etmişlər. Misal üçün, Qurvic hesab edir ki, Spenser təbii və humanitar elmləri eyniləşdirməyə çalışırdı. Deməli, Spenser sosiologiyada bioloji görüşlərlə çıxış edən ilk mütəfəkkirdir. Təkamül qanunlarının və biologiyanın xüsusi təsirinə məruz qalmış Spenser həmin qanunların bütün sahələrə şamil edilməsinin tərəfdarı idi. Amerikalı xristian mütəkəllim-dinşünas və fizik Barbur deyir: «Spenserin fikrincə hadisələr aləmində təkamül, yalnız biologiya elminə aid bir nəzəriyyə deyildir. O, təkamülü elmin bütün sahələrini eyniləşdirmək üçün açar hesab edirdi. O, ulduzlardan tutmuş canlı mövcudlara qədər həyatın bütün gerçəkliyinə tətbiq oluna bilən yeganə prinsip və qanuna inanırdı.

Burada soruşula bilər ki, insana aid olan fərdi və ictimai hadisələr hansı şəraitdə biologiyadakı terminlər və elmı üsullar vasitəsilə aydınlaşa bilər? Başqa sözlə, biz biologiyadakı tədqiqat üsullarını humanitar elmlərə tətbiq edərkən nəyə əsaslanırıq? Bu sualın cavabında deyirik: Biz, yalnız insanın bədən üzvlərinin tərkibini obyektiv tərkib hesab etmədiyimiz halda bunu həyata keçirə bilərik. Çünki insanın bədən üzvlərinin tərkibini obyektiv tərkib adlandırsaq, bu vaxt onun özünəməxsus yeni təsirləri və əsərləri olacaqdır ki, bədən üzvlərinin hər birinin təkliyində bu müşahidə olunmur.

Belə bir halda, bədən üzvlərinin hər birinin təhqiqində yararlı olan bioloji elmi üsullar burada yararsız vəziyyətə düşür. Nə üçün mexaniki qanunlar biologiya elmi sahəsində öz funksiyasını itirdi? Çünki canlılarda mövcud olan qidalanma, inkişaf, nəsilartırma və bu kimi heyvani instinkt və xüsusiyyətlər fiziki aləmdə, yəni cansızlarda mövcud deyildir. Bu səbəbdən onları fiziki və mexaniki terminlərlə izah etmək mümkünsüzdür. Habelə, Spenserin təkamül ideyasını humanitar sahələrə şamil edərkən biz öncədən yəqin etməliyik ki, insanda baş verən hadisələr və onda olan xüsusiyyətlərin heç biri insana xas deyil, onlar heyvanlarda və bitkilərdə də təzahür edə bilər. Bu isə insan adlı özünəməxsus təsirə malik olan bir gerçəkliyi inkar etməsi ilə nəticələnir. Yəni biz insanı obyektiv və həqiqi mürəkkəb adlandırmırıq və hesab etmirik.

Bu əsasla belə deyə bilərik ki, biz, yalnız fərdlərin tərkibini qeyri-obyektiv hesab etdiyimiz halda ictimai hadisələri bioloji elmlərdəki terminlərin köməyi ilə təfsir edə bilərik. Çünki cəmiyyəti obyektiv mürəkkəb adlandırmaq cəmiyyətin hüdudlarından kənarda cəmiyyətə xas olan bir sıra xüsusiyyətlərin gerçəkliyinə etiraf etməkdir. Nəticədə belə bir xüsusiyyətə malik olan gerçəklik cansız maddəni araşdıran elmlərin vasitəsilə izah oluna bilməz.

Gördüyünüz kimi, Spenserin təkamül ideyasındakı ikinci təfsiri qəbul etsək, onu individualistlərin sırasına daxil etməliyik. Bu təfsirə əsasən, Spenser fərdlərdən təşkil olunmuş cəmiyyətin tərkibini həqiqi və obyektiv adlandırmır. Bu fikirlə razılaşsaq, ictimai hadisələrin hamısını psixoloji və yaxud bioloji hadisələrə reduksiya etməliyik. Spenser bu nəticəni rədd etmir. Lakin təəccüb doğuran budur ki, o, ictimai hadisələri psixoloji hadisələr kimi təfsir edir. Kontdan fərqli olaraq Spenser fərdi psixologiyanın tərəfdarıdır və onu ictimai psixologiyanın hüdudlarından müstəqil hesab edir. O adətən ictimai hadisələri izah etmək üçün psixoloji qanunlara əsaslanır. Misal üçün, o, siyasi qüdrətin mənşəyini dirilərdən qorxmaq, məzhəbin yaranma səbəbini isə ölülərdən qorxmaq bilir. Halbuki, Spenserin təkamül nəzəriyyəsinə əsasən-ikinci təfsirə görə − O, ictimai hadisələri bioloji hadisələrə reduksiya etməlidir. Göründüyü kimi, ictimai hadisələri psixoloji hadisələr kimi təfsir etmək Spenserin təkamül ideyasının nə birinci təfsiri ilə, nə də ikinci təfsiri ilə uyğunlaşır. Çünki birinci təfsirə görə ictimai hadisələr heç digər hadisələrə reduksiya oluna

bilməzlər. İkinci təfsirə görə isə ictimai hadisələr bioloji hadisələr kimi izah edilməlidir.

Bütün deyilənləri nəzərə alsaq görərik ki, Spenseri kollektivistlərin və yaxud individualistlərin sırasına daxil etməməyin əsas səbəbi onun sözlərindəki paradoksal məqamların olmasıdır. Çünki onun sözlərində həm kollektivizmin, həm də individualizmin kökləri mövcuddur.

Biz bu hissənin yeddinci və səkkizinci fəsillərində təkamül ideyasının birinci təfsirinə uyğun formasını (bu, kollektivizmin bir növüdür) rədd etmişik. Burada, yalnız onu bildiririk ki, insanın digər heyvanların heç birində müşahidə edilməyən çoxsaylı psixoloji xüsusiyyətləri təkamül ideyasının ikinci təfsirə uyğun olan növünü rədd etməyə kifayət edir. Biz burada təkid edirik ki, bütövlükdə ictimai proseslərin hamısı psixoloji hadisələrə reduksiya olunmalıdır. Bu proses müasir dövrdə psixologizm adlanır.

# 6. İki nakam sosioloji məktəb

İctimai elmlərin tarixçiləri bəzi sosioloji məktəbləri kollektivistləri və individualistləri bir-birinə yaxınlaşdırmaq istəyən məktəblər kimi qələmə vermişlər. Burada onlar Karl Marks və Emil Dürkheymin səylərini xüsusi vurğulayırlar. Lakin biz göstərəcəyik ki, bu iki sosioloq nəinki kollektivistlərin və individualistlərin ifrat və təfritlərinin qarşısını ala bilməmiş və onları mötədil yola yönəltməmişlər, hətta bir çox hallarda onların özləri səhv fikirlərlə çıxış etmişlər. Maraqlısı budur ki, kollektivistləri və individualistləri bir-birinə yaxınlaşdıran bu iki məktəb müasir dövrdə kollektivizmin ən qatı tərəfdarlarından hesab olunurdular. Hər halda, bu iki məktəbin də əsas iddialarını nəzərdən keçirmək faydasız olmazdı:

## 1. Marksın sosioloji görüşləri

Bu məktəbdə bildirilir ki, insan stabil mahiyyətə malik deyildir və onun işləri, fikirləri, rəftarları, hissləri, emosiyaları, ictimai və fərdi davranışları və bütün digər əsərlərin hamısı cəmiyyətin ictimai vəziyyətinin nəticəsi, xüsusilə cəmiyyətdə gedən iqtisadi proseslərin inikasıdır. Bir sözlə insan cəmiyyət və tarixin məhsuludur. Marks özünün «siyasi iqtisadiyyatın tənqidi» adlı əsərinin müqəddiməsində bir sıra sosioloji görüşlərini təqdim etmişdir: «Mənim gəldiyim nəticələrin xülasəsi bunlardır, belə ki, sonralar mən həmin bunlardan istifadə edəcəyəm. İnsanlar özlərinin ictimai gerçəkliyində müəyyən zəruri və iradədən müstəqil əlaqələr yaradırlar. Bütövlükdə ictimai, siyasi və ideoloji həyatın genişlənməsi maddi həyatın istehsal səpkindən asılıdır. İnsanların şüurları onların gerçəkliyini müəyyənləşdirmir. Əksinə onların ictimai gerçəkliyi şüurlarını formalaşdırır.» Bu əsasla, fərd ictimai bütövlüyün bir hissəsi, bəşər növünün bir üzvü sayılır. Fərd, yalnız özünü cəmiyyətlə uzlaşdırdığı zaman gerçəkliyinin kamal həddinə çatır. Burada marksizm məktəbi mütləq

personalizmə qarşı bir təzahürdür. Yəni insanı fərd kimi nəzərdə tutan fəlsəfədən fərqli olaraq Jan Jak Russonun dediyi kimi «marksizmdə hər şeydən öncə fərd məcmunun bir hissəsi kimi qiymətləndirilir.»

Digər tərəfdən marksizmdə hər bir insan fərdinin əsaslı əhəmiyyəti ən qiymətli sərmayə kimi heç bir zaman nəzərdən qaçırılmamışdır. Burada insan cəmiyyət və tarixin məhsulu olsa da, cəmiyyət və tarix də insanın məhsulu hesab olunur. Cəmiyyətin iqtisadi vəziyyəti hər bir fərdin mahiyyətini formalaşdırsa da, hər bir insan şüurlu şəkildə ona təsir bağışlaya bilər. Marks deyir: «Tarix heç bir iş görmür... Bütün işləri həyata keçirən obyektiv və canlı insandır.»

Diqqət edin, burada iki müddəa mövcuddur. Birinci: «Təkcə təbiətin deyil, hətta bəşər cəmiyyətinin təkamülü də obyektiv və insan iradəsində müstəqil qanunların vasitəsilə həyata keçir». İkinci: «cəmiyyətdə heç bir fövqəltəbii qüvvə yoxdur və insanların özləri öz tarixlərini yaradırlar.» Bu, paradoks deyilmi?

Bir çox tədqiqatçıların təkid etdiyi kimi, həqiqətdə marksizm məktəbi individualist deyil, daha çox kollektivistdir. Hətta bəzisinin fikrincə, marksizm o qədər kollektivizmə varır ki, fərdləri cəmiyyətin içində məhv edir.

## 2. Emil Dürkheymin sosioloji görüşləri

Dürkheym özünün məşhur kollektiv şüur nəzəriyyəsini irəli sürməklə kollektivistləri və individualistləri bir-birinə yaxınlaşdırmağa çalışdı. O Spenseri kollektivistlərin, Tardı isə individualistlərin əsas nümayəndəsi hesab edirdi. Lakin bu işdə Dürkheym nailiyyət qazanmadı. Çünki sonda o, kollektivist ideyalarda Spenseri geridə qoydu və bundan sonra kollektivizm və individualizm arasındakı ixtilaf «Dürkheym və Tard ixtilafı» adlandı. Dürkheym kollektiv şüur nəzəriyyəsini və ideyasını belə şərh edir: «Müəyyən bir cəmiyyətin üzvləri arasında müştərək olan əqidələr, hisslər və vərdişlər xüsusi sistemli həyat formalaşdırır. Bu məcmunu kollektiv və yaxud ortaq şüur və vicdan adlandırmaq olar. Şübhəsiz, kollektiv vicdan vahid bir bədəndə təzahür etmir. Çünki tərifdə göstərildiyi kimi, bu, cəmiyyətin bütün sahələrində cərəyan edir. Bununla belə, kollektiv şüur müəyyən bir obyektiv reallığın xüsusiyyətlərinə malikdir. Bu ortaq və müştərək vicdan fərdlərin xüsusi vəziyyətində və şəraitində müstəqildir.

Fərdlər qeyri stabildir. Kollektiv şüur isə stabil. Bu, şimalda və cənubda, böyük və kiçik şəhərlərdə, müxtəlif peşələrdə eynidir. Bir nəsildən digər nəslə ötürülərkən dəyişmir və müxtəlif nəsilləri bir-birinə əlaqələndirir. Bu əsasla, kollektiv vicdan fərdlərdə həyata keçsə də, onların xüsusi vicdanlarından fərqlidir. Psixoloji aspektdən isə onu cəmiyyətin psixoloji tipi adlandırmaq olar. O, xüsusi şəraitdə gerçəkləşir və müəyyən şəraitdə inkişaf edir. Lakin buradan belə nəticə çıxarılmamalıdır ki, insanın psixoloji həyatının bütün aspektləri kollektiv şüur pərdəsi altında yerləşir, çünki insanlarda iki vicdan mövcuddur. Onlardan biri insanların hər birini digərindən fərqləndirir, digəri isə bütün cəmiyyət arasında müştərəkdir. Birinci vicdan insanların fərdi şəxsiyyətinin əsasını təşkil edir. İkinci vicdan isə insanlardakı kollektiv tipin nümayəndəsidir. Nəticədə ikinci vicdanı təsəvvür etmədən cəmiyyət təsəvvür olunmur. Kollektiv vicdanın ünsürlərindən biri bizim rəftarlarımızın hüdudlarını müəyyənləşdirirsə, biz daha şəxsi mənafe əsasında deyil, kollektiv məqsədlər yolunda hərəkət edirik. Bilməliyik ki, bu iki vicdan bir-birindən fərqli olsalar da, onların hər biri digərinə bağlıdır. Çünki onların hər ikisinin məcmusundan bir vicdan yaranır. Və hər iki vicdanın obyekti birdir. Başqa sözlə, bu iki vicdan iki coğrafi məkan kimi bir-birindən ayrı deyil, bütün cəhətlərdə bir-biri ilə sıx əlaqədədirlər. Bununla belə, kollektiv vicdan özünəməxsus həyata malik olduğu üçün fərdi vicdanlardan müstəqildir və öz qanunlarına uyğun olaraq dəyişkənliyə məruz qalır. Sosiologiya kollektiv vicdan və şüurun həyat və dəyişkənlik qanunlarını, psixologiya isə fərdi vicdana hakim olan qanunları kəşf etməyə çalışır.

Dürkheymin fikrincə, kollektiv vicdanın fərdi vicdanlardan müstəqilliyi cəmiyyətin özünün mahiyyət baxımından fərdi gerçəkliklərdən fərqlənən bir reallıq olması deməkdir. Hər bir ictimai hadisənin səbəbi fərdi psixoloji hadisə deyil, başqa bir ictimai hadisədir. O özünün məşhur «sosiologiya metodu» kitabında deyir: «Amma belə deyəcəklər: Fərdlər cəmiyyəti yaradan yeganə ünsürlər olduğu üçün sosioloji hadisələrin mənşəyi də, yalnız psixoloji reaksiya və təzahürlərdir. Lakin bununla sübut etmək olmaz ki, canlılardakı prosesləri cansızlar aləmindəki hadisələrlə təhlil etmək olar. Çünki canlı hüceyrələrdə xam maddədən düzəlmiş molekullardan savayı bir şey yoxdur. Lakin həmin xam molekullar canlı hüceyrələrin daxilində bir-biri ilə tərkib olunmuşlar və bu tərkib həyatın göstəricisi olan yeni təzahürlərin səbəbidir. Bunu, yəni həmin həyat əlamətlərini bir-birindən

ayırıb ünsürlərin heç birində müşahidə etmək mümkün deyil. Bu o deməkdir ki, kollektiv təkcə fərdlərin məcmusu deyil. Kollektiv həm də fərdlərin məcmusundan əlavə olaraq yeni bir varlıq və gerçəklik olduğu üçün özünəməxsus xüsusiyyətlərə malikdir ki, fərdlərin hər birinin xüsusiyyətindən fərqlidir. Bu prinsip bizə göstərir ki, cəmiyyət təkcə fərdlərin məcmusu deyil, həm də fərdlərin tərkibindən təşkil olmuş yeni gerçəklikdir. Cəmiyyət özünəməxsus və unikal xislətlərə malikdir. Şübhəsiz, fərdi vicdan və şüurlar olmasa, kollektiv şüur yarana bilməz. Lakin bu şərt kifayət etmir. Fərdi vicdanlar bir-birinə qovuşmalı, bundan sonra isə ictimai həyat ərsəyə gəlməlidir. Fərdi psixikalar bir-biri ilə cəmləşəndən sonra yeni bir gerçəkliyin ərsəyə gəlməsinə səbəb olurlar. Bu yeni gerçəklik psixoloji reallıq da ola bilər. Lakin bu psixoloji şəxsiyyət yenidir. Bu səbəbdən həmin yeni yaranmış psixoloji şəxsiyyətin xüsusiyyətlərini və ondan baş verən hadisələri onu yaradan fərdlərin mahiyyətində deyil onun özünün mahiyyətində araşdırmalıyıq. Kollektivin düşüncə, his və davranışları onu təşkil edən fərdlərin və üzvlərin düşüncə, his və vərdişləri ilə fərqlidir. Bu səbəbdən, təkcə fərdlərin ayrı-ayrılıqda iş funksiyalarını nəzərə alsaq, bu, kollektivin iş funksiyalarından tam fərqli olacaq. Bir sözlə, sosiologiya və psixologiyanı əlaqələndirməyin yolu biologiya ilə fizika və kimya elmlərinin yolu kimidir. Deməli, ictimai prosesləri psixoloji hadisələr vasitəsilə təhlil və izah etmək tamamilə səhvdir. Hərçənd Dürkheym özünün «sosiologiya və fəlsəfə» kitabında deyir: «Kollektiv psixologiya eynilə sosiologiyadır.»

Dürkheym bununla kifayətlənmir. Yəni o, kollektivi təşkil edən fərdi ünsürlər vasitəsilə onun təhlil və izahının mümkünsüzlüyünü sübuta yetirdikdən sonra, həm də kollektivin fərdi ünsürlərdən üstün olmasını iddia edir. Başqa sözlə, o, sübut etməyə çalışır ki, biz fərdi reaksiyaları və vərdişləri ictimai vəziyyətlə ölçməli və aydınlaşdırmalıyıq. Bu fikri o adətən belə bir cümlə ilə bəyan edir: «Cəmiyyət fərdlərdən deyil, fərd cəmiyyətdən doğulur.» Dürkheym yenə də əlavə edir və deyir: «Yalnız mədəniyyət və sivilizasiyanı təcrübə edən insanlar insan şəxsiyyətinə malik ola bilərlər.» Onun fikrincə, insanın mədəniləşməsi, yalnız cəmiyyətdə həyata keçə bilər. İnsanı digər heyvanlardan fərqləndirən yeganə xüsusiyyət onun ictimai ünsür olmasıdır. Deməli, əgər insan cəmiyyətdə yaşamasaydı, digər heyvanlardan fərqlənməzdi. Belə ki, yalnız cəmiyyət vasitəsilə heyvan insanlıq rütbəsinə nail olur. Dürkheym «dini həyatın əsas formaları»

kitabında iddia edir ki, növ, zaman, məkan, səbəb, nəticə, materiya, ruh və bu kimi məntiq və fəlsəfə terminlərinin hamısının mənşəyi cəmiyyətdir. Həmçinin o əlavə edir: «Bütün bunların hamısının ictimai xüsusiyyətə malik olması onların fəlsəfə müstəvisində doğruluğuna zəmanət verir.»

Dürkheymin fikirləri bununla nəticələnir ki, cəmiyyət ideal və sitayişə layiq olan bir obyektdir. O deyir: «Kant Allahın gerçəkliyini etikanın əsası kimi qəbul edir. Çünki Allahı qəbul etmədən etika və onun qanunları tam absurd görünür. Biz də bu prinsipi qəbul edirik ki, cəmiyyət fərdlərdən müstəqil və fərqli olan məxsus bir gerçəklikdir. Çünki bunu qəbul etmədən etika öz obyektliyini itirəcəkdir və etik vəzifə öz sütunlarını əldən verəcəkdir. Mən təcrübə dünyasında cəmiyyəti etika baxımından ən üstün amil hesab edirəm. Səhv etdim. Burada həmin cəmiyyətin rolunu oynaya bilən digər bir gerçəklik də mövcuddur. Bu, Allahlıq məqamıdır. Allah və cəmiyyət arasında onlardan birini seçməliyik. Mənim fikrimcə, bu seçim düzgün deyil. Çünki düşünürəm ki, Allahlıq məqamı cəmiyyət amilinin forma dəyişkənliyindən başqa bir şey deyildir. Bu dəyişkənlik insan düşüncəsində misal formasında həyata keçmişdir. Hər halda, Dürkheym belə hesab edirdi ki, «məzhəb cəmiyyəti digər bir formada pərəstiş etməkdir.»

Beləliklə, Kontun cəmiyyətə sitayiş ideyaları Dürkhemydə də müşahidə olunur.

Bütün bunlara rəğmən nəyə görə Dürkheym individualizmi və kollektivizmi bir-birinə yaxınlaşdırmağa çalışan mütəfəkkir kimi tanınmışdır? Onun mötədil sosioloq kimi tanınmasına əsas səbəb kitablarındakı bəzi məqamlardır. Belə ki, o deyir: «Cəmiyyət bizimlə nisbətdə bizdən üstün olsa da, eyni halda bizim zatımızdadır və biz onu beləcə hiss edirik. Cəmiyyət bizdən fövqdə olsa da, bizim daxilimizdə cərəyan edir. Çünki biz olmadan cəmiyyət gerçək varlıq ola bilməz. Başqa sözlə, cəmiyyət bizim özümüzdür.»

Bir çox tədqiqatçıların dediyi kimi, Dürkheymin kollektiv vicdan və şüur məfhumu daimi olaraq qaranlıq qaldı. O nəinki bu barədə mövcud problemləri həll edə bilmədi, həm də bir çox problemlərin yaranmasına səbəb oldu.

Həqiqət budur ki, qərbdə indiyə qədər kollektivizm və individualizm probleminin qəti həlli təqdim olunmamışdır. Əlbəttə, uzun illərdən bəri cərəyan edən kollektivizm və individualizm nəzəri çəkişmələri bu gün

səngimişdir. Lakin bu bir tərəfin digəri üzərində qələbəsinə görə deyil, hər iki tərəfin bu davalardan yorulmasına görədir. Buna görə də sosioloqlardan bir çoxu bu haqda məsələni həll etmədən özlərini kollektivizm və individualizm ifrat-təfritlərindən uzaqda saxlamışlar.

Biz gələcək fəsillərdə sübut edəcəyik ki, kollektivizm ideyası nə rasional müstəvidə, nə də Quran baxımından qəbul oluna bilər.

# 7. Kollektivizm ideyasının rasional müstəvidə tənqidi

Öncə dediyimiz kimi, kollektivistlərin bir çoxunun müddəaları fəlsəfə dilinə tərcümə zamanı belə olacaqdır: «Fərdlərdən təşkil olunmuş bəşər cəmiyyəti obyektiv və real bir mürəkkəbdir və bu, cəmiyyət adlanır. Onun özünəməxsus funksiyaları və təsirləri vardır. Bu funksiyalar fərdlərin hər birində müstəqil olaraq müşahidə edilmir. Başqa sözlə, bir araya toplaşmaqla ictimai həyat formalaşdıran «fərdlər cəmiyyət» adlı yeni ruhlu gerçəklik yaradırlar. Deməli, cəmiyyət adlanan gerçəklik tam həqiqi və obyektivdir. Biz burada sübut etməyə çalışacağıq ki, kollektivistlərin həmin müddəa haqqında göstərdiyi dəlillərin hamısı əsassızdır:

Birinci dəlil: İnsanlar ictimai həyatda bir sıra ortaq və müştərək emosiyalara, milli və etik adət-ənənələrə malik olurlar. Bu ortaq əqidələr emosiyalar, vərdişlər və adət-ənənələr vahid, kollektiv bir ruhun gerçəkliyini göstərir. Həmin vahid ruh cəmiyyətdə yaşayan bütün fərdləri öz təsiri altına salır. Bu isə cəmiyyətin obyektiv gerçəkliyə malik olmasına ən mühüm dəlildir.

Bu dəlilin cavabında deyirik: «Bəşər cəmiyyətinin fərdlərinin arasında ortaq olan əqidə, emosiya və vərdişlərdəki vəhdət, şəxs vəhdəti deyil, məfhum vəhdətidir. Halbuki, obyektiv gerçəklik ilə eyni olan vəhdət məfhum vəhdəti deyil, şəxs vəhdətidir. Misal üçün, cəmiyyətdə yaşayan fərdlərin hamısının qorxmaz və şücaətli olmasındakı vəhdət şəxs vəhdəti deyildir. Fərddə mövcud olan qorxmazlıq onun özünə məxsusdur. Deməli, cəmiyyətdə yaşayan insanlar qədər çoxlu qorxmazlıqlar da mövcuddur. Burada bütün şücaətləri və qorxmazlıqları bir araya toplayan, yalnız qorxmazlıq məfhumunun eyni olmasıdır. Yəni buradakı vəhdət məfhum vəhdətidir. Bir sözlə, cəmiyyətdə mövcud olan qorxmazlıq ruhiyyələrinin hamısını toplasaq yeganə şəxsi qorxmazlıq yaranmır. Bütövlükdə deyə

bilərik ki, cəmiyyətdəki insanlar arasında müştərək olan hər bir xüsusiyyət özünəməxsus çoxlu şəxsi gerçəkliklərə malikdir. Burada onlara vəhdət nisbət verilirsə, bu, məfhum vəhdətidir.

İkinci dəlil: Cəmiyyətdə yaşayan hər bir insan övladlıq, həyat yoldaşı olmaq və yaxud vətəndaşlıq borcunu yerinə yetirərkən həmin cəmiyyətdə mövcud olan adət-ənənələri və yaxud ictimai qanunları həyata keçirir. Həmin vəzifə və təkliflər onun meylləri, hissləri və emosiyaları ilə uzlaşa bilər. Lakin bununla belə, həmin qanunlar xarici aləmdə obyektiv bir gerçəkliyə malikdir. Çünki onları yaradan fərd deyil. Fərd onları təlim-tərbiyə yolu ilə dərk etmişdir. Misal üçün, bir çox hallarda müşahidə olunur ki, cəmiyyətin hər bir üzvi onun üzərində olan vəzifələrdən xəbərsizdir və bu vəzifələrdən xəbərdar olmaq üçün o, qanun kitablarına və yaxud mötəbər şəxslərə müraciət etməlidir. Dini qanunlar və inanclar da bu qəbildəndir. Yəni dünyaya göz açan insan həmin qanunları öz önündə hazır görür. Dini qanunların və inancların, habelə ictimai vəzifələrin fərd dünyaya gəlməzdən öncə mövcud olması həmin qanun və vəzifələrin obyektiv gerçəkliyinə dəlalət edir. Başqa sözlə, onlar fərddən öncə mövcuddurlarsa, deməli fərddən müstəqil obyektivliyə malikdirlər. Nəticədə, həmin qanunlar cəmiyyətdə yaşayan bütün insanlardan müstəqildir. Deməli, həmin dini və ictimai vərdiş, düşüncə və emosiya metodları cəmiyyətin fərdi üzvlərinin şüurlarında müstəqil şəkildə gerçəkdir. Cəmiyyət isə onda yaşayan fərdlərdən kənarda və müstəqil formalaşan hisslər, emosiyalar, düşüncələr və adət-ənənələrdən mürəkkəb olan obyektiv bir gerçəklikdir. Başqa təbirlə desək, həmin adət-ənənələr fərdi şüurlardan kənardadırlarsa, deməli kollektiv şüur və vicdanda toplaşmışlar.

Qeyd edək ki, Dürkheym bu dəlili ictimai gerçəkliyin fərdi şüurlardan müstəqil olması adı ilə irəli sürmüşdür. O həmin dəlilə təkid edir və kitablarında tez-tez ona istinad edir. Bu dəlili rədd etmək üçün bir məsələyə diqqət yetirmək kifayət edər. İctimai vəzifə və qanunların insanların həyata gəlməzdən öncə mövcud olması, yalnız həmin qanunların onları dərk edən və bilən insanların zehnində mövcud olmasıdır. Başqa təbirlə desək, hər bir ictimai təklif ondan xəbərdar olan fərdlərin sayı qədər şəxsi gerçəkliyə malikdir. Lakin bu şəxsi gerçəkliyin yarandığı yer ondan agah olan insanların zehnləridir. Öncə qanundan xəbərsiz olan, sonra qanunlar kitabını oxuyaraq və yaxud hüquqşünasların vasitəsilə həmin qanundan xəbərdar olan insan bu vaxt yeni bir zehni surətə malik olur. Hərçənd həmin

qanundan xəbərdar olan insanların hər biri bu qanunun bir növ surətinə malikdirlər. Misal üçün, bir insan bu qanundan xəbərsizdir: «Hər bir sürücü yolun sağından hərəkət etməlidir.» Bu o demək deyil ki, başqaları da bu qanundan xəbərsizdirlər. Əgər bütün insanlar eyni halda bu qanundan xəbərsiz olsaydılar, biz cəmiyyətdəki fərdlərin zehinlərindən əlavə başqa bir ictimai və kollektiv şüur təsəvvür etməyə məcbur olardıq. Lakin buna zərurət yoxdur. Düzdür, cəmiyyətdə yaşayan fərdlərin heç biri adətən həmin cəmiyyətə hakim olan qanunların hamısını təfsilatı ilə bilmirlər. Lakin bu o demək deyil ki, biz cəmiyyət adlı yeni gerçək bir varlığı nəzərdə tutaq və bunu həmin cəmiyyətdə hakim olan bütün qanunların əsası kimi qiymətləndirək.

Üçüncü dəlil: İctimai həyatda daimi olaraq fərd özünü müəyyən bir təzyiq qüvvəsinə məruz görür. Həmin qüvvə onun vərdişlərini və rəftarlarını məhdud bir çərçivəyə salır, öz yükünü fərdin üzərinə qoyur. Həmin qüvvə cəmiyyətin hüquqi qanunlarını tapdalamaq istəyən şəxsin əleyhinə reaksiya göstərir. Bacarırsa onun işinə mane olur. Həmin əməl fərd tərəfindən həyata keçərsə, onu ruhi cəhətdən cəzalandırır və yaxud günahından peşman olmağa və günahı üçün bağışlanmaq istəməyini tövsiyə edir. Bu qüdrət sırf etika zəminində də emal olur və etik qanunlara zidd olan işlər həmin qüvvə tərəfindən qadağan olunur. Şübhəsiz, müxtəlif yerlərdə qüdrət emalının, cəzalandırmağın və danlamanın keyfiyyəti fərqlidir. Lakin bununla belə, bütün hallarda bu mövcuddur. Hətta öz cəmiyyətinin əhəmiyyətsiz qanunlarına belə arxa çevirən, misal üçün, bir ölkədə və yaxud şəhərdə və yaxud hər hansı bir ictimai toplumda paltar geyinmə qanunlarını pozan insan həmin qüvvənin məlamətindən yaxa qurtara bilmir.

Fərdin cəmiyyət qanunlarına zidd işləri cəmiyyət tərəfindən yüngül reaksiya doğursa da bunun nəticələri fərd üçün ağır olur. Hətta onun iradəsini sındırır və nəhayət onu toplumla həmrəng olmağa sövq edir. Cəmiyyətin təzyiq qüvvəsi bəzən hiss olunmur. Lakin bu onun bütövlükdə olmamağını göstərmir. Diqqət edin, biz həmvətənlərimizlə danışarkən öz ana dilimizdən istifadə edirik və yaxud alış-veriş zamanı ölkəmizdə işlənən pul vahidini təqdim edirik. Bütün bunları edərkən biz heç bir qüvvənin təzyiqini öz üzərimizdə hiss etmirik. Lakin bir az dəqiqləşsək görərik ki, bundan başqa heç bir yolumuz yoxdur. Əgər bunu etməsək, biz məğlubiyyətlə üzləşəcəyik. Yaxud müəyyən bir zavod müdiri öz istehsalında yüz il bundan öncəki metodlardan istifadə edə bilər. Lakin bunu

etsə, şübhəsiz, zərər çəkəcəkdir. Sual olunur: inkarolunmaz və danılmaz bu təzyiq qüvvəsi hansı varlıqdan qaynaqlanır? Aydındır ki, fərdlərin heç biri belə bir təzyiq qüvvəsinə malik deyildir. Deməli, bunu «cəmiyyət» adlı bir gerçəkliyə istnad verməliyik. Həmin təzyiq qüvvəsi gerçəkdirsə, deməli onu emal edən obyekt də gerçək bir varlıqdır.

Cəmiyyətin fərdi şüurlar üzərindəki təzyiqini önə çəkən bu dəlilə də Dürkheymin kitablarında tez-tez rast gəlmək olar. Bu dəlilin rəddində deyirik:

1. Dürkheymin iddiasına baxmayaraq sözü gedən təzyiq insanın iradə və ixtiyarını əlindən alacaq səviyyəyə çatmır. Deməli, ictimai məcburiyyət termini yanlışdır.

2. Şübhəsiz, hər bir şəxs ictimai həyatda bir sıra təzyiqlərlə üzləşir və bu səbəbdən bəzi işləri öz daxili meylinə rəğmən həyata keçirir. Lakin sual olunur ki, həmin təzyiqin mənşəyi nədir? Deməli, birbaşa bütün səyləri həmin təzyiqin gerçəkliyini sübuta yetirməyə sərf etmək problemin həllinə heç bir kömək göstərmir. Həqiqət budur ki, həmin təzyiq qüvvəsi cəmiyyət adlı bir gerçəkliyə istinad edilməməlidir. Cəmiyyətdə hakim olan qanunlar və adət-ənənələrə zidd gedən insan həmin cəmiyyətin meylləri, emosiyaları, hissləri və düşüncələri ilə müharibə etməyə başlayır. Lakin bu yolda onun iradəsi zəif olduğundan çarəsiz qalaraq sonda toplumun haqq və yaxud batil yoluna qaytarılır. Deməli, cəmiyyətin əksər üzvlərinin bəyəndiyi və yaxud bəyənmədiyi vərdişlər istər-istəməz hər bir fərd üçün nümunə olur. Belə ki, həmin vərdişlərdən boyun qaçırmaq nəhayət insanların ümumi fikrinin təzyiqi altında əzilməklə nəticələnir. Nəticədə, buradakı mübarizə fərd və cəmiyyət arasında deyil, fərd və cəmiyyətin digər üzvləri və fərdləri arasında baş verir. Burada cəmiyyət adlanan digər bir gerçək varlıq insanların fərdi iradəsini sındırmağa çalışmır. Yalnız və yalnız cəmiyyətdə yaşayan əksər insanlar öz vərdişlərini başqa azlıqlara qəbul etdirmək üçün azlıqların fikirlərini rədd edir və onları zəiflətməyə çalışırlar. Burada, yalnız hər bir insanın düşüncələri, inancları, emosiyaları, meylləri və iradələri obyektiv gerçəkliyə malikdir. Müəyyən ictimai məsələdə cəmiyyətlə həmrəng olmaq istəməyən insan öz qüvvəsini və qüdrətini əksər insanların qüvvəsi ilə müqayisə etdikdən sonra özünü zəif görür və məğlub olduğu halda cəmiyyətdəki bəzi hüquqlardan məhrum olacağını müşahidə edərək insanlarla mübarizədən əl çəkir və camaatla həmrəng olmağa çalışır. Deməli, burada cəmiyyət adlı qüdrətli bir qüvvə deyil, yalnız insanın öz

düşüncəsi və uzaqgörənliyi onu çoxluq təşkil edən digər insanlara qarşı çıxmaqdan çəkindirir. Çünki o bu yolda hətta bəzən həyat hüququndan da məhrum ola bilər və yaxud bu mübarizədə insanların qarşısında ictimai mövqeyini itirə bilər. Məhz buna görədir ki, bütün bu məhrumiyyətləri nəzərə almayan, hətta ölümdən qorxmayan (peyğəmbərlər kimi) bəzi tarixi şəxsiyyətlər cəmiyyətə hakim olan yanlış qanunlarla mübarizədən əl çəkmir və bu yolu sona qədər davam etdirirlər.

Dördüncü dəlil: Xaricdə olan hər bir obyektiv gerçəkliyin mühüm göstəricisi odur ki, insan iradəsi onu dəyişdirə bilmir. Bu o demək deyil ki, hər bir xarici gerçəklik bütün dəyişkənliklər qarşısında müqavimət edir. Məqsəd odur ki, onu dəyişdirmək üçün təkcə istəmək və iradə etmək kifayət etmir. Bunun üçün çalışmalı və onun müqavimətini sındırmalıyıq. Lakin həmişə bu müqavimət sınmır. Cəmiyyət də belə bir xüsusiyyətə malikdir. Yəni bizim iradəmiz bunu dəyişdirə bilmir. Əksinə, cəmiyyət bizim iradəmizdəki dəyişkənliyə səbəb olur. Cəmiyyət bizim üçün elə bir hüdudlar müəyyənləşdirir ki, biz öz vərdişlərimizi və əməllərimizi çarəsiz qalaraq həmin hüdudlarda formalaşdırırıq. İctimai təzyiqlər o qədər şiddətlidir ki, hər bir fərd özünü onlardan qurtara bilmir. Hətta insan özünü cəmiyyətin təzyiqi qüvvəsindən qurtardığı bir vaxtda belə, yenə gerçək müqavimət qarşısında görür.

Dürkheymin kitablarında müşahidə olunan bu dəlil də bundan öncəki dəlilə oxşardır. Onun rəddində deyilir:

1. İctimai həyat hər bir fərdin iradəsini onun əlindən ala bilməz və onu iradəsinin əksinə iş görməyə vadar edə bilməz.

2. Doğrudur ki, ictimai hadisələri insan iradəsi ilə asanlıqla dəyişdirmək olmaz. Lakin ictimai hadisələrin insan iradəsinə tabe olmaması buna dəlalət edir ki, həmin hadisələr cəmiyyətin digər fərdlərinin iradəsinə də bağlıdır. Bu isə cəmiyyət adlı digər bir gerçəkliyin olmasını bildirmir.

Bir sözlə, bu dörd dəlildən heç biri cəmiyyətin obyektiv gerçəkliyini sübut etmək üçün kifayət etmir. Həmin bu dəlillərdə, yalnız cəmiyyətin fərdləri arasındakı təsiretmə və təsirlənmə qüvvəsinin mövcudluğudur. Bu isə danılmaz və inkaredilməzdir. Cəmiyyətin fərdlərinin digər bir fərd üzərində təsiri və nüfuzu nə qədər dərin və hərtərəfli olsa da, bu, bəşər cəmiyyətinin tərkibinin obyektiv və real olmasına əsas vermir. Habelə, fərdlər arasındakı həmkarlıq məsələsi cəmiyyət adlı digər bir varlığın meydana gəlməsini bildirmir.

Bəzi müsəlman yazıçıları və mütəfəkkirləri də cəmiyyəti müstəqil bir həyata malik olan gerçəklik kimi göstərmişlər. Hərçənd onların fikrincə «kollektiv həyat» realığı fərdlərin gerçəkliyindən müstəqil deyil, əksinə onların arasında pərakəndədir. Bu əsasla, cəmiyyət onun fərdləri arasında cərəyan edən qanunlardan fərqli olan özünəməxsus adət-ənənələrə və qanunlara malikdir ki, bunlar tanınmalı və araşdırılmalıdır. Bəşər cəmiyyətində olan fərdlər öz şəxsi müstəqilliyini nisbi də olsa itirirlər. Lakin eyni halda, onların nisbi müstəqilliyi qorunur. Çünki fərdlərin şəxsi həyatı və fərqli nailiyyətləri tamamilə kollektiv həyatda aradan getmir. Həqiqətdə, hər bir insan iki həyat, iki ruh və iki «mən» ilə yaşayır. Onlardan biri insanın fitrətində olan həyat, ruh, «mən»dir. Digəri isə ictimai həyatın ərsəyə gətirdiyi kollektiv həyat və ruhdur. Həmin kollektiv həyat fərdi həyatda pərakəndədir. Bununla belə, həm psixoloji qanunlar, həm də sosioloji adət-ənənələr insan üzərində hakimdir.

Bu fikirlə Dürkheymin sözlərində də rastlaşırdıq. O deyir: «İnsanların hər birində iki vicdan mövcuddur. Birinci vicdan bütün cəmiyyət arasında müştərəkdir, nəticədə bizim şəxsi və fərdi xüsusiyyətlərimizi göstərmir. İkinci vicdan isə təkcə bizim şəxsiyyətimizi başqalarından fərqləndirir və şəxsiyyətimizi müəyyənləşdirən xüsusiyyətləri göstərir.» Burada bir neçə misaldan istifadə edə bilərik. Misal üçün, (qaçış və güləş kimi) komandaların deyil, fərdlərin rəqabət etdiyi yarışların hər birinin səyi, yalnız özünün qalib olmasına yönəlmişdir. Bu səbəbdən, hər bir yarışçı təkcə özünün qələbəsindən sevinir və yaxud özünün uduzmağından kədərlənir. Burada, yalnız fərdi və şəxsi «mən» fəaldır. Lakin (futbol kimi) komandaların rəqabət etdiyi yarışlarda hər bir oyunçunun səyi komandasının qələbə çalmasına sərf olunur. Bu səbəbdən, o özünün ən yaxşı oyun göstərməsindən əlavə, komandanın digər üzvlərinin də oyununa diqqət yetirir. Komanda qələbə çalarsa, bütün komanda üzvləri sevinir. Əks təqdirdə, onların hamısı narahat olur. Hətta komandanın yaxşı oyunçuları da bu uduzmada özlərini şərik hesab edirlər. Diqqət edin, burada bu vaxt fərdi «mən»dən əlavə, kollektiv «mən» də fəaldır və fərdlərin düçar olduğu sevinc və ya kədər hissi həmin kollektiv «mən»ə nisbət verilir. Habelə, əgər iki ölkə arasında müharibə baş verərsə (xüsusilə həmin iki ölkənin vətəndaşları yüksək səviyyədə vətənpərvər (millətçi) olsalar), burada hər bir vətəndaş öz ölkəsinin qələbəsini tələb edir bu qələbə onun canı və yaxud malının əldən getməsi ilə nəticələnsə də belə. Bir insanın öz ölkəsinin

qələbəsi üçün canından və malından keçməsi kollektiv «mən»in gerçəkliyinin əlamətidir və bu onu göstərir ki, həmin kollektiv «mən» fərdi və şəxsi «mən»ə qalib gəlmişdir.

Bu qəbildən olan sözlər daha çox şer və xitabə cinsindən olan məsələlərə oxşayır. Ən qədim zamanlardan əxlaq alimləri və filosofları bildirirdilər ki, hər bir insanın daxilində əql (və yaxud ilahi ruh) və nəfs (yaxud şeytani ruh) arasında daimi mübarizə və müharibə mövcuddur. Bu mübarizədə əqlin qələbə çalması insanda əxlaq və etika şəxsiyyətinin dirçəlməsinə səbəb olacaqdır. Əks təqdirdə, yəni əql məğlub olarsa, bu, insanın mənəvi süqutu ilə nəticələnəcəkdir. Əgər əxlaq alimləri və filosofların məqsədi bu olsa ki, insan, yalnız bir nəfsə malikdir və həmin nəfs mənəviyyata və Axirət aləminə meylli olduğu cəhətdən «əql» və «ilahi ruh», maddiyyat və dünyəvi məsələlərə meyl etdiyi cəhətdən isə «nəfs» və yaxud «şeytani ruh» adlanır. Biz bu məsələ ilə razılaşırıq. Bu mənaya əsasən iki meylin mübarizəsində mənəvi tərəfi əsas götürən insan haqda deyirik ki, onun əqli nəfsinə qalib gəlmişdir. Əks təqdirdə, onun nəfsi əqlinə qalib gəlmiş olur. Habelə, əgər sosioloqların məqsədi budursa ki, insanda, yalnız bir «mən» mövcuddur və bu vahid «mən» həm fərdi, həm də kollektiv meyllərə malikdir. İnsanlar bəzən kollektiv mənafeləri təmin etmək üçün öz şəxsi mənafelərindən keçirlər, biz bu ideya ilə razılaşırıq.

Lakin bu qəbildən olan sözlərdə insanın iki nəfsə və yaxud iki «mən»ə malik olması vurğulanırsa, biz bunu tamamilə rədd edirik. Çünki insanın nəfsi vahid və bəsit bir gerçəklikdir. O, bəsit olduğu halda bir çox kateqoriya və xüsusiyyətlərə malikdir. Bu səbəbdən hər bir insanın iki şəxsiyyətə və yaxud iki ruha malik olmasını vurğulamaq tamamilə absurddur.

Hər bir insan mənsub olduğu komandanın və yaxud ölkənin qalib olmasına meyllidir. Bu, həmin şəxsin müəyyən bir komanda və yaxud ölkəyə mənsub olmasının nəticəsindədir. Belə ki, həmin ölkə və yaxud komandanın qələbəsi onun öz qələbəsi və yaxud buradakı məğlubiyyətlər onun məğlubiyyətləri hesab olunur. Burada belə bir mənsubiyyət olmasaydı, həmin insanda belə bir meyl də formalaşmayacaqdı. Məhz buna görədir ki, əgər həmin şəxs başqa bir komandanın üzvü olar və yaxud digər bir ölkənin vətəndaşlığını qəbul edərsə, o zaman həmin şəxsin hissləri və emosiyaları yeni komanda və yaxud yeni ölkəyə tərəf yönəlir. Şübhəsiz, emosiyalar tez bir zamanda dəyişmir, xüsusilə bir ölkənin vətəndaşlığından

çıxıb digər ölkənin vətəndaşlığını qəbul edən şəxs haqda bu məsələ belədir. Habelə öz dinini və yaxud məzhəbini tərk edib yeni din və məzhəb qəbul edən şəxsin ruhiyyəsinin dəyişməsi üçün uzun bir müddət tələb olunur. İslam tarixində göstərilir ki, İslam dinini qəbul edib müsəlman cəmiyyətinin üzvü olan kafir və müşriklər bir neçə ilə qədər cahiliyyət dövrünün adət-ənənələrini və fikirlərini özlərində saxlayır və bəzən büruzə verirdilər. Müsəlmanların arasında, xüsusilə Ous və Xəzrəc qəbilələrinin arasında baş verən ixtilaf və davaların əsas səbəbi də məhz bu idi. Yəni bəzi müsəlmanlar İslamı qəbul etdikdən sonra belə, cahiliyyət ruhiyyələrini itirmirdilər. Lakin hər halda bütün bunlar o demək deyil ki, hər bir insanın müəyyən bir ölkəyə, cəmiyyətə, dinə, məzhəbə və yaxud mədəniyyətə mənsub olması onda yeni obyektiv bir ruhun əmələ gəlməsinə səbəb olur və insan iki-fərdi və kollektiv-ruha sahib olur. Bilmək lazımdır ki, hər bir insan yeganə və vahid bir nəfsə malikdir.

Kollektivistlərin dəlillərini rədd etdikdən və cəmiyyəti obyektiv varlıq kimi qəbul etmədikdən sonra burada sual oluna bilər ki, belə olan surətdə sosiologiya elminin predmeti nədir?

Sosiologiya elminin predmeti, əhatə dairəsi və metodları. habelə onun fərdi və ictimai psixologiya ilə əlaqəsi haqda ictimai elmlər tədqiqatçıları uzun mübahisələr aparmış və indiyə qədər məqbul və qəti həll yolu təqdim etməmişlər. Lakin bununla belə, demək olar ki, psixologiya hər bir insanda mövcud və müşahidə olunan nəfsani hissləri mütaliə edir. İstər həmin insan tək yaşasın, istərsə də ictimai həyat təcrübə edib digər insanlarla əlaqədə olsun. Adətən emosiya, hafizə, xəyal, diqqət, hökm, şüur, ləzzət və dərd, meyllər və iradə bu qəbildən hesab olunur. İctimai psixologiya isə hər bir insanın ictimai həyatda və yaxud başqa təbirlə desək, digər fərdlərlə əlaqəsi nəticəsində yaranan xüsusiyyətlərini və fəaliyyətlərini araşdırır. Dil, təqlid, təlqin və bu kimi xüsusiyyətləri ictimai həyatın nəticəsi kimi qiymətləndirir və bu səbəbdən onları araşdırmağı ictimai psixologiyanın öhdəsinə buraxır. Sosiologiya elmi cəmiyyətin müxtəlif institutlarının və sistemlərinin fəaliyyətini araşdıran elmdir. Deməli, ictimai psixologiya sosiologiya və psixologiya elmləri ilə sıx əlaqədə olmasından əlavə, bu iki elm sahəsinin vasitəsidir. İctimai psixologiya elminin predmeti olan ikinci dərəcəli nəfsani hisslərin yaranması, psixologiya elminin mövzusu olan birinci dərəcəli nəfsani hisslərin yaranmasına bağlı olduğundan bəzi tədqiqatçılar ictimai psixologiyada işlənən məfhum və terminləri psixologiyada olan terminlərə

reduksiya etmək istəmişlər. Digər tərəfdən, bir sıra alimlər indiyə qədər ictimai aspektlərə malik olmayan insanın nəfsani hisslərində ictimai amillərin nüfuzunu göstərmək istəmişlər. Beləliklə görürük ki, psixologiya və ictimai psixologiya sahələri nə qədər bir-biri ilə sıx əlaqədədirlər. Şübhəsiz, psixologiyanın ictimai psixologiyadan ön mərhələdə olması danılmazdır. Habelə, inkaredilməz faktdır ki, sosiologiya bütövlükdə ictimai institutlara və sistemlərə aiddir. Halbuki, psixologiya insan fərdlərini diqqət mərkəzinə alır. Lakin ictimai sistemlər fərdlərdən tərkib olduğundan, sosiologiyanın ictimai psixologiyaya və bu yolla fərdi psixologiyaya bağlılığı yenə də danılmazdır. Bunu əsas götürərək deyirik ki, sosiologiya digər humanitar sahələrdən müstəqil olaraq yeni bir elm sahəsi kimi qəbul olunsa da, onun psixologiyaya sıx bağlılığını qəbul etməliyik. Bu təkcə sosiologiya haqda deyil, bütün ictimai elmlər barədə də cərəyan edir. Yəni bütün humanitar və ictimai məsələlərin mənşəyi insanın ruhunda araşdırılmalı və axtarılmalıdır. Bu psixologizm adlanan ideyanın əsas mahiyyətidir.

Əziz oxucuların nəzərinə çatdırırıq ki, biz növbəti fəsildə cəmiyyəti Quran baxımından araşdıracaq və sübut edəcəyik ki , Quranda da «cəmiyyət» obyektiv reallıq kimi qəbul olunmur. Buna görə, bəzi müsəlman mütəfəkkirlərinin Quran ayələrinə istinad edərək kollektivizm ideyasını sübuta yetirmək cəhdləri yanlış və əsassızdır.

# 8. Kollektivizmin Quran baxımından tənqidi

Bu fəslin ilk hissəsində Qurani-kərimdə insan toplumu mənasını ifadə edən sözləri təqdim edib onların ifadə yerini diqqət mərkəzinə alaraq sübut edəcəyik ki, bu şərif kitabda cəmiyyət obyektiv gerçəklik kimi təsdiq edilmir. İkinci hissədə isə bəzi müsəlman yazıçı və mütəfəkkirlərinin kollektivizm ideyasını sübuta yetirmək üçün istinad etdikləri ayələri gətirir və onların bu ayələrə istinadən irəli sürdükləri fikirlərin yanlış olmasını göstərəcəyik. İndi isə birinci hissə:

Öncə qeyd etdik ki, ərəb dilində işlənən «cameə» (cəmiyyət) və «müctəmə» sözlərinin heç biri Quranda işlədilməmişdir. Bu şərif kitabda insan toplumu mənasını çatdırmaq üçün digər sözlərdən istifadə edilmişdir. Bunlar «qövm» (383 dəfə), «nas», (240 dəfə), «ümmət» (64 dəfə), «qəryə» (56 dəfə) və «ünas» (5 dəfə) sözləridir.

1. «Qövm». Bu söz «Əl-Hucurat» surəsinin 11-ci ayəsində iki dəfə «bir dəstə kişi» mənasında işlənmişdir:

«Ey iman gətirənlər! Heç vaxt siz kişilərdən bir dəstə digər bir dəstəni lağa qoymasın. (Lağa qoyulan) Həmin dəstə onlardan daha yaxşı ola bilər. Qadınlar da başqa qadınları (lağa qoymasınlar). Ola bilər ki, həmin dəstə onlardan daha yaxşı olsun.»[6]

Quranın digər ayələrində (381 dəfə) «qövm» sözü bir dəstə insan mənasında işlənmişdir. Burada soy, qohumluq və yaxud bir şəxsə itaət etmək əsas vəhdət amili kimi götürülmüşdür. Misal üçün Nuh, Hud, Yunus, İbrahim, Lut və yaxud Musa peyğəmbərin təbliğ etdiyi insanlar həmin peyğəmbərlərin «qövmü» adlanmışlar, habelə Misir və yaxud Yəmən padşahlarının hakimiyyəti altında yaşayan insanlar «qövm» adlanmışlar. Həmçinin, ortaq vərdişlərə və rəftarlara malik olan bir dəstə insan «qövm» adlanmışdır. Misal üçün «Yusuf» surəsinin 9-cu ayəsində oxuyuruq:

«Və ondan sonra (tövbə etməklə atanızın və Allahın yanında) saleh bir dəstə olun.»

Bir sözlə, bir dəstə insanı «qövm» adlandırmaq üçün onların arasında vəhdət və ortaqlıq cəhəti nəzərdə tutulmalıdır. Lakin bu o demək deyil ki, vahid və müştərək ünsürə malik olan hər bir insan dəstəsi «obyektiv və vahid gerçəklik» adlansın.

2. «Nas». Bu söz Qurani-kərimin bütün ayələrində «əlif» və «lam»la işlənmişdir və Quranda bir neçə mənanı ifadə edir. O cümlədən:

1) Tarix boyu indiyə qədər həyata gələnlər, indi hal-hazırda yaşayanlar və gələcəkdə yaşayacaq insanlar;

2) Həyatın müəyyən bir zaman kəsiyində yaşayan insan dəstəsi;

3) Eyni zamanda müştərək bir cəhətə malik olan insan dəstəsi və bir danışanın dinləyiciləri olan insanlar.

3. «Ümmət». Bu söz bizim bəhsdə digər sözlərdən daha əhəmiyyətlidir. Ümmət sözü Qurani-kərimdə ən azı beş müxtəlif mənada işlənmişdir:

a) Zaman və ya zamanın bir hissəsi. Ümmət sözü Quranın iki ayəsində həmin mənalarda işlənmişdir. Onlardan biri «Hud» surəsinin 8-ci ayəsidir:

«Və əgər əzabı az bir müddətə qədər təxirə salsaq, mütləq (istehza ilə) «ona nə mane olur?!»-deyəcəklər.»

Digəri isə «Yusuf» surəsinin 45-ci ayəsindədir. Həmin ayədə oxuyuruq:

«Və (zindandakı) o iki nəfərdən nicat tapmış və uzun bir müddət sonra (zindanı, Yusufu və yuxu yozumunu) yada salan şəxs dedi.»

b) Qabaqcıl, rəhbər, lider və nümunə. Ərəb dilində «usvə» və «qudvə» sözləri başqalarına qabaqcıl və nümunə olan şəxsə deyildiyi kimi, «ümmət» sözü də başqalarının rəhbəri və qabaqcılı olan şəxs haqqında işlənir. «Nəhl» surəsinin 120-ci ayəsində oxuyuruq:

«Həqiqətən, İbrahim bir ümmət idi. O, Allah qarşısında təvazökar və itaətkar, haqqa yönələn idi və heç vaxt müşriklərdən olmamışdı.»

Gördüyünüz kimi, burada «ümmət» sözü «rəhbər» mənasında işlənmişdir. Qeyd etməliyik ki, təfsirçilərdən bir neçəsi bu ayənin təfsirində bildirmişlər ki, buradakı «ümmət» sözü yenə də bir dəstə insan mənasında işlənmişdir. Və İbrahim peyğəmbərin özü təkliyində bir «cəmiyyət» mənasını ifadə etmişdir. Lakin bu fikirlə razılaşmaq olmaz. Qeyd edək ki, burada bildirdiyimiz kimi «ümmət» sözü həmin «rəhbər» mənasında işlənmişdir. Xüsusilə də bir məsələni nəzərə almaq lazımdır. Ərəb dilində

alimə «ümmət» deyilir, çünki hər bir cəmiyyətin əsasını onun alimləri təşkil edir.

v) Həyatda yaşayış metodu, din və məzhəb. «Zuxruf» surəsinin 22-ci və 23-cü ayələrində müşriklərin və kafirlərin dilindən oxuyuruq:

«Həqiqətən biz atalarımızı müəyyən bir dində görmüşük».

Yəqinliklə demək olar ki, bu ayədə «ümmət» sözü «din» mənasında işlənmişdir. Çünki burada «ümmət» sözü «bir dəstə insan» mənasını bildirsəydi, ərəb dilinin qrammatik qaydalarına görə, burada «əla» sözü tam artıq olardı. Qurani-kərimin digər ayələrində həmin mənanı, yəni «din» mənasını çatdırmaq üçün «millət» sözündən də istifadə edilmişdir.

«Ənbiya» surəsinin 92-ci ayəsində və «Muminun» surəsinin 52-ci ayəsində bəzi ilahi peyğəmbərlərin sərgüzəştləri bəyan olunduqdan sonra bu cümlə gəlmişdir:

«Və bu sizin yeganə din və şəriət olan din və şəriətinizdir.»

Bu ayənin təfsirində iki ehtimal verilir:

1. «Bu» işarəsində məqsəd ilahi peyğəmbərlərin dinidir. Bu isə təkcə bir dindir.

2. «Bu» işarəsində ilahi peyğəmbərlərin özlərinə işarə olunur. Onun cəm formada olması isə «ümmət» sözünə görədir. İkinci ehtimalı təsdiq edəcək bir neçə dəlildən istifadə etmək olar. O cümlədən, «Bəqərə» surəsinin 134-cü və 141-ci ayələrində keçmiş peyğəmbərlərin bir neçəsinin həyatlarından bəzi məqamlara işarə etdikdən sonra Allah-Təala belə buyurur:

«Onlar bir ümmət idilər ki, keçib getdilər. Onların əldə etdikləri özlərinə, sizin əldə etdikləriniz isə sizə aiddir və siz əsla onların etdikləri əməllər barəsində sorğu-sual olunmayacaqsınız».

Göründüyü, kimi bu şərif ayədə keçmiş ilahi peyğəmbərlər tarixi və coğrafi baxımdan bir-birindən uzaq yaşasalar da, onlar bir ümmətin dəstəsi və bir ümmətin üzvləri hesab olunmuşlar. Çünki onlar əqidə, əxlaq və ədəb baxımından vahid prinsiplərə qulluq edirdilər. Deməli, bu əsasla «Muminun» və «Ənbiya» surələrində olan bu ayə, yəni «və bu sizin yeganə din və şəriət olan din və şəriətinizdir» ayəsində «ümmət» sözündən məqsəd tövhid dini deyil, bir dəstə insanlardır. Burada isə məqsəd keçmiş ilahi peyğəmbərlərin məcmusudur.

q) Bir dəstə canlılar (bu, insanlara və digər heyvanlara şamil olunur). «Ənam» surəsinin 38-ci ayəsində Allah-Təala buyurur:

«Yer üzündə elə bir hərəkət edən heyvan və iki qanadı ilə uçan elə bir quş yoxdur ki, (yaradılışının hədəfi, ömür müddətinin müəyyənləşdirilməsi, nəslinin artımı və həyat tərzi baxımından) sizin kimi ümmətlər olmasın.»

Göründüyü kimi, bu ayədə bir dəstə heyvanlar da «ümmət» sözü ilə ifadə olunmuşdur.

ğ) Bir dəstə insan. Qurani-kərimdə «ümmət» sözünün işləndiyi digər yerlərdə «ümmət» sözü (əlli səkkiz və yaxud əlli altı dəfə) «bir dəstə» insan mənasında işlənmişdir. Biz də bu bəhsdə «ümmət» sözünün bu mənasını araşdıracağıq. Şübhəsiz, bir dəstə insanın «ümmət» olması üçün vəhdət amilinə ehtiyac duyulur. Bu vəhdət amili məkan, zaman, itaət etdikləri şəxs, itaət etdikləri din, məzhəb və digərləri ola bilər. «Qəsəs» surəsinin 23-cü ayəsində belə gəlmişdir:

«(Musa) Mədyən şəhərinin suyuna yetişdikdə bir dəstə adamın (öz qoyunlarına) su verdiyini gördü.»

Bu ayədə, yalnız öz qoyunlarına su vermək üçün su ətrafında toplaşmış insanlar «ümmət» adlanmışlar. Deməli, həmin insanların «ümmət» adlanması üçün bir şəhərdə və yaxud bir kənddə yaşamaları, aralarında müştərək mənafe olması, vahid hökumətdə yaşamaları, vahid din və məzhəbə etiqad etmələri və digər müştərək məsələlər lüzumsuzdur. Digər tərəfdən, gördüyümüz kimi ilahi peyğəmbərlər nə məkan baxımından, nə zaman baxımından və nə də digər ictimai məsələlər baxımından ortaq olmamışlar. Onların hamısı vahid ilahi dinin təbliğatçıları olduğu üçün «ümmət» adı almışlar.

Bu əsasla, aralarında ortaqlıq və vəhdət amili mövcud olan bir dəstə insan «ümmət» adlana bilərlər. Həmçinin, burada vahid bir amili vəhdət səbəbi kimi göstərməyə lüzum görülmür. Başqa təbirlə desək, müəyyən bir ümmətin bütün fərdləri vahid və ortaq prinsip və ya məsələ ətrafında toplaşaraq, həmin vahid prinsipə görə, «ümmət» adlanırlar. Lakin bütün ümmətlərin vahid bir məsələ ətrafında toplaşması lüzumsuzdur. Bütün bunlar onu göstərir ki, Quran baxımından «ümmət» obyektiv bir gerçəklik deyildir. Quranda «ümmət», yalnız bir vəhdət və ortaqlıq cəhətinə malik olan bir insan toplumuna deyilir.

4. «Qəryə» sözü əslində «insanların yaşayış yeri» mənasını ifadə edir-həmin yaşayış yeri istər dünyanın ən böyük şəhəri olsun, istərsə də dünyada ən kiçik kənd olsun. Təfsirçilərdən bir çoxu bu mənanı əsas götürərək «qəryə» sözünün işləndiyi bir sıra ayələrdə həmin sözdən öncə «əhl»

sözünün nəzərdə tutulmasının zəruriliyini bildirirmişlər: «Bəs nə üçün Yunusun qövmündən başqa heç bir toplum olmadı ki, iman gətirsin və imanı fayda versin?»[7]

«Yusuf» surəsinin 82-ci ayəsində oxuyuruq:

«Və bizim orada (içində) olduğumuz cəmiyyətdən və aralarında gəldiyimiz karvandan soruş».

Həmçinin «Ənbiya» surəsinin 6-cı ayəsində belə oxuyuruq:

«Onlardan qabaq da Bizim həlak etdiyimiz toplumların heç biri iman gətirmədi.»

Və nəhayət «Kəhf» surəsinin 59-cu ayəsində belə gəlmişdir:

«O cəmiyyətləri zülm etdikləri zaman həlak etdik».

Qeyd etdiyimiz kimi bəzi təfsirçilər bu ayələrdə «qəryə» sözünün izafətlə gəlməsini vurğulamış və burada ondan öncə mütləq «əhl» sözünün nəzərdə tutulmasını vurğulamışlar. Lakin biz hesab edirik ki, iyirmi dəfədən çox olan bu qəbil ifadələrdə «qəryə» sözü «mədinə» sözü ilə sinonimdir. Müsəlman sosioloq və filosofları keçmişdə «mədinə» sözünü «qəryə» sözü ilə eyni mənada işlədirdilər. Bu gün müasir ərəb dilində isə həmin mənanı «müctəmə» sözü çatdırır. Bu mənaya görə «qəryə» ingilis dilindəki «state» sözü ilə eyni mənadadır. Bu isə vahid hökumətin sayəsində, vahid bir ərazidə yaşayan insan toplumunu çatdırır. Yəni burada millət, ərazi və dövlət məfhumları vardır. Qeyd edək ki, müasir dövrdə «qəryə» sözünün ən düzgün tərcüməsi «cəmiyyət» sözüdür. Həm də belə olduğu halda «qəryə» sözündən öncə «əhl» sözünü nəzərdə tutmağa lüzum görülmür. Quran ayələrində «qəryə» sözünün iyirmi yerdə işləndiyini nəzərə alarkən müşahidə edirik ki, Quranda bu sözün bir dəstə insana şamil olunmasında onların obyektiv ittihad və mürəkkəbliyi zəruriliyinə ehtiyac olmur. Burada, yalnız qeyri-obyektiv bir vəhdət amilinin mövcudluğu kifayət edir.

5. «Ünas». Bu söz də bir dəstə insan mənasını çatdırır. «Bəqərə» surəsinin 60-cı və «Əraf» surəsinin 160-cı ayəsində Yəqub peyğəmbərin övladları yəni Bəni-İsrail qövmünün on iki qəbiləsinin hər biri ünas adlanmışdır. Bu ayələrdə oxuyuruq: «Hər bir dəstə (ünas) özünün su içmək yerini tanıdı.»

«Əraf» surəsinin 82-ci və «Nəhl» surəsinin 56-cı ayəsində Lut peyğəmbərin ailəsi «ünas» adlanmışdır:

«Bunlar paklıq axtaran insanlardır.»

«İsra» surəsinin 71-ci ayəsində isə bir şəxsə itaət edən insan toplumu «ünas» adlanmışdır. Burada oxuyuruq:

«Yada sal, (o günü ki, əməl kitabını almaq üçün) insanların hər bir dəstəsini (tabe olduqları) öz imamı və səma kitabları ilə birgə çağıracağıq.»

Bu beş kəlmə ən azı bəzi yerlərdə «cəmiyyət» sözünə sinonim ola bilərlər. Quranda işləndikləri yerləri araşdırdıqdan sonra belə bir nəticəyə gəlmək olar ki, onların işləndiyi mənalarda, yalnız lüğət mənaları əsas götürülür. Qurani-kərimdə bir dəstə insanın «qövm», «nas», «ümmət», «qəryə» və yaxud «ünas» adlanmasına əsas səbəb onların arasında vahid bir cəhətin mövcudluğudur. Burada bir və ya bir neçə müəyyən və dəyişməz, müştərək ünsürün zəruriliyi vurğulanmır. Başqa sözlə, Quran baxımından müəyyən bir insan dəstəsini və toplumunu «qövm» və yaxud «ümmət» adlandırmaq bizim öz rəyimizdən asılıdır. Bu səbəbdən, bir insan toplumunu bir cəhətdən vahid ümmət, başqa bir cəhətdən isə bir neçə ümmət adlandırmaq olar. Yəni, ümmət bizim zehnimizdə və əqli düşüncəmizdə müstəqil olan obyektiv və xarici gerçəklik deyil. Burada, şübhəsiz, insan fərdlərinin vəhdətindən söhbət getmir. Çünki insanın vəhdəti tam obyektivdir. Bu cəhətdən, insanın vəhdətinin obyektiv əsasları mövcuddur. Bu, vahid bir ruhun insanın bədəninin bütün üzvlərinə hakim olmasıdır. Yəni, insanın şəxsiyyətindəki vəhdət bizim zehnimizə və rəyimizə bağlı deyildir. Lakin cəmiyyətin vəhdəti həmin obyektiv əsaslara söykənmir. Burada əsas olan bizim zehnimiz və ona necə baxmağımızdır. Qurani-kərimdə də bildirilmir ki, ümmətin üzvləri bir araya toplaşdıqdan sonra vahid və obyektiv gerçəkliyə malik olurlar. Başqa sözlə, Qurani-kərim «ümməti» vahid obyektiv gerçəklik adlandırmır. Deməli, düşünməməliyik ki, Quranda «ümmət» sözü iki ümumi və xüsusi mənada işlənmişdir-yəni, bəzən ümumi mənada işlənərək bütün insan və bəşər cəmiyyətlərinə, bəzən isə xüsusi məna ifadə edərək, yalnız obyektiv tərkib və ittihada malik olan insan cəmiyyətinə aid edilmişdir. Buna baxmayaraq, bəzi tədqiqatçılar həmin səhvə düçar olmuş və öz müddəalarını sübuta yetirmək üçün, yəni Qurani-kərimdə cəmiyyətin fəlsəfi obyektivlik kimi qəbul olunmasını isbat etmək üçün bir sıra Quran ayələrinə istinad etmişlər. Həmin tədqiqatçı və yazıçıların sözlərini nəql etmək və onların fikirlərini araşdırmaq indi bizim əsas məqsədimizdir.

Onlar çox vaxt «ümmət» sözünün işləndiyi Quran ayələrinə istinad edirlər. Həmin ayələrdə bəzən elə düşünülür ki, «ümmət» onun üzvlərindən

müstəqil olaraq özünəməxsus təsirə malik olan bir gerçəklikdir. Bu o deməkdir ki, Quran baxımından «ümmət» obyektiv gerçəklikdir. İndi isə onların dedikləri haqda:

1) Hər bir ümmətin özünəməxsus əməlləri və vərdişləri vardır. Misal üçün, «Əraf» surəsinin 181-ci ayəsində buyurulur:

«Yaratdıqlarımız içərisində haqq ilə hidayət edən və haqqa əsaslanaraq hökm çıxarıb ədalətli olan bir dəstə vardır».

«Muminun» surəsinin 44-cü ayəsində Allah-Təala buyurur:

«Nə vaxt bir millətə öz peyğəmbəri gəldisə onu təkzib etdilər».

«Ali-İmran» surəsinin 113-cü, 114-cü və 115-ci ayələrində, habelə «Maidə» surəsinin 66-cı ayəsində kitab-əhlindən olan bir dəstə haqda oxuyuruq:

«Kitab əhlindən əməli doğru olan bir dəstə vardır ki, onlar gecə vaxtları (Allaha) boyun əyib səcdə edərək Allahın ayələrini oxuyurlar. Onlar Allaha və Axirət gününə iman gətirir, bəyənilən işə əmr edir, nalayiq işdən çəkindirir və xeyir işlərə tələsirlər. Onlar ləyaqətlilərdəndirlər. Onlar etdikləri heç bir xeyir iş üçün əsla mükafatsız qalmazlar.»

«Maidə» surəsinin 66-cı ayəsində isə belə buyurulur:

«Onlardan mötədil və düz olan bir dəstə var.»

«Ə`raf» surəsinin 159-cu ayəsində Allah-Təala Bəni-İsrail qövmünün bir dəstəsini belə vəsf edir:

«Və Musanın qövmündə haqqa əsaslanaraq hidayət edən və haqqa əsaslanaraq ədalətli olan bir dəstə vardır.»

Quran ayələrinə istinad edərək cəmiyyəti obyektiv gerçəklik kimi sübuta yetirmək istəyən tədqiqatçıların fikrincə, əgər «ümmət» obyektiv gerçəkliyə malik olmasaydı, bu ayələrdə ümmətə özünəməxsus vərdişlər və əməllər nisbət verilməzdi.

Düşünürük ki, ümmətin obyektiv gerçəkliyə malik olmamasının ən ümdə dəlili həmin ayələrdə fellərin qadın cinsindən olan faillərə deyil, kişi cinsindən olan faillərə nisbət verilməsidir. Bu onu göstərir ki, fellər ümmətin üzvlərinin hər birində təklikdə baş verir. Deməli, burada müstəqil bir həqiqi obyekt kimi «ümmət» deyil, orada yaşayan fərdlər və üzvlər əsasdır. Bundan əlavə necə qəbul etmək olar ki, gecə ibadətə məşqul olan, insanları yaxşılığa dəvət edib pisliklərdən çəkindirən və gözəl işlərlə məşğul olan xristianlar və yəhudilər bir-biri ilə birləşib yeganə və vahid obyekt və tərkib yaradırlar, Halbuki, onlar müşahidə etdiyimiz kimi hər

tərəfdə pərakəndədirlər, hətta adi həyat metodlarında da bir-biri ilə müştərək prinsiplərə malik deyildirlər və bir-birindən xəbərsizdirlər. Necə qəbul etmək olar ki, bütün bu insanların hamısının məcmusuna vahid bir ruh hakimdir və onları öz təsiri altında saxlayır. Fakt budur ki, bütün bu insan dəstəsini «ümmət» adlandırmağa əsas verən, onlarda yeni cəmiyyət və ümmət ruhunun olması deyil, onların öz iman, əqidə, əxlaq və vərdişlərindəki ortaq cəhətlərdir.

2) «Ənam» surəsinin 108-ci ayəsində oxuyuruq:

«Biz hər bir ümmət üçün əməllərini beləcə zinətləndirdik».

Bu şərif ayədə bildirilir ki, hər bir ümmətin şüuru, idrakı, təfəkkür tərzi vahiddir və ona məxsusdur. Yəni hər bir ümmətin özünəməxsus hüquqi, əxlaqi və estetik baxışları vardır. Misal üçün, bəzi işlər bir ümmətin gözündə gözəl, digərinin gözündə isə çirkin görünə bilər. Hər bir ümmətin kollektiv vicdanı və yaxud hər bir ümmətin üzvlərinin ictimai «mən»i onların hər birinin idrakını və şüurunu bu formaya salır. Başqa sözlə, hər bir ümmətin əməlləri və işləri onların gözlərində zinətlidirsə, bu o deməkdir ki, hər bir ümmət özünəməxsus zövqə və səliqəyə malikdir. Bu isə ümmətin obyektiv gerçəkliyə malik olmasına dəlalət edir.

Bizim əqidəmizə görə, hər bir ümmətin öz işlərini gözəl və zinətli görməsindən, yalnız bu nəticəyə gəlmək olar ki, hər bir cəmiyyətin və ümmətin üzvləri arasında müəyyən təsiretmə və təsirlənmə nisbəti mövcuddur. Hər bir ümmətin üzvlərinin müəyyən ortaq estetik hüquqi və əxlaqi baxışlara malik olması onların oxşar təlim və tərbiyədən bəhrələnməsi və başqalarına təqlid etməsinə görədir. Lakin onların arasındakı bu təqlid və təsiretmə və təsirlənmə nisbətinin olması buna səbəb olmur ki, həmin fərdlər bir-birində birləşir və vahid obyektiv bir varlığın yaranmasına səbəb olurlar. Yəni fərdlərdən əlavə, burada kollektiv bir ruh da hakim olur. Əgər belə olsaydı, Allah-Təala ayədə belə buyurardı: «Biz hər bir ümmətə onun əməlini zinətləndirdik» (əməllərini deyil).Yəni ümmət personal və həqiqi vücuda və gerçəkliyə malik olsaydı, burada fel bir neçə failə deyil, bir failə nisbət verilərdi.

3) Qurani-kərimdə insanların hər birinə itaətkar və yaxud üsyankar olmaq nisbəti verilir. Bundan əlavə, ümmətlər də itaətkar və üsyankar adlandırılır və savaba və yaxud əzaba layiq görülürlər. Misal üçün, «Yunus» surəsinin 47-ci ayəsində oxuyuruq:

«Hər bir ümmət üçün bir peyğəmbər vardır. Beləliklə, peyğəmbərləri gəldikdə onların aralarında ədalətlə hökm olunar və onlara zülm olunmaz».

Bu şərif ayə bildirir ki, hər bir ümmətin peyğəmbəri gəldikdən və öz vəzifəsini yerinə yetirdikdən sonra həmin ümmətin işi sona yetir. Yəni ya onlar iman gətirir, mömin olur və Allahın nemətlərindən bəhrələnir, yaxud küfrə uğrayaraq Allahın əzabına düçar olurlar. Habelə «Ğafir» surəsinin 5-ci ayəsində Allah-Təala buyurur:

«Hər bir ümmət öz peyğəmbərini tutmaq (yaxud sürgün, həbs etmək və yaxud öldürmək) üçün onun qəsdinə durdu. Və boş söz vasitəsilə mübahisə etdilər ki, bu yolla haqqı zay və batil etsinlər. Beləliklə onları yaxaladıq. Buna görə də (bax gör) Mənim cəzam necə oldu!»

Bu ayədə bir icmanın ümumi cəza ilə nəticələnən nalayiq əməlindən və iradəsindən söhbət gedir. Kollektiv cəzanın, mükafatın, iradə və əməlin məna daşıması isə yalnız kollektiv həyatın və vicdanın obyektiv gerçəkliyindən asılıdır.

Bildirmək lazımdır ki, bu fikir də yanlışdır. Buna səbəb bütün Quran ayələrində «ümmət» məfhumundan danışarkən işarə əvəzliklərinin cəm formada işlənməsidir. Bundan əlavə, qəbul etmək olarmı ki, cəmiyyətdə insanların fərdi şəxsiyyətləri aradan getməyincə və onlar bir-birində tərkib olunmayınca, Allah-Təala heç bir peyğəmbəri onların üzərinə göndərməyəcəkdir? Görəsən, peyğəmbər gəldiyi hər bir cəmiyyət öncədən obyektiv vəhdətə və gerçəkliyə malikdirlərmi? Burada sual olunur ki, peyğəmbərlərin dinləyiciləri və peyğəmbərlərin xitab etdikləri cəmiyyətdir, yoxsa orada yaşayan hər bir insan?

4) Qurani-kərimdə hər bir ümmətə xüsusi həyat və ömür nisbət verilmişdir. Necə ki, hər bir insan təkliyində yaşayır və ölümü təcrübə edir. Misal üçün, «Ə`raf» surəsinin 34-cü ayəsində oxuyuruq:

«Hər bir millət və dəstə ücün bir müddət vardır. Beləliklə, müddətləri başa çatdıqda ondan nə bir saat gecikilər və nə də qabağa keçərlər.»

«Yunus» surəsinin 49-cu ayəsi həmçinin «Hicr» surəsinin 5-ci və «Muminun» surəsinin 43-cü ayələri bu ayəyə oxşardır. Bunlarda oxuyuruq:

«Hər bir ümmət və dəstənin əcəli vardır ki, əcəlləri sona çatanda bir saat olsun belə gecikməzlər. Və (əlbəttə) bir saat qabağa da keçməzlər».

Göründüyü kimi, bu şərif ayələrdə ümmətin həyatından söz açılır. Yəni ümmət hər bir fərd kimi həyata malikdir. Onun son məqamı var. Bu son an qaçılmazdır. Yəni nə gecikər və nə də qabağa keçər. Aydındır ki, bir

ümmətin üzvləri bir anda və birgə ölmürlər. Onlar fərdi həyatlarını növbə ilə dəyişir və əldən verirlər. Deməli, bir anda sona yetən həyat insan fərdlərinə, deyil ümmətə aiddir. Başqa sözlə, burada kollektiv həyatdan söhbət gedir, fərdi həyatdan yox. Deməli, Quran baxımından kollektiv həyat təkcə bir təmsil deyil, bir gerçəklikdir, kollektiv ölümün insanların fərdi ölümlərindən fərqləndiyi kimi. Bir ümmətin üzvlərinin çox hissəsi diri olduğu halda həmin ümmətin ölüm məqamı çata bilər. Misal üçün, Bəni-İsrail qövmünün ölümü onlar öz vəhdətini, qüdrət və əzəmətini əldən verdikləri zaman çatdı. Halbuki, həmin vaxtda onların çox hissəsi yaşayır və dünyanın bəzi yerlərində öz həyatlarına davam edirdilər. Bir sözlə, ümmətin müstəqil həyatı və ölümü onun müstəqil şəxsiyyətinə və gerçəkliyinə dəlalət edir.

Demək olar ki, bu dəlil müsəlman kollektivistlərinin ən ümdə dəlilidir. Bu dəlilin cavabında deyirik:

Birinci: Müşahidə etdiyimiz ayələrdə işarə əvəzliyinin cəm formada gəlməsi onu göstərir ki, ümmət vahid bir şəxsiyyət deyil. Çünki belə olsaydı, burada işarə əvəzlikləri cəm formada gəlməzdi.

İkinci: Əgər ümmətin ölümündə məqsəd Nuhun, Hudun, Lutun, Şüeybin və Saleh peyğəmbərin və Fironun qəbilələrinə nazil olan əzabdırsa bunu bilməliyik ki, həmin əzablar zamanı ümmətin üzvlərinin hamısı bir anda öldülər. Deməli, kollektivistlər həmin ayələrə istinad edib öz müddəalarını sübuta yetirə bilməzlər. Çünki burada bir ümmətin əcəli onun fərdlərinin əcəli ilə bərabərdir. Ondan müstəqil deyildir.

Üçüncü: Əgər ümmət məhv olduğu halda onun üzvlərinin bir çoxu yenə həyatlarına davam etsələr də, bununla ümmətin obyektiv gerçəkliyini sübut etmək olmaz. Misal üçün, Bəni-İsrail qövmündən bir çoxu indiyə qədər öz həyatlarına davam edirlər. Lakin onlar pərakəndə olduqlarından, vahid və qüdrətli bir dövlət və hökumətə malik olmadıqlarından yenə «ölü ümmət» adlanırlar. Ümmətin fəna olmasını, yalnız bu mənaya uyğun olaraq qəbul etmək olar. Lakin buradan belə nəticə çıxarmaq olmaz ki, Bəni-İsrail qövmü öz zamanlarında həqiqi tərkibə malik idilər. Misal üçün, Bəni-İsrail qövmünü Süleyman peyğəmbərin hakimiyyəti zamanı diri, fəal və aktiv saxlayan cəhət o həzrətin vahid hakimiyyət prinsipi idi. Bu isə obyektiv gerçəklik deyil, qeyri-obyektiv bir varlıqdır. Süleyman peyğəmbərin hökuməti, həmçinin Bəni-İsrail qövmünün cəmiyyəti həmin zamanlar obyektiv bir varlıq hesab olunmamalıdırlar. Deməli, burada, yalnız onu

deyə bilərik ki, hər bir ümmətin ölümü onun ictimai və siyasi sisteminin dağılması deməkdir.

5) «Casiyə» surəsinin 28-ci ayəsində oxuyuruq:

«Hər bir ümmət öz kitabına tərəf çağırılacaq».

Bu şərif ayədən istifadə olunur ki, hər bir insanın özünəməxsus əməl dəftəri Qiyamət günü ona təhvil verildiyi kimi, ümmətlər də həqiqi mövcudlar sırasında olduğu üçün şüurlu, iradəli və məsuldurlar və bu cəhətdən özünəməxsus əməl dəftərinə malikdirlər. Onlar da Qiyamət günü öz əməl dəftərlərinə tərəf çağırılacaq və onların əməllərinə baxılacaqdır. Deməli, Quran baxımından ümmətin hesab-kitabı insanların fərdi hesab-kitabından ayrıdır. Bu isə ümmətin obyektiv və həqiqi varlıq olmasına dəlalət edir.

Bu dəlil barədə deyirik:

1. Qiyamət günündə və Axirət aləmində cəmiyyət və ictimai həyat məfhumu yoxdur. «Məryəm» surəsinin 95-ci ayəsində gəlmişdir:

«Qiyamət günü onların hamısı Onun yanına tək gələcəklər».

«Ənam» surəsinin 94-cü ayəsində isə oxuyuruq:

«Həqiqətən, Bizim yanımıza sizi yaradılışın əvvəlində yaratdığımız kimi tək gəldiniz».

2. Hər bir ümmətin özünəməxsus əməl dəftərinə sahib olması ümmətin obyektiv gerçəkliyinə dəlalət etmir. Özünəməxsus peyğəmbəri olan hər bir insan toplumunun ayrıca kitabı vardır. Həmçinin, müstəqil əqidə, əxlaq normaları və digər oxşar əməllərə malik olan bir dəstə insan da xüsusi kitaba malikdir. «Mutəffifin» surəsinin 7-ci ayəsində oxuyuruq:

«Şübhəsiz, pis əməl sahiblərinin (cəza) əməl dəftəri «Siccin»dədir.» Həmçinin, həmin surənin 18-ci ayəsində Allah-Təala buyurmuşdur:

«Həqiqətən, yaxşı əməl sahiblərinin (mükafat) əməl dəftəri «illiyyin»dədir.»

«Mutəffifin» surəsinin bu iki ayəsindən belə nəticə çıxarmaq olarmı ki, pis və yaxşı əməl sahibləri obyektiv tərkibə malikdirlər və onlar «pis insanlar cəmiyyəti» və ya «yaxşı insanlar cəmiyyəti» adlanan yeni və müstəqil bir gerçəklik yaradırlar? Dünyanın əvvəlindən sonuna qədər hər bir cəmiyyətə, soya, dilə, dinə, məzhəbə, məkana və zamana aid olan bütün pis və yaxşı insanların bir kitabı olduğu kimi, kiçik cəmiyyətin kiçik qruplarının da özünəməxsus kitablara malik olması mümkündür. Burada

sual oluna bilər ki, kitabların sayı qədər xarici aləmdə obyektiv gerçəkliklərin olmasını sübut etmək olarmı?

6) Qurani-kərimdə bəzən cəmiyyətin bir fərdinin əməli bütün cəmiyyətə, bəzən isə cəmiyyətdə olan bir nəslin əməli bütün nəsillərə nisbət verilir. Bu kimi nisbətlərə əsas verən odur ki, hər bir cəmiyyətin fərdləri və nəsilləri özünəməxsus ictimai təfəkkürə, ümumi iradəyə və bir sözlə, kollektiv ruha malikdirlər. Hər bir rəftar kollektiv ruhdan baş verdiyi üçün onu bütün fərdlərə və nəsillərə istinad vermək olar. Misal üçün, öz əli və ya ayağı ilə bir işi görən insana «onun əli və ya ayağı həmin işi gördü» demirlər. Bu işi onun özünə nisbət verirlər. Quranda bu kimi nisbətlərdən başa düşmək olar ki, Quran baxımından fərdlər və nəsillər obyektiv bir həqiqi gerçəkliyin üzvüdürlər ki, biz onu «cəmiyyət» adlandırırıq.

Qurani-kərimdə bir fərdin işinin bütün cəmiyyətə nisbət verilən məqamlardan biri Səmud qövmünün əhvalatındadır. Belə ki, onlardan biri Saleh peyğəmbərin dəvəsini öldürdü. Quranda Səmud qövmündən bir nəfərin əlinə silah götürərək dəvəni öldürməsi qeyd olunsa da (müraciət edin: «Qəmər» surəsi, 29-cu ayə) dəvənin öldürülməsi bütün cəmiyyətə nisbət verilir (müraciət edin: «Əraf» surəsi, 77-ci ayə; «Hud» surəsi, 65-ci; ayə «Şüəra» surəsi, 157-ci ayə və «Şəms» surəsi, 14-cü ayə) və onların hamısı cinayətkar adlandırılaraq cəzalanmağa layiq görülür. Misal üçün, Allah-Təala buyurur:

«Amma onlar onu (Salehi) təkzib etmişdilər və Allahın vədəsini unutmuşdular. Rəbbi də günahlarının cəzası olaraq onların hamısının kökünü kəsib yerlə yeksan etdi.»[8]

İmam Əli (ə) bu mətləbin izahında buyurur: «Ey insanlar, bir işə razı olmaq və yaxud həmin işdən narazı və qəzəbli olmaq insanları bir araya toplayır. Səmud qövmünün dəvəsini, yalnız bir kişi öldürdü, lakin Allah-Təala əzabı onların hamısına göndərdi. Çünki onların hamısı onun işindən razı idilər. Allah-Təala isə buyurdu: «Onlar dəvəni öldürdülər və peşman oldular.»[9]

O həzrətin bu kəlamından məlum olur ki, insanları bir araya toplayan, onlara vəhdət bəxş edən, onları müştərək və ortaq taleyə qovuşduran iki xüsusiyyətdir: onlarda olan razılıq və qəzəb hissi. Yəni insanlar kollektiv şəkildə baş verən hadisədən razı və yaxud ona qarşı narazı olsalar, onların hamısı eyni taleyə düçar olacaqlar. Səmud qövmünün hamısı onlardan birinin gəldiyi qərara və törətdiyi əmələ razı idilər. Deməli, bu qərar həyata

keçəndə ümumi ideya həyata keçmişdir. Bu səbəbdən, Allah-Təala onların hamısını cəzalandırdı.

Ümumiyyətlə, insanın bir günaha razı olması, yalnız razılıq həddində olsa, yəni həmin insanın bu günahı həyata keçirməsində iştirakı olmasa günah sayılmır. Deməli, başqa birisinin etdiyi günahın qarşısında həmin günaha razı olan şəxs günah etməmişdir. Hətta günah etməyi qərara alan şəxs, həmin günahı həyata keçirməyincə günahkar deyildir. Hər bir insanın başqa birisinin etdiyi günaha razı olması o vaxt günah hesab olunur ki, həmin şəxs günahkar şəxsin törətdiyi əməldə şərik olsun. İctimai günahlar bu qəbildəndir. İctimai abı-hava və kollektiv ruh bir günahın törədilməsinə qarşı razılıq göstərir, bu vaxt cəmiyyətdə yaşayan bir fərd kollektiv ruhun razılığını müşahidə edərkən həmin günahı törədir. Beləliklə, bir şəxsdə günah baş verir, lakin bu, kollektivin və cəmiyyətin günahı hesab olunur. İmam Əli (ə) kəlamını da bu formada izah etməliyik. Nəinki başqa birisinin işində heç bir iştirakı olmayan şəxs, yalnız ona razı olduğu üçün günahkar hesab olunur.

Bir sözlə, günahı fikirləşmək və yaxud başqa bir günahkarın əməlinə razı olmaq günah hesab olunmur. Deməli, Səmud qövmü Saleh peyğəmbərin dəvəsinin öldürülməsinə razı olduğu üçün günahkar və ilahi əzaba layiq hesab olunmamalıdırlar. Bununla belə, görürük ki, Allah-Təala onların hamısını günahkar hesab etmiş və cəzalandırmışdır. Bu faktı necə izah etmək olar? Yeganə yol budur ki, Səmud qövmünün hamısını vahid bir ruha malik olan obyektiv gerçəklik kimi hesab edək.

Bunlardan əlavə, öncə dediyimiz kimi, Qurani-kərimdə bəzi yerlərdə bir nəslin işi sonrakı nəsillərə də nisbət verilmişdir. Bunun xüsusilə Bəni-İsrail qövmü haqda çoxlu nümunələri vardır. Qurani-kərim bir çox hallarda Bəni-İsrail qövmünün keçmiş nəsillərinin əməllərini peyğəmbərlə müasir zamanda yaşayan yəhudilərə nisbət verir. Misal üçün, onlara xitab edərək buyurur: «O zaman ki, sizə ən ağır işgəncələr verən, oğlanlarınızın başlarını bir yerdə kəsən, qadınlarınızı isə diri saxlayan fironlulardan nicat verdik. Bu işdə (sizin üçün) Rəbbiniz tərəfindən böyük bir imtahan var idi.[10] Davamında: «Dənizi sizin üçün yardıq, beləliklə sizə nicat verdik və siz baxa-baxa fironluları (suda) batıraraq boğduq».[11] «Musadan sonra buzova ibadət etməyə başladınız».[12] «Və zalım oldunuz».[13] «O işdən sonra sizi əfv etdik».[14] «Bəlkə şükür edəsiniz.»[15] «Siz dediniz: Ey Musa, Allahı aşkar surətdə görməyincə, sənə əsla iman gətirməyəcəyik. Beləliklə,

gözünüz baxa-baxa sizi ildırım vurdu.»[16] «Ölümünüzdən sonra sizi (yenidən) diriltdik ki, bəlkə şükür edəsiniz.»[17] «Və (Sina səhrasında sərgərdan qaldığınız zaman) buluddan başınız üzərində kölgəlik düzəltdik və sizə «mən» (bir növ ağac şirəsindən hazırlanmış yemək) və «səlva» (bildirçin) endirdik.»[18] «Dediniz: «Ey Musa, biz bir cür yeməyə heç cür dözməyəcəyik. Buna görə də bizim barəmizdə öz Rəbbini çağır ki, bizim üçün yerin bitirdiyi şeylərdən göyərti, xiyar, sarımsaq, mərcimək və soğan çıxartsın.»[19] «Sizdən əhd-peyman aldıq və Tur dağını başınızın üzərinə ucaltdıq.»[20] «Ondan sonra siz üz döndərdiniz. Əgər Allahın sizə lütf və mərhəməti olmasaydı, mütləq zərər çəkənlərdən olardınız.»[21] «Və əlbəttə, siz içərinizdə şənbə günü (Allahın əmrindən) çıxanları (və həmin günü balıq tutanları) tanıdınız. Biz onlara dedik: Meymun və (Bizim dərgahımızdan) qovulmuşlar olun!»[22] «Bir nəfəri öldürüb onun (qatili) barəsində mübahisəyə başladınız və Allah gizlətdiyinizi aşkar etdi.»[23] «Sonra onun (möcüzələrin) ardınca sizin qəlbləriniz sərtləşdi, daş parçaları kimi və ya ondan da bərk oldu.»[24] «Sizlərdən bir dəstə Allahın kəlamını eşidir, lakin onu təhrif edirdilər.»[25] «Bəs nə üçün hansısa peyğəmbər sizə ürəyinizə yatmayan bir şey gətirəndə, təkəbbür göstərdiniz, bir dəstəni təkzib edir, bir dəstəni isə öldürdünüz?!»[26] «Həm peyğəmbərləri nahaq yerə öldürür, həm də camaat içərisində ədalətə dəvət edənləri qətlə yetirirdiniz.»[27] «Sizə dedik: «Bu qapıdan səcdə edən halda daxil olun», və sizə dedik: «Şənbə günü balıq ovlamağın haramlıq həddini aşmayın.» «Və sizdən möhkəm bir əhd peyman aldıq»[28] «Məryəm barədə böyük bir yalan danışdınız.»[29] «Və dediniz: Biz Allahın peyğəmbəri Məryəm oğlu İsanı öldürdük. Halbuki, onu nə öldürdünüz və nə də çarmıxa çəkdiniz.»[30] Habelə Qurani-kərim peyğəmbərlə eyni vaxtda yaşayan Kitab əhli haqda buyurur:

«Harada tapılsalar (İslam baxımından) onlara-Allah tərəfindən olan bir ipə (İslamı qəbul etməyə) və ya camaat tərəfindən olan bir ipə (müsəlmanların himayəsinə sığınmaları) istisna olmaqla-zillət və xarlıq (damğası) vurulmuşdur. Onlar Allahın qəzəbinə tərəf dönüb onun qəzəbinə layiq olublar. Və onlara (etiqadi, əxlaqi, əməli və İctimai) fəqirlik və bədbəxtlik (damğası) vurulmuşdur. Bu ona görədir ki, onlar həmişə Allahın ayələrinə kafir olur və Allahın peyğəmbərlərini nahaq yerə öldürürdülər. Bunun səbəbi günah etmələri və həmişə həddi aşmalarıdır.»[31]

Habelə Musa (ə) qövmünün haqqında Allah-Təala buyurur:

«Və (yada sal) o zamanı ki, Rəbbin Qiyamət gününədək mütləq onlara (yəhudilərə) həmişə ağır əzab verən kəslər göndərəcəyini elan etdi. Həqiqətən, sənin Rəbbin tez cəza verən və (eyni zamanda) çox bağışlayan və mehribandır.»[32]

Aydın məsələdir ki, peyğəmbərin müasirlərindən heç biri bütün bu işlərdə iştirakçı deyildilər. Belə olan halda, bu qədər hiddətli xitabı və onlara nisbət verilən əzabı necə izah etmək olar? Cavabında deyirik ki, Quran baxımından Bəni-İsrail qövmü vahid bir cəmiyyət və kollektiv ruha malik bir gerçəklikdir. Belə olan halda, onlardan birinə və yaxud bir nəslə nisbət verilən iş həqiqətdə bütün vahid kollektiv ruha aiddir. Bu səbəbdən, bütün fərdlərə və yaxud nəsillərə aid etmək olar. Bəni-İsrail qövmünün vahid kollektiv ruha malik olmasıdır ki, onlardan birinin müəyyən bir günah həyata keçirməsi bütün fərdlərin və yaxud nəsillərin cəzalanmasına gətirib çıxarır.

Bu dəlilin qarşısında deyirik: Biz bu hadisə haqda olan ayələrin hamısını araşdıra bilmərik. Xülasə şəkildə deyə bilərik ki, müqəddəs İslam dinində bəzi məsələlər və hökmlər dinin zəruri və «möhkəm» hissələri adlanır. Yəni bunlarda şəkk etmək qeyri-mümkündür. Digər məsələlər isə həmin möhkəm məsələlər vasitəsilə izah olunanlardırlar. Bunlar «mütəşabeh» adlanır. Yəni izaha və təfsirə ehtiyacı olan məsələlər. Burada bir məsələyə diqqət yetirmək əhəmiyyətlidir. Mütəşabehləri təfsir edərkən dinin möhkəm və zəruri məsələlərindən qafil olmamalıyıq. Yəni mütəşabehlərin təfsiri möhkəm məsələlərin təfsiri ilə uyğunlaşmalıdır.

İslam dinində dəqiq və qəti qanunlardan biri budur:

«Heç kəs başqasının günah yükünü götürməyəcəkdir. Və insan üçün etdiyi səy və təlaşdan başqa heç bir şey yoxdur. Onun səy və təlaşının nəticəsi tezliklə görünəcəkdir. Sonra onun müqabilində ona kamil əvəz veriləcəkdir.»[33]

(Qeyd edək ki, «Heç kəs başqasının günah yükünü götürməyəcəkdir» cümləsi «Ənam» surəsinin 164-cü ayəsində, «İsra» surəsinin 15-ci ayəsində, «Fatir» surəsinin 18-ci ayəsində və «Zumər» surəsinin 7-ci ayəsində də gəlmişdir.) Quranda ən möhkəm ayə isə bu ayədir:

«Hər kim bir zərrə ağırlığında yaxşı iş görürsə, onu (qarşılığını və yaxud eynilə təcəssümünü) görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görürsə, onu görəcəkdir.»[34]

Heç bir şəxsin günahı başqasının üzərinə yüklənmir. Bu nəinki hər bir müsəlmanın əqidəsinin əsasını təşkil edir, bütövlükdə bütün səma dinlərinin qanunlarından hesab olunur. Və burada heç şəkk-şübhəyə yol yoxdur. Kollektivistlərin söylədikləri Quran ayələri elə təfsir olunmalıdır ki, bu qanunla ziddiyyətdə olmasın.

Burada sual oluna bilər ki, bu qanunu əsas götürsək, bəs Səmud qövmünün hamısının cəzalanmasını necə izah etmək olar? Burada bir məsələyə diqqət yetirmək lazımdır:

1.Səmud qövmünün hamısı dəvəni öldürən şəxsi təşviq edirdilər və onun işində təsir göstərirdilər. «Qəmər» surəsinin 29-cu ayəsində oxuyuruq:

«Beləliklə, onlar (həmin dəvəni öldürmək üçün bir yerə toplaşdılar və) yoldaşlarını çağırdılar. O da qılınc götürüb dəvənin ayaqlarını kəsdi.»

Bu şərif ayənin birinci cümləsində göstərilir ki, Səmud qövmü öz aralarında bir şəxsi bu işə məcbur edirdilər. Bəlkə belə bir məcburiyyət olmasaydı, həmin şəxs bu işi həyata keçirməzdi. Çünki bəzi vaxtlar uzaq səbəbin təsiri yaxın səbəbin təsirindən daha çoxdur. Deməli, iddia etmək olmaz ki, Səmud qövmü bu cinayətin həyata keçməsində heç bir təsirə malik deyildi.

2. Şərti olaraq qəbul edək ki, Səmud qövmü həmin şəxsi bu işə məcbur etməmişdir. Bu vaxt yenə də onların heç bir günaha malik olmamasını iddia etmək olmaz. Çünki pis işlərdən çəkindirmək İslamda vacib bir əməldir və bunu tərk etmək böyük günahdır. Səmud qövmü həmin şəxsi pis əməlindən çəkindirməli idi. Xüsusilə də Saleh peyğəmbər onlara buyurmuşdu: «Bu, Allahın dəvəsidir. Sizin üçün möcüzədir. İcazə verin, o, Allahın yerində otlasın. Su sizin və bu dəvə üçün ayrılmışdır. Bir gün sizin üçün, bir gün də bu dəvənin su içməsi üçün müəyyən olunmuşdur. Həmin müəyyən olmuş gündə su içməyə gəlin və dəvənin növbəsinə riayət edin. Ona zərər və ziyan vurmayın, yoxsa sizi dərdli bir əzab yaxalayar.» (Müraciət edin: «Əraf» surəsi, 73-cü ayə; «Hud» surəsi, 64-cü ayə; «Şüəra» surəsi, 155, 156-cı ayə; «Qəmər» surəsi 28-ci ayə və «Şəms» surəsi, 13-cü ayə) Səmud qövmünün vəzifəsi bu idi ki, dəvəni azad buraxsınlar və həmin heyvana sui-qəsd etmək istəyən şəxsin qarşısını almaq idi. Lakin onlar bu işi görmədilər. Deməli, hətta onların birinci günahını, yəni pis işi həyata keçirməyi nəzərə almasaq da, yenə onlar digər bir günaha batmışdılar. Başqasını pis işlərdən çəkindirməyi tərk etmək.

Burada digər bir məsələ də aydınlaşır. Günahlar təkcə müsbət xarakter daşıyan günahlar deyildir (Yəni əməldə hər hansısa bir prosesin baş verməsi). Misal üçün, şərab içmək, yalan danışmaq, sələm yemək və sair. Bilmək lazımdır ki, neqativ (tərk) xarakterli günahlar da mövcuddur. Misal üçün, namaz qılmağı tərk etmək, zəkat verməmək, yaxşı işlərə dəvəti və pis işlərdən çəkindirməyi tərk etmək də böyük günahlardan sayılır.

3. Fərz edirik ki, iki deyilən günahların heç birinə Səmud qövmü bulaşmamışdır. Lakin sual olunur ki, görülən günah işə qarşı razı olmaq günah deyilmi? Burada çox əhəmiyyətli bir məqamı xatırlatmaq lazımdır. Savab və yaxud cəza qazanmaq təkcə fiziki əməllərə aid deyildir. Savab və cəza ixtiyari əməllərə də aid olur. Bu əməllər fiziki və psixi əməllər cinsindən ola bilər. Kollektivistlər deyirlər: Yalnız başqasının günah işinə razı olmaq onun əməlində iştirak etməmək şərti ilə günah deyildir. Hətta onlar bildirirdilər ki, hər bir insan günahı fikirləşərək onu həyata keçirməyincə, günahkar hesab olunmur. Bizim fikrimizcə, bu düzgün fikir deyildir. Quranda «Bəqərə» surəsinin 284-cü ayəsində bildirilir:

«Qəlbinizdə olanı aşkar etsəniz də, gizlətsəniz də Allah sizinlə onun hesabını aparacaqdır.»

Bu ayədən belə nəticə almaq olar ki, yalnız qəlblərdə olan bəzi duyğular da Allahın savabına şamil olar və yaxud Allahın əzabına düçar ola bilər. «Hucurat» surəsinin 12-ci ayəsində isə oxuyuruq:

«Ey iman gətirənlər! Gümanların çoxundan çəkinin. Çünki gümanların bəzisi günahdır.»

Gümanların bəzisinin günah olması onu bildirir ki, bəzi qəlbdən keçən hisslərə də savab və yaxud ilahi cəza şamil ola bilər. Burada, yalnız insanın ixtiyar hüdudlarından kənar olanlar istisnadır. Əlbəttə, başqalarına qarşı həsəd aparmaq, başqa insanlarla düşmənçilik duyğusu hissinə malik olmaq və bu kimi qeyri-ixtiyari qəlbi hisslər qəlbdə ilk əvvəl yaranan zaman Allahın əmrinə və yaxud nəhyinə şamil olmur. Lakin bunlar insanın özünün təlqinləri ilə davam edər və qəlbdə möhkəmlənərsə insanı günaha bulaşdıracaqdır. Və insan bunun vasitəsilə günaha başlayır. Çünki onların davam etməsi insanın ixtiyar hüdudlarına daxildir. İxtiyari olan hər bir iş isə insanın nəfsində təsir qoyur. Bu, müsbət və mənfi təsir ola bilər ki, beləliklə insanı mənəvi kamala və yaxud mənəvi süquta tərəf yönəldər. Bu səbəbdən, Allahın əmri və yaxud nəhyi ona aid olur. Bir sözlə, batini və qəlbi hisslərin savaba və yaxud cəzaya şamil olmaması insan üçün günahı fikirləşmək və

yaxud başqasının törətdiyi günah işə qarşı razı olmağın günah hesab edilməməsi fikri bütövlükdə məqbul sayıla bilməz. Səmud qövmünün təkcə başqa günahları olmasaydı da, onlar bu günaha bulaşmışdılar ki, dəvənin ayağının kəsilməsinə razı idilər.

Bütün bunlardan belə nəticə çıxarılır ki, bu işdə Səmud qövmünün digər üzvləri də günahkar idilər və burada Allah tərəfindən gələn əzab onların birinin günahına görə deyildi. Deməli, bu yolla cəmiyyətin fəlsəfi obyektivliyi və yaxud kollektiv ruha malik olması ideyasını sübuta yetirmək olmaz.

Biz öz fikrimizi bir çox dəlillərə əsaslandıra bilərik. Misal üçün, Quran ayələrinin özündən və hədislərdən istifadə etmək olar. «Səbt» (şənbə günü) səhabələrinin əhvalatında Bəni-İsrail qövmü üç dəstəyə bölündülər. Birinci dəstə ilahi hüdudlara təcavüz edir, şənbə gününə hörmət etmir və bu gündə balıq ovuna çıxırdılar. İkinci dəstə şənbə günü balıq ovlamır, lakin bunu edənlərin qarşısında sakit olur və onları pis əməllərindən çəkindirmirdilər. Üçüncü dəstə isə balıq ovlamır və bundan əlavə, balıq ovuna gedənləri bu əməllərdən nəhy edir, çəkindirirdilər və onları Allahın əmrinə qarşı olduqları üçün ilahi əzabdan qorxudurdular. Beləliklə, üçüncü dəstə nicat əhli oldular. Birinci dəstə balıq ovladığı, ikinci dəstə isə onları pis əməllərindən çəkindirməmələri üçün Allahın əzabına düçar oldular. Göründüyü kimi, başqalarını pis işdən çəkindirmək vəzifəsini tərk etmək digər şəriət vaciblərinin tərk olunması kimi ilahi əzaba səbəb olur.

Digər tərəfdən, Quranda insanlara nazil olan ilahi əzablar barədəki əhvalatları mütaliə edərkən müşahidə edirik ki, burada həqiqətən günahsız olan bir, iki və yaxud bir neçə insan ilahi əzabdan amanda qalmışdır və Allahın əzabı ona şamil olmamışdır. Həmçinin, əzabdan amanda qalacaq bir ailənin üzvlərindən biri günahkar və ilahi əzaba layiq olmuşsa, həmin bir nəfər başqalarından ayrılır və ilahi əzaba düçar olurdu. (Misal üçün, Lut peyğəmbərin həyat yoldaşı kimi.) Bütün bunlar onu göstərir ki, Quran baxımından heç bir şəxs başqasının günahına görə cəzalanmır.

İmam Əlinin (ə) kəlamı haqqında isə bunu demək olar ki, o həzrət insanları ictimai məsuliyyətlərinə qarşı diqqətli olmağa çağırır və onlara bildirmək istəyirdi ki, elə fikirləşməsinlər onların vəzifələri təkcə fərdi işləri yerinə yetirməkdir. O həzrət demək istəyirdi ki, hər bir insan həm özü düzgün yolda olmalı, həmdə başqalarını həmin yola dəvət etməlidir. Həmçinin, həm özü pis işlərdən çəkinməli və həm də başqalarını pis

işlərdən çəkindirməlidir. Yəni suda boğulanların əlindən tutmalıdır. O həzrətin məqsədi bu deyil ki, hər bir cəmiyyət kollektiv bir ruha malikdir və cəmiyyətin bir fərdi müəyyən bir günaha bulaşarsa, cəmiyyətin digər üzvləri də həmin kollektiv ruha əsasən Allahın cəzasına düçar olacaqlar.

İslam Peyğəmbəri ilə (s) müasir dövrdə yaşayan yəhudilərə Bəni-İsrail qövmünün keçmiş nəsillərinin pis və ya yaxşı əməllər barədə Quranın xitab etməsi isə bunu bildirir ki, peyğəmbərlə eyni vaxtda yaşayan yəhudilər çox özlərinə güvənməsinlər. Şübhəsiz, Quranda göründüyü kimi, Allah-Təala Bəni-İsrail qövmünə çoxlu rəhmət göndərmiş və öz nemətlərini onlara təqdim etmişdir. Onlara kitab, hikmət, peyğəmbər göndərmiş, pakizə nemətlərdən onlara ruzi etmişdir və öz zamanında olan digər xalqlardan onları üstün tutmuşdur. (Bu barədə müraciət edin: «Bəqərə» surəsi, 40, 47, 64, və 122-ci ayələr. Həmçinin, «Əraf» surəsi 140 və «Casiyə» surəsinin 16-cı ayəsi.) Allahın yəhudilərə qarşı belə rəhmətli olması və onları ilahi nemətlərə qərq etməsi buna səbəb olmuşdur ki, yəhudilər başqaları qarşısında fəxr edir və özlərinə güvənirdilər. Onlar deyirdilər ki, təkcə yəhudilər behiştə gedəcəklər, («Bəqərə» surəsi, 111-ci ayə), «yəhudi olun ki, hidayət tapasınız», («Bəqərə» surəsi, 135-ci ayə), «Cəhənnəm odu bizə bir neçə gündən artıq əsla dəyməz», («Ali-İmran» surəsi, 24-cü ayə), «biz Allahın övladları və Onun dostlarıyıq», («Maidə» surəsi, 118-ci ayə) və bu qəbildən olan sözlər. Qurani-kərim yəhudilərə xatırladır ki, düzdür sizin keçmiş atalarınız və babalarınız bir çox üstünlüklərə malik idilər. Lakin bunu da bilməlisiniz ki, onların tarixdəki cinayətləri və zülmkarlıqları da misilsizdir. Siz indi özünüzə güvənməməlisiniz və keçmiş ata-babalarınızın yaxşı işləri ilə faxr etməməlisiniz. Həm də siz keçmişdə öz ata-babalarınızın buzova pərəstiş etmələrini, Allahın ayələrini təhrif etmələrini, peyğəmbərlərini öldürmələrini, yalan danışmaqlarını və digər pis əməllərini yaddan çıxarmamalısınız. Başqa sözlə keçmiş nəslin yaxşı işləri və Allahın nemətlərindən bəhrələnməsi sonrakı nəsllərin başıucalığı və keçmiş nəsllərin pis işləi və onların ilahi əzaba düçar olması sonrakı nəsllərin başıaşağılığına səbəb deyildir. Yəni yəhudi olmaq xiristian adı ilə yaşamaq və yaxud müsəlman adlanmaq kifayət etmir. Burada, yalnız əhəmiyyətli olan şey iman və saleh əməldir. «Bəqərə» surəsinin 62-ci ayəsində Allah-Təala belə buyurur:

«Şübhəsiz (İslama) iman gətirənlər, yəhudilər, məsihilər və sabiilər (Nuhun və ya Yəhyanın ardıcılları) (bu dəstələrdən) hər kim (öz

peyğəmbərlərinin əsrində) Allaha və Axirət gününə iman gətirsə və yaxşı işlər görsə, onlar üçün Rəbbi yanında hallarına münasib sabit mükafat vardır. Onlara (Qiyamət günü) nə bir qorxu var, nə də qəmgin olarlar.»

Bu şərif ayənin oxşarını az fərqlə «Maidə» surəsinin 69-cu ayəsində də müşahidə edirik. Şübhəsiz, İsa peyğəmbər peyğəmbərlik məqamına yetişdikdən sonra, həmin əsrdə Allah-Təalaya və Axirət dünyasına iman gətirən bütün insanlar, o cümlədən, Musa peyğəmbərin ardıcılları həmin həzrətə iman gətirməli idilər. Necə ki, İslam peyğəmbəri həzrət Məhəmməd peyğəmbərliyə yetişdikdən sonra bütün möminlər, o cümlədən məsihilər o həzrətə itaət etməli idilər. Hər halda, təkcə adla müəyyən bir dinə və yaxud məzhəbə mənsub olmaq insanın başqalarından üstün olmasına və yaxud alçaq olmasına dəlalət etmir. Bu səbəbdən, yəhudilərin, həmçinin müsəlmanların və yaxud hər hansı bir dinə mənsub olan insanların arasındakı həmin din mənsubları eyni səviyyədə deyildirlər:

«Kitab əhlindən eləsi var ki, əgər ona çoxlu malı əmanət tapşırsan, onu sənə qaytarar. Həmçinin, onlardan eləsi də vardır ki, əgər ona bircə dinarı tapşırsan daim başı üstündə dayanmayınca (öz malını ondan tələb etməyincə) onu sənə qaytarmaz.»[35]

Deməli, Qurani-kərimdə Bəni-İsrail qövmü və yaxud kitab əhlinin məzəmmət olduğu yerlərdə onların hamısı nəzərdə tutulmur. Bunun əksi də belədir. Yəni onların tərifləndiyi ayələrdə onların hamısı nəzərdə tutulmur. Zillətə düşüb, Allahın qəzəbinə və əzabına düçar olan yəhudilərdən məqsəd, yalnız ilahi ayələrə qarşı kafir olub, peyğəmbərləri öldürən və günaha bulaşmaqla başqalarının hüdudlarına təcavüz edənlərdirlər. Yəni iman əhli və saleh əməl görən insanlar nəzərdə tutulmur. Necə qəbul etmək olar ki, Yaqub peyğəmbərə mənsub olmaqla Bəni-İsrail adlanan qövmün hamısı vahid hökmə şamil olsun? Məgər müsəlmanlardan bir çoxu peyğəmbər (s) zamanında bu yəhudilərdən deyildilərmi? Məgər Qurani-kərimdə kitab əhlindən müsəlman olan alimlər haqqında oxumuruqmu: «Onlar səbir etdikləri üçün iki qat mükafat alacaqlar. («Qəsəs» surəsi, 54-cü ayə.)

Həqiqət budur ki, yəhudilərə bu qədər ilahi məzəmmətlə xitab olunması, və onlara ilahi əzabların vəd edilməsi onların keçmiş ata-babalarının günahlarına görə deyil, ona görədir ki, Allah-Təala bilir: Qiyamətə qədər bəzi yəhudi dəstələr ata-babalarının yoluna davam edəcək və zülmkarlıqdan və kafir olmaqdan əl çəkməyəcəklər. Həmin fərdlər və dəstələrdir ki, Quranda məzəmmət olunurlar.

Müsəlman kollektivist düşüncəli mütəfəkkirlərin bəzi Quran ayələrinə istinad edərək gətirdikləri altı dəlili rədd edərək göstərdik ki, Qurani-kərimdə cəmiyyətin vahid və kollektiv bir ruha malik olması ideyası qəbulolunmazdır. Habelə, bu şərif Kitabdan istifadə etmək olmaz ki, hər bir fərd iki ruha malikdir. Fərdi və kollektiv ruh. Cəmiyyətin kollektiv ruha malik olması və onun xüsusi təsir mexanizminə çevrilməsi Quran baxımından düz deyildir. Quran ayələrində bir qrup insanlar barədə danışılarkən və yaxud bir dəstə insanlara xitab olunarkən həmin insanların hər birinə xitab olunur. Burada bəzi ümumi xüsusiyyətlər nəzərdə tutulur və sonra istisnalar qeyd olunur. Belə xitablardan kollektiv və vahid ruhun gerçəkliyinə sübut gətirmək olmaz.

Son iki fəsildə göstərdiyimiz fikirlərin qısa formada təqdimatı belədir: Biz ictimai həyata malik olan insan fərdlərini insan bədəni kimi vahid və kollektiv ruha malik, obyektiv gerçəklik adlandıra bilmərik. Yəni biz cəmiyyəti cəmiyyət ruhu və yaxud kollektiv cəmiyyət ruhuna malik reallıq kimi qəbul edə bilmərik. Habelə cəmiyyətdə yaşayan bütün fərdlərin müəyyən bir məsələ barədə vahid və ortaq rəyə gəlməsi o demək deyil ki, burada cəmiyyət adlanan obyektiv və gerçək bir mövcud həmin rəyə malikdir. Bəzən deyilir ki, fərdi iradələr su damcıları kimi bir-birinə qovuşur və tədricən böyük bir dəniz yaradır. Bu deyiləndən məqsəd fərdi iradələrin reallıqda birləşərək kollektiv bir iradə yaratması olsa qəti şəkildə qəbul olunmazdır. İnsanların hər birinin nəfslərini bir-biri ilə qovuşdurmaqla digər müstəqil bir vahid nəfs yaranmaz. Bütün bu fikirlərin heç biri indiyə qədər sübuta yetməmişdir.

Deməli, cəmiyyətin həqiqi və obyektiv gerçəkliyə malik olması ideyası nə fəlsəfi aspektdən, nə elmi sübutlar vasitəsilə və nə də Quran ayələrinin köməyi ilə sübuta yetə bilmir. Bəli, İslam peyğəmbərindən nəql olunmuş bir hədisdə oxuyuruq: «Möminlərin bir-birinə qarşı rəhimli və mehriban olması buna bənzəyir ki, bədən üzvlərindən hər biri dərdə düçar olarsa, digər bədən üzvləri də narahat olur və rahat qala bilmirlər.»

Bu hədis barəsində deyirik: Birincisi burada hər cəmiyyətin bütün fərdləri deyil, yalnız möminlər qeyd olunmuşdur. İkincisi, İslam peyğəmbəri (s) möminləri də vahid bir bədən deyil, vahid bir bədənə oxşar təsvir edir. Yəni möminlərin cəmiyyəti obyektiv, vahid bir gerçəklik deyil, buna bənzərdir. O həzrətin kəlamını təkcə möminləri bir-birinə qarşı həmkar və həmdəm olmağa təşviq etmək üçün düşünmək olar. Deməli, bu

hədis cəmiyyəti və yaxud möminlər cəmiyyətini fəlsəfi və sosioloji bir gerçəklik kimi sübut etmək istəmir.

# III FƏSİL

# Cəmiyyətin qanunauyğunluğu

# Ön söz

İkinci hissədə fərdin, yoxsa cəmiyyətin obyektiv reallığa malik olması məsələsini araşdırdıq və burada individualistlərin və kollektivistlərin baxışlarını və rəylərini nəzərdən keçirdikdən sonra, həm fəlsəfi baxımdan, həm də Quran baxımından cəmiyyətin obyektiv reallığa malik olmasını rədd etdik. Fəlsəfi baxımdan fərdin obyektiv reallığını sübuta yetirdikdən və cəmiyyətin müstəqil şəxsiyyətə və həqiqi gerçəkliyə malik olmasını inkar etdikdən sonra burada bir sual yaranır. Belə olan halda cəmiyyətdə sistem və qanundan danışmaq olarmı? Yəni cəmiyyət obyektiv gerçəkliyə malik deyilsə, cəmiyyətdə tətbiq olunan qanunlar necə izah olunur? Bu hissədə həmin sualların cavabını tapmağa çalışacağıq. Biz burada göstərəcəyik ki, individualizm cəmiyyətdəki qanunauyğunluq konsepsiyası ilə ziddiyyət təşkil etmir. İlk öncə burada «qanun» və «təsadüf» terminlərini araşdırmışıq. Onların hər birinin özünəməxsus mənalarına nəzər salmışıq. Sonra sübut etmişik ki, cəmiyyətin qanunauyğunluğu onun fəlsəfi gerçəkliyi ilə əlaqəli deyil. Yəni biz cəmiyyətin fəlsəfi baxımdan obyektiv reallığını inkar etsək də, cəmiyyətin qanunauyğun olub-olmayan bir sistem olmasını araşdıra bilərik. Sonra göstərmişik ki, ictimai məsələlər qanuna uyğundur. Yəni təsadüfi olaraq həyata keçmir. Və ictimai hadisələrin hər birinin qanunauyğunluğunu nümayiş etdirən sosioloji qanunlar bütün cəmiyyətlərdə ortaqdır.

Sonra bu məsələni araşdırmışıq ki, tarix qanuna uyğundurmu? Bu suala müsbət cavab verən iki ən tanınmış filosofun-yəni Hegel və Marksın fikirlərini təqdim etmişik. Sonra Hegel və Marksın fikirlərindəki iki oxşar cəhəti rədd etmək üçün burada iki məsələni önə çəkmişik. Onlardan biri insan azadlığı və ictimai tarixi qanunlar, digəri isə insanın cəmiyyətdə və tarixdəki təkamülüdür. Biz burada göstərmişik ki, insanların ixtiyarı və iradə azadlığı tarixin hərəkəti ilə ziddiyyətdə deyil. Son bəhsdə isə bu

mühüm nöqtəni araşdırmağa çalışmışıq ki, bütövlükdə tarixin hərəkəti heç bir elmi yolla kəşf oluna bilməz.

# 1. Qanun

«Qanun» sözü ən azı iki obyektiv və qeyri-obyektiv mənada işlənə bilər. Qeyri obyektiv qanun əmr və yaxud nəhyə dəlalət edir. Hər bir sürücü idarə etdiyi nəqliyyat vasitəsini yolun sağ tərəfindən sürməlidir. Bu, yol hərəkət qaydalarından biridir. Bu qanun tam aydın şəkildə əmr məzmunludur. Lakin çöllükdə yararsız vəziyyətdə qalan ərazi haqqında desək: «həmin ərazilər hamı tərəfindən istifadə oluna bilər», bu qanun aydın şəkildə əmrə və yaxud nəhyə dəlalət etmir. Lakin bundan başa düşmək olur ki, həmin ərazilərdən istifadə edən şəxsə mane olmamalıyıq. Hər halda, bu iki qanunun hər ikisi qeyri-obyektivdir. Bütövlükdə, hər bir ölkənin milli məclisi tərəfindən qəbul edilən və dövləti tərəfindən icra edilən qanunlar, habelə hər bir nazirliyin və təşkilatın daxili qanunları fəlsəfə baxımından «qeyri-obyektiv» sayılırlar.

Obyektiv və həqiqi qanun real həqiqətlərin göstəricisidir. Misal üçün, iki üstəgəl iki, dördə bərabərdir, «su istilik nəticəsində qaynayır», «oksigen və hidrogenin tərkibindən su yaranır», «bitkilər Günəş işigından, sudan və anidrid-karbonik maddəsindən istifadə etməklə şəkər maddəsi yaradırlar» və bu kimi qanunlar riyaziyyatın, fizikanın, kimyanın və biologiyanın qanunlarından hesab olunurlar. Burada həqiqi və obyektiv real əlaqələrdən söhbət gedir. Bu səbəbdən, belə qanunları «obyektiv qanunlar» adlandırırlar.

Qeyd edək ki, bu kitabda bundan sonra qeyri-obyektiv qanunlar deyil, obyektiv və real qanunlar barədə danışacağıq. Bir təsnifə görə universal məfhumlar üç yerə bölünürlər:

1. mahiyyətə aid olan məfhumlar;
2. fəlsəfi məfhumlar;
3. məntiqi məfhumlar.

Bu əsasla, biz obyektiv qanunları da üç hissəyə ayıra bilərik:

1) Elmi qanunlar: Həmin qanunlar mahiyyətə aid olan məfhumlardan təşkil olunur və xarici aləmdəki maddi hadisələrdən və əşyalardan danışır. Burada fizikanın, kimyanın və biologiyanın qanunlarını nümunə kimi göstərmək olar;

2) Fəlsəfi qanunlar: Bu qanunlar fəlsəfi məfhumlardan düzəlirlər. Misal üçün, «Allah vardır», «insan abstrakt və həmişəyaşar nəfsə malikdir», «insan məcbur deyil, o, iradə azadlığından bəhrələnir;»

3) Məntiqi qanunlar: Bunlar məntiqi məfhumlardan təşkil olunurlar və zehnndəki surətlər barədə danışırlar. Məntiqdə deyilən qanunların hamısını buna misal göstərmək olar.

Burada bir məqamı xatırlatmaq faydasız olmazdı. Bütün elmi qanunlar, bütövlükdə fəlsəfi qanunlardan, xüsusilə də səbəb-nəticə qanununun nümunələridirlər.

Səbəb-nəticə arasındakı əlaqə tam zəruri və realdır. Yəni əgər səbəb varsa, mütləq nəticə də yaranacaqdır. Biz nəticənin varlığından səbəbin varlığını tam yəqinliklə əldə edirik. Səbəb olan halda nəticənin olmaması və yaxud səbəb olmayan halda nəticənin olması qeyri-mümkündür. Bir sözlə, səbəbin bütün şərtləri həyata keçərsə və burada nəticənin yaranmasına heç bir maneə olmazsa, nəticənin yaranması tam zəruridir. Burada səbəb-nəticə maddi və cismani, yaxud abstrakt və nəfsani varlığın cinsindən ola bilər. Habelə səbəb, nəticə cismani və ruhani varlıqlardan mürəkkəb ola bilər. Burada ictimai səbəb və nəticələri misal göstərmək olar. Nəhayət deyirik ki, insan iradəsinə və ixtiyarına aid olan yerlərdə (istər fərdi, istərsə də ictimai məsələlərdə) səbəbin bir şərti insanın və işi görən failin iradəsi və ixtiyarıdır. Yəni əgər failin iradəsi olmazsa nəticə yaranmayacaqdır.

Bütün elmi qanunların fəlsəfədə qəbul edilən səbəb-nəticə qanununun bir nümunəsi olduğu üçün habelə səbəb-nəticə arasındakı əlaqənin zəruri əlaqə olmasına görə, heç bir elmi qanunda istisna qəbul edilmir. İstisnalı qanun təbiri paradoksaldır. Yəni burada hətta bir istisna tapılarsa, həmin qanun öz qanunluğunu itirir.

Bu bəhsdə digər bir məsələni də araşdırmalıyıq. Hər bir qanunun mövzusu və predmeti universal olmalıdır, yoxsa individual məzmunlu mövzuya aid olan qanun da mövcud ola bilər? Qeyri-obyektiv qanunlarda şübhə yoxdur ki, bir sıra qanunlar şəxsi məsələlərə aid ola bilər. Yəni onların mövzusu qeyri-universal ola bilər.

Lakin obyektiv qanunlara gəldikdə, burada bütün qanunların mövzusu universal məfhumlar olmalıdır. Deməli, «Nizami «Sirlər xəzinəsi»nin müəllifidir» yaxud «Məkkə şəhəri Ərəbistandadır» və bu kimi cümlələr real həqiqəti göstərsə də obyektiv qanunlar hesab olunmurlar. Çünki onların mövzuları qeyri-universal və individualdır. Habelə, «bəzi quşlar köçəridirlər» və «xəstəliklərdən bəzisi yoluxucudur», «quşlardan bəzisi uça bilmir», «xəstəliklərin bəzisi yeməkdən zəhərlənmək nəticəsində deyildir» və bu kimi cümlələr də obyektiv qanunlar hesab olunmurlar. Çünki onların mövzuları baxmayaraq ki, universaldır, lakin formaları unvarsal deyildir. Lakin «dəmir oksigenlə tərkib olunur», və yaxud «hər bir insanın ruhu vardır ki, bədən aradan getdikdən sonra da qalır və məhv olmur» və bu kimi qanunlar obyektiv qanunlardırlar. Çünki onların predmeti tam universaldır. Bir sözlə, obyektiv adlandırdığımız bütün qanunların hər şeydən öncə mövzuları tam şəkildə universal olmalıdır.

Burada digər bir sual yaranır: Hər bir qanunun mövzusu universal məfhum olmağından əlavə həmin qanunun xarici aləmdə müxtəlif və bir neçə nümunələrə malik olması gərəklidirmi? Başqa sözlə xaricdə təkcə bir nümunəsi olan məfhuma malik qanun obyektiv qanun hesab oluna bilərmi? Bildiririk ki, hər bir qanunun mövzusu məfhum baxımından universaldırsa, həmin qanun obyektiv sayıla bilər. Hərçənd xaricdə bu məfhumun təkcə bir nümunəsi vardır. Bu misala diqqət yetirin: «Vacibul-vücud saysız kamala sahibdir.» Bu qanunun mövzusu və predmeti, yəni vacibul-vücud (Allah) universal məfhumdur. Lakin onun xaricdə, yalnız bir nümunəsi vardır. Həmin qanunun qeyri-obyektiv olmasına heç bir əsas yoxdur. Çünki insanın əqli bir varlığın vacibul-vücud olması və onun saysız-hüdudsuz kamala sahib olması arasında zəruri rabitə görür. Həmin zəruri rabitənin kəşf olması kifayət edir ki, sözügedən qanun obyektiv adlansın. Deməli, burada əsas məsələ mövzunun zəruriliyi və universallığıdır.

Bəziləri bildirirlər ki, bir neçə nümunələrə malik olmaq bütün obyektiv qanunların lazım şərti olmasa da, elmi və təcrübi qanunlarda lazım şərtlərdən biridir. Çünki bir neçə nümunələrə malik olmayan elmi qanun təkrar qəbul etmir. Aydındır ki, təkrar və təcrübə olmayan yerdə elmi və təcrübi qanunlar əldə etmək mümkün deyildir.

Biz hesab edirik ki, hətta elmi və təcrübi qanunlarda da həmin qanunun təkcə bir nümunə olması kifayət edir. Çünki müəyyən bir qanunun sübutu ilə onun isbatı arasında fərq vardır. Məntiqdə və fəlsəfədə qəbul olan bütün

qanunlar isbat olmazdan öncə sübut olunurlar. Bu əsasla, bütün elmi və təcrübi qanunlar da kəşf olunmazdan öncə mövcud olmuşlar. Deməli, təkrar və təcrübə elmi və təcrübi qanunların reallıqdakı həqiqətini deyil, onların kəşf olunması üçün təsirlidir. Misal üçün, fizikada qəbul olunmuş qanuna diqqət yetirin: «Müəyyən bir miqdar qazda qazın həcmi nə qədər çox olarsa, ondakı təzyiq bir o qədər də azdır. Bir şərtlə ki, havanın dərəcəsi dəyişməz və sabit, həmçinin qazı maye vəziyyətinə salacaq qədər təzyiq çox olmasın.» Bu qanunu ingiltərəli kimyaçı Robert Boyle tərəfindən kəşf olunmasından milyon illər öncə xaricdə real həqiqətə malik olmuşdur. İndi də belədir, gələcəkdə də belə olacaqdır. Deməli, təcrübə və təkrarın təsiri bu elmin həmin qanunu kəşf etməsindədir. Onun xaricdəki reallığında yox. Əgər fərz etsək ki, müəyyən bir təcrübi və elmi qanunun kəşf olunması üçün yeganə yol təcrübə və təkrardır (bu fərzi hələ asanlıqla qəbul etmək olmaz), həmin fərzdən belə bir nəticəyə gəlmək olar ki, müəyyən bir elmi qanunun isbat olunması üçün həmin qanunun bir neçə nümunəsi olmalıdır. Lakin bu o demək deyil ki, həmin qanunun reallıqda sübuta yetməsi üçün, yəni real həqiqəti olması üçün onun bir neçə nümunəsi olmalıdır. Əgər xarici reallıqdakı iki hadisənin arasında vahid və zəruri səbəb-nəticə əlaqəsi vardırsa, bu qanunu göstərən cümlə elmi qanun adlanır, hərçənd həmin qanunu təcrübə yolu ilə əldə edə bilməsək də. Yəni təcrübə və təkrarın olmaması qanunun kəşfinin qarşısını alır, lakin onun varlığını məhv etmir.

Burada bir məsələni də xatırlatmaq lazımdır. Elmi və təcrübi qanunlarda zəruri və daimi bir əlaqənin olmasından belə bir nəticə almaq olmaz ki, təcrübi elmlərin tədqiqatçı alimləri öz sahələrinə aid olan bütün məsələləri öncədən xəbər verə bilərlər. Misal üçün, bu qanunu nəzərdə alın: «Mədən cinsindən olmayan hər bir şey maqnit qüvvəsinə malik deyildir.» Həmin qanunu bildikdən sonra müəyyən bir qərar vermək üçün əlimizdə olan şeyin mədən cinsindən olmamasını dəqiqləşdirməliyik. Məhz bu vaxt həmin şeyin maqnit qüvvəsinə malik olmamasını qəti surətdə bildirə bilərik. Yəni hər bir elmi qanunu bilmək öncədən bütün hadisələr barədə xəbər vermək qüdrətini insana bəxş etmir. Çünki bütün elmi qanunlarda şərtlərdən danışılır. Burada müəyyən bir şərt olarsa başqa hadisələr həyata keçə bilər. Lakin həmin şərtin hal-hazırda mövcud olub-olmamasını biz öncədən müəyyənləşdirməliyik. Misal üçün, heç bir astronomiya alimi ulduzların hərəkəti qanunundan istifadə edərək Günəşin və yaxud ayın nə vaxt tutulacağını öncədən xəbər verə bilməz. Müəyyən bir sinoptika alimi

havadakı dəyişkənliklərdə hakim olan qanunların hamısını bilsə də, bununla belə mümkündür ki, sabah havanın yağışlı olub olmayacağını dəqiq müəyyənləşdirə bilməsin. Çünki belə bir hökm çıxarmağın iki şərti vardır. Onlardan biri hava haqqında qanunların əldə olunması, digəri isə həmin qanunlarda söylənilən şərtlərin hazırda mövcud olmasıdır. Bir sözlə, alimlərin hadisələr barədə öncədən xəbər verməsi şərtsiz və qeydsiz deyildir.

# 2. Təsadüf

Təsadüf sözü bir neçə mənada işlənir. Bunlardan bəzisini nəzərdən keçiririk:

1. Bəzən bizim gözləmədiyimiz bir iş baş verərsə, bunu təsadüfi adlandırırıq. Şübhəsiz, gözlənilmədən baş verən hadisələr də dünyada hakim olan səbəb-nəticə sisteminə tabedir. Onları təsadüfi adlandırmaq isə bizim həmin hadisələri yaradan səbəblərin bəzisinin mövcudluğuna qarşı xəbərsiz olmağımızdan irəli gəlir.

2. Bəzən isə iki müstəqil səbəb və nəticələrin təsiri altında yaranan hadisə ilə üzləşirik. Misal üçün, divarın kənarından keçən bir şəxsin başına divarın üstündən bir kərpic parçası düşür. Biz bu hadisəni təsadüfi adlandırırıq. Lakin həqiqətdə kərpic parçasının düşməsi bir sıra fiziki və mexaniki səbəblərin təsiri nəticəsindədir və həmin şəxsin o anda oradan keçməsi isə bir sıra bioloji və psixoloji səbəblərin nəticəsində baş verir.

3. Bəzən də bizim istəyimiz olmadan həyata keçən işləri təsadüfi adlandırırıq. Məsələn deyirik: «Filan dostumu təsadüfən avtobusda gördüm.» Yəni onu görmək istəmədiyim halda gördüm. Bizim həyatımızda baş verən hadisələrin çoxu bu qəbildəndir. Yəni onları biz öncədən planlaşdırmamışıq. Şübhəsiz, bütün bunları təsadüfi adlandırmaq o demək deyil ki, onlar səbəbsiz həyata keçmişlər. Deməli, ictimai məsələlərdən və hadisələrdən çox hissəsi bu mənaya əsasən təsadüfi adlanır.

Təsadüf sözünün ümumi və xalq arasında işlənən mənalarından sonra onun fəlsəfi və sxolastik (kəlam) mənasına da nəzər salaq. Fəlsəfə və sxolastikada (kəlam elmində) təsadüf səbəb-nəticə qanununun əsassız olması və varlıq aləminin səbəb-nəticə sisteminə tabe olmaması mənasındadır. Başqa sözlə, burada təsadüf heç bir fail tərəfindən, heç bir zaman istənilməyən və həyata keçməyən hadisələr mənasını daşıyır. Təsadüfün bu mənası qəti surətdə rədd edilir. İlahi baxışa görə təsadüfi adlanan bütün şeylər, yalnız onun failinə nisbət təsadüfidir, nəinki

bütövlükdə təsadüfi olsun. Dostumla avtobusda təsadüfən rastlaşmağım mənim istəyim və iradəmlə bağlı olduqda təsadüfidir. Yəni bu rastlaşmaq bütövlükdə təsadüfi deyildir. Çünki müəyyən bir fail tərəfindən bu iş qəsd olunmuşdur-bu fail mən olmasam da belə. Bütün varlıq aləmi ilahi istəyin və iradənin təsiri altındadır. Məkan və zaman çərçivəsində həyata keçən hadisələrin hamısı Allah-Təalanın iradəsinin təsirindədir. Musa peyğəmbər ailəsi ilə birgə Mədyəndən öz şəhərinə tərəf gedərkən Tur dağı tərəfində bir od görür və öz həyat yoldaşına deyir: «Burada qalın. Mən orada bir od gördüm. Bəlkə sizin üçün həmin oddan, ya oradan bir xəbər gətirim ki, qızınaq.»[36] Lakin o həzrət həmin oda yaxınlaşarkən vəziyyət dəyişir və orada peyğəmbərlik məqamına çatır. Aydındır ki, burada həmin hadisə, yalnız oda görə ora gedən və həmin oddan öz ailəsinin qızınmağı üçün bir xəbər gətirmək istəyən Musaya (ə) görə təsadüfi idi. Lakin Allah-Təala burada buyurur: «Ey Musa vaxtında gəldin.»[37] Deməli, həzrət Musanın (ə) ora getməsi təsadüfi deyildi. Biz də müəyyən bir zaman kəsiyində qarşımıza çıxan hadisələri diqqətlə nəzərdən keçirsək, onların təsadüfi olmasını görəcəyik. Bununla belə bilməliyik ki, onların heç biri Allahın iradəsindən kənarda deyildir. Bizim dini mətnlərimizdə ilahi qəza-qədərin və iradənin ümumi olması barədə deyilənlər bu mətləbə işarə edir. O cümlədən, «Hədid» surəsinin 22-ci ayəsində oxuyuruq: «Həm yer üzündə, həm də sizin özünüzdə nə müsibət üz verirsə Biz onu yaranmamışdan qabaq Kitabda qeyd edilmişdir. Həqiqətən bu iş Allah üçün asandır.»

Bu ayə bütün fərdi və ictimai müsibətlərin və bəlaların ilahi iradəyə şamil olmasını və təsadüfi olmamasını bildirir. Bir sözlə, heç bir hadisə səbəbsiz deyildir. Bütün məkan və zamanlarda və bütün formalarda həyata keçən hadisələrin hamısı ilahi məşiyyət və iradənin təsiri altındadır. Muxtar faillərin azad iradəsində cəbr yaranmamağı ilə birgə bütün hadisələr Allahın tədbiri və kainatdakı zəruri səbəb-nəticə sisteminə tabedir. Burada cəbrin yaranmaması isə ona görədir ki, Allah-Təalanın iradəsi muxtar insanların iradəsi ilə eyni vaxtda deyil, onlardan fövqdədir.

# 3. Cəmiyyətin qanunauyğunluğu onun fəlsəfi baxımdan obyektivliyi deyildir

Qanun və təsadüf məfhumlarının (az da olsa) mənaları aydınlaşdıqdan sonra habelə təsadüfün səbəb-nəticə qanununun inkarı mənasına olmamasını bildirdikdən sonra bir sual yaranır: Cəmiyyətin qanunauyğunluğu onun həqiqi və obyektiv varlıq olması deməkdirmi?

Bəzi tədqiqatçılar bildirmişlər ki, obyektiv və real qanuniki obyektiv faktın arasındakı əlaqənin göstəricisi olduğundan, cəmiyyət, yalnız obyektiv varlıq kimi hesab olunduğu zaman obyektiv qanunlara sahib ola bilər. Yəni cəmiyyət qeyri-obyektivdirsə, onun qanunları da qeyri-obyektivdir. Deməli, fəlsəfi baxımdan cəmiyyəti obyektiv reallıq kimi qəbul edənlər orada tətbiq olunan qanunları obyektiv adlandıra bilərlər.

Lakin həqiqət budur ki, cəmiyyəti obyektiv reallıq kimi qəbul etməsək də, orada tətbiq olunan ictimai qanunları, yəni cəmiyyətin müxtəlif kateqoriyalarına hakim olan qanunları obyektiv adlandıra bilərik.

Burada digər bir sual meydana çıxır: İctimai qanunlar cəmiyyətin müxtəlif kateqoriyalarının bir-biri ilə əlaqəsinə hakim olan qanunlardırsa, həmin kateqoriyaların və dəstələrin öz-özlüyündə qeyri-obyektiv olmasını nəzərə alsaq, həmin qanunlar psixoloji qanunlardan nə ilə fərqlənər? Başqa sözlə, fərdlərə deyil, yalnız insan toplumlarına hakim kəsilən qanunlar mövcuddurmu?

Qeyd edək ki, biz öncə bu məsələni araşdırmış və demişdik ki, hər bir insan iki nəfsani hissə malikdir. Onlardan biri heç bir başqa insan olmasaydı da belə, hər bir insanda olardı. Misal üçün: hissi idrak, hafizə, xəyal və iradə. Bütövlükdə, bu hisslər və xüsusiyyətlər fərdi psixologiyada tədqiq obyektinə çevrilir. Digər nəfsani xüsusiyyətlər isə yalnız başqa insanlar mövcud olduğu halda təzahür edir və insanda tapılır. Din, təqlid,

başqalarının təsirinə düşmək və bu kimi hisslər və xüsusiyyətləri burada misal göstərmək olar. İnsanın ictimai mövcud olmasından yaranan xüsusiyyətlər ictimai psixologiya qanunlarına aid olur. Lakin fərdi və ictimai psixologiya qanunlarına göz yumsaq, yenə də hər bir cəmiyyətin daxilində müəyyən kateqoriyalarda hakim olan qanunlarla üzləşirik.

Sosioloji qanunlar sırasına daxil edilən həmin qanunlardan biri belədir: Müəyyən bir cəmiyyətin və yaxud cəmiyyət daxili dəstənin fərdlərinin çox hissəsi müəyyən bir işi həyata keçirərsə, həmin işin pis və ya yaxşı təsiri həmin cəmiyyətdə və yaxud dəstədə yaşayan bütün insanlara aid olacaqdır. Bizim dini və məzhəbi mətnlərimizdə bu sosioloji qanuna bir çox yerlərdə işarə olunmuşdur. Misal üçün, «Əraf» surəsinin 96-cı ayəsində oxuyuruq:

«Əgər şəhər və kəndlərin əhalisi iman gətirsəydilər və təqvalı olsaydılar, şübhəsiz, göydən və yerdən onların üzünə bərəkətlərin qapılarını açardıq.»

Bu ayədə bildirilir ki, müəyyən bir cəmiyyətin əhalisinin hamısı və yaxud əksəriyyəti iman əhli və təqvalı olsaydılar, yerin və göyün bərəkətlərini, yəni göydən çoxlu yağışları, təsərrüfat məhsullarının çoxalmasını, onların fiziki sağlamlığını, ruhi asayişini, ictimai təhlükəsizliyini və bu kimi nemətləri artırardıq. Bunun əksi də ola bilər. Yəni müəyyən bir cəmiyyətin əksəriyyətinin kafir və müşrik olması, başqalarına zülm etməsi və yaxud pis işlərlə məşğul olması həmin işlərin nəticəsi olaraq o cəmiyyətdə yaşayan bütün fərdlərə təsir göstərəcəkdir. Yəni hətta burada yaşayan mömin və saleh insanlar da bunun nəticəsində amanda qalmayacaqlar. Misal üçün, müəyyən bir cəmiyyətdə fərdlərin çox hissəsi tibbi qayda və qanunlara riayət etmirlərsə, bu vaxt cəmiyyətdə baş qaldıran yoluxucu xəstəliklər başqalarına da yoluxacaqdır. «Ənfal» surəsinin 25-ci ayəsində oxuyuruq:

«(Bəlasına) sizin, yalnız zalımlarınızın düçar olmayacağı fitnədən qorxun.»

Diqqət edin, müəyyən bir cəmiyyətdə fərdlərin əksəriyyəti müəyyən bir xüsusiyyətə malik olsalar və yaxud müəyyən bir işi həyata keçirsələr, onun təsiri hamını bürüyəcəkdir. Bu qanun nə fərdi və nə ictimai psixologiyaya aiddir. Bu, yalnız sosioloji qanun hesab olunur. Cəmiyyətin real obyektiv varlıq olmasına dəlalət etməyən bu qanun eyni halda burada obyektiv bir əlaqənin göstəricisidir. Bunu sosioloji qanun adlandırmalıyıq. Burada digər bir qanunu nəzərdən keçirək: «Cəmiyyətdə baş verən hər bir siyasi hərəkət və dəyişkənlik bir sıra maneələrlə üzləşəcək və bir sıra bəyənilməz

nəticələri yaradacaqdır.» Göründüyü kimi, bu qanun fərdi və yaxud ictimai psixologiya sahəsində deyil, siyasi sosiologiya sahəsinə aiddir. Bir sözlə bir çox qanunlar vardır ki, nə fərdi psixoloji qanunlarla nə də ictimai psixoloji qanunlarla izah oluna bilirlər. Bu reallıqlar, yalnız sosiologiya tədqiqatları sahəsində araşdırılmalıdır.

Cəmiyyətin qanunauyğunluğu ilə onun fəlsəfi aspektdən obyektivliyi arasında heç bir əlaqənin olmadığını sübut etdikdən sonra, biz cəmiyyəti obyektiv şəxsiyyətə malik olan bir gerçəklik kimi qəbul etməsək də, özümüzü ictimai məsələlərin qanunauyğun olub-olmaması bəhsinə daxil olmaqda haqlı görürük. Həmçinin, biz bu bəhsdə ictimai məsələlərin gerçəkliyini və qanunauyğunluğu nəzəriyyəsini müdafiə edə bilərik.

# 4. İctimai məsələlərin qanunauyğunluğu və yaxud təsadüfi olması

Hər şeydən öncə bilməliyik ki, hər bir cəmiyyəti iki aspektdən araşdırmaq olar:

Birinci: Cəmiyyətin tarix boyu dəyişkənliyini nəzərə almadan, onun hazırkı vəziyyətini təhlil etmək;

İkinci: Cəmiyyəti tarixdəki dəyişkənliyini nəzərə almaqla araşdırmaq.

Birinci araşdırmada müəyyən bir zaman kəsiyində cəmiyyətdə mövcud olan sistem, ikinci araşdırmada isə cəmiyyətin tarix boyu dəyişkənliyi tədqiq olunur. Beləliklə, sosiologiya iki hissədən təşkil olunur: Onlardan biri müəyyən bir tarix və zaman kəsiyində ictimai sistemdəki müxtəlif kateqoriyalarda baş verən reaksiyalar haqda olan qanunları aydınlaşdırır, digəri isə cəmiyyətin bütövlükdə tarixdəki hərəkət qanunlarını bəyan edir. Birinci təhlildə hər bir cəmiyyətdə mövcud olan sistem tarixin bir anında aydınlaşır. İkinci təhlildə isə cəmiyyətin formalaşdığı gündən indiyə qədər tarix boyu keçdiyi hərəkət yolu göstərilir. Habelə, burada cəmiyyətin bundan sonra son mərhələsinə qədər qarşısına çıxacaq problemlər təsvir olunur.

Qeyd etməliyik ki, ictimai məsələlərin qanunauyğun olub-olmaması barədə yeddi müxtəlif rəy irəli sürülmüşdür. Onlardan bəzisi birinci təhlilə, bəzisi isə cəmiyyətin ikinci növ təhlilinə aiddir. İlk öncə birinci təhlilə aid olan nəzəriyyələr haqda:

1. İctimai proseslər qanunauyğun deyil və burada ictimai qanunlardan danışmaq olmaz.

Bu, Şotlandiyalı filosof David Yum və onun tərəfdarlarının irəli sürdükləri fikirdir. Onlar bütövlükdə səbəb-nəticə qanununu inkar edirlər. Bu səbəbdən, onlar heç bir təbii, bioloji, psixoloji və ictimai qanunlara

inanmır və yaxud səbəb-nəticə qanununu təbii və bioloji sahədə qəbul etdikləri halda, onu humanitar sahəyə şamil etmirlər. Çünki onların fikrincə, insan azad iradəyə malik bir varlıqdır. İnsanın ixtiyar sahibi olması psixoloji və sosioloji qanunlardakı zəruriliyi məhv edir.

Bizim fikrimizcə səbəb-nəticə qanunu fəlsəfənin inkaredilməz qanunlarından sayılır. Həmin qanun humanitar sahələrə də şamil olur. Humanitar sahələrdən-istər fərdi, istərsə də ictimai məsələlər haqda-danışarkən insanın ixtiyarı tam səbəbin üzvlərindən biri sayılır. Deməli, insanın azad iradəsini qəbul etmək psixoloji və sosioloji qanunların zəruriliyini inkar etməklə nəticələnmir.

2. İctimai proseslərdə qanunauyğunluq hökm sürür, lakin hər bir cəmiyyət özünəməxsus qanunlara malikdir. Bu əqidə ilə çıxış edənlərin fikrincə, hər bir cəmiyyət vahid və özünəməxsus bir gerçəklikdir ki, digər bir cəmiyyətlə heç bir oxşar cəhəti yoxdur. Nəticədə, həmin cəmiyyətdə hakim olan qanunlar digər cəmiyyətdə hakim kəsilən qanunlarla tam fərqlidir. Onlar cəmiyyətin əsasını mədəniyyət, mədəniyyətin əsasını isə dəyərlər hesab edir və bildirirlər ki, hər bir cəmiyyətin dəyərləri və özünəməxsus mədəniyyəti həmin cəmiyyətin xüsusi qanunlarını formalaşdırır. Bu ideyanın daşıyıcılarından biri alman idealist filosofu Şpenqlerdir. Onun fikrincə, nəinki din, məzhəb, fəlsəfə və incəsənət, hətta təbii elmlər və riyaziyyat da hər bir mədəniyyətdə özünəməxsus çöhrədə təzahür edir. Və hər bir cəmiyyət özünəməxsus fikirlərlə yaşayır. Belə ki, mədəniyyətlər arasında rabitə və anlaşma keçilməz sərhədlərlə üzləşir. O hətta bildirirdi ki, hər bir cəmiyyətin riyaziyyat barədə təfəkkürü və düşüncələri həmin cəmiyyətin xüsusi mədəniyyəti təsiri altında formalaşır. Belə ki, qədim yunanlıların riyaziyyatı bu gün bizim müasir riyaziyyatla fərqli idi.

Bu nəzəriyyəni rədd edənlər isə bildirirlər ki, hər bir cəmiyyət özünəməxsus unikal bir gerçəklikdirsə, bu vaxt heç bir elmi qanundan danışmaq olmaz. Çünki hər bir elmi qanun oxşar vəziyyətləri dəfələrlə müşahidə etmək sayəsində müyəssər olur. Bu səbəbdən, təkrarolunmaz proseslər elmi qanunlar sayıla bilməzlər.

Şpinqlerin ideyasının rəddində söylənilən bu fikir haqda deyirik:

a) Öncə dediyimiz kimi, müəyyən bir qanunun gerçəkliyi üçün onun məfhum baxımından müxtəlif nümunələrə tətbiqi kifayət edir. Xaricdə isə müxtəlif nümunələrin mövcud olmasına lüzum yoxdur. Elmi qanunların

əsası da insanların təcrübəsinə deyil, burada müəyyən bir səbəb-nəticə əlaqəsinə bağlıdır. Həmin səbəb-nəticə əlaqəsi isə yalnız bir nümunədə təzahür edə bilər. Deməli, onların rabitəsini təcrübə yolu ilə kəşf edə bilməsək də, həmin qanun gerçək qanun ola bilər.

b) Cəmiyyəti müəyyən bir tarix kəsiyində araşdırmağa çalışan və həmin ictimai sistemdə mövcud olan müxtəlif kateqoriyalar arasında reaksiyaları təhlil edən sosiologiyada müxtəlif ictimai tiplər araşdırılır. Deməli, həmin ictimai kateqoriyalarda ictimai tiplər, yalnız bir nümunədə deyildirlər ki, onların qanunlarını təcrübə yolu ilə kəşf edə bilməyək. Burada müxtəlif ictimai tiplər və dəstələr mövcuddur.

3. Tarixin müəyyən bir dövründə yaşayan cəmiyyətlərdə hakim olan qanunlar müştərəkdir və bu qanunlar həmin dövrdə yaşamayan cəmiyyətlərdə hakim kəsilən qanunlardan tam fərqlidir. Çoxlu tərəfdarı olan bu nəzəriyyədə bildirilir ki, hər bir cəmiyyət özünün tarixi seyrində bir neçə mərhələdən keçir ki, onların hər biri digər mərhələlərlə xeyli fərqlidir. Cəmiyyətin yeni tarixi mərhələyə daxil olması ictimai mühitdə çoxlu dəyişkənliyin meydana gəlməsinə səbəb olur. Şübhəsiz, ictimai mühitdə dəyişkənlik maddi mühitdəki dəyişkənlikdən daha köklüdür. Çünki cəmiyyət dəyişirsə, insanlar da dəyişir. Bu isə cəmiyyətin digər sistemlərində və qanunlarında dəyişkənliyə səbəb ola bilər. Çünki insan cəmiyyətin atomu hesab olunur və bütün dəyişkənliklər insanla bağlıdır. İnsan dəyişirsə, bu vaxt istehsal edilən sərvət, ölkədə emal olunan sənaye, ictimai təbəqələr və onların bir-biri ilə əlaqələri, hakimiyyətin forması, qanunlar, cəmiyyət arasında ortaq əqidə və adət-ənənələr, bir sözlə hər bir şey dəyişkənliyə məruz qalır. Cəmiyyətin tarix boyu yaşadığı müxtəlif mərhələlər bir insan ömrünün müxtəlif yaşlarına bənzəyir. Misal üçün, insan ömründə cavanlıq dövrü təkcə bir-iki üzvün təravətli olması ilə deyil, bütün bədənə aid olduğu kimi, müəyyən bir tarixi mərhələ də ictimai sistemin hamısını dəyişkənliklə üzləşdirir. Deməli, cəmiyyətdə baş verən oxşar dəyişkənlik və vəziyyət həmin müəyyən tarixi mərhələdə baş verir və bir mərhələdən digərinə keçmir.

Bu əsasda, cəmiyyətdə daimi yeknəsəqlik mövcud deyildir. Aydındır ki, əhəmiyyəti az olan ictimai qanunları burada müzakirə obyektlinə çevirmirik. Çünki onlar barədə danışmaq o qədər də faydalı deyildir. Misal üçün, «insanlar həmişə ictimai formada yaşayırlar» və yaxud «insan həyatı üçün zəruri olanların bəzisi məhdud, bəziləri isə «hava» kimi naməhduddur.

Yalnız birinci dəstəyə aid olanlar bazarda alış-veriş edilirlər.», Göründüyü kimi bu kimi qanunlar tam aydındır. Deməli, onlar barədə danışmaq elə də əhəmiyyət kəsb etmir. Həmin qanunlardan əlavə, ictimai həyatda kəşf olunan digər qanunları nəzərə alarkən görürük ki, bu qanunlar fiziki dünyada dəyişməz və daimi qanunlar kimi deyildir. Bu ona görədir ki, ictimai qanunların mahiyyəti onların tarixi vəziyyətinə bağlıdır. Yəni onlar hər bir tarixi mərhələdə mövcud olan mədəniyyət ab-havası ilə tam əlaqəlidir. Misal üçün, biz bütün tarix boyu emal edilə və tətbiq oluna bilən iqtisadi qanunlardan danışa bilmərik. Biz, yalnız müəyyən bir dövrdə və yaxud əsrdə tətbiq edilə bilən iqtisadi qanunlardan danışmalıyıq. Həmin qanunlardan danışarkən mütləq bu qanunların təzahür etdiyi və formalaşdığı tarixi mərhələni xatırlamalıyıq. Bir sözlə, ictimai elmlərdə qəbul edilən qanunların hamısının düzgünlüyü həmin qanunların formalaşdığı tarixi mərhələ də məhdudlaşır. Bu isə təbii elmlərdə belə deyildir. İctimai elmlərdə iddia edə bilmərik ki, biz qlobal və universal bir qanun kəşf etmişik və ya kəşf edə bilərik. Çünki həmin qanunun keçmişdə düzgün olmasını və yaxud gələcəkdə düzgün olacağını əldə etmək qeyri-mümkündür. Lakin həmin qanunun emal edildiyi müəyyən bir tarixi mərhələdə düzgün olmasını sübut edə bilərik. Misal üçün, müəyyən bir iqtisadi qanunu, sənaye dövrünü yaşayan bir cəmiyyətdə düzgün olmasını əsas götürərək, bunun bütün sənaye dövrünü yaşayan cəmiyyətlərdə düzgün olmasını iddia edə bilərik. Deməli, müəyyən bir tarixi mərhələdə yaşayan cəmiyyətlərdə ortaq ictimai qanunlar emal edilə bilər.

4. İstər müəyyən bir tarixi dövrdə olan, istərsə də müxtəlif tarixi mərhələlərdə yaşayan cəmiyyətlərdə bir sıra əhəmiyyətli ictimai qanunlar vardır ki, eyni halda, eyni vəziyyətdə tətbiq oluna bilirlər. Bu nəzəriyyə öncə söylədiyimiz nəzəriyyənin əksi olaraq cəmiyyətdə baş verən mühüm və əsaslı dəyişkənliyi inkar edir. Bu fikrə əsasən, tarixi mərhələlər bir-biri ilə əsaslı fərqlənmirlər. Çünki cəmiyyətlərdə baş verən tarixi dəyişkənliklər insan tərəfindən həyata keçir. İnsan təbiəti isə dəyişməzdir. Başqa təbirlə desək, ictimai proseslərin hamısı bəşər cəmiyyətinin düşüncələrinin, məqsədlərinin, reaksiyalarının, vərdişlərinin, habelə insan tərəfindən yaradılan və qorunan adət-ənənələrin nəticəsidir. İnsanın fitrəti və təbiəti sabit olduğundan, həmin adət-ənənələrin və qanunların tarix boyu tamamilə dəyişməsini və onların yerinə digər qanunların gəlməsini iddia etmək olmaz. Deməli, ictimai həyatda tətbiq olunan qanunlar dəyişməzdir və

müxtəlif zaman və məkanlarda fərqlənmirlər. Bu əsasla, fizika və sosiologiya arasında dərin fərqlər müşahidə edilmir. Yəni təbiət elmlərində və fizikada qəbul olan qanunlar daimi olduğu kimi, ictimai və sosioloji qanunlar da tarixin bir mərhələsindən digər bir mərhələsinə ötürülmür və bütün cəmiyyətlərdə və tarixin bütün mərhələlərində emal olunurlar. Bir sözlə, tarix boyu ictimai dəyişkənlik çox olmadığından, ictimai yeknəsəqliyi təbiətdəki yeknəsəqlik kimi qəbul etməliyik. Nəinki təbiəti fiziki qanunlardakı yeknəsəqlik təsiri altında hesab edərək, burada tətbiq olunan qanunları dəyişməz hesab edərək ictimai qanunlarda tarixi nisbiyyətin mövcudluğunu irəli sürək.

İndi isə cəmiyyəti ikinci formada təhlil edən nəzəriyyələr haqda:

1. Tarixi dəyişkənliklər qanunauyğun deyildir

Bu fikri iki formada təfsir etmək olar. Birinci, tarixi hadisələr təsadüfən baş verən proseslərdən başqa bir şey deyildir. Bu fikirlə çıxış edənlər tarixdən bir sıra misallar gətirirlər. Əməvi xəlifələrinin axırıncısı Mərvan ibn Məhəmməd Abbasilərlə vuruşarkən döyüş meydanından ayaqyoluna getmək üçün öz yoldaşlarından ayrıldı. Bu vaxt düşmən qoşunundan bir nəfər hücum edərək onu öldürdü. Mərvanın ölməsi ilə onun qoşunu dağıldı, beləliklə, Bəni-Üməyyə hakimiyyəti aradan getdi. Yaxud Osmanlı padşahı Bəyazid podaqra xəstəliyinə tutularaq Mərkəzi Avropada irəliləyə bilmədi. Digər bir misal, Yunanıstan padşahı Aleksandrı meymun dişlədi. Elə bunun nəticəsində də o, dünyasını dəyişdi. Onun ölümü bir sıra müharibələrin yaranmasına səbəb oldu və iki yüz əlli min insanın öz həyatını itirməsi ilə nəticələndi. Belə təsadüfi hadisələrin baş verməsi onu göstərir ki, müharibələrin yaranması, qələbələrin dayandırılması və yaxud bir hökumətin süqut etməsi kimi tarixin mühüm hadisələri səbəb-nəticə qanununa tabe deyildir. Çünki səbəb-nəticə sistemi belə əhəmiyyətsiz hadisələrlə öz funksiyasını itirmir. Başqa sözlə səbəb-nəticə qanunundakı sistemi qəbul etsək, insanın təsadüfən müşahidə etdiyi hadisələr izaholunmaz qalacaqdır.

Bir çox mütəfəkkirlər bu nəzəriyyəni rədd etmişlər. Fransız maarifçi filosofu, siyasi mütəfəkkir, sosioloq və tarixçi Montoskyo qərbdə ilk filosofdur ki, tarixdə heç bir hadisənin təsadüfən baş verməsini qəbul etmir. O deyir: «Kainata təsadüf hakim deyil. Hər bir hakimiyyət sistemində bir sıra səbəblər vardır (nəmin səbəblər etik və yaxud maddi ola bilər) ki, həmin sistemi ucaldır, stabilləşdirir və yaxud məhvə doğru aparır. Bütün baş

verən cərəyanlar həmin səbəblərə tabedirlər. Əgər biz təsadüfən bir dövlətin çevrildiyini müşahidə ediriksə, burada mütləq müəyyən bir səbəb mövcuddur ki, həmin dövləti bir müharibə ilə aradan götürmüşdür. Bir sözlə, bütün xırda hadisələri yaradan köklü bir səbəb vardır. «Yəni zahirdə təsadüfi görünən hadisələrdən əlavə, biz dərin və köklü səbəbləri axtarmalıyıq. Misal üçün Əməvi xəlifəsi Mərvanın ayaqyoluna getməsi onun hakimiyyətinin süqut etməsi səbəbi deyildi. Bəni-Üməyyə hakimiyyəti aradan getməli idi. Bu təsadüfi hadisə yaranmasaydı da, digər bir zaman və ya məkan şəraitində və yaxud başqa bir müharibədə həmin hakimiyyət süqut edəcəkdi. Montoskyo deyir: «Təsadüfi hadisələrin zərər-ziyanını asanlıqla aradan qaldırmaq olur. Lakin biz daim şeylərin təbiətindən yaranan hadisələrin zərərlərindən amanda qala bilmərik.»

Fransız filosof və riyaziyyatçı Puankare deyirdi: «Heç bir hadisə səbəb-nəticə sistemindən xaricdə baş vermir. Lakin biz insanlar kiçik səbəblərin böyük hadisələri və nəticələri yaratdığını müşahidə etdikdə onların təsadüfən baş verdiyini güman edirik.»

Digər mütəfəkkirlər də hesab etmişlər ki, tarix təsadüfi hadisələrin cərəyan etdiyi sahə deyil. Bizim təsadüfi hesab etdiyimiz tarixi hadisə iki müstəqil silsiləyə aid olan səbəb-nəticələrin bir-biri ilə toqquşması nəticəsində baş verir. Tarixdə baş verən həmin təsadüfi hadisə tarixçinin hesab etmədiyi səbəb nəticəsində baş verir. Digər mütəfəkkirlər belə hesab etmişlər ki, təsadüfi güman etdiyimiz hadisələrdə biz həmin hadisələrin səbəblərini tapmaqdan acizik. Yəni tarixçinin heç bir səbəblə əsaslandıra bilmədiyi hadisələr təsadüfi adlanır. Yəni biz mahiyyətini və yaranma səbəbini düşünə bilmədiyimiz hadisələri təsadüf adlandırırıq. Rus yazıçısı Tolstoy bu nəzəriyyə ilə çıxış etmişdir: «Biz rasional səbəblərini izah edə bilmədiyimiz hadisələri onların təqdir nəticəsində yaranması ilə izah edirik.»

Digər filosoflar bildirmişlər ki, tarixdə baş verən təsadüfi hadisələr tarixi hadisələrin qanunauyğunluğu ilə zidd deyil. Çünki həmin təsadüfi hadisələr qanunda baş verən istisnalardır. Bildiyimiz kimi, istisnalar qanunu təsdiq etməsələr də onu rədd etmirlər. Təbii və fiziki qanunların bir çoxunda istisna halları müşahidə olunur. Burada da həmin istisnalar qanunun etibarsızlığı ilə nəticələnmir. Bütövlükdə, qanun əksər hallarda tətbiq oluna bilən qaydadan başqa bir şey deyildir.

Biz bu fikirlə razılaşa bilmərik. Öncə bildirdiyimiz kimi, qanun adlandırdığımız hər bir şey, yəni tam səbəbin nəticəsi ilə əlaqəsini izah edən hər bir cümlədə istisna halları müşahidə olunmamalıdır.

Burada tarixi hadisələrin qanunauyğun olmaması fikrini rədd edən digər nəzəriyyələr də mövcuddur. Lakin biz onların hamısını araşdırmağa lüzum görmürük. İndi isə «tarixi hadisələr qanunauyğun deyil» fikrinin digər təfsiri ilə tanış olaq. Bu təfsirə əsasən, cəmiyyətin müəyyən bir tarixi mərhələdən, misal üçün, feodalizm dövründən digər bir mərhələyə, kapitalizm dövrünə keçməsi təsadüfi hadisədir və burada səbəb-nəticə sistemi işlək deyil.

Biz, «tarixi hadisələr qanunauyğun deyil» fikrini bütövlükdə rədd edirik, hərçənd öncə təsadüf haqda dediklərimiz bu fikri rədd etmək üçün kifayət edir. Buna əlavə olaraq xatırladırıq ki, hərçənd cəmiyyət öz-özlüyündə obyektiv şəxsiyyətə və gerçəkliyə malik deyil və ictimai hadisələr fərdlərin şəxsiyyətindən müstəqil düşünülməməlidir, lakin burada bir məsələyə diqqət yetirmək lazımdır. Cəmiyyət məfhumunun əsası xaricdə obyektiv varlıqdır. Yəni cəmiyyət özü obyektiv gerçəklik olmasa da, biz onu xaricdə tam real həqiqətlərdən əxz edirik. Bu səbəbdən, ictimai hadisələr də cəmiyyət məfhumu kimi xaricdə tam gerçəkliklər üzərində baş verir. Deməli, cəmiyyət və ictimai hadisələr səbəb-nəticə sistemindəki obyektiv və zəruri qanunlara tabedirlər.

Tarixi hadisələrin təsadüfi adlanması haqda isə deyirik: Gözlənilən ictimai hadisənin yaranması həmin hadisəni yaradan tam səbəbə bağlıdır. Həmin səbəb isə bir çox elementlərə şamildir. Biz adətən tam səbəbin bütün elementlərini əhatə edə bilmirik. Qeyd edək ki, hadisənin yaranma şəraiti, həmçinin burada maneələrin olmaması həmin elementlərdən hesab olunur. Bu səbəbdən, gözlənilən ictimai hadisəni tam səbəb olmayan bir sıra səbəblərlə əsaslandırırıq. Halbuki, həmin səbəblər tam səbəb deyildir. Tam səbəb mövcud olmadığından gözlədiyimiz hadisə baş vermir. Belə olan halda isə həmin hadisənin təsadüfən baş verməməsini güman edirik. Halbuki, burada da səbəb-nəticə sistemi hakimdir. Lakin bilməliyik ki, həmin sistemdə hakim olan qanunlar və şərait tamamilə həyata keçməmişdir. Biz bilməliyik ki, gözlədiyimiz müəyyən bir ictimai hadisə, yalnız və yalnız həmin hadisəni yaradan səbəblərin hamısının və burada maneələrin olmamasının nəticəsində baş verir. Misal üçün Bədr döyüşündə müsəlmanların məğlub olmasının bütün adi və təbii şəraiti mövcud idi.

Lakin bununla belə, əgər hər hansı bir tarixçi müşriklərin və kafirlərin məğlub olmasını təsadüfi hadisə adlandırsa, yanlış düşünmüşdür. Çünki həmin tarixçi bilməlidir ki, müsəlmanların məğlub olması Allah tərəfindən qeybi köməklərin gəlməməsinə bağlıdır. Həmin qeybi köməklər gəldiyi halda isə müsəlmanlar məğlub olmayacaqdır. Bütövlükdə, heç bir təbii və adi məsələlərdə, o cümlədən fiziki, bioloji, psixoloji və ictimai hadisələrdə qeyri-təbii və fövqəltəbii maneələrdən və səbəblərdən qafil olmaq düzgün deyildir. Bu əsasla deyə bilərik ki, təbii səbəblərin heç biri öz nəticələrinə qarşı tam səbəb hesab oluna bilməzlər. Çünki burada fövqəltəbii maneələr və yaxud səbəblər də mövcud ola bilər.

Bildirdiyimiz kimi, bu məsələ nəinki ictimai hadisələrdə, hətta psixoloji, bioloji və fiziki məsələlərdə də həyata kecə bilər. Bununla belə ictimai hadisələr, şübhəsiz, digər hadisələrdən daha çətin və qaranlıqdır. Ümumiyyətlə, psixoloji hadisələr bioloji hadisələrdən və bioloji hadisələr fiziki hadisələrdən (təhlil baxımından) çətindir. İctimai hadisələrin belə qaranlıq və çətin olmasıdır ki, ictimai qanunların kəşf olmasını bu qədər çətinləşdirmişdir. Müəyyən bir ictimai hadisənin necə və nə üçün baş verməsini kəşf etmək yüzlərlə və yaxud minlərlə suala cavab verməkdən sonra müyəssər ola bilər. Fiziki hadisələrdə tam səbəbin müəyyənləşməsi çoxlu problemlərlə üzləşirsə, deməli, ictimai hadisələrdə tam səbəbin dəqiqləşdirilməsi qeyri-mümkünlüyə yaxındır. Lakin burada tam səbəblərin tapılmaması və yaxud dəqiqləşdirilməməsi onların bütövlükdə olmaması demək deyil. İctimai səbəb və nəticələrdə səbəb-nəticə əlaqələri bərqərardır. İstər onları müşahidə edək və kəşf edək, istərsə də kəşf edə bilməyək. Qanunun gerçəkliyinə inanmaq bir məsələ, onu tanımaq və kəşf etmək isə digər bir məsələdir. Cəmiyyətdəki tarixi hadisələrin qanunauyğunluğuna inanmaq bir mətləb, onların qanunlarını kəşf etmək isə digər bir mətləbdir.

Hər halda, bizim əqidəmizə görə heç bir hadisə tam səbəbsiz olaraq həyata keçmir. Cəmiyyətin tarixi hadisələri reallıqdan nə qədər bəhrələnmişlərsə, bir o qədər də səbəb-nəticə qanununa tabedirlər. Və burada heç bir istisna halları ola bilməz. Həmçinin heç bir hadisə yoxdur ki, heç kəs tərəfindən qəsd edilməmiş olsun. Öz failinə görə təsadüfi adlanan hadisə, yalnız həmin şəxsə görə təsadüfidir. Çünki bütün hadisələr Allah tərəfindən iradə edilmişdir. Deməli, burada təsadüfi hadisələrdən danışmaq olmaz. Başqa sözlə, bütün baş verən hadisələr müəyyən bir qayə üzərində həyata keçir. Cəmiyyətin tarixi hadisələri də bu qaydadan müstəsna deyildir.

Hesab edirik ki, kainatın nizam-intizamını, onda baş verən proseslərin təsadüfi olmamasını təsdiq etmək iki əqidəyə bağlıdır. Onlardan biri heç bir hadisənin səbəb-nəticə sistemindən xaric olmamasına inanmaq, digəri isə bütün kainatda Allah-Təalanın iradəsinin hakim olmasını təsdiq etməkdir. Biz isə bunların hər ikisini qəbul edirik.

2. Tarixi hadisələr qanuna uyğun olsa da, hər bir cəmiyyətin özünəməxsus qanunları vardır. Bu nəzəriyyədə bildirilir ki, hər bir cəmiyyətdə baş verən hadisələr və onun tarixin bir mərhələsindən digər bir dövrünə keçməsi, şübhəsiz, səbəb-nəticə sisteminə tabedir. Buna baxmayaraq, hər bir cəmiyyətdə baş verən tarixi hadisələr digər cəmiyyətdəki hadisələrə oxşar deyildir. Misal üçün, bir cəmiyyət quldarlıq dövründən feodalizm dövrünə, digəri isə quldarlıq dövründən kapitalizm dövrünə keçə bilər (Marksın söylədiyi iqtisadi mərhələlərə əsasən). Habelə, bir cəmiyyət fərdlərinin bir hissəsinin azad olduğu dövrdən burada yaşayan bütün insanların azad yaşadığı dövrə nəql oluna bilər. Halbuki, digər bir cəmiyyət bir sıra insanların azad yaşadığı dövrdən təkcə bir insanın azad yaşayacağı dövrə keçə bilər (Hegelin təsnifatına görə). Başqa sözlə, hər bir cəmiyyətdə baş verən tarixi hadisələr qanunauyğun olsa da, lakin burada hakim olan və tətbiq olunan səbəb-nəticə əlaqəsi unikaldır. Hər bir cəmiyyətdə dəyişkənliyin səbəbi, yalnız həmin cəmiyyətdə peyda ola bilər və burada baş verən səbəb-nəticə sistemi, yalnız həmin cəmiyyətə aiddir.

3. Tarixi hadisələrdə tətbiq edilən qanunlar bütün cəmiyyətlərdə müştərəkdir və onların hamısına eyni səviyyədə tətbiq edilir. Bu nəzəriyyənin tərəfdarları bütün bəşər cəmiyyətlərinin keçdiyi və yaxud gələcəkdə keçəcəyi tarixi mərhələlər barədə müxtəlif fikirlər söyləmişlər. Burada həmin nəzəriyyələrin hamısını araşdırmağa lüzum görmür, lakin onların ən əhəmiyyətlisini nəql etməklə kifayətlənirik:

a) İtaliyan filosof və tarixçisi Giam Battista Viko deyir: Hər bir cəmiyyət öz tarixi hərəkətində üç mərhələdən keçir:

1. Rəbbani və ilahi dövr.
2. Qəhrəmanlıq və mifologiya dövrü.
3. İnsanlıq dövrü.

Bu üç mərhələ insan ömründəki üç mərhələ ilə, yəni uşaqlıq, gənclik və qocalıq dövrü ilə uzlaşır. Bu fərqlə ki, insan qocalıq dövründən sonra dünyasını dəyişir, lakin cəmiyyət qocalıq dövründən sonra yenidən əvvəlki vəziyyətinə, yəni uşaqlıq dövrünə qayıdır və həmin mərhələləri yenidən qət

etməyə başlayır. Əlbəttə, hər bir dövr sonrakı mərhələlərdə öz təsirini bağışlayır və burada hər bir mərhələni ön mərhələnin tam təkrarı hesab etmək olmaz. Cəmiyyət öz tarixi mərhələlərində kamilləşir və islaha doğru hərəkət edir. Yəni cəmiyyətin tarixdəki hərəkəti bağlı bir dairədə məhdudlaşmır və daimi olaraq tərəqqiyə doğru hərəkət edir. Bu əsasla, həmin nəzəriyyə şərqdə və qədim Yunan dinlərində təbliğ edilən «rəcət» və «qayıdış» əqidəsi ilə fərqlidir.

b) Ögüst Kont cəmiyyətin daimi və zəruri hərəkətini üç mərhələli hesab edir:

1. Teoloji mərhələ və yaxud xəyal mərhələsi: Bu mərhələdə insan zəkası bütün hadisələri fövqəltəbii qüvvələrin, Allahın təsiri ilə izah etməyə səy göstərmişdir;

2. Fəlsəfi və metafiziki mərhələ: Bu mərhələdə insanlar bütün hadisələrin əsasını abstrakt metafizik mahiyyətlərdə görürdülər;

3. Elmi və pozitiv mərhələ: Burada insanlar hadisələri təbii qanunlarla uyğunlaşdıraraq izah etməyə çalışırlar.

Misal üçün, insanlar ilkin mərhələdə ulduzları Allahlar hesab edirdilər. İkinci mərhələdə onlar güman edirdilər ki, ulduzların hərəkəti dairə formasındadır. Çünki onların əqidəsinə görə, dairə formaların ən yaxşısıdır. Üçüncü mərhələdə isə insanlar aydın müşahidələr və elmi fərziyyələr, və təcrübələrdən istifadə edərək ulduzların vəziyyətinə və mahiyyətinə dair tədqiqat aparır və bu barədə fikir söyləyirlər. Burada Kontun tərəfdarlarından birinin misalına diqqət yetirin. Bütün insanlar tiryəkin yuxuladıcı maddə olduğunu bilirlər. Onlar birinci mərhələdə hesab edirlər ki, tiryəkin bu xüsusiyyətə malik olması Allahın iradəsi və istəyinə görədir. İkinci mərhələdə isə onlar deyirlər: Tiryək narkotik maddəyə malik olduğu üçün insanları yuxuladır. Üçüncü mərhələdə isə insanlar təcrübə və müşahidə yolu ilə tiryəkin təsirini aydınlaşdırır və bununla da digər maddələri kəşf edirlər. Hər halda, bu mərhələlər insan fikrinin tərəqqi səviyyəsini aşkar şəkildə göstərir. İnsanın maddi həyatı müxtəlif ictimai tiplər, cəmiyyətdə mövcud olan müxtəlif institutlar, hətta insanların adi emosiyaları və dünya-görüşü bu üç mərhələ ilə sıx əlaqəli olmasından əlavə, eyni halda həmin mərhələlər cəmiyyətin tarixi seyrinin və tərəqqisinin göstəricisidir. Başqa sözlə, ictimai dəyişkənliyin, yalnız bir səbəbi olduğunda insanların fikir və düşüncə mərhələlərini cəmiyyətin tarixdəki mərhələləri ilə uzlaşdırmaq olar. Həmin yeganə səbəb insan

təfəkkürü və zehninin kamilləşməsidir. İnsan zehninin kamilləşməsi onun etika sahəsindəki inanclarına tam təsir bağışlayır. Beləliklə, ictimai institutlarda böyük dəyişkənlik baş verir. Misal üçün, insanlarda teoloji, metafiziki və pozitiv əhval-ruhiyyələrin baş qaldırması onları müharibəyə, müdafiəyə və sənayeyə doğru sövq edir. Bir sözlə, ictimai sistemin hansı tipdə olması insanların idrak və düşüncə səviyyəsi ilə tam uzlaşır.

v) Spenser hər bir cəmiyyətin təkamül yolunda dəyişkənliyini iki mərhələli hesab edir.

1. Hərbi mərhələ;
2. Sənaye mərhələsi.

Onun əqidəsinə görə, biologiya elmində qəbul olunan «bitkilərin və canlıların tədricən oxşar vəziyyətdən növlü və müxtəlif vəziyyətə keçməsi» qanunu təkcə biologiyada deyil, qlobal olaraq psixologiyada, sosiologiyada, etikada, dinlərdə, təlim və tərbiyə sahələrində də cərəyan edir. Aləmin bütün kainatında bu tədrici transfer mövcuddur. Hərçənd bu aram və ahəstə hərəkətdə daim tərəqqi müşahidə edilmir. Lakin hərəkəti bütövlükdə nəzərə alsaq, bütün mövcudatın yeknəsəqlikdən tərəqqiyə və müxtəlifliyə doğru hərəkətini və seyrini tam aydın formada müşahidə etmək mümkündür. Cəmiyyət də digər mövcudat kimi nə qədər inkişaf etsə, bir o qədər müxtəlif olacaq və fərdi azadlıqlar onda daha çox təzahür edəcək. Lakin belə mütərəqqi cəmiyyətdə həm də nizam-intizam həmin tədrici hərəkətin nəticəsi olaraq müşahidə olunacaqdır. Həmin nizam-intizam fərdi azadlıqları başqalarının azadlıqlarına riayət etmək üçün məhdudlaşdıracaq. Beləliklə, bəşər cəmiyyəti hakimlərin qüdrətinin daha əhəmiyyətli olması mərhələsindən, yəni hərbi mərhələdən sənaye və mütərəqqi mərhələyə bölüşdürülür. Burada insanlar insanları deyil, insanlar təbiəti təsərrüf edir. Hərbi mərhələdə cəmiyyət hərbçilərin nəzarəti altındadır. Hərbi dövlət totalitardır və demək olar ki, həmişə diktator xarakterini daşıyır. Burada insanların bir-biri ilə həmkarlığı məcburi şəkildə həyata keçir. Lakin sənaye mərhələsində qüdrət sülh yolu ilə cəmiyyətin bütün üzvləri arasında təqsim olur. Burada insanlar diktatorlara itaət etməyə məcbur deyil, onlar fitri istedadlarının çiçəklənməsi ilə bərabər dostluq şəraitində bir-biri ilə həmkarlıq edirlər.

q) Şpinqler hər bir cəmiyyəti «gənclik və qocalıq dövrünü yaşayan canlı bir varlıq» kimi təsəvvür edir. Beləliklə, xəllaq (yaradıcı və bacarıqlı) cəmiyyət asayiştələb cəmiyyətə çevrilir (çiçəklənən, sonra isə solan bitki

kimi). Bütün insanlar, canlılar və bitkilər öldüyü kimi cəmiyyət də ölür. Belə cəmiyyətə heç bir qüvvə yeni həyat bəxş edə bilməz. Heç bir cəmiyyət, millət və yaxud soy ölüm yuxusundan qalxa bilməyəcəkdir. Tarixdə heç bir qayıdışdan söhbət açmaq düzgün deyil. Tarixdəki hərəkət də dairəvidir.

ğ) Müasir ingilis tarixçisi Arnold Toynbi deyir: «Hər bir cəmiyyət üç mərhələdən keçir: İnkişaf, sükun və ölüm. Hər bir cəmiyyət təbii və yaxud insani hücumla yaranır, başqa bir hücumla inkişaf edir və daha bir hücumla məhv olur və ölür. Yəni cəmiyyətin üzləşdiyi hər bir hücumun qarşısında bir cavabı vardır. Cəmiyyətin həyatı və yaxud ölümü həmin cavaba bağlıdır. Cəmiyyətin yaranışı həmin hücuma olan cavabla başlayır. Cəmiyyət inkişaf etdikcə, tədricən hücumların növləri də fərqlənir. Deməli, yeni hücumlara yeni cavablar vermək də zəruridir. Cəmiyyət ona olan hər bir hücumun qarşısında uyğun cavab verə bilirsə, deməli cəmiyyət yaşayır və inkişaf edir. Cəmiyyətin inkişafdan dayanması o vaxt başlayır ki, cəmiyyəti idarə edənlər və mütəfəkkirlər yeni hücumlar qarşısında təkrar cavablar versinlər. Köhnə cavablar yeni hücumları dəf edə bilmir. Bu səbəbdən, cəmiyyətin ölümünə zəmin yaranır.

Toynbinin nəzəriyyəsi Şpinqlerin fikirləri ilə bir çox hallarda üst-üstə düşsə də (onun özü də Şpinqlerin ideyalarından təsirləndiyini etiraf edir), bununla belə, Toynbi Şpinqlerin bioloji fikirlərini rədd edir və cəmiyyətin öz-özlüyündə süqut etməsini, həmçinin hər bir cəmiyyətin oxşar taleyə düçar olması və hər bir cəmiyyətin təbii insan ölümü tək sona çatmasını qəbul etmir. O təkid edir ki, cəmiyyət ölürsə, bu onun qəti taleyi deyil, hücumlar qarşısında uyğun cavablar tapmamasından irəli gəlir. O, hesab edir ki, yarımcan cəmiyyəti də ölümdən qurtarmaq mümkündür.

# 5. Cəmiyyətlərin sosioloji qanunlarda ortaqlığı

İctimai proseslərdəki qanunauyğunluq haqda irəli sürülən fikirlərə diqqət yetirsək, görərik ki, onların bəzisində cəmiyyətlərin sosioloji qanunlarda ortaqlığı rədd edilir, bəzisində isə bu təsdiqlənir. Bu cəhətdən, biz həmin nəzəriyyələri ayrılıqda araşdırmaq əvəzinə, burada bütövlükdə bu məsələdən söhbət açırıq ki, nə üçün cəmiyyətlər sosioloji qanunlarda müştərəkdirlər və biz bu fikri nə üçün qəbul edirik.

Cəmiyyətlərin sosioloji qanunlarda müştərək olub-olmaması məsələsi bəzən bu formada müzakirə edilir ki, görəsən, bəşər cəmiyyəti vahid mahiyyətə malikdir, yoxsa burada müxtəlif və bəzən ziddiyyətli mahiyyətlərlə üzləşirik? Qeyd edək ki, burada mahiyyət təbiri, yalnız cəmiyyəti obyektiv gerçəklik kimi qəbul edənlərin fikirləri ilə üst-üstə düşür. Lakin biz cəmiyyəti obyektiv reallıq kimi qəbul etmədiyimizdən burada «mahiyyət» sözünü işlədə bilmərik. Bu səbəbdən, həmin bəhsdə biz sosioloji qanunlarda cəmiyyətin müştərək olub-olmaması təbirini işlədirik.

Cəmiyyəti sosioloji qanunlarda ortaq hesab etmək və yaxud bunu inkar etməyin bir çox əhəmiyyətli nəticələri vardır. Sözü gedən ortaqlığı inkar etmək o deməkdir ki, hər bir cəmiyyətin özünəməxsus şəxsiyyəti və reallığı vardır. Yəni hər bir cəmiyyət öz-özlüyündə unikal şəxsiyyətə malikdir. Deməli, hər bir cəmiyyətə tətbiq edilən mədəniyyət həmin cəmiyyətə məxsusdur. Başqa təbirlə desək müxtəlif cəmiyyətləri bir-birindən ayıran əsas amil onlarda emal olunan mədəniyyətlərdir. Burada ilkin nəticə odur ki, hər bir mədəniyyətin əsas rüknünü təşkil edən mədəniyyətdəki dəyərlər sistemi bir-biri ilə müqayisə olunmazdır. Yəni müəyyən bir mədəniyyətin və dəyərlər sisteminin digər dəyərlər sistemindən üstün olmasını vurğulamaq olmaz. Hər bir mədəniyyət və dəyərlər sistemi tətbiq edildiyi cəmiyyətdə yaxşıdır, digər cəmiyyətlər üçün isə pis. Deməli, burada

mədəniyyətlərin birbaşa pis və ya yaxşı olmasından danışmaq olmaz. Bu cəhətdən, mədəniyyətlər paltar kimidir. Hər bir paltarın hansı zaman və yaxud məkan şəraitində və yaxud kim tərəfindən geyilməsinin əhəmiyyəti olduğu kimi, hər bir mədəniyyətin də hansı cəmiyyətdə tətbiq olunması əhəmiyyətlidir. Arıq, uca boylu, gənc bir kişinin geydiyi paltar onun üçün yaxşı, qısa boylu, qoca qadın üçün isə pisdir. Beləliklə, hər bir mədəniyyət və dəyərlər sistemi öz cəmiyyəti üçün yaxşı, digər cəmiyyətlər üçün isə pisdir.

İkinci nəticə budur ki, müxtəlif növləri bir araya toplayaraq vahid növ yaratmaq mümkün olmadığı kimi, ziddiyyətli və müxtəlif mahiyyətli cəmiyyətləri də bir araya toplayaraq vahid mədəniyyətli və vahid dəyərlər sisteminə malik cəmiyyət yaratmaq mümkün deyil. Müəyyən bir cəmiyyətin adət-ənənələrini digər cəmiyyətə transfer etmək mümkün deyil. Bu mümkün olsa da məsləhət deyil. Bir cəmiyyətin xüsusiyyətlərini digər bir cəmiyyətə vadar etdirmək zorakılıqdan başqa bir şey deyil. Bu ona bənzəyir ki, arıq bir şəxsin paltarını kök bir insana geyindirirlər. Deməli, bir cəmiyyətin dəyərlər sistemini digər cəmiyyətlərə keçirmək olmaz. Çünki həmin dəyərlər, yalnız tətbiq olunduğu cəmiyyətlə uzlaşır. Bu səbəbdən, vahid dəyərlər sisteminə malik, qlobal bir cəmiyyəti yaratmaq ideyası tam əsassız və xam xəyaldır.

Digər tərəfdən, cəmiyyətlərin sosioloji qanunlarda ortaq olması o deməkdir ki, müxtəlif cəmiyyətlər vahid bir növün fərdlərinə oxşardırlar. Yəni onlar vahid mahiyyətə malikdirlər. Bu əsasla, biz müxtəlif mədəniyyətlərə malik olan cəmiyyətləri bir-biri ilə müqayisə edə və hətta onların birinin digərindən üstün və yaxud aşağı səviyyədə olmasını vurğulaya bilərik. Həmçinin, biz vahid qlobal bir cəmiyyətin müəyyən və ortaq dəyərlərlə idarə olunmasına ümid bağlaya bilərik.

Problemin iki tərəfinin nəticələri ilə tanış olduqdan sonra, indi həmin məsələyə düzgün cavab tapmağa çalışacağıq. Öncə bildirdik ki, bizim əqidəmizə görə, cəmiyyət obyektiv gerçəkliyə malik deyildir. Bu əsasla, cəmiyyət üçün söylənilən hökmlərin hamısı ictimai həyatda yaşayan insanlara aid olur. Başqa sözlə, sosioloji qanunlar ictimai həyatda yaşayan insan fərdlərinin rəftarlarına hakim olan qanunlardır. Burada biz məntiqi və fəlsəfi xırdalıqları araşdırmasaq da (misal üçün, «vahid mahiyyət nədir?» «növ vəhdətinin əsası nədir və bunları hansı üsullarla tanımaq olar?») bütövlükdə bilirik ki, insan vahid mahiyyətə malik bir gerçəklikdir. Həm də

biz qəbul edirik ki, insanlarda bir sıra sabit, dəyişməz və ortaq xüsusiyyətlər mövcuddur ki, bu da bir sıra dəyişməz və ortaq qanunların yaranmasına səbəb olmuşdur. Baxmayaraq ki, insanların hər birinin özünəməxsus xüsusiyyətləri vardır, lakin bununla belə, qəbul etməliyik ki, bütün insanlar bir sıra ortaq xüsusiyyətlərə malikdirlər. Bunu məntiqdə «zati xüsusiyyətlər» adlandırırlar. Başqa təbirlə desək, insanların fərdi xüsusiyyətləri onların bioloji, psixoloji və sosioloji baxımdan müştərək və ortaq qanunlara malik olması ilə zidd deyildir.

Biologiya və sosiologiya sahələrində insanlarda mövcud olan zati fərqləri onların arasında ortaq qanunların olmamasına əsas bilmirlər. Həmçinin, burada insanlar arasındakı müştərək qanunları onların fərdi xüsusiyyətlərə malik olmasına dəlil hesab etmirlər. Burada hər iki tərəf qəbul olunur. Yəni həm insanların arasındakı müştərək qanunlar, həm də onların özünəməxsus fərdi xüsusiyyətləri. Sosiologiya sahəsində də biz ifrat və təfritə varmamalıyıq. Burada da ictimai institutların və ictimai tiplərin arasındakı təbii və zati fərqlənmə xüsusiyyətlərini qəbul etməli, digər tərəfdən də onların arasında müştərək və ortaq qanunları nəzərdən qaçırmamalıyıq. Əslində sosiologiya elminin əsas vəzifəsi tarix boyu yaşamış və bundan sonra da yaranan və yaşayan cəmiyyətlərin və ictimai tiplərin arasındakı fərqləri və ortaq xüsusiyyətləri araşdırmaq və müəyyənləşdirməkdir.

Cəmiyyətdə mövcud olan həmin ortaq xüsusiyyətlər müəyyən və vahid dəyərlər sisteminin yaranmasına səbəb ola bilər. Çünki yalnız reallıqlardan bəhrələnən dəyərlər sistemi düzgün və mötəbər hesab olunur. Bütün insanların zati və təbii olaraq müştərək və ortaq olduğu reallıqlar vardırsa, nə üçün biz bütün insanları xeyrə, səadətə və kamala çatdıra bilən vahid dəyərlər sistemindən danışmayaq? Həqiqət budur ki, həmin müştərək reallıqlar ortaq dəyərlər sistemini də yaradırlar. Həmin dəyərlər bütün zaman və məkan şəraitində və bütün cəmiyyətlər üçün yaxşıdır onlardan boyun qaçıran sistemlər isə pisdir. Deməli, dəyərlər sistemlərini və mədəniyyətləri bir-biri ilə müqayisə etmək olar və onların bir-birindən yaxşı və yaxud pis olması barədə fikir söyləmək mümkündür. Bir sözlə, ideal mədəniyyətə və dəyərlər sisteminə yaxın olan hər bir cəmiyyət başqa cəmiyyətdən daha yaxşıdır.

Hər bir mədəniyyəti və dəyərlər sistemini müəyyən bir paltara bənzətmək bizi aldatmamalıdır. Çünki bənzətmə yolu ilə heç bir məntiqi,

fəlsəfi və elmi məsələni həll etmək mümkün deyildir. Buna görə bütün bəşəri maariflərdə, xüsusilə humanitar və ictimai sahələrdə tam diqqətli olmalıyıq ki, qarşı tərəf öz müddəasını sübuta yetirmək üçün bənzətmə üsulundan istifadə etməsin. Digər bir tərəfdən, dəyərlər sistemini və mədəniyyəti başqa bir şeyə bənzətmək mümkündürsə, deyirik: Düzgün və mötəbər dəyərlər sistemi paltar geymək kimi bütün insanlar arasında ortaqdır. Müəyyən ölçü və keyfiyyətdə olan paltar bir cəmiyyəti digər cəmiyyətlərdən fərqləndirən xüsusiyyətlərin göstəricisi ola bilər. Müəyyən bir cəmiyyətin digər cəmiyyətdən fərqlənməsi bir fərdin digər fərddən fərqlənməsi kimidir. Burada fərqlərdən əlavə, ortaq məqamları və qanunları da inkar etmək olmaz. Həmin ortaq aspektlər ortaq dəyərlər sisteminin yaranmasına əsas verir.

Deməli, bir sıra etik və hüquqi dəyərlər vardır ki, onlar daimi, dəyişməz və digər cəmiyyətlərə transfer olunan xüsusiyyətlərə malikdir. Həmin dəyərlər insanlarda fitri və zati şəkildə mövcud olan xüsusiyyətlərdən qaynaqlanır. Cəmiyyətin təbiəti və zati xüsusiyyətləri insanların fərdi təbiəti və zati xüsusiyyətlərindən savayı heç bir şey olmadığından bir cəmiyyətdə tətbiq olunan dəyərlər bütün cəmiyyətlərdə tətbiq oluna bilər. Hələ indiyə qədər dünyada mövcud olan bütün cəmiyyətlərin sözügedən ortaq dəyərləri qəbul etməməsi həmin dəyərlərin bütövlükdə cahanşümul olmamasına dəlil ola bilməz. Deməli, nəzəri baxımdan bir gün bütün cəmiyyətlərin həmin vahid dəyərlər sisteminə və mədəniyyətinə malik olması mümkündür və qlobal vahid mədəniyyətə şamil olan vahid qlobal cəmiyyətin yaranması üçün çalışmaq bihudə deyildir.

Nəticə olaraq deyirik ki, bizim əqidəmizə görə, ictimai institutlar, habelə müxtəlif cəmiyyətlər bir-birindən zati olaraq fərqlənmələrinə baxmayaraq, onların bir çox ortaq cəhətləri də vardır. Həmin ortaq məqamlar bir çox sosioloji qanunların yaranmasına səbəb olmuş və ortaq əxlaqi hüquqi qanunların təyin olunmasında mühüm rol oynamışdır. Deməli, ictimai qruplar və müxtəlif cəmiyyətlər vahid əxlaqi və hüquqi dəyərlərə malik ola bilərlər.

Hesab edirik ki, həmin nəticəni Quran ayələrindən də əldə etmək olar. Quran ayələrinə baxdıqda, görürük ki, bu səma kitabında bildirilir: Cəmiyyətlərdə bir sıra ortaq zati və hüquqi qanunlar mövcuddur. Bəzi ayələrdə oxuyuruq ki, keçmiş cəmiyyətlərin cərəyanlarının Quranda bizim üçün danışılmasının əsas səbəbi odur ki, biz onların əməllərindən və

işlərinin nəticələrindən ibrət dərsi alaq. «Yusuf» surəsinin 111-ci ayəsində oxuyuruq:

«Şübhəsiz, onların (peyğəmbərlərin və onların ümmətlərinin) başlarına gələnlərdə ağıl sahibləri üçün bir ibrət vardır.»

«Naziat» surəsinin 26-cı ayəsində isə Allah-Təala buyurur:

«Şübhəsiz, bunda (Musa və Fironun cərəyanında Allahdan) qorxan bir kəs üçün ibrət vardır.»

Bu iki ayədə, habelə «Ali-İmran» surəsinin 13-cü və «Həşr» surəsinin 2-ci ayəsində və digər ayələrdə keçmişdə yaşayan insanların sərgüzəştləri gələcək insanlar üçün ibrət dərsi kimi qələmə verilmişdir. Aydındır ki, keçmiş cəmiyyətlərdə cərəyan edən hadisələrdən ibrət dərsi almaq, yalnız o vaxt mümkün və faydalıdır ki, biz tarixi hadisəni unikal proses kimi düşünməyək. Yəni həmin hadisə müəyyən bir cəmiyyətə xas deyil, bütün digər cəmiyyətlərdə də təkrar oluna bilsin. Məlum olur ki, Quran baxımından keçmişdəkilərlə gələcəkdə gələn insanların arasında müəyyən zati müştərək məqamlar vardır ki, gələcəkdə gələnlərin keçmişdə yaşayan insanların başına gələn əhvalatlardan ibrət dərsi götürməyə əsas verir. Çünki belə olmasaydı, təkrarolunmaz unikal hadisələrdən necə ibrət dərsi almaq olardı?

Quranın yeddi ayəsində oxuyuruq: « Nə üçün insanlar özlərindən əvvəl olmuş kəslərin aqibətlərinin necə olmasını görmək üçün yer üzündə seyr etmirlər?»[38] «Həcc» surəsinin 46-cı ayəsində isə Allah-Təala buyurur:

«Məgər onlar yer üzündə gəzib-dolaşmayıblar ki, düşünən qəlbləri və ya eşidən qulaqları olsun?!» «Ali-İmran» surəsinin 137-ci, «Ənam» surəsinin 11-ci və «Nəhl» surəsinin 36-cı ayəsində isə belə buyurur:

«Yer üzündə gəzib-dolanın və təkzib edənlərin aqibətinin necə olmasına baxın.»

«Yer üzünü seyr etmək» Quranda işlənən terminlərdən biridir. Bundan məqsəd ibrət almaq məqsədi ilə tarixi hadisələr və cərəyanlar barədə düşünməkdir. Əgər tarixdə baş verən müəyyən bir hadisə həmin cəmiyyətə aid olsaydı və digər cəmiyyətlərlə heç bir əlaqədə olmasaydı, yəni tarix digər bir cəmiyyətdə təkrar olmasaydı, həmin hadisə barədə düşünmək və ondan ibrət dərsi almaq faydalı olardımı? Quran baxımından ilahi ayələri təkzib edən, pis işlərlə məşğul olan, Allahın ayələrini danan və bu kimi cəmiyyətlərin aqibəti pisdir. Yəni onların hamısı istisnasız olaraq pis aqibətə düçar olacaqlar. Cəmiyyətlərin istisnasız olaraq müştərək aqibətə

düçar olmasıdır ki, onlarda baş verən hadisələr barədə düşünmək bizim üçün faydalıdır.

«Şüəra» surəsində keçmişdə yaşayan yeddi qövmün (Musanın, İbrahimin, Nuhun, Adın, Səmudun, Lutun və Şüeybin qövmlərinin) sərgüzəştləri danışılır və sonra iki cümlə gəlir: «Həqiqətən də bunda (bu hekayətdə) bir nişanə (ibrət) vardır. Onların əksəriyyəti haqqa iman gətirən deyildilər.»[39] Göründüyü kimi həmin ayələrdə bildirilir ki, keçmiş, indiki və gələcək cəmiyyətlərdə müştərək cəhətlər mövcuddur. Həmin cəhətlər bizə keçmişdə yaşayanların sərgüzəştlərindən dərs almağa əsas verir.

Quranın digər ayələrində də bu mətləbə işarə olunmuşdur. O cümlədən: «Bəqərə» surəsi, ayə: 214, «Ənam» surəsi, ayə: 6, «Taha» surəsi, ayə: 128, «Nəml» surəsi, ayə: 14, «Qəsəs» surəsi, ayə: 40, «Qafir» surəsi, ayə: 4-6, 21, 22, 82-85, «Zuxruf» surəsi, ayə: 23-25, 56.

Bir sözlə, Qurani-kərimdə cəmiyyətlərin hamısının sosioloji qanunlarda, həmçinin etik və hüquqi dəyərlər sistemində ortaq məxrəclərdə olmaları təkidlə bildirilir. Lakin həmin müştərək dəyərlər sistemi nədir və hansılardır, sualına cavab vermək üçün bilməliyik ki, İslam baxımından bütün ilahi dinlər və şəriətlər vahid həqiqətə malikdirlər. Başqa sözlə, yalnız bir ilahi din və şəriət mövcuddur. Burada olan fərqlər isə çox azdır. Yəni həmin dinlər arasındakı fərqlər müəyyən bir peyğəmbərin peyğəmbərlik dövründə də müşahidə olunmuşdur. Misal üçün, əgər Musa (ə) peyğəmbərin gətirdiyi şəriətin hökmlərinin biri İsa (ə) peyğəmbərin vasitəsilə dəyişdirilmişsə, bu proses İslam peyğəmbəri həzrəti Məhəmmədin (s) gətirdiyi şəriət qanunlarının arasında da baş vermişdir. Yəni ilk peyğəmbərlik dövrlərində o peyğəmbərə nazil olan bəzi hökmlər bir neçə ildən sonra Allah tərəfindən nəsx edilmişdir. Dini terminologiyada buna «nəsx olan ayələr» deyilir. Bir peyğəmbərin peyğəmbərlik dövründə baş verən belə nəsxlər müxtəlif dinlərin və səma şəriətlərinin bir-birindən əsaslı fərqlənməsinə səbəb ola bilməz. Bir çox ayələrdə Allah-Təala peyğəmbərə xitab edərək buyurur:

«Sənə vəhy vasitəsilə göndərdiklərimizi keçmiş peyğəmbərlərə də göndərmişik.» Deməli, bütün ilahi dinlərin külliyyatı və əsas qanunları vahid və ortaqdır. Həmin əsas qanunlardır ki, tarixin bütün mərhələlərində yaşayan cəmiyyətləri və insanları bir araya toplayır. İnsanlar onlara tabe olmalıdırlar və öz mədəniyyətlərini və dəyərlər sistemini həmin qanunlar əsasında formalaşdırmalıdırlar. Başqa sözlə, bütün insanlar İslam dininə

xidmət etməlidirlər. Yəni İslam dini tarixin müxtəlif mərhələlərində, zaman və məkan şəraitini nəzərə alaraq bir sıra hökmlərdə dəyişkən və fərqli olsa da, həmin dinin əsas məsələləri və əqidə sistemi Adəmin yaranışından Qiyamətə qədər eynidir. Bu müqəddəs dinə inanmayanlar və tabe olmayanlar zülmkar olmuş, fəsad və təkəbbür əhlinə çevrilmişlər. Çünki insanın pak fitrəti bütün tarix boyu yaşayan insanlarda vahid və müştərəkdir. Burada insanlarda mövcud olan vahid fitrət vahid şəriət hökmlərinin yaranmasına da əsas səbəbdir.

Deməli, bütün insanların bir vahid mədəniyyətə malik olması ilə qlobal vahid cəmiyyət təşkil etmək ideyası tam rasionaldır. Lakin, «həmin cəmiyyət yaranacaqdır, yoxsa yox,» bu suala Quran belə cavab verir: Heç şübhə yoxdur, bir gün gələcəkdir ki, insanlar vahid mədəniyyət və dəyərlər sisteminə qulluq edərək vahid qlobal cəmiyyət təşkil edəcəklər. Biz isə hesab edirik ki, həmin gün on ikinci imam həzrət Mehdinin zühur etdiyi vaxtdır.

# 6. Tarixin qanunauyğunluğu

Bəzi mütəfəkkirlər hesab edirlər ki, tarix, obyektiv və canlı bir gerçəklikdir. Onun ruhu var, iradəsi var, hərəkət edir, müəyyən bir məqsədə doğru irəliləyir və özünəməxsus sistem və qanunauyğunluğa malikdir. Bu təfəkkür qədim zamanlardan mövcud olmuşdur. Eramızdan öncə 428-347-ci illərdə yaşayan yunan filosofu Platonu, həmçinin orta əsrlərdə xristian sxolastı Avqustini həmin ideyanın banilərindən hesab edirlər. İlk dəfə Fransız filosof, yazıçı və şairi Volter həmin təfəkkürü «tarixin fəlsəfəsi» adlandırdı. Lakin bu ideyanın yayılması Hegelin nəzəri fəlsəfəsinin zühur etməsindən və Marks və tərəfdarları tərəfindən yayılmasından sonra baş verdi.

Hər halda, tarixin fəlsəfəsi nəzəriyyəsi tarixdə qanunauyğunluğu təkidlə önə çəkir. Tarix qeyri-obyektiv deyil, obyektiv şəxsiyyətə malikdir. Bu müstəqil obyektiv gerçəklik bir yerdən başlamış, müəyyən yollardan keçir və nəhayət bir məqsədə çatır. Tarixin fəlsəfəsində aşağıdakı suallara cavab verməyə çalışılır:

«Tarix necə hərəkət edir? Tarixin son mərhələsi haradır? İndiki mənzildən tarixin sonuncu mərhələsini təsvir etmək olarmı? Tarixin müxtəlif mərhələlərindən mütləq keçməliyikmi? Tarixi hərəkətə gətirən amil nədir?

Tarixin fəlsəfəsi qəbul edir ki, tarixin hərəkəti qanunauyğundur və biz tarixdə baş verən qanunları kəşf edə bilərik. Yəni, bütövlükdə tarix elm baxımından təfsir oluna bilər.

Tarixin fəlsəfəsi haqda iki məşhur nəzəriyyəni araşdırmazdan öncə bir məsələni xatırladırıq. Bəzi mütəfəkkirlərin yazılarını mütaliə edərkən biz onların sosioloq, yaxud tarix filosofu olmaları haqda şəkkə düşürük. Qeyd edək ki, sosiologiyada hər bir cəmiyyət müstəqil bir gerçəklik kimi mütaliə olunur. Halbuki, tarix filosofunun nəzərində bütün cəmiyyətlər üst-üstə tarix adlı vahid bir gerçəkliyi təşkil edirlər. Həmin obyektiv varlıq zamanın

bütün mərhələlərində daimi olaraq dəyişkənliyə məruz qalır. Bu məsələ ictimai və humanitar elmlər sahəsində yazanların yazılarında çox müşahidə olunur. Misal üçün, bir tarixçi mütəfəkkir digərini sosioloq başqa bir tarixçini isə tarix filosofu adlandırır. Belə ki, biz Ögüst Kontun üç mərhələli formulunu sosiologiyada irəli sürülən nəzəriyyə kimi qələmə verdik. Halbuki, onu tarix fəlsəfəsinə də aid etmək olar. Çünki Kont cəmiyyət məfhumunu – obyektiv gerçəklik kimi – bəşəriyyət məfhumu ilə eyniləşdirir. Habelə, bir çox yazıçılar Şpinqler və Toynbini tarix filosofu adlandırmışlar. Halbuki, bizim əqidəmizə görə, bu iki mütəfəkkir, sosioloq hesab olunurlar. Hətta Karl Marks tarix filosofu olmazdan daha çox sosioloqdur. Hərçənd biz bəzi yazıçılar kimi onun nəzəriyyələrini tarix fəlsəfəsinə aid etmişik.

Tarix fəlsəfəsində irəli sürülən nəzəriyyələrdən iki nəzəriyyə daha çox tanınmışdır:

**1. Hegelin nəzəriyyəsi**

Bu nəzəriyyəyə əsasən, real aləmin əsasını təfəkkür təşkil edir. Başqa sözlə, yaradan, varlıqdan qaynaqlanan azad və mütləq ideya real aləmdə təzahür etmiş və onunla eyniləşmişdir. Başqa sözlə, təbiət aləmi mütləq ideyadır. Yəni Allahın zehnidir. Lakin həmin ideya öz kökündən ayrılıb xaricdə təzahür etdikdən sonra, ayrılıq nəticəsində özündən biganə olur və daimi olaraq həmin ayrılığı aradan götürmək üçün öz kökünə qayıtmaq istəyir. Mütləq ideyanın təzahürü və inkişafı həm məkanda, həm də zamanda həyata keçir. Mütləq ideya məkanda inkişaf edərkən təbiət yaranır, zamanda inkişaf etdikdə isə ruh. Tarix ruhun zamanda inkişaf etməsi nəticəsində yaranır. Deməli, tarix öz kökündən ayrılmış neyə bənzəyir. Ney daimi olaraq şikayət edir, öz əslinə və özünə qayıtmaq istəyir.

Tarixin hərəkəti mütləq ideyanın təzahürləridir. Mütləq ideyanın cövhəri, yəni onun əsası azadlıqdır. Lakin onun təbiət aləmində təzahür etməsi onu məhdudlaşdırmışdır. Azadlıq dövrünə qayıtmaq mütləq ideyanın əsas məqsədidir. Tarix hərəkət etdikcə mütləq ideya bir addım özünün son azadlıq mərhələsinə yaxınlaşır. Dünya tarixini hərəkətə gətirən əsas amil mütləq ideyanın özündən biganə olub sonra özünü tapması, daimi olaraq təzadlarla hərəkət etməsidir. Mütləq ideya nə qədər təzahür edirsə, tarix bir o qədər də öz hərəkətinə davam edir. Dünyanın tarixi mütləq ideyanın ilahi

zehnində hərəkət etməsindən başqa bir şey deyil. Bu isə məhdudiyyətlər, tənqidlər, təzadlar və hadisələrlə baş verir.

Tarixin hər yeni mərhələsi ötən iki ziddiyyətli mərhələnin tərkibinin nəticəsidir. Lakin bu yeni mərhələ eyni halda keçmiş mərhələlərdən daha geniş və azaddır. Beləliklə, mütləq ideyanın təzahürü olan dünya tarixi nə qədər inkişaf etsə, bir o qədər azadlıq əldə edir. Bu azadlıq varlıqda təzahür etmiş mütləq ideyanın öz məhdudiyyətlərinə qələbə çalmasıdır. Tarixin məqsədi mütləq ideyanın tam azadlığa çatması və özünə qarşı biganəlikdən qurtarmasıdır. Mütləq ideyanın azadlığını tarixin hər bir dövründə burada yaşayan insanların əhval-ruhiyyəsindən müşahidə etmək olar. Bu əsasla, dünya tarixi belə xülasə olur:

a) Bir nəfərin azadlıq dövrü, digərlərinin əsarəti;

b) Bir neçə insanın azadlıq dövrü və digərlərinin əsarəti;

v) Bütün insanların azadlıq dövrü.

## 2. Marksın nəzəriyyəsi

Marks bildirir ki, o, Hegelin təfəkkürünü qanunlaşdırdı. Onun fikrincə, real aləmin əsasını mütləq ideya deyil, materiya təşkil edir. Marks bildirir ki, tarixdə cərəyan edən ziddiyyətlər mütləq ideyada deyil, cəmiyyətin iqtisadi təbəqələri arasında mövcuddur. Tarixi hərəkətə gətirən əsas amil mütləq ideyanın azadlığa çıxmaq istəyi deyil, cəmiyyətdə istehsal vasitələrinin inkişafı və yeni təbəqənin köhnə təbəqə ilə mübarizəsidir. Bu, tarixin seyrini mütləq ideyanın xalqlar və insanlar arasındakı təzahürü deyil, istehsal vasitələrindəki inkişafın müxtəlif mərhələləri hesab edir, tarixi aşağıdakı müxtəlif mərhələlərə bölür: ibtidai icma mərhələsi, quldarlıq mərhələsi, feodalizm mərhələsi, kapitalizm mərhələsi, sosializm mərhələsi və kommunizm mərhələsi. Marksın fikrincə həmin dövrlərin yaranmasının əsas səbəbi burada istehsal vasitələrinin inkişaf səviyyəsidir. Nəhayət, Marks tarixin məqsədini mütləq ideyanın azadlığı deyil, cəmiyyətin iqtisadi təbəqədən azadlığı hesab edir.

İki nəzəriyyənin biri idealist, digəri isə materialist yönümlü olsa da, onların ən azı üç ortaq məqamı vardır: birinci, onların hər ikisi tarixin hərəkətini daxilindəki təzadların nəticəsi hesab edir. Yəni, burada tarixi hərəkətə gətirən xarici səbəb və yaxud səbəblərdən danışmaq düzgün deyil. İkinci, Marks və Hegel tarixin hərəkətində və onun məqsədinin

müəyyənləşməsində insanın iradəsi üçün heç bir təsir görmürlər. Yəni insanlar tarixi dəyişdirə bilməz və yaxud onun hərəkətinin qarşısında müqavimət göstərmək iqtidarında deyildirlər. Onların hər ikisi tarixin hərəkətini inkişaf halında qələmə verirlər. Yəni tarix daim inkişaf edir, geriyə qayıtmır.

Biz burada birinci məsələ barədə araşdırma aparmır və əziz oxucunun bu haqda yazılan fəlsəfi kitab və məqalələrə müraciət etməsini xahiş edirik. Lakin ikinci məsələ barəsində «insan azadlığı, ictimai və tarixi qanunlar» adı isə üçüncü məsələ barədə isə «cəmiyyətdə və tarixdə təkamül» ünvanında araşdırma aparacağıq.

# 7. İctimai-tarixi qanunlar və insan azadlığı

İctimai və tarixi qanunların insan ixtiyarı və iradə azadlığı ilə uyğun gəlib-gəlməməsi barədə üç əsas rəy mövcuddur:

1. Bəzi mütəfəkkirlərin fikrincə, təbii və fiziki qanunlar zəruri və qəti olduğu kimi, ictimai və tarixi qanunlar da zəruri və cəbridir. Təbii və fiziki qanunların zəruriliyi və qətiliyi həmin elmlərdə mütəxəssis olan insanlara təbii hadisələrin və fiziki proseslərin gələcəkdə necə baş verməsi barədə imkan yaratdığı kimi, sosioloq və yaxud tarix filosofu da müəyyən bir cəmiyyətin və yaxud bütövlükdə bəşər cəmiyyətinin (yəni tarixin) gələcəkdə necə inkişaf etməsini və proseslərin hansı dəyişkənliyə məruz qalmasını öncədən xəbər verə bilər. Təbii və fiziki elmlərin müzakirə və tədqiq predmeti olan cansızlar, bitkilər və heyvanlar təbii və fiziki qanunların təsiri altında qalaraq heç bir iradəyə malik olmadıqları kimi, insan da tarixi və ictimai qanunların məcburiyyəti altında heç bir iradəyə malik deyildir.

Qeyd edək ki, sosioloq və tarix filosoflarının çox hissəsi həmin əqidənin daşıyıcılarıdırlar. Biz öncə bunlardan bəzisini, o cümlədən Dürkheym və Şpinqlerin fikirləri ilə tanış olduq. Hegel deyir: «Tarix insanların fərdi iradələrinin kəsildiyi yerdir. «Həmçinin, o, tarixin şeytanlığından və məkrlərindən söhbət açır. Engels isə tarixin tanrısını tanrıların ən qəddarı adlandırır ki, öz qələbə arabasını ölülərin və üsyankarların cəsədləri üstündən sürür. Göründüyü kimi, hər iki filosofun fikirlərində tarix müstəqil bir gerçəklik kimi nəzərdə tutulur və tarixi qanunlar insanın fərdi və azad iradələrini inkar edir.

2. Bəzi filosofların fikrincə isə, ictimai və tarixi qanunlardakı zərurilik insanın azad iradəsini bütövlükdə məhv etməyə qadir deyildir. Başqa sözlə, cəmiyyətin ruhu və yaxud insanların tarixi onları tamamilə öz

məqsədlərindən ayıraraq tarixin ümumi məqsədinə tərəf yönəldə bilməz. Cəmiyyət və yaxud tarix, başlanğıcı və müəyyən məqsədi olan bir karvandır ki, müəyyənləşmiş bir yolu vardır. Bununla belə, karvan hərəkət edən zaman burada insanların hər biri bir sıra azadlıqlara malikdirlər. Onlar karvanın ön tərəfində və yaxud son sıralarında gedə bilərlər və yaxud onlar iri və ya xırda addımlarla irəliləyə bilərlər. Cəmiyyətin və yaxud tarixin ümumi və zəruri və dəyişməz qanunları vardır. Bununla belə, həmin dəyişməz qanunlarda insanların bir sıra ixtiyar hüdudları da mövcuddur. Bir sözlə, ictimai və tarixi qanunlar insan azadlıqlarını məhdudlaşdırır lakin məhv etmir.

3. Burada digər bir nəzəriyyə də mövcuddur. Həmin nəzəriyyəyə əsasən, cəmiyyətin və ya tarixin qanunauyğunluğu tarixi hadisələrin və ictimai proseslərin səbəbsiz və təsadüfi şəkildə həyata keçməməsidir. Yəni həmin proseslər müəyyən bir səbəblərlə izah oluna bilərlər. İctimai hadisələr və tarixi proseslərin hamısı səbəb-nəticə sisteminə tabedir. Nəhayət, burada insanın azad iradəsi və ixtiyarı tam səbəbin ayrılmaz bir hissəsidir. Səbəb-nəticə qanununun ümumi olmasını qəbul edərək deyirik: İctimai və tarixi qanunlardan tam agah olsaq da, cəmiyyət və tarixin gələcək proseslərini öncədən xəbər verə bilmərik. Həmçinin, insan iradəsi ictimai və ya tarixi məcburiyyətə məhkum deyildir. Həqiqətdə insanlar cəmiyyət və tarixdə tam azaddırlar. Hətta onlar cəmiyyətin və tarixin hərəkətinə əks istiqamətdə irəliləyə bilərlər. Və yaxud cəmiyyətin və tarixin istiqamətini dəyişdirməyə belə qadirdirlər.

Hesab edirik ki, üçüncü rəy həqiqətə uyğundur. Bu cəhətdən, biz burada birinci rəy barədə, yəni insanların iradəsini cəmiyyət və tarixdə məhv edən və onları tam məcbur gerçəklik kimi qələmə verən fikir haqda, həmçinin insanların qismən cəmiyyət və tarixdə azad iradəyə malik olması, lakin bütövlükdə məcbur şəkildə tarixdə məhkum olmasını bildirən fikir barədə bir sıra tənqidləri önə çəkəcəyik. Bu iki nəzəriyyənin müştərək və ortaq cəhəti ondadır ki, onlar insanı (heç olmasa bəzi işlərində) cəmiyyət və tarixin məcburiyyəti qarşısında təslim edirlər. Biz həmin bu cəhəti tənqid etməyə və rədd etməyə çalışacağıq:

a) Dəfələrlə demişik və yenidən deyirik ki, obyektiv gerçəkliyə malik olan yeganə varlıq insan şəxsiyyətləridir ki, onların bir-biri ilə münasibətləri və əlaqələrinin məcmusu «cəmiyyət» adlanır. Deməli, cəmiyyət obyektiv və fəlsəfi baxımdan gerçək həqiqətə malik deyildir. İndi deyirik: Tarix də

belədir. Deməli, cəmiyyətin və yaxud tarixin ruhu təbiri tam yanlışdır. Yəni cəmiyyət və tarix insanları öz təsiri altına sala bilməz.

b) Bütövlükdə, İslam dini və bütün səma dinlərinin əsası, hətta bütün etik və ya hüquqi sistemlərin bünövrəsi insan iradəsinin azadlığına söykənmişdir. İnsan ixtiyar sahibi olmasa, onu necə müəyyən bir işi görməyə əmr etmək və ya həmin işdən çəkindirmək olar? Əmr etmək və ya çəkindirmək olmasa, din və yaxud əxlaqi və hüquqi sistem necə formalaşacaqdır?

v) Quran ayələrinin bir çoxu ictimai və ya tarixi qanunların insan iradəsini məhv etməyə qadir olmadığını bildirir. Nümunə olaraq insanları keçmiş cəmiyyətlərdə baş verən sərgüzəştlərdən ibrət almağa dəvət edən ayələri yada salın. Həmin ayələr cəmiyyətlərin sosioloji qanunlarda müştərək olmasını xatırlatmaqdan əlavə, həm də bu mühüm məsələni önə çəkir ki, tarixdə və cəmiyyətdə hakim olan qanunlar insan iradəsini onun əlindən almır. Çünki belə olsaydı, ictimai qanunlar təkrar olmazdı. İctimai qanunlar bizim azadlıqlarımızı məhv etsəydi və bütün prosesləri cəmiyyətin və yaxud tarixin ruhuna tapşırsaydı, biz keçmiş insanların hadisələrindən öyüd-nəsihət almaqla öz işlərimizdə islahat aparmaq iqtidarında olardıqmı? Bu qəbildən olan Quran ayələri tam aydınlıqla bildirir ki, ictimai prosesləri və tarixi hadisələri yaradan səbəblər insan iradəsindən tam müstəqil deyildir. Yəni bunların insan iradəsi ilə sıx əlaqəsi vardır. Deməli, biz keçmişdə yaşayan insanların sərgüzəştlərinə baxıb öz ixtiyari əməllərimizi elə tənzimləyə bilərik ki, onlar pis nəticələrlə üzləşməsin.

Burada bir məsələni də xatırlatmalıyıq; insan iradəsinin ictimai və tarixi proseslərin kəmiyyətində və keyfiyyətində təsir qoyması, cəmiyyət və tarixin gələcək proseslərini öncədən xəbər verməyi qeyri-mümkün edir. Aydındır ki, ixtiyar sahibi olan varlıqların, o cümlədən insanın həmin azad iradəsi, onların gələcəyini öncədən xəbər verməyi mümkünsüzləşdirir. Təbii elmlərdə, o cümlədən fizika və biologiyada olan qətilik humanitar sahələrdə yoxdur. Bu isə təbii elmlərdə müzakirə və təhqiq obyektli olan cansızlar, bitkilər və heyvanların iradəsizliyindən irəli gəlir. Həmin təbii gerçəkliklər də insanın ixtiyar hüdudlarında olsaydı, onların gələcəyi qaranlıq olacaq idi. Misal üçün, insan Günəş planetində təsərrüf etsəydi, ayın və günün tutulmasının öncədən xəbər verilməsi mümkün olmazdı. Bu cəhəti nəzərə alaraq qəbul etməliyik ki, biz cəmiyyətin və tarixin hərəkətindəki qanunları-Nyutonun cisimlərin hərəkətindəki qanunları kəşf etdiyi kimi aydınlaşdıra

bilməyəcəyik. Çünki cəmiyyət və tarixdəki prosesləri yaradan azad iradəyə malik olan insandır və insan obyektiv gerçəkliyə malik olduğu üçün obyektiv və real təsirlərə malik ola bilir. Başqa sözlə cəmiyyət və tarixin qanunauyğunluğunda məqsəd onların insan əməllərini məhdudlaşdırmaq və ictimai və tarixi qanunların məcburi olaraq insanları hasara almaq mənasını daşıyırsa, həmin qanunauyğunluq insan azadlığı ilə bir araya sığmır.

Bir sözlə, insanın azad iradəsi və ixtiyarı olan yerlərdə proseslərin öncədən müəyyənləşməsi qeyri-mümkündür. Burada, yalnız bir yol var: həmin şəxsin qeybi elmdən xəbərdar olması. Yəni müəyyən məkanda və zamanda hansı hadisənin baş verməsini, yalnız qeybdən gələn elm ilə müəyyənləşdirmək mümkündür. Bu isə başqa bir sahədir. Şübhəsiz, Allah-Təalanın təlimləri əsasında cəmiyyətin və tarixin proseslərini öncədən müəyyənləşdirən insanlar ictimai və tarixi qanunlara istinad edərək hadisələrdən xəbər verənlərlər xeyli fərqlənirlər.

# 8. Cəmiyyət və tarixin təkamülü

İnsanların təfəkkür tarixini yazan mütəfəkkirlərin bir çoxu bildirirlər ki, antik Yunan dövrü filosoflarının bütün bəşəri uşaqlıq, gənclik və qocalıq dövrünü yaşayan canlı bir gerçəklik kimi təsəvvür etmələrini nəzərə almasaq, 17-ci əsrə qədər hələ insanlarda tərəqqi etmək, daimi inkişaf və kamilləşməyə doğru hərəkət ideyası peyda olmamışdı. Lakin 17-ci əsrdən sonra tarixin və cəmiyyətin tərəqqi etməsi ideyası günbəgün çoxalmağa başladı. Bir çox tarixçilər, tarix filosofları, ictimai elmlər tədqiqatçıları nəinki cəmiyyət və tarixin hərəkətini öncədən müəyyənləşmiş hesab edirlər, hətta bildirirlər ki, tarixin və cəmiyyətin seyri daim düzgün olmuşdur. Yəni insanlar daim pis vəziyyətdən yaxşı vəziyyətə doğru hərəkət etmişlər. Yəni bu mütəfəkkir və alimlər nəinki cəmiyyətin və tarixin seyrini müəyyənləşdirmiş, hətta onun düzgün istiqamətdə olduğuna təkid etmişlər.

Fransız riyaziyyatçı və fiziki Paskal həmin antik filosoflar kimi bildirirdi: «İnsanların müxtəlif dövrlərdə və əsrlərdə hərəkət xətti hər bir insanın həyatı kimidir. Yəni o həmişə yaşayır və daim öyrənir. Xüsusilə 18-ci əsrdən sonra insanların təkamül hərəkəti müəyyən şəkillər və formalarla izah olunurdu. Burada Ögüst Kontun üç mərhələli formulu, həmçinin fransız riyaziyyatçı və filosofu Kondorsetin pilləkən formulunu xatırlatmaq olar. Həmin formula əsasən, insanın təfəkkür və etika müstəvisində inkişafı, onun pilləkənlərdən yuxarı getməsi kimidir. Bu inkişaf isə daimidir və sona çatmır. Hegelin və Marksın tarix fəlsəfəsindəki təkamül formulları da 18-ci əsrdə təqdim olundu. Diqqət edin, şübhəsiz, ictimai təkamül nəzəriyyəsi (cəmiyyət və tarixin təkamülü) Darvinin, canlıların təkamülü nəzəriyyəsindən sonra geniş yayılmasına baxmayaraq, ictimai təkamül nəzəriyyəsi canlıların təkamül nəzəriyyəsindən öncə təqdim olunmuşdur. Hətta mədəniyyətin yeknəsəq və daimi təkamülünə təkid edən ictimai təkamül nəzəriyyəsinin əsas baniləri, yəni Spenser və Teylor öz

nəzəriyyələrini Darvinin «növlərin mənşəyi» kitabının nəşrindən əvvəl irəli sürmüşdülər.

Qeyd edək ki, təkamül termini də müxtəlif mənalarda müxtəlif cür təfsir olunmuşdur. Tədqiqatçılardan biri deyir: İctimai təkamül nəzəriyyəsini irəli sürənlər bir neçə qismə bölünürlər. Yəni insan maarifinin və təbii elmlərin daim inkişaf edəcəyinə təkid edən mütəfəkkirlər bir neçə qismə ayrılırlar. Onlardan bəziləri hesab edirlər ki, həmin təbii elmlərdən və maarifdən texnologiya yaranır və inkişaf edir. Digərləri bununla kifayətlənmir və bildirirlər ki, texnologiya inkişaf etdikcə, insanların maddi durumu yaxşılaşır və insanlar zənginləşirlər. Bəzi digər mütəfəkkirlərsə hesab edirlər ki, elm, sənaye və texnologiya inkişaf etdikcə, ictimai və siyasi təşkilatlar da təkamülə doğru hərəkət edir. Bəşər cəmiyyəti daha yaxşı hakimiyyətlərdən bəhrələnir. Onlar daha azad və bərabər şəraitdə yaşamağa başlayır və nəticədə insan şəxsiyyəti daha çox kamilləşir. Həmin təsnifatda başqa mütəfəkkirlər düşünürlər ki, cəmiyyətin təkamül mərhələlərindən birində ictimai təşkilatların və institutların kamilləşməsi ilə bərabər insanların şəxsiyyəti də daha yüksək səviyyədə formalaşır. Onlar bir-birinə qarşı mehriban olur, bir-birinə kömək edir və əxlaqi qanunlara riayət etməyə çalışırlar və nəhayət bir sıra mütəfəkkirlər də belə hesab edirlər ki, bəşər cəmiyyəti öz təkamül mərhələlərində elə bir səviyyəyə çata bilər ki, bugünkü insan hüdudlarından keçir və onun hətta cismani və ruhani vəziyyəti də dəyişkənliyə məruz qalır. Gələcək insanlar böyük xəllaqiyyətə (yaradıcılıq qabiliyyətinə) malik olacaqlar. Onlar incəsənət əsərlərini yaratmağa daha çox qüdrət tapacaqlar. Onlardakı şüur səviyyəsi indiki insanların şüur səviyyəsindən çox-çox fərqlənəcəkdir. Hər halda, təkamül nəzəriyyəsi müasir dövrün ən mühüm təfəkkürlərindən birini təşkil edir. Hətta onu yeni din, yaxud dinin canişini və yaxud dinin yeni canişini adlandırmışlar.

Bir sözlə, bilmək lazımdır ki, təkcə Hegel və Marks bəşər tarixini daim təkamüldə olan gerçəklik kimi təsəvvür etmir. 17-ci əsrdən başlayaraq bir çox alim və mütəfəkkirlər belə ideyalarla çıxış etmişlər. Bunu da xatırlatmalıyıq ki, həmin alimlərdən heç biri ictimai təkamülün qəti şəkildə problemsiz baş verməsini bildirməmişdir. Şübhəsiz, həmin təkamüldə bəzi problemlər də mövcud ola bilər. İctimai təkamül nəzəriyyəsinin daşıyıcılarının təkcə bir sözü var: cəmiyyətin və tarixin hərəkəti-bütün problemlərə-baxmayaraq daim tərəqqi yolundadır.

Digər bir tərəfdən, cəmiyyətlə tarixin təkamülünü rədd edən mütəfəkkirlər də mövcuddur. Həmin mütəfəkkirlərin fikrincə, cəmiyyətlər, sivilizasiyalar, mədəniyyətlər, bəşər tarixi hətta bütün varlıq bitkilərdə, canlılarda və insanda müşahidə etdiyimiz ömrün erkən çağları, gənclik, orta yaş və qocalıq və ölüm həddini yaşayırlar. Antik dövrdən gələn bu ideya İran və Yunan şəhərlərinin süqut etməsini izah etmək üçün Platon tərəfdən irəli sürülmüşdür. 15-16-cı əsrdə İtaliyalı siyasi filosof Makiavelli, müasir dövrdə Şpinqler və Toynbi həmin nəzəriyyədən istifadə etmişlər. Onların fikrincə, tarix təkrar olunan bir prosesdir. Biz müəyyən bir heyvan cinsinin ömür mərhələlərini araşdırdığımız kimi, hər bir mədəniyyətin və sivilizasiyanın dövrlərini də araşdıra bilərik. Həmin alimlərdən Toynbi «tarixin dairəvi hərəkəti» nəzəriyyəsini «tarixin daimi təkamülü» nəzəriyyəsi ilə əvəz etmək üçün xeyli çalışmışdır.

İndi isə bu suala cavab verməliyik: Biz təkamülü cəmiyyətin və tarixin hərəkətində hakim kəsilən qanunlardan biri kimi qəbul edə bilərikmi? Bir sıra mütəfəkkirlər bu suala mənfi cavab vermiş və bildirmişlər ki, «kamal» dəyərdaşıyıcı bir məfhumdur və bu qəbildən olan digər məfhumlar kimi bitərəf işlənmir. Yəni kamal və təkamül işlənən bütün yerlərdə həmin məfhum bir növ təhlil və qəzavətin göstəricisidir. Bu əsasla, müəyyən bir cəmiyyətin və yaxud bütöv tarixin, hətta müəyyən ictimai bir prosesin hərəkətini «təkamül» adlandıran şəxsin məqsədi budur ki, həmin şəxs onu sevir və bu proses yaxud cəmiyyətin və ya tarixin hərəkəti onun üçün bəyənilmişdir.

Dəyərdaşıyıcı məfhumlar, o cümlədən «kamal» və «təkamül» məfhumu təkcə şəxsin fərdi və psixoloji vəziyyətinin və səliqəsinin (üslubunun) göstəricisidir. Misal üçün, Afrikada aparteid rejiminin zəiflənməsi və ağdərililərin hüquqlarının qaradərililərlə bərabərləşməsi imperator tərəfdarları, habelə Avropada yaşayan, amma əslində Afrikadan olan respublikaçıların, həmçinin qızıl və mis mədənləri səhmdarlarının nigaranlığına səbəb olmuş və onlar bunu pis, bəyənilməyən bir proses kimi qələmə vermişlər. Halbuki, Afrikanın etnik qaradərililəri baxımından bu, bir növ təkamül sayılır. Müəyyən bir ictimai prosesin bir şəxs və yaxud bir cəmiyyət baxımından təkamül, digərləri tərəfindən isə gerilik əlaməti kimi hesab edilməsi onu göstərir ki, biz elmi baxımdan tarixin və cəmiyyətin hərəkətini sübut edə bilmərik. Hərçənd bunun rəddi də elmi üsullarla mümkün deyildir. Diqqət edin, yaşıl rəngin göy rəngdən gözəl olub-

olmamasını elmi üsullarla sübut və yaxud rədd etmək mümkün deyil. Çünki «gözəllik» estetik baxımdan dəyərdaşıyıcı məfhumlardan hesab olunur. Hüquqi, etik, dini və estetik baxımdan dəyərdaşıyıcı məfhum olmayan və yalnız real məfhumlardan təşkil olunmuş qanunlar elmi üsullarla sübut oluna və yaxud rədd edilə bilərlər. Fəlsəfi, məntiqi və riyazi qanunlar da belədir. Belə olan halda onlar dəyərdaşıyıcı məfhumlardan təşkil olunmamış, bu səbəbdən də şəxslərin və fərdlərin səliqələrinə (şəxsi üslublarına) tabe deyillər. Yəni fəlsəfədə, məntiqdə və riyaziyyatda qəbul olunan qanunlar sübut oluna bilər və rədd edilə bilərlər. Bir sözlə, «təkamül» məfhumu dəyərdaşıyıcı məfhum olduğundan, yəni insanların şəxsi meyl və səliqələrinə tabe olduğundan, real gerçəkliyə malik deyildir. Deməli, cəmiyyətin və tarixin cərəyanının təkamül məzmunlu olub-olmaması haqda danışmaq real bəhslərə aid deyildir.

Biz hesab edirik ki, bu fikir yanlışdır. Biz hüquqi, etik və dini qanunların reallıqdan kənar olmasını qəbul etmirik. Hüquq, etika və din sahəsində müzakirə edilən dəyər məzmunlu qanunlar real məsələlər kimi düzgün və yaxud yanlış ola bilər və bunlar bütövlükdə real məsələlərin cinsindəndir. Çünki belə olsaydı, heç bir dəyərlər sistemini tənqid edə bilməzdik. Müəyyən bir kafir və yaxud zülmkar cəmiyyətin dəyərlər sistemini elmi sübutlarla tənqid edə biliriksə, bu, dəyər məzmunlu məfhumların real həqiqətə malik olmasını çatdırır. Kamal və təkamül məfhumu da fərdi və şəxsi meyl və səliqələrə tabe deyildir. Təkamüldən məqsəd real və həqiqi bir varlığın öz varlıq dərəcəsində inkişaf etməsidir. Kamal məfhumu (fəlsəfi aspektdən) insanın varlığının şiddətlənməsi və inkişaf etməsidir.

İctimai təkamül ideyasının daşıyıcılarından soruşuruq. Siz cəmiyyətin və yaxud tarixin real gerçəklik kimi inkişaf və müəyyən bir kamala doğru hərəkət etməsini iddia edirsiniz, yoxsa cəmiyyətin və yaxud tarixin təkamülü (sizin baxışınızda) orada yaşayan insanların təkamülüdür?

Burada məqsəd cəmiyyətin real gerçəklik kimi təkamülə getməsidirsə, bizim fikrimizcə, bu, cəmiyyətin və yaxud tarixin qeyri-obyektiv gerçəklik və şəxsiyyətə malik olması ilə uzlaşmır.

Lakin təkamüldə məqsəd cəmiyyətdə yaşayan insanların təkamülüdürsə, insanın son, mütləq və həqiqi kamalı onun ruhunun inkişaf etməsidir. Bu da insanın Allah-Təalaya yaxınlaşması ilə əldə olunur. İnsanın vücudunun müxtəlif aspektlərinin özünəməxsus kamala malik olmasını təsdiq edirik. Lakin bununla belə bildiririk ki, bütün bunlar həqiqi və son kamal ilə

müqayisədə müqəddimə xarakteri daşıyır. Yəni onlar insanın son kamala çatması üçün vasitədirsə bu vaxt kamal hesab olunurlar. Başqa sözlə desək, əgər insan həmin müqəddimə xarakteri daşıyan yüksək keyfiyyətlərdən özünün mənəvi tərəqqisi yolunda istifadə etməsə, onlar öz yüksək keyfiyyətini əldən verəcəklər. Bu əsasla, iki cəmiyyəti və yaxud tarixin iki mərhələsini bir-biri ilə müqayisə etdikdə, həmin cəmiyyətdə və ya tarixi mərhələdə yaşayan insanların Allah-Təalaya daha yaxın olanları «daha kamil insanlar» adlanırlar. Bu müddəanı necə və hansı elmi üsullarla sübuta yetirmək olar? Nə rasional dəlillərlə, nə də tarixi tədqiqatlar və araşdırmalarla tarixin müəyyən bir mərhələsində yaşayan insanların ondan öncəki və yaxud sonrakı nəsillərdən mənəvi baxımdan daha kamil olmasını sübut etmək mümkün deyildir. Şübhəsiz, burada qəti tarixi sübutlar mövcud olsa biz onu qəbul edərdik. Hər halda, tarixdə ictimai təkamülün daimi olmasına heç bir zərurət yoxdur. Biz dini dəlillərə istinad edərək bilirik ki, bəşər cəmiyyətinin ən kamil forması 12-ci imam, imam Mehdinin zühurundan sonra yaranacaqdır.

Burada deyilə bilər ki, cəmiyyətdə və tarixdə cərəyan edən təkamül prosesini tam həqiqi və ideal keyfiyyətlərlə deyil, nisbi və müqəddimə xarakteri daşıyan kamal xüsusiyyətlərlə ölçməliyik. Onların cavabında deyirik: cəmiyyətdə və tarixdə təkamül cərəyanını müəyyənləşdirən keyfiyyətlərin sayı çox olduğundan, burada müxtəlif aspektlər mövcud ola bilər. Yəni müəyyən bir cəmiyyət və yaxud tarixi mərhələ bir keyfiyyətə görə digərindən daha kamil, digər keyfiyyətlə müqayisədə isə o birilərindən naqis ola bilər. Hər halda, müəyyən bir cəmiyyətin və yaxud tarixi mərhələnin müqəddimə xarakteri daşıyan keyfiyyətlərə əsaslanaraq digərlərindən daha üstün olmasını sübut etmək mümkün deyildir.

İctimai təkamül ideyasını tənqid edən digər fikirlər də mövcuddur. Onlardan birində deyilir. Cəmiyyətlərdə və ya tarixdə ictimai təkamül ideyasını qəbul etsək, bu, yalnız cəmiyyət və tarixin keçmişinin təkamül yolunda olmasını bildirir. Yəni burada cəmiyyətin və ya tarixin gələcəkdə də tərəqqidə olmasını sübut etmək olmaz. Fərz edək, indiyə qədər cəmiyyət və tarixdə təkamül prosesi həyata keçmişdir. Lakin bilmək lazımdır ki, bu, yalnız bir meyldir, qanun deyil. Meyllər müəyyən bir prosesin keçmişdəki cərəyanının məqsədəuyğun olmasını göstərir. Halbuki, qanunlar bütün zaman və məkanlarda ümumi olan, dəyişməz bir nizam-intizamı göstərir. Başqa təbirlə desək, təkamül həyata keçsə də, qeyri-universal və xüsusi bir

hadisədir. Yəni bəşər həyatının keçmişini izah edir. Onun gələcəyini isə aydınlaşdıra bilmir?

Deməli, təkamül cəmiyyətin və ya tarixin cərəyanına hakim olan daimi, dəyişməz və universal bir qanun kimi qəbul edilə bilməz. Misal üçün, təkamül insanların ictimai münasibətlərinin, habelə rabitənin günbəgün çoxalması mənasını daşıyarsa, bu bir qanun yox, yalnız ictimai istiqamət və meyldir. Çünki bu, bəşər cəmiyyətinin çoxalması nəticəsində baş verir. Təbii olaraq, insanlar nəsil artırma qabiliyyətinə malik olduqları üçün onların sayı çoxalır. İnsanların sayı çoxaldıqca, təbii olaraq ictimai əlaqələr də artır. Misal üçün, şəhər cəmiyyətindəki ictimai əlaqələr dəfələrlə kənd və ya qəbilə cəmiyyətindəki ictimai münasibətlərdən çoxdur. Bu səbəbdən, kənd və ya qəbilə cəmiyyətinin ehtiyac duymadığı müəssisə və təşkilatlar zəruri olaraq şəhər cəmiyyətində yaranmalıdır. Bəşər cəmiyyətinin tədricən inkişafı və onların sayının çoxalması səbəb oldu ki, bir sıra beynəlxalq təşkilatlar yaransın. Beynəlxalq məhkəmələri buna misal göstərmək olar. Gələcəkdə rabitələrin çoxalması nəticəsində belə beynəlxalq təşkilatların daha geniş səviyyədə yaranmasının şahidi olacağıq. Təkid edirik: bütün bunlar cəmiyyətin müsbət inkişafının nəticəsidir. Bu da ictimai meyldən başqa bir şey deyildir. Gələcəkdə insan cəmiyyətinin azalmasına səbəb olan bir sıra amillərin peyda olması mümkündür. Təbidir ki, belə olan halda, rabitələrin inkişaf etməsi və çoxalması prosesi də dayanacaqdır.

Habelə, təkamül prosesini sənaye və texnologiyanın inkişaf etməsi kimi qəbul etsək, yenə də bu bir qanun deyil, yalnız bəşər cəmiyyətindəki ictimai meyldir. İnsanlarda mövcud olan ən bariz xüsusiyyətlərdən biri odur ki, onlar keçmiş nəsillərin təcrübələrini və elmi nailiyyətlərini əldə edərək özlərinin gizli istedadlarını və fitri imkanlarını aşkara çıxarır və inkişaf etdirirlər. Qeyd etmək lazımdır ki, müasir insanın beyni və onun fitri imkanları 5 min il bundan öncə yaşayan insanlardan çox deyil. Lakin müasir insan keçmiş nəsillərin elmi nailiyyətlərini və həyat təcrübələrini mütaliə edib öyrəndikdən sonra, onun təfəkkürünün funksiyası daha çox olur. Hər halda, insanların elmi nailiyyətləri keçmiş insanların təcrübələrindən istifadə etməklə daim inkişaf etmişdir. Burada inkişaf prosesi hətta iki nəsli müqayisə etdikdən sonra da başa düşülə bilər. Bütün bunlara baxmayaraq, burada bəşər cəmiyyətinin inkişaf prosesi qanun deyildir. İnsanların tarixi onu göstərir ki, insanlar yarandığı dövrdən indiyə qədər, daimi elm və sənaye sahəsində inkişaf etmiş və həmişə öz elmi

nailiyyətlərini artırmışlar. Lakin bundan nəticə almaq olarmı ki, insanlar gələcək əsrlərdə də daim inkişaf edəcəklər? Bəzi müasir silahlar bir gün işə düşərsə, elm və sənayenin hazırkı vəziyyətdə qalacağı məlum deyil. Bəlkə də insanlar yaratdıqları və əldə etdikləri bütün nailiyyətləri yenidən yaratmağa və tədricən inkişaf etməyə məcbur olacaqlar. Bundan əlavə, digər səbəblər də bəşər cəmiyyətinin təkamülünün qarşısını ala bilər.

Diqqət edin, insanların tarix boyu əldə etdikləri nailiyyətlər bioloji baxımdan digər nəsillərə irs yolu ilə ötürülə bilmir. Deməli, bütün bunlar tarixin müxtəlif hadisələrindən amanda qalmış və bir vaxt bütün bunlar məhv ola bilər. İnsanların tədricən və zaman-zaman əldə etdikləri elmi və mənəvi nailiyyətlər ictimai adət-ənənələr yolu ilə bir nəsildən digər nəslə ötürülür və insan həyatının simasını dəyişdirir. Bütün bunlar ictimai adət-ənənələrə o qədər bağlıdır ki, onsuz bütövlükdə məhv ola bilərlər. Çünki bioloji yolla digər nəslə ötürülmürlər.

Burada digər bir məsələni də aydınlaşdırmalıyıq. Bəzən deyilir ki, hər bir din keçmiş dinlərdən daha kamildir. Çünki hər bir cəmiyyət keçmiş cəmiyyətlərdən daha artıq inkişaf etmişdir. Bizim əqidəmizə görə, bu məşhur ideya da fəlsəfi əsaslara söykənmir. Bütövlükdə, müəyyən bir ilahi dinin digər bir ilahi dindən daha kamil olması, yalnız bu mənadadır ki, həmin din daha çox ictimai və hüquqi qanunlara malikdir. Şübhəsiz, insanların sayının çoxalması, onların arasında ictimai münasibətlərin artması, habelə ticarət, iqtisadiyyat, elm, texnologiya və sənaye sahəsində bir sıra inkişafların həyata keçməsi onu tələb edir ki, insanların məişət problemlərinin daha dəqiq həlli üçün burada daha geniş qanunlar toplusu müəyyənləşsin. Bu səbəbdən, hər bir ilahi din özündən öncəki ilahi dinlərlə müqayisədə həmin qanunları daha çox ehtiva edir. Bu mənaya görə, şübhəsiz, neçə yüz milyonluq cəmiyyətləri idarə etmək üçün göndərilən din kiçik bir qəbiləni idarə edən dindən daha kamil olmalıdır. Bu mənanı nəzərə almasaq, hər bir dinin ondan öncə gələn dindən kamil olmasını və beləliklə, hər bir peyğəmbərin ondan qabaq göndərilən peyğəmbərdən daha üstün olmasını iddia etmək olmaz. Bu iki iddianın heç biri əqli sübutlara əsaslanmır. Habelə, Quran ayəsindən və yaxud hədislərdən bunu sübut edən heç bir dəlil mövcud deyildir. Misal üçün, bir Quran ayəsində İbrahim peyğəmbərin Musa peyğəmbərdən şəxsiyyət baxımından daha kamil olması bildirilsəydi, biz bunu qəbul edərdik. Lakin İslam peyğəmbəri həzrət Məhəmmədin digər ilahi peyğəmbərlərdən kamil şəxsiyyətə malik olması

qəti dini dəlillərlə sübuta yetmişdir. Deməli, burada əqli və yaxud elmi dəlillər deyil, yalnız dini dəlillər işləkdir.

# IV FƏSİL

# Cəmiyyətin fərdə təsir bağışlaması

# Ön söz

Birinci, ikinci və üçüncü hissədə müzakirə etdiyimiz bəhslər ictimai elmlər fəlsəfəsi hövzəsinə aid olan bir sıra fəlsəfi və rasional bəhslər idi. İndi isə sosiologiya sahəsinə daxil oluruq və sona kitabın sonuna qədər bu sahədə müzakirə aparacağıq.

Sosiologiyanın mühüm bəhslərindən biri fərd və cəmiyyət arasındakı qarşılıqlı münasibətdir. Burada bir neçə məsələ müzakirə olunur: Cəmiyyət fərdin şəxsiyyətinin formalaşmasında və yaxud dəyişməsində hansı təsirə malikdir? Fərd bütövlükdə cəmiyyətdən təsirlənir, ona tabedir, yoxsa fərd cəmiyyətlə müqayisədə bir növ müstəqilliyə malikdir? Fərd bir sıra müstəqilliyə malikdirsə, bu müstəqillik hansı aspektlərdədir və fərd hansı cəhətlərdə cəmiyyətə tabedir? Fərd cəmiyyətin formalaşmasında və cəmiyyətdə baş verən dəyişkənlikdə təsir mexanizminə malikdirmi? Bu belədirsə fərd cəmiyyətə hansı miqyasda təsir bağışlaya bilir? Cəmiyyətin fərdə qarşı, yoxsa fərdin cəmiyyətə qarşı daha çox təsiri vardır? İnsan cəmiyyət və tarixi qurur, yoxsa cəmiyyət və tarix insanı formalaşdırır?

Sosioloqlar və ictimai elmlər tədqiqatçıları çoxlu mübahisələr və tədqiqatlardan sonra bu gün belə bir nəticə ilə çıxış etmişlər: Nə fərd tamamilə cəmiyyətə, nə də cəmiyyət tamamilə fərdə tabedir. Burada, yalnız fərd və cəmiyyət arasında qarşılıqlı təsiretmə və təsirlənmə mexanizmindən danışmaq olar. Bu əsasla, biz fərd və cəmiyyət arasında münasibətləri araşdıran bölməni iki hissədə təqdim edəcəyik. Onlardan biri cəmiyyətin fərdə təsiri, digəri isə fərdin cəmiyyətə təsiridir. Bu hissədə isə cəmiyyətin fərdə təsiri haqda danışacağıq.

Cəmiyyəti obyektiv şəxsiyyətə və müstəqil ruha malik bilən və insanları cəmiyyətin, yalnız sadə üzvləri hesab edən alimlər və sosioloqların fikrincə, yalnız ictimai heyvan olan insan cəmiyyət tərəfindən formalaşan gerçəklikdir. İnsan bədənindəki üzvlər müstəqil şəxsiyyətə malik olmadığı kimi, fərdlər də cəmiyyətdə müstəqil şəxsiyyətə malik deyildirlər. Onlar

cəmiyyətə bağlı və ona tabedirlər. İnsan bütün qabiliyyətlərini və istedadlarını cəmiyyətdən almışdır (Şübhəsiz burada fiziki və bioloji istedadlar istisna olunur). Lakin ön hissələrdə və fəsillərdə bildirdiyimiz kimi, biz cəmiyyətin belə bir qəti və böyük təsir mexanizminə malik olmasına inanmırıq. Biz fərdi real varlıq hesab edir və bildiririk ki, yalnız insanlar bir-biri ilə həmkarlıq edərək cəmiyyəti formalaşdırırlar və cəmiyyətdə baş verən bütün dəyişkənliklər insan tərəfindən həyata keçirilir. Eyni halda, hər bir fərd başqalarından təsir qəbul etdiyi üçün, burada cəmiyyətin fərdlər üzərində təsirindən danışmaq olar. Cəmiyyət real gerçəkliyə malik olmadığı üçün, cəmiyyətin fərd üzərində təsiri, yalnız cəmiyyətdə yaşayan insanların çox hissəsinin fərd üzərində və yaxud müəyyən fərdlər üzərində təsiri mənasındadır.

Bu təsirin miqyasının hansı dərəcədə olmasını araşdırmaq və müəyyənləşdirmək üçün ilk öncə fərdin şəxsiyyətinin formalaşması və dəyişməsində təsirli olan amilləri araşdırmışıq. Burada aşağıdakı amillər insan şəxsiyyətinin formalaşmasında təsirli ola bilərlər: İnsanda olan fitri imkanlar, insanın fitri idrak istedadı, həmçinin insanın fitri instinktləri və meylləri buna şamil olur. Varislik prinsipi, mühit və tərbiyə, yaş, fövqəltəbii amillər və səbəblər (fövqəltəbii amillər dedikdə vəhy və ilahi ilham nəzərdə tutulur) və bütün bunlardan daha əhəmiyyətlisi-insanın iradəsi və ixtiyarı. Sonra biz şəxsiyyət formalaşdıran həmin amillərin təsir hüdudlarını müəyyənləşdirmişik. Xüsusilə ictimai mühitin insan şəxsiyyətindəki təsiri barədə daha çox müzakirə etmişik və bildirmişik ki, cəmiyyət insanın fitri imkanlarını dəyişdirə bilməz. Sonra cəmiyyətin fərdlər üzərində təsir bağışlamasının müxtəlif növlərini sadalamışıq. Burada bildirilir ki, cəmiyyət insana iki cür təlim verir: Onlardan bəzisi dil, xətt və bu kimi vasitə rolunu oynayan təlimlərdir. Digəri isə insan şəxsiyyətinin formalaşmasında təsirli olan obyektiv elm və maarif toplusudur. Bundan əlavə cəmiyyət insanın fitri qüvvələrinin və istedadlarının çiçəklənməsində mühüm təsirə malikdir. Sonda cəmiyyətin mədəniyyətinin fərdə transfer olmasının ən mühüm yollarından biri olan təqlidin əhəmiyyəti və zərurəti məsələsini önə çəkmiş və sübut etmişik ki, təqlid müxtəlif maraqlarla həyata keçən şüurlu və məqsədli bir vərdişdir. Həmçinin bildirmişik ki, təqlidin bir sıra problemləri də ola bilər və mümkün qədər onlarla mübarizə yollarını da araşdırmışıq.

# 1. İnsan şəxsiyyətinin formalaşmasında və dəyişkənliyində təsirli amillər

Bu gün psixoloqların hamısı bu faktı qəbul edirlər ki, insan şəxsiyyətinin formalaşmasında, xüsusilə onun dəyişkənliyə məruz qalmasında «varislik» və «mühit» amili ən əsas rolu oynayır. Bunlardan sonra isə «yaş» və «əxlaq vicdanı» amili daha əhəmiyyətlidir.

Burada ilk öncə həmin amillərin hər birinin qısa izahını verir, sonra bu haqda olan bəzi tənqidi və tamamlayıcı fikirləri söyləyəcəyik:

**1. Varislik**

Varisliyin təsiri və əhəmiyyəti, yəni insanın ata-anasından və keçmiş əcdadlarından (irs olaraq) dünyaya gələn zaman özü ilə gətirdiklərinin onun şəxsiyyətinin formalaşmasındakı təsiri danılmazdır. Varislik amili səbəb olur ki, insanlar həm bədənin zahiri forması baxımından (tükün rəngi, boyun ucalığı və qısalığı, həmçinin bədənin köklüyü və arıqlığı), həm də bədənin daxili üzvlərinin funksiyaları baxımından (mədənin, ürəyin, beyinin və digər üzvlərin fəaliyyəti baxımından) bir-biri ilə fərqlənirlər. Misal üçün, bütün insanların bədənində bir sıra bağlı vəzilər mövcuddur. Lakin onların çəkisi və qanda ifraz etdiyi maddələr insanlarda fərqlidir. İndiki zamanda məlum olmuşdur ki, həmin vəzilərin və onların qanda ifraz etdiyi maddələrin insanların iştahasında, susuzluğunda, emosiya və həyəcanlarında, bədən quruluşunda-bir sözlə, bütün maddi, mənəvi və psixoloji fəaliyyətlərində böyük təsiri vardır. Misal üçün, həmin vəzilərdən birinin daha çox maddə ifraz etməsi (teroid) insanın rəftarının anormallaşmasına və onun əsəbiləşməsinə səbəb olur. Əksinə, həmin

vəzinin az maddə ifraz etməsi insanın süstləşməsinə və laqeyd olmasına gətirib çıxarır.

## 2. Mühit

Mühit amili ilk öncə iki qismə ayrılır: Daxili və xarici mühit.

a) Daxili mühit. Daxili mühitdən məqsəd insanın ana bətnində olduğu müddətdir. Ana bətnində inkişaf edən uşaq ananın qanından qidalanır. Ananın yaşı, onun psixoloji durumu qidalandığı yeməklərin növü, qarındakı kimyəvi maddələrin və kalsiumun miqdarı uşağın inkişaf prosesində tam təsir bağışlayır. Bir sözlə, uşağın dünyaya göz açmazdan öncəki mühiti onun şəxsiyyətinin formalaşmasında çox mühüm təsir amilinə malikdir. Belə ki, həmin mühit ya insanda olan bəzi fitri istedadların və imkanların çiçəklənməsinə kömək edir, ya da əksinə, onların qarşısını alır.

b) Xarici mühit: Xarici mühit də iki qismə ayrılır: Təbii və coğrafi mühit, ictimai və insani mühit.

Təbii və coğrafi mühit: Şübhəsiz, insanın yaşadığı mühitdəki abı-hava, qidalandığı yeməklər, xüsusilə onun ömrünün ilkin illərində onun şəxsiyyətinin formalaşmasında, zahiri bədən quruluşunda, hətta simasında mühüm təsir rolunu oynayır. İnsan yer kürəsinin müxtəlif ərazilərində soyuq, isti və mötədil havalı ərazilərdə yaşaya bilər. Və yaxud dağlıq ərazilərdə, kəndlərdə, şəhərlərdə məskunlaşa bilər. Bütün bunlar onun dərisinin rəngində, bədəninin formasında və hətta bədən üzvlərində böyük təsir bağışlayır. Hər bir uşağın ata anasına oxşarlığını asanlaşdıran və çoxaldan varislik prinsipindən əlavə onların adət etdiyi yeməklər və abı-havadır. İnsan da həmin təbii və coğrafi mühitə uyğunlaşdığından, məcbur olaraq ata-ananın xüsusiyyətlərinə malik olur.

İnsani və ictimai mühit: İnsani və ictimai mühit bir çox mühitləri ehtiva edir. O cümlədən: ailə, məktəblər və təhsil müəssisələri, peşə, ictimai birliklər, partiyalar, elmi və dini məclislər, mətbuat, kinoteatr, radio və televizor. Bu arada ailə mühitinin əhəmiyyəti bir sıra səbəblərə görə daha çoxdur. Ailə üzvlərinin yaşayışının aram-olub olmaması, ailənin iqtisadi vəziyyətinin mötədil və ya qeyri-mötədil (ya çox yoxsul, ya da çox varlı olması), ata ananın uşaqlarla necə davranması, onların bir-birləri ilə danışıqlarının tərzi, həyatın müxtəlif hadisələri qarşısında ata-ananın emosiyaları və reaksiyaları, ata-ananın bir-birini həyatda dərketməsi,

onların şərafətli və yaxud nadürüst insan olmaları, bir sözlə, ailə mühitində bütün baş verənlər uşağın şəxsiyyətində ən birinci və davamlı təsiri qoyur və onun şəxsiyyətini formalaşdırır. Kifayət qədər rahatlıqdan və asayişdən bəhrələnən ailələrdə uşağın bioloji baxımdan şəxsiyyəti mötədildirsə, bu mötədil şəxsiyyət qorunur, hətta kamilləşir. Zati olaraq uşaq mötədil şəxsiyyətə malik deyilsə, həmin ailələrdə onun şəxsiyyəti düzəlməyə başlayır və mötədilliyə yaxınlaşır. Əksinə, normal vəziyyətdə olmayan ailələrdə isə uşaqda olan bioloji mötədillik aradan gedir.

Başqa sözlə, dünyaya göz açan körpələr varislik və fitrət baxımından bir-birindən fərqli olmalarından əlavə, yaşadıqları və inkişaf etdikləri mühitlərin fərqli olmasına və aldıqları müxtəlif tərbiyələrə görə, daha çox fərqlənməyə başlayırlar. Hər bir ailədə mövcud olan psixoloji və iqtisadi vəziyyətin uşağın psixoloji və etik durumundakı təsiri, onun bədənində və bioloji durumundakı təsirdən az deyil. Bir sözlə ailə mühiti və uşağın valideyn və digər insanlarla, xüsusilə ömrünün ilk çağlarında üzləşməsi psixologiyada qəbul olunan reaksiya, təqlid və təlqin prinsiplərinə görə-onun bədənində və psixikasında dərin izlər buraxır, şəxsiyyətinə xüsusi rəng verir və bu vaxt uşaqda elə bir xüsusiyyətlər tapılır ki, bəlkə də bütün ömrü boyu ondan əl çəkməsin. Sonralar isə digər müxtəlif mühitlər, məktəblər, təhsil mərkəzləri və onların təlim-tərbiyəsinin keyfiyyəti, insanın iş yeri, evlənmək və həyat yoldaşının şəxsiyyəti, ictimai birliklər, siyasi partiyalar, elmi və dini məclislər, məzhəbi firqələr, ölkədə qəbul olunan qanunlar, kitablar, qəzetlər, jurnallar, kinoteatr, radio, televizor və sair amillər onun şəxsiyyətinin dəyişməsində və formalaşmasında çoxlu təsir bağışlayırlar.

Burada insanın təfəkkür tarixinin ən qədim problemlərindən sayılan və hələ indiyə qədər tam həllini tapmayan iki məsələ mövcuddur. Bunlardan biri odur ki, insanda mövcud olan istedadlar və xüsusiyyətlərin hansı birisi varislik və fitrət yolu ilə və hansıları mühit və tərbiyə yolu ilə əldə olunmuşdur. Misal üçün, insanın boyu onun şüurunun miqdarı, hadisələr qarşısında həssas olub-olmaması, şəxsiyyətinin stabil olub-olmaması və bu kimi xüsusiyyətlər varislik prinsipinə bağlıdır, yoxsa burada mühit də rol oynayır?

Digər məsələ ondan ibarətdir ki, varislik və fitrət amilinin insan şəxsiyyətinin formalaşmasındakı təsiri mühit və tərbiyə təsirindən çoxdurmu, yoxsa mühit və tərbiyə burada daha çox təsir mexanizminə malikdir? Bu məsələdə də tədqiqatçılar müxtəlif fikirlər söyləmişlər.

Onlardan bəzisi bildirirlər ki, insanda olan bütün imkanlar təbii və fitridir və insanın fərdi istedadları onun şəxsiyyətini formalaşdırır. Bəziləri isə əksinə olaraq hesab edirlər ki, insanlar anadan olan zaman ruhsuz maddəyə bənzəyirlər. Sonralar onun yaxşı və ya pis tərbiyəsi şəxsiyyətinin əsasını qoyur. Deməli, tərbiyənin əhəmiyyəti və təsiri daha çoxdur. Əlavə olaraq, burada varislik və mühit amillərinin hər ikisinin insan şəxsiyyətində təsirli olmasını bildirən amillər də vardır. Onlar da iki hissəyə bölünürlər: Alimlərin bir hissəsi, varisliyi daha təsirli görür digəri isə mühit amilini daha əsaslı hesab edirlər. Birinci bölməyə aid olan alimlər insanları fitrət baxımından pis adlandırır və tərbiyənin və mühitin onun yaxşılaşmasında çox az təsirə malik olmasını və ya bütövlükdə təsirsiz olduğunu hesab edirlər. Fransız mütəfəkkiri Monten, ingilis filosofu Tomas Hobbs və fransız tədqiqatçısı Laroşfuko birinci qismə, tanınmış ingilis filosofu Con Lokk isə ikinci qismə aid edilir. Həqiqətdə varislik və mühit prinsiplərinin hər birinin insan şəxsiyyətinin formalaşmasındakı rolunun miqyasını müəyyənləşdirmək çox çətindir. Qeyd edək ki, varislik və fitrət amilinin əhəmiyyəti barədə keçmiş və müasir yazıçı və alimlər çoxlu kitablar və məqalələr yazmışlar. Varislik və fitrət məsələsi bizim İslam tarixi ədəbiyyatında da geniş inikas doğurmuşdur.

Mühit və tərbiyə amili barədə də çoxlu sözlər deyilmişdir. Tanınmış psixoloq və pisixiatr Freyd bildirir ki, insan şəxsiyyətinin formalaşmasının və dəyişkənliyinin əsası uşaqlıq dövründə, xüsusilə ömrün ilk beş ilində qoyulur. Bundan sonra isə həmin ibtidai quruluş çiçəklənməyə başlayır. Beləliklə, Freyd ailə mühitinin insan şəxsiyyətində qəti təsirə malik olmasını bildirir. Lakin cəmiyyətin təsiri barəsində o bu fikirdə deyildir. Freydin şagirdi, həmkarı və dostu avstriyalı psixoloq və psixiatr Alrefd Adler ilk dəfə bu məsələni araşdırmağa başladı. O bu müddəa ilə çıxış etdi ki, insan şəxsiyyətində ilkin təsiredici amil, Freydin dediyi kimi, fitri instinktlər deyil, ictimai amillərdir. İnsan yaşadığı və inkişaf etdiyi hər bir cəmiyyətdə həmin cəmiyyətin rəngini özünə alır. Hər şeydən öncə insan (Freydin bildirdiyi kimi) cinsi varlıq deyil, ictimai gerçəklikdir. Amerikalı psixoloq Anri Murrey də (Freyd) kimi mühit və tərbiyənin insan ömrünün ilk çağlarında onun şəxsiyyətinin formalaşması üçün mühüm təsirə malik olduğunu vurğulayır. Amerikalı psixoloq Stak Sullivan ictimai mühitin təsiri və əhəmiyyəti barədə ifrata varır və deyir: «İnsanın başqaları ilə münasibətlərini nəzərə almadan onun şəxsiyyətindən danışmaq xam

xəyaldır. Deməli, biz insanın fərdi şəxsiyyətini müzakirə obyekti olaraq araşdıra bilmərik. Çünki o, digər fərdlərlə əlaqədə olmasa mövcud deyil.» Sullivan insan bədənini düzəldən və onu formalaşdıran varislik amilini inkar etmir. Lakin bildirir ki, insana xas olan bütün xüsusiyyətlər ictimai münasibətlərin məhsuludur. Nəinki insanın xəyal, təfəkkür, meyl və emosiya kimi psixoloji fəaliyyətləri cəmiyyətdən təsirlənir, hətta ictimai həyat insanın tənəffüs və qan dövranı kimi tam bioloji fəaliyyətlərində və onların dəyişməsində təsirlidir. Digər müasir psixoloq Erik Fromm da ictimai mühitlərin və burada tətbiq edilən qanunların, habelə ictimai təşkilatların insan şəxsiyyətinin inkişafında və ya dəyişkənliyə məruz qalmasında böyük təsirə malik olduğunu vurğulayır. Habelə, insan rəftarını və vərdişlərini müzakirə predmeti kimi əsas götürən psixoloji məktəblər mühit və tərbiyənin təsir miqyasını təcrübi üsullarla müəyyənləşdirməyə çalışmışlar.

Bir sözlə, müasir psixoloqların hamısı bildirirlər:

a) Varislik və mühit prinsiplərinin hər ikisi insan şəxsiyyətinin formalaşmasında və dəyişməsində dərin təsirə malikdir;

b) İnsanda müşahidə etdiyimiz xüsusiyyətlər bəzən varislik, bəzən isə mühit amilinin nəticəsidir;

v) Varislik və mühit ünsürləri bir-birindən ayrı deyil, bir-biri ilə tam qovuşaraq (qarşılıqlı olaraq) insan şəxsiyyətinə təsir bağışlayırlar. Bu da həmin amillərin təsirlərini və ünsürlərini bir-birindən ayırmağı və onların hər birinin təsir miqyasını müəyyənləşdirməyi çətinləşdirmiş, hətta qeyri-mümkün etmişdir;

q) Varislik bioloji bir ünsürdür; bu ünsürün insan rəftarındakı təsiri, yalnız rəftarın bioloji amillərə bağlı olduğu hövzələrdədir.

ğ) İnsan şəxsiyyətinin əsasları; yəni onun irs və varislik yolu ilə malik olduğu keyfiyyətlər bütün insanlarda anadan olduqları zaman mövcuddur. Lakin həmin əsaslar və köklər müxtəlif mühitlərin təsiri altında müxtəlif növlərdə təzahür edirlər.

### 3. Yaş

İnsan şəxsiyyətini dəyişdirən ünsürlərdən biri də onun yaş həddidir. Zamanın ötməsi insanın bədənində və psixikasında geniş təsir buraxır və onun şəxsiyyətini müəyyən qədər dəyişdirir. İnsan həyatı beş mərhələdən

ibarətdir. Onun şəxsiyyəti isə hər mərhələdə özünəməxsus rəng alır. Bu mərhələlər aşağıdakılardır:

a) Doğum və uşaqlıq mərhələsi: Bu, insanın həyata gəldikdən on iki yaşına qədər yaşadığı mərhələdir;

b) Gənclik mərhələsi: Bu, on iki yaşından iyirmi beş yaşına qədər davam edir;

v) Orta yaş mərhələsi: Bu iyirmi beş yaşından əlli yaşına qədər olan zaman; müddətidir

q) Yaşlılıq mərhələsi: Kişilərdə əllidən altmış beş yaşına qədər, qadınlarda isə qırx beşdən altmış yaşına qədər olan müddət;

ğ) Qocalıq dövrü

Psixoloqlar bu mərhələlərin hər birinin bariz xüsusiyyətlərini müəyyənləşdirmişlər.

**4. Əxlaq vicdanı**

Əxlaq vicdanı dedikdə, insanın pislikləri yaxşılıqlardan ayırmaq, həmçinin onun təbii olaraq yaxşılıqlara yönəlməsi və pisliklərdən çəkinməsi istedadı nəzərdə tutulur. Son dövrlərə qədər bu amilin fitri olaraq insanlarda olmasını heç kim inkar etmirdi. Lakin müasir dövrdə bir sıra tədqiqatçılar bu amili ictimai təlim və tərbiyənin məhsulu və ya cəmiyyətlə daimi təmasın nəticəsi kimi qələmə vermişlər. Qeyd edək ki, insan rəftarını araşdıran psixoloji məktəblərin tərəfdarları bu ideya ilə çıxış etmişlər. Onlar insan şəxsiyyətini şərti reflekslərdən təşkil tapmış və çox yaxşı tərbiyə olunmuş bir heyvana bənzədirlər. Dürkheym və onun tərəfdarları əxlaq vicdanının gerçəkliyini inkar etməsələr də, bunun cəmiyyətin məhsulu olmasını vurğulayırlar. Fransız filosofu Anri Berqson və isveçrəli psixiatr və psixoloq Jan Piaje də əxlaq vicdanını zati hesab etmir, onun sonralar insan tərəfindən ictimai həyat vasitəsilə kəsb etdiyini vurğulayırlar. Bu iki mütəfəkkir hesab edirlər ki, əxlaq hissi və yaxud vicdanın insanda zühur etməsi ilk olaraq cəmiyyətin insan üzərində təzyiqi və insanı cəmiyyətdə cərəyan edən qanunlara tabe olmasına məcbur etməsindən sonra yaranır. Sonralar isə (Berqsonun fikrincə) yaşamaq ehtirası amili və insanın mütləq yaxşılıq axtarması amili və ya (Piajenin fikrincə) insanın cəmiyyətlə həmkarlıq etməsinə meyl göstərməsi nəticəsində inkişaf edir.

Bildiririk ki, qəti olaraq əxlaq vicdanının insanlarda fitri olmamasını bildirmək mümkün deyil. Çünki canlı varlıq öz inkişafının müəyyən bir dərəcəsinə çatdıqdan sonra, onda bəzi fitri və zati xüsusiyyətlər təzahür edir. Bu səbəbdən, uşağın dünyaya gəldiyi vaxt vicdan ünsürünə malik olmaması onun sonralar müxtəlif ünsürlər vasitəsilə əxlaq vicdanına malik olması üçün müəyyən istedada sahib olmasını inkar etmir. Başqa sözlə, həyata yenicə göz açmış körpənin əxlaqi hislərə malik olmaması onun fitri olaraq həmin hisslərə sahib olmasını rədd etmir. Çünki sonralar həmin əxlaqi hisslər uşağın şəxsiyyətində təzahür edə bilər.

Bura qədər dediklərimiz psixoloqların və müəyyən qədər ictimai psixoloqların və filosofların fikirləri idi. İndi isə bu haqda öz tənqidi fikirlərimizi təqdim edirik:

1. Varislik ünsürü insanın ata-anasından və əcdadlarından aldığı və dünyaya gələn zaman özü ilə gətirdiyi xüsusiyyətlərə deyilirsə, burada bir sual yaranır: Bütün insanlar vahid ata və ananın (Adəm və Həvvanın) övladlarıdırlarsa və onların ata-anası olmayıbsa, bu iki insanın şəxsiyyətinin formalaşması haqda nə deyə bilərik? Yəni Adəm və Həvva varislik ünsüründən faydalanmamışlarsa onların şəxsiyyətinin qurulması necə baş vermişdir? Bu sual xüsusilə o mütəfəkkirlərə və alimlərə aid edilir ki, varislik amilini insanın şəxsiyyətinin formalaşmasında yeganə amil kimi hesab edir, yaxud burada bütün amillərin birgə olaraq insan şəxsiyyətinin formalaşması üçün zəruri olduğunu bildirirdilər. Yəni hesab edirdilər ki, heç bir amil başqasının yerini tuta bilməz. Bu iki dəstə mütəfəkkirlərin ortaq məqamı ondan ibarətdir ki, hər halda onlar insan şəxsiyyətinin formalaşmasında varislik amilinin təsirini zəruri və danılmaz hesab edirdilər. Yəni heç bir insan şəxsiyyəti varislik ünsürünü nəzərə almadan formalaşa bilməz. Sual olunur ki, belə isə Adəm və Həvvanın, yəni ilk ata və ananın şəxsiyyəti necə formalaşmışdır? Əvvəllər adətən belə qəbul olunurdu ki, bütün canlılar-istər heyvanlar, istərsə də bitkilər-indi müşahidə etdiyimiz kimi bir-birindən ayrı olaraq yaranmış və qalmışlar (növlərin sabit olması ideyası). Bu ideyanın daşıyıcıları həmin suala belə cavab verirdilər, ki, o iki insanın şəxsiyyətinin formalaşması qanunda baş verən bir istisnadır. Elmi qanunlarda isə bir ya iki istisna halları mövcud ola bilər. Lakin sonralar belə bir nəzəriyyə yayıldı ki, bütün canlılar təbii dəyişkənlik nəticəsində tədricən bir-birindən yaranmışlar. Misal üçün, insan meymundan yaranmışdır, (növlərin dəyişməsi və təkamülü nəzəriyyəsi). Bu

ideya ilə çıxış edən mütəfəkkirlər isə həmin suala belə cavab verirdilər ki, varislik ünsürü ilk ata və anada da cərəyan etmişdir. Yəni onlar öz əcdadlarından irs aparmışlar. Beləliklə varislik məfhumunu heyvanlarda da cərəyan etməsi ideyası inkişaf etdi,

Lakin biz növlərin dəyişməsi və təkamülü fərziyyəsini (ən azı insanlarda) qəbul etmirik. Bu səbəbdən, heyvanlarda varislik ünsürünün cərəyan etməsini təsdiqləmir və həmin ünsürün, yalnız insanlar arasında təsirli olmasını qəbul edirik. İslam dinində oğlan və qızlara həyat yoldaşı seçimində diqqətli olmaları haqda tövsiyələr bu amilin tam təsirli olmasının bu dində qəbul edilməsinin sübutudur.

2. Bir çox Quran ayələrində daxili mühitin, yəni ana bətninin, habelə təbii və coğrafi mühitin insan şəxsiyyətində tam təsirli olması vurğulanır. Həmin ayələrdə, insanın qidalanması məsələsi xüsusi olaraq vurğulanmışdır. Misal üçün, bildirilmişdir ki, süd verən ana xurma yeyərsə, onun uşağı səbirli və təmkinli olacaqdır. «Məryəm» surəsinin 25-ci ayəsində Allah-Təala həzrəti Məryəmə xitab edərək belə buyurur: «Və xurma ağacını özünə tərəf sirkələ ki, sənin üçün təzə yığılmış xurma tökülsün.» Bəlkə də bunun səbəbi və hikməti budur ki, süd verən qadının xurma yeməsi süd əmər uşağın şəxsiyyətində müsbət təsir bağışlayır. Biz ictimai və insani mühitin insan şəxsiyyətindəki dərin təsirindən sonra daha ətraflı danışacağıq.

3. Ümumiyyətlə, yaş həddinin insan şəxsiyyətindəki təsirini qəbul edirik. Quranda bu barədə bir çox ayələr vardır. «Yasin» surəsinin 68-ci ayəsində belə oxuyuruq:

«Kimə də uzun ömür versək, onu xilqətçə dəyişib tərsinə çevirərik.»

Ayədən məqsəd budur ki, Allah-Təala uzun ömürlü və qoca insanı bir sıra bioloji və psixoloji sahələrdə və xüsusiyyətlərdə kamala yetdikdən sonra ilkin vaxtlarına qaytarır. Qocalar bəzən elə zəifləyirlər ki, bioloji və psixoloji zəiflik baxımından uşaqlara bənzəyirlər. Müşahidə etdiyimiz şərif ayə psixoloqların yaşlılar barədə bir nəzəriyyəsini təsdiq edir. Onlar qocalığın əsas xüsusiyyətini psixoloji fəaliyyətlərdə yaranan tədrici zəifliklər hesab edirlər. Qocalar tez yorulur və öhdəliklərinə götürdüyü işləri daha aşağı keyfiyyətlə həyata keçirirlər. Psixoloqlar bildirirlər ki, insanlar qocaldıqca onların nəfsani istedadları və həyat qüvvələri azalır. Bununla da geriyə qayıdırlar və onlarda uşaqlıq xüsusiyyətləri təzahür edir.

«Yasin» surəsinin 68-ci ayəsində də bütün bunlar təsdiq olunur. «Nəhl» surəsinin 70-ci ayəsində isə oxuyuruq:

«Sizdən bəzisi (ağıl və cismin qüdrəti baxımından) ömrünün ən rəzil mərhələsinə qaytarılar ki, elmdən sonra bir şey bilməsin.» «Həcc» surəsinin 5-ci ayəsi də bu ayəyə oxşardır. Bu şərif ayə bildirir ki, yeni üslubun və ya rəyin yaşlılar tərəfindən qəbul olunması çox çətindir. Həmçinin onlarda hafizə qüvvəsi zəifləyir və bütün bunlar onların yeni məsələləri öyrənə bilməməsinə səbəb olur, (bu barədə «Rum» surəsinin 54-cü ayəsinə də müraciət edin.) Quran ayələrindən əlavə, məsum şəxsiyyətlərin kəlamlarında da insanın yaş həddinin onun şəxsiyyətinin formalaşmasında tam təsirli olması bildirilir. Misal üçün həzrət Peyğəmbərin bu hədisinə diqqət yetirin:

«İnsanlar qocalan zaman onların iki xüsusiyyəti cavanlaşır: Dünyaya hərislik və uzun-uzadı arzular.» Psixoloqlar da təkid edirlər ki, insanlar qocaldığı vaxt onlarda həyata qarşı hərislik və maddi ləzzətlərdən bəhrələnmək üçün meyl çoxalır. Bu səbəbdən, qocalıq dövrü insanın şəxsi meyllərinin kulminasiya nöqtəsinə çatdığı baxımdan gənclik dövrünə oxşayır.

4. Əxlaq vicdanı haqda isə deməliyik ki, bu istedadın insanın əqlində və digər nəfsani qüvvələrində müstəqil olaraq gerçəkliyi sübuta yetməmişdir. Bizim əqidəmizə görə, vicdan hökmləri adlanan hisslər praktiki əqlin idraklarıdır. Bu da nəzəri əqlin hökmlərindən və idraklarından müstəqil deyildir.

5. Psixoloqların sadaladığı (insan şəxsiyyətini formalaşdıran) mühüm amillərdən əlavə, burada digər ünsürlər də mövcuddur. Onlardan bəzisi bütün insanların şəxsiyyətinin digərləri isə bəzi insanların şəxsiyyətinin dəyişməsində təsir amilinə çevrilə bilər.

Həmin ümumi amillərdən biri fitri keyfiyyətlərdir. Fitri keyfiyyətlərdən məqsəd bütün insanlara Allah tərəfindən verilmiş və hər birinin özünəməxsus funksiyası olan bir sıra psixoloji keyfiyyətlərdir. Bunlar iki hissəyə ayrılırlar: Onlardan bəzisi insanın heyvanlıq cəhətlərinə aiddir və bu səbəbdən insan və digər heyvanlar arasında müştərəkdir. Qidalanma nəsil artırma və özünüqoruma hisslərini buna misal göstərmək olar. Bunları instinktlər də adlandırırlar. Həmin xüsusiyyətlərin ikinci qismi isə insanın insanlıq cəhətinə məxsusdur. Buna görə də, yalnız insanlarda müşahidə edilir. İnsanın bilmədiklərini kəşf etməyə qarşı meyl göstərməsi və gözəlliyi

sevməsi kimi xüsusiyyətləri bunlara aid etmək olar. Şübhəsiz, bunların fitri keyfiyyət olması insanın anadan olduğu vaxtdan həmin xüsusiyyətlərə malik olması demək deyil. Fitri keyfiyyətlər insan vücudundakı gizli istedadlar və imkanlardır ki, onlardan bəzisi insanın anadan olduğu vaxtdan fəaliyyətə başlayır. Burada aclıq və susuzluq instinktini nümunə olaraq göstərmək olar. Bəziləri isə zaman keçdikcə tədricən çiçəklənir və özünü göstərir. Cinsi instinktləri buna aid etmək olar.

Burada iki məsələni xüsusi olaraq vurğulamalıyıq. Onlardan birincisi lüğət bəhslərinə aiddir. İlk dəfə psixoloqlar «instinkt» sözünü insan rəftarına deyil heyvanların rəftarına aid etmişlər. Həmin vaxtlar insanın rəftarına aid olan məsələləri izah etdikdə isə «fitrət» sözündən istifadə edirdilər. Lakin sonralar instinkt sözü ümumiləşərək həm insana həm də digər heyvanlara aid edildi. 20-ci əsrdə psixoloqlar tədricən instinkt sözünü işlətmir və burada digər adlardan istifadə edirdilər. O cümlədən, insanın təbii ehtiyacları, meylləri, birinci dərəcəli meyllər, insanın daxili maraqları və ya insanın daxili, dəyişməz və stabil maraqları.

İkinci məsələ ondan ibarətdir ki, psixoloqlardan bir çoxu fitri xüsusiyyətləri varislik ünsürünə nisbət verir və bu nisbəti fitri xüsusiyyətlərin ata-analarda və əcdadlarda olması ilə əsaslandırırlar. Lakin onlar bilməlidirlər ki, hər bir insanın öz atası, anası və yaxud əcdadları ilə müəyyən bir müştərək xüsusiyyətlərə malik olması həmin xüsusiyyətlərin varislik prinsipi ilə insana ötürülməsinə sübut ola bilməz. Deməli, varislik və fitrət iki müstəqil məfhum və həqiqətdir və bunları bir-biri ilə eyniləşdirmək olmaz.

6. İnsan şəxsiyyətinin formalaşmasında digər mühüm amil fövqəltəbii ünsürlərdir. Burada məqsəd vəhy və ilhamdır. Lakin bilmək lazımdır ki, həmin ünsürlər ümumi deyil, bəzi insanlarda təzahür edə bilər. Misal üçün, bizim əqidəmizə görə, ilahi peyğəmbərlərin şəxsiyyətlərinin formalaşmasında ən mühüm təsir qüvvəsinə malik olan amil vəhy amilidir. Beləliklə, onlar həm öz şəxsiyyətlərini həm də bütün bəşəriyyət tarixini dəyişdirə bilmişlər. Quranda bildirilir ki, İslam peyğəmbəri insanlara deməlidir: «De, mən də sizin kimi, yalnız bir bəşərəm, (bu fərqlə) ki, mənə vəhy olunur.»[40]

7. İnsan şəxsiyyətini formalaşdıran ən mühüm amil insanın azad iradəsidir ki, bütün insanlara aiddir. Biz hesab edirik ki, digər amillərin heç biri tənhalıqda tam səbəb kimi çıxış edə bilmirlər, hətta onların hamısı

birlikdə insan şəxsiyyətini dəyişdirmək iqtidarında belə deyildir. Burada tam səbəbin düzəlməsi üçün yeganə və mühüm bir amil mövcuddur. Bu da insanın iradəsidir. İnsan şəxsiyyətindəki azad iradənin və ixtiyarın mühüm təsir mexanizminə malik olmasından qafil olsaq və yaxud bunu inkar etsək, biz insanın şəxsiyyət və iradəsinin məcburi olaraq bir neçə amilin nəticəsində formalaşmasını bildirəcəyik. Belə olan halda, insan cansızlar, bitkilər və digər heyvanlar kimi bir varlığa çevriləcəkdir. Bu vaxt o heç bir vəzifə öhdəsinə götürmür, heç bir məsuliyyət daşımır, onu tərif etmək, cəzalandırmaq və yaxud ona mükafat vermək düzgün deyildir. Bir sözlə, bu vaxt bütün hüquqi, əxlaqi və dini sistemlər öz mahiyyətini itirirlər. Və insana aid olan proseslərə bir sıra fiziki, bioloji, psixoloji və ictimai amillər məcburi olaraq hakimiyyət edirlər.

İnsan iradəsini bir sıra amillər qarşısında məcbur təsəvvür edən bu nəzəriyyə bir çox insanlar tərəfindən bəyənilir. Çünki bəzi insanlar yaxşı insan olmaq üçün zəhmət çəkmək istəmirlər. Onlar dini, hüquqi və əxlaqi qanunları bilsələr də, bütün bunları həyata keçirmək üçün dərin inama və imana malik deyildirlər və bu səbəbdən bütün bu qanunlara zidd rəftar edirlər. Eqoist, rahatlıq axtaran, məsuliyyətdən qaçan və biganə olan bu qəbil insanlar öz nadürüst əməllərinə don geyindirmək və onları hüquqi qanunların sahəsindən çıxartmaq üçün sözügedən bu nəzəriyyəni tam qəbul edir və bəyənirlər.

Qeyd edək ki, cinayətlərin bir sıra ictimai və bioloji səbəblər nəticəsində baş verməsini vurğulayan ideya ən qədim zamanlardan mövcud olmuşdur. Antik dövrdən indiyə qədər bir çox mütəfəkkirlər cinayətlərin ictimai, xüsusilə də iqtisadi səbəblərini diqqət mərkəzinə almışlar. Onlar bildirmişlər ki, ictimai və iqtisadi təşkilatlar cinayətlərin peyda olmasının əsas səbəbləridirlər. Burada xüsusilə yoxsulluq cinayətlərin inkişaf etməsinin əsas amili kimi önə çəkilir. Eramızdan əvvəl 4-cü əsrdə yaşamış yunan filosofu Aristotel bildirir ki, insanlar bəzən öz sadə həyatlarının ibtidai ehtiyaclarını ödəmək üçün cinayətə əl atırlar. O, bu problemin həll olması üçün insanlar arasında sərvətin mötədilləşməsinin zəruriliyini vurğulayır. Xatırlatmaq lazımdır ki, cinayətin ictimai amilləri Aristotel baxımından tam səbəb deyildir, belə ki, onlar insanın azad iradəsi yolu ilə təsir qüvvəsinə çevrilirlər. İngilis ictimai islahatçısı və yazıçısı Tomas Mor tövsiyə edir ki, cinayətlərin sayını azaltmaq üçün cəmiyyətin yoxsul təbəqəsinin problemlərini azaltmalıyıq. 18-ci əsrdə bütün Avropada,

xüsusilə Fransada dərin təsirli fikri bir cərəyan yarandı və tezliklə inkişaf etdi. Filosof və mütəfəkkirlərdən təşkil olunmuş bu cərəyanın liderləri cinayətkar insanı ictimai mühitin məhsulu adlandırır və fəlsəfi baxımdan onu məcbur təsəvvür edirdilər. İtaliyalı həkim Lombroso bildirildi ki, hər bir cinayətin bioloji səbəbləri vardır. İnsanları cinayətə tərəf yönəldən səbəblər onun bədən quruluşundan qaynaqlanır. O guya insanların bəzisinin fitri olaraq cinayətkar olması ideyasını elmi və təcrübi dəlillərlə sübut etməyə çalışırdı. Hər halda, bir vaxtlar Avropada bu qəbildən olan fikirlər və nəzəriyyələr peyda oldu. O cümlədən bildirilir ki, cəmiyyət özü cinayətlərdən zərər çəkdiyi halda, cinayətlərin yaranmasının əsas səbəbidir. Cinayətkar ya xəstə, ya da nadandır. Hər halda, onun müalicəsi və yaxud təlimi ilə məşğul olmalı və onu cəzalandırmamalıyıq. Sonralar bu qəbildən olan fikirlər cəza sosiologiyasının yaranmasına səbəb oldu. Bu elmin banisi italiyalı sosioloq Enriko Ferri idi. O Lombrosonun nəzəriyyələrini bir çox hallarda qəbul etsə də, cinayətlərin daha çox ictimai səbəblərini və nəticələrini araşdırırdı. O bildirirdi ki, cinayətlərin aradan qalxması üçün imkan daxilində cinayətkarın yaşadığı ictimai mühiti saflaşdırmalıyıq. Cinayətlə mübarizə cinayətkarlarla deyil, cinayətin ictimai səbəblərini kəşf edib onları aradan qaldırmaqdır. Fransız hüquqşünası Reymond Sali bildirir ki, cinayətkara qarşı sərt cəza tətbiq edilməməlidir. O iradə azadlığını tam tənqid edirdi. Dürkheym də hesab edirdi ki, cinayətin səbəbi cəmiyyətin strukturlarıdır.

Şübhəsiz, azad iradəni inkar edən ifratçı nəzəriyyə cinayətkarların cəzalanmasının faydalı olmasını da inkar edir. Təəssüflər olsun ki, bu ideya qərb dünyasının mədəniyyətində və dəyərlər sistemində qəbul olundu və beləliklə, cinayətkarların cəzalanması halları azaldı. Hətta bəzi ölkələrdə ölüm hökmü cəzası aradan qaldırıldı.

Biz də cəmiyyətin qeyri-etik və qeyri-dini işlərdən təmizlənməsi, müxtəlif cinayətlərin qarşısını almaq üçün əsaslı addımlar atılmasının tərəfdarıyıq. Biz də hesab edirik ki, düzgün təlim və tərbiyə və müsbət mədəniyyət yaymaqla insanların rəftarlarını saflaşdırmalıyıq. Lakin bütün bunlar o demək deyil ki, biz cinayətkarlara qarşı biganə olaq və onlara qarşı cəza tətbiq olunmasını ləğv edək. Çünki bu nəinki cinayətin qarşısını almır, əksinə onun cəmiyyətdə çoxalmasına səbəb olur. Bu vaxt hətta bütün sağlam düşüncəli insanlar tərəfindən pis hesab edilən işlər də qanun donu geyinir. Ondan sonra, sosioloqların etirafına görə, «insanların məcburi

olaraq cəmiyyətin təzyiqi nəticəsində cinayətə yönəlməsi ideyası bu gün təkcə bir əfsanə kimi səslənir.» Deməli, bütün insanlar məsuliyyət daşıyırlar. Hərçənd bu məsuliyyətin şiddəti və zəifliyi müxtəlif ola bilər.

Ümumiyyətlə, ixtiyar və azad iradə insanın mühüm xüsusiyyətlərindən biri və onun şəxsiyyətinin formalaşmasında və başqaları ilə fərqlənməsində əsas amildir. Fiziki, bioloji, psixoloji və ictimai amillər insanın ixtiyari işlərini müəyyənləşdirmir, yalnız onların həyata keçməsi üçün zəmin yaradırlar. Şübhəsiz, insanların bu ilahi nemətdən istifadə etmələri digər ilahi nemətlərlə müqayisədə eyni səviyyədə deyil. Bəzi insanlar ictimai həyatlarında özlərinin azad iradə qüvvəsindən istifadə etmir və beləliklə, tədricən həmin qüvvənin zəifləməsinə səbəb olurlar. Digərləri isə onu düzgün və daimi surətdə işlədərək elə bir güclü insana çevrilirlər ki, bütün ictimai hadisələr və digər amillər qarşısında tam müqavimət göstərirlər.

İxtiyar amilinin əhəmiyyəti o qədərdir ki, bizim əqidəmizə görə, şəxsiyyət ixtiyari fellərin təsiri nəticəsində formalaşan vərdişlər, əqidələr, xüsusiyyətlər və adətlərdən başqa bir şey deyildir. Hərçənd ani şəkildə həyata keçən işlər insan şəxsiyyətini formalaşdıra bilməz, çünki şəxsiyyət sabit və stabil bir gerçəklikdir. Lakin bu stabil gerçəklik insanın ixtiyari işlərinin təkrarı nəticəsində formalaşır. Bu əsasla, hər hansı bir insanın müəyyən xüsusiyyətlərindən biri onun ixtiyari işlərinin nəticəsi olmasa, həmin xüsusiyyət o şəxsin şəxsiyyətinin ünsürlərindən hesab edilmir. Habelə, əgər insanın bir xüsusiyyəti heç bir ixtiyari işin yaranmasına səbəb olmasa, deməli həmin xüsusiyyət onun şəxsiyyətinin formalaşmasında təsirli deyildir. Bir sözlə, insan şəxsiyyəti onun ixtiyari rəftarının nəticəsidir. İnsanın ixtiyari rəftarının yaranmasında azad iradə bilavasitə səbəb rolunu oynadıqda, iradə insan şəxsiyyətinin formalaşmasında ən əsaslı və köklü səbəb kimi qiymətləndirilməlidir.

# 2. Şəxsiyyəti formalaşdıran amillərin təsir hüdudları

İnsan şəxsiyyətinin formalaşmasında və dəyişməsində təsirli olan amillərin hər birinin təsir hüdudlarının aydınlaşması üçün bir neçə müqəddiməyə ehtiyac duyulur:

1. Öz daxilində seyr edən və psixoloji keyfiyyətlərini diqqət mərkəzinə alan hər bir şəxs müşahidə edəcək ki, onun psixoloji xüsusiyyətləri ən azı iki hissəyə ayrılır: onlardan biri idrak, elm, şüur, bilik cinsindən, digəri isə cazibə, meyl və bu qəbildəndir. İnsan ruhunun mücərrəd və bəsit olmasına baxmayaraq, onu insan bədəninə oxşadır və deyirik ki, insan bədəni bir sıra üzvlərdən təşkil olunduğu kimi, insanın ruhu da ən azı iki cihaza malikdir. Onlardan biri elm və idrak cihazı, digəri isə meyl və cazibə cihazıdır.

2. Bədənin müxtəlif cihazları bir-biri ilə həmkarlıq münasibətinə malik olduğu kimi, ruhun da iki cihazı bir-biri ilə qarşılıqlı təsir etmə və təsirlənmə qüvvəsinə malikdir.

3. Bədəndə mövcud olan cihazların, habelə ruhda cərəyan edən iki cihazın öz-özləri arasında qarşılıqlı münasibətlərindən əlavə, bədən və ruh da bir-biri ilə sıx əlaqədədir. Yəni həm bədən ruhda təsir qoyur həm də ruh bədəndə bir sıra təsirlər bağışlayır. Diqqət edin, bəzi dərmanları qəbul etmək insanı psixoloji baxımdan rahatlaşdırır. Habelə, qəm-qüssəli və kədərli olan insanın mədəsindəki yemək gec həzm olur, qorxan şəxsin ürək çırpıntısı çoxalır.

Şübhəsiz, bədən və ruh arasında qarşılıqlı təsir etmə və təsirlənmənin miqyası bütün insanlarda eyni səviyyədə deyildir. Burada bədən və ruh cihazlarının hər birinin reaksiyaları fərqlidir. Misal üçün, idrak cihazının bir üzvü olan hissi idrak sahəsində bədən və ruhun qarşılıqlı əlaqəsi çox yaxın və möhkəmdir. Digər hissi idraklarda da bədən və ruhun əlaqələri çox dərindir. Qeyd edək ki, təsir etmə prosesi ilk öncə bədəndən başlayır. Ruh

isə təsir etmə qüvvəsinə malik olmazdan daha çox təsir qəbul edir. Lakin əqli idrak sahəsinə gəldikdə isə, burada bədən və ruhun əlaqələri o qədər də yaxın deyil. Həmçinin, burada ruh bədəndən daha fəaldır. Müəyyən bir məsələ barədə fikirləşərkən bizim beynimiz fəaliyyətə başlayır. Lakin bununla belə, bədən və ruhun qarşılıqlı əlaqəsi o qədər də dərin deyil. Təfəkkür ruhdan qaynaqlanır. Burada əsas rolu ruh oynayır. Bədən daha çox təsir qəbul edir. Təfəkkür prosesində birinci beyin deyil, ruh düşünməyə başlayır.

Ruhun meyl və cazibə cihazlarında cərəyan edən proses də bu qəbildəndir. Bədəndə bir sıra bioloji, kimyəvi və fiziki əməliyyatların baş verməsindən sonra insanın meylləri fəaliyyətə başlayır. Misal üçün, mədədə bir sıra əməliyyatlar keçdikdən sonra, habelə qanın kimyəvi maddələri dəyişdikdən və beyin bəzi fəaliyyətləri həyata keçirdikdən sonra insanda aclıq hiss olunur. Susuzluq hissinin yaranmasının səbəbləri də məhz bir sıra fiziki, kimyəvi və bioloji əməliyyatların həyata keçməsindən sonra baş verir.

Lakin insanın digər meylləri də vardır ki, onların yaranmasında bədənin və bədəndə həyata keçən əməliyyatların təsiri çox az və ya hətta yox dərəcəsindədir. Misal üçün, insanın müstəqilliyə meyli, yaxud bilmədikləri məsələləri kəşf etməyə meyli, elmi tədqiqatların göstərdiyi kimi, bədəndəki əməliyyatlara bağlı deyildir.

Əlbəttə, yenidən xatırlatmaq lazımdır ki, istər bədən fəaliyyətlərinə bağlı olan, istərsə də bədən əməliyyatlarından müstəqil olan meyllərin hamısı fitridir. Yəni onların hamısı insanın ruhundan və zatından qaynaqlanır. Yalnız onların bəzisinin çiçəklənməsi bədəndəki bir sıra fəaliyyətlərə bağlıdır.

4. Bədəndə mövcud olan cihazlar bütün insanlarda müştərək olduğu kimi, ruhun da iki cihazı bütün insanlarda mövcuddur. Habelə, hər bir insanın bədən xüsusiyyətləri başqalarından fərqləndiyi kimi (misal üçün, bəzi insanlar uca boylu, bəziləri isə qısa boyludur, bəziləri kök, bəziləri isə arıqdır), insanların ruhi xüsusiyyətləri də az-çox bir-biri ilə fərqlənir. Bütün insanlarda hissi idraklar, hafizə, diqqət etmək, öyrənmək, xəyal, emosiyalar, meyllər, reaksiyalar, instinktiv hərəkətlər və sairə mövcuddur. Lakin bütün bunlar müxtəlif insanlarda eyni səviyyədə deyildir. Yəni kəmiyyət və keyfiyyət baxımından fərqləri vardır. Beləliklə Allah tərəfindən insanlara

bəxş edilmiş iradə qüvvəsi də-bütün insanlarda müştərək olmasına baxmayaraq-bəzi insanlarda daha qüvvəlidir.

5. Bir çox hallarda insanın meylləri-onları həyata kecirərkən-bir-biri ilə toqquşur. Bu proses həm aclıq, susuzluq və cinsi instinkt kimi bədən fəaliyyətlərindən asılı olan meyllərdə, həm də gözəlliyi sevmək kimi bədənə bağlı olmayan meyllərdə cərəyan edir. Maddi həyatda bir anda bütün istəkləri doğrultmaq mümkün deyil. Adətən, müəyyən bir meyli təmin etmək digər meyldən əl götürməklə mümkün olur. Bu vaxt insan onlardan, yalnız birini həyata keçirməyə məcbur olur. Hər bir insan diqqətli olsa, özünün seçim qüvvəsinə malik olduğunu müşahidə edəcəkdir. Meyllərin toqquşduğu zaman problemləri həll edən və çıxış yolu təyin edən qüvvənin adı iradədir. İnsanın azad iradə və ixtiyara sahib olmasının əsas dəlili, müxtəlif variantlar qarşısında onlardan birini tam azadlıqla seçməsidir.

6. Bütövlükdə deyə bilərik ki, insanın ixtiyari fellərində və işlərində tam təsirli olan iki amil mövcuddur. Onlardan biri fitri və instinkt cinsindən olan meyllər, digəri isə şüur və idrakdır. Fitrətə və instinktə əsaslanan meyllər enerji mənbəyi olaraq bütün insanlarda mövcuddur. Hərçənd bu meyllər müxtəlif insanlarda müxtəlif növlərdə təzahür edə bilər. Şüur və idrak işıq timsalındadır. Yəni o, fitrət və instinkt cinsindən olan istəklərin həyata keçməsinin yollarını müəyyənləşdirir. Deməli, fitrət meylləri şüur və idrakla birləşməlidir ki, öz istəklərini həyata keçirə bilsin.

Belə isə, iradə və ixtiyar harada tətbiq edilir? Bir mənaya görə insan öz işini istəyinə uyğun olaraq həyata keçirə bilirsə, bu vaxt onun iradə və ixtiyarı cərəyan edir. Baxmayaraq ki, burada müxtəlif variantlar deyil, yalnız bir variant olsun. Lakin daha dəqiq mənada, iradə və ixtiyar, yalnız bir neçə meylin toqquşduğu zaman təzahür edir. Başqa sözlə, burada iradə və ixtiyardan məqsəd son hədəfə çatmaq üçün bir neçə variantlardan birinin seçimidir. Misal üçün, insan həm yeməyə, içməyə, paltara, mənzilə, yuxuya, istirahətə və əyləncəyə, həm də elmə, qüdrətə, müstəqilliyə, məhəbbətə, gözəlliyə və kamala meyllidir. İndi əgər bu iki dəstəyə aid olan meyllərin və ehtiyacların arasında ziddiyyət baş verərsə misal üçün maddi ehtiyacların ödənilməsi insanın şəxsiyyət müstəqilliyi ilə uzlaşmazsa, bu vaxt iradə və ixtiyar tətbiq edilə bilər. Burada insan qəbul etdiyi dəyərlər sisteminə müvafiq olaraq, bu iki maddi və mənəvi meyllərdən birini əsas götürür, digərini isə buraxır.

Bu neçə müqəddimədən sonra indi şəxsiyyəti formalaşdıran amillərdən hər birinin miqyasını və şümul dairəsini müəyyənləşdirməliyik:

1. Varislik amili. Hər bir insanın bədənində qırx altı ədəd xromosom və hər xromosomun da tərkibində bir neçə gen mövcuddur. Xromosomlar və genlər insan bədəninin xüsusiyyətlərini müəyyənləşdirərək, onun ruhi və psixoloji keyfiyyətlərini öz təsiri altına salsa da burada genlərin və xromosomların müəyyən bir insana xüsusi və unikal psixoloji struktur bəxş etməsi qəbul-edilməzdir. Yəni genlər hər bir insana digərində olmayan psixoloji cihazlar bəxş edə bilməz. Onlar, yalnız insanın psixoloji keyfiyyətlərini gücləndirə və yaxud zəiflədə bilərlər. Başqa sözlə, hər bir insanın bədənindəki genlər hər bir insanın bədən strukturunu başqa insanlardan tam fərqli olaraq formalaşdıra bilmədiyi kimi, onun psixoloji durumunu da digər insanlardan tam fərqli şəkildə düzəldə bilməz. Yəni genlər hər bir insana başqalarında olmayan hissi və yaxud əqli idrak verə və yaxud onu başqalarında olmayan fitri meyllərlə cihazlandıra bilməz. Genlər insanlarda tənəffüs sistemini başqalarından tam fərqli olaraq dəyişdirə bilmədiyi kimi, hər bir insanın cinsi və yaxud fitri meyllərini də başqa insanlardan (mahiyyət baxımından) fərqli şəkildə formalaşdıra bilməz. Belə olan halda, varislik amili insanın fitrətində olmayan bir şeyi ona ötürmək iqtidarında deyil. Varislik ünsürləri, yalnız insanın psixikasında olan idrak və meyl cihazlarını zəiflədə və yaxud gücləndirə bilər.

2. Mühit amili. Aydın məsələdir ki, daxili mühit, yəni ana bətni və təbii coğrafi mühit hər bir insana elə psixoloji cihaz bəxş etmir ki, başqalarında olmasın. Başqa sözlə, bu iki mühitin heç biri insanda misli görünməyən idrak növünü və yaxud yeni psixoloji bir keyfiyyəti icad edə bilməzlər. İnsanın ixtiyari rəftarı ruhun bu iki amili, yəni şüur, idrak və meyllər nəticəsində baş verdiyindən, ana bətni, habelə təbii və coğrafi mühit insan şəxsiyyətini tam formalaşdıra bilmir. Bu iki mühit, yalnız idrak qüvvələrini habelə psixoloji meylləri zəiflədə və yaxud gücləndirə bilər. Yəni onlar müəyyən bir idrak və ya meyl növünü fitrətdə əsası olmadan yaratmaq və yaxud bütövlükdə aradan götürmək imkanına malik deyillər.

Xarici mühitin ikinci qismi olan ictimai və insani mühit barədə azacıq sonra danışacağıq.

3. Yaş həddi amili. Bu amil də digər amillər kimi insanın şəxsiyyətinin və rəftarının formalaşmasında qəti təsirə malik deyil və psixoloji keyfiyyətləri, yalnız istiqamətləndirə, gücləndirə və zəiflədə bilər.

İndi isə ictimai və insani mühit haqda. Şübhəsiz, insan öz fitrətində əsası olmayan idrakı cəmiyyətdən ala bilməz. İnsanın öz ata-anasından, yaxınlarından, qohumlarından, dostlarından, müəllimlərindən, həmkarlarından və müxtəlif ictimai şəxsiyyətlərdən öyrəndiyi və əldə etdiyi keyfiyyətlərin hamısının bünövrəsi onun fitrətindədir. Həmin insanlar bu fitri istedadların, yalnız çiçəklənməsində təsirli olurlar. Məhz buna görədir ki, bəzən insanlar bu qəbildən olan köməklərə və təlimlərə ehtiyac duymadan özləri bir sıra yeniliklər yaradırlar. Məsələn, tarixdə misli görünməyən ixtiraları yaradan ixtiraçılar bunu öz müasirlərindən öyrənməmişdilər. Hər halda, insanlar ictimai təlim və tərbiyə yolu ilə öyrənmək istedadına malik olmadıqları heç bir məsələni öyrənə bilməzlər.

Habelə, cəmiyyət insanın fitrətində bünövrəsi olmayan meylləri və cazibələri onda icad edə ya fitri meylləri tamamilə məhv edə bilməz. Cəmiyyət, yalnız fitri meylləri gücləndirir və ya zəifləndir. Bəzən isə həmin istəklərin həyata keçməsi üçün şərait yaradır, yəni həmin istedadları çiçəkləndirir.

Cəmiyyətin üçüncü funksiyası insanda mövcud olan fitri və instinktiv meyllərin ödənilməsinin yollarını müəyyənləşdirir. Misal üçün, hər bir insan özünün cinsi instinktini ödəməlidir, lakin bunun ödənilməsinin necəliyi insanın üzvü olduğu cəmiyyətdə hansı mədəniyyətin və dəyərlər sisteminin hakim olmasına tam bağlıdır. Müxtəlif dəyərlər sistemində cinsi əlaqələr, qadında mövcud olan cazibələr, nikah məsələləri və cinsi rəftara aid olan digər məsələlər barədə müxtəlif fikirlər söylənilir. Bu müxtəlif yanaşmalar, şübhəsiz, ailə həyatı qurmaq üçün insanlara müxtəlif üslublar təklif edir. Lakin bilməliyik ki, hər bir cəmiyyətin mədəniyyəti və dəyərlər sistemində cinsi instinkt özünəməxsus formada ödənilsə də, bu, cəmiyyətin müəyyən bir təbii və fitri meyli məhv edərək digər bir meyli icad etməsi demək deyil. Başqa sözlə, insan ailə həyatı qurarkən vaxt rəftarları bəzən cinsi instinktdən, bəzən isə cəmiyyətin icad etdiyi yeni bir meyldən qaynaqlanmır. Belə ki, hər bir insan özünü soyuqdan və istidən qorumaq üçün paltar geyinir. Hərçənd cəmiyyət bu təbii meylin ödənilməsini müəyyən formalara salır. Bir sözlə, cəmiyyət təbii meyllərin yerini tuta bilməz. İnsanı təhrik edən amillər, yalnız onun fitri meylləridir. Cəmiyyət isə onların necə ödənilməsini müəyyənləşdirə bilər.

Cəmiyyətin meyllər və cazibələr sahəsində digər işi ictimai meyllərin həyata keçməsi üçün zəmin yaratmasıdır. Misal üçün, hər bir insan cinsi

instinktə malikdir. Yəni onun fitrətində müxalif cinslə cinsi əlaqədə olma istəyi qoyulmuşdur. Bu istəyin ödənilməsi isə yalnız ictimai həyatda mümkündür. Bununla belə bu o demək deyil ki, hər bir kişidə cinsi meylin yaranmasının səbəbi qadındır. Həmçinin övlada məhəbbət fitri bir meyldir. Bununla belə, ana olmayan qadında bu fitri meyl üçün şərait yaranmamışdır. Buna görə də həmin qadın ana olmazdan öncə analıq məhəbbətindən tam xəbərsiz ola bilər. Bu ata məhəbbətində də belədir. Toplumla həmrəng olmaq da insanlarda fitri bir meyldir. Hər bir insan özünün rəftarlarının başqalarının rəftarı ilə uzlaşmasını istəyir. Aydın məsələdir ki, müxtəlif yaşlarda müxtəlif cür təzahür edən bu fitri meylin ödənilməsi də, yalnız ictimai həyatda baş verir. Bütövlükdə, ictimai emosiyaların hamısı bu qəbildəndir. Yəni bu qəbildən olan bütün emosiyalar insanlarda mövcud olsalar da, ictimai həyata daxil olmadan onlar çiçəklənmirlər.

Qeyd edək ki, ictimai psixologiya elminin ən mühüm bəhsləri məhz ictimai emosiyalar və meyllərdən ibarətdir. Lakin bəzən belə güman edilə bilər ki, cəmiyyət də insanlarda bəzi meylləri və emosiyaları icad edə bilər. Yəni insanlarda qeyri-fitri meyllər də tapıla bilər. Lakin bilmək lazımdır ki, bu qəbildən olan emosiyalar da fitridirlər. Onların həyata keçməsi və çiçəklənməsi ictimai həyatda baş verir.

Nəticə: Cəmiyyətin insan iradəsindəki təsiri fitri meyllərin təsiri ilə bərabər deyil. Başqa sözlə, insanın ixtiyari rəftarında bəzən fitri meyllər, bəzən isə ictimai mühit təsir amilini oynamır. Belə ki, fitri meyllər olmasa da, bəzən cəmiyyət insanları müəyyən işlər görməyə vadar edə bilsin. Cəmiyyətin insan üzərindəki təsiri ikinci dərəcəlidir.

Burada yeni bir sual yaranır: cəmiyyət öz adət-ənənələrini haradan əldə etmişdir? Biz cəmiyyəti müstəqil və obyektiv gerçəklik kimi qəbul etsəydik, bu sualın cavabında deyərdik: Cəmiyyət insanlarda olmayan bəzi xüsusiyyətlərə və keyfiyyətlərə malikdir və bütün bunlar cəmiyyət tərəfindən insanlara bəxş edilir. Lakin biz cəmiyyəti real şəxsiyyətə və həqiqətə malik bilmədiyimiz üçün suala belə cavab veririk: İctimai adət-ənənələr ilk dəfə bir neçə insan tərəfindən yaranmış, sonra ümumiləşərək ictimai irsə çevrilmiş və bir nəsildən digərinə ötürülmüşdür. Din və məzhəb, irfan, fəlsəfə, təcrübi, əqli, dini, əxlaqi və hüquqi elmlər, milli adət-ənənələr və ictimai qanunların hamısı insanların ideyalarından, əqidələrindən və rəftarlarından qaynaqlanmış, sonra stabilləşərək ümumi forma almışdır.

Sonda bir daha insan şəxsiyyətini formalaşdıran amillərin təsir hüdudları haqda fikrimizin xülasəsini bildiririk: Varislik, ana bətni, təbii və coğrafi mühit, ictimai və insani mühit və yaş həddi amilinin insan iradəsindəki təsiri fitri və psixoloji amillərin təsiri ilə müqayisə oluna bilməz. Varislik, mühit və yaş amillərinin hər biri və yaxud onların məcmusu insan iradəsini formalaşdırmağa qadir deyildir. Bu amillər, yalnız insan iradəsi və ixtiyarının emal olunması üçün şərait yaradırlar ki, hər bir insan öz meylləri, fitri və psixoloji idrakı əsasında özünün azad rəftarını formalaşdırsın və həyata keçirsin. İnsan şəxsiyyəti onun ixtiyari rəftarının nəticəsi olduğu üçün, həmin psixoloji və fitri amillər insan şəxsiyyətinin formalaşmasında ən mühüm rolu oynayırlar. Deməli, insan varislik, mühit və yaş amillərinin heç biri qarşısında tam məcbur deyil. İnsan şəxsiyyətini müəyyənləşdirən yeganə amil iradədir. Hərçənd iradənin özü də eyni vəziyyətdə qalmır. Lakin hər halda iradə müxtəlif amillər qarşısında məcbur deyil.

# 3. Cəmiyyətin insanlar üzərindəki təsirinin növləri

Cəmiyyətin insan üzərindəki təsiri müxtəlif növlərə bölünür. Burada onların ən mühüm növlərinə nəzər salırıq:

1. Cəmiyyəti obyektiv gerçəklik kimi qəbul edən mütəfəkkirlər şəxsiyyəti formalaşdıran digər amilləri nəzərə almadan insanı bütövlükdə ictimai mühitin məhsulu hesab edirlər. Ümumiyyətlə insanın bütövlükdə şəxsiyyəti cəmiyyətdə qurulur. Çünki hər bir insan həm yaranışda, həm yaşayışda, həm də özünün ictimai inkişafında cəmiyyətə borcludur. Hər bir insan vahid mədəniyyət və dəyərlər sisteminə müvafiq olaraq ailə həyatı qurmuş, vahid cəmiyyətin üzvü olan və birgə ictimai həyat yaşayan ata-anadan həyata gəlmişdir. İnsan dünyaya göz açdıqdan sonra cəmiyyət, yəni ata-ana, qohum-əqrəba və cəmiyyətin digər üzvləri onu başlı-başına buraxarsa, yəni onun təbii, bioloji və maddi ehtiyaclarını ödəməzsə, o öz həyatına davam edə bilməz. Nəhayət, cəmiyyətin elmi və mənəvi nailiyyətlərindən məhrum qalarsa ,o öz inkişaf yolunu qət edə bilməz. Ən azı, insanların müasir yaşam dövründə cəmiyyət fərddən üstündür və onun şəxsiyyətini formalaşdıran yeganə amildir.

Bu fikir rasional əsaslara deyil, tam məğlətəyə (səhv əsaslara) söykənmişdir və bu ona oxşayır ki, biz buludu, küləyi, ayı və Günəşi insanın şəxsiyyətini formalaşdıran amillər kimi qələmə verək. İnsanın fiziki və bioloji varlığının varislik, ana bətni, təbii və coğrafi mühit, ictimai və insani mühit və yaş amilinə bağlı olmasını heç kim inkar etmir. Burada əsas məsələ insanın psixoloji şəxsiyyətinin formalaşması və bu yolda cəmiyyətdən təsir qəbul etməsidir.

2. Bəzi mütəfəkkirlər də cəmiyyətin təsirini insanın fərdi həyatındakı müxtəlif aspektlərdən birində görür, sonra isə yersiz olaraq bunu ümumiləşdirərək insan həyatının bütün aspektlərinin cəmiyyətin təsiri

nəticəsində formalaşdığını vurğulayırlar. Halbuki, onların burada irəli sürdükləri sübutlar belə bir ümumiləşdirməyə əsas vermir. Misal üçün, onlar cəmiyyətin mədəni sahəsinə aid olan dil və xətt ünsürünü araşdırır və ictimai həyatın bu iki ünsür üzərində böyük və danılmaz təsirini açıqlayaraq belə bir nəticə çıxarırlar ki, ictimai həyat insanın fərdi həyatının bütün cəhətlərinə belə bir böyük və hərtərəfli təsir bağışlayır. Onlar deyirlər: Bizim mənəvi və maddi həyatımız daha çox dil ünsürünün vasitəsilə formalaşmışdır. Dil insanlar arasında ən mühüm və kamil ünsiyyət vasitəsidir. Onlar bu yolla öz emosiyalarını və hislərini daha asanlıqla bir-birinə çatdırırlar. Dil ünsiyyət vasitəsi olmasından əlavə, təfəkkür prosesini də mümkünləşdirir. Çünki bir çox hallarda təfəkkür danışmaqla həyata keçir. Çünki düşünən şəxs zahirdə sakit və dinməz görünsə də, o, görünməyən dinləyici ilə danışır. Dilin digər xidmətləri də vardır. Misal üçün, sözlər mənaların aydınlaşmasına kömək edir. İnsan sözlər vasitəsilə özünün müxtəlif psixoloji vəziyyətlərini adlandırır və bir-birindən ayırır. Habelə, sözlər zehnə yardım göstərir. Çünki sözlər mənaları bildirdiyi üçün, zehin öz əməliyyatlarını mənaların üzərində deyil, sözlərin üzərində qurur. Belə ki, zehnin əməliyyatları mənalar üzərində qurulsaydı, bu vaxt onun əməliyyatları çox çətinliklə həyata keçərdi. Dilin bu qədər mənafeyi olmadığına baxmayaraq, o tamamilə cəmiyyətdən asılıdır. Çünki dil fitri və təbii keyfiyyət deyil. Dil cəmiyyət arasında tədricən formalaşan bir gerçəklikdir. Dili əvəzləyən və onu inkişaf etdirən xətt ünsürü də ictimai bir gerçəklikdir. İnsanın əldə etdiyi biliklərin çox hissəsi dil və xətt vasitəsilə olmuşdur, halbuki, onların hər ikisi cəmiyyətin məhsuludur.

Bu fikirlə də razılaşmaq olmaz. İlk növbədə bilmək lazımdır ki, dil və xətt tədricən yaranan gerçəklikdir. Onlar ilk dəfə bir neçə insan tərəfindən yaradılmış, sonra isə ümumiləşmişdir. Deməli, cəmiyyət adlı bir varlığı bu iki ünsürün əsas amili kimi qələmə vermək düzgün deyil.

Burada deyilə bilər ki, biz heç bir fərdi dilin və ya xəttin ixtiraçısı kimi müəyyənləşdirə bilmədiyimiz üçün bu iki gerçəkliyin cəmiyyət tərəfindən yaranmasını vurğulamalıyıq.

Lakin burada bir məsələni yaddan çıxarmaq lazım deyil. Dil və ya xətt obyektiv şəxsiyyətə və gerçəkliyə malik deyildir. Lakin dil və xətt, yalnız ictimai müqavilə və razılaşma yolu ilə yaranan iki ünsiyyət vasitəsidir. Onlar tədricən inkişaf etmiş və nəhayət bütün insanlar tərəfindən qəbul edilmişdir. Cəmiyyət isə müstəqil fikrə, zehnə, ruha, və rəyə malik bir

obyektiv gerçəklik deyil ki, fərdləri nəzərə almadan müəyyən bir ünsürün yaranmasında tam təsir obyektinə çevrilsin.

Bundan əlavə, dil və xətt, yalnız iki ictimai vasitədir. Deməli, onlar insan şəxsiyyətinin formalaşmasında və dəyişməsində mühüm təsirə malik ola bilməz. Hər insan müəyyən şəxslə bir dildə, digəri ilə isə başqa bir dildə ünsiyyət yarada bilər. Şübhəsiz, dilin və xəttin dəyişməsi onun şəxsiyyətinin dəyişkənliyinə səbəb olmur.

Biz dil və xəttin insan şəxsiyyətinin formalaşmasındakı təsirini qəbul etsək də, bunun miqyası çox azdır. Yəni onlar insan şəxsiyyətində böyük təsir qabiliyyətinə malik deyildir.

3. Öncə bildirdiyimiz kimi, cəmiyyət insanın fitri və psixoloji istedadlarının, xüsusilə fitri meyllərinin həyata keçməsi üçün münbit şəraitin yaranmasında dərin təsirə malikdir.

4. İnsanda iki cür idrak və şüur vardır. Onlardan biri xaricdə mövcud olan real gerçəklikləri tanımaq üçün işlənir. Digəri isə dəyərlər sisteminə aid olan qanunları müəyyənləşdirmək üçün faydalıdır. Bu iki növ idrak insan şəxsiyyətinin formalaşmasında böyük təsir mexanizminə malikdir. Belə ki, onun bir hissəsini cəmiyyətdən alır. Bu səbəbdən, biz insanın cəmiyyətdən aldığı idrak növləri haqda çox düşünməliyik. İndi isə həqiqətlərin idrakı haqda:

Şübhəsiz, biz din və məzhəb, irfan, fəlsəfə, məntiq, riyaziyyat, təcrübi elmlər və digər gerçəkliklər haqda olan elmlərin çoxunu cəmiyyətdən almışıq. Yəni bu barədə bizim məlumatlarımız ya müəllimlərimizdən, ya da mütaliə etdiyimiz kitablardan, jurnallardan və qəzetlərdəndir. Başqasından öyrənmək prosesi iki cür həyata keçir: Bəzən müəllim şagirdin filan məsələni öyrənməsinə, yalnız şərait yaradır. Bu vaxt şagird məsələni öyrəndikdən sonra tam müstəqil olur. Riyaziyyat sahəsindəki təlim və öyrənmə prosesini buna misal göstərmək olar. Bəzən isə bir şəxs müəyyən bir alimin bəzi sahələrdə fikirlərini tam mötəbər sayır, lakin onun özü həmin fikrin düzgün olub-olmamasını elmi üsullarla sübut edə bilmir. Bu vaxt həmin şəxs öz elminə və idrakına deyil, həmin alimin elminə arxalanır. Əgər alimin fikri həmin məsələdə dəyişərsə, həmin şəxs də heç bir əsası olmadan həmin alimə tabe olur və öz fikrini dəyişdirir. Şəriət hökmlərinin Allah, peyğəmbər və yaxud məsum imamların sözlərinə etimad edilərək qəbul olunması, habelə hər bir sahədə mütəxəssis alimlərin sözlərinin adi insanlar tərəfindən təsdiq edilməsi bu qəbildəndir. Bütün bu cür

yanaşmalara təqlid deyilir. Qeyd edək ki, insanların həqiqi və obyektiv elmlər sahəsində başqalarından öyrəndikləri biliklər bu iki qəbildən ola bilər. İnsanların dəyərlər sisteminə aid olan qanunları cəmiyyətdən öyrənməsi haqda isə deyirik:

5. Fərdin dəyərlər hövzəsində cəmiyyətdən öyrəndiklərini müəyyənləşdirmək və onların kəmiyyətini və keyfiyyətini təyin etmək daha çətindir. Çünki bunlar əxlaq fəlsəfəsində, hüquq fəlsəfəsində, kəlam (iteologiya) və bu kimi bəzi elmlərdə və əsas məsələlərin həllinə bağlıdır.

Hər şeydən öncə bilməliyik ki, sosioloqlar cəmiyyətdə cərəyan edən və dini etik, və hüquqi dəyərləri ehtiva edən ictimai dəyərləri «kollektiv dəyərlər» adlandırmışlar. Lakin onlar cəmiyyətin kollektiv dəyərlərinin sayı və onların tərifini və təsnifatını müxtəlif növlərdə təqdim etmişlər. Biz burada sosioloqların birinin nəzərini bu haqda söyləyirik.

Bu rəyə əsasən, cəmiyyətlərdə mövcud olan dəyərlər «ictimai adətlər» adlanır. İctimai adətlər İctimai həyatda olan qarşılıqlı əlaqələrin nəticəsidir. İctimai adətlər özünün ilk yaranış mərhələlərində bir neçə ictimai ehtiyacları ödəyir. İctimai adətlərin bir neçə qismi vardır ki, bunlardan səkkizi daha əhəmiyyətlidir:

a) İctimai anlaşmalar və əhd-peymanlar. Bu, cəmiyyətin bir hissəsinin anlaşması yolu ilə əldə olunur. Misal üçün, bir şəhərin əhalisi elektrik enerjisi baha olduğundan ondan istifadə etməməyi qərara alırlar.

b) İctimai əxlaq. Süfrə adət-ənənələrini buna misal göstərmək olar.

v) İctimai təşrifatlar. Bunlar müəyyən rəsmi yerlərdə həyata keçir. Rəsmi qonaqlıqlarda emal olunan sosial qanunlarını buna misal göstərmək olar. Həmçinin, dini bayramlarda müşahidə edilən sosial ənənələri buna aid etmək mümkündür.

q) Müəyyən bir cəmiyyət daxilində cərəyan edən sosial qanunlar. Misal üçün, təsərrüfatçı cəmiyyətlərin səhər çağları yuxudan oyanıb iş fəaliyyətinə başlaması.

ğ) Spesifik sosial qaydalar. Misal üçün, təsərrüfatçı cəmiyyətlərdə suya hörmət ən qədim zamanlardan mövcud olmuşdur.

d) Sosial etik qanunlar. Bunlar cəmiyyətdə mühüm sayılır və cəmiyyət onların qorunmasına təkid edir. Bir çox cəmiyyətlərdə rəsmi etik qanun kimi qəbul edilən «yaşlılara hörmət etməyi» buna nümunə göstərmək olar.

e) Cəmiyyətdə qəbul olunan qaydalar: Bunlar şüurlu şəkildə cəmiyyət tərəfindən yaradılır və onlardan boyun qaçıranlar üçün müəyyən cəzalar

nəzərdə tutulur. Böyük şəhərlərdəki yol hərəkəti qaydalarını buna aid etmək olar.

ə) Ümumi sosial qanunlar. Cəmiyyət bunları şüurlu olaraq yaradır, onlara riayət etməyənlər üçün müəyyən cəzalar nəzərdə tutur və bunların ümumiliyi sosial qaydaların ümumiliyindən daha çoxdur. Hər bir ölkənin milli məclisində qəbul olunan qərarlar və təsdiq edilən qanunlar bu qəbildəndir.

Biz bu təsnifatı dəqiq araşdırmaq fikrində deyilik. Lakin burada mövcud olan böyük bir problemi nəzərdən keçirmək istəyirik. Bütövlükdə, psixoloqlar, ictimai psixoloqlar və sosioloqlar həmin səhvə düçar olmuşlar. Onlar hesab edirlər ki, bütün dəyərlər və qanunlar eyni cinsdəndirlər. Yəni onların hamısı cəmiyyət tərəfindən yaradılmış və cəmiyyətin təsdiqindən başqa onların heç bir obyektiv reallığı yoxdur. Bu yanlış fikrə əsasən, cəmiyyətin qəbul etdiyi və bəyəndiyi bütün hadisələr və qanunlar dəyərlidir. Misal üçün, başqasının hüququna təcavüz etmək nə üçün pisdir? Bu suala onlar belə cavab verirlər, çünki insanların çox hissəsi bu işi pisləyir və bəyənmirlər. Yəni həmin işin pisliyinin yeganə səbəbi insanlar tərəfindən bəyənilməməsidir. Digər tərəfdən, iki İctimai rəftarın ən yaxşısı cəmiyyət tərəfindən daha çox hörmətə layiq olanıdır.

Lakin bilmək lazımdır ki, bütün qanunlar eyni səviyyəli deyildir. Onlar-obyektiv reallığa bağlı olub-olmaması baxımından-iki hissəyə bölünürlər. Bu iki qrup qanunlar insan şəxsiyyətinin formalaşmasında və dəyişkənliyində fərqli təsirlərə malik olduğu üçün, onların hər birini ayrı-ayrılıqda araşdırmaq yaxşı olardı:

Birinci: Real həqiqətlərə əsaslanan qanunlar. Bütövlükdə, dəyərlərin və qanunların obyektiv reallığa əsaslanması və yaxud əsaslanmaması haqda iki müxtəlif nəzəriyyə irəli sürülmüşdür. İngilis empirikləri tərəfindən irəli sürülən və sonralar pozitivistlər tərəfindən inkişaf etdirilən birinci nəzəriyyədə bildirilir: Heç bir dəyərin real və obyektiv əsası yoxdur. Hər bir qanun və hadisə insanlar tərəfindən bəyənildiyi üçün dəyərli hesab edilir. Dəyərli hesab etdiyimiz hər bir şey bizim üçün qiymətlidir və biz onu axtarırıq. Hər bir şeyin dəyəri bizim ona bağlı olmağımızdan və onu dərin maraq və həvəslə izlədiyimizdən qaynaqlanır. Deməli, dəyərli olmaq nisbi məfhumdur. Çünki bizim marağımıza və ehtiyacımıza bağlıdır. Həmçinin dəyərlər dəyişkəndir. Çünki onlar insanların meyllərinə və şəxsi rəylərinə tabedir. Hollandiyalı filosof Spinoza bildirir: Bizim müxtəlif şeylərə maraq

göstərməyimizin səbəbi onların yaxşı olması deyil. Əksinə, yaxşı olan və yaxşı adlandırdığımız proseslər və hadisələr bizim onları istədiyimiz üçün yaxşıdır. İkinci nəzəriyyədə isə ən azı bəzi dəyərlərin obyektiv reallığa əsaslanması vurğulanır. Bu nəzəriyyə qədim yunan filosofu Platon tərəfindən irəli sürülmüş və alman filosofu Maks Şeler tərəfindən inkişaf etdirilmişdir. Bu nəzəriyyədə bildirilir: Şeylərin dəyərli olmasının səbəbi onların özündəndir. Yəni dəyərli adlandırdığımız bütün qanunlar və hadisələr öz-özlüyündə həmin dəyərə malikdirlər. Müəyyən bir şeyin dəyərli olması bizi ona qarşı yönəldir. Bu səbəbdən, dəyər adlandırdığımız qanunlar mütləq və qeyri-nisbidir. Onlar xaricdə real həqiqətə malikdirlər, stabildirlər və xaricdən bizim ruhumuza təqdim olunurlar. Aristotel deyir: Şeylərin yaxşılığının səbəbi bizim onları təsdiq etməyimiz deyil, əksinə onların öz-özlüyündə yaxşı olması bizim onlara tərəf yönəlməyimizə səbəb olur.

Humanitar və ictimai elmlərin tədqiqatçı alimlərindən bir çoxu birinci nəzəriyyənin tərəfdarıdırlar. Lakin biz ikinci nəzəriyyəni düzgün hesab edir və bunu Quran ayələri və hədislərdən ələ gətirmiş, əxlaq fəlsəfəsi bəhslərində bu nəzəriyyəni elmi dəlillərlə də sübut etmişik. Bizim əqidəmizə görə, dini və etik qanunlar, habelə hüquqi dəyərlərin bir çoxu ictimai anlaşmalara və fərdi üslublara bağlı deyil, onların kökləri real həqiqətlərdə mövcuddur. Bunlar riyaziyyatda, məntiqdə, fəlsəfədə və təcrübi elmlərdə mövcud olan obyektiv qanunlar kimi kəşf olunmalı və həyata keçməlidir.

Misal üçün, etik dəyərlər insanın ixtiyari işləri və onun nəfsinin ideal məqsədləri arasındakı obyektiv əlaqələrdən yaranır. Başqa sözlə bütün insanlar bir sıra obyektiv ideal məqsədlərə çatmaq üçün fitri istedada malikdirlər. Bu vaxt həmin kamilliyə gedən yolu bizə asanlaşdıran işlər etika baxımından dəyərli, belə xüsusiyyətə malik olmayan işlər isə etika baxımından dəyərsiz hesab olunurlar. Bu obyektiv etik dəyərlər əql vasitəsilə kəşf olunurlar. Əqlin kəşf etməsindən aciz olduğu yerlərdə isə vəhy onları aydınlaşdırır.

Təəssüflər olsun ki, bir çox müsəlman mütəfəkkirləri, filosofları və kəlam alimləri bəzi sözləri ilə bütün dəyərləri qeyri-obyektiv adlandıran qərb mütəfəkkirlərinə bəhanə vermişlər. Misal üçün, həmin mütəfəkkirlərdən bəzisi bildirirlər: Yaxşı iş odur ki, ağıllı insanlar onu tərifləyir və pis iş odur ki, ağıllı insanlar onu məzəmmət edirlər. Diqqət

etmək lazımdır ki, əqlin qərarı ilə ağıllı insanların tərifləməsi və yaxud məzəmmət etməsi arasında böyük fərqlər mövcuddur. Bu səbəbdən, həmin müsəlman mütəfəkkirlərinin fikirləri bununla nəticələnmişdir ki, yaxşı və pis işləri müəyyənləşdirmək üçün ümumi rəyə müraciət etmək lazımdır. Yəni insanların üslubu və şəxsi rəyləri işlərin yaxşı və ya pis adlanmasında tam təsirlidir. Bu da dəyərlərdə təqlid məsələsinin tam təzahürüdür.

Məlum olduğu kimi, obyektiv gerçəkliyə əsaslanan dəyərlər insan şəxsiyyətinin formalaşmasında böyük təsir qabiliyyətinə malikdir və onların obyektiv gerçəklik köklərini unutmaq insanın mənəvi tərəqqisində böyük problemlər yarada bilər və onu «bataqlığa» sala bilər. Bu səbəbdən, təkid edirik ki, dəyərlərin çox hissəsi tam real gerçəkliyə əsaslanır. Yəni onlar insanın azad işləri arasında səbəb-nəticə qanununun hakim olmasını bildirirlər. Deməli, bütün dəyərlər eyni səviyyəli deyildir. Misal üçün, İslam dinində namaz və həcc hökmlərini, başqaları ilə necə davranmaq haqda mövcud olan əxlaq qaydaları eyniləşdirmək yanlışdır.

Real gerçəkliyə əsaslanan hökmlərin öyrənilməsi real gerçəkliklərin özlərinin öyrənilməsi kimidir. Yəni burada da bəzən başqaları bizə kömək edirlər ki, biz öz əqlimizlə reallıqdan qaynaqlanan dəyərləri öyrənək. Allah-Təalaya pərəstiş etmək, düz danışmaq, ədalətlə rəftar etmək, əmanəti öz sahibinə qaytarmaq və sair işlərin yaxşılığı, həmçinin nifaq salmaq, təkəbbürlü olmaq, başqalarına həsəd aparmaq, yalan danışmaq, başqalarının hüququna təcavüz etmək və sair işlərin pisliyi asanlıqla başa düşülə bilər və bu yolla öyrənilə bilər. Bəzən dəyərlərin aydınlığı o həddə deyil ki, bizim əqidəmiz onu dərk edə bilsin. Belə olan hallarda, biz Peyğəmbərin və məsum imamların, habelə din alimlərinin rəylərinə etimad edirik. Başqa sözlə desək, vəhydən kömək alırıq və bunun adı təqlid adlanır. Deməli, əqlimiz aciz olduğu yerlərdə özümüzdən daha çox biliyə malik olan insanlara müraciət edir və dəyərləri onlardan öyrənirik. Yəni bu işdə onlara təqlid edirik. Təqliddən istifadə etmək ona görədir ki, əql dəyərlərin bütün səbəblərini və əsaslarını əhatə edə bilmir, belə deyil ki, əql ümumiyyətlə dəyərləri dərk edə bilməsin. Bu düzgün təqlid forması ictimai psixoloqların və sosioloqların bildirdikləri dəyərlərdə təqliddən çox fərqlidir. Çünki onların fikrincə cəmiyyət bütün dəyərləri özündə yaratdığı üçün dəyərlər hövzəsində biz tam təqlidçi olmalıyıq. Onların fikrincə, hər bir fərdin qəbul etdiyi dəyərlər daha çox cəmiyyət tərəfindən ona vadar edilir. Biz bu fikirlə razılaşmırıq.

İkinci: Obyektiv gerçəkliyə əsaslanmayan dəyərlər. Tam ictimai anlaşmaya və fərdi üslublarla əsaslanan bu dəyərlər də ictimai həyatda az deyildir. Süfrə-qayda qanunları, paltar, geyim tərzi, ev tikintisi adətləri, ailə qurmaq qayda-qanunları, rəsmi və ya dostluq şəraitində keçən qonaqlıqlarda olan davranış qaydaları, matəm məclislərində emal olunan qanunlar, milli bayramlar, müharibə və ya ov adətləri, alış-veriş qanunları və sair milli və ictimai adət-ənənələri, habelə yol hərəkəti qaydalarını bunlara misal göstərmək olar. Bütün bunlar müxtəlif cəmiyyətlərdə, hətta müəyyən bir cəmiyyətin daxilindəki müxtəlif qruplar arasında fərqlənə bilərlər.

Bu qəbildən sayılan dəyərlər insan şəxsiyyətinin formalaşmasında təxminən heç bir təsir qabiliyyətinə malik deyildir. Aydındır ki, müəyyən bir cəmiyyətin və yaxud ölkənin yol hərəkəti qaydaları tamamilə aradan gedərsə, bu, fərdlərin şəxsiyyətində dəyişkənliyə səbəb olmayacaqdır. Habelə, əgər bir şəxs özünün paltar, ayaqqabı və ya papağını dəyişərsə, onun şəxsiyyəti dəyişmir. Yaddan çıxarmayaq ki, bütün zaman və məkanlarda etik və ictimai qanunlara tam riayət etmək insan şəxsiyyətinin bir hissəsidir. Lakin bu, spesifik qayda və qanunlara riayət etməklə fərqlidir. Bütün zaman və məkanlarda ictimai qanunlara riayət edən hər bir şəxs yaşadığı hər bir cəmiyyətdə və yaxud hər bir ictimai qrup daxilində həmin cəmiyyətin və ictimai qrupun qanunlarına riayət edir. Belə deyil ki, öncə üzvü olduğu cəmiyyətin qayda-qanunlarını əsas götürərək yeni cəmiyyətin qanunlarından boyun qaçırsın. Bütün bunlara baxmayaraq, ictimai qanunların dəyişməsi insan şəxsiyyətinin dəyişməsinə əsas vermir.

Qeyri-obyektiv dəyərlər kollektiv həyatı və ictimai münasibətləri tənzimləyən bir vasitədir. Bu səbəbdən onları öyrənmək və onlardan istifadə etmək ictimai nizam-intizamının formalaşmasında və qorunmasında tam zəruridir.

Qeyri-obyektiv dəyərlərin öyrənilməsi və onlardan istifadə edilməsi daha çox ictimai həyatda zəruri olan «başqaları ilə həmrəng olmaq məqsədi» ilə həyata keçir. Bunların öyrənmə yolu isə təqliddir. Müəyyən bir cəmiyyətdə olan şəxs orada asudə yaşaması üçün həmin cəmiyyətdə cərəyan edən qayda-qanunları öyrənməli və onlara tabe olmalıdır. Bu proses təqlid yolu ilə həyata keçir.

Cəmiyyətin fərd üzərində təsir növləri haqda dediklərimizin xülasəsi budur ki, cəmiyyət fərdin fiziki və bioloji varlığının yaranmasında,

yaşamasında və inkişaf etməsində inkaredilməz rola malikdir. Lakin biz bu bəhsdə həmin təsirdən danışmırıq. Yəni cəmiyyətin fərdlər üzərində bu cür təsiri bizim tərəfdən tam təsdiq edilir və bu haqda müzakirə aparılmır. Biz hesab edirik ki, cəmiyyətin fərd üzərində təsiri fərdin cəmiyyətdən öyrəndikləri arasında axtarılmalıdır. Bu təlimlər iki böyük qrupa ayrılır: Onlardan biri, yalnız kollektiv həyatı və ictimai münasibətləri tənzimləyən vasitədir və insan şəxsiyyətinin formalaşmasında heç bir təsirə malik deyildir. Bunlar-dil və xətt amilindən başqa-həm də qeyri-obyektiv dəyərlərdir. Dil və xətt anlaşma yolu ilə yaranan bilgilər sırasına daxil olmur, yəni onların obyektiv kökləri yoxdur. Biz öz məqsədimizi başqalarına başa salmaq üçün hansı sözlərdən istifadə etməliyik, necə danışmalıyıq, necə yazmalıyıq, hərfləri və sözləri bildirmək üçün hansı formalardan istifadə etməliyik. Diqqət yetirin, bütün bunlar tam anlaşma yolu ilə əldə edilmişdir. Məhz buna görədir ki, dillər və xətlər müxtəlifdir. Yəni biz hər bir cəmiyyətlə üzləşərkən ona məxsus olan dil və xətdən istifadə etməliyik. İctimai adət-ənənələr kimi, digər qeyri-obyektiv dəyərlər də insan şəxsiyyətinin formalaşmasında təsirsizdirlər. Burada bir məsələni qeyd etməliyik. Müəyyən bir dilçi, xəttat, alim həmin elmlərin vasitəsilə ictimai mövqe qazana bilər. Lakin bilmək lazımdır ki, həmin ictimai mövqe onun şəxsiyyətində tam təsir qoysa da biz bu təsirdən danışmırıq. Fərdin cəmiyyətdə öyrəndiyi ikinci qrup təlimlər onun şəxsiyyətində tam təsirli olurlar. Onlar gerçəkliyi vəsf edən və ondan xəbər verən obyektiv elmlər, həmçinin obyektiv gerçəkliyə əsaslanan dəyərlərdir. Bu arada obyektiv gerçəkliyə əsaslanan dəyərlərin öyrənilməsi böyük əhəmiyyətə malikdir. Cəmiyyət fərdin təlim və tərbiyəsində böyük təsirə malik olmasından əlavə, onun fitri və psixoloji istedadlarının çiçəklənməsində də böyük təsir qabiliyyətinə malikdir.

# 4. Təqlidin əhəmiyyəti və zərurəti

Göründüyü kimi, fərdin cəmiyyətdən aldığı təlim tərbiyə iki yolla həyata keçir: Onlardan birində cəmiyyət fərdə kömək edir ki, o özü müəyyən bir həqiqəti kəşf və dərk etsin. Bəzi vaxtlar isə fərd cəmiyyətə təqlid etməklə bəzi ictimai adət-ənənələri öyrənir. Cəmiyyətin insana etdiyi birinci növ köməyi əhəmiyyətsiz hesab etməməliyik. Çünki insan şəxsiyyətinin formalaşması və inkişaf etməsi bir çox hallarda həmin qismə aid olan köməklər vasitəsilə həyata keçir. Lakin burada təqlidin də böyük əhəmiyyəti vardır. Xüsusilə də təqlidin mahiyyəti barədə bir çox müzakirələr və mübahisələr aparılmışdır.

İctimai psixologiya sahəsində Qabriel Tard daha çox təqlid məfhumunu işlətmiş və ona əsaslanaraq cəmiyyətin tərbiyəsi barədə nəzəriyyə irəli sürmüşdür. Onun fikrincə, təqlid əsaslı, ictimai bir hadisədir və onun mahiyyətini və təsirlərini izah edən müəyyən ictimai qanunlar mövcuddur. O bildirir ki, ictimai dəyişkənliklərin yaranmasının əsas səbəbi insanların müşahidə etdikləri yeniliklərə təqlid etməsidir. Bir sözlə, cəmiyyət təqlidsiz təsəvvür edilə bilməz. Qabriel Tard fərdlərin cəmiyyətdən necə təsirlənməsi və bir-birlərinə necə təsir etmələri haqda danışarkən, yalnız təqlid amilini önə çəkir. Digər tərəfdən, fərdi, yalnız cəmiyyətin bir üzvü kimi hesab edən Dürkheym proseslərin psixoloji və sosioloji təhlilləri haqda Tardın fikirləri ilə razılaşmır və bildirirdi ki, cəmiyyətin fərdlər üzərində təsiri, yalnız məcburi formada həyata keçir. Yəni insanın cəmiyyətdə cərəyan edən mədəniyyətə tabe olması heç bir psixoloji və fərdi amillə izah edilə bilməz.

İctimai fikir tarixində Tard və Dürkheym bir çox tərəfdarlar qazansalar da, sosioloqların sonrakı tədqiqatları göstərdi ki, həm Tard, həmdə Dürkheym obyektiv və düzgün ideya irəli sürməmişlər. Yəni cəmiyyətin fərd üzərində təsiri məcburi deyil, habelə təqlid insanların cəmiyyətdə cərəyan edən mədəniyyətə tabe olmasında yeganə amil hesab olunmur və burada təqliddən başqa digər amillər də mövcuddur.

Biz də bu iki məsələdə sosioloqlar və ictimai psixoloqlarla razılaşırıq:

1. Fərd cəmiyyət qarşısında elə də məhkum və məcbur deyil ki, onun iradəsi tam surətdə aradan getsin. Yəni insanlar cəmiyyətdə hakim olan cərəyanlara qarşı müqavimət göstərə bilərlər. Qurani-kərimdə bunun bir çox nümunələri göstərilmişdir. Peyğəmbərlərin hamısı ictimai proseslərə qarşı çıxan və onlar qarşısında təslim olmayan insanlar idilər. Bir çox hallarda onlar cəmiyyətdə hakim olan abı-havanı sındırır və yeni ideya irəli sürürdülər. Hətta peyğəmbər olmayan insanların bəzisi də yaşadıqları kafir, müşrik və günahkar ictimai mühitə qarşı çıxır və zülmkarlıqla mübarizə aparırdılar. Onlar bu yolda bütün çətinliklərlə sinə gərir və onları qəbul edirdilər. Fironun həyat yoldaşı elə bir mənəvi məqama yüksəlir ki, Allah-Təala onu bütün möminlərə nümunə kimi göstərir (müraciət edin: «Təhrim» surəsi, 11-ci ayə). Fironun sarayındakı sehrbazlar (ki, Musa peyğəmbərlə üzləşdikdən sonra haqq yola gəldilər), habelə «Kəhf» əshabı (ki, mömin insanlar idilər) bu qəbildəndirlər (müraciət edin: «Kəhf» surəsi, 13-cü ayə).

2. Öncə göstərdiyimiz kimi, təqlid mühüm amil olsa da, təlim-tərbiyənin yeganə amili deyildir. İndi isə sübut etmək istəyirik ki, təqlid bir növ mühitlə uyğunlaşmaq formasıdır. Deməli, təqlid şüurlu formada insan tərəfindən həyata keçən bir işdir.

Bir çox psixoloqların bildirdiyi kimi, təqlid üç mərhələdən ibarətdir: Birinci mərhələdə şəxs ətrafında olan insanların gördüyü işi dayanmadan və eynilə təkrarlayır və həyata keçirir. Misal üçün, beş-altı aylıq uşaq ətrafdakı insanların gülməsini müşahidə edərək onların nə üçün güldüyünü aydınlaşdırmadan gülməyə başlayır. Göründüyü kimi, burada heç bir şüurdan və düşüncədən söhbət gedə bilməz. İkinci mərhələdə, şəxs başqa bir şəxsin rəftarını kifayət həddinə çatmayan şüurla təqlid edir. Misal üçün, beş-altı yaşlı uşaq özündən böyüklərin işlərini müşahidə edir və onları təkrarlayır. Uşağın böyüklərə təqlid etməsi onlara oxşamaq üçün həyata keçir. Lakin uşaq böyüklərin işlərinin hansı məqsədlə həyata keçməsini bilmir. Üçüncü mərhələdə isə insan başqasının işinin yaxşı olduğunu tam dərk edərək onu təkrarlayır. Misal üçün, gənclik dövrünü yaşayan insan başqalarının işlərini müşahidə edərkən onların ən yaxşısını seçir və təkrarlayır. O bu seçimini müxtəlif dəlillərə əsaslandırır. Bildiririk ki, biz burada daha çox üçüncü mərhələdən söz açacağıq. Birinci və ikinci təqlid növünü isə araşdırmağa lüzum görmürük.

Psixoloqların bir çoxu təqlidi mühitlə uyğunlaşmanın bir növü adlandırmışlar. Belə ki, bioloqlar bildirirlər ki, heyvanlar daim özlərini mühitlə uyğunlaşdırmağa çalışırlar. Mühit dəyişərsə, heyvan özünü yeni vəziyyətlə uzlaşdırmağa səy göstərir. Bu səbəbdən, heyvan yeni rəftarlara adət edir. Beləliklə, mühit yeni ehtiyaclar yaradır. Həmin ehtiyaclar bir çox hallarda heyvanın bədəninin müxtəlif hissələrini dəyişdirir. Başqa sözlə, hər bir heyvan öz bədəninin müəyyən bir üzvünə ehtiyac duyan zaman, həmin üzvdən daha çox istifadə edir və nəticədə o üzv güclənir və kamilləşir. Digər tərəfdən, bədən üzvlərinin hər hansı birinə ehtiyac duymadıqda, həmin üzvü tədricən əldən verir. Misal üçün, bioloqlar göstərirlər ki, zürafələr ilk yaranışda ceyranlar tək qısaboylu və qısaboyunlu idilər. Lakin onlar ağaclı meşələrdə yaşadıqları üçün həmin ağaclardan qidalanmağa və öz qidalarını təmin etmək üçün ayaqlarını və boyunlarını yuxarı çəkməyə başladılar. Beləliklə, zürafələr ucaboylu heyvana çevrildilər. Bəzi heyvanlarda hətta dərinin rəngi təbii və coğrafi mühitlə uyğunlaşır. Misal üçün, bəzi heyvanlar yaşıl mühitdə yaşadıqları üçün rəngləri yaşıl rəngə çalır, quru və susuz ərazilərdə yaşadıqda isə onların rəngi torpaq rənginə tərəf yönəlir. Təqlidi mühitlə uzlaşmanın bir növü adlandıran psixoloqlar insan ruhunu obyektiv gerçəklik kimi qəbul etmir və insanı digər heyvanların təbii davamçısı adlandırırlar. Onlar biologiyada müzakirə edilən «mühitlə uzlaşma prinsipini» psixologiya sahəsinə də aid edir və belə hesab edirlər ki, insanlar da özlərini ictimai və insani mühitlə uyğunlaşdırmağa və mövcud şəraitlə ayaqlaşmağa çalışdıqları üçün təqlidə əl atır və cəmiyyətin psixoloji, mədəni dəyərlərini qəbul edirlər.

Həqiqət budur ki, bioloqların ideyasını psixologiya sahəsinə aid etmək tamamilə yanlış və yersizdir. Hərçənd təqlidin birinci mərhələsini, yəni beş-altı aylıq uşağın təqlidini mühitlə uyğunlaşma adlandırmaq olar. Lakin təqliddə ikinci və üçüncü mərhələni bu prinsiplə izah etmək olmaz. Azyaşlı uşaqlar da bütün zaman və məkanlarda təqlid etmirlər. Onların təqlidində tam təhlil olmasa da, onlar öz işlərini tamamilə şüursuz şəkildə həyata keçirmirlər. Hətta azyaşlı uşaq özünü ata, ana, qardaşlar və bacılar qarşısında aciz görən zaman, belə nəticə çıxarır ki, onun ata-anası və yaxud bacı-qardaşları daha çox qüvvəyə malik olduqları üçün bəzi işləri həyata keçirə bilirlər. Bu səbəbdən, həmin uşaq öz qüvvəsini və bacarığını ailənin digər üzvlərinə göstərmək və ya onlar kimi qüvvətli olmaq məqsədi ilə onların işlərini təqlid etməyə başlayır. Deməli, uşağın təqlid etməsinin əsas

səbəbi onun qüdrətli olmağa meyl göstərməsidir. Hərçənd, uşağın təhlili tam şüurlu olmasa da, lakin bu tədricən təkmilləşir. Xatırlatmaq lazımdır ki, insanda olan bir çox təhlillər də bu qəbildəndir. Yəni ilkin mərhələlərdə zəif, sonra isə kamilləşməyə başlayır.

Təqlidin birinci mərhələsinin şüursuz və məqsədsiz həyata keçməsindən belə nəticə çıxarmaq olmaz ki, insan öz həyatının bütün mərhələlərində heç bir düşüncəyə varmadan başqasının işlərini təqlid edir. Bu ona oxşayır ki, biz insanın ana südü əmməsinin tam fitri bir iş olduğunu əsas götürərək insanların bütün həyat mərhələlərində heç bir yeməyi tam şüurlu şəkildə yeyə bilmədiyini vurğulayaq. Biz amerikalı psixoloq və filosof Vilyam Ceyms və amerikalı ictimai psixoloq Baldvindən fərqli olaraq, təqlidi tam şüursuz və məqsədsiz bir iş deyil, məqsədəuyğun və şüurlu formada həyata keçən bir fakt adlandırırıq. Düzdür, insan bəzən öz işini tam şüurlu şəkildə həyata keçirir, yəni o, bir sıra təhlillər apardıqdan və fikirləşdikdən sonra başqasının işini təqlid edir. Bəzən isə bu, kamal həddinə çatmır, yəni həmin şəxs öz təqlidini əsaslandırmaq üçün kifayət qədər düşüncəyə malik deyildir. Lakin sonralar o, kamilləşə bilər. Şübhəsiz, təqlid işlərinin məqsədəuyğun olması o demək deyil ki, bütün təqlidlər düzdür. Necə ki, insanın təqlid etmədiyi digər şüurlu işləri də yanlış və səhv ola bilər. İnsan hansı işlərdə təqlid etməli, hansı işlərdə təqlid etməməli və yaxud kimlərə təqlid etməli və kimlərə təqlid etməməli barədə səhvə düçar ola bilər. Lakin bütün bunlar təqlid işinin şüursuz və məqsədsiz həyata keçməsini bildirmir.

Xatırlamaq lazımdır ki, müasir ictimai psixoloqların bir çoxu da təqlidi şüursuz iş adlandırmır. Misal üçün, Mak Duqal bildirir ki, biz təqlidi şüursuz və tam fitri adlandıra bilmərik. Çünki insanda müşahidə olunan bütün işlər təqlid yolu ilə öyrənilmişdir. Müasir amerikalı ictimai psixoloq Otto Kleynberq də bildirir ki, hətta heyvanlar arasında da təqlid müəyyən şərait çərçivəsində və müəyyən məqsədlərə uyğun olaraq həyata keçir. Yəni heyvanlar, yalnız bu işdə onlar üçün fayda olduğu zaman təqlid edirlər. Misal üçün, təqlid edirlər ki, öz yemlərini qazansınlar. İnsanlarda da belədir, yəni onlar bir neçə variant arasından, yalnız birini seçirlər ki, bu yolla müəyyən məqsədə çatsınlar. Başqa sözlə, təqlid, yalnız müəyyən bir məqsədə çatmaq üçün həyata keçir. Təqlid edən şəxs bu işin faydalı olduğunu hesab edir. Bir sözlə, hər bir insan öz təqlidində fayda görməzsə, bunu tərk edəcəkdir. Misal üçün, hər hansı bir gənc öz saç düzümünü filan kino ulduzuna oxşadırsa və yaxud onun kimi paltar geyinirsə, bu onun

fitrətindən qaynaqlanmır. Həmin gəncin təqlidi ona görədir ki, o həmin kino ulduzu kimi yaşamaq və yaxud onun həyatda çatdığı məqsədlərə nail olmaq istəyir.

Məlum oldu ki, insanlar həyatda maddi və ya mənəvi məqsədlərə çatmaq üçün təqlidə əl atırlar. İndi isə həmin məqsədləri daha geniş formada araşdıraq. Öncə bildirdik ki, insanın cəmiyyətə, yəni başqalarına təqlid etməsi iki qismə ayrılır. Onlardan birində insan obyektiv gerçəklikləri, habelə obyektiv gerçəkliklərə əsaslanan dəyərləri, digərində isə qeyri-obyektiv gerçəklikləri, yəni dil, xətt və ictimai adət-ənənələri öyrənmək üçün başqalarına təqlid edir. İnsan bu iki növ təqliddə eyni maraqda deyil. Bu səbəbdən, biz bu iki növ təqlidin hər birinin səbəblərini və məqsədlərini ayrı-ayrılıqda araşdırırıq:

1. Obyektiv reallıqlar və həmin reallıqlara əsaslanan dəyərlər sahəsindəki təqlid. İnsanın obyektiv elmlərə ehtiyacının iki səbəbi vardır: Onun fitrətində Allah-Təala tərəfindən həqiqi və obyektiv gerçəkliklərə qarşı meyl mövcuddur. Burada digər səbəb isə insanın ideal həyatı ilə bağlıdır. Yəni insan düzgün və faydalı yaşaması üçün həmin elmlərə möhtacdır. Bu səbəbdən, ilk öncə hər bir şəxs öz düşüncə və idrakı ilə həmin həqiqi elmləri əldə etməlidir. Lakin burada bəzi problemlərin yaranması insanı həmin vəzifədən saxlayır. Həmin problemlərdən biri bütövlükdə insanların heç bir şey bilmədən dünyaya gəlməsidir. «Nəhl» surəsinin, 78-ci ayəsində oxuyuruq:

«Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz halda çıxartdı.»

Sonra insanlar tədricən hissi orqanlar vasitəsilə idrak olunan elmlərə malik olurlar. Həyatın sonrakı mərhələlərində isə onların müxtəlif istedadları, o cümlədən hafizə, diqqət, xəyal, hökm və sair istedadlar çiçəklənir. İnsanın həqiqi və obyektiv bilikləri əldə etməsi həmin istedadların tamamilə çiçəklənməsinə bağlı olduğu üçün biz insanda inkişaf prosesinin tədricən həyata keçməsini qəbul etməliyik. İnkişaf prosesinin uzunmüddətli olması insanın ömrünün uzun bir dövrünü nadanlıq içində yaşamasına səbəb olur. Digər tərəfdən – peyğəmbərləri və məsum imamları istisna etmək şərti ilə – adi insanlar həmin həqiqi elmlərin sayının çox olduğu üçün onları tamamilə əldə edə bilmirlər. Hətta insanların çox hissəsi həqiqi elmlərin kiçik bir hissəsində belə mütəxəssis ola bilmirlər. Nəticədə,

hər bir insan öz ömrünün hər mərhələsində, yalnız kiçik məlumatları əldə edə bilir və başqalarından məhrum olur. «İsra» surəsinin 85-ci ayəsi belədir:

«Sizə elmdən, yalnız az bir miqdar verilmişdir.»

İnsan bütün həqiqi və obyektiv elmləri əldə etmək üçün məhdud imkanlara malik olduğundan, o özünün əldə edə bilmədiyi elmlərdə alimlərə və tədqiqatçılara təqlid etməlidir. Bu təqlid sağlam insan zəkası tərəfindən təsdiq edilir. Çünki hər bir insanın şüuru və sağlam düşüncəsi hökm edir ki, insanlar bilmədikləri sahələrdə ehtiyac duyan zaman tədqiqatçı, mötəbər alimlərə müraciət etməlidir. Təqlidin bu növünün zəruriliyi başqası tərəfindən insana öyrədilmir. Hər bir şəxs özünün elmi ehtiyaclarını ödəmək üçün bu düzgün yolu seçir və həyata keçirir.

2. Tam qeyri-obyektiv sahələrə aid olan dəyərlərdə təqlid. Təqlidin birinci növündə təqlid edən şəxs öz əməlini belə əsaslandırırdı: «Filan alim filan elm sahəsində məndən daha çox bildiyi üçün onun rəyini və nəzərini qəbul edirəm.» Lakin təqlidin ikinci mərhələsində təqlidçi belə düşünmür. Yəni burada təqlidçi filan dilin, xəttin və ya ictimai adət-ənənənin daha yaxşı və daha düzgün olması üçün təqlid etməsini fikirləşmir. Hərçənd beş-altı yaşında olan uşaqlar belə düşünə bilərlər. Lakin fikir yetkinliyinə çatmış insanlarda bu belə deyil. Hər halda, təqlidin bu növündə təqlidçi adət-ənənələri, yaxud dili və xətti onların digər cəmiyyətlərdəki adət-ənənələrdən, dildən, xətdən daha yaxşı olması üçün yox, sadəcə olaraq başqaları ilə həmrəng olması üçün seçir.

İnsanın başqaları ilə ayaqlaşmasının (həmrəng olmasının) iki səbəbi vardır: müəyyən bir cəmiyyətin üzvi olan və yaxud digər bir cəmiyyətin üzvləri ilə əlaqə saxlayan insan həmin cəmiyyətdən öz mənafeləri üçün istifadə etməyə çalışır. Bu isə ona bağlıdır ki, onunla həmin cəmiyyətin üzvləri arasında müsbət bir emosiya növü yaransın, həmin müsbət emosiyanın yaranması da cəmiyyətdə qəbul olunan qayda-qanunların həmin şəxs tərəfindən riayət olunmasına bağlıdır. Deməli, həmin insan bacardığı qədər başqaları ilə ayaqlaşmaq istəyir ki, özünə qarşı mənfi emosiya yaratmasın. Öz cəmiyyətinin adət-ənənələrindən boyun qaçıran şəxs tezliklə ictimai həyatın qarşılıqlı münasibətlərindən uzaqlaşacaqdır. Sadə bir misala diqqət yetirin: «İnsanların bir-birinə hədiyyə təqdim etməsinin adət halına çevrilən bir cəmiyyətdə, verdiyi hədiyyənin aldığından daha dəyərsiz olduğu şəxsə bundan sonra heç kim hədiyyə verməyəcəkdir.»

Burada digər bir səbəb də mövcuddur. Cəmiyyətdə qəbul olunan adət-ənənələrdən boyun qaçırmaq cəzalanmaqla nəticələnə bilər. İnsan öz azadlıq səviyyəsini ictimai həyatda insanlar tərəfindən məqbul hesab olunan qanunlara və qaydalara ziyan vurmaq həddinə çatdırarsa, cəmiyyət müxtəlif vasitələrlə onun qarşısını alacaq və onu öz işlərindən çəkindirməyə çalışacaqdır. Bu iş ya polis vasitəsilə, ya da cəmiyyətin müxtəlif qrupları və fərdləri tərəfindən həyata keçir. Lakin hər halda, burada üç ictimai təzyiqdən biri ola bilər: Psixoloji təzyiq (başqaları tərəfindən danlanmaq istehza olunmaq və təhqir olunmaq), iqtisadi təzyiq (cərimə və iqtisadi məhrumiyyətlər) və fiziki təzyiq (fiziki işgəncələr kimi).

Bu iki səbəbi nəzərə alarkən, insanın cəmiyyətə təqlid etməsini aydınlaşdırmaq olar. Deməli, mühitlə uyğunlaşmanın bu növü tam şüurlu bir işdir. Bu ya maddi və mənəvi cəhətdən faydalanmaq, ya da ictimai təzyiqlərdən yaxa qurtarmaq üçün həyata keçir.

# 5. Təqlidin zərərləri və onlarla mübarizə yolları

Təqlid zəruri və əhəmiyyətli bir iş olsa da, müxtəlif problemlərlə üzləşə bilər. Bu vaxt təqlidçi böyük maddi və mənəvi ziyanlara tuş gələ bilər. Burada təqlidin bəzi mühüm problemlərini və ziyanlarını xatırladırıq:

1. Təbii olaraq, insanın təqlid etdiyi ilk şəxslər onun ata və anasıdır. Hər bir uşaqda bir fitri meyl və istək mövcuddur. O, bütün bilmədiklərini kəşf etmək istəyir. Buna görə o daim ata-anasından soruşur və onların cavablarını düzgünlüyündə şübhə etmədən-qəbul edir. Bundan əlavə, o, ata və anasını elm və qüdrət baxımından özündən daha üstün görür. Habelə, təcrübə ilə başa düşür ki, onlara tabe olmaq onun üçün daha faydalıdır. Habelə, bəzi yerlərdə ata-anasının öz ata-analarına qarşı baş əyməsini və onlara qarşı çox hörmətlə yanaşmasını da müşahidə edir. Bütün bu və ya buna oxşar amillər səbəb olur ki, azyaşlı uşaq hər bir şeyi öz ata-anasından öyrənməyi zəruri hesab etsin və onlara tabe olsun. Ata-anaya və əcdadlara səbəbsiz təqlid etmək insan həyatının sonrakı illərində və mərhələlərində də mövcud olsa, həmin şəxsin hələ uşaqlıq dövrünü yaşamasını vurğulamalıyıq və o, şübhəsiz, təqlid sahəsində bir sıra səhvlərə düçar olmuşdur. Şüurlu və ağıllı insan bilir ki, ata və ana, yalnız ata-ana olduğu üçün nümunə ola bilməzlər. Uşaqlıq dövründə onlara tabe olmaq bir sıra problemlərin və çətinliklərin həllində köməkçi olması, bu insanın bütün ömür mərhələlərində onları özünə nümunə götürməsinə əsas verməz. Qurani-kərimin bir neçə ayələrində səbəbsiz yerə öz atalarına və əcdadlarına təqlid və yersiz olaraq onların fikirlərini təsdiq edən insanlar məzəmmət olmuşlar:

«Onlara Allahın nazil etdiyinə və Peyğəmbərə tərəf gəlin deyiləndə «atalarımızın getdiyi yol bizə bəsdir» deyərlər. Görəsən, ataları hətta bir şey bilməmiş və düz yola hidayət olunmamış olsalar belə (bunlar yenə də kor-koranə surətdə onlara təqlid edəcəklər)?»[41] (Bu barədə həmçinin müraciət

edin: «Əraf» surəsi, ayə: 28; «Yunus» surəsi, ayə: 78; «Ənbiya» 53, 54; «Şüəra» surəsi, ayə: 74; «Loğman» surəsi, ayə: 21; «Zuxruf» surəsi, ayə: 22, 23).

2. Təqlidin digər problemi ondadır ki, bir şəxs başqaları ilə dostluq münasibəti yaratmaq üçün və yaxud dostluq münasibətini saxlamaq üçün onların haqqa zidd olan sözlərini qəbul etsin. Yəni «xəlqə çatmaq üçün Həqdən keçsin. İbrahim peyğəmbər öz qövmünü bu cəhətə görə məzəmmət edirdi:

«Həqiqət budur ki, dünya həyatında «aranızda dostluğa səbəb olsun» deyə siz Allahı yox, bütləri qəbul etdiniz».[42]

3. Təqliddə mövcud olan digər problem odur ki, bir şəxs müəyyən bir əqidənin tərəfdarlarının çoxluğunu həmin əqidənin haqq olmasına əsas götürsün. Bir çox insanlar müəyyən bir məsələdə əksəriyyətə tabe olurlar. Bunun səbəbi həmin əsassız fikirdir. Quranın bu barədə mövqeyi o qədər aydındır ki, onları sadalamağa ehtiyac bilmirik.

4. Digər problem ondan ibarətdir ki, bəzən insanlar müəyyən bir elmdə, sənətdə, peşədə və ya başqa bir işdə səlahiyyətli və məharətli olan insanı bütün sahələrdə mötəbər şəxsiyyət kimi qəbul edir və onun fikrini təsdiqləyirlər. Bu isə təqlidin çox təhlükəli növüdür. Təəssüflər olsun ki, bu təhlükəli təqlid xüsusilə müasir dövrdə çox yayılmışdır. Filan kino ulduzu insanlara filan avtomobildən istifadə etməyi tövsiyə edir. Və yaxud filan idman ustası prezident seçkilərində filan namizədi himayə edir. Filan varlı şəxs uçan boşqablar haqda danışır. Filan prezident Allahı inkar edir. Filan təyyarə pilotu beynəlxalq məsələləri təhlil edir. Filan kosmonavt üçüncü dünya ölkələrinin problemləri barədə ideya irəli sürür. Filan fizik elan edir ki, müəyyən iqtisadi sistemi qəbul edir. Filan iqtisadçı «Mars» planetində yaşayan insanların tezliklə hücumundan dəm vurur. Filan filosof həmişə filan müəyyən ətirdən istifadə edir. Cəmiyyətdə hər hansı bir qrup bunların birinə təqlid və beləliklə, müəyyən bir əqidəni qəbul edir. Daha bilmirlər ki, bir sahədə məharət qazanan insanın rəyi bütün sahələrdə məqbul hesab oluna bilməz.

Hər bir insan kamala yetmək istəyir. Yəni fitri olaraq inkişaf etmək və yüksəlmək arzusundadır. İnsanlar inandıqları dəyərlər sisteminə uyğun kamal zirvəsini müxtəlif şeylərdə görürlər. Gözəllik, bədən quruluşu, pul, sərvət, siyasi və ictimai qüdrət, elm, sənət və yaxud mənəviyyat müxtəlif insanlar üçün kamal zirvəsi hesab oluna bilər. İnsanlar həmin xüsusiyyətlərə

malik olan şəxslərin dalınca düşür və onlara təqlid edirlər. Bununla özlərini kamil insanlara oxşatmaq və kamilləşmək istəyirlər. İnsanlar bu təqlid prosesində üç səhvə düçar ola bilərlər:

Birinci səhv: Onlar kamal həddinin nümunəsini müəyyənləşdirməkdə səhvə düçar ola bilərlər. Misal üçün bir şəxs insan kamalını sərvətdə və pulda görə bilər. Belə bir şəxs puldarları özünə nümunə seçir, onlara tərəf yönəlir və bacardığı qədər onlara oxşamaq istəyir. Digər tərəfdən, yoxsullara diqqət etmir, onlardan qaçır və onlara oxşamamağa çalışır. Qurani-kərimdə bildirilir ki, Nuh qövmü belə bir xəyala düçar olmuşdular. Buna görə onlar yoxsul insanları alçaq və ağılsız hesab edirdilər. Həmçinin onlar yoxsul insanların Nuh peyğəmbərə tabe olmasını onun dininin batil din olmasına dəlil gətirir və Nuh peyğəmbərə iman gətirməmələrini bununla əsaslandırırdılar. «Hud» surəsinin 27-ci ayəsində oxuyuruq: «Və sənə bizim səfillərimizdən başqa fikirləşmədən və elə ilk baxışda tabe olan bir kəs görmürük.» Həmçinin, «Şüəra» surəsinin 111-ci ayəsində belə gəlmişdir: «Dedilər: Sənə ən rəzil adamlar tabe olduğu halda biz sənə iman gətirəkmi?»

İslam dininin zühur etdiyi vaxtda da münafiqlər möminləri, maddi baxımdan aşağı səviyyədə olduqları üçün, səfeh və ağılsız adlandırır və onların sırasına daxil olmağı özlərinə sığışdırmır və deyirdilər: «Biz də səfehlər kimi iman gətirəkmi?»[43]

Kafirlər də möminlərin iqtisadi baxımdan geridə qalmasını onların ağıllarının və mədəniyyətlərinin zəifliyi ilə izah edir və bildirirdilər ki, bu ağılsız və aşağı səviyyəli insanların yeni zühur etmiş dinə iman gətirməsi həmin dinin haqq olmamasının əsas göstəricisidir:

«Küfr edənlər iman gətirənlər barəsində dedilər: Əgər bu (Quran və ya din) yaxşı şey olsaydı onlar (yoxsullar və aşağı təbəqədən olanlar) onun qəbul edilməsində bizdən qabağa düşməzdilər.»[44]

Bu baxımdan kafirlər dəfələrlə İslam peyğəmbərinə təklif edirdilər ki, ayaqyalınları və aşağı təbəqədən olan insanları öz ətrafından uzaqlaşdırsın. Belə olan təqdirdə onunla müzakirəyə başlayacaq və onun dəvətini qəbul etsinlər. Hər halda, insanların bir çoxu kamal həddini və dəyərləri təyin etməkdə səhvə düçar olurlar.

İkinci səhv: Kamil və nümunəvi insanların tanınmasında baş verir. Misal üçün, fərz edək ki, elm və bilik kamillik həddinin nümunəsidir. Lakin burada digər bir səhv də baş verə bilər. Biz həqiqətən alim olmayan

insanları alim hesab edib onlara təqlid edə bilərik. Çünki heç bir elm və maarif sahəsində həqiqi alimlər asanlıqla tanınmırlar və yalançı alimlərin adi insanları aldatmaq ehtimalı daim mövcuddur. Həmçinin, həqiqi mütəxəssis alimlərin öz tədqiqat hövzələrində səhvə düçar olması və öz tərəfdarlarını da həmin səhvə düçar etmələri mümkündür. Buradan yalançı alimlərin toruna düşən insanların səhvlərinin çoxluğu da hamıya bəllidir.

Üçüncü səhv: O zaman baş verir ki, biz müəyyən bir sahədə alim, tədqiqatçı, məharət sahibi və qabaqcıl olan şəxsi bütün sahələrdə bu xüsusiyyətə malik hesab edək və ona təqlid edək. Yaxud müəyyən bir sahədə mütəxəssis olmayan şəxsi heç bir sahədə alim və mütəxəssis hesab etməyək. Bir çox hallarda müşahidə olunur ki, bəzi şəxslər ictimai və siyasi məsələlərdə ingilis filosofu, məntiqçisi və riyaziyyatçısı Bertrand Rassel, ya fəlsəfə və kəlam sahəsində Eynşteyn, Maks Plank və Ervin Şrodinger kimi fiziklərə, həmçinin dini və əxlaqi məsələlərdə fransız bioloqu Aleksis Karla, yaxud İslam və ərəb mədəniyyəti və sivilizasiyası sahəsində fransız ictimai psixoloqu və sosioloqu Qustav Lebona təqlid edirlər, halbuki, onlar müəyyən tədqiqat sahələrində inkar-edilməz elm və məharətə sahib olduqları halda, digər sahələrdə onların rəyini gözübağlı surətdə qəbul etmək olmaz. Bəzi gənclər müəyyən bir insanın elmi və ya mənəvi məqamına vurulur və nəticədə, hətta paltar geyimi, danışıq, baxış və bu kimi məsələlərdə də ona təqlid edirlər. Xatırlatmaq lazımdır ki, bu üç mərhələnin hər birində təqlidçinin səhvə düçar olması onu əqidə və əməl sahəsində əyri rollara yönəldir. Qurani-kərim bir çox insanları cəmiyyətdə nüfuzlu şəxsiyyətlərin təqlidçisi adlandırır. «Əhzab» surəsinin 67-ci ayəsində Cəhənnəmə gedən kafirlərin dilindən belə nəql olunmuşdur:

«Ey Rəbbimiz, biz öz ağalarımıza və böyüklərimizə itaət etdik, onlarsa bizi (düz) yoldan azdırdılar.»

Təqliddən olan ayələr belə bir ictimai, psixoloji gerçəkliyi göstərirlər ki, hər bir cəmiyyətdə adətən elə bir şəxslərə təqlid edilir ki, həmin cəmiyyətin dəyərlər sisteminə və mədəniyyətinə müvafiq olaraq onlar «müvəffəq» insanlar hesab edilir və yüksək ictimai mövqeyə malik olurlar. Elə həmin şəxslər də adətən, cəmiyyətin digər fərdlərinin düz yoldan azmasına səbəb olurlar.

Təqlidin bir sıra ziyanları və problemləri olduğunu təqlidçi üçün çox zərər-ziyanlar törətdiyini müşahidə etdikdən sonra, burada mühüm bir sual meydana çıxır: Biz təqlidin problemlərini necə aradan qaldırmalı və onun

ictimai və fərdi ziyanlarını necə azaltmalıyıq? Hər bir ictimai islahatçı üçün əhəmiyyət daşıyan bu məsələ bir neçə tərbiyəvi üsullarla həll oluna bilər.

Problemi əsaslı həll etmək üçün insanlarda təfəkkür və düşüncə qüvvəsini gücləndirmək lazımdır ki, insanın kamal həddini pul və sərvətdə, elm və sənayedə və ictimai qüdrətin digər növlərində görməsinlər, bu sahələrin hər birində müvəffəqiyyət qazanmış bir şəxsi fərdi və ictimai rəftar baxımından mütləq eyibsiz saymasınlar. İnsanlarda təfəkkür qüvvəsinin çoxalması səbəb olacaqdır ki, onlar ata-analarını öz həyatlarının bütün mərhələlərində və cəhətlərində təqlid obyekti hesab etməsinlər. Çünki ata-ananın xeyirxahlığı onların təfəkkür qüvvəsinin güclülüyünə dəlalət etmir. Həqiqəti heç bir şeyə və heç kəsə qurban vermək olmaz. Hətta başqaları ilə dostluq münasibətləri yaratmaq və insanlarla sülh şəraitində yaşamaq üçün belə haqdan əl çəkməməliyik. Müəyyən bir rəyin və əqidənin tərəfdarlarının çoxluğu da həmin əqidənin haqq olmasını göstərmir.

Bu məsələ barədə dərindən düşünmək səbəb olacaqdır ki, cəmiyyətdə insanların bir çoxunun əqidə və əməl baxımından idealına çevrilən bir çoxları bu məqamda yerə ensinlər və səlahiyyətli insanlar bu yeri tutsunlar. İnsanın ruhunda və zehnində hakim olmuş fasiq və batil xəyallar, əsassız fikirlər aradan getsə, həmin şəxs düzgün idealları yalançılardan ayıracaq. Beləliklə, insanların əqidə və əməlinin düzgün müəllimləri və idealları tanınacaqlar. Aydın məsələdir ki, bəşər cəmiyyətinin həqiqi mənəviyyat müəllimləri səlahiyyətli insanlar olsalar, insanları düzgün yola yönəldəcəklər.

Lakin bu üslub uzun zaman və çoxsaylı təbliğatçılar tələb edir. Xüsusilə, əhalisinin çox hissəsi təfəkkür qüvvəsi baxımından zəif olan cəmiyyətlərdə bu proses daha zəif şəkildə həyata keçəcəkdir. Bu baxımdan, problemin həlli üçün daha asan və tez nəticə verən üslublar axtarmalıyıq. Bu metodlarda insanların ictimai və psixoloji xüsusiyyətlərindən misal üçün, onların adət ənənələrindən və emosiyalarından cəmiyyətin islahı yolunda dəqiq istifadə olunmalıdır. Belə düşünülməməlidir ki, insanları düzgün yola (həqiqət yoluna) hidayət etmək üçün yeganə yol fəlsəfə və məntiq yoludur. Bu yolda onların ictimai və psixoloji xüsusiyyətlərindən düzgün şəkildə faydalanmalıyıq. Psixoloji metodların insanların şəxsiyyətinin formalaşmasındakı təsiri quru və fəlsəfi dəlillərin təsirindən daha çoxdur. Çünki insanların çox hissəsi rasional sübutları dərk etməkdən acizdirlər. Hətta onların bəzisi rasional hökmləri və dəlilləri düşünsələr də ona itaət

etmirlər. Yalnız agah şüurlu, ağıllı və azad düşüncəli insanlardır ki, öz əqllərinin hökmünə inanırlar.

İslam Peyğəmbəri öz mühüm peyğəmbərlik vəzifəsinə nail olduğu zaman ərəb cəmiyyəti dörd dəstədən ibarət idi:

1. Həniflər. O həzrətin ata-babaları da bu dəstədən hesab olunurdular. Onlar özlərini İbrahim peyğəmbərin dininin ardıcılları hesab edirdilər;

2. Yəhudilər;

3. Nəsranilər;

4. Bütə sitayiş edən müşriklər.

Bu dörd dəstənin ən mühüm ortaq cəhəti onda idi ki, onların hamısı İbrahim peyğəmbərə mənsub idilər. İslam Peyğəmbəri ilahi vəhy, təlim və ilhama əsasən, bu mühüm ortaq cəhətə təkid etdi və özünün təbliğatını genişləndirmək üçün xeyli istifadə etdi və yararlandı. Quranda səkkiz dəfə «İbrahim milləti» ifadəsinin işlənməsinin səbəbi də məhz budur. Bu insanların emosiyalarından düzgün şəkildə istifadə etməyin bir nümunəsidir. Əlbəttə, şübhə yoxdur ki, düzgün olmayan insanların hissləri və emosiyaları ilə mübarizə aparılmalıdır.

Həmin zamanlarda da Kəbə, Məscidül-Haram, Səfa və Mərvə böyük hörmətə və müqəddəsliyə malik idilər. Müqəddəs İslam dini də onlara hörmətlə yanaşmaqla İslam dinin güclənməsi üçün zəmin yarandı: Misal üçün «Bəqərə» surəsinin 158-ci ayəsində Allah-Təala buyurur:

«Həqiqətən, Səfa və Mərvə (dağları) Allahın (dininin və Ona sitayişin) əlamət və nişanələrindəndir.» Bütövlükdə, İslam dinində ilahi və dini nişanə adlanan bütün həqiqətlər, onların insanlardakı təsirinə görədir. «Həcc» surəsinin 32-ci ayəsində oxuyuruq:

«Kim Allahın nişanələrinə ehtiram göstərsə, şübhəsiz, bu, qəlblərdəki təqvadan hasil olur.»

İlahi nişanələrə hörmətlə yanaşmaq insan ruhunda dərin iz buraxır. Və bu kollektiv təbliğdən istifadə etmək bir çox fərdi təbliğlərdən daha təsirli olur. İnsanların həmin ilahi və dini nişanələrə qarşı yönəlməsi nə qədər çox olsa, ictimai islahatçı onlardan öz müqəddəs məqsədi üçün daha çox yararlana bilər.

İctimai psixologiyada qəbul edilən gerçəkliklərdən biri budur ki, cəmiyyətdə universal və kollektiv xarakterli bütün gerçəkliklər, istər haqq olsun, istərsə də batil, insanların zehinlərində dərin və böyük təsirə malik olurlar. Öz atasından, anasından qardaş və bacılarından, qohum-

əqrəbasından, dostlarından, müəllimlərindən, sinif yoldaşlarından və həmkarlarından bir söz eşidən şəxs həmin sözə elə dərin etiqad bəsləyir ki, onun səhv olmasına ehtimal belə vermir. Xüsusilə həmin söz kütləvi informasiya vasitələrilə təkrar olunmaqla təsdiq olunsa, ictimai şüur formasını alsa, bir sözlə, nəzəri və elmi məsələlər insanlar arasında nə qədər çox yayılsa, bir o qədər onların ruhunda təsir bağışlayır.

Nəticə alırıq ki, cəmiyyətin əhalisinin çox hissəsi öz əqidə və əməllərində müstəqil olmadıqları və başqalarına təqlid etdikləri üçün insanlarda olan bu xüsusiyyətdən istifadə etməliyik. Yəni onların təqlidini düzgün yola yönəltməli və burada doğru və sədaqətli nümunələri tanıtmalıyıq. Məhz buna görədir ki, insanlara düzgün nümunələri tanıtdırmaq, yanlış fikirli insanlarla mübarizə aparmaq, cəmiyyətdə mənfi fikir və mədəniyyət baxımından bütə çevrilmiş insanları rüsvay etmək və düzgün nümunələrə tabe olmağa təkid etmək Qurani-kərimin mühüm tərbiyə metodlarındandır. Misal üçün, İbrahim əleyhissalam və onun tərəfdarları Quranda düzgün nümunələr kimi təqdim olunmuşlar:

«Şübhəsiz, İbrahimin və onunla birlikdə olanların rəftarlarında sizin üçün gözəl bir örnək vardır.»[45] «Mumtəhinə» surəsinin 6-cı ayəsində isə oxuyuruq:

«Əlbəttə, sizin üçün Allaha və Axirət gününə ümid bəsləyənlərə onların rəftarında gözəl bir örnək vardır.»

Həmçinin Qurani-kərimdə İslam peyğəmbəri həzrəti Məhəmməd gözəl və nümunəvi insan kimi təqdim olunmuşdur:

«Şübhəsiz, Allaha və Axirət gününə ümid bəsləyən və Allahı çox zikr edənlər üçün Allah rəsulunun rəftarında həyat örnəyi və nümunəsi vardır.»

Qurani-kərimdə, habelə peyğəmbərlərdən başqa digər mömin və saleh insanlar da yad olunur və onların nümunəvi insan olmaları xatırlanır. Misal üçün, «Tövbə» surəsinin 100-cü ayəsində oxuyuruq: «Allah mühacirlərin və ənsarın ilk qabaqcıllarından və yaxşılıqla onlara tabe olanlardan razıdır və onlar da Allahdan razıdırlar.»

Quranda həmçinin bəzi ayələrdə Peyğəmbərdən keçmiş peyğəmbərlərə tabe olması və iqtida etməsi tələb olunur:

«Onlar (peyğəmbərlər) Allahın hidayət etdiyi kəslərdir. Belə isə, onların hidayətinə, (yol və üslublarına) tabe ol.»[46]

Qurani-kərimdə yüz dəfədən çox başqasına tabe olmaq məsələsi ortaya qoyulmuşdur. Bu isə həmin səma kitabında təqlid məsələsinin nə qədər

əhəmiyyətli olmasının göstəricisidir.

# V FƏSİL

# Fərdin cəmiyyətdə təsiri

# Ön söz

Dördüncü hissədə cəmiyyətin fərdlər üzərində təsirindən danışdıq. Bu hissədə isə fərd və cəmiyyət arasında qarşılıqlı əlaqələrin ikinci hissəsi olan fərdin cəmiyyətə təsiri barədə danışacağıq. İlk öncə fərdin cəmiyyətə təsirinin dörd müxtəlif təfsirini yanlış hesab edərək burada düzgün təsviri təqdim etmişik. Bu təsvir ifrat və təfritə varan iki məşhur nəzəriyyənin arasında orta yol xəttidir. Tarixi qəhrəmancasına təfsir edənlər fərdin cəmiyyətə təsiri haqda ifrata varır və deyirlər ki, bəşər tarixi dahi insanların cəmiyyətdəki təsiri üzərində təfsir olunmalıdır. Əks tərəfdə isə Hegel, Spenser və Marks məktəbinin ənənəvi tərəfdarları ictimai cəbrə təkid edərək fərdi cəmiyyət qarşısında tam təsirsiz hesab edir və bildirirlər ki, hər bir şəxsdə baş verən fərdi əməllər, tarixi qanunlar və yaxud fərdin yaşadığı zaman tələbləri vasitəsilə müəyyənləşir. İnsanı öz işlərində məcbur edən ehtiyaclar müxtəlif mütəfəkkirlər tərəfindən cürbəcür izah olunmuşdur: onlar bəzən həmin ehtiyacları fövqəltəbii, bəzən mədəni, bəzi vaxtlar siyasi və ya iqtisadi adlandırırlar.

Bu hissədə biz daha sonra fərdin cəmiyyətə təsirlərinin müxtəlif növlərini araşdırmışıq və onu beş müxtəlif növə ayırmışıq: qeyri obyektiv sahədəki təsir, sənaye və texnologiya hövzəsindəki təsir, obyektiv elmlər sahəsindəki təsir, obyektiv gerçəkliyə əsaslanan elmlər və dəyərlər sahəsindəki təsir və nəhayət ictimai qüdrətlər zəminindəki təsir.

Dördüncü və beşinci təsir növü daha çox əhəmiyyətə malik olduğu üçün biz onların hər birisini ayrı-ayrılıqda araşdırmışıq. Onlardan biri dəyərlər və dünya görüşündəki təsir, digəri isə qüdrətlilərin təsiri adlanır.

# 1. Fərdin cəmiyyət üzərindəki təsirinin düzgün təsviri

Hər şeydən öncə, fərdin cəmiyyətə bağışladığı təsirin düzgün və rasional təsvirini təqdim etməliyik, bunun üçün burada qeyri obyektiv təsvirlərin rəddində çalışırıq.

1. Cəmiyyətin vəhdətini orqanik hesab edənlər, yəni fərdi cəmiyyətlə müqayisədə, yalnız bir bədən üzvü kimi görənlər fərdin cəmiyyətin hərəkətinə əks istiqamətinə hərəkət etməsini, hətta cəmiyyəti öz təsiri altına salmasını tamamilə inkar edirlər. Şübhəsiz, bədənin müxtəlif üzvləri bir-biri ilə bioloji və funksional fərqlərə malik olsalar da, onlar təbii şəraitdə bir-birinə tam uyğun işləyir və onların bütövlükdə funksiyasının məcmusunda bədənin bütöv məqsədi təmin olunur. Bədəndə, yalnız xəstəlik və qeyri-təbii vəziyyət yarandığı zaman üzvlər bir-biri ilə uyğunlaşa, uzlaşa bilmir və bu da bədəndən xaricdə olan müəyyən bir amilin təsiri nəticəsində baş verir. Orqanizmçilərin fikrincə cəmiyyətdə yaşayan fərdlər saysız cəhətlərdə bir-birindən fərqlənsələr də, onlar adi və təbii şəraitdə bir-biri ilə tam uzlaşır və onların hamısı cəmiyyətin universal məqsədləri uğrunda işləyir və yaşayırlar. Cəmiyyətdən xaricdə olan bir amilin təsiri nəticəsində, yalnız cəmiyyətin bir fərdi digər fərdlərlə həmkarlıq etməkdən boyun qaçıra bilər. Belə bir şəraitdə həmin müxalif şəxs cəmiyyətin ümumi hərəkətinə qarşı çıxa və bu vaxt digər fərdləri də öz tərəfinə çəkə bilər. Lakin hər halda, belə bir halları, qeyri adi hallar adlandırmalıyıq. Təbii şəraitdə isə heç bir şəxs cəmiyyətin ümumi hərəkətindən boyun qaçıra bilməz. Başqa təbirlə desək, cəmiyyəti kollektiv ruha malik hesab edən mütəfəkkirlərin fikrincə, fərdlər təbii və adi vəziyyətdə cəmiyyətin kollektiv mahiyyəti ilə təzadlı mövqedə dayanmırlar. Çünki fərd vahid cəmiyyət ruhundan ilham alır və həmin ruhun hökmünə əsasən, öz fəaliyyətlərini tənzimləyir. Lakin istisna

hallarında, yəni xarici amilin təsiri nəticəsində fərdin kollektiv cəmiyyət ruhuna əks istiqamətdə hərəkət etməsi mümkündür.

Öncə bildirdiyimiz kimi, orqanizm ideyası yəni cəmiyyəti kollektiv ruha sahib bilmək bizim tərəfimizdən məqbul sayılmır. Bu həm də müasir sosioloqlar tərəfindən rədd edilir. Çünki fərdlər və ictimai qruplar cəmiyyət qarşısında az-çox müstəqillik xüsusiyyətindən bəhrələnmişlər. Burada müzakirə həmin müstəqilliyin kəmiyyəti, keyfiyyəti və fərdin, ya ictimai qrupların cəmiyyətdə təsir hüdudları haqdadır.

2. Göründüyü kimi, fərdin cəmiyyətə təsiri və bu təsirin hüdudları barədə danışmaq, yalnız fərdləri cəmiyyətin təsir dairəsindən müstəqil hesab edən mütəfəkkirlər üçün mənalıdır. Müasir mütəfəkkir sosioloqların demək olar ki, hamısı bu əqidənin daşıyıcılardırlar. Müasir dövrdə heç bir sosioloq bu məsələni inkar etmir ki, cəmiyyəti onun fərdləri düzəldir. Lakin burada bir həqiqəti xatırlatmaq lazımdır. Kollektivistlər və orqanizistlərlə müxalif olan mütəfəkkirlərin bəziləri də ifrata varmışlar. Onların fikrincə, cəmiyyət və tarix nəinki fərdləri, fərdlər cəmiyyət və tarixi formalaşdırır. Şübhəsiz, burada, yalnız cəmiyyətin və tarixin nüfuzlu, əhəmiyyətli, dahi və qəhrəman şəxsiyyətlərindən söhbət gedir. Cəmiyyət və tarix dahi şəxsiyyətlər əlində sənətçilərin əlindəki xam maddəyə bənzəyir. Onlar cəmiyyət və tarixi istədikləri formaya salır və ideal təsvir yaratmağa çalışırlar. Deməli, dahi şəxsiyyətlərdən başqa tarixdə heç bir amil təsir bağışlaya bilməz. Şotlandiyalı tarixçi və ədəbiyyatçı Tomas Karlayn tarixi qəhrəmanlarla təfsir etmək ideyasının banisidir. Müasir amerikalı filosof və psixoloq Vilyam Ceyms bu nəzəriyyəni müdafiə etsə də, bunu müəyyən qədər mötədilləşdirdi. Karlayndan sonra tarixi qəhrəmanların işləri üzərində təfsir etmək ideyasının ən ifratçı tərəfdarı müasir amerikalı tarixçi Frederik Adams Vuddur. Bu nəzəriyyənin digər tərəfdarları da bütövlükdə hesab edirlər ki, tarixdə baş verən ictimai dəyişkənliklərin hamısı dahi şəxsiyyətlər tərəfindən həyata keçmişdir. Bəşər mədəniyyəti və sivilizasiyasının bütün aspektlərində müşahidə etdiyimiz böyük dəyişkənliklər bir neçə dahi şəxsiyyətin səyinin nəticəsidir. Cəmiyyətdə yaşayan digər fərdlər isə bu dəyişkənlikdə heç bir təsirə malik deyildirlər.

Bizim əqidəmizə görə, bu nəzəriyyə sübuta yetə bilməz və onun daşıyıcıları ifrata varmışlar. Çünki tarixdə və cəmiyyətdə qəhrəman və dahi insanların kim olması dəqiq bəlli deyil. Burada həmin qəhrəman insanların tanınması üçün müəyyən meyar olmalıdır. Bu nəzəriyyənin daşıyıcıları isə

onu təqdim etməmişlər. Bundan əlavə, fərdin cəmiyyət və tarixdəki rolunu həddindən artıq görən və tarixdə qəhrəmanların əhəmiyyətini göstərən mütəfəkkirlər həmin qəhrəmanların cəmiyyətdə gerçəkliyini sübut etməklə kifayətlənə bilməzlər. Bunlar həmin şəxsiyyətlərin fəaliyyət etdiyi sahələrdə qəti, inkaredilməz və qeyri-adi təsirə malik olduqlarını sübut etməlidirlər. Bundan əlavə, onlar sübut etməlidirlər ki, həmin dahi şəxsiyyətlər olmasaydı, onların işləri başqaları tərəfindən həyata keçə bilməzdi. Lakin bilmək lazımdır ki, həmin qəhrəmanların cəmiyyət və tarixdə qəti və inkaredilməz təsiri habelə onların tarixdə əvəzolunmaz rolu indiyə qədər sübuta yetməmiş və bütövlükdə sübut oluna da bilməz.

Qeyd edək ki, ümumi kütlənin cəmiyyət və tarixdə rolunu nəzərə almamaq və dahi şəxsiyyətləri ictimai və tarixi proseslərdə qeyri-adi təsirə malik hesab etmək həqiqətdən kənardır. Cəmiyyətdə baş verən bütün cərəyanların, dəyişkənliklərin, ictimai və tarixi islahatların baniləri təkcə dahilər deyil, burada digərlərinin də rolunu inkar etmək olmaz. Yəni başqaları təkcə həmin dahilərin təlimlərini öyrənmək və onların fikirlərini yaymaqla kifayətlənmirlər. Şübhəsiz, dahi şəxsiyyətlərin tarixdə bəzi məqamlardakı rolunu inkar etmək olmaz. Lakin xatırlatmaq lazımdır ki, hər bir fərd yaşadığı cəmiyyətlə qarşılıqlı təsir mexanizminə malikdir. Yəni təkcə dahi şəxsiyyətlər deyil, bütün insanlar yaşadıqları cəmiyyətlə qarşılıqlı münasibət yaradır və cəmiyyətin dəyişkənliyinə səbəb də məhz bu qarşılıqlı münasibətlərdir. Bir sözlə, adi insanlar cansız materiya kimi qəhrəmanlar tərəfindən hərəkətə gəlmirlər. Deməli, fərdin cəmiyyətdəki təsirini belə təsvir etmək düzgün deyil.

3. Fərdin cəmiyyət üzərindəki təsirinin üçüncü təsviri həm kollektivistlər, həm də individualistlər tərəfindən qəbul oluna bilər. Bu təsvirdə bildirilir: Hər bir cəmiyyətdə baş verən dəyişkənliklər həmin cəmiyyətdə yaşayan bütün fərdlərlə bağlıdır. Hər bir fərd öz növbəsində bu dəyişkənliyin yaranmasında təsirlidir. Əgər, neçə nəfər bir-birinin köməyi ilə ağır bir şeyi götürsə, burada həmin şeyin hərəkət etməsinin səbəbi bir neçə nəfərin qüvvəsinin məcmusudur. Cəmiyyətdə baş verən proseslər də həmin cəmiyyətin fərdlərinin məcmusunun təsiri nəticəsində baş verir.

Fərdin cəmiyyətə təsirini cəmiyyətin bütün fərdlərinin ictimai işlərdə iştirak etməsi kimi qiymətləndirsək, bu tamamilə danılmaz bir həqiqətdir və bu hazırda bizim müzakirə mövzumuzdan xaricdir.

4. Dördüncü təsvirdə deyilir: Fərdin cəmiyyətə təsiri odur ki, hər bir insan özünəməxsus məqsədlərə və ictimai təsirə malikdir. Bu, başqalarının məqsədləri və təsirləri ilə tam fərqlənir. Fərdlərin bu təsadüfi təsirləri bir-birinə inteqrasiya olunur və onların məcmusunun təsiri cəmiyyətdə təzahür edir. Başqa sözlə, cəmiyyətin fərdlərinin hər biri cəmiyyətin müəyyən bir istiqamətə doğru hərəkət etməsini tələb edir. Lakin bu vaxt həmin fərd öz istəklərini cəmiyyətin digər fərdlərinin istəkləri ilə fərqli görür. Yəni başqa insanlar da cəmiyyətin öz istəklərinə uyğun hərəkət etməsini tələb edirlər. Tələblərin toqquşduğu vaxt isə cəmiyyət həmin tələblərin məcmusunu alır və toplumun istədiyi istiqamətə doğru hərəkət etməyə başlayır. Deməli, cəmiyyət fərdlərdən təsirləndiyi halda, elə bir istiqamətə doğru hərəkət edir ki, fərdlərin ayrı-ayrılıqda tələbinə uyğun deyil.

Bu, reallıqla uzlaşmayan bir fərziyyədir. Çünki cəmiyyətdə hər bir fərdin istəyi başqalarının istəyi ilə həmişə zidd deyil və burada müəyyən ortaqlıq tapmaq mümkündür. Şübhəsiz, bəzən cəmiyyətdə yaşayan insanlar və yaxud ictimai qruplar arasında bəzi ziddiyyətli məqamlar müşahidə olunur. Lakin bütün bunlar nəinki ümumi xarakter daşımır, hətta əksər hallarda da baş vermir. İctimai həyatın bir çox problemlərinin fərdlərin həmkarlığı nəticəsində öz həllini tapması onu göstərir ki, çox hallarda müxtəlif ictimai qrupların istiqaməti eynidir. Bunun çox sadə misalı cinsi məsələlərdə müşahidə olunur. Burada qadın kişidən tələb etdiyini kişi də qadından tələb edir. Bu vaxt məqsədlərin və mənafenin eyni istiqamətdə olması ailə quruluşunun təsis olunması və möhkəmlənməsinə səbəb olur. Bir sözlə, ictimai həyatda ziddiyyət hakim deyil. Buna görə, cəmiyyətin hərəkəti fərdlərin çox hissəsinin tələblərinə uyğun olan istiqamətdə formalaşa bilər.

Fərdin cəmiyyət üzərində təsirinin düzgün təsviri budur ki, cəmiyyətin azlıq təşkil edən bəzi üzvləri müəyyən spesifik xüsusiyyətlərə malik olduqları üçün cəmiyyətin çoxluq təşkil edən digər fərdləri üzərində təsir bağışlayır və onların həyatlarında dəyişkənlik yaradırlar. Başqa sözlə, bəzi insanlar olmasaydı, cəmiyyət başqa istiqamətdə hərəkət edər və fərqli vəziyyətdə yaşayardı. Deməli, cəmiyyətin hazırkı vəziyyəti və istiqamətinin həmin şəxslərin təsiri nəticəsində formalaşmasını vurğulamalıyıq. Şübhəsiz, cəmiyyətin bütün fərdləri belə təsir qabiliyyətinə malik deyildirlər. Çünki cəmiyyətdə yaşayan bütün insanların oranın vəziyyətini dəyişdirməyə qadir olduğunu fərz etsək, bu, cəmiyyətin fərdlərdən müstəqil obyektiv reallığa malik olması ilə nəticələnəcək. Bu isə qəbulolunmazdır.

# 2. Fərdin cəmiyyət üzərində təsirinin növləri

Fərdlərin cəmiyyətlərdə təsiri beş növə bölünə bilər:

1. Qeyri-obyektiv sahələrdəki təsir. Bəzi insanlar bir sıra adət-ənənələrdə, habelə ədəbiyyat, incəsənət kimi estetik dəyərlər sahəsində bəzi yeniliklər yaradırlar ki, sonralar başqa insanlar tərəfindən bəyənilir və təqlid olunur. Onların cəmiyyətdə yayılması isə bir sıra təsirlərə səbəb olur. Modelyerlər, şairlər, yazıçılar, xəttatlar, rəssamlar, musiqiçilər, aktyorlar və rejissorları belə insanlardan hesab etmək olar. Onlar fəaliyyət göstərdikləri sahələrdə etik baxımdan yaxşı və ya pis olan bir çox təsirlər bağışlaya bilirlər.

2. Elm, sənaye və texnologiya sahəsindəki təsir. Bəzi şəxslər insan həyatında zəruri və ya faydalı olan məişət əşyalarını ixtira etmək və ya onları təkmilləşdirməklə cəmiyyətdə təsir mexanizminə çevrilirlər. Xatırlatmaq lazımdır ki, məişət cihazlarını ixtira etmək və ya onları təkmilləşdirmək təbiətin sirlərini kəşf etməkdən asılıdır. Bu səbəbdən, sənaye, ixtira və texnologiya sahəsi bilavasitə alimlərin və tədqiqatçıların kəşfləri ilə bağlıdır. Lakin təbii qanunları kəşf etmək və onları həyata keçirtmək bir-biri ilə fərqləndiyi üçün, ixtiraçıları və sənaye adamlarını cəmiyyətdə təsir baxımından alim və tədqiqatçılardan ayırmalıyıq. Xüsusilə də bəzən ən böyük elmi kəşflərlə, sənaye və texnologiya nailiyyətləri arasında obyektiv və elmi əlaqənin göstərilməsi çox çətindir. Misal üçün, Eynşteynin nisbiyyət nəzəriyyəsi müasir sənaye və texnologiya ilə hansı münasibət yaratmışdır? Yəni bir çox alimlər və tədqiqatçıların elmi nəzəriyyələri heç bir texnologiya və sənaye nailiyyəti ilə nəticələnməmişdir.

3. Obyektiv elm və maarif hövzəsindəki təsir. Təbii və təcrübi elmlərdəki tədqiqatçılar, riyaziyyatçılar, məntiqçilər, filosoflar, ariflər və bu kimi bir sıra şəxsiyyətlər obyektiv reallıqları kəşf etməklə cəmiyyətdə təsir

bağışlaya bilirlər. Bu alimlər başqalarının bilmədiklərini kəşf edir və insanlara öyrədirlər. Bu isə əhəmiyyətsiz iş deyildir.

4. Obyektiv reallıqdan qaynaqlanan qanunlar sahəsindəki təsir (dini, etik və hüquqi dəyərlər kimi). Peyğəmbərlərin, din və məzhəb alimlərinin, habelə əxlaq və hüquq filosoflarının cəmiyyətdəki təsirləri bu qəbildəndir. Onlar obyektiv reallığa əsaslanan dəyərləri insanlara təqdim edir, onları öz fərdi, ictimai, maddi və mənəvi həyatlarını həmin dəyərlərlə uzlaşdırmağa dəvət edirlər. Biz hesab edirik ki, dini, əxlaqi və hüquqi dəyərlər insanların fərdi üslubları ilə formalaşmır. Bütün bunlar obyektiv gerçəkliyə əsaslanır. Deməli, təsirin bu növü obyektiv elmlər sahəsindəki təsirlə əsaslı fərqlənmir. Burada bu iki təsiri bir-birindən ayırmaq isə ona görədir ki, mütəfəkkirlər həmin dəyərlərin obyektiv olub-olmaması haqda fərqli düşünürlər. Həmçinin, bu dəyərlər hövzəsində təqlid obyektiv elmlər sahəsindən daha çox baş verir.

5. İctimai qüdrətlər zəminindəki təsir. İctimai qüdrətlər də müxtəlif növlərə ayrılırlar. O cümlədən, siyasi qüdrət, hərbi və silah qüdrəti, iqtisadi qüdrət və təbliğat qüdrəti. Lakin siyasi qüdrəti ələ keçirənlər tədricən digər qüdrətlərə də malik olduqları üçün, ictimai qüdrətin ən əsaslı və əhəmiyyətli növü də məhz siyasi qüdrətdir. Bu səbəbdən, biz burada, yalnız ictimai qüdrətin bu növünü araşdıracağıq. Siyasi qüdrət də müxtəlif aspektlərdən fərqli təsnifat qəbul edir. Misal üçün, siyasi qüdrət ənənəvi ola bilər. Yəni insanlar ənənəvi olaraq bəzilərinin hakimiyyətinə hörmətlə yanaşa bilərlər. Bəzən isə siyasi qüdrət qeyri-ənənəvi olub insanların ya razılığına, ya da onların hakimiyyətdən qorxmasına əsaslana bilər. İnsanların razılığına əsaslanan qüdrətin ən ideal nümunəsi inqilabi qüdrətdir. Yəni müəyyən əqidə və ya proqram əsasında birləşən böyük bir dəstə cəmiyyətdə ictimai dəyişkənlik yaratmağa çalışır və bunu həyata keçirir. Bu vaxt cəmiyyətin böyük bir hissəsi onları himayə edir. Xalqın hakimiyyətdən qorxmasından istifadə edən və ona arxalanan qüdrətin ən uyğun nümunəsi isə qəzəbdən doğan qüdrətdir. Bu qüdrət azlıq təşkil edən fərdlərin diktatorluğu ilə yaranır və onlar insanları qorxudaraq özlərinə təslim edirlər. Yəni burada cəmiyyətdə yaşayan fərdlərin fəal həmkarlığı yox, yalnız onların hakimiyyət qarşısında təslim olması əsas məqsədə çevrilir. Qəzəbdən doğan qüdrət adətən hərbi qüdrətdir. Belə bir qüdrət ya daxili diktatorluğun, ya da xarici qüvvələrin təsiri nəticəsində formalaşa bilər. Siyasi qüdrətin bütün növlərində mövcud olan xüsusiyyətlər aşağıdakılardır:

1) Bütün siyasi qüdrətlərdə az-çox vadar edilmə və məcburiyyət vardır.

2) Siyasi qüdrət sahibləri tamamilə dərk edirlər ki, insanları, yalnız işgəncə yolu ilə təslim edə bilməzlər. Bu səbəbdən, siyasi hakimiyyətdəki məcburiyyəti obyektiv məcburiyyət (cəbr) deyil, «ikrah» adlandırmalıyıq.

3) Siyasi qüdrətə malik olan insanlar üç əsas yolla insanları öz təsiri altında saxlayırlar:

a) İnsanları öldürmək və onlara işgəncə vermək kimi vasitələrlə.

b) Onlarda maraq yaratmaq məqsədi ilə iqtisadi baxımdan mükafatlandırmaq və ya cəzalandırmaq. Misal üçün, hakimiyyət dairəsi bəzilərini işsizləşdirir, bəzilərinə isə iş yerləri yaradır;

v) İnsanların əqidəsində nüfuz etməklə. Yəni ən universal formada təbliğat etməklə.

Siyasi qüdrət əldə etmək istəyən hər bir insan kifayət qədər ictimai mövqeyə və şəxsiyyətə malik olmadığı halda və insanlar tərəfindən himayə edilmədiyi şəraitdə, ilk öncə öz dostlarından və yaxınlarından olan bir qrup şəxsi özünə tərəf çəkir. Mövqeyi möhkəmləndikdən sonra isə öz partiyasına mənsub olan insanları silahlandıraraq camaatı hədələməyə başlayır və onları öz məqsədinə doğru hərəkət etməyə məcbur edir. Deməli, siyasi qüdrət dalınca olan insan özü birbaşa insanları ələ keçirmək üçün çalışmır. O bu işi özünün tərəfdarları vasitəsilə həyata keçirir və beləliklə, hakimiyyət və siyasi qüdrət əldə edir.

Fərdlərin cəmiyyətlərdəki müxtəlif təsir növlərini nəzərə aldıqda, məlum olur ki, fərdin cəmiyyətə təsir etmə mexanizmi inkaredilməz bir gerçəklikdir. Misal üçün, aydın məsələdir ki, bəşər tarixində əldə edilən bütün ixtiraların hər hansı biri, yalnız bir nəfərin işlərinin, tədqiqatlarının və təcrübələrinin nəticəsidir. Bununla belə, danılmaz faktdır ki, bu ixtiraların hər biri insanların məişət həyatının simasını tamamilə dəyişdirmişdir. Habelə, insanların fikri, mədəni və mənəvi həyatını dəyişdirən hüquqi, əxlaqi, kəlamı, fəlsəfi və irfani nəzəriyyələrin hər biri, yalnız bir şəxsin zehninin məhsuludur. Hərçənd, elmi nəzəriyyələr ilk dəfə zühur edərkən, hətta bəzi vaxtlar onları irəli sürən alim və tədqiqatçılar ömürlərinin sonuna qədər təsirli görünmürlər. Lakin bu o demək deyil ki, onlar tamamilə təsirsiz olacaqlar. Bir çox hallarda öz zamanında nailiyyət qazanmayan bir əqidə sonrakı dövrlərdə yeni həyat qazanmış, hətta müəyyən bir ictimai qüdrətin qarşısını almaq üçün vasitə kimi istifadə olunmuşdur.

Fərdin cəmiyyətdəki təsirini təsdiq edən tarixi və təcrübi qərinələrdən, kontekstlərdən başqa, burada Kitab və sünnədən istifadə olunmuş bir çox sübutlar və dəlillər də mövcuddur. Quran ayələrində və hədislərdə bütün bəşər cəmiyyətlərinə müsbət təsir bağışlamış ilahi peyğəmbərlərdən danışılır. Xüsusilə də ilk insan həmin peyğəmbərlərdən biri olmuşdur. Habelə, bu ayələrdə bildirilir ki, tarixin bütün cəmiyyətləri və ümmətlərində ilahi peyğəmbər olmuşdur, (müraciət edin: «Yunus» surəsi, ayə: 47; «Nəhl» surəsi, ayə: 36; «Fatir» surəsi, ayə: 24; «Rəd» surəsi, ayə: 7). Həmin ayə və hədislərdə insanlar arasında mənfi təsirə malik olan bir sıra zülmkar şəxslərdən söhbət açılmışdır. Musa peyğəmbərin zamanında yaşamış Firon həmin şəxslərdən biri olmuşdur. Deməli, Quran ayələri və hədislər baxımından, tarixdə bəzi insanlar müsbət təsirin mənşəyi, bəziləri isə mənfi əsərlərin istinad edildiyi şəxslər olmuşlar. Məhz buna görədir ki, Qurani-kərim baxımından ictimai rəhbərlər və liderlər iki qismə bölünürlər: Hidayət imamları və əyri yol qabaqcılları. Bunların hər biri həm dünyada, həm də Axirətdə öz tərəfdarları üzərində təsir qabiliyyətinə malikdirlər ki, onlara tabe olan insanların fərdi və ictimai həyatındakı təsirinin nə qədər dərin olmasını göstərir.

«(Yada sal) o günü ki, insanların hər bir dəstəsini (tabe olduqları) öz imamı və səma kitabları ilə çağıracağıq.»[47]

«O (Firon), Qiyamət günü öz qövmünün qabağında gedəcək, beləliklə də onları (Cəhənnəm) oduna daxil edəcəkdir. Və onların düşəcəkləri yer necə də pisdir! Burada (bu dünyada) və Qiyamət günündə onların arxasınca bir lənət göndərilmişdir. Onlara verilən (həmin lənət) necə də pis bir bəxşişdir!»[48]

Fərdlərin cəmiyyətlərdəki təsir növlərinin son iki növü, yəni peyğəmbərlərin, din və məzhəb alimlərinin, əxlaq və hüquq filosoflarının, habelə cəmiyyətdəki qüdrətli insanların təsiri daha çox əhəmiyyətə malikdir. Bu əhəmiyyətin iki səbəbi vardır: birinci səbəb ondan ibarətdir ki, peyğəmbərlərin, din və məzhəb alimlərinin əxlaqi, hüquqi sahədə çalışan filosofların və yaxud qüdrətlilərin təsirinə düşən insanların sayı modelyerlərin, ədəbiyyatçıların, incəsənət adamlarının, sənaye işçilərinin, ixtiraçıların və ya təbii və təcrübi elmlərdəki tədqiqatçıların, riyaziyyatçıların, məntiqçilərin və bu kimi şəxslərin təsirinə düşən insanların sayından daha çoxdur. İkinci səbəb isə odur ki, təsir növlərinin birinci, ikinci və üçüncüsü insan həyatının bir və ya iki aspektinə aiddir.

Halbuki, son iki təsir növü həyatın bütün cəhətlərini əhatə edir, və demək olar ki, bir-iki cəhətdə məhdudlaşmır. Cəmiyyətdə siyasət, mədəni məsələlər, məhkəmə məsələləri, beynəlxalq məsələlər, mənəvi və əxlaqi dəyərlər, iqtisadiyyat, hərbi məsələlər, təlim və tərbiyə, müharibə və sülh, təbliğat və bu kimi sahələrdə baş verən fundamental dəyişkənliklər ictimai qüdrət sahiblərindən, habelə cəmiyyətin mədəniyyətini və dəyərlər sistemini formalaşdıran mütəfəkkirlərdən təsirlənir. Biz zərrə qədər elm, sənaye, texnologiya və ixtiraların insan həyatındakı təsirini inkar etmirik. Lakin unutmayaq ki, elm, sənaye və texnologiya cəmiyyətin ictimai siyasətini müəyyənləşdirə bilmir. Əksinə, bütün bunlar ictimai siyasətin icrasında bir vasitədir. Hərbi sənaye sahəsində tank və təyyarə böyük inqilaba səbəb oldular. Lakin tank və təyyarəni böyük və ya kiçik müharibələrin əsas səbəbi kimi göstərmək tam ağılsızlıqdır. Kimlə müharibə etmək, kimlə sülh yaratmaq və sair, cəmiyyətin dəyərlər sistemini formalaşdıran şəxslər və qüdrət sahibləri tərəfindən təyin edilir. Müasir dövrdə təbii və fiziki qanunların hərbi sənaye xidmətində olması, cəmiyyətlərin qüdrət sahiblərinin və mütəfəkkirlərinin düşüncəsinin məhsuludur. Halbuki, həmin qanunlardan və elmi imkanlardan təsərrüfat və nəqliyyat kimi digər sahələrdə ciddi istifadə olunsaydı, həmin sahələrdə böyük inqilaba səbəb olardı. Bir sözlə, fərdlərin cəmiyyətdə əsas təsirlərini bu iki növdə axtarmalıyıq. Buna görə, bu iki təsir növü haqda daha geniş müzakirə aparacağıq.

# 3. Cəmiyyətin dünyagörüşündə və dəyərlər sistemindəki təsir

Hər bir insan cəmiyyətin dünyagörüşünə və dəyərlər sisteminə, başqa təbirlə desək, insanların inancına təsir qoymaqla onların bioloji və heyvani həyatlarını deyil, psixoloji və insani həyatını dəyişdirə bilsə, bu, ən əsaslı və əhəmiyyətli təsir olacaqdır. Peyğəmbərlərin cəmiyyətlərdəki təsiri bu növdəndir. Onların canişin və davamçıları da öz fəaliyyətlərini bu istiqamətə doğru yönəltməlidirlər.

Cəmiyyətdə bu təsir növü belə formalaşır: İctimai islahatçı insanların fərdi və ya ictimai rəftarının əqli və ya şəriət meyarlarına uyğun gəlmədiyini müşahidə edir. Bu vaxt o həmin vəziyyəti dəyişməyə çalışır. İnsanları düzgün rəftara yönəltmək üçün ilk öncə mənfi dəyərlər ifşa edilməli, düzgün və müsbət dəyərlər təbliğ olunmalıdır. Cəmiyyətin dəyərlər sistemini dəyişdirmək, həmin cəmiyyətin ideologiyasını və dünyagörüşünü dəyişdirməkdən asılıdır. Bu səbəbdən, ictimai islahatçı öz məqsədinə nail olmaq üçün öncə insanların ideoloji sistemini dəyişdirməlidir ki, nəticədə cəmiyyətdə dəyərlər sistemi də dəyişkənliyə məruz qalsın. Cəmiyyətdə mövcud olan ideoloji və praktiki fikirləri dəyişdirməyin düzgün və təbii metodu insanların ağılından və şüurundan istifadə etmək və yeni fikirləri rasional müstəvidə sübut etməkdən ibarətdir. İctimai islahatçı fəaliyyətinin ilkin mərhələlərində öz fikirlərini rasional dəlillərlə sübuta yetirməkdən başqa digər qüvvəyə malik deyildir. Deməli, o ilk öncə insanları həmin dəlillərlə qane etməli, sonra cəmiyyətdə düzgün inancları geniş miqyasda yaymalıdır. Lakin bundan öncə bildirdiyimiz kimi insanları rasional dəlillərlə qane etmək bir sıra problemlərlə üzləşir. Çünki bu yolla biz, yalnız azlıq təşkil edən insanları qane edə bilərik. Belədirsə, islahatçı digər metodlardan da istifadə etməlidir ki, cəmiyyət düzgün təlim və tərbiyə almaqla doğru yola yönəlsin.

İslam dini yenicə zühur etmişdi ki, Allah-Təala Öz əziz peyğəmbərinə xitab edir və buyurur:

«Və (əvvəlcə) yaxın qohumlarını qorxut və xəbərdarlıq et.»[49]

Allah-Təala tərəfindən gələn bu fərmanın psixoloji və sosioloji təhlili və izahı belədir: Çox nadir hallarda islahatçı şəxs cəmiyyətdə yaşayan bütün insanlarla birbaşa əlaqə yaradır və onlarda təsir bağışlaya bilir. Bu səbəbdən, o, çarəsiz qalaraq öz təbliğini və dəvətini qohumları, yaxınları, qonşuları və dostları ilə başlayır. Sonra tədricən öz təbliğat dairəsini genişləndirir. İslahatçının ilkin mərhələlərdə təbliğ etdiyi insanlar ağıl və sağlam ruh baxımından nə qədər yüksək səviyyədə olsalar, təbliğ və dəvət bir o qədər müvəffəqiyyət qazanacaq.

İctimai islahatçının istifadə etdiyi digər metodlardan biri cəmiyyətin fərdlərinin və ictimai qruplarının ortaq cəhətlərindən istifadə etməsidir. Bundan öncə bildirdik ki, İslam Peyğəmbəri ilahi təlimə əsaslanaraq yaşadığı cəmiyyətdə bütün ictimai qrupların İbrahim peyğəmbərə mənsub olmasından və onların o həzrətə qarşı dərin hörmətlə yanaşmasından faydalandı. Habelə, İmam Əli və digər məsum imamların kəlamlarında müşahidə olunur ki, onlar öz dinləyicilərinin ərəb olmasını vurğulayır və «məgər siz ərəb deyilsinizmi, sizdə ərəb qeyrəti yoxdurmu!?» kimi ifadələr işlədirdilər. Şübhəsiz, İslam baxımından ərəb olmaq müsbət dəyər sayılmır (hərçənd, bu, mənfi dəyər də deyildir). Lakin ictimai islahatçı dinləyicilərinin ərəb olduqları üçün fəxr etmələrini və bunu özlərinə müsbət dəyər hesab etmələrini müşahidə edərsə, o həmin məsələdən düzgün surətdə istifadə edə bilər. Xatırlatmaq lazımdır ki, insanların milli hislərindən və emosiyalarından istifadə etmək məqsədin özünə, yəni haqq və ədalətin qələbə çalmasına və insanların ümumi səadət və xoşbəxtliyinin həyata keçməsinə zidd olmamalıdır.

İctimai islahatçı münbit zaman, məkan şəraitindən və münasib vəziyyətlərdən tam yararlanmalıdır. İbrahim peyğəmbər öz qövmünün bayram mərasimi keçirmək üçün şəhərdən çıxdığını gördü, fürsəti əldən verməyərək bütxanaya getdi və bütləri sındırdı (müraciət edin, «Ənbiya» surəsi, ayə: 57-58; «Saffat» surəsi, ayə: 88-93). Bütövlükdə, yaxın və uzaq yerlərdə məskunlaşmış və öz gündəlik məişət işləri ilə məşğul olan insanları bir araya toplamaq asan iş deyil. Bunun üçün bir sıra tədbirlər həyata keçməlidir. Bu çətinliyi nəzərə alaraq insanların öz-adət ənənələrinə uyğun müəyyən zaman və ya məkanlarda bir yerə toplaşdığını müşahidə edərkən

bu fürsəti əldən verməməli və təbliğat işi aparmalıyıq. İslam Peyğəmbəri ə insanların haram aylarda, habelə həcc mövsümü günlərindəki toplantılarından istifadə edir və yararlanırdı. O həzrət həmin toplantılarda çıxış edir, insanlarla görüşür, danışır və beləliklə, öz haqq dəvətini yerinə yetirirdi. Qeyd edək ki, haram ayları və ya həcc mövsümü günləri İslam zühur etməzdən öncə də ərəb qəbilələri arasında hörmətlə yad edilir və həmin vaxtlarda müxtəlif ərəb qəbilələri bir araya toplaşırdılar.

# 4. Qüdrətlilərin təsiri

İnsanlar cəmiyyətlərdə yaşamağı özlərinə faydalı hesab edirlər. Bunun üçün onlar ictimai həyatda lazım olan vasitələri yaratmağa, o cümlədən, dövlət qurmağa çalışırlar. Bununla belə, onların hər biri fərdi azadlıqların, habelə ictimai ədalətin tərəfdarıdırlar. Deməli, dövlət fərdi azadlıqları insanların maddi və mənəvi ehtiyaclarının təmin olunması üçün zəruri olan həddə məhdudlaşdırmalıdır. Habelə, dövlət ictimai ədalətin bərqərar olması üçün öz səylərini əsirgəməməli onun özü insanların hüquqlarına təcavüz etməməlidir. Deməli, ictimai qüdrətlə, xüsusilə siyasi qüdrətdən istifadə etməklə cəmiyyətdə təsir etmək istəyən hər bir şəxs ədalətli olarsa, o, insanların fitri istəklərinin biri ilə, yəni azadlıqsevərliklə müxalifət edir. Həmin şəxs zülmkar olduğu halda isə insanların iki fitri istəyi ilə, yəni azadlıqsevərlik və ədalət istəyi ilə müxalifət edir. Bəşər cəmiyyətlərinə hakim olan siyasi sistemlərin çoxu ədalət prinsipindən uzaq olduqları üçün, biz bundan sonra zülmkar hakimlər və dövlət başçıları haqda danışacağıq. Onların hakimiyyəti insanların ən azı iki fitri istəyinə zidd olduğu üçün, təbii şəraitdə bir çox problemləri olacaqdır. Yəni onların hakimiyyəti sağlam şəraitdə deyil, diktatorluq şəraitində həyata keçəcəkdir. Bu hakimlər insanları ram və özlərinə tabe etmək üçün çox gizlin, qaranlıq və müəmmalı metodlardan istifadə edirlər. Bu metodları araşdırmaq bir tərəfdən şirin, digər tərəfdən isə acıdır. Həm də bu kitabın imkanlarından və tədqiqat metodlarından xaricdir. Biz, yalnız Firon barədə olan Quran ayələrini gətirir və zülmkar hakimlərin ən kamil nümunəsi olan Fironun öz çirkin məqsədlərinə çatmaq üçün hansı proqramlardan və metodlardan istifadə etməsini araşdıracağıq. Qeyd edək ki, başqa fironlar da bu proqramların və metodların bəzisindən istifadə etmişlər. Həmin metodların bəzisi aşağıdakılardır:

1. Fərdlər və ictimai qruplar arasında ixtilaf yaratmaq. Qurani-kərim bildirir ki, Firon özünü ideal şəxsiyyət göstərib insanlara hakimiyyət etmək

və onları özünə tabe etmək məqsədi ilə insanlar arasında mövcud olan vəhdəti pozdu, və «ixtilaf yarat hakimiyyət et!» prinsipini həyata keçirdi:

«Həqiqətən, Firon (Misirin padşahı) o torpaqda baş qaldırdı, hakimiyyət tapdı və oranın camaatını müxtəlif dəstələrə parçaladı.»[50]

2. İnsanların az bir hissəsini çoxluğa hakim etmək. İnsanları zorla özünə tabe etmək istəyən şəxs bir dəstə insanı pulla alır, sonra onları silahlandıraraq camaatın canına salır ki, ona təslim olsunlar:

«(Firon) onlardan bir dəstəni (İsrail övladlarından ibarət olan dəstəni) zəifliyə (və qul olmağa) sürükləyirdi.»[51]

Diqqət edin, bu şərif ayədə bütün insanların deyil, yalnız bir dəstənin zəiflənməsi və Firon qarşısında qul olması vurğulanmışdır. Belə ki, Firon azlıq təşkil edən bir dəstəni pul və silah baxımından gücləndirir, başqa insanları isə əzirdi. Deməli, o azlıq vasitəsilə bütün insanlara hakimiyyət edirdi.

3. İnsanların əksəriyyətinə işgəncə vermək, onları əzmək və öldürmək. Firon insanları ağır cəzalandırır və onlara işgəncə verirdi. Kişiləri, xüsusilə Musa peyğəmbərə iman gətirən şəxslərin oğlanlarını öldürür, onların həyat yoldaşlarını, qızlarını, xüsusilə möminlərin qadınlarını özünə kəniz götürürdü.

«Oğlanlarının hamısının başını kəsir və qadınlarını isə sağ buraxırdı.»[52]

4. İnsanlarda maddi maraq yaratmaq. Sehrbazlar Fironun hüzuruna gələndə, onlara dedi ki, «Musaya qalib gəlsəniz, sizə muzd verəcəyəm və mənim yaxınlarımdan olacaqsınız.»[53]

5. Təhtid və qorxutmaq. Həmin sehrbazlar Musanın qarşısında məğlub olduqdan sonra Musa və Harunun Allahına, yəni aləmlərin Rəbbinə iman gətirdilər. Firon onlara dedi: «Sizə icazə verməzdən öncə nə üçün ona iman gətirdiniz? Tezliklə bu işinizə görə cəzalanacaqsınız, mütləq sizin əllərinizi və ayaqlarınızı çarpazvari (birini sağdan, birini soldan) kəsəcək, sonra isə şübhəsiz, sizin hamınızı dar ağacından asacağam.»[54] Həmçinin, Firon Musa peyğəmbəri və onun qövmünü hədələdi ki, oğlanlarını öldürüb qadınlarını diri saxlayacaq.[55] Musa peyğəmbərin özünü də təhdid etdi ki, özündən başqa bir Allaha (Firondan başqasına) sitayiş etsə onu zindana salacaq.[56]

6. İnsanların başlarını yeyərək onları əyri yola çəkmək. Şübhəsiz, zülmkar və fasiq siyasi sistem işgəncə, öldürmək, əzmək, maddi maraq yaratmaq və təhdid vasitələri ilə həmişəlik olaraq stabil yaşaya bilməz.

Zülmkar və fasiq hakimlər öz hakimiyyətlərinin təhlükəsizliyini və sabitliyini təmin etmək üçün insanların inanclarını, dünyagörüşlərini və dəyərlərini dəyişdirmək və ideoloji, praktiki sahədə yalan əqidələri təbliğ etməkdən savayı bir çarə görmürlər. Bu, təlim-tərbiyə və təbliğat vasitəsindən su-istifadənin bir növüdür. Bütövlükdə, hər bir siyasi sistemin sabitliyi və nailiyyətləri insanların inancları sahəsindəki təsirinə tam bağlıdır. Hər bir ölkənin ordusu əsgərlərinin vuruşduğu məqsədə inandıqları halda faydalıdır. Habelə, hər bir ölkədə tətbiq olunan qanunlar əhalinin həmin qanunlara hörmətlə yanaşmadığı halda müsbət təsir qabiliyyətinə malik olmayacaqdır. İqtisadi təşkilatlar da qanuna inanmalı və ona hörmətlə yanaşmalıdırlar. Yəni insanlar qanuna hörmətlə yanaşmasalar, həmin təşkilatların ömrü qısa olacaq. Misal üçün, vətəndaşlar saxta pullara etiraz etməsələr, bankların taleyi necə olacaqdır? Ölkə vətəndaşlarının çox hissəsi İslam dininin ciddi və real tərəfdarı olsalar, həmin ölkədə nə qərbin azad kapitalizm ideyası, nə də şərqin sosializm məktəbi davam gətirə bilməz. Bu misallara diqqət yetirdikdən sonra asanlıqla iddia etmək olar ki, inanc mütləq və hədsiz qüdrətə malikdir. Qüdrətin digər formaları da inancdan qaynaqlanır. Başqa sözlə ictimai məsələlərdə inanc qüdrəti əsas rol oynayır. Məhz buna görədir ki, zülmkar hakimlər müxtəlif ideoloji və mədəni vasitələrdən istifadə edərək öz hakimiyyətlərinin haqq olmasını insanlara inandırmaq istəyir və bu yolla onları özlərinə kölə etməyə çalışırlar. Burada Fironun tərəfindən həyata keçən belə təhriflərin və aldatmaların bir neçə nümunəsini gətiririk:

Sehrbazlar Musa peyğəmbərin qarşısında məğlub olduqdan sonra ona iman gətirdilər. Bu vaxt Firon «camaat Musa peyğəmbərin bütün sehrbazları məğlub edən qüdrətli möcüzəsinə, habelə iman gətirmiş sehrbazların sözlərinə inanmasınlar» deyə onları aldatmağa başladı. O, sehrbazlara xitab edərək dedi: Musa sizin böyüyünüz və rəisinizdir ki, sizə sehrbazlıq öyrətmişdir. Sizin məğlubiyyətiniz şəhər əhalisini oradan çıxarmaq üçün qurduğunuz bir hiylədir.[57]

Firon habelə öz dostlarını, tərəfdarlarını və bütün rəiyyətini aldatmaq üçün Musanı çox mahir və yalançı sehrbaz adlandırdı ki, sehrbazlığı ilə camaatı öz yerlərindən çıxartmaq və onların yaxşı dinlərini və adət-ənənələrini aradan götürmək istəyir.[58] Bəzi vaxtlar isə Musanı «divanə» və «ovsunlanmış» kimi qələmə verirdi.[59] Firon bəzən özünü insanların

müdafiəçisi adlandırır və deyirdi: Onun (Musanın) sizin dininizi dəyişdirəcəyindən və yaxud bu torpaqda fəsad törədəcəyindən qorxuram.[60]

Allah-Təala Musaya vəhy etdi ki, İsrail övladlarını gecə vaxtı şəhərdən çıxarsın. Firon Musa peyğəmbərin qiyamını və hərəkatını əhəmiyyətsiz göstərmək, həm də insanları Musa peyğəmbərə iman gətirməkdən çəkindirmək məqsədi ilə onun və tərəfdarlarının hərəkatını yatırtmaq üçün müxtəlif şəhərlərə öz nümayəndələrini göndərərək qoşun yığmağa başladı. O, məmurlarının vasitəsilə belə təbliğ edirdi: Həqiqətən Musanın tərəfdarları kiçik bir dəstədir ki, məni qəzəbləndirmişlər. Mən və mənim dəstəm həmişə onları əzməyə hazırıq.[61]

Firon Musa peyğəmbərin dini təlimlərinin təsirini azaltmaq və onun fəaliyyətlərini dayandırmaq üçün onun fikirlərinin keçmiş insanların fikirlərinə zidd olmasını və ya onun təlimlərinin yeni təlim olmasını insanlara xatırladır və deyirdi: Belə isə, bu yeni təlimlərə inanmayan keçmiş nəsillərin vəziyyəti necə olacaqdır?[62] Və yaxud deyirdi: Biz keçmiş ata-babalarımızdan bu sözləri eşitməmişik.[63]

Firon çox yaxşı bilirdi ki, o, tanrı deyildir. Öz iddiasının puçluğunu və Musa və Harunun sözlərinin haqq olmasını yaxşı dərk edirdi. Bu mətləbin təsdiqləyicisi də budur ki, Allah-Təala Musa peyğəmbəri doqquz aşkar möcüzə və nişanə ilə Firona və onun qövmünə tərəf yolladıqdan sonra onlar Musa peyğəmbəri təkzib və inkar etdilər. Musa peyğəmbər isə Firona xitab edib dedi: Sən yəqinliklə bilirsən ki, bu möcüzələr, yalnız göylərin və yerin Allahı tərəfindən göndərilmişdir.[64] Allah-Təala da belə buyurdu: Firon və onun qövmü möcüzələrimizə daxilən yəqinlikləri olsa da, zülm və təkəbbür üzündən inkar etdilər.[65] Bütün bunlara baxmayaraq, Firon camaatı aldatmaq üçün özünü bilməməzliyə vurur və söz güləşdirirdi. Deyirdi: Ey ölkə başçıları, mən sizin üçün özümdən başqa bir tanrı tanımıram. Ey Haman palçıq üzərində od qala, mənim üçün uca bir bina tik. Bəlkə Musanın tanrısını görə bildim.[66] Halbuki, Firon o qədər də axmaq və ağılsız deyildi ki, Musanın ibadət etdiyi Allahı göylərdə təsəvvür etsin.

Firon habelə deyirdi: Qoyun Musanı öldürüm və o öz Rəbbini köməyə çağırsın.[67] Onun məqsədi bu idi ki, Musanın iddia etdiyi Allah Onun köməyinə çatmayacaq, o öldürüləcək və bu onun sözlərinin həqiqət olmamasını sabit edəcəkdir. (Guya ki, Allah-Təalanın gerçəkliyi və varlığı tələb edir ki, möminlərin heç biri öldürülməsin və ya məğlub olmasın.

Firon bu söz güləşdirmədən çox hallarda istifadə edir və öz qövmünə müraciət edərək deyirdi: Ey mənim qövmüm! Məgər Misirin hökmranlığı mənə məxsus deyil və bu çaylar mənim altımdan (saraylarımın altından və mənim istəyimə tabe olaraq) axmırlar? Məgər görmürsünüz?! Mən xar və həqir olan, aydın danışa bilməyən bu şəxsdən daha yaxşı deyiləmmi? Nə üçün onun qızıl bilərzikləri yoxdur, yaxud onunla birlikdə çiyin-çiyinə mələklər gəlməyiblər?[68] Bu sözlərin səhv olması, əlbəttə, aydındır. Məgər Musanın Allahının səltənəti və hakimiyyəti bu dünyada müşahidə etdiyimiz hakimiyyətlər kimi müvəqqəti və eyiblidir? Məgər bu dünyada böyük şəxsiyyətlərdən hesab olunmaq və fəsahət və bəlağətlə danışmaq insanın şəxsiyyətinin üstünlüyünə dəlalət edir? Məgər dünya nemətlərindən faydalanmaq peyğəmbərlik iddiasının doğru olmasının göstəricisidir? Məgər peyğəmbərlər mələklərlə çiyin-çiyinə və birgə gəzməlidirlər? Fironun söhbətlərindəki birinci cümlə İbrahim peyğəmbərlə müasir dövrdə yaşayan zülmkar hakimin-Nəmrudun sözlərinə bənzəyir. Çünki İbrahim peyğəmbər ona deyəndə ki, mənim Rəbbim dirildir və öldürür, o da cavabında dedi ki, mən də dirildir və öldürürəm. O bu müddəanı sübuta yetirmək üçün həbsxanadan iki məhkumu hüzuruna gətirtdi. Onlardan birini azad etdi, digərini isə qətlə yetirdi.[69]

«Zuxruf surəsinin 51-53-cü ayələrində Allah-Təala Fironun sözlərini nəql etdikdən sonra buyurur: «Beləliklə, o (Firon), öz qövmünü alçaltdı və onlar da ona itaət etdilər.[70]«

Təfsirçilər bu ayədəki «alçaltmaq» sözünün mənası haqda müxtəlif fikirlər irəli sürmüşlər. Daha çox ehtimal olunur ki, məqsəd Fironun öz qövmünü aldadmasıdır ki, bu yolla onları özünə tabe etdi. Burada başqa bir ehtimal da mövcuddur. Ayədə qeyd edilən alçaltmaq sözü Fironun öz qövmünü təhqir etməsi mənasındadır. Bu ehtimala görə, Firon öz qövmünü xar və təhqir edərək alçaltdı. Beləliklə, Firon qövmünün şəxsiyyətini alçaltdıqdan sonra onları özünə təslim edə bildi. Alçaltmaq sözünün mənasındakı üçüncü ehtimal budur ki, burada məqsəd insanları ağılsızlaşdırmaq deyil onları ağılsız görməkdir. Bu ehtimala görə, ayənin mənası belədir: «Firon öz qövmünün ağılsız olduğunu müşahidə etdi və bu xüsusiyyətlərindən istifadə edərək onları əyri yola çəkdi. Onlar da Firona tabe oldular.

«Zuxruf» surəsində gəlmiş bu ayədən sonra habelə «Nəhl» surəsinin 12-ci və «Qəsəs» surəsinin 32-ci ayəsində bu cümlə ilə rastlaşırıq:

«Həqiqətən onlar (Firon və onun qövmü) öncədən fasiq bir tayfa idilər.»

Allah-Təala bu ayədə mühüm bir məsələni xatırladır: Fasiqlik, pis işlərlə məşğul olmaq həm insanı ağılsızlaşdırır, həm də onun şəxsiyyətini təhqir edir. Fironun öz qövmü üzərindəki nailiyyətinin əsas səbəbi də məhz həmin qövmün fasiq olması idi. Həyatda, yalnız öz heyvani şəhvət hislərini ödəməyin dalınca olan insanlar tədricən həyatın əsas məsələlərindən və insanın ülvi məqsədlərindən uzaqlaşır və özlərinin təfəkkür qüvvələrini əldən verirlər. Bundan əlavə, onlar öz yüksək şəxsiyyətlərini də itirirlər. Çünki şəxsiyyət baxımından ucalıq və üstünlük şəhvətpərəstliklə uzlaşmır. Zülmkar və fasiq padşahların və hakimlərin qarşısında tam təslim olmaq istəməyən insanlar həm beyinlərini, həm də ürəklərini gücləndirməli, təfəkkür qüvvələrini inkişaf etdirməli və özlərini psixoloji baxımdan hazırlamalıdırlar. Bu məqsədə nail olmaq üçün hər şeydən öncə onlar öz qarınlarının və şəhvətlərinin bəndəsi və qulu olmamalıdırlar. Məhz buna görədir ki, dünyanın bütün zülmkar hakimləri cəmiyyətdə fəsadı və pozğunluqları yaymağa çalışırlar.

Fironun tarixin digər zülmkar hakimləri tərəfindən də istifadə edilən bəzi hakimiyyət metodları ilə tanış olduqdan sonra xatırladırıq ki, zülmkar qüdrət sahiblərinin ən təhlükəli metodu insanlar arasında ixtilaf yaratmalarıdır. Bu proqram həyata keçərsə, digər metodlar da asanlıqla icra ediləcəkdir. Bunu nəzərə alaraq hər bir ictimai islahatçı və ya ədalət və haqq tərəfdarı olan insana vacibdir ki, bacardığı qədər insanlar arasında vəhdət və birlik yaratsın. Şeytansifət insanlara imkan verməsin ki, kiçik ixtilafları dərinləşdirərək insanlar arasında ayrıseçkiliyi və fikir ayrılığını çoxaltsın. Şübhəsiz, insanlar arasında vəhdət, yalnız haqq və ədalət üzərində formalaşmalıdır. Çünki allahsızlıq kimi ideyalar ətrafında formalaşan birlik heç bir müsbət dəyər daşımır. Deməli, vəhdətin və birliyin zəruri olmasından belə nəticə çıxartmaq olmaz ki, cəmiyyətdə mövcud olan bütün ortaq və oxşar cəhətlər vəhdətin əsasını təşkil edə bilər. Həqiqi islahatçılar və haqq-ədalət tərəfdarı olan ictimai liderlər insanları, yalnız haqq və ədalət ətrafında bir araya toplayırlar. Allah-Təala Quranda möminlərdən tələb edir ki:

«Və hamılıqla Allahın ipindən (dindən, Kitabdan və vəhy gətirənlərdən) möhkəm yapışın və parçalanmayın.»[71]

Yəni möminlər ilk öncə Allahın ipindən yapışmalı, sonra həmin həqiqət üzərində birləşməlidirlər. Habelə, Quranda İslam Peyğəmbərinə xitab

edərək Allah-Təala buyurur:

«De: Ey kitab əhli, gəlin sizinlə bizim aramızda bir olan kəlmə (barəsində peyğəmbərlərin və səmavi kitabların yekdil olduqları söz) ətrafında toplanaq (və o budur ki,) :Allahdan başqasına ibadət etməyək, heç bir şeyi Ona şərik qoşmayaq və bəzilərimiz Allahın yerinə bəzilərimizi tanrılar qəbul etməsin.»[72]

Yəni Allah-Təala İslam Peyğəmbərinə əmr edir ki, yəhudilər və məsihilərlə haqq sözü ətrafında, yəni təkallahlıq ideyası üzərində birləşsin. Əgər yəhudilər və məsihilər bu ortaq haqq cəhətinə sadiq olsaydılar və öz rəftarlarını təkallahlıq inancı ilə uzlaşdırsaydılar, digər problemlər çox asanlıqla həll olunardı. Hər halda, burada əhəmiyyətli olan odur ki, İslam Peyğəmbəri yəhudilər və məsihilərlə onların da İslam Peyğəmbəri kimi İbrahim peyğəmbərin nəslindən olmasına görə deyil, yalnız tövhid əqidəsinə görə birləşməyi əmr edir. Çünki bu ortaq cəhətin o həzrətin müqəddəs və ülvi məqsədində heç bir dəxaləti yox idi.

# VI FƏSİL

# Fərqlər və onların ictimai həyatdakı təsiri

# Ön söz

Sosiologiyanın mühüm bəhslərindən biri cəmiyyətdəki müxtəlif fərdlər və qruplar arasında olan mövcud fərqlər və bu fərqlərin ictimai həyatdakı təsirləri barədə araşdırmalardır. Şübhəsiz, hər bir fərd, ictimai qrup və ya bütövlükdə cəmiyyət digər fərdlər, qruplar və cəmiyyətlərlə bir sıra fərqlərə malikdir. Bu fərqlər barədə ən azı iki mühüm məsələ müzakirə edilə bilər: onlardan biri həmin fərqlərin səbəblərini araşdırmaq, digəri isə həmin ictimai fərqlərin cəmiyyətdə hansı müsbət və ya mənfi təsirə malik olmasını, habelə cəmiyyətlərin maddi və mənəvi tərəqqisində hansı rol oynadığını araşdırmaqdır.

İlk baxışda belə nəzərə çarpır ki, cəmiyyətdə yaşayan insanlar nə qədər bir-birinə çox oxşasalar və onların ixtilafları nə qədər az olsa, onlar ictimai həyatda daha yaxşı, asan həmkarlıq edər və öz ortaq və ictimai məqsədlərinə daha asanlıqla çatar və beləliklə də öz səadətlərinə və xoşbəxtliklərinə daha tez nail olarlar. Bu ibtidai görüşə əsasən, bir çox hüquqi və əxlaqi sistemlər öz səylərini insanlar arasındakı mövcud fərqləri azaltmağa yönəltmişlər.

Lakin bəzi əxlaqi və hüquqi sistemlər həmin fərqləri çoxaltmağa tövsiyə edirlər. Çünki onların fikrincə, insanlar arasındakı ziddiyyətlər və ixtilaflar cəmiyyətlərin inkişafına səbəb olur.

Bu arada Marks və onun tərəfdarları iki mövqedən çıxış etmişlər. Bir tərəfdən, onlar bütün cəmiyyətlərin tarixini, ibtidai insan cəmiyyətini, habelə son kommunist cəmiyyətini istisna etməklə-İctimai təbəqələrin müharibə tarixi adlandırır, ictimai təbəqələrin ziddiyyətlərini və bir-biri ilə müharibələrini tarixin əsaslı dəyişkənliklərinin yeganə amili hesab edir və fikirləşirlər ki, bu yolla cəmiyyət tərəqqiyə doğru hərəkətdə olur. Digər tərəfdən isə, tarixin qayəsini və məqsədini bütün mümkün fərqləri özündə məhv edən ideal cəmiyyətin formalaşması hesab edirlər.

Göründüyü kimi, bu bəhsdə tədricən real həqiqətlərdən uzaqlaşır və dəyərlər barədə müzakirə etməyə başlayırıq. Başqa sözlə, nəzəri və elmi sosiologiya məsələlərindən əl çəkir praktiki sosiologiya məsələlərini araşdırmağa başlayırıq.

Məsələnin aydınlaşması üçün ilk öncə cəmiyyətdə mövcud olan fərqlərin müxtəlif təsnifatını araşdırmalıyıq. Həmin təsnifat aşağıdakılardır: təbii və məcburi fərqlər, ictimai vəziyyətdə, İctimai vəzifədə və ictimai mövqedəki fərqlər, mədəni və ixtiyari fərqlər.

İslam dinində insanların təbii olaraq bir-birindən fərqlənməsi qəbul olunur. Belə ki, insanlar həmin fərqlərin peyda olmasında, onların güclənməsində və yaxud zəifləməsində, habelə onların aradan getməsində heç bir təsirə malik deyildirlər. Lakin ixtiyarı özündən olan fərqlər barəsində bildirir ki, bu sahədə olan fərqlər insan iradəsinə bağlıdır və insanlar öz iradə və ixtiyarı ilə həmin fərqləri aradan götürə bilərlər. İslam dinində təkid olunur ki, bütün insanlar vahid və haqq olan dinə sitayiş etməlidir və bu ideyanın həyata keçəcəyini qabaqcadan xəbər verir. İslam dinində təbii və məcburi səbəblərə əsaslanan ictimai fərqlər haqda deyilir ki, bu fərqlər insanların mədəniyyətindən və dəyərlər sistemindən təsirlənir və onların iradəsinə, habelə cəmiyyətin istəyinə bağlıdır. Bununla belə, bu fərqlər aradan götürülə bilməz. Lakin insanlar onları azalda və zəiflədə bilərlər. Başqa sözlə, İslam dini baxımından ictimai fərqlərin bir hissəsi təbii fərqlərdən qaynaqlandığı üçün aradan götürülə və burada əmr və tövsiyə oluna bilməz. İctimai fərqlərin digər hissəsi isə insanların mədəniyyətindən və dəyərlər sistemindən yarandığı üçün habelə insanların iradə və ixtiyarından və cəmiyyətin ümumi meyllərindən təsir qəbul etdiyi üçün onlara tövsiyə və əmr oluna bilər. İslam dini ictimai fərqlərin gerçəkliyini müəyyən qədər qəbul edir və bütün bunların hamısını aradan götürmək üçün çalışmır, insanların hamısını maddi və iqtisadi baxımdan eyniləşdirməyə səy göstərmir. Lakin yoxsul insanların günbəgün daha da yoxsullaşmasını, varlıların isə günbəgün varlılaşmasını tələb etmir. Əksinə, həmin fərqlərin azalmasına təkid edir.

Bu bəhsdə İslam dininin Marks məktəbinin görüşləri ilə iki mühüm və əsaslı fərqi vardır. Onlardan biri mədəniyyət sahəsindəki fərqlər, digəri isə ictimai fərqlər haqdadır. Mədəniyyət sahəsindəki fərqlərdə Marks məktəbi iddia edir ki, heç bir şəxs özünün elm və maarifini, əqidələr sistemini şüurlu və azad şəkildə kəsb etmir. O özü bilmədən və şüursuz formada ictimai

təbəqələrin məcburiyyəti təsirinə düşür və bağlı olduğu ictimai təbəqənin əqidə və rəylərini qəbul edir. Deməli, insanların mədəniyyət baxımından fərqləri onların iradəsinə və ixtiyarına bağlı deyildir. İctimai fərqlər sahəsində isə Marks ideal cəmiyyətin formalaşmasını təklif edir. Həmin cəmiyyətdə bütün ictimai fərqlər aradan qaldırılmışdır. Yəni marksizm məktəbinin fikrincə, ideal cəmiyyətdə aradan götürülməsi mümkün olan bütün fərqlər məhv edilməlidir.

Biz marksizm məktəbinin bu iki müddəasını rədd etmək üçün təbii, ictimai və mədəni fərqlərin hər birini ayrı-ayrılıqda araşdırdıqdan və İslam dininin onların hər biri haqda rəyini aydınlaşdırdıqdan sonra marksizm məktəbinin bir sıra fəlsəfi, tarixi, sosioloji və siyasi əsaslarını araşdırmış, sonra onları rədd etmişik. Sonda isə marksizm məktəbi kimi düşünən bir sıra müsəlman mütəfəkkirlərinin iradlarını, habelə onların Quran həqiqətlərini təhrif etməklə irəli sürdükləri fikirləri gətirmiş və rədd etmişik.

# 1. Təbii və cəbri (fatalik) fərqlər

Hər bir insanın digər insanla bir neçə fərqi vardır ki, bunlardan biri təbii fərqlərdir. Yəni insanlar fiziki, bioloji və psixoloji baxımdan bir-birindən fərqlənirlər. Bioloji baxımdan bütün insanlar bir növdən olsalar da, onların arasındakı mövcud fərqlər inkaredilməzdir. Belə ki, hətta iki insanın barmaqlarındakı xətlər də bir-birindən tam fərqlənir. İnsanlar arasındakı real fərqlər onların fiziki və bioloji fərqlərindən daha dərindir. Çünki insanlar psixoloji durum baxımından elə fərqlənirlər ki, mütəxəssislər hər bir insanın özünəməxsus psixologiyasının olmasını vurğulayırlar. Yəni iki insanın nəfsani hisləri və emosiyaları bir-birinə tam oxşar deyil. Hiss, təcrübə, müşahidə və elmi araşdırmalar insanların zahiri xüsusiyyətlərinin, yəni onların bədən quruluşunun, bədəndaxili sistemlərinin, həmçinin onların psixoloji xassələrinin bir-birindən fərqli olmasını vurğulayırlar.

Bu fərqlər nə inkar edilə bilər, nə də aradan götürülə bilər. Bütün bunlar real gerçəkliklər kimi təsdiq edilməlidirlər. Çünki həmin fərqlər insanın öz iradə və ixtiyarına bağlı deyildir. Həmin fərqləri aradan götürmək üçün çalışmaq, həqiqətdə kainata hakim olan yaranış qanunları ilə mübarizə aparmaq deməkdir. Deməli, bu mübarizə sonda məğlubiyyətlə üzləşəcəkdir. Hətta İslam dinində insanlar, arasındakı mövcud təbii fərqlər ilahi hikmətin nəticəsi və insanların kamala və səadətə yetməsi üçün zəruri amil kimi qeyd olunmuşdur. İnsanlar əqli düşüncələrə varsalar, həmin fərqlərin nə üçün peyda olmasını dərk edə bilərlər. Misal üçün, qadın və kişi arasındakı fərqlər mövcud olmasaydı, başqa sözlə, bütün insanlar eyni cinsdən olsaydı, əsasını nəsilartırma prinsipi təşkil edən bəşər cəmiyyəti bütövlükdə məhvə doğru gedər heç bir insan həyata gəlməzdi. Habelə, əgər insanların istedadları və bacarıqları bir-birindən fərqlənməsəydi, onların hamısı müəyyən elmi və ya praktiki sahədə məharət qazanar və bu vaxt insanlar arasında iş bölgüsü prinsipi məcburiyyətlə həyata keçərdi. Belə bir vəziyyətin insan həyatında nə qədər mənfi təsir bağışlaması isə tam

aydındır. İnsanlarda mövcud olan bəzi fərqlər isə insan şüuru və dərrakəsi tərəfindən izah oluna bilmir. Lakin biz ilahi və islami dünyagörüşü əsasında onların da faydalı və zəruri olmasını vurğulayır və bəzən şər adlanan hadisələri müşahidə etsək də, bütün bunları təbiət və materiya aləminin zəruri nəticələri kimi qiymətləndiririk.

Quran baxımından həmin təbii fərqlərin aydınlaşması üçün bir neçə ayəni zikr edirik:

1. «Rum» surəsinin 22-ci ayəsi: «Göylərin və yerin yaradılışı, sizin dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun nişanələrindəndir. Şübhəsiz, bunda alimlər üçün nişanələr vardır.»

Bu şərif ayədə iki fərq qeyd olunmuşdur. Onlardan biri tamamilə təbii (rənglərin müxtəlifliyi), digəri isə müəyyən qədər təbii amillərin təsiri altındadır (dillərin müxtəlifliyi). Habelə bu ayədə bildirilir ki, bu fərqlər barədə düşünmək və onları tamamilə dərk etmək ilahi hikmətin göstəricisidir.

2. «Fatir» surəsi, 28-ci ayə: «İnsanların, heyvanların və davarların da müxtəlif növ və rənglərdə olanları vardır.»

Bu şərif ayədə də insanların rənglərinin müxtəlifliyi, habelə heyvanların da bu xüsusiyyətə malik olması qeyd olunmuşdur.

3. «Hücurat» surəsi, 13-cü ayə: «Ey insanlar! Şübhəsiz, Biz sizin hamınızı bir kişi və qadından (Adəm ilə Həvvadan) yaratdıq (və ya sizin hər birinizi bir ata və anadan yaratdıq) və sizi bir-birinizi tanıyasınız deyə, böyük və kiçik qəbilələr etdik.»

Bu şərif ayədə ilk öncə bütün insanların bir ortaq cəhəti, yəni onların hamısının bir kişi və qadından yaranması xatırlanır. Sonra onların ixtilaflı cəhətlərindən biri, yəni müxtəlif qəbilələrə mənsub olmaları vurğulanır. Bu fərqli cəhətin faydası insanların bir-birlərini tanımasıdır ki, onların sonrakı əlaqələri və münasibətləri mümkünləşsin. Ayənin məzmunundan belə istifadə etmək olar ki, onların müxtəlif qəbilələrə mənsub olması da rənglərdə və dillərdəki fərqlər kimi tamamilə yaranış sisteminə aiddir. Yəni Allah-Təalanın hikməti bütün bu fərqlərə səbəb olmuşdur. Deməli, bu fərqlər insanın kamilləşməsi və tərəqqisinə zidd deyildir. Əksinə, cəmiyyətdə insanların mənəvi və digər sahələrdəki inkişafına zəmin yaradır.

4. «Nisa» surəsi, 32-ci ayə: «Heç vaxt Allahın vasitəsilə birinizi digərinizdən üstün etdiyi şeyi arzulamayın (kişilər və qadınlar bir-birlərinin şəri, qanuni, cismi və ruhi üstünlüklərini, eləcə də heç bir şəxs və ya dəstə

başqasının Allah tərəfindən verilmiş mal, məqam və övlad kimi üstünlüklərini arzulamasın. Çünki bu imtiyaz və üstünlüklər hikmətə və yaradılış aləminin kamilliyinə əsaslanır və ona zidd arzular cəmiyyətdə paxıllığın və fəsadın aşkar olmasına səbəb olur). Kişilərin (ixtiyari və ya qeyri-ixtiyari xüsusiyyətlərlə) qazandıqlarından (əldə etdiklərindən) payları vardır. Allahdan (bir şey istədikdə) Onun fəzlindən istəyin ki, həqiqətən Allah hər bir şeyi biləndir (hər bir kəsə onun xeyrinə olanı verir).»

Bu şərif ayənin birinci cümləsi bütün qanuni və şəri, habelə cismi və ruhi imtiyaz və üstünlüklərə şamil olunur. Bir sözlə, hər bir şəxsin və ya ictimai qrupun başqasıyla müqayisədə əldə etdiyi bütün imtiyazlar və üstünlüklər nəzərdə tutulur. Allah-Təala insanlardan tələb edir ki, başqa insanın və ya qrupların əldə etdiyi üstünlükləri arzulamasınlar və tələb etməsinlər. İstər onların özləri başqa bir fəzilətə və üstünlüyə sahib olsunlar, istərsə də olmasınlar. Bəzi insanlar elə güman edirlər ki, Allahın ədaləti tələb edir ki, müəyyən bir şəxsə verdiyi nemətləri bütün insanlara versin. Misal üçün, bir şəxsin elmi istedadı başqalarından çoxdursa, mütləq başqalarının istedadı da çoxalmalıdır ki, bütün istedadlar bərabərləşsin. Biz bu fikirlə razılaşmır və fərdlərin əldə etdiyi ilahi nemətləri və həmin nailiyyətdəki mövcud fərqləri Allahın ədalətinə zidd hesab etmirik. Hər halda, Allah-Təala hər bir şəxsə və ya cəmiyyətə digərlərinə vermədiyi neməti vermiş və onu həmin cəhət baxımından üstün etmişdir. İnsanlara isə əmr etmişdir ki, əldə edə bilmədiyi nailiyyətləri və qazancları arzu etməsinlər. Misal üçün, kişilər «kaş qadın olaydıq» və yaxud qadınlar «kaş kişi olaydıq» deməsinlər və yaxud qaradərililər «kaş ağ dərili olaydıq» deyə arzulamasınlar. Belə arzular nəticəsiz və faydasız olmasından əlavə, insanı ilahi hikmətdən uzaqlaşdırır.

Sonda bir məsələni xatırladırıq. Təbii fərqlərin məcburi olması o demək deyil ki, insanlar onların dəyişməsində heç bir təsir göstərə bilməzlər. Hər halda, həmin fərqlərin bir sıra səbəbləri insanın ixtiyar dairəsində ola bilər. İslam həyat yoldaşı seçimində, evlənmək məsələlərində, qadınlara hamiləlik dövrü barədə olan məsələlərdə və bu kimi digər sahələrdə müəyyən tövsiyələr edir. Bütün bunlar gələcəkdə dünyaya gələn uşaqların cismi və ruhi baxımdan sağlamlığı üçündür. Təbii fərqlərin insanlara məcburi surətdə vadar olunması o deməkdir ki, hər bir insan özündə mövcud olan psixoloji və bioloji xüsusiyyətləri qazanmaqda ixtiyarlı deyildir. Hərçənd, həmin təbii fərqlərin çoxalması və azalmasında az da olsa, o, azad iradəsi ilə təsir bağışlaya bilər.

# 2. İctimai «vəziyyət», «vəzifə» və «mövqe»dəki fərqlər

Aydın məsələdir ki, cəmiyyətdə yaşayan fərdlər ictimai vəzifə, vəziyyət və mövqe baxımından bir-birindən fərqlənirlər. Varlıların övladlarının ictimai vəziyyəti yoxsul ailədə doğulan uşaqların ictimai vəziyyəti ilə eyni deyil. Onlar məişət imkanları baxımından tam fərqlənirlər. Məişət imkanları dedikdə, hər bir şəxsin məişət zəminində əldə etdiyi nailiyyətlər nəzərdə tutulur. Sağlamlığın qorunması, təhsil imkanlarının əldə edilməsi, münasib əmək fəaliyyəti, kifayət qədər gəlir, yüksək vəzifə, asayiş, təhlükəsizlik və azadlıq kimi ünsürləri buna aid etmək olar. İnsanların ictimai vəzifələri də bir-birindən fərqlidir. Hər bir şəxsin ictimai vəziyyəti, onun ata-anasının ictimai vəzifəsinə, kişi və ya qadın cinsindən olmasına, yaşına, istedad və marağına bağlıdır. Həmin amilləri nəzərə almaqla hər bir insan özünəməxsus ictimai vəzifəni öhdəsinə götürür. Həmin vəzifələr isə müxtəlif insanlarda fərqli olur. Bundan əlavə, insanların ictimai mövqeyi də bir-birindən tam ayrılır. Yəni cəmiyyət müəyyən ictimai vəzifəyə sahib olan bir şəxsə hörmətlə yanaşır. Halbuki, digər ictimai vəzifəni öhdəsinə götürən insan həmin mövqeyə malik olmur. Misal üçün, müəllim, din xadimi, teatr və ya kino aktyoru, ordu zabiti və digər ictimai vəzifələrin ictimai mövqeləri eyni deyildir.

Bu qəbildən olan ictimai fərqlər müəyyən qədər təbii olsalar da, bəzən insanın öz iradəsinə bağlıdır. Yəni onlar həm təbii səbəblərin, həm də qeyri-təbii səbəblərin nəticəsidirlər. Şübhəsiz, filan ictimai mövqeyə malik olan ailədə doğulmaq, kişi və ya qadın olmaq, müəyyən istedadlara və maraqlara malik olmaq və digər ilahi nemətlərin əldə olunması insanın iradəsinə bağlı deyildir. Bununla belə, həmin amillər ictimai fərqlərin yaranmasında tam təsirlidir. Misal üçün, insanın bədən quruluşu və fiziki baxımdan qüvvəli olması onun öz əlində deyildir. Bununla belə, həmin cəhətdə bir-birindən

fərqlənən iki fəhlənin işinin nəticəsi təbii ki, bir-birindən tam fərqlənəcəkdir. İşin nəticəsi fərqləndikdə isə, bu, həmin şəxslərin gəlirlərinin də fərqlənməsinə səbəb olacaqdır. Habelə, iki müxtəlif maraq və istedada malik olan insan bütün digər xüsusiyyətlərdə ortaq olsa da, iki müxtəlif elmi və ya praktiki sahədə çalışdıqları üçün müxtəlif peşələrə sahib olacaqlar. Təbii olaraq, həmin peşələrin özünə-məxsus xüsusiyyətləri olduğu üçün (ictimai mövqe və gəlir baxımından) həmin iki şəxs cəmiyyətin idarə sisteminə müvafiq olaraq müxtəlif və fərqli mövqe qazanacaqlar. Yəni onlardan biri digərindən ictimai mövqe baxımından daha üstün ola bilər. Bir sözlə, belə ictimai fərqlər təbii olmasalar da, bir sıra təbii fərqlərin təsiri nəticəsində formalaşır.

Lakin digər bir tərəfdən, həmin fərqlər təbii fərqlərə əsaslansalar da, insanın ixtiyar ünsüründən də tam biganə deyildir. Başqa sözlə, insanın dünyəvi və maddi nemətlərdən yararlanması zəminində müşahidə edilən fərqlərin hamısı təbii fərqlərin nəticəsi deyil. Onlardan bir çoxu insanın azad iradəsinə və ilahi nemətlərdən necə yararlanmasına tam bağlıdır. Habelə, onların bir çoxu cəmiyyətin əqidə sisteminə və mədəniyyətinə söykənir. Həmçinin, həmin fərqlər cəmiyyət və dövlət vasitəsilə güclənə və ya zəiflənə bilər. Yəni cəmiyyətdəki fərdlər ya dövlət maddi yoxsulluğu yaradan amillərin bir çoxunu çoxalda və ya azalda bilər.

İctimai fərqlərin bu ixtiyari cəhətidir ki, insanların onlardan qorunmasına zəmin yaradır. Məhz bu sahədə müxtəlif mütəfəkkirlər tərəfindən fərqli görüşlər irəli sürülür, onlardan bəziləri ifrata varır bəziləri isə mötədil yol seçirlər.

Tarix boyu bəzi mütəfəkkirlər belə bir fikirlə çıxış etmişlər ki, cismi və ya ruhi baxımdan zəif olan insanlar həmin vəziyyətdə saxlanılmalı və ya hətta cəmiyyətdən uzaqlaşmalı və məhv edilməlidirlər. Başqa sözlə, təbii fərqlərin, habelə təbii fərqlərdən qaynaqlanan ictimai fərqlərin azalmasına çalışmamalıyıq. Misal üçün, Aristotel bildirir ki, təbiətin qanunlarına əsasən insanlardan bəziləri azad, bəziləri isə qul yaranmışlar. Qul olmaları isə onlar üçün daha faydalıdır. Çünki təbiət qulların bədənlərini həyatın ağır vəzifələrini yerinə yetirmək üçün güclü yaratmışdır. Əvəzində isə onlar təfəkkür və düşünmək bacarığından məhrumdurlar. Belə mütəfəkkirlərdən Almaniyalı şair, mütəfəkkir və yazıçı Nitsşe daha çox ifrata varmışdır. O çəkinmədən bildirir ki, cismi, psixoloji, fikri və ya hər hansı bir cəhətdən zəif olan insanlarla mübarizə və müharibə aparmalıyıq. Deməli, yoxsullarla,

qullarla hətta qadınlarla, habelə bütün bu zəif təbəqələri müdafiə edən insanlarla mübarizə aparmalıyıq. Bütövlükdə, hər bir cəmiyyətin əksəriyyətini təşkil edən adi insanlar (Nitsşe onları «əlsiz-ayaqsızlar» adlandırırdı), yalnız aristokratların tərəqqisi üçün bir vasitə olmalıdırlar. Və belə ki, onları səadət və ya rifah üçün müstəqil çalışan və iddialı olan insanlar kimi nəzərə almamalıyıq. Deməli, lazım gələrsə bir dəstə aristokratın və ya dahi bir şəxsiyyətin yaranması üçün bütün yoxsul insanlar əziyyət çəkməlidirlər. Çünki dahi bir şəxsiyyətin əziyyət çəkməsi bir millətin əziyyət çəkməsindən daha ağırdır. Aristokrat insanlar özlərini qorumaq üçün aşağı təbəqədə olan kütlələrin əleyhinə vuruşmalıdırlar. Nitsşenin fikrincə yaranması üçün bütün insanların fəda olması zəruri olan dahi şəxsiyyət ictimai islahatçı, filosof və ya bu qəbildən olan digər bir insan deyil. (Hətta onun fikrincə, eramızdan əvvəl yaşamış böyük yunan filosofu Sokrat ata-babaları aşağı təbəqədən olduğu üçün adi insanlardan sayılır.)

Nitsşenin təsvir etdiyi dahi şəxsiyyət tam arsız, rəhimsiz, hiyləgər, daşürək və yalnız öz qüdrətinə maraqlı insandır. O bu yolda bütün insanları öldürməyə hazırdır, çox iradəli, az qorxulu bir şəxsdir, insanlara qarşı mehriban deyil, onlarla tam sərt davranır. Bir sözlə, Nitsşe müharibəni, rəhimsizliyi və aristokrat qürur sevir, xudpəsəndliyi hər bir insanın vəzifəsi hesab edir. Onun təsvir etdiyi etika normalarında qüdrət əldə etmək ən ülvi qayə sayılır, kimsəsizlərə və yoxsullara qarşı mehribançılıq isə zəiflik kimi qələmə verilir ki, hamı bu zəifliyi aradan götürmək üçün mübarizə aparmalıdır.

Cəmiyyətdə mövcud yoxsulluğu və yoxsul insanları ilahi iradə və məşiyyətlə izah edən insanların görüşləri də Nitsşenin görüşlərinin xəfif və mülayim formasıdır. Onlar bildirirlər ki, cəmiyyətdə olan yoxsulluğu aradan götürmək üçün çalışmamalıyıq. Çünki Allah belə istəmişdir ki, bəzi insanlar yoxsul həyata gəlsinlər, yaşasınlar və ölsünlər. Bu fikir taktiki hökmlərin və dəyərlərin nəzəri və real hökmlərdən istinbatının ən yanlış formalarından biridir. Qurani-kərimdə kafirlərin dilindən belə nəql olunmuşdur: «Onlara: «Allahın sizə ruzi olaraq verdiyindən (haqqı olan şəxslərə Allah yolunda) sərf edin!» deyildikdə, kafirlər iman gətirənlərə: «Allahın istədiyi təqdirdə yedirə biləcəyi kəsəmi yemək verək?» deyərlər.»[73]

Bu rəyin müqabil tərəfində isə bütün ictimai fərqlərin aradan götürülməsinə tövsiyə edilir. Bəzən bu məsələyə o qədər israr edilir ki, hətta

təbii ictimai fərqlərin aradan qaldırılmasına və ictimai fərqlərdən qaynaqlanan təbii fərqlərin inkarına belə səy göstərilir.

İslam dininin rəyi bu məsələdə də mötədil və obyektivdir. Bu məsələni İslam dini baxımından düzgün təhlil etmək üçün onun əqidə, əxlaq, şəriət, hüquq və iqtisadiyyat sistemlərinə müraciət etməliyik.

İslam dininin əqidə sisteminə müraciət edərkən məlum olur ki, bu dində nə təbii fərqlər, nə də təbii fərqlərdən yaranan ictimai fərqlər inkar edilmir. Bu iki fərqin gerçəkliyi həm təsdiq edilir, həm də onların gerçəkliyi iki dəlillə sübuta yetir:

Birinci dəlil: Həmin ictimai və təbii fərqlər əsasında cəmiyyətdə iş bölümü rejimi mümkünləşir. Həmin fərqlər olmasaydı, insanlar müxtəlif sahələrdə xidmət edə və işə cəlb oluna bilməzdilər. Şübhəsiz, insanlar arasında iş bölümü rejimi düzgün tətbiq edilməzsə, ictimai sistemin həyatı da davamlı olmayacaqdır:

«Dünya həyatında onların məişət vasitələrini aralarında Biz bölüşdürmüşük və (maddi və mənəvi kamilliklər baxımından) onların bəzilərini bəzilərindən bir neçə dərəcə üstün etmişik ki, bəziləri bəzilərini xidmətə götürsünlər (və nəticədə bəşər cəmiyyətinin daha kamil və layiqli idarə sistemi formalaşsın)»[74]

İnsanların bir-birini işə götürməsi və xidmətə cəlb etməsi bəzən birtərəfli, bəzən isə ikitərəflidir. Yəni bəzən bir şəxs başqasını özünə xidmətə cəlb edir, lakin həmin şəxs üçün işləmir. Bəzən isə iki şəxs müxtəlif cəhətlərdə bir-birinin xidmətindədir. Bu şərif ayədə birtərəfli və ya ikitərəfli xidmət sistemi nəzərdə tutulmamışdır. Deməli, ayə hər iki cəhəti əhatə edə bilər.

İkinci dəlil: Həmin ictimai fərqlərlə insanlar imtahan edilirlər. Yəni bu fərqlər bütün insanları-istər yoxsulları, istərsə də varlıları-yoxlamaq üçün zəmin yaradır. Allah-Təalanın insanlar üzərində həyata keçirdiyi ən böyük, mühüm, ümumi və istisnasız qanunlardan biri insanları imtahana çəkməsidir. Bu da insanların məişət və iqtisadi vəziyyət baxımından fərqləri vasitəsilə mümkün olur:

«Sizi, sizə verdiyi şey barəsində imtahan etmək üçün bəzinizi digərinizdən (maddi və mənəvi baxımdan) dərəcələrlə üstün edən odur.»[75]

Deməli, Allah-Təala təbii tərbiyədən yaranan ictimai fərqləri ən azı iki məqsədə görə yaratmışdır: onlardan biri iş bölümü rejimi, digəri isə insanları imtahana çəkməkdir. Lakin diqqət yetirmək lazımdır ki, İslam

dininin bu baxışı 19-cu əsrin ingilis məsihi keşişinin fikirləri ilə tam fərqlidir. O deyirdi: Aclıq ən yırtıcı heyvanları ram edir, ən lovğa və mütəkəbbir insanlara nəzakət, ədəb və itaət etmək xüsusiyyəti öyrədir. Bütövlükdə, təkcə aclıq amili yoxsul insanları iş başına çəkə bilər. Aclıq sakit lakin daimi təzyiq vasitəsidir. Lakin ac insanlar başqasının onlara yardımı ilə qarınlarını doyursalar, yoxsul insanlar daha iş başına gəlməyəcəklər. Qullar işləməyə vadar edilməli, azad insanlar isə öz görüşləri əsasında hərəkət etməlidirlər. Qeyd etmək lazımdır ki, 19-cu əsrin keşişlərinin bu görüşləri Marks və onun tərəfdarlarını vadar edir ki, ruhaniləri və din xadimlərini hakimiyyət və varlılarla birləşərək yoxsul təbəqənin düşmənləri kimi qələmə versinlər. Çünki Marksın fikrincə, din xadimləri də adi insanların azadlıqlarını inkar edir və hakim dairəyə imkan yaradır ki, onlar fəhlələrin qanını sorsunlar.

Bizim fikrimizcə, bu qəbildən olan görüşlər Allah-Təalanın təkvin və şəriət iradəsinin düzgün ayırd olunmamasından irəli gəlir. Kainatda və təbiətdə müşahidə etdiyimiz bütün proseslər-istər insanların öz azad iradəsi və ixtiyarı ilə yaransınlar, istərsə də qeyri-ixtiyari səbəblərin nəticəsi olsunlar-obyektiv reallıq və gerçəklik olmaları baxımından Allah-Təalanın kainata və dünyaya hakim etdiyi səbəb-nəticə sisteminin nəticəsidir. Yəni bütün bu proseslər Allahın qəza və qədər dairəsinə daxildirlər və Allah onları Öz iradə və tədbiri ilə yaratmışdır. Bütün bu hadisələr ilk öncə Allaha mənsub olduğundan və xilqətin yaranış sisteminə daxil olması baxımından bəzi hökmlərə malikdir. İnsanların azad şəkildə onlar üzərində təsərrüf etməsi qabiliyyəti isə bütün bu prosesləri Allah-Təalanın şəriət sisteminə daxil edir və burada digər hökmlər yaranır.

Misal üçün, xəstəliyə düçar olan şəxs-bu proses, yəni xəstəliyə tutulma Allaha mənsub olduğundan- səbir etməli, Allahın qəzavü-qədəri qarşısında təslim olmalı və bununla barışaraq Allaha təvəkkül etməlidir. Lakin bütün bunlara baxmayaraq, əgər şəxsin özü həmin xəstəliyə tutulmasında təqsirkardırsa, o öz təqsirindən təəssüflənə və peşmançılıq keçirərək tövbə edə bilər. Yaxud həmin xəstəliyin yaranmasında başqa insanların rolu olsa, onları bağışlaya və yaxud onlardan intiqam ala bilər. Hər halda, xəstəliyə tutulan insan öz sağlamlığını geri qaytarmaq üçün bütün səylərini həyata keçirməlidir. Yəni o həkimə müraciət etməli və müəyyən dava-dərmanlar qəbul etməlidir. Hətta o özünün müalicəsində ehmallıq, tənbəllik edərsə, bu iş məzəmmətə layiq görülür. İctimai məsələlərdə də belədir. Misal üçün,

insanlar zəlzələyə, selə və ya hər hansı bir ümumi xəstəliyə tutularlarsa, zəlzələnin və ya digər hadisələrin Allah-Təalaya mənsub olduğunu nəzərə alaraq onlar səbir etməli, təslim olmalı və Allah-Təalaya təvəkkül etməlidirlər. Lakin bütün bu müsbət əxlaqi dəyərlər insanların zəlzələni öz pis əməllərinin nəticəsi olduğunu nəzərə alaraq Allah-Təala dərgahına tövbə etməsinə zidd deyil. Həmçinin, zəlzələ qarşısında səbir etmək və Allaha təvəkkül etmək o demək deyil ki, zəlzələ baş verdikdən sonra insanlar bir-birinin köməyinə getməsinlər və bir-birinə təsəlli verməsinlər. Allahın qəzavü-qədəri qarşısında razı olub bununla barışmaq hər hansı bir müsibət və bəlaya düçar olmuş insana kömək etməmək deyil (bu bəhanə ilə ki, Allah-Təala Özü onların bu vəziyyətə düşməsini istəmişdir).

Deməli, cəmiyyətdə müşahidə etdiyimiz ictimai fərqlərin yaranmasını Allahın əzəli və təkvini iradəsinə bağlasaq (yəni Allah-Təala əzəldən və xilqət yarandığı vaxtdan belə istəmişdir ki, bir sıra ictimai fərqlər olsun ki, insanlar bir-birini xidmətə götürsünlər, habelə zəiflər və varlılar Allah tərəfindən imtahana çəkilsinlər), bu, Allahın şəri iradəsinə zidd deyildir. Yəni bunu qəbul etdikdən sonra digər tərəfdən deyirik: Allah-Təala şəriət iradəsi ilə istəmişdir ki, varlılar və sərvətlilər öz var-dövlətinin bir hissəsini yoxsullara və kimsəsizlərə verməlidirlər (müraciət edin: «Zariat» surəsi, ayə: 19; «Məaric» surəsi, ayə: 25). Allahın əzəli və təkvini iradəsi heç bir varlını öz vəzifəsindən xilas etmir. Əksinə, əzəli iradə bir sıra ilahi vəzifələrə və məsuliyyətlərə, habelə imtahanlara zəmin yaradır ki, bütün varlılar və kasıblar bu yolla imtahan olunsunlar. Habelə, insanların ixtiyari işləri öz növbəsində Allahın təkvin və xilqət sisteminə daxil olduğundan, varlıların rəftarları yoxsulların sonrakı vəzifə və məsuliyyətlərinin əsas predmetinə çevriləcəkdir. Habelə yoxsulların rəftarları varlıların sonrakı vəzifələrinin və ictimai məsuliyyətlərinin obyekti olacaqdır.

Digər tərəfdən, belə güman edilməməlidir ki, İslam dininin şəriət sistemində başqalarının malına təcavüz etmək, al-verdə az satmaq, sələm almaq, oğurluq etmək, möhtəkirlik, qumar oynamaq və təcavüz hesab olunan bütün işlər haram olduğundan, deməli insanların ruzisi Allahın əlində deyildir. Yəni insanların var-dövlətinin azlığı və ya çoxluğu Allahın hikmət, iradə və tədbirinə bağlı deyildir. Hər bir insan özünün və ailəsinin məişətini və ruzisini təmin etmək üçün çalışmalı və işləməlidir. O bu yolda heç kimə zülm etməməli və heç kimin malına və canına təcavüz etməyi rəva görməməlidir. Habelə, həmin şəxs pul qazandıqda öz malının və

varının bir hissəsini yoxsulların haqqı hesab etməlidir. Eyni halda, hətta insanların ixtiyari işləri də Allahın qəza və qədər sisteminə daxil olduğu üçün, başqalarına zülm və təcavüz etmək nəticəsində yoxsullaşan insanların yoxsulluğu da Allah-Təalaya nisbət verilməlidir. Lakin bütün bunlar zülmkarların və təcavüzkarların ixtiyarını və məsuliyyətini onlardan almır.

Bir sözlə, bütün işlərin Allah-Təala tərəfindən həyata keçməsini bildirən «fel tövhidi» prinsipinə əsasən, həyatda müşahidə olunan bütün hadisələr – istər insanın öz ixtiyarında olsun, istərsə də olmasın – qəza və qədər sisteminə daxil olsa da, bu gerçəklik heç bir günahkarın günahını yumur. Deməli, bilməzdən və yaxud özlərinin nəfsani və şeytani maraqlarına görə Allahın əzəl iradəsinə istinad edərək «Allahın zəif və yoxsul yaratdığı insanlara necə əl tutaq» deyən insanlar və yaxud Onun şəriət iradəsini əsas götürərək bütün insanlara ruzi verə bilməyə aciz olduğunu və yaxud ictimai fərqləri yaratmaqda heç bir hikmətə uyğun məqsəd güdmədiyini bildirən şəxslər Qurani-kərimdə və şərif hədislərdə göstərilən sözlərə və mətləblərə zidd danışmışlar.

Deməli, İslam dininin əxlaq sistemi baxımından varlılar və Allahın nemətlərindən kifayət qədər bəhrələnmiş insanlar ictimai fərqlərin ya cəmiyyətin müxtəlif təbəqələri arasındakı fərqlərin azalması üçün və cəmiyyətdə ictimai və iqtisadi balansın yaranması məqsədilə öz əmlaklarının bir hissəsini yoxsullara və zəif insanlara bağışlamalıdırlar. Bu işdə də onlar heç bir minnət qoymamalı və bunu alan insanların şəxsiyyətini qorumalıdırlar.

İslam dini insanların hər birinin daxili və mənəvi kamilləşməsinə daha çox əhəmiyyət verdiyi və bu mənəvi tərəqqini, yalnız insanların azad iradədən yaranan fellərinin nəticəsi hesab etdiyi üçün bütün ictimai məsələlərin həlli yolunu ilk öncə əxlaq, təlim və tərbiyədə görür. Bu səbəbdən, ictimai təbəqələr arasındakı fərqlərin azalması üçün hər şeydən öncə əxlaqi tövsiyələr verir. Lakin bəzən təlim və tərbiyənin lazımi təsiri olmadığından və əxlaqi tövsiyələr kifayət qədər müsbət təsir bağışlamadığından, habelə hər bir cəmiyyətdə vətəndaşların bir çoxunun düzgün əxlaq və dəyərlər sisteminə tabe olmadığından İslam dininin şəriət, hüquq və iqtisadiyyat sistemində bir sıra məcburi qanunlar mövcuddur ki, müsəlman dövlətini onları icra etməyə əmr edir. Bundan əlavə, İslam dininin hüquqi sistemi müsəlman dövlətinə icazə verir ki, cəmiyyətin zəruri iqtisadi ehtiyaclarını ödəmək üçün yeni qərarlar qəbul etsin və onlara

əsasən, varlıların və imkanlı şəxslərin öz var-dövlətlərinin bir hissəsini ehtiyacı olan yoxsul insanlara verməsini tələb etsin.

İslam dininin əxlaq sistemi baxımından, yoxsul insanın da özünəməxsus bir sıra vəzifələri vardır. Onlardan biri, Allah-Təalanın işinə dəxalət etməməkdir. Misal üçün, Allah-Təalaya irad tutmamalıdır ki, nə üçün mən zəif, başqası isə güclüdür, nə üçün mənim istedadım az, başqasının istedadı isə yüksəkdir, nəyə görə mənim ictimai vəziyyətim aşağı səviyyədə, başqasınınkı isə yüksək səviyyədədir? Əksinə yoxsul insan bütün müsibətlərə və bəlalara səbir etməli, Allah-Təalanın bütün hökmləri və əmrləri qarşısında təslim olmalı, ilahi qəzavü-qədərlə barışmalı, Allah-Təalaya təvəkkül etməli və Ona arxalanmalıdır.

Başqaları tərəfindən zəruri ehtiyaclarının ödənilməsi olan yoxsul insan (birinci dərəcədə onun ata-anası və övladları, ikinci dərəcədə qardaşları, bacıları və digər qohum-əqrəbası, üçüncü dərəcədə ümumi xalq, dördüncü dərəcədə isə müsəlman dövləti bu vəzifəni öhdəsinə götürməlidir) başqaları onun zəruri ehtiyaclarından xəbərsiz qaldığı və kömək göstərməməsi təqdirdə, imkan daxilində öz şəxsiyyətini qorumalı, başqalarına əl açmamalı və bütün çətinliklərə dözməlidir. Qurani-kərimdə özünü və şəxsiyyətini qoruyaraq başqalarına əl açmayan insanlar bəyənilmişdir:

«Nadan insan onları-çox iffətli (həyalı) olduqları üçün-imkanlı hesab edər. Onları üzlərindən tanıyarsan, insanlardan israrla bir şey istəməzlər.»[76]

Bütövlükdə, çətinliklər və bəlalar qarşısında səbirli olmaq və bunlara dözmək əxlaq baxımdan müsbət, dəyərli iş sayılır, bu dəyər bəzən artır. Məsələn, bəzi vaxtlar yoxsulların ehtiyaclarını ödəmək üçün onlara əl tutan insanlar bu vəzifəni yerinə yetirmirlər. Lakin həmin vaxt yoxsulların və kasıbların onların əleyhinə qalxması və öz tələblərini yerinə yetirməsi İslam ümməti və dövlətinin ümumi məsləhətinin ziddinə ola bilər.

Bəzi vaxtlar çətinliklər qarşısında səbirli olmağın dəyəri burada daha mühüm bir vəzifənin dəyəri ilə toqquşur. Misal üçün yoxsulların çətinliklər və yoxsulluq qarşısında səbirli olması və buna etiraz etməməsi zülmkarların, sərvətlilərin və hakimlərin öz təcavüzlərinin və zülmkarlıqlarının çoxalmasına səbəb olacaq. Bu vaxt səbirli olmaq başqalarını pis işdən çəkindirmək və yaxşı işə əmr etmək işinin dəyəri ilə toqquşur. Deməli, təcavüzə məruz qalmış yoxsul insanlar ayağa qalxmalı və öz hüquqlarını tələb etməlidirlər ki, ictimai fəsadların qarşısı alınsın.

# 3. Mədəniyət fərqləri və ixtiyari fərqlər

İlk öncə xatırlatmalıyıq ki, «mədəniyyət» sözü və məfhumu bir çox humanitar elmlərdə, xüsusilə sosiologiyada çox işlənsə də, onun müəyyən və vahid mənası yoxdur. Belə ki, indiyə qədər «mədəniyyət» sözünün iki yüz əlli tərifi qeyd olunmuşdur. Biz isə burada bu sözü çox universal və ümumi mənada işlədirik ki, müxtəlif elmlərə, o cümlədən məntiq, riyaziyyat və təcrübi elmlərə, tarixə, fəlsəfəyə, irfana, dinə, incəsənətə, ədəbiyyata, kəlam elminə, etikaya, şəriət elmilərinə, özündə estetik, dini, etik və hüquqi dəyərləri ehtiva edən dəyərlər sisteminə və milli adət-ənənələrə şamil olsun. «Mədəniyyət» sözünün bu mənası onun ilk öncə 1871-ci ildə Teylor tərəfindən təqdim olunan elmi tərifinə çox yaxın və oxşardır. Teylorun bu tərifi hələ də sosioloqlar tərəfindən qəbul olunur. Bu tərifdə mədəniyyət, elmi, əqidələri, incəsənəti, hüququ, etikanı, adət-ənənələri və hər bir fərdin cəmiyyətin bir üzvü kimi əldə etdiyi bütün nailiyyətləri ehtiva edən bir kompleks kimi nəzərdə tutulmuşdur.

Bu tərifə əsasən, mədəniyyət sahəsindəki ictimai fərqlər elm və maarifə, elmi nəzəriyyələrə, əxlaq rəftarlarına və psixoloji meyllərə əsaslanır. Deməli, daha çox nəfsani, daxili və mənəvi məsələlərə aiddir. Halbuki, ictimai fərqlərin ikinci növü daha çox maddi, zahiri və cismani məsələləri əhatə edirdi.

Mədəniyyət sahəsindəki fərqlər ixtiyaridir. Yəni bundan qabaq deyilən iki ictimai növün heç birinə tabe deyildir. Hərçənd varislik, ana bətni, bioloji və coğrafi mühit kimi təbii səbəblər və amillər, habelə təlim və tərbiyə, siyasət və iqtisadiyyat kimi ictimai və insani amillər mədəniyyət sahəsindəki fərqlərin yaranmasında tam təsirsiz deyildirlər. Lakin təbii fərqlərin, habelə ictimai fərqlərin çox hissəsi o qədər şiddətli deyildir ki, onları bəşər cəmiyyətlərində və insanlar arasındakı mövcud mədəniyyət

fərqlərinin əsas səbəbi adlandıraq. Hər halda, mədəniyyət fərqləri ictimai və təbii amillərin nəticəsi sayılmamalıdır. Onlar insanın öz ixtiyarının məhsuludur. Başqa sözlə desək, ictimai və təbii amillər mədəniyyət fərqlərinin yaranmasında az da olsa təsir bağışlasa da, lakin onların tam və müəyyən-edici müsbət təsiri burada məqbul sayıla bilməz. Misal üçün, soyundan, dərisinin rəngindən, milliyyətindən, cinsindən, yaşından və ictimai-iqtisadi vəziyyətindən asılı olmayaraq hər bir insan varlıq aləminin yeganə və vahid yaradanının olmasını dərk edə bilər. Habelə, o, qəbul edə bilər ki, biz kainatı yaradan Allah qarşısında sitayiş etməliyik. Təsdiq edə bilər ki, insanın cismi və bədənindən başqa ruh adlı gerçəkliyi də vardır ki, şəxsiyyəti ona bağlıdır. Habelə, insan azad iradəli və ixtiyar sahibidir. Deməli, vəzifəsi və məsuliyyəti vardır. Heç bir şəxs və ya ictimai amil insana müəyyən dini rəyi və əqidəni zorla qəbul etdirə bilməz. Hər bir insan daimi olaraq sitayiş etdiyi dindən və məzhəbdən əl götürə və başqa dinə və ya məzhəbə yönələ bilər. İki insan, məsələn iki qardaş tamamilə eyni ictimai və təbii amillərin təsiri altında həyata gələ, tərbiyə ala, tərəqqi edə bilər, lakin eyni halda iki müxtəlif dinə sitayiş edə bilərlər. Məhz buna görədir ki, Qurani-kərimdə insanların din məsələsindəki ixtilafları onların öz ixtiyarına tapşırılmış və məhz ixtiyar amilinə istinad edilmişdir:

«(Şəriət sahibi olan peyğəmbərlər göndərilmələrindən qabaq) bütün insanlar tək bir dəstə idilər. (Səmavi şəriətsiz öz ağıllarının tələbi əsasında yaşayırdılar. Amma yavaş-yavaş özlərinin dünya işlərində ixtilafa düçar oldular). Beləliklə, Allah peyğəmbərləri (səmavi din və şəriətlə) müjdə verən və qorxudan olaraq göndərdi və onlarla birlikdə insanların arasında bir-birləri ilə ixtilafa düçar olduqları şey barəsində hökm çıxarmaq üçün haqq olaraq (və uca, ali və əqli bir hədəf üçün səmavi) Kitab nazil etdi. (sonra Kitabın özü barəsində ixtilaf yarandı) Onda olan ixtilafı, yalnız kitab verilmiş kəslər-özü də onlara (bu barədə) aydın dəlillər gəldikdən sonra-aralarındakı paxıllıq və təkəbbür ucbatından yaratdılar.»[77]

«(Yəhudi və məsihilər kimi) (səma) Kitabı verilmiş kəslər, yalnız onlara (işin həqiqəti barəsində) elm gəldikdən sonra, (özü də) həsəd və təkəbbür ucbatından (öz dinlərində) ixtilafa düşdülər.»[78]

«(Yəhudi və məsihilər) parçalanan və aşkar dəlillər gəldikdən sonra ixtilafa düçar olan kəsləri kimi olmayın. Onlar üçün böyük bir əzab vardır.»[79]

«İnsanlar (xilqətin əvvəlində uzun müddət), yalnız vahid (və ixtilafsız) bir millət idilər. Beləliklə (dünya işlərində ictimai münasibətlərə görə, Kitab nazil olduqdan sonra isə onun özü ilə bağlı) ixtilafa düşdülər. Əgər (əzəli elmində və Lövhi-Məfhuzda) Rəbbindən (bütün dəlil-sübutlar təqdim edilməmişdən əzab verməmək və dəlil-sübutlar təqdim edildikdən sonra da tələsməmək barəsində) bir kəlam keçməsəydi, onların arasında mütləq ixtilaf etdikləri şey barəsində (əməli surətdə) hökm edilərdi.»[80]

Müşahidə etdiyimiz kimi, sonuncu şərif ayənin axırında təhdid, hədələmə vardır. Yəni Allah-Təala buyurur ki, ixtilaf salanları həlak etməli idik. Lakin xilqətin hikməti və Allahın qəza-qədəri bu idi ki, onları tez aradan götürməyək ki, nəsillərindən bəzi mömin insanlar yaransın. Habelə, sonralar Allahın imtahanına çəkilən digər insanlar həyata gəlsin. Allaha qarşı üsyan edən və Allah qarşısında günahkar olan insanların fasiləsiz olaraq əzaba düşməsi məsləhət deyil. Məhz buna görədir ki, Allah tərəfindən gələn əsas cəza tədbirləri Qiyamətə qədər təxirə düşəcəkdir:

«Həqiqətən, İsrail övladlarını düz və ürəyəyatan bir yerdə (Şamda və Beytül-Müqəddəsdə) yerləşdirdik və onlara pak ruzilər verdik. (Sonra onlar din işlərində ixtilafa düşdülər.) Onlar, yalnız (Tövratdakı maariflərdən) onlara elm hasil olan zaman ixtilaf etdilər. Şübhəsiz, sənin Rəbbin Qiyamət günü onların arasında ixtilaf etdikləri şey barəsində hökm çıxaracaqdır.»[81]

«Həqiqətən Biz İsrail övladlarına Kitab (Tövrat, İncil, Zəbur və Suhuf), hökm (hikmət, hökm çıxarmaq və hakimiyyət) və peyğəmbərlik verdik, onlara (bildirçin əti, qüvvət halvası və göydən göndərilmiş süfrə kimi) pak şeylərdən ruzi verdik və onları (zəmanələrində olan) aləmdəkilərdən üstün etdik. Həmçinin onlara (din) işi barəsində aydın dəlillər verdik (ki, onun əsasları və qollarında qaranlıq bir nöqtə qalmasın). Beləliklə, onlar, yalnız (məsələnin həqiqəti barəsində) özlərinə elm yetişdikdən sonra (ancaq) aralarındakı həsəd, həddi aşmaq və təkəbbür üzündən ixtilafa düçar oldular. Həqiqətən sənin Rəbbin Qiyamət günü onların arasında barəsində ixtilafa düçar olduqları bütün şeylər haqda hökm çıxaracaqdır.»[82]

Bu qəbildən olan ayələrdə bildirilir ki, insanların din barədə ixtilafları təkcə onların nadanlığı üzündən və yaxud bir sıra təbii səbəblərə görə deyil, ixtiyari olaraq təkəbbür etmələrinə görədir. Deməli, onlar bu işlərinə görə ilahi əzaba düçar olacaqlar. Habelə həmin ayələrdə göstərilir ki, bütün insanlar bu qəbuledilməz proseslə mübarizə aparmalı və onu aradan götürməlidirlər. Bildiyimizə görə, Quran baxımından İslam peyğəmbərinin

göndərilməsində əsas məqsəd bu idi ki, bu din bütün digər dinlərə qalib olaraq vahid qlobal İslam cəmiyyətini formalaşdırsın. (müraciət edin: «Tövbə» surəsi, ayə: 33; «Fəth» surəsi, ayə: 28; «Səf» surəsi, ayə: 9).

«Biz nəsranilik (Allaha köməyə qalxırıq) deyənlərdən (dünyada pəhrizkar olmaları, sözlərinin bir olması və dində parçalanmamaları barəsində) əhd-peyman aldıq. Onlar sonra xəbərdar edildikləri şeylərdən (İncilin tövhid məsələləri və İslam peyğəmbərinin əlamətləri və sifətləri kimi təlimlərindən) olan layiqli paylarını unutdular. Buna görə də onların arasında Qiyamət gününədək düşmənçilik və kin yaratdıq.»[83]

Bu şərif ayəyə əsasən, məsihilərin bir-biri ilə düşmənçiliyi və onların bir-birinə qarşı kinli olması tarix boyu çoxlu fəsadlara və problemlərə səbəb olmuşdur ki, həmin əzablar onların öz əhd-peymanına əməl etməmələrindən yaranmışdır. Deməli, insanların din və məzhəb barədə ixtilafları və həmin ixtilafların pis nəticələri onların öz ixtiyarındadır.

«Müşriklərdən olmayın. O kəslərdən ki, öz dinlərini parçaladılar, bölük-bölük oldular və hər bir dəstə özündə olana sevinər.» [84]

Bu ayədə isə bildirilir ki, haqq və vahid din dalınca olun və din haqda vəhdətinizi və birliyinizi möhkəm qoruyun.

Marksizm məktəbinin ictimai və mədəni fərqlər məsələsindəki mövqeyi bizim mövqeyə zidd olduğundan, həmin məktəbin bu barədə fikirlərini araşdıraraq təhlil edəcəyik.

# 4. Marksizm sisteminin bəzi qanunları

Fəlsəfi, iqtisadi və sosial-siyasi baxışlar sistemi olan marksizm cərəyanının dörd tərkib hissəsi vardır:

1. Fəlsəfi və ya dialektik materializm;
2. Tarix fəlsəfəsini və sosiologiyanı ehtiva edən tarixi materializm;
3. Siyasi iqtisad təlimlər;
4. Siyasi materializm ki, 1962-ci ildən başlayaraq «elmi kommunizm» adlandı. Bu dörd tərkib hissədən ikinci və müəyyən qədər dördüncü hissələr bizim bəhsimizə daha uyğundur. Lakin ikinci hissə tamamilə birinci hissəyə əsaslandığı üçün, birinci hissə haqda da bəzi izahlar verməliyik.

**1. Fəlsəfi və ya dialektik materializm**

Marksın tərəfdarları öz fəlsəfi sistemlərini «dialektik materializm» adlandırırlar. Bu cərəyanın «materializm» adlanması onların xarici aləmin obyektiv mövcudları haqda görüşlərindən, dialektik adlanması isə həmin filosofların öz fəlsəfi sistemlərindəki metodlarından qaynaqlanır. Biz ilk öncə marksizm fəlsəfi cərəyanının materialist cəhətini nəzərdən keçiririk.

Marksizm cərəyanı materializm ideyasının bir növü və onun bariz və aşkar nümunəsi olduğu üçün ilk öncə materializm təfəkkürünü və materialistlərin fəlsəfənin əsas məsələlərindəki xüsusi təfəkkür tərzini araşdırmalıyıq. Materialistlərin əsas görüşləri aşağıdakılardır:

a) Yalnız materiya obyektiv gerçəkliyə malikdir. Yalnız maddə, materiya və onların xassələri xarici aləmdəki obyektiv gerçəkliyi göstərir. Hər bir həqiqi və obyektiv mövcudluq bizim hiss orqanlarımız tərəfindən dərk olunan, şüur və elmimiz tərəfindən izah edilən, aydınlaşdırılan maddi mövcudluqdan ibarətdir.

b) Fəlsəfi materializm maddənin birinciliyini, fikrin və ya şüurun ikinciliyini iqrar edir. Yəni onların fikrincə, maddə təbiətə tabedir. Başqa sözlə, yalnız maddə real gerçəkliyə malikdir, fikir və şüur isə ondan qaynaqlanır. Onlar fikri və şüuru maddənin inikası kimi qiymətləndirirlər. Deməli, maddə və materiya fikirdən üstündür. Çünki yalnız maddə və materiya substansial gerçəkliyə malikdir. fikir isə maddənin, yalnız bir sifətidir.

v) Ruh mövcud deyil. Başqa təbirlə desək, ruh substansial və ya fövqəltəbii gerçəklik deyil. O, yalnız materiyanın xassələrindən biri kimi maddənin tədrici mərhələlərinin sonunda zühur edir.

q) Allah yoxdur. Allah real, əbədi və əzəli gerçəklik deyil. Bu, yalnız insan fikrinin məhsuludur. Deməli, Allah aləmi və Adəmi yaratmamış, əksinə insanlar Allahı yaratmışdılar. Allah insanların öz xəyal qüvvələri vasitəsilə yaratdığı bir şeydir.

ğ) Kainatın və xarici aləmin fəlsəfi izahını deyil, tam elmi və materialist təfsirini təqdim etməliyik. Bütün elmlər materializm ideyasına əsaslanır. Deməli, sırf fəlsəfi görüşlər əsassız və dəyərsizdir. Filosofların bu iddiası ki, «bəzi real həqiqətləri aydınlaşdırmaq və izah etmək üçün onları elmi və materialist metodlara həvalə etmək olmaz» tam yanlış və əsassızdır.

İndi isə Marksizm fəlsəfəsinin dialektik cəhətini nəzərdən keçirək. Qeyd edək ki, ilk dəfə dialektik və ya paradoksal məfhumların rasional mücadiləsi və qarşılaşması haqda fikirlər Hegel tərəfindən irəli sürülmüşdür. Hegelin dialektik prinsipini «mütləq ideyanın inkişaf mərhələləri» də adlandırmaq olar. O bildirirdi ki, mütləq ideya öz inkişafında üç mərhələdən keçir. Birinci mərhələ ideyanın öz xüsusi aləmindəki inkişafı, ikinci mərhələ ideyanın özgə varlıq formasında inkişaf etməsi, üçüncü mərhələ isə ideyanın təfəkkürdə və tarixdə (ruhdakı) inkişafı nəzərdə tutulur. Marks etiraf edir ki, öz dialektikasını Hegeldən götürmüş, lakin həmin nəzəriyyədə bir çox dəyişikliklər yaratmışdır. Marks bildirir ki, o, dialektikanı abstrakt məfhumlar çərçivəsində məhdudlaşdırmamış, həm də onu xarici aləmə və obyektiv gerçəkliyə aid etmişdir. Dialektikanın əsas qanunları aşağıdakılardır:

– Dəyişkənlik qanunu. Həmin qanuna əsasən, bütün xarici aləmdə müşahidə etdiyimiz obyektiv real gerçəkliklər daimi olaraq olduğu kimi qalmır, dəyişirlər. Tarixdə mövcud olan bütün reallıqlar daimi olaraq dəyişirlər.

– Qarşılıqlı təsir qanunu. Təbiət müstəqil və bir-birindən ayrı olan əşyalardan deyil, bir-birinə bağlı olan proseslərdən təşkil olunmuşdur. Həmin proseslər bir-birinə qarşılıqlı təsir göstərir və onlardan hər biri digərindən asılıdır. Onların bir-birinə təsir göstərməsi daimidir. Təkcə səbəb nəticəyə deyil, nəticə də səbəbə təsir göstərir. Deməli, burada qarşılıqlı əlaqə mövcuddur. Təbiətin ümumi hərəkəti prosesində hər bir mövcud bir yolun sonunda, digər yolun isə başlanğıcındadır.

– Paradoks və ziddiyyət qanunu. Şeylərin və proseslərin dəyişməsi və onların hər birinin öz ziddinə çevrilməsi ondan irəli gəlir ki, onların daxilində paradoks mövcuddur. Yəni həmin mövcudların və proseslərin hər biri öz daxilində özünü inkar edir. Hegelin fikrincə, yalnız mütləq ideyanın inkişaf mərhələlərində ziddiyyət prinsipindən danışmaq olar. Lakin marksizm cərəyanında həmin prosesin təbiət aləmində də cərəyan etdiyi qeyd olunur. Marksizmdə təbiətin də dialektika qanunlarına uyğun hərəkət etməsi göstərilir. Hər bir varlığın öz mahiyyətindəki paradoksun xassəsi odur ki, həmin ziddiyyət xarici aləmdə və real gerçəklikdə yaratdığı bir çox dəyişkənliyə görə, bəzi digər hərəkətlərə zəmin yaradır. Ziddiyyətli qüvvələr arasında cərəyan edən daimi təzadlardan yaranan hərəkət bütün varlıqlarda mövcuddur.

– İnkişaf qanunu. Obyektiv varlıqlar təkcə dəyişkənliyə məruz qalmır, həm də inkişaf edirlər. Mövcudatın dəyişməsi və inkişaf etməsi həmişə tədrici deyil, bəzən sıçrayışla da ola bilər. Bəzən mövcudatın və ya hadisələrin inkişafı kəmiyyət dəyişmələrinin sıçrayışla keyfiyyət dəyişmələrinə keçməsi yolu ilə baş verir. Misal üçün, suyun istilik dərəcəsi yüz dərəcəyə çatdıqdan sonra maye halından buxar halına keçir. Yeni yaranmış sistemlər bunu icad edən keçmiş hadisələrlə izah olunmalıdır. Lakin həmin sistemlərdəki keyfiyyət dəyişmələrini nəzərdən qaçırmamalıyıq. Habelə, bunu unutmamalıyıq ki, inkişaf sıçrayış yolu ilə və ya başqa sözlə desək, inqilab vasitəsilə həyata keçir. Həm təbiət, həm də tarix sıçrayışla həyata keçən bu dəyişmələrlə tanışdır.

– İnkişafın ilkin vəziyyətinin bir sıra tərəfləri və cəhətlərinin yüksək əsasda yenidən təkrar edilməsi qanunu. Bu qanun onu göstərir ki, təbiət və tarixdəki inkişaf prosesi daimi olaraq daha yaxşı və yeni vəziyyətlər yaradır.

Dialektikanın əsas qanunlarını nəzərdən keçirdikdən sonra görürük ki, marksizm məktəbi istər-istəməz dialektikanı təkcə mövcudatın tanınması, habelə dünyanın real sisteminin necə olması barədə elmi araşdırmalar

vasitəsi deyil, həm də onun obyektiv qanun kimi bütün təbiətə hakim olduğunu vurğulayır. Başqa təbirlə desək, marksizmə görə, dialektika həm təbiətdə olan prosesləri araşdırmaq üçün bir elmi metod, həm də mövcudatın daxilində cərəyan edən məntiqi sistemi aydınlaşdırmaq üçün vasitədir. Dialektika həm metod, həm də ideya sayıla bilər.

## 2. Tarixi materializm

Tarixi materializm tarixdə baş verən hadisələrin və dəyişkənliklərin universal qanunlarının elmi nəzəriyyəsi kimi nəzərdən keçirilir. Bu əsasla, tarixi materializm fəlsəfi materializmdən fərqlənərək xarici və real aləmin bütün aspektlərini əhatə edən nəzəriyyə deyil, yalnız tarixin cərəyanları və prosesləri ilə məhdudlaşır. Tarixi materializmin predmeti sosiologiya və tarix fəlsəfəsi qanunlarıdır ki, bəşər cəmiyyətinin bütün mərhələlərində, o cümlədən, sonuncu kommunizm mərhələsində mötəbər sayılır. Tarixi materializmin əsas qanunları aşağıdakılardır:

a) Cəmiyyət və tarixdə heç bir fövqəltəbii qüvvə təsir bağışlaya bilməz. Çünki yeganə gerçəklik materiyadır. Həm də cəmiyyət və tarixi hərəkətə gətirən onların daxilindəki mövcud ziddiyyətlərdir. İnsanlar özləri cəmiyyət və tarixlərini formalaşdırırlar. Şübhəsiz, insanlar öz tarixlərini arzular və ideyalarına uyğun deyil, materialist qanunlara uyğun yaradırlar.

b) Hər bir cəmiyyətin əsasını insanlar arasındakı istehsal münasibətləri təşkil edir. Bu iqtisadi gerçəklik ikinci dərəcəli deyil, birinci dərəcəli əhəmiyyətə malikdir. Həmin reallıq bütün ictimai prosesləri yaradır. Biz ictimai həyatı iqtisadi münasibətlər reallığına əsasən izah etməliyik. İctimai həyat dedikdə isə, cəmiyyətdə baş verən bütün siyasi, hüquqi, əxlaqi, fəlsəfi, dini və incəsənət zəminində baş verən təzahürlər və təsəvvürlər nəzərdə tutulur. Bu əsasla, bütün bəşər mədəniyyəti və sivilizasiyası iqtisadi qüvvələrin və amillərin təsiri altındadır. Lakin qarşılıqlı təsir qanununa görə, iqtisadi reallığın təsiri nəticəsində formalaşan siyasi, hüquqi, fəlsəfi, əxlaqi və sair proseslər yenidən iqtisadi həyata təsir edir. Lakin əhəmiyyətlisi budur ki, cəmiyyətin iqtisadi əsaslarıdır ki, uzun müddət ərzində ictimai həyatın təzahürlərini təyin edir. Deməli, hər halda, iqtisadiyyat tarixdə baş verən dəyişkənliklərin əsas amilidir.

v) Dedik ki, hər bir cəmiyyətin əsaslarını insanlar arasındakı istehsal münasibətləri təşkil edir. Bu o deməkdir ki, iqtisadi-texnoloji inkişaf və

insanların ictimai münasibətləri arasındakı rabitə cəmiyyətin hüquqi və siyasi institutlarında, habelə insanların din, məzhəb, fəlsəfə və incəsənət sahəsindəki düşüncə tərzlərinə təyinedici təsir bağışlayır. Habelə, hər bir cəmiyyətin tarixi hərəkətinin əsas səbəbi iqtisadi-texnoloji inkişafla insanların ictimai münasibətləri arasındakı ziddiyyətlərdir. Qeyd edək ki, insanların İctimai münasibətləri iqtisadi-texnoloji inkişaf prosesindən daha aşağı sürətlə formalaşır. Deməli, sürətlə inkişaf edən iqtisadi-texnoloji proseslər və aşağı sürətlə formalaşan İctimai münasibətlər arasında daim ziddiyyət yaranır. Bu ziddiyyətlər ictimai münasibətlərin iqtisadi-texnoloji inkişafa mane olmasına gətirib çıxararsa, bu vaxt ictimai inqilablar mərhələsi formalaşmağa başlayar. Başqa təbirlə desək, iqtisadi-texnoloji inkişaf İctimai münasibətlərlə çiyin-çiyinə hərəkət edənə qədər cəmiyyət də lazım olan həmahənglikdən bəhrələnəcəkdir. Misal üçün, orta əsrlər dövründə iqtisadi-texnoloji inkişaf əl sənayesi mərhələsində idi. Bu səbəbdən, xüsusi mülkiyyətə əsaslanan ictimai münasibətlərlə uzlaşırdı. Çünki onların hər ikisi şəxsi və spesifik mərhələdə idi. Lakin iqtisadi-texnoloji inkişafla ictimai münasibətlər arasında uyğunluq olmasa, bu vaxt cəmiyyət çətin vəziyyətlə üzləşəcəkdir. Müasir cəmiyyətdə iqtisadi-texnoloji inkişaf iş qüvvəsinin istehsal müəssisələrində cəmləşdiyi üçün kollektiv forma almışdır. Halbuki, mülkiyyət hələ də fərdi və xüsusi xarakterini özündə qoruyub saxlayır. Yəni əl sənayesi mərhələsində qalmışdır.

q) İqtisadi-texnoloji inkişafın ictimai münasibətlərlə ziddiyyətli məqamlarında cəmiyyətin bir təbəqəsi hazırda iqtisadi-texnoloji inkişafın qarşısında maneəyə çevrilmiş qədim ictimai münasibətlərlə uzlaşır. İnkişaf etmiş digər təbəqə isə cəmiyyətin yeni ictimai münasibətlərinin göstəricisi olaraq iqtisadi inkişafın qarşısını almaq əvəzinə, mümkün qədər iqtisadiyyatın inkişafının həyata keçməsi üçün öz səylərini əsirgəmir. Deməli, hər bir cəmiyyətdə iki böyük ictimai təbəqə mövcuddur. Onlardan biri hazırkı vəziyyətin qorunmasını, digəri isə yeni cəmiyyətin formalaşmasını tələb edir. Sıçrayış yolu ilə inkişaf qanununa əsasən, varlıq aləminin bütün hərəkətləri kamillik istiqamətində olduğundan mövcud vəziyyətin qorunmasını tələb edən ictimai təbəqə mürtəce, yeni vəziyyətin yaranmasını istəyən təbəqə isə mütərəqqi sayılır. Birinci təbəqə cəmiyyətin hakimləri və insanları istismar edən şəxslər, ikinci təbəqə isə qul və istismar olunmuş insanlardır.

Həm «ictimai sinif» məfhumu həm də ictimai siniflərin tarixdəki qarşılıqlı mübarizəsinin təsiri təlimi Marksdan öncə digər tarixçilər, iqtisadçılar və mütəfəkkirlər tərəfindən irəli sürülmüşdür. İctimai siniflərin mübarizəsi nəzəriyyəsinin ilk təzahürünü hətta Platonun fəlsəfi nəzəriyyələrində də müşahidə etmək olar. Misal üçün, Platon ölkələri bir neçə qismə bölür və yaxud ən azı iki düşmən ölkəyə ayırır ki, biri varlı, digəri isə kasıbdır. Platondan çox sonra (Marksın və marksizm ideyasından öncə) İctimai siniflərin problemləri məsələsi Sen-Simon və Prudon tərəfindən təqdim olunmuşdu. Bu barədə Marks və Engelsin gətirdikləri yenilik bundan ibarətdir ki, onlar «ictimai sinif» və «ictimai siniflərin qarşılıqlı mübarizəsi» məfhumunu tarix aspektindən araşdırmağa başladılar. Habelə, onlar ictimai siniflərin yaranmasını və onların xüsusiyyətlərini, həmçinin proletar (fəhlə) sinfinin xassələrini təhlil etməyə çalışdılar.

«İctimai sinif» məfhumu nədir? İctimai sinif elə bir ictimai qrupdur ki, istehsalın həm texnoloji, həm də hüquqi prosesində müəyyən və vahid mövqeyə malikdir. Müəyyən bir ictimai sinifə mənsub olan insanlar iqtisadi fəaliyyətlərdə yaşam və təfəkkür tərzində müştərək olmazdan əlavə, psixoloji baxımdan, hətta başqa təbəqəyə qarşı düşmənçilik hissi aspektindən müəyyən ortaq cəhətlərə malikdirlər. Müxtəlif və pərakəndə fikirlərə malik olan insanlar ictimai sinif təşkil edə bilməzlər. Müəyyən ictimai sinif yaratmaq istəyən insanlar vahid gəlir mənbəyinə malik olmalı, onların ictimai gerçəklikləri ortaq cəhətlərə malik olmalı, onlar öz ortaq gerçəkliklərinə milli səviyyədə agah olmalı, ictimai institutun müəyyən bir növünü (ictimai sinfi) təşkil etmək üçün vahid iradə nümayiş etdirməli və onların hamısı başqa ictimai sinfin əleyhinə mübarizə aparmalıdırlar. Başqa təbirlə desək, marksizm ideologiyasında ictimai siniflərin iki ünsürü vardır. Onlardan biri istehsal vəzifəsi, digəri isə ictimai sinfə mənsub olan insanların şüurlu şəkildə fəaliyyət göstərməsidir. İqtisadi ünsür ideoloji ünsürlə eyni vaxtda mövcud olmalıdır. İctimai siniflərin əsası və bünövrəsi iqtisadi məhsulların istehsalı və satışı haqda olan ictimai siniflərin vəzifəsinə bağlıdır. Bu vəzifə ictimai sinfə mənsub olan insanların həyat tərzini, şüurunu, ideologiyasını, mədəniyyətini, siyasi vəziyyətlərini və ictimai siniflərin digər aspektlərini müəyyənləşdirir. İctimai siniflərin mövcudluğu onların bir-biri ilə qüdrət və malikiyyət uğrunda mübarizə aparması cərəyanında meydana çıxır. Bir sözlə, ictimai siniflərin formalaşmasında həm obyektiv və fərdi kollektiv iradələrdən tam müstəqil

olan amillər, həm də əqidə və agahlıq kimi zehni ünsürlər təsirlidir. Marksın fikrincə, hər bir cəmiyyətdə, yalnız iki böyük ictimai sinif mövcuddur. Onlardan biri ideologiya irəli sürür, digəri isə iqtisadi fəaliyyətlə məşğuldur.

ğ) Göründüyü kimi, çox sürətlə formalaşan və inkişaf edən iqtisadi-texnoloji proseslərlə, adətən geridə qalan ictimai münasibətlər arasında, başqa sözlə desək, istismar edən və istismar edilən ictimai siniflər arasında mövcud mübarizələr inqilabların və müəyyən ictimai sistemin süqut etməsinin və digər bir sistemin bərpa olmasının əsas səbəbidir. Bu prinsipi əsas götürərək deyirik: Marksizm fəlsəfəsinə görə, bütün dünya cəmiyyətlərinin formalaşması prosesi beş mərhələdən ibarətdir: İbtidai icma mərhələsi, quldarlıq mərhələsi, feodalizm mərhələsi, kapitalizm mərhələsi və sonuncu kommunizm mərhələsi. Tarixdə baş verən bütün proseslərin təkamülə doğru hərəkət etməsinə əsasən, bu ictimai sistemlərin hər biri özündən qabaqkı sistemin daha kamil formasıdır. Deməli, sonuncu-kommunizm mərhələsi bəşər tarixinin ən ideal və kamil ictimai sistemi olacaqdır.

**3. Elmi kommunizm nəzəriyyəsi**

Elmi kommunizm nəzəriyyəsində (dünya miqyasında) kapitalizm mərhələsindən sonuncu kommunizm mərhələsinə keçid, habelə, sonuncu kommunizm mərhələsinin ilk dövrü olan sosialist cəmiyyətinin formalaşmasının hansı vasitələrlə həyata keçməsi araşdırılır. Varlıq aləminin bütün hadisə və proseslərinin qanunauyğunluğu ilə sübuta yetən elmi kommunizm nəzəriyyəsinin ön fərziyyəsi belədir: Kapitalizm mərhələsindən kommunizm mərhələsinə keçid qanunauyğun və qaçılmaz bir cərəyandır. Heç şübhəsiz, kapitalizmdən kommunizmə keçid baş tutacaqdır. Burada, yalnız bu keçidin nə vaxt və necə baş verməsi araşdırıla bilər. Yəni həmin cərəyanın hansı yolla və metodlarla həyata keçməsi əsas müzakirə obyektidir. Bizim bəhsimizə aid olan elmi kommunizm nəzəriyyəsinin bəzi qanunları aşağıdakılardır:

a) Kapitalizm mərhələsində bütöv cəmiyyət bir-birinə qarşı sərt mübarizə aparan iki böyük sinfə yəni kapitalist və yaxud burjuaziya və fəhlə, yaxud proletariat sinfinə bölünür. Bu iki ictimai sinfin mübarizəsi ictimai inqilab yaradır və kapitalizmin ömrünə son qoyur. Şübhəsiz, həmin

ictimai inqilabın həyata keçməsi üçün şərtlər, o cümlədən, həmin iki sinfin təzadlarının şiddətlənməsi zəruridir.

b) Quldarlıq və feodalizm dövründə olduğu kimi, kapitalizm mərhələsində də dövlət istismarçı təbəqənin və sinfin hakimiyyətə gəlməsi üçün yeganə vasitədir. Deməli, bu mərhələdə iş başına gələn hər bir siyasi sistem kapitalistlərin mənafelərini qoruyur və onların nümayəndəsi kimi cəmiyyətdə qüdrətlərini emal edirlər.

v) Kapitalizm dövründə din xadimləri də kapitalistlərin mənafelərinin xidmətində durur və onların ictimai təcavüzlərinə don geyindirirlər. Din xadimləri dinin ictimai hökmlərinə istinad edərək quldarlıq dövründə qul olmağı, feodalizm mərhələsində isə əkinçi olmağı tövsiyə edirlər. Onlar lazım gəldikdə kapitalist sinfinin haqsızlıqlarını da təsdiq etməyi bacarırlar. Dinin ictimai hökmləri hakim və məhkum siniflərin olmasının lüzumunu tövsiyə edir. Həmçinin, dində ictimai fəsadlardan törənən bütün problemlərin həlli Axirət dünyasına həvalə olunur. Beləliklə, həmin ictimai problemlərin bu dünyada davam etməsini Allahın Öz bəndələrini imtahana çəkməsi kimi izah edir. Ruhanilər qeyrətsizliyi, qorxaqlığı, insanın özünü təhqir etməsini, başqalarından asılı olmağı, alçaqlığı, bir sözlə, bütün pis və bəyənilməyən xüsusiyyətləri tövsiyə edir və bu yolla xalqı zülmkar qüdrətlilər qarşısında ram olmağa çağırırlar.

q) Lakin dövlətin ümumi kütləyə qarşı zor tətbiq etməsi və din xadimlərinin riyakarlığı və insanları aldatması kapitalizmin süqut etməsinə mane ola bilməyəcək. Kapitalizm mərhələsinin sona çatması təbiətin cəbri qanunlarının təsiri nəticəsində həyata keçir. Yəni tarix baxımından bu, qaçılmazdır. İnsanların fəaliyyəti, yalnız onu sürətləndirə və ya təxirə sala bilər. Kapitalizm süqut etdikdən sonra, kommunizmin birinci dövrü, yəni sosializm meydana çıxır. Sosialist cəmiyyətinin bəzi xüsusiyyətləri aşağıdakılardır:

Birinci: Sosializm dövrü, yalnız keçid mərhələsidir. Deməli, tamamilə müvəqqətidir.

İkinci: Sosialist cəmiyyətdə dövlət qurulur. Lakin burada qurulan dövlət fəhlə və ya proletar sinfinin inqilabi və sərt diktatorluğuna zəmin yaradır.

Üçüncü: Proletarların diktatorluğu vasitəsilə qədim, varlı və qüdrətli siniflər təmizlənir, habelə, onların fikirlərini və görüşlərini bildirən bütün hüquqi, fəlsəfi, dini, ədəbi və incəsənət sistemləri bu siniflərin özü ilə

bərabər əzilir. Xüsusilə, sosialist cəmiyyətlərində dinin məhv edilməsi üçün səylər əsirgənmir.

Dördüncü: Proletarların diktatorluğu kapitalistlərin var-dövlətinin müsadirə, yəni qəsbkarların var-dövlətini qəsb edir. İstehsal vasitələrinin xüsusi malikiyyəti, o cümlədən, torpaq ləğv edilir və dövlətə həvalə olunur. Beləliklə, dövlət sosialist sistemi, daha dəqiq desək, kollektiv sistem formalaşır.

Beşinci: Sosialist cəmiyyətində hər bir şəxs nə qədər bacarırsa, o qədər işləyir və işlədiyi qədər əmək haqqı alır.

ğ) İnsanları istismar etmək dövrü kapitalizm mərhələsilə sona yetsə də, bu, kommunizmin yaranması demək deyil. Çünki sosializm dövrünün kollektiv görüşləri hələ də bəzi bərabərsizliklərə səbəb olur. Həmçinin, burada bir növ məcburiyyət hökm sürür. Bərabərsizlik ona görədir ki, başqasından daha mahir və istedadlı fəhlə daha çox əmək haqqı alır. Məcburiyyət isə ona görə ki, dövlət hələ də öz fəaliyyətinə davam edir və cəmiyyətin iqtisadiyyatının hamısını öz əlində saxlayır. Bütün bunlar sosialist cəmiyyətində inkaredilməz və qaçılmaz eyiblərdir və onlar kapitalizm dövrünün hüquqi sistemindən qalan qalıqlardır. Lakin bütün bu çatışmazlıqlar sonuncu kommunizm dövründə aradan getməlidir. Kommunist cəmiyyətinin bəzi xüsusiyyətləri aşağıdakılardır:

Birinci: Kommunizm mərhələsi bəşər tarixinin ən son mənzili və qərargahıdır. Deməli, nə qədər insan həyatı varsa, kommunizm mərhələsi də dəyişməz olaraq qalacaqdır.

İkinci: Sosializm dövrü özündə bir neçə ictimai sinfi ehtiva edirdi. Burada fəhlə sinfi siyasi baxımdan daha üstün sayılırdı. Kommunizm mərhələsi isə tam sinifsiz cəmiyyət formalaşdıracaqdır.

Üçüncü: Sosialist cəmiyyətinin siyasi sistem baxımından əsas xüsusiyyəti proletar sinfin dövlət qurması və diktatorluğu idi. Kommunizm mərhələsinin xüsusiyyəti isə onun dövlətsiz olmasıdır. Çünki dövlət iqtisadi hakimiyyətin göstəricisidir. Biz iqtisadi hakimiyyəti və istismarçı sinfi aradan götürdükdə, hakimiyyətin polis və ordu kimi qüdrət simvolları da aradan gedəcəkdir. Kommunist cəmiyyəti qurulduqdan sonra dövlət öz-özünə aradan gedir. Diqqət edin, kommunist cəmiyyətində dövlət hansısa bir qüvvə tərəfindən məhv edilmir, həmin cəmiyyətdə dövlət tədricən solur və ölür. Dövlət aradan götürüldükdən sonra, ictimai məcburiyyət də öz mövcudluğunu itirir və insanlar hər hansı bir sərt qanunlara və ya dövlət

adlı xüsusi qüvvəyə ehtiyac duymadan ictimai qanunlara riayət edirlər. Yəni həmin cəmiyyətdə ictimai tarazlıq və nizam-intizam öz-özünə və təbii formada yaranır.

Dördüncü: Kommunist cəmiyyətində iş bölümü sistemi ləğv ediləcəkdir. Müxtəlif ictimai siniflərə bölünməyən vahid kommunist cəmiyyəti özündə müxtəlif ictimai sinifləri ehtiva edən kapitalist cəmiyyəti ilə əvəz olunduğu kimi, həmin cəmiyyətdə kamil və tam insan naqis insanın yerini tutacaq. Kapitalist cəmiyyətində insanlar iş bölümü rejiminin tətbiq olunması nəticəsində müxtəlif hissələrə bölünmüşdülər. Marks deyirdi: «İş bölümü» və «malikiyyət» oxşar terminlərdirlər. «İş bölümü» termini iqtisadi fəaliyyətə, «malikiyyət» termini isə iqtisadi fəaliyyətin məhsulu zəminində işlənir. Başqa təbirlə desək, iş fəaliyyətinin bölünməsi malikiyyətin bölünməsinə, yəni fərdi və xüsusi malikiyyətin yaranmasına səbəb olur. Müştərək iqtisadi fəaliyyət isə müştərək malikiyyət yaradır. Deməli, kollektiv və müştərək kommunist cəmiyyətinin yaranması iş bölümü rejiminin ləğv olunmaması ilə mümkün deyildir. Yəni kollektiv iş rejimi kommunist cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir. Marks həmçinin yazır: Kommunist cəmiyyətində heç kəs müəyyən fəaliyyət sahəsilə məhdudlaşmır. O, istədiyi sahədə inkişaf edə bilər. Burada ümumi istehsalı tənzimləyən amil cəmiyyətdir. Yəni cəmiyyət fərdlərə imkan yaradır ki, istədiyi gündə hər hansı bir işi görə bilsin. Misal üçün, hər bir şəxs səhər çağı ova gedir, günorta vaxtı isə balıq tutmağa çıxa bilər. Axşam vaxtı heyvandarlıqla, şam yeməyindən sonra isə elmi araşdırmalarla məşğul ola bilər. İş bölümü rejimi aradan getdikdən sonra, ictimai siniflərin müxtəlifliyi nəticəsində yaranan fiziki və psixi iş arasındakı fərqlər də aradan qaldırılacaqdır.

Beşinci: Kommunist cəmiyyətində fərdi və xüsusi malikiyyət tamamilə aradan qaldırılacaqdır. Sosialist cəmiyyətində hər bir şəxs işlədiyi qədər əmək haqqı alırdı. Kommunizm mərhələsində isə hər bir şəxs öz məişət problemlərini həll etmək üçün ehtiyac duyduğu qədər əmək haqqı alacaqdır. Beləliklə, iqtisadi bərabərsizlik tamamilə məhv ediləcəkdir.

Altıncı: Kommunist cəmiyyətində qadınlar və kişilər bərabər hüquqa malik olacaqlar. Bu məqsədə nail olmaq üçün hər şeydən öncə bütün qadınlar ümumi sənayedə iştirak edəcəklər ki, fəhlə və istehsalçı vəzifəsini kişilər kimi yerinə yetirə bilsinlər. Bu vaxt ev işləri və ailə vəzifələrinə xələl gəlməmək üçün, cəmiyyət dünyaya gələn bütün uşaqları eyni səviyyədə

himayə edəcəkdir və onların hamısını tərbiyə edərək cəmiyyətə təhvil verəcəkdir. Kommunist cəmiyyətində uşaqların saxlanılması və düzgün tərbiyə olunması problemi həll olduqdan sonra digər bir problem də öz həllini tapır. Bu da insanlarda fitri şəkildə mövcud olan cinsi instinktinin təmin edilməsidir. Kommunist cəmiyyətində tədricən cinsi instinktlər tam azad şəkildə təmin edilməyə başlayır.

Beləliklə, qadınlar ən qədim zamanlardan onları öz əsarətində saxlamış qanunlardan yaxa qurtaracaq, kişilərin qadınlardan üstün olması ideyası aradan götürüləcəkdir. Bu vaxt nikahları tənzimləyən və onların müddətini müəyyənləşdirən yeganə amil eşq olacaqdır.

Yeddinci: Dinin insanlara bəxş etdiyi xoşbəxtlik xülya olduğundan, bu, onların obyektiv və həqiqi xoşbəxtliyinin çöhrəsinə örpək salır. Habelə, din, yalnız ictimai münasibətlərin inikası olduğu üçün (lakin bu inikas ictimai münasibətlərin dərin bərabərsizliklərini görməyə mane olur), aydın məsələdir ki, kommunist cəmiyyətinin bərpa edilməsi ictimai münasibətləri aydınlaşdıracaq və bu gün kapitalist cəmiyyətinin bizim gözümüz önündə çəkdiyi pərdəni kənarlaşdıracaqdır. Kommunist cəmiyyətində dövlət qüvvələri tədricən aradan getdiyi kimi, din də öz-özünə aradan qalxacaqdır.

# 5. Marksizmin iki iddiası və onun rəddi

Marksizm sisteminin burada nəzərdən keçirdiyimiz qanunlarının hamısını araşdırmaq və onları tənqid etmək müstəqil kitab tələb edir. Bundan əlavə, bu geniş araşdırma bizim hazırkı bəhsimizə o qədər də uyğun deyildir. Lakin biz marksizmin fəlsəfi hissəsini-digər hissələr üçün bünövrə xarakteri daşıdığından-bir neçə aspektdən tənqid etmişik. Burada marksizm sisteminin ictimai və mədəni fərqlər barədə olan iddiasını araşdıraraq öz fikirlərimizi irəli sürəcəyik. Əziz oxucularımıza isə bu haqda daha geniş məlumat əldə etmək üçün marksizm fəlsəfəsi haqda olan mövcud kitablara müraciət etməyi məsləhət görürük.

Bizim əqidəmizə görə, maddi əşyalar obyektiv gerçəkliyə malik olsalar da, bütün varlıq aləmi təkcə materiyadan və onun xassələrindən ibarət deyil. Materiya və onun xüsusiyyətləri xarici aləmdə mövcuddurlar. Lakin xaricdə həqiqi gerçəkliyə malik olan bütün mövcudat maddi deyil. Mövcudatın bir çoxu abstrakt və qeyri-maddidir. O cümlədən, Allah-Təala ki, bütün varlıq aləminin ilk və tam səbəbidir.

Habelə, bütün insanlarda mövcud olan ruh da təbii və maddi varlıq deyil, fövqəltəbii və substansional bir gerçəklikdir. Deməli, maddənin xassələrindən sayılmır. Maddənin zaman və məkan və sair cəhətləri (en, uzunluq, qalınlıq) onun zati xüsusiyyətlərindən olduğu kimi, həyat, elm, idrak və iradə də ruhun zati xassələrindəndir. Cism və bədən maddi varlıq olaraq həmin xüsusiyyətlərə malik deyildir.

Şübhəsiz, ruh və bədən arasında qarşılıqlı təsiretmə və təsirlənmə, habelə ikitərəfli həmkarlıq münasibəti mövcuddur. Lakin bütün bunlar bədənin birinci və ruhun ikinci dərəcəli varlıq olmasını göstərmir. Habelə, bununla sübuta yetirmək olmaz ki, ruhla bağlı olan proseslər və onlarda baş verən dəyişkənliklər tamamilə bədəndə baş verən proseslər və dəyişkənliklərə

bağlıdır. Ruh bədəndən müstəqil olaraq abstrakt və substansional bir varlıqdır və bədənə tabe deyildir. Hətta birinci və əsl gerçəklik bədənə deyil, ruha aiddir. Çünki çox hallarda ruh bədəni öz məqsədləri üçün işə vadar edir. Bu vaxt bədən, yalnız bir vasitə kimi ruhun tapşırıqlarını yerinə yetirir.

İnsanların zehni fəaliyyətləri, onlarda mövcud olan qorxu, ümid, ehtiyac, arzu, maraq və digər xüsusiyyətlər ictimai həyatı formalaşdıran amillər olduğundan, biz cəmiyyətləri və cəmiyyətlərdə mövcud olan ictimai institutları fərqlərdə mövcud olan xüsusiyyətin təzahürləri kimi qələmə verə bilərik. İnsanların ictimai mühitinin əsası onların tərəfindən qoyulmuş və ictimai mühitin qanunları, onda mövcud olan ictimai institutlar insanın fiziki və psixoloji xüsusiyyətlərindən qaynaqlanan qərarlar və işlər nəticəsində formalaşmış və onun işləri və qərarları ilə də dəyişirlər. Misal üçün, ən əhəmiyyətli ictimai institutlardan biri iqtisadiyyat institutu, yalnız bəşər həyatının maddi ehtiyaclarını təmin etmək üçün yaranmışdır. Bir sözlə, ictimai institutların yaranmasında canlı təbiətlə bağlı amillərin böyük təsirini inkar etməsək, də lakin danılmaz faktdır ki, ictimai institutları araşdırarkən onların hamısının insanlar vasitəsilə müəyyən məqsədləri və maraqları təmin etmək üçün yarandığını görürük. Cəmiyyət bəşər təbiətinə və insanın vücudundakı müxtəlif aspektlərə malik olan müxtəlif insanların qarşılıqlı təsiri və həmkarlığı nəticəsində meydana gəlmişdir. Deməli, cəmiyyət və kollektiv, həyatda baş verən hadisələr, habelə hər bir cəmiyyətdə mövcud ictimai institutlar bəşər təbiətinə əsasən və insanın psixoloji və bioloji aspektlərini nəzərə almaqla izah olunmalıdır. Bütün bunları nəzərə almadan cəmiyyətin formalaşması prosesi öz düzgün izahını tapa bilməz.

Göründüyü kimi, ruhla bağlı olan proseslər tamamilə bədənə aid deyil, hətta ruhun real gerçəkliyi bədəndən daha çoxdur. Digər tərəfdən, məlum oldu ki, bütün ictimai hadisələr sonda insanın bioloji və psixoloji cəhətlərinə bağlı olan amillərlə izah edilməlidir. Bu əsasla deyirik ki, biz bütün ictimai institutları, habelə cəmiyyətdə baş verən müxtəlif prosesləri insanların maddi və fiziki cəhətləri ilə əsaslandıra bilmərik. Başqa sözlə, iqtisadiyyat institutu digər ictimai institutların bünövrəsi deyil. Burada birinci dərəcəli sayılan ictimai institut insanların mənəvi və əxlaqi cəhətlərini tərbiyə edən və onların ülvi maraqlarından qaynaqlanan institutdur. Hər bir ictimai institutun əhəmiyyəti və üstünlüyü tamamilə

həmin ictimai institutun əsaslandığı insan təbiətinin psixoloji köklərinə bağlıdır. Deməli, hər bir cəmiyyətin birinci dərəcəli ictimai institutu onun insan psixikasının hansı bir cəhətindən yaranması ilə ölçülür. Şübhəsiz, insan vücudunun ən birinci və əhəmiyyətli cəhəti maddi və fiziki xarakter daşımır.

Marksizm fəlsəfəsi hər bir cəmiyyətin müxtəlif ictimai siniflərə bölünməsini sübut etmək (burada kommunist cəmiyyəti istisna olunur) və həmin ictimai siniflərin arasındakı təzadları bildirmək üçün paradoks qanununa istinad edir və onu dialektikanın cövhəri və substansiyası adlandırır. İndi isə Marksın bu müddəasının rəddi barədə:

Birinci: Paradoks qanunu batil və əsassızdır. Allah və ruh kimi abstrakt və qeyri-maddi mövcudat haqda danışarkən onların mürəkkəb mövcudlar olmasını vurğulamaq tam mənasız və yanlışdır. Bir neçə hissənin mürəkkəb forması olan maddi mövcudat isə bir-birinə zidd olan iki üzvü özündə cəmləşdirə bilməz. Marksizm fəlsəfəsində hər bir mövcud iki zidd şeyin tərkib forması kimi təsvir edilir. Halbuki, onlar qəti bir fəlsəfi qanunu nəzərdən qaçırırlar: «İki zidd şeyin bir yerdə cəmləşməsi qeyri-mümkündür.» Beləliklə, bir-biri ilə təzadlı münasibətdə olan iki mövcudun bir yerdə cəmləşməsi qeyri-mümkündür. İki təzadlı mövcudun vahid bir mövcudda deyil, bir-birinə yaxın yerlərdə cəmləşməsini isə təsəvvür etmək olar. Yəni qəbul etmək olar ki, həmin təzadlı mövcudlar bir-birinə çox yaxındır, onların arasında qarşılıqlı təsir nisbəti var və hər biri digərinin xüsusiyyətlərini məhv etməyə çalışır. Misal üçün, odun üstünə su töksək, od olan yerdə su, su olan yerdə isə od olmayacaq. Burada, yalnız odun və suyun bir-birinə birləşməsi və bu yaxınlıq nəticəsində bir-birinə təsir bağışlaması təsəvvür oluna bilər. Od suyun istilik dərəcəsini çoxaldır və beləliklə onun buxarlanmasına səbəb olur. Su isə yanan maddələrin havada mövcud olan oksigenlə birləşməsinin qarşısını alır və bununla da od sönür. Burada məcazi olaraq suyun və odun bir-birinə zidd olmasından, yaxud bir yerdə suyun və odun cəmləşməsindən danışmaq olar. Lakin diqqət yetirmək lazımdır ki, bu ziddiyyət hər bir sağlam düşüncəli insan tərəfindən qeyri-mümkünlüyü təsdiq edilən fəlsəfi ziddiyyətdən çox fərqlidir. Hər halda, hər bir mövcudun iki zidd şeydən mürəkkəb olmasını iddia etmək tam əsassız və yanlışdır.

İkinci: Bir neçə ictimai sinfi özündə ehtiva edən cəmiyyət obyektiv real şəxsiyyətə və gerçəkliyə malik deyildir ki, bir-biri ilə qarşılıqlı mübarizədə

olan iki ictimai sinfi özündə yerləşdirən vahid mövcud kimi qələmə verilsin.

Üçüncü: Fərz edirik ki, hər bir mövcud özündə iki zidd şeyi ehtiva edir və cəmiyyət də vahid və obyektiv gerçəklikdir, cəmiyyətin iki təzadlı ictimai sinfi də bir-biri ilə mübarizə edir, lakin bütün bunlara baxmayaraq, hər bir cəmiyyətdə mövcud olan iki ictimai sinfin, yalnız iqtisadi və maddi zəmində bir-biri ilə mübarizə aparmasını necə sübuta yetirmək olar? Məgər insanın şəxsiyyəti, yalnız onun gözü, qulağı, burnu və dili ilə xülasə olunurmu? Məgər insanın maddi və bədən ehtiyaclarından savayı başqa ehtiyacı yoxdurmu? Öncə qeyd etdiyimiz kimi, insan həm bədən, həm də ruha malik olan bir varlıqdır. Onların hər biri də özünəməxsus cəhətləri ehtiva edir. İnsanlarda mövcud olan müxtəlif maddi və mənəvi cəhətlərə müvafiq olaraq, cəmiyyət də müxtəlif institutlara bölünür. Həmçinin, öncə məlum oldu ki, insan etikasına, mədəniyyətinə və mənəviyyatına aid olan ictimai institutlar ən yüksək dərəcəyə malikdirlər. Bütün bunları nəzərə alaraq, hansı əsasla marksizm fəlsəfəsi iqtisadiyyat institutunu digər ictimai institutların bünövrəsi adlandırır və insanlar arasında bütün qarşılıqlı mübarizələri iqtisadi mübarizələrə həvalə edir? Nə üçün müharibələrdən çoxunun milli, siyasi, dini, məzhəbi və ya digər zəminlərdə baş verməsi ehtimalı nəzərə alınmır?

Dördüncü: Fərz edək ki, hər bir cəmiyyət özündə iqtisadi və maddi məsələlər üzərində bir-biri ilə mübarizə aparan iki ictimai sinfi ehtiva edir. Belə olan halda, həmin ictimai siniflərdən birinin istismarçı, digərinin isə istismar olunan sinif olmasını necə sübut etmək olar? Cəmiyyətdə mövcud olan ziddiyyət hakim sinfə mənsub olan iki dəstə arasında ola bilməzmi? Xristian dünyasının orta əsrlər tarixində baş verən ən böyük və uzunmüddətli hadisələrindən biri papalarla şahların müharibəsi olmuşdur. Bu isə hakim sinfə mənsub olan iki dəstə arasında müharibənin və mübarizənin aşkar və danılmaz nümunəsidir. Şübhəsiz, bu müharibələri istismarçı və istismar edilən siniflər arasında baş verən sinfi mübarizələr və müharibələr adlandırsaq, yanılarıq.

İndi isə marksizm məktəbinin mədəniyyət fərqləri barədə irəli sürdüyü fikirlər haqda:

Öncə bildirdik ki, marksizmdə əqidə sistemləri onların ictimai əsaslarıyla izah olunur. Belə ki, hər bir əqidə və fikir sistemi ictimai əlaqələrin və siniflərin birinə nisbət verilir. Yəni hər bir ictimai sinif özünü,

öz ictimai vəziyyətini, vəzifəsini və mövqeyini araşdırmadan təhlil edə bilməz. Bu əsasla, hər hansı bir ictimai sinfin öz vəziyyəti və mövqeyi barədə təsəvvürləri, habelə onun bütöv cəmiyyət və varlıq barədə məlumatları tamamilə yalan olur, lakin bu qaçılmazdır. Bütün ideoloji sistemlər bu yalan təsəvvürlərə malikdirlər. Onların yaranmasının səbəbi isə müəyyən ictimai sinfə bağlılıqdır. Marksizm məktəbinin əsas müddəası budur: İctimai qrupların və fərdlərin mədəniyyət fərqləri onların öz sinifləri haqda əldə etdikləri təsəvvürlərə və məlumatlara bağlıdır. Bu fərqlər qaçılmazdır və onları azaltmaq və ya aradan götürmək üçün göstərilən səylər nəticə verməyəcəkdir. Habelə, heç bir fərd həqiqətə uyğun və düzgün məlumat əldə edə bilməz. Çünki o müəyyən ictimai sinfə mənsubdur və həmin sinfə bağlılığı onu reallıqları və həqiqətləri dərk etməkdən məhrum saxlayır. Deməli, hər bir şəxsdə olan əvvəlki təsəvvürlər və məlumatlar reallıqları ona yanlış nümayiş etdirir. Qeyd etmək lazımdır ki, Freyd və Nitsşe də (hər biri müxtəlif yollarla) insanın məlumatlarının və təsəvvürlərinin həqiqətə uyğun olmamasına təkid edir və bunu sübut etməyə çalışırdılar.

Marksizmin bu iddiası barədə deyirik:

a) Bu, «ictimai siniflər» nəzəriyyəsinə əsaslanır, biz isə marksizmin bu müddəasının əsassız olduğunu sübut etdik.

b) Bu iddia özü-özünü inkar edir. Çünki marksizm məktəbinin müxalifləri və ya istismarçı sinfin tərəfdarları Marksa xitab edərək deyə bilərlər: Siz özünüz deyirsiniz ki, bütün insanlar həqiqəti və real gerçəklikləri dərk etməmələri baxımından eyni səviyyədədirlər. Misal üçün, fərz edək ki, bizim dünya görüşümüz kapitalist mənafelərinə tabedir. Bu vaxt sizin də dünya görüşünüz fəhlə mənafeyinə tabe olacaqdır. Nə üçün sizin fəlsəfə, tarix fəlsəfəsi, sosiologiya, iqtisadiyyat, siyasət, əxlaq və sair sahələrdəki dünya-görüşləriniz və təsəvvürləriniz real gerçəkliyi əks etdirir, lakin sizin fəlsəfi sisteminizi qəbul etməyən insanların dünya görüşləri və həyat barədə təsəvvürləri həqiqəti əks etdirməkdən acizdir?

v) Bütün ictimai siniflər qeyri-real təfəkkür tərzinə malik olsalar, daha heç bir reallıqdan söhbət etmək olmaz. Əgər bütün ideoloji sistemlər ictimai siniflərdən və ictimai siniflərin iqtisadi mənafeyindən qaynaqlanırsa, bu vaxt müəyyən bir ideologiyanın digər ideoloji sistemə üstünlüyü nə ilə ölçülür? Bu iddia tam skeptisizmə və nihilizmə müncər olur. Marksizm məktəbi isə özünün fəlsəfi hissəsində nihilizmi tamamilə rədd edir.

Marksizmin müddəasını əsas götürsək, bütün ideologiyalar bərabər səviyyədə, yəni spesifik baxışlı, naqis və nəticədə yalan olacaqdır.

q) Əgər hər hansı bir ictimai sinif öz mövqeyinə görə dünyanı qeyri-həqiqi formada təsəvvür edirsə, bu vaxt həmin ictimai sinfə mənsub olan insan özünü belə yalan və əsassız təsəvvürlərdən sığorta edə bilməz. Deməli, onu məzəmmət etmək düzgün deyil. Çünki biz, yalnız şüurlu şəkildə və bilərəkdən, habelə azad iradə ilə pis iş görən insanları məzəmmət edirik.

Biz isə hesab edirik ki, insanlar bir çox sahələrdə, yalnız müəyyən ictimai sinfə mənsub olan insanlar üçün deyil, bütün insanlar üçün mötəbər sayılan həqiqətləri dərk edə bilər. Həqiqətdə, insanların elmləri və rəylərinin çox hissəsi həqiqəti əks etdirir. Bundan əlavə, insanlar düzgün və real elmləri və maarifi qəbul etməkdə və ya rədd etməkdə muxtardırlar. Bir sözlə, insanların və ictimai qrupların mədəniyyət fərqləri tam azadlıq və ixtiyarla meydana gəlmişdir. Yəni bu fərqlər təbii, maddi və iqtisadi amillərin məhsulu deyildir. Qurani-kərim də bu həqiqəti açıqlayır ki, tarixin hər bir mərhələsində dinə tərəf yönələn və Allah qarşısında təslim olan insanlar müxtəlif ictimai siniflərə və qruplara mənsub olmuşlar.

İndi isə marksizmin ictimai fərqlər barədə iddiasını araşdıraq: Göründüyü kimi, bu məktəbdə ictimai fərqlərin mümkün qədər azalmasına və aradan qaldırılmasına çalışılır, sosializm mərhələsində bütün individual görüşlər məhv edilir, sərvətli insanların var-dövləti əllərindən alınır, istehsal vasitələrinin xüsusi malikiyyəti, o cümlədən torpaq mülkiyyəti ləğv edilir. Habelə, kommunizm mərhələsində iş bölümü rejimi aradan götürülür. Fərdi malikiyyət bütövlükdə aradan qaldırılır və hər bir şəxs işi qədər deyil, ehtiyacı qədər əmək haqqı alır. Qadınlar kişilərlə tam bərabər hüquqa malik olur və onların hamısı ümumi sənayedə çiyin-çiyinə çalışır. Bütün bunlar onu göstərir ki, marksizm məktəbinin ideal cəmiyyəti, yalnız bundan ibarətdir ki, ictimai fərqlər ən az səviyyəyə ensin.

Qeyd etmək lazımdır ki, marksizm məktəbində ədalət tam bərabərlikdə axtarılır və ya başqa təbirlə desək, müsavat və bərabərlik ədalətdən üstün tutulur. Halbuki, nə ədalət tam bərabərlikdədir, nə də bərabərlik ədalətdən üstündür. İş bölümü rejimini ləğv etmək, xüsusi və fərdi malikiyyəti aradan qaldırmaq, insanlara ehtiyacı qədər əmək haqqı vermək, qadın və kişi hüquqlarını tam bərabərləşdirmək və bu qəbildən olan işlər insanların hüquq və vəzifələrinin tam bərabər olması prinsipinə əsasən həyata

keçirilirsə, ədalətli deyildir. Çünki bu vaxt insanlarda mövcud olan təbii fərqlər nəzərdən qaçırılır və həmin təbii fərqlərdən qaynaqlanan ictimai və hüquqi fərqlər aradan götürülür. Bütün hallarda bərabərlik müsbət hal sayılmır. Bərabərlik ədalət prinsipinə uyğunlaşırsa müsbətdir, ədalətlə uzlaşmadıqda isə mənfidir. Bütün zaman və məkan çərçivələrində müsbət hesab olunan yeganə prinsip ədalət prinsipidir. Ədalətə görə başqasından çox işləmiş fəhlə daha çox əmək haqqı almalıdır. Bu vaxt həmin fəhlə ondan az işləmiş fəhlə ilə bərabər əmək haqqı alırsa, ona qarşı haqsızlıq olunmuşdur.

Bundan əlavə, qeyd etmək lazımdır ki, marksizmdə təbliğ edilən bərabərlik və ədalət prinsipi insanların təbii fərqlərini nəzərə almadığı və onlarla mübarizə apardığı üçün cəmiyyətdə icra və tətbiq edilə bilməz. Misal üçün, bütün vətəndaşlarını bütün peşələrdə mütəxəssis kimi hazırlayan cəmiyyət təsəvvür etmək çətindir. Habelə, bütün cəmiyyətlərdə vətəndaşlar iş bölümü rejimi əsasında işləməlidirlər. Bu sistemi nəzərə almadan heç bir cəmiyyət öz həyat fəaliyyətinə davam edə bilməz.

# 6. Bəzi iradlar və onların həlli

Təəssüflər olsun ki, marksizm məktəbi özündə bir sıra əsassız ideya və əqidələri ehtiva etməsinə baxmayaraq, çoxlu insanlar tərəfindən qəbul və insanların zehinlərinə xeyli nüfuz etmişdir. Belə ki, dünya müsəlmanlarının çox hissəsi ondan təsirlənmiş və marksizmə tərəf yönəlmişlər. Hətta bəzən onlar özlərini qane etmək və ya başqalarını aldatmaq üçün Quran həqiqətlərini təhrif etmişlər ki, marksizim məktəbinin ideyaları ilə uyğunlaşsın. Belə marksist müsəlmanların səhvlərini göstərmək hər bir müsəlman və haqtələb tədqiqatçı alimə vacibdir. Lakin bu iş bizim hazırkı kitabdakı bəhsimizlə uyğunlaşmır. Xüsusilə də ustad şəhid Mürtəza Mütəhhəri özünün «cəmiyyət və tarix» kitabının bir hissəsini bu problemə aid etdiyi üçün, biz, yalnız marksist müsəlmanların irəli sürdükləri bir neçə fikri araşdırır və onları tənqid edəcəyik. Əziz oxucularımıza isə ustad Mütəhhərinin bu kitabını oxumağı tövsiyə edirik:

1. Qurani-kərimdə bir tərəfdən Allah firqəsinə (müraciət edin: «Maidə» surəsi, 56-cı ayə), möminlərə (müraciət edin: «Rum» surəsi, ayə: 47 və «Qafir» surəsi, ayə: 51), ilahi peyğəmbərlərə (müraciət edin: «Saffat» surəsi, ayə: 171-172, «Qafir» surəsi, ayə: 51, «Mücadilə», surəsi, ayə: 21) və Allahın qoşununa (müraciət edin: «Saffat» surəsi, ayə: 173), digər tərəfdən isə zəif saxlanılmış insanlara (müraciət edin: «Qəsəs» surəsi, ayə: 5) son qələbə vədəsi verilmişdir. Misal üçün, bir ayədə oxuyuruq:

«Bu yerin varisi (sahibi, hakimi və bərəkətlərindən tam istifadə edən) Mənim saleh bəndələrim olacaqlar.»[85]

Digər bir ayədə isə oxuyuruq:

«Biz istədik ki, o yerdə (məmləkətdə) zəif saxlanılmışlara mərhəmət göstərək və onları (camaata) imam, (yer üzünə) varis edək.»[86]

Marksist düşüncəli müsəlman mütəfəkkirlər bu ayələrə istinad edərək bildirirlər ki, ideoloji sistemlər müxtəlif ictimai siniflərdə fərqlənirlər. Çünki ilahi peyğəmbərlər və onlara tabe olan insanların hamısı cəmiyyətin

zəif saxlanılmış sinfindən, yəni yoxsullardan idilər. Habelə, Quranda bildirilir ki, bəşər cəmiyyəti tarixində zəhmətkeşlər və yoxsullar son qələbəni əldə edəcəklər.

Onların cavabında deyirik: Qurani-kərimdə zəif saxlanılmış sözü müsbət dəyər daşımır. Başqa sözlə, Quranda cəmiyyətin zəif saxlanılmış sinfi zəif olduqları üçün sitayiş edilmir. Quranın bəzi ayələrində bir sıra zəif insanlar özlərinə zülm etmiş və sonda Cəhənnəmə gedənlər kimi qələmə verilmişlər. (Müraciət edin: «Nisa» surəsi, ayə: 97) Belə zəif insanlar qiyamət günü təkəbbürlü insanlarla mübahisə edər və onlara deyərlər: «Əgər siz olmasaydınız, biz mütləq mömin olardıq.» Təkəbbürlülər isə onların cavabında deyərlər: «Məgər sizə doğru yol gəldikdən sonra sizi ondan saxlayan bizmi idik?! (Xeyr,) Əslində, siz özünüz günahkar idiniz. Zəiflədilən insanlar isə təkəbbürlülük edənlərə deyərlər: «Əslində, (bizi azdıran sizin) gecə-gündüz (qurduğunuz hiylə idi, o zaman ki, Allaha kafir olmağı və Ona şəriklər qoşmağı bizə əmr edirdiniz.» Onlar ilahi əzabı gördükdə peşmançılıqlarını gizlədərlər. Allah-Təala isə istər zəiflədilən, istərsə də kafir olan təkəbbürlülərin boyunlarına dəmir halqa keçirər və onları cəzalandırar. (Müraciət edin: «Səba» surəsi, ayə: 31-33) Allah-Təala Qurani-kərimdə bəzi zəiflədilən insanları isə möminlərə tapşırmış və tələb etmişdir ki, onlara nicat vermək üçün vuruşsunlar. Belə müztəzəf və zəiflədilən insanlar isə deyərlər: «Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən kənara çıxart, bizə Öz tərəfindən bir başçı ver və bir köməkçi təyin et.»[87] Yəni belə zəif saxlanılmış insanlar özləri mömin olub zülm əhlindən və zülmkarlardan uzaqlaşmağa çalışırlar. Bir sözlə Quran baxımından zəiflədilən insanlar kafir, zülmkar, yolunu azmış, müşrik, ilahi əzaba düçar olan və Cəhənnəmə gedən insanlar ola bilərlər. Habelə, mömin və ədalətli insanlar da zəiflədilən insanlar sırasına daxil ola bilərlər. Quranda, yalnız ikinci qrup insanlar, yəni mömin və ədalətli olan zəif insanlar sitayiş olunmuşlar. Yəni Quran baxımından zəif olmaq deyil, mömin, ədalətli və zülmə qarşı mübarizə aparmaq müsbət dəyər hesab olunur.

Habelə, diqqət etmək lazımdır ki, «zəiflədilən» məfhumu yoxsul sözü ilə eyni məna daşımır. Zəiflədilən məfhumu siyasi, ictimai və mədəni sahələrdə işlənir. Halbuki, «yoxsul» sözündən iqtisadi və məişət zəminində istifadə olunur.

2. Qurani-kərimdə «nas» (xalq) sözündən məqsəd cəmiyyətin yoxsul sinfidir. Deməli, İslam ictimai sinifləri qəbul edir və yoxsulların dinidir.

Qurani-kərimdə «nas» (xalq) sözünün də müsbət dəyər daşımadığını bilmək üçün bu şərif kitabda bəzi ayələrə diqqət yetirmək lazımdır. Quranda iyirmi dörd dəfə cəmiyyətin çox hissəsinin həqiqəti başa düşmədiyi, on üç dəfə insanların çoxunun iman gətirmədiyi, altı dəfə insanların çoxunun Allah qarşısında şükür etmədiyi, üç dəfə insanların çoxunun ağılsız olduğu və iki dəfə insanların çoxunun haqdan boyun qaçırması, üz döndərməsi, haqqı inkar etməsi və müşrik olması və insanların çox hissəsinin nadan, kafir, həqiqəti düşünməyən, fasiq, əhd-peymana vəfadar olmayan, başqalarını Allah-Təalanın yolundan çəkindirən, həqiqəti eşitməyən, dördayaqlılar kimi olan, hətta dördayaqlı heyvanlardan da aşağı olan mövcudat kimi qələmə verilmişdir.

Həqiqət budur ki, «nas» (xalq) sözünün mənası təkcə cəmiyyətin yoxsul sinfi deyil, bütün insanlardır. İstər mömin, istər kafir, istər müşrik, istər münafiq, istər zəiflədilən, istər təkəbbürlü, istər yoxsul, istərsə də varlı olsunlar.

Daha əsassız müddəa odur ki, müsəlman marksistlər Qurani-kərimin Allah-Təalanın adı ilə başlanmasını və «nas», yəni «xalq» sözü ilə bitməsini yoxsul cəmiyyətin dəyərli və müqəddəs olmasına əsas kimi götürmüşlər.

3. Qurani-kərimdə bildirilir ki, İslam Peyğəmbəri (s) ümmi olmuşdur. Ümmi isə ümmətdən çıxan və ümmətin bir üzvi olan insana deyilir. Ümmət isə cəmiyyətin yoxsul təbəqəsini ifadə edir. (Müraciət edin: «Əraf» surəsi, ayə: 157, 158, «Cümə» surəsi, ayə: 2). Digər peyğəmbərlər, habelə ictimai islahatçılar və Allah yolunda cihad edənlər, habelə şəhidlər də cəmiyyətin yoxsul sinfindən olmuşlar.

Bunun cavabında deyirik: Ümmi sözü «ümmətə mənsub olan» mənasını deyil, «ümmül-qura», yəni «Məkkə şəhərinə mənsub olan» mənasını daşıyır və yaxud bəzi təfsirçilərin fikrincə, «ümmi» sözü dərs oxumamış insan barədə işlədilir. Bundan əlavə, «ümmi» sözünün ümmətə aid olması da həmin mütəfəkkirlərin məqsədini təmin etmir. Çünki ümmət cəmiyyətin yoxsul təbəqəsi barədə işlənmir. (Müraciət edin bu kitabın ikinci hissəsinə-»kollektivizmin quran baxımından rəddi» bəhsinə).

Tarixi sənədlərə əsasən, İslam Peyğəmbəri cəmiyyətin yoxsul sinfindən deyil, Qüreyş qəbiləsindən idi. Yəni Marksın və onun tərəfdarlarının terminologiyasında İslam Peyğəmbəri cəmiyyətin hakim sinfinə mənsub

idi. O həzrətin birinci həyat yoldaşı, yəni həzrət Xədicə ərəb cəmiyyətinin ən varlı qadını hesab olunurdu.

İslam dünyasının məsum imamları da yoxsul olmamış, az-çox var-dövlətdən bəhrələnmişlər. Hər halda, onlar cəmiyyətin məhrum və aşağı səviyyəli insanları olmamışlar.

Nə Quran ayələri, nə də tarixi sübutlar ilahi peyğəmbərlərin hamısının cəmiyyətin yoxsul təbəqəsindən olmasını sübuta yetirmir. Hətta peyğəmbərlərin arasında Süleyman peyğəmbər kimi bir şəxs də var idi ki, bərk küləkləri də ram edirdi, belə ki, külək Süleyman peyğəmbərin əmri ilə onun istədiyi tərəfə gedir və bir aylıq yolu bir gecədə qət edirdi (Müraciət edin: «Ənbiya» surəsi, ayə: 81, «Səbə» surəsi, ayə: 12, «Sad» surəsi, ayə: 36). Cinlər Süleyman peyğəmbərin fərmanına və əmrinə tabe idilər. Süleyman peyğəmbər isə onları müxtəlif işlərə vadar edir, bəzilərini isə zəncirlənmiş halda saxlayırdı. (Müraciət edin: «Ənbiya» surəsi, ayə: 82, «Səba» surəsi, ayə: 12, «Sad» surəsi, ayə: 37-38). İnsanlardan əlavə, cinlər və quşlar da Süleyman peyğəmbərin qoşunundan sayılırdılar. (Müraciət edin: «Nəml» surəsi, ayə: 17), cinlər Süleyman peyğəmbər üçün istədiyi hər bir şeyi, möhkəm qəsrlər (yaxud məbədlər və ibadət mehrabları), heykəllər, böyük hovuzlara bənzər kasalar və sabit, yerindən tərpənməyən qazanlar düzəldirdilər. (Müraciət edin: «Səba» surəsi, ayə: 13). Bir sözlə, Allah-Təalanın Süleyman peyğəmbərə bəxş etdiyi hökmranlıq ondan sonra heç kəsə nəsib olmadı. (Müraciət edin: «Sad» surəsi, ayə: 35). Deməli, Süleyman peyğəmbər cəmiyyətin yoxsul sinfinə aid deyildi.

Həqiqət budur ki, nə peyğəmbərlərin, möminlərin, islahatçı insanların, Allah yolunda cihad edənlərin və haqq yolunda şəhid olanların hamısı yoxsul və kasıb sinifdən olmuşlar, nə də bütün yoxsullar peyğəmbərlərə tabe və Allah qarşısında iman gətirərək onlara təslim olmuşlar. Tarix boyu həm möminlərdən varlı olanları, həm də kafir, müşrik və ya münafiq insanlardan kasıb olanları mövcud olmuş, indi də mövcuddur. Deməli, mömin olmaq maddi və iqtisadi baxımdan yoxsulluq, habelə varlı olmaq kafir olmaq demək deyil.

Lakin burada bir məqamı xatırlatmaq lazımdır. Qurani-kərimdə bildirilir ki, maddi və dünyəvi nemətlərdən çox bəhrələnən insan Allaha qarşı üsyan edə bilər və buna təkid edir. Biz öncə bu həqiqəti bildirən bir neçə ayəni gətirir, sonra onların psixoloji əsaslarını araşdıracağıq:

a) «Kəhf» surəsinin 32-ci ayəsindən 44-cü ayəsinə qədər Allah-Təala insanlara məsəl çəkir. Həmin ayələrdə oxuyuruq: «Və onlara, birinə (kafir olana) iki üzüm bağı əta etdiyimiz, hər ikisini (hər iki bağın) ətrafını bütünlüklə xurma ağacı ilə əhatə etdiyimiz və o ikisinin arasını əkin yeri etdiyimiz iki kişini (mömin və kafiri) məsəl çək. Hər iki bağ öz meyvələrini verir və ondan bir şey əskiltmirdilər. Və o ikisinin (iki bağın) arasından bir çay axıtdıq. Və o kişinin (bunlardan əlavə də) müxtəlif malları var idi. Beləliklə (təkəbbür və haqdan qafil olması üzündən) söhbət edərkən (yoxsul) yoldaşına dedi: «Mənim malım səninkindən daha çox və adamlarım səninkilərdən daha güclüdür.» (Əqidə və əməlinin pisliyi baxımından) özünə zülm etdiyi halda, (yoldaşı ilə birgə) öz bağına daxil olaraq dedi: «Bu bağın nə zamansa məhv olmasını güman etmirəm. Həmçinin qiyamətin qopmasını da güman etmirəm. Əgər Rəbbimin hüzuruna qaytarılsam da, şübhəsiz, (o aləmdə) bundan daha yaxşı dönüş yeri tapacağam.» Onunla söhbət etməkdə olan (mömin) yoldaşı (qiyamətin inkarını rədd edərək) ona dedi: «Səni torpaqdan, sonra isə nütfədən yaradan, daha sonra kamil bir kişi sürətinə salana küfr etdin? (Özünün və zahiri səbəblərin müstəqil olması etiqadı ilə qiyaməti inkar etmək Allah qarşısında rübubiyyətdə şirk və haqqa küfr etməkdir). Lakin mən «mənim Rəbbim o Allahdır və mən heç kimi Rəbbimə şərik qoşmuram» (deyirəm). Nə üçün öz bağına daxil olanda «Allah hər nə istəsə (o olacaqdır), güc və qüvvət, yalnız Allahın vasitəsilədir» demədin?! Əgər məni mal və övlad baxımından özündən aşağı görürsənsə, (bu elə də mühüm bir iş deyildir). Ola bilsin Rəbbim (dünyada ya Axirətdə) mənə sənin bağından daha yaxşısını əta etsin və göydən sənin bağına (məhv edən) dolular göndərsin, nəticədə o, otsuz və sürüşkən hamar bir torpağa çevrilsin. Yaxud onun suyu (tamamilə ) çəkilsin, beləliklə də onu əsla axtarıb tapa bilməyəsən. (Nəhayət o, qəzəbə düçar oldu) və meyvələri məhv oldu. Beləliklə, bağın divarları tənək çardaqlarının üstünə uçmuş halda, onun yolunda xərclədiklərinə görə (təəssüfdən) ovuclarını ovuşdurur və (elə hey) deyirdi: «Kaş heç kəsi öz Rəbbimə şərik qoşmayaydım», (vay olsun mənə ki, qəflət üzündən özümü və zahiri səbəbləri Allahdan daha təsirli hesab etdim)!»

Həmin ayələrdə Allah-Təala bu məsəli çəkdikdən sonra buyurur: «Allahdan başqa ona kömək edəcək kəslər yox idi və özü də özünə kömək etmək qüdrətinə malik deyildi.» 44-cü ayədə isə buyurulur: «Bu yerdə (və bu kimi bəla hallarında) işin sahibliyi və yardım, yalnız haqq olan Allaha

məxsusdur. O, mükafat baxımından daha yaxşı və aqibəti təmin etmək baxımından daha gözəldir. (Ondan başqasının işlərdə nə ixtiyarı, nə mükafatı və nə də aqibəti təmin etmək qüdrəti vardır).

Bu dəyərli məsəldən istifadə edilən məqamlardan biri odur ki, insanın dünyəvi və maddi nemətlərə qərq olması onu Allah-Təaladan, qiyamət günündən və mənəviyyatdan uzaqlaşdıran səbəblərdən biridir. Məhz buna görədir ki, bağın sahibi bütün var dövlətinin məhv olmasından sonra (bundan qabaq yox) dedi: «Kaş kafir olmayaydım və Allaha şərik qoşmayaydım.»

b) «Səbə surəsinin 34-cü və 35-ci ayəsi:

«Biz hər hansı bir bəşər cəmiyyətinə elə bir qorxudan (peyğəmbər) göndərmədik ki, oranın əyan-əşrəfi və rifah içərisində yaşayanları deməsinlər: «Həqiqətən, biz sizin göndərdiyiniz şeyə kafirik.» Və dedilər: «Bizim mal-dövlətimiz və övladlarımız (sizinkindən) çoxdur və bizə heç bir vaxt əzab olunmayacaqdır, (çünki bizə verilənlər Allahın bizə olan məhəbbətinin əlamətidir).»

34-cü ayədə (ərəb dilini bilənlər müraciət edə bilərlər) «mütrəf» sözü işlənmişdir. «Mütrəf» sözü tərəf sözündən alınmış və iki mənadan birini daşıya bilər: Onlardan biri naz-nemət içində qərq olmuş, digəri isə nemətin çoxluğundan məst olmuş və Allaha qarşı təkəbbür edən insandır. «Mütrəf» elə bir şəxsə deyilir ki, o, Allahın nemətlərindən bəhrələnmiş və dünyəvi ləzzətlərdən və şəhvətlərdən istifadə etməkdə ifrata varmışdır.

«Kəhf» surəsinin bu iki ayəsindən, habelə «Zuxruf» surəsinin 23-cü və 24-cü ayəsindən belə istifadə olunur ki, ibtidai bəşər cəmiyyətlərində rifah içərisində yaşamış əyan-əşrəf olmuşdur. Habelə, ilahi peyğəmbərlərin dini dəvətlərinin ən sərt müxalifləri də məhz əyan-əşrəf və bu kimi insanlar olmuşlar.

v) «Qələm» surəsinin 10-14-cü ayələrində oxuyuruq:

«Və itaət etmə çox and içən və alçaq olan heç bir kəsə, çox eyib axtarana, pis danışana və söz gəzdirənə, bərk xəsisə, xeyirdən saxlayana, təcavüzkara və günahkara, və bundan (bütün bu çirkin sifətlərdən) savayı kobuda, daşürəkliyə və əsli-kökü bilinməyənə! (Bu günahları) ona görə edir ki, mal-dövlət və övladlar sahibidir.»

Göründüyü kimi, bu ayələrdə də bəzilərinin qeyd olunan sifətlərə sahib olmasının əsas səbəbi onların var-dövlətinin və övladlarının çox olmasıdır.

q) «Müzzəmmil» surəsi, ayə: 11:

«Təkzib edən mal dövlət sahiblərini Mənim öhdəmə burax və onlara (bu dünyada) azacıq bir möhlət ver.»

Bu ayədəki «mal-dövlət sahibləri» ifadəsi onu göstərir ki, İslam Peyğəmbərinin haqq dəvətini təkzib edən insanların bu işinin səbəbi onların var-dövlətdən və dünya nemətlərindən çoxlu bəhrələnmələri idi ki, Peyğəmbərə qarşı təkəbbürlü etmişdi.

ğ) «Müddəssir» surəsinin 11-15-ci ayələri:

«Məni Öz yaratdığım kimsə ilə tək burax. Ona bolluca mal dövlət-verdim. Və (Məkkədə, və əyan-əşrəflərin məclislərində, ya da xidmət göstərməyə) hazır oğullar (verdim). Ona artıqlaması ilə (büsatlı cah-calal, mal-dövlət və övladlar) verdim. Bununla belə (bütün bunları) artırmağıma tamahlanır.»

d) «Ələq» surəsinin 6-cı və 7-ci ayələri:

«(İnsan bu nemətlər üçün şükür edirmi?! Xeyr) belə deyil, (əksinə insan) həqiqətən, azğınlıq edər! Özünü ehtiyacsız gördüyü üçün.»

Bu iki şərif ayədə, xüsusilə bu məsələnin ümumi xarakter daşıdığı bildirilir. Yəni ictimai qruplar və insanlar özlərini rifah içində görüb tam ehtiyacsız duyduqdan sonra üsyan etməyə başlayırlar.

Digər tərəfdən Quranın bəzi ayələri bildirir ki, insanların iqtisadi problemləri və yoxsulluğu onları Allah-Təalaya tərəf yönəldən səbəblərdən biridir. O cümlədən:

1. «Ənam» surəsi, 42-ci ayə:

«Şübhəsiz, Biz səndən əvvəlki ümmətlərə (də peyğəmbərlər) göndərdik. Beləliklə, onları yoxsulluq və kasıblığa, xəstəlik və cismani əziyyətlərə düçar etdik ki, bəlkə (Bizim dərgahımıza) boyun əyələr və yalvarıb-yaxaralar.»

Bu şərif ayədə bildirilir ki, insanların mənəvi kamilləşməsi və onların paklanmasının birinci səbəbi ilahi peyğəmbərlərin Allah tərəfindən göndərilməsi, ikinci səbəbi isə insanların çətin problemlərə və dünya əziyyətlərinə düçar olmasıdır. Bu amil insanlarda lovğalıq və təkəbbürlülük xüsusiyyətlərini aradan götürür. Çünki belə xüsusiyyətlər ilahi peyğəmbərlərin dəvətlərini qəbul etmək üçün onlara mane olur.

2. «Əraf» surəsi, 94-cü ayə; «Biz peyğəmbər göndərdiyimiz hər bir şəhər və kəndin əhalisini xəstəlik, çətinlik və yoxsulluğa düçar etdik ki, bəlkə (Bizim dərgahımıza) yalvarıb-yaxarsınlar.» Bu ayə də ötən ayə kimi insanların çətinliklərə və dünyəvi problemlərə düçar olmasının əsas

səbəbini onların hidayət maneələrinin aradan götürülməsi ilə izah edir. Lakin bu ayədə həmin məsələ daha ümumi formada bəyan edilmişdir.

İndi də bu həqiqəti aydınlaşdırmalıyıq ki, nə üçün insanlar rifah içində olarkən qürurlanır və təkəbbürlü olurlar, lakin bir sıra çətinliklər və yoxsulluqlarla üzləşdikdə onlarda təslim əhval-ruhiyyəsi yaranır. Bunun psixoloji izahı necədir?

İslam nöqteyi-nəzərindən Allah-Təaladan savayı heç bir mövcud, o cümlədən insan zati olaraq heç bir şeyə malik deyildir. Tam və mütləq ehtiyacsız varlıq, yalnız Allah-Təaladır. Digər mövcudat isə yoxsul və Allah-Təala dərgahına möhtacdırlar.

«Ey insanlar, sizin hamınız Allaha möhtacsınız. Allah isə (heç kəsə) möhtac deyil. Onun sifətləri və işləri öyülmüşdür.»[88]

«Ehtiyacsız (zəngin) olan Allah, möhtac olan isə sizsiniz.»[89]

İnsanlar özlərinin zati və həqiqi yoxsulluqlarını nə qədər dərindən düşünüb dərk etsələr, bir o qədər ruhi və mənəvi baxımdan kamilləşmiş olarlar və insanın rəftarları özünün zati yoxsulluğuna nə qədər əsaslanarsa, bir o qədər bəyənilər. Bir sözlə, insanların kamilləşməsi onun öz yoxsulluğuna tam mərifətindən asılıdır.

Həyatında bütün istədiyi nemətlərdən yararlanan insan belə bir xam xəyala düçar olur ki, özünün başqalarından tam müstəqil və ehtiyacsız olduğunu təsəvvür etməyə başlayır. Bu ehtiyacsızlıq hissi onu özünün zati və həqiqi yoxsul olması həqiqətindən uzaqlaşdırır. Hətta bəzən o Firon kimi allahlıq iddiası edir və başqalarının onun qarşısında qul və bəndə olmasını umur. Təbii ki, belə şəxslər ilahi peyğəmbərlərin haqq dəvətlərini də yüngül sayırlar.

Habelə, belə bir insan öz iqtisadi, insani qüvvələrini nəzərə alaraq özünün heç bir qüdrət qarşısında məğlub olmayacağını və heç bir mövcud qarşısında zərər çəkməyəcəyini xəyal edir. Bundan əlavə, belə bir şəxs özünün eyş-işrət dolu həyatını yaşayır və onun dünya həyatına və ləzzətlərinə qərq olması səbəb olur ki, psixoloji baxımdan dünya nemətlərinin fani və müvəqqəti olmasını bildirən, yalnız Axirət dünyasını əbədi sayan bütün dinlər qarşısında lovğalıq və üsyan etsin, heç bir dini səmimi-qəlbdən təsdiq etməsin. Nəhayət, belə bir şəxs onun rifahını və eyş-işrət dolu həyatını hədələyən bütün ictimai və mədəni hərəkatlar qarşısında müqavimət göstərir və onlarla mübarizə aparmaqdan çəkinmir. Məhz buna

görədir ki, daim rifah içində yaşamış insanlar mövcud vəziyyətin qorunmasının tərəfdarı kimi çıxış edirlər.

Lakin dünyada arzu etdiyi və istədiyi bir çox nemətlərdən məhrum qalan insan təbii olaraq özünün zati və həqiqi yoxsulluğuna daha çox agah olur. Nəticədə, mənəvi kamilləşmə yolunda tərəqqi edir. Çünki bu yolda inkişaf etmək həmin zati yoxsulluğa agah olmaqdan asılıdır. Belə bir şəxs ilahi nemətlərdən və dünya malından çox yararlanmış insanların qarşısını alan psixoloji maneələrlə üzləşmir. Bu səbəbdən, haqqa dəvət edən islahatçı insanları müşahidə edərkən onlara tərəf gedir və onlara qoşulur.

Bütün bunlardan belə nəticə çıxarmaq olmaz ki, var-dövlətə sahib olmaq Allah qarşısında üsyan edib ona kafir olmağın, digər tərəfdən, iqtisadi çətinliklər həqiqət qarşısında təslim olmağın tam səbəbidir. Təkcə bunu bilmək lazımdır ki, var-dövlət sahibi olan insanlarda lovğalığa doğru, yoxsul insanlarda isə haqqa doğru meyl mövcuddur. Lakin bu iki səbəblərin hər biri bir sıra maneələrlə üzləşə bilər. Məhz buna görədir ki, marksizm məktəbinin «tarixi materializm» ideyasının əsas rüknlərindən biri, yəni mədəniyyət və biologiyanın sinfi olması nəzəriyyəsi əsassız sayılır.

Bir tərəfdən Süleyman peyğəmbər kimi mal-dövlət və misilsiz hökmranlıq sahibi olan insan özünün həqiqi və zati yoxsulluğunu tam dərk edib, bununla da Allahın ən mömin bəndələrindən birinə çevrilə bilər. Digər tərəfdən də, çox yoxsul və iqtisadi çətinlikdə olan bir şəxs özünün Allah qarşısında zati və həqiqi yoxsulluğunu dərk etməyərək haqqa tərəf yönəlməyə və haqq dini qəbul etməyə bilər. «Ənam» surəsinin 42-ci ayəsi bildirirdi ki, Allah-Təala Öz bəndələrinə mərhəmət edərək onları bir sıra çətinliklərlə üzləşdirir ki, öz təkəbbür və lovğalıqlarından əl çəksinlər. Həmin surənin 43-cü ayəsi isə belədir:

«Bəs nə üçün Bizim əzabımız onlara yetişəndə boyun əymədilər və yalvarıb-yaxarmadılar?»

Bu ayə onu bildirir ki, insanlar çətinliyə düçar olduqları vaxtlarda da bəzən haqqa tərəf yönəlmirlər.

# VII FƏSİL

# İctimai institutlar

# Ön söz

Bu hissədə sosiologiyanın ən mühüm bəhslərindən biri olan ictimai institutlar (qurumlar) bəhsini araşdırmışıq. Sosioloqlardan bir çoxunun əqidəsinə görə, cəmiyyətin bütövlüyünü dərk etmək üçün ən yaxşı və təsirli metodlardan biri cəmiyyətin əsas institutlarını və onların arasında mövcud münasibətləri diqqət mərkəzinə almaqdır.

Bu hissədə ilk öncə sosioloqların ictimai institut və ictimai institutların sayının müəyyənləşməsi barədə fikirlərinin müxtəlif formasını göstərmişik. Sonra isə ictimai institut barədə yeni tərif irəli sürmüşük. Habelə, cəmiyyətin əsas institutlarını ailə, iqtisadiyyat, təlim-tərbiyə, hüquq və hakimiyyət institutlarında qruplaşdırmışıq. Şübhəsiz, hər bir cəmiyyət bu beş institutdan başqa digər institutlara da malikdir. İnsan üçün hər bir cəmiyyət özünü müdafiə etməyə və onu təhqir edən düşmən qarşısında müqavimət göstərməyə möhtacdır. Deməli, cəmiyyətin bütün fərdləri müdafiə institutunu yaratmalıdırlar. Lakin cəmiyyətin digər institutlarının əhəmiyyəti qeyd olunan beş institut qədər deyildir.

Bu beş institutun hər biri haqda sosioloqlar geniş və dərin tədqiqatlar aparmışlar ki, onların çox hissəsi diskreptiv və tarixi xarakter daşıyır. Biz isə bu hissədə həmin institutlarda tarix boyu baş verən müxtəlif dəyişkənlikləri diqqət mərkəzinə almamış, habelə, tarix boyu müxtəlif dəyişkənliklərə məruz qalan həmin ictimai institutların qarşılıqlı əlaqələri barədə danışmamışıq.

Əsas ictimai institutlar barədə ki, sosioloji bəhslərdən biz təlim və tərbiyə institutunun digər institutlardan üstün olmasını sübut etməyə çalışmışıq. Çünki hesab edirik ki, həmin qrumun cəmiyyətdəki funksiyaları və praktiki nəticələri daha əhəmiyyətlidir.

# 1. İctimai institutların tərifi və sayı

Sosioloqlar ictimai institutlar bəhsində bir çox fərqli nəzəriyyələr irəli sürmüşlər. Onlardan biri ictimai institutların tərifidir. İctimai institutun bəzi tərifləri aşağıdakılardır:

«İctimai institut müəyyən sosial sistemdə istifadə olunan qanunlardan ibarətdir. Belə ki, ictimai institutlar vasitəsilə sosial sistemdə müəyyən bir işin qanuna-uyğun olub-olmaması müəyyənləşir. Bu tərifə əsasən nikah, ailə, orta məktəb, ali məktəb sosial və ictimai institutlardan sayılırlar.»

«İctimai institutlar dedikdə abstrakt ictimai münasibətlər nəzərdə tutulur», «sosial institut sosial vəzifələrin məcmusudur», «hər hansı bir sosial institut bir məfhumdan və bir sistemdən ibarətdir.» Sonuncu tərif amerikalı sosioloq (1840-1910-cu il) Vilyam Qraham Samner tərəfindən irəli sürülmüşdür. Onun bu tərifdə əsas məqsədi odur ki, sosial institutlar təkcə insanın ehtiyaclarını ödəmək üçün məqbul sayılan nəzəriyyələrə şamil deyil, həm də həmin fəaliyyətləri öhdəsinə götürən təşkilatdır.

«Sosial institutlar insan həyatının mühüm funksiyalarını nəzərə alan şəbəkələrdir.» «Sosial institutlar sosial təşkilatlardan ibarətdir.» «Sosial institutlar, yalnız mühüm ictimai və sosial təşkilatlara deyilir.» «Sosial institut müəyyən bir məqsədə və yaxud bir neçə hədəfə çatmaq üçün yaranan təşkilatdır.» «Sosial institut bir mənaya görə çox sadiq və stabil təşkilatdır ki, onun funksiyası cəmiyyət üçün çox əhəmiyyətlidir. İqtisadi, siyasi, dini və ailəvi təşkilatlar sosial institutlara aiddirlər.»

Demək olar ki, ictimai institutlar insanların sosial həyatının qaçılmaz, çox əhəmiyyətli sahələrini əhatə edən abstrakt məfhumlardır. Bu əsasla, iqtisadiyyat sosial institutlardan biri hesab edilir. Çünki «iqtisadiyyat» ticarət mübadiləsi, istehsal məhsullarının buraxılışı və bu kimi insan həyatının cəmiyyətdəki əsas işlərini ehtiva edən abstrakt məfhumdur. Bu

səbəbdən, sosial həyatın bəzi məsələlərini qaçılmaz adlandırırıq. Birinci, ona görə ki, insanın həyat tarixində elə bir cəmiyyət yaranmamışdır ki, həmin problemləri özündə əhatə etməsin. İkinci, hər bir cəmiyyətdə bütün insanlar həmin problemlərlə üzləşirlər.

Məsələn iqtisadiyyatın sosial institut olması ona görədir ki, sosioloqlar indiyə qədər elə bir cəmiyyətlə üzləşməmişlər ki, iqtisadiyyatın istehsal, ticarət müqabiləsi, istehlak, məhsulların satışı və bu kimi fəaliyyətləri orada olmasın. Habelə, iqtisadi fəaliyyətlər cəmiyyətin bütün fərdlərinə aid olur, belə ki, cəmiyyətdə yaşayan bütün insanlar və ictimai qruplar iqtisadi fəaliyyətlərlə məşğul olurlar.

Bizim ictimai və sosial institut barədə irəli sürdüyümüz tərifə əsasən, ictimai və sosial institut sosial qruplar və fərdlərə, habelə sosial institutu yaradan rabitələrə şamil olunur. Sosial təşkilat sosial institutun təzahür etdiyi yer olaraq, şübhəsiz, insan qüvvələrini və maddi vəsaiti əhatə edir. Lakin bilmək lazımdır ki sosial institut sosial təşkilatla fərqlənir. Misal üçün iqtisadiyyat sosial institutdur. Lakin sosial instituta bağlı olan fəhlə sinfi, ticarət obyektləri, bazar, ticarət nazirliyi, iqtisadiyyat nazirliyi və bu kimi təşkilatlar sosial institut sayılmırlar.

Sosioloqlar ictimai institutların sayının müəyyənləşməsində də müttəfiq fikirdə deyildirlər. Onlardan bəzisi nikahı ailə institutundan müstəqil olan institut hesab edir. Habelə, bəzi sosioloqlar orta və ali məktəbləri təlim və tərbiyə institutuna bağlı olan təşkilatlar deyil, müstəqil sosial institutlar kimi qələmə verirlər. Bir çox sosioloqlar bildirirlər ki, bəşər cəmiyyətinin formalaşması üçün bəzi proseslər həyata keçməlidir. Başqa sözlə desək, onlar hesab edirlər ki, cəmiyyətin yaranması üçün bir sıra funksional şərtlər zəruridir. Həmin şərtlər isə aşağıdakılardır:

Rabitə sistemi, iqtisadiyyat sistemi, yeni nəsli cəmiyyətin qanunlarına uyğunlaşdırmaq üçün bəzi tədbirlər, iqtidar və qüdrət sistemi, sosial birliyi qorumaq və artırmaq, habelə doğum, nikah, ölüm və bu kimi şəxsi və əhəmiyyətli hadisələrə rəsmiyyət bağışlamaq məqsədi ilə zəruri olan dəyərlər sistemi. Yalnız belə bir əsaslı qanunlarla zəngin olan institutlar əhəmiyyətli institutlar sayıla bilərlər. Deməli, əsas sosial institutlar aşağıdakılardır: dil və xətt (bu iki ünsür insanların bir-biri ilə ünsiyyətini mümkünləşdirir), iqtisadi institutlar, təlim və tərbiyə, habelə ailə institutu (yeni nəsilləri cəmiyyətin qanunları ilə uyğunlaşdırmaq məqsədilə), siyasi

institutlar, din, əxlaq və ümumi davranış qaydaları. Bu institutlardan digər institutlar da yarana bilər.

Bəzi sosioloqlar bildirirlər ki, hər bir insanın dörd daimi və dəyişməz ehtiyacı vardır ki, həmin ehtiyaclar dörd əsas sosial institutu formalaşdırırlar. Cinsi istəkləri təmin etmək və nəsil artırmaq kimi ehtiyaclar ailə institutunun, yemək, paltar və digər maddi məhsulları istehsal etmək üçün olan ehtiyac iqtisadi institutların yaranmasına səbəb olurlar. İnsanın təbiət və kainata hörməti və heyrəti, habelə onun fövqəltəbii qüvvələrlə rabitə saxlamasına ehtiyac duyması isə dini institutları yaratmışdır. Dövlətlə bağlı institutlara gəldikdə isə, həmin institutların yaranma səbəbi cəmiyyəti düşmənlərin hücumundan qorumaq ehtiyacıdır. Bu fəaliyyətlər üzərində formalaşan sosial institutları əsas sosial institutlar adlandıra bilərik. Qeyd edək ki, burada əyləncə, təlim-tərbiyə, nəqliyyat və rabitə ilə bağlı olan digər sosial institutlar da mövcuddur. Lakin onların əhəmiyyəti birinci dərəcəli deyildir. Bir sıra sosioloqların fikrincə, iqtisadiyyat və ailə problemləri ilə məşğul olan institutlar ən mühüm sosial institutlardırlar. Həmçinin onlar bildirirlər ki, dini fəaliyyət göstərən institut keçmişdə mötəbər sayılırmış, müasir dövrdə isə beynəlxalq problemləri özündə ehtiva edən institut daha çox əhəmiyyət daşıyır. Habelə, təlim-tərbiyə ilə bağlı olan fəaliyyət şəbəkəsi bu gün müstəqil institut kimi çalışır. Keçmişdə isə təlim-tərbiyə institutu ailə, din və iqtisadiyyat institutlarına bağlı təşkilatlardan sayılırdı. Adətən bir neçə oxşar sosial institutların birləşməsindən vahid sosial institutlar sistemi yaranır və insanın bir çox ehtiyaclarını ödəyir. İnsanın ehtiyaclarını iki yerə, yəni birinci və ikinci dərəcəli ehtiyaclara bölsək, sosial institutlar sistemini də bu əsasla iki hissəyə böləcəyik. Birinci dərəcəli sosial institutlar sistemi və ikinci dərəcəli sosial institutlar sistemi. Birinci dərəcəli sosial institutlar sistemi insanın və cəmiyyətin həyatının davam etməsi üçün tam zəruri olan ehtiyacları ödəyir və məhz buna görə də cahanşümul xarakter daşıyır. Ailə və iqtisadiyyat sosial institutlar sistemini buna aid etmək olar. İqtisadiyyat sosial institutlar sistemi istehsal, ticarət mübadiləsi və bank əməliyyatı kimi mühüm institutları əhatə və müxtəlif yollarla cəmiyyətin üzvlərinin ehtiyaclarını təmin edir. Ailə institutlar sistemi isə müxtəlif metodlarla cəmiyyətin gələcək üzvlərini həyata gətirmək və onları düzgün tərbiyə etmək vəzifələrini öhdəsinə götürən institutların məcmusudur. Müasir dövrdə əhəmiyyətsiz hesab edilən din sosial institutları keçmişdə birinci

dərəcəli sosial institutlar sisteminə aid idi. İkinci dərəcəli sosial institutlar sistemi isə insanların ikinci dərəcəli ehtiyaclarına cavab verir və buna görə də qlobal və universal xüsusiyyəti yoxdur. Müasir dövrdə əxlaq, tərbiyə, incəsənət və əyləncə sosial institutlarını ikinci dərəcəli sosial institutlar sisteminə aid etmək olar.

Burada deyilənlər sosioloqların ictimai institutlar barədə müxtəlif fikirlərinin bir parçası idi. Lakin təhlil metodu ilə sosial institutların sayını və onların yaranma səbəbini müəyyənləşdirmək olar. Bu əsasla deyirik: Sosial həyatın məqsədi cəmiyyətdəki vətəndaşların ehtiyaclarının ən kamil formada təmin edilməsidir. Yəni insanların inkişaf etməsi üçün lazım olan şərait hazırlanmalıdır. Bütövlükdə, insanların ehtiyacları iki hissəyə bölünürlər: onlardan biri maddi ehtiyaclar, digəri isə mənəvi ehtiyaclardır. Maddi ehtiyaclar öz növbəsində iki qismə ayrılırlar: onlardan biri hər bir insanın başqa bir insana ehtiyacı, digəri isə insanın təbiətə olan ehtiyacıdır. Birinci qismə cinsi ehtiyacları misal çəkmək olar ki, ailə institutunda təmin edilir. İkinci qismə isə insanın yemək, paltar, mənzil və bu kimi ehtiyaclarıdır ki, iqtisadiyyat institutunda ödənilir. Mənəvi ehtiyaclar isə daha çox təlim-tərbiyə institutu vasitəsilə təmin edilir. İctimai həyat da cəmiyyətdəki fərdlərin qarşılıqlı münasibətlərini tənzimləyən bir sıra qanunlara, habelə vətəndaşların hüquqlarını və ixtiyar çərçivələrini müəyyənləşdirən bir sıra hüquqi qaydalara möhtacdır. Qeyd edək ki, bütün bu ehtiyaclar hüquq institutu vasitəsilə təmin edilir. Lakin hüquqi qanunlar bəzi qüvvələr tərəfindən icra edilməlidirlər. Bu vəzifəni isə dövlət institutu öz öhdəsinə götürür.

Sosioloqların bir çoxu isə dini digər sosial institutlardan müstəqil olaraq vahid sosial institut adlandırmışlar. Lakin bu barədə bir məsələni nəzərə almaq lazımdır: Din, yalnız ibadət çərçivəsində insanların Allahla rabitəsinə aid olsaydı, bu vaxt onu ictimai institutlardan biri kimi qələmə vermək olardı. Onun yaranma səbəbini isə insanların Allah qarşısında ibadət etməsi kimi mənəvi ehtiyacları ilə izah edərdik. Lakin qərb mədəniyyətində qəbul olunan dinin bu məhdud tərifi bizim tərəfimizdən qəbul edilmir. Bizim əqidəmizə görə, din fərdin və cəmiyyətin bütün həyat aspektlərini əhatə edən ideal və düzgün proqram və qanunlar toplusudur. Din əqidə, əxlaq və ibadət məsələlərindən əlavə, bir sıra hüquqi məsələləri, o cümlədən, siyasi, beynəlxalq, iqtisadi və mədəniyyət hüquqlarını özündə ehtiva edir. Deməli,

din bütün ictimai və sosial institutları özündə cəmləşdirir və onlara nəzarət edir.

İndi isə ailə, iqtisadiyyat, təlim-tərbiyə, hüquq və dövlət sosial institutlarının hansı birisinin başqasından daha üstün olmasını araşdıraq.

# 2. Təlim-tərbiyə ən mühüm sosial institutdur

Sosial institutların hansı birisinin cəmiyyətin inkişafında daha çox təsirə malik olması barədə sosioloqların və sosioloji məktəblərin müxtəlif görüşləri vardır. Marksizm məktəbinin fikrincə, iqtisadiyyat institutu cəmiyyətdə daha böyük təsir mexanizminə malikdir. Hətta iqtisadiyyat hər bir cəmiyyətin bünövrə institutu sayılır və başqa sosial institutlar ona bağlıdırlar. Bizim əqidəmizə görə isə, cəmiyyətdə fəaliyyət edən sosial institutlardan ən əhəmiyyətlisi təlim-tərbiyə instutudur, çünki:

1. İnsan həyatı, yalnız rasional və əqli köklərə əsaslandığı zaman heyvanlıq həddindən yüksələcək və insanlıq xüsusiyyətinə malik olacaqdır. Heyvani instinktlər əsasında formalaşmış həyat insan həyatı deyildir. Şübhəsiz, bilavasitə insanların əqli idrakını inkişaf etdirən və onları mədəni və rasional tərəqqiyə çatdıran sosial institut təlim və tərbiyədir.

2. Bir çox sosioloqlardan fərqli olaraq biz hesab edirik ki, sosial həyatın ən ülvi məqsədi insanların maddi və fiziki ehtiyaclarını təmin etmək deyil. Deməli, həmin sosial institutları təhlil edərkən, onların əhəmiyyətini müəyyənləşdirərkən təkcə onların maddi və məişət zəminində insanların nə dərəcədə ehtiyaclarını ödəməsini diqqət mərkəzinə almamalıyıq. Təəssüflər olsun ki, bir çox sosioloqlar, hətta dini də sosial institutlardan biri hesab edərək onu, yalnız insanların şəxsi ictimai münasibətlərini möhkəmləndirmək üçün rəsmiləşdirirlər. Halbuki, sosial həyatın ən ülvi qayəsi insanların mənəvi və psixoloji kamilləşməsidir. Bu da təkcə Allahı tanımaq, Allaha sitayiş etmək, Allah-Təalanın razılığını əldə etmək və Ona yaxınlaşmaqla əldə edilir. Başqa sözlə, ictimai həyat və insanların maddi ehtiyaclarının ödənməsi onların Allaha sitayiş etməsi və bu yolda inkişafı üçün müqəddimə xarakteri daşımalıdır. «Nur» surəsinin 55-ci ayəsində oxuyuruq:

«Allah sizdən (müsəlmanlardan) iman gətirib yaxşı işlər görən kəslərə vəd etmişdir ki, onları mütləq özlərindən qabaq olmuşları (Nuhun, Hudun, Salehin və Yunusun qövmünün möminlərini) canişin etdiyi kimi, yer üzündə Öz canişini və hakim edəcək. Onlar üçün bəyəndiyi dini (İslam dinini) mütləq onlar üçün bərqərar edəcək, möhkəmləndirəcək və onların halını, şübhəsiz, qorxu və vahimədən sonra əmin-amanlıq və xatircəmliklə əvəz edəcəkdir. Belə ki, yalnız Mənə ibadət etsinlər və heç nəyi Mənə şərik qoşmasınlar.»

Bu ayədə bildirilir ki, hakimiyyət, dinin cəmiyyətdə bərpa edilməsi, habelə cəmiyyətin təhlükəsizliyi və nizam-intizamı insanların Allah qarşısında ibadət etməsi və onların insanlıq keyfiyyətinin inkişaf etməsinə müqəddimədir. Deməli, sosial institutlar maddiyyatın dar çərçivəsindən çıxmalı və yenidən təhlil olunaraq müqayisə edilməlidirlər. Bu yeni müqayisə və təhlil mənəvi aspektdən həyata keçəcəkdir. Belə olan halda, şübhəsiz, təlim-tərbiyə institutu digər institutlardan daha üstün yer tutacaqdır. Çünki insanların mənəvi və daxili inkişafını təmin edən və buna zəmin yaradan yeganə sosial institut təlim-tərbiyədir. Təlim-tərbiyə həyat barədə, habelə insanları düzgün yola çəkən dəyərlər haqda onlara təlim verir və onları bəyənilmiş əxlaqi və hüquqi dəyərlər üzərində tərbiyə edir. Nəticədə insanların mənəviyyatı və Allah qarşısında sitayiş etməsi kamilləşir və dərinləşir.

3. Təlim-tərbiyə institutu vasitəsilə digər sosial institutları möhkəmləndirmək, ya islah etmək olar və bu yolla cəmiyyəti öz məqsədlərinə yaxınlaşdırmaq mümkündür. Məhz bu cəhəti nəzərə alaraq deyirik ki, hər bir cəmiyyətin təlim-tərbiyəsinin düzgün şəkildə aparılmaması tezliklə digər sosial institutların da zəifləməsi, habelə sosial həyatın bütün sahələrinin fəsada düçar olmasına səbəb olacaqdır.

4. Təlim-tərbiyə institutu vasitəsilə insanları müxtəlif hüquqi və ictimai qanunlardan agah etmək, habelə onları həmin qanunlara tabe olmağa və ya ictimai və dövlət təşkilatları ilə həmkarlıq etməyə yönəltmək mümkündür.

Beləliklə, məlum olur ki, nə üçün Allah-Təala Öz əziz İslam peyğəmbərinin vəzifəsini, yalnız insanlara təlim-tərbiyə vermək, yəni onları paklatdırmaq hesab etmişdir. (Müraciət edin: «Bəqərə» surəsi, ayə: 129, 151; «Ali-İmran» surəsi, ayə: 164; «Cümə» surəsi, ayə: 2) İnsanlar, yalnız təlim-tərbiyə ilə özlərinin fərdi və sosial həyatda ülvi məqsədlərini tanıyır və ona doğru hərəkət edirlər. Digər sosial institutlar, o cümlədən ailə,

iqtisadiyyat hüquq və dövlət institutları insanların mənəvi cəhətdən paklanmaları üçün yalnız şərait yarada bilərlər.

Bütün bunlardan belə nəticə alırıq ki, hər bir cəmiyyətin sosial vəziyyətini yaxşılaşdırmaq üçün həmin cəmiyyətin təlim-tərbiyə institutunu islah etmək zəruridir. Habelə, hər bir cəmiyyəti fəsada çəkmək üçün birinci addım onun təlim-tərbiyə institutunu fəsada çəkməkdir. Tarixdə müxtəlif cəmiyyətlərin tərəqqisini və ya süquta düçar olmasını araşdıran və onun səbəblərini tapmağa çalışan bütün tədqiqatlar bu müddəanı təsdiq edir. İslam ölkələrinin, o cümlədən indiki İspaniyanın tarixinin mütaliəsi göstərir ki, İslam ümmətinin izzət və şövkətinin düşmənləri onun azadlığını və müstəqilliyini məhv və başqalarına tabe etmək üçün hər şeydən öncə həmin cəmiyyətlərin mədəniyyətini, təlim-tərbiyə sistemini öz məqsədlərinə uyğun formalaşdırmış, sonra isə asanlıq və sürətlə öz çirkin niyyətlərini həyata keçirmiş və müsəlmanları məğlub etməyə müvəffəq olmuşlar. Bütün bunları nəzərə alaraq, cəmiyyətin sosial vəziyyətini islah etməyə çalışan insanlar nə üçün cəmiyyətin düzgün təlim-tərbiyəsinə diqqət yetirmirlər və hələ də onlar Marksın bu yanlış nəzəriyyəsini qəbul edirlər ki, «hər bir cəmiyyətin əsas institutu iqtisadiyyat institutudur?» Hələ də bəzi müsəlman mütəfəkkirləri hesab edirlər ki, cəmiyyətin iqtisadiyyat və məişət zəminində problemləri həll olsa, ictimai həyatın bütün aspektləri islah olunacaqdır. Həqiqət isə tam əksinədir. Çünki ictimai həyatın müxtəlif sahələrdəki problemləri təkcə iqtisadiyyatla həll olmur. Həm də ictimai islahatçı öz fəaliyyətlərini iqtisadiyyat sahəsində başlamamalıdır. Bir sözlə, marksizm məktəbinin iqtisadiyyat barədə və onun üstünlüyü haqda irəli sürdükləri ideyaların hamısı təlim-tərbiyə institutu barəsində deyilməlidir.

Şübhəsiz, təlim-tərbiyənin cəmiyyətdə birinci dərəcəli əhəmiyyətə malik olması o demək deyil ki, ictimai islahatlar əvvəlcə uzun müddət ərzində mədəniyyət sahəsi ilə məşğul olmalı və digər sahələrdən xəbərsiz qalmalıdırlar. İctimai həyatın heç bir mərhələsində bütün fəaliyyətlərin təlim-tərbiyə sahəsinə yönəlməsi məsləhətə uyğun deyildir. Hətta bunun müsbət nəticələri də olmayacaqdır. Çünki özlərinin zəruri məişət problemlərini həll edə bilməyən insanlar təlim-tərbiyəni qəbul etməyə hazır olmayacaqlar.

Biz bu reallığı inkar etməsək də, təlim-tərbiyənin cəmiyyətdə ən mühüm sosial institut olmasını vurğulayırıq. Çünki təlim-tərbiyəni düzgün anlamayan və düzgün təlim-tərbiyə ilə inkişaf etməyən cəmiyyət iqtisadi

problemlərlə üzləşməsə də, bir gün fəsada çəkilə bilər və bu yolla həqiqi səadət və xoşbəxtlikdən məhrum qala bilər. Misal üçün, iqtisadi tərəqqiyə nail olmuş, lakin düzgün təlim-tərbiyə ilə idarə olunmayan müsəlman cəmiyyəti bir gün müsəlmançılıq xüsusiyyətini əldən verə bilər. Deməli, ən yaxşı iqtisadiyyat sisteminə malik olmaq ən xoşbəxt cəmiyyət olmaq deyil.

Yenə də təlim-tərbiyənin əsas olmasından nəticə çıxarmaq olmaz ki, cəmiyyətdə vətəndaşlar yoxsulluq içərisində yaşamalıdırlar ki, onların diqqəti Allah-Təalaya tərəf yönəlsin. Allah-Təala bizdən tələb etməmişdir ki, insanları yoxsulluqda saxlayaq. Allah-Təalanın Öz hikmət tədbiri ilə insanları bəzən iqtisadi problemlərlə üzləşdirməsi isə yalnız onları qəflət yuxusundan oyatmaq və mənəvi saflaşdırma üçün olur. Allah-Təala bizə əmr etmişdir ki, cəmiyyətdə yoxsulluqla mübarizə aparaq. Lakin bu ilahi təklif elə bir təsəvvürə səbəb olmamalıdır ki, insanların yeganə problemləri onların iqtisadi çətinlikləridir, belə ki, həmin problemlər həll olduqda onların digər problemləri də öz həllini tapır. Biz cəmiyyətdə yoxsulluqla mübarizə etdiyimiz zaman insanların düzgün təlim-tərbiyəsi ilə də məşğul olmalıyıq. Batil və əsassız əqidələrini onlara xatırlatmalı və düzgün əqidə ilə mənəvi tərəqqilərinə şərait yaratmalıyıq. Biz cəmiyyətdə düzgün dəyərləri və yüksək əxlaq normalarını təbliğ etməliyik ki, cəmiyyətin maddi sahədə inkişafı onların mənəvi kamilləşməsi ilə eyni zamanda həyata keçsin. Nəinki insanlar dünya nemətlərindən bəhrələnərək heyvanlıq vadisinə sürüklənsinlər.

Deməli, bəzi qərb cəmiyyətlərində dinin ailə, iqtisadiyyat, hüquq və dövlət institutlarından ayrılaraq müstəqil sosial institut adlanması tam yanlışdır. Həm də bilmək lazımdır ki, təlim-tərbiyə institutunda məqsəd təkcə uşaq bağçaları, ibtidai məktəblər, orta məktəblər və universitetlər kimi təşkilatlar deyil, həm də cəmiyyətin mədəniyyəti, təlim-tərbiyəsi sahəsində fəaliyyət göstərən bütün qurumlar nəzərdə tutulur. Bu əsasla radio, televiziya, qəzetlər, jurnallar, kitablar, kino, teatr, milli mərasimlər, dini məclislər, çıxışlar, siyasi nümayişlər, incəsənət fəaliyyətləri və bu kimi digər fəaliyyətlər təlim-tərbiyə institutu çərçivəsinə daxil olur.

# VIII FƏSİL

# İctimai dəyişkənlik

# Ön söz

«İctimai dəyişkənliklər» dedikdə, cəmiyyətdə baş verən bütün sosial funksiyalı dəyişkənliklər nəzərdə tutulur. Yəni həmin hadisələrin təsiri təkcə bir şəxsə və ya müəyyən bir ictimai qrupa aid deyil və daim bütün cəmiyyətə təsir göstərir. Burada biz ictimai dəyişkənliklər bəhsində müzakirə obyekti olan bir çox məsələlərdən, yalnız dördünü araşdırmışıq.

«İctimai dəyişkənliklərin növləri» haqda bəhsdə bildirmişik ki, onların üçü daha əhəmiyyətlidir. Bunlar aşağıdakılardır:

Cəmiyyətin zahiri dəyişkənliyi, cəmiyyətin sosial institutları çərçivəsində baş verən dəyişkənliklər və cəmiyyətin sosial institutlarının qarşılıqlı əlaqələrində baş verən dəyişkənliklər.

«İctimai dəyişkənlikləri yaradan amillərə» gəldikdə isə, ilk öncə bu dəyişkənlikləri iki böyük hissəyə, yəni təsadüfdən və iradədən yaranan dəyişkənliklərə ayırmışıq. Sonra sosial dəyişmələri yaradan amillərdən on üç amili daha əhəmiyyətli hesab edərək gətirmiş və bildirmişik ki, həmin amillərdən doqquzu daha çox təsadüfi dəyişmələri, dördü isə azad iradəyə bağlı olan dəyişkənlikləri yaradırlar.

«İctimai dəyişkənliklərin sürəti» məsələsindəsə, yalnız politoloqların və sosioloqların təbirlərindən yaranan bir irada cavab vermişik.

«Sosial dəyişikliklərdə münaqişə və sülh məsələsinə» gəldikdə isə, sosial hərəkatları iki böyük dəstəyə, yəni sülhməramlı və münaqişəli hərəkatlara ayırmışıq.

Burada, yalnız digər bir əhəmiyyətli məsələni araşdırmamışıq. Bu isə sosial dəyişkənliklərin cəmiyyətdə müxtəlif inkişaflarla bərabər olub-olmamasıdır. Biz bu məsələni kitabın digər hissəsində (müraciət edin: 3-cü hissə) araşdırdığımızdan, burada həmin məsələyə toxunmamışıq.

# 1. Sosial dəyişmələrin növləri

Sosial həyatda baş verən müxtəlif və rəngarəng dəyişkənliklərdən üçü daha əhəmiyyətlidir:

1. Müxtəlif sosial qurumların strukturlarına aid olan dəyişikliklər və yaxud struktur sosial dəyişikliklər. Bunlara misal olaraq ailə strukturunda baş verən dəyişkənlikləri, istənilən başqa birliklərin strukturlarında, kiçik qruplarda, peşə, ərazi qruplarında, millətlərdə, bütövlükdə cəmiyyətin özündə, hakimiyyət strukturlarında, idarəetmə strukturlarında və sair baş verən dəyişiklikləri göstərmək olar.

2. Sosial institutların hər birindəki daxili dəyişikliklər.

3. Sosial institutların bir-biri ilə qarşılıqlı münasibətlərindəki dəyişmələr. Sosioloqların tədqiqatları da əsasən bu üç istiqamətdə aparılır və onlar fərdlərin tədricən dünyadan getməsi və ya fərdlərin tədricən dünyaya gəlməsi kimi sosial dəyişkənlikləri bir çox hallarda tədqiq obyektinə çevirmirlər. Yəni sosioloji baxımdan cəmiyyətdə baş verən əsas dəyişmələr yuxarıda qeyd olunan dəyişikliklərdir.

Struktur sosial dəyişikliklər:

Müəyyən bir cəmiyyətin fərdlərinin bir yerdən digər bir yerə köçməsi. Cəmiyyətin vətəndaşlarının azalması və ya çoxalması, vətəndaşların yaşadığı ərazinin azalması və ya çoxalması, kəndlərin şəhərə və ya şəhərlərin kəndlərə köçməsinin çoxalması və ya azalması və bu kimi dəyişmələr cəmiyyətin strukturunu dəyişdirir.

Sosial institutların hər birinin öz çərçivəsində baş verən dəyişikliklər:

Burada məqsəd ailə, iqtisadiyyat, təlim-tərbiyə, hüquq və dövlət institutlarının hər birinin bütövlükdə aradan getməsi deyil. Çünki öncə bildirdiyimiz kimi, heç bir cəmiyyət bu beş sosial institutun heç birini əldən vermir. Lakin müəyyən bir cəmiyyətin iqtisadiyyatı kənd təsərrüfatı və maldarlığa əsaslanırsa, bu, sənaye iqtisadiyyatına çevrilə bilər. Lakin bu həmin cəmiyyətin iqtisad institutunun məhv olması deyil. Yəni dəyişiklik

iqtisadiyyat institutunun öz çərçivəsində baş verən dəyişmədir. Habelə müəyyən bir cəmiyyətin siyasi strukturu totalitar sistemdən demokratik sistemə keçə bilər. Bu da dövlət institutunun aradan qaldırılması deyil. (Məhz buna görədir ki, bütün cəmiyyətlərdə zəruri olan iqtisadiyyat və dövlət institutu sosial institut adlanır. Kənd təsərrüfatı, maldarlıq, sənaye, totalitar sistem və ya demokratik sistem kimi ünsürlər isə bütün cəmiyyətlərdə daim olmadığı üçün sosial institut adlanmırlar.) Qeyd edək ki, belə sosial dəyişkənliklərin sayı sosial institutların sayı qədərdir. İndi isə sosial institutların hər birinin daxilində baş verən dəyişmələr haqda:

a) Ailə institutundakı dəyişiklik: Keçmiş cəmiyyətlərin bir çoxunda övladlar, xüsusilə oğlanlar ailə həyatı qurduqdan sonra da öz ata-anası ilə də birgə yaşayırdılar. Deməli, bu vaxt nəvələr, hətta nəticələr də həmin ailənin üzvü hesab olunurdular. İran, Çin və Yaponiya kimi ölkələrdə hələ də belə ailələr müşahidə olunur. Halbuki, müasir cəmiyyətlərin çoxunda övladlar gənclik dövrünə çatdıqdan sonra ailəni tərk edir və evlənməklə yeni ailə təşkil edirlər.

Müasir cəmiyyətlərdə ailə kişi ilə qadının nigah yolu ilə qurduğu çox kiçik sosial institutdur. Müasir ailələrdə övlad və ya övladlar gənclik dövrünə çatana qədər ailənin üzvüdürlər. Müasir cəmiyyətlərdə formalaşan və qurulan ailələrin üzvlərinin sayı da tədricən azalmaqdadır. Yeni texnologiya sivilizasiyası günbəgün ailələri azuşaqlı olmağa tərəf yönəldir.

Habelə, yeni ailələrdə keçmiş ailələrdən fərqli olaraq daha çox sabitsizlik müşahidə edilir. Çünki sənayenin inkişaf etdiyi ölkələrdə ailənin əsasları süstləşmişdir. Bir tərəfdən belə ölkələrdə evdar qadınların sayı azalır, qadın evdə olmadıqda isə təbii olaraq ev mühitində bir sıra çatışmazlıqlar yaranır. Bu da ailədə bir çox münaqişələrin yaranmasına səbəb olur. Digər tərəfdən isə, qadın ev mühitindən kənarda gəlirli iş fəaliyyətinə məşğul olarkən onun öz həyat yoldaşına asılılığı azalır. Bu vaxt qadın həyat yoldaşından ayrılmağa meylli olur. Bu da ailədə gərgin münaqişələrin yaranmasına gətirib çıxarır. Bu iki amil digər amillərlə yanaşı cəmiyyətlərdə ailələrin dağılması hallarını çoxaltmışdır. Xüsusilə də son 20-30 il ərzində qərb cəmiyyətləri qadın və kişinin cinsi rəftarlarına nəzarəti xeyli azaltmış, hətta nigahdan qabaq və ya nikahdan kənar cinsi əlaqələri müxtəlif yollarla təbliğ etmişdir. Bu da qadın və kişinin hər birinin digərinə qarşı cinsi cazibəsini azaltmış və qarşılıqlı cinsi meylə zidd olan boşanma hallarını çoxaltmışdır.

Bunlardan əlavə, cəmiyyət ailə institutunun çərçivəsində qadınların lider olduğu ictimai vəziyyətdən kişilərin üstün olduğu ictimai vəziyyətə çevrilə bilər. Kişinin lider olduğu ailədə kişi ailənin maddi təminatçısı və evi idarə edən şəxsdir. Qadın isə evdarlıq işləri ilə məşğuldur. Qadının lider olduğu ailələrdə isə evin müdiri qadındır. İslam dini çox təkidlə kişinin lider olduğu ailələrin tərəfdarıdır. Halbuki, bu tip ailə növü müasir dövrdə bir çox sənaye cəmiyyətlərində, xüsusilə Amerikada süstləşməyə doğru gedir. Bu cəmiyyətlərdə belə bir meyl yaranmışdır ki, daha kişinin ailə məsələlərində ixtiyar hüdudları azalmış və bu vəzifəni daha çox qadın üzərinə götürmüşdür.

Bunlar ailə institutu çərçivəsində baş verən bəzi dəyişikliklər idi.

b) İqtisadiyyat institutu daxilindəki dəyişkənliklər. İqtisadiyyat institutu daxilində həyata keçən dəyişikliklərdən biri iqtisadi fəaliyyətin növləri zəminində ola bilər. Bir sıra ibtidai cəmiyyətləri istisna etməklə bütün cəmiyyətlərdə ovçuluq, kənd təsərrüfatı, maldarlıq, ticarət və sənaye və sair iqtisadi fəaliyyətlər eyni vaxtda aparılır. Lakin həmin iqtisadi fəaliyyətlərin növü bəzi cəmiyyətlərdə digərindən fərqlənə bilər. Misal üçün, İslam dini zühur edərkən məkkəlilər cəmiyyəti Məkkə ərazisini təsərrüfat və maldarlıq üçün lazım olan şəraitə malik olmadığı üçün daha çox ticarət fəaliyyəti ilə məşğul olurdular. (Qurani-kərim «Qüreyş» surəsinin 1-ci və 2-ci ayəsində qüreyşlilərin qış və yay mövsümündə ticarət məqsədi ilə olan səfərlərinə işarə etmişdir.) Hər halda, müəyyən bir cəmiyyətin iqtisadi fəaliyyətinin növü dəyişərsə, misal üçün, həmin cəmiyyətdə təsərrüfat və ya maldarlıq ticarət və ya sənaye fəaliyyəti ilə əvəz olunarsa, bu vaxt iqtisadiyyat institutunda dəyişkənlik baş vermişdir.

Burada ehtimal edilən digər dəyişkənlik cəmiyyətə hakim olan iqtisadi sistemdə baş verə bilər. Hər hansı bir cəmiyyət quldarlıq dövründən feodalizm dövrünə və ya feodalizmdən kapitalizmə və yaxud da kapitalizmdən sosializmə tərəf yönəldikdə bu vaxt həmin iqtisadiyyat institutunda dəyişkənlik baş vermişdir.

Digər dəyişikliklər hər hansı bir iqtisadiyyatın inkişafında müşahidə oluna bilər. Az inkişaf etmiş və ya inkişaf etməmiş cəmiyyət dedikdə, vətəndaşların həyat səviyyəsinin aşağı olduğu cəmiyyət nəzərdə tutulur. Belə ki, həmin cəmiyyətin əhalisinin aşağı səviyyədə yaşaması digər inkişaf etmiş və varlı cəmiyyətin əhalisinin həyat tərzi ilə müqayisədə anormal

görsənir. Belə cəmiyyətlər inkişaf etmiş cəmiyyətə çevrilsələr, burada iqtisadiyyat institutu zəminində dəyişkənlik baş vermişdir.

v) Təlim-tərbiyə institutundakı dəyişiklik. Ən sadə cəmiyyətlərdə əmək funksiyasının zəif olduğundan təlim-tərbiyə də müstəqil təşkilat kimi fəaliyyət göstərmir, ailə, qohumluq münasibətləri, iş mühiti və bütövlükdə cəmiyyət təlim-tərbiyə vəzifəsini öhdəsinə götürür. Lakin bir qədər inkişaf etmiş cəmiyyətlərdə təlim-tərbiyə rəsmi institut olaraq formalaşır və təlim-tərbiyə vəzifəsini yerinə yetirmək üçün müəllimlərdən ibarət mütəxəssis işçi qrupu təşkil olunur. Təlim-tərbiyə zəminində sosial fəaliyyətlərin daha da ixtisaslaşması həmin sosial institutda baş verən dəyişmələrdən biri ola bilər.

Keçmiş təhsil sistemlərində hər bir şəxs gənclik çağlarından başlayaraq öz maraq və istedadına uyğun müəyyən elmi sahəni və ya peşəni seçir və istədiyi vaxta qədər həmin sahədə heç bir şəxs qarşısında cavabdeh olmadan çalışırdı. Lakin müasir dövrdə dövlətlər, hətta iqtisadi təşkilatların bir çoxu müxtəlif elmlərdə və sənayedə özlərinə lazım olan ixtisasları müəyyənləşdirir və özlərinə tabe olan təhsil müəssisələrini həmin ehtiyacları ödəmək üçün tənzimləyirlər. Misal üçün, dövlətə lazım olan ixtisasların birində həmin ixtisasda təhsil almaq istəyənlərin sayı az olarsa, dövlət bu barədə müəyyən tədbirlər görür və abituriyentlərin sayını artırır. Onların sayı lazım olandan çox olduğu halda isə dövlət bir sıra şərtlər və maneələr yaratmaqla təkcə səlahiyyəti olan şəxslərə təhsil icazəsini verir. Təhsilin kəmiyyəti və keyfiyyəti müəllimlərin təyin olunması, habelə təhsil müddəti tamamilə dövlətin ixtiyarındadır. Tələbələr isə bu haqda demək olar ki heç bir təsir göstərə bilmirlər. Təhsil müddətini bitirdikdən sonra məzunlar dövlətin təyin etdiyi qurumlarda iş fəaliyyətinə başlamalıdırlar. Proqramsız və azad təhsil sistemindən proqramlaşmış təhsil sisteminə keçid təlim-tərbiyə institutunda baş verən digər dəyişkənlik sayıla bilər.

Bütün təhsil sistemləri üç mühüm funksiyanı yerinə yetirirlər:

1. Vətəndaşları sosial qanunlara uyğunlaşmaq üçün tərbiyə etmək;
2. Sağlam sosial şəxsiyyətlər formalaşdırmaq;
3. Varlığın müxtəlif aspektlərini əhatə edən elmləri və maarifi insanlara çatdırmaq. Dünyanın təhsil sistemlərinin hər birində bu üç funksiyadan və qayədən biri digər iki funksiya ilə müqayisədə üstünlük təşkil edir. Bu məsələ isə həmin təhsil sistemlərinin dərslik proqramlarından məlum olur.

Daha çox qanunlarla ayaqlaşa bilən vətəndaşlar tərbiyə etməyə çalışan təhsil sistemlərində keçmiş nəslə mənsub olan şəxslər hələ sosial həyata hazır olmayan yeni nəsillərə bir sıra təlimlər verirlər ki, onların nəticəsində azyaşlı uşaqların bir sıra əxlaqi, psixoloji və cismi xüsusiyyətləri oyanır və inkişaf edir. Uşaqlarda bu xüsusiyyətlərin inkişaf etməsi həm böyük sosial mühit, həm də onların spesifik sosial mühitləri tərəfindən tələb olunur. Bu təhsil sistemində şagirdlərə daha çox özlərini cəmiyyətlə necə uyğunlaşmaları öyrədilir. Vətəndaşları mədəniyyət və ictimailəşmə baxımından yeniləşdirməyi təhsil institutunun əsas funksiyası hesab edən sosioloqlar daha çox bu cür təhsil sistemləri barədə təhqiqat aparırlar.

Cəmiyyətdə sağlam şəxsiyyətlər yetişdirməklə məşğul olan təhsil sistemlərində isə təkcə bir sıra sosial qayda-qanunlar və ya yaxud təcrübi elmlər deyil, insanları mənəvi və psixoloji baxımdan kamilləşdirən bir sıra qanunlar və xüsusi həyat tərzi öyrədilir. Bu sistemlərdə şagirdlərdən böyük alim deyil, kamil insan olmaq istənilir. Məhz buna görə də mənəviyyatsız elm nəinki dəyərli sayılmır, hətta onun zərərli olduğu bildirilir. İlahi dinlərin və əxlaqi məktəblərin çoxunun təbliğ etdiyi təlim-tərbiyə bu qəbildəndir. Qərbin maddi mədəniyyət və sivilizasiyası ilə tanış olmazdan öncə, İslam ölkələrinə hakim olan təhsil sistemi də sözügedən təhsil sistemindən olmuşdur.

Varlıq aləminin müxtəlif aspektlərini əhatə edən elmləri və maarifi şagirdlərə çatdırmağa səy göstərən təhsil sistemlərində isə dərs proqramları kamil insan deyil, tədqiqatçı alim hazırlamaq üçün tənzimlənmişdir. Bu qəbildən olan təhsil sistemlərində təhsilin dini, əxlaqi və müqəddəs aspektləri ondan alınır, şagird və tələblər, yalnız elmi, texnoloji və ideoloji sahələri öyrənmək üçün hazırlanırlar. Burada riyaziyyat, fizika, kimya, biologiya və tibb elmləri kimi sahələr birinci dərəcəli, humanitar və etik maarifləri ehtiva edən sahələr isə dəyərsiz hesab olunurlar. Yəni belə təhsil sistemlərində insanların zehni gücləndirilir, lakin onların ruhuna isə diqqət yetirilmir.

Hər halda, müxtəlif təhsil sistemlərində müxtəlif funksiyaları və məqsədləri əsas götürmək zəminində olan dəyişkənliklər təhsil institutunda baş verən ən mühüm dəyişmələrdən hesab oluna bilər.

q) Hüquq institutundakı dəyişkənliklər. Hüquq sosial institut olaraq iki qismə bölünür: qanunvericilik və məhkəmə orqanları.

Birinci: Qanunvericilikdə baş verən dəyişkənliklər. Cəmiyyətə hakim olan qanunlardan hər biri aşağıdakı üç qisimdən birinə aiddir:

– İlahi və dini qanunlar. Yəni insanların ilahi əmrlər, qadağalar və hökmlər hesab etdikləri qanunlar.

– İnsanların sosial adət-ənənələrindən qaynaqlanan qanunlar.

– Yazılmış və qəbul olunmuş qanunlar. Yəni bir neçə müəyyən şəxs tərəfindən yazılmış və təsdiqlənmiş qanunlar. Bu üç növə aid olan qanunlardan hər birinin dəyəri və əhəmiyyəti müxtəlif cəmiyyətlərdə eyni deyildir. Bəzi cəmiyyətlərdə ilahi və dini qanunlar daha əhəmiyyətli sayılır və digər qanun növlərini öz təsiri altına salır. Halbuki, ola bilər digər cəmiyyətlərdə dini və ilahi qanunların əhəmiyyəti çox aşağı olsun. Bəzi cəmiyyətlərdə isə yazılmış qanunlar ilahi və dini qanunlardan daha üstün tutulur. Cəmiyyətin hüquq sistemi ilk öncə bu üç növ qanundan birinə meylli olub, sonra digərinə tərəf yönələrsə, bu vaxt qanunvericilik hissəsində dəyişiklik baş vermişdir.

Qanunları təyin edən qanunverici orqan totalitar rejimlərdə bir nəfər, digər sistemlərdə isə bir neçə nəfər tərəfindən təşkil olunmuş milli məclislərdir. Milli məclisin üzvləri də ya xalq tərəfindən seçilir, ya da totalitar xüsusiyyətli olurlar. Yəni onlar xalqın seçimi olmadan hakim tərəfindən təyin edilirlər. Milli məclisə hakim olan siyasi sistemlərdə də ya bir məclis, ya da iki məclis mövcud olur. Hər halda, qanunvericinin və ya qanunvericilik metodunun dəyişməsi hüquq institutunun qanunvericilik hissəsində baş verən dəyişikliklərdən hesab edilir.

Qanunverici və ya qanunvericilik metodunun dəyişməz qalması, lakin qanunların özünün dəyişməsi də bu qəbildən sayılır.

İkinci: Məhkəmə orqanlarındakı dəyişkənlik. Şübhəsiz, hər bir cəmiyyətdə müəyyən qanunlar tətbiq edildikdən sonra, həmin cəmiyyət qanunları icra edən və qanundan boyun qaçıran insanları cəzalandıran bir sıra orqanlara ehtiyac duyur. Başqa sözlə, qanun qəbul edildikdən sonra cəmiyyət qanunvericiliklə tamamilə tanış olan və qanunları təfsir edə bilən bir sıra təşkilatlara ehtiyac duyur.

İbtidai və sadə cəmiyyətlərdə adətən münaqişə yaranan zaman münaqişə tərəflərinin birgə qəbul etdiyi üçüncü şəxsə müraciət edilir və həmin üçüncü şəxs hakim vəzifəsini yerinə yetirir. Lakin inkişaf etmiş cəmiyyətlərdə əhalinin çoxluğunu və sosial münasibətlərin çoxalmasını nəzərə alaraq belə hakimlərlə kifayətlənmək olmaz. Burada qanunauyğun və rəsmi hakimlər

olmalıdır ki, onların çıxardığı hökmlər hamı tərəfindən təsdiq edilsin. Belə rəsmi hakimlər xalq tərəfindən seçilə və yaxud onları hakimiyyət orqanlarından biri vəzifəyə təyin edə bilər. Onların təyinedilmə mexanizmi, habelə ixtiyar hüdudları da müxtəlif cəmiyyətlərdən fərqlidir. Bəzi cəmiyyətlərdə məhkəmə orqanları tamamilə hakimiyyət orqanlarına bağlıdır. Digər cəmiyyətlərdə məhkəmə sistemi idarə təşkilatının bir şöbəsi sayılır. Siyasi müstəvidə isə məhkəmə ali icra orqanının xüsusi şöbəsi hesab edilir. Hakimlərin seçimi, onların ixtiyar hüdudları, habelə onların icra orqanlarından və ölkə qanunvericilik sistemindən müstəqil olub-olmaması zəminində baş verən dəyişkənliklər hüquq institutunun məhkəmə orqanları sahəsində baş verən dəyişikliklərdən hesab olunur.

ğ) Dövlət institutunda dəyişiklik. Siyasi sistemlər ölkə başçılarının seçimi baxımından iki böyük hissəyə ayrılırlar: Onlardan bəzisində dövlət başçıları xalq tərəfindən seçilir (demokratik sistemlər), digərində isə dövlət başçılarının xalq tərəfindən seçiminə icazə verilmir (totalitar sistemlər). Əlbəttə, bu arada həm demokratik, həm də totalitar xüsusiyyətlərə malik olan bir sıra sistemləri də qeyd etmək olar. Çünki həmin ölkələrdə vətəndaşlar asanlıqla bir araya toplaşıb öz problemləri haqda fikir mübadiləsi apara bilərlər.

18-ci əsrdən başlayan vasitəli demokratik sistemlərdə isə cəmiyyətin əhalisi birbaşa ölkə problemlərinin həllində iştirak edə bilmədikləri üçün onlar öz nümayəndələrini seçir və milli quruma və ya məclisə göndərirlər. Müasir cəmiyyətlərdə demokratik sistemin, yalnız bu forması icra edilə bildiyindən, bu gün «demokratik sistem» deyəndə, dövlət başçılarının əhali və vətəndaşlar tərəfindən seçildiyi siyasi sistemlər nəzərdə tutulur. Bir sözlə, tam real və azad seçkilər keçirən sistemlər demokratik sistemlər adlana bilər.

Totalitar sistemlər isə bir neçə yolla yaranırlar:

Bəzən həmin sistemlər qələbə yolu ilə meydana gəlirlər. Misal üçün, başqa ölkənin ərazisini qəsb etmək, xalqın qüvvəsindən istifadə edərək inqilab etmək, mövcud hakimiyyətin qüdrətindən istifadə etməklə çevriliş edib onun yerini tutmaq, hərbi qüvvələrdən istifadə etməklə hərbi çevriliş etmək.

Totalitar sistemlərin bəzisi isə irs yolu ilə əldə edilir. Bu da adətən bir nəfərin ailəsində növbə ilə baş verir.

Bəzi cəmiyyətlərdə isə totalitar hakim özündən qabaqkı başçı tərəfindən təyin edilir.

Öncə bildirdik ki, bir sıra siyasi sistemlərdə dövləti idarə edən şəxslər həm demokratik, həm də totalitar metodlardan istifadə etməklə seçilirlər. Belə sistemlərdə seçkilər tamamilə unudulmamışdır. Lakin seçkilərdən başqa digər variantlar da mövcuddur. Qeyd edək ki, belə siyasi sistemlər üç qismə ayrılırlar:

Bəzən hakimiyyətə mənsub olan iki təşkilatdan biri totalitar xüsusiyyətli, digəri isə demokratik olurlar. Misal üçün, dövlət başçısı diktator olduğu halda milli məclis xalq tərəfindən seçilir və yaxud ölkədə mövcud olan iki məclisdən birinin üzvləri totalitar metodlardan biri ilə (misal üçün, irs yolu ilə), digər məclisin üzvləri isə xalq tərəfindən seçilirlər. Və yaxud milli məclisin üzvlərindən bəzisi demokratik yolla bəzisi isə totalitar yolla məclis üzvlüyünə seçilirlər.

Bəzi siyasi sistemlərdə vətəndaşlar seçkilər yolu ilə bəzi namizədləri təklif edirlər ki, onların arasından bir sıra nümayəndələr seçilsin. Deməli, bu vaxt dövlət başçıları tamamilə xalq tərəfindən seçilmir, yalnız xalq bir sıra namizədləri dövlət başçısı olmaq üçün təklif edə bilər.

Siyasi sistemlərdən hər birinin digər siyasi sistemə keçməsi dövlət institutunda baş verən dəyişiklik hesab edilir.

Lakin cəmiyyətə hakim olan siyasi sistemin formasından daha əhəmiyyətli olan dövlət başçılarının ixtiyar və vəzifə çərçivəsidir. Çünki dövlət başçılarının hüquqları və vəzifələri xalqın fərdi və sosial həyatının müxtəlif sahələrində dərin təsir bağışlayır və digər sosial institutların mahiyyətində geniş dəyişkənliklərə səbəb olur. Əks halda siyasi sistemin formal dəyişməsi digər sosial institutların dəyişməsini zəruri etmir. Hərçənd bu vaxt onlarda da bir sıra dəyişkənliklərin şahidi ola bilərik.

Hər bir hakimiyyətin ixtiyar və vəzifə hüdudları sahəsində müzakirə olunan məsələlərdən biri hakimiyyətdə qanunvericilik, məhkəmə və icraçı orqanlarının bir-birindən ayrılması və ya bir-biri ilə birləşməsidir. Montoskyo tərəfindən irəli sürülən hakimiyyət orqanlarının ayrılması və müstəqil fəaliyyət göstərməsi ideyası demokratiyanın bünövrəsi hesab olunur. Bu vaxt heç bir hakimiyyət orqanı digərinin ixtiyar çərçivəsinə daxil ola bilməz. Habelə, onlardan heç biri digərinin vəzifəsini yerinə yetirmir. Hər bir vətəndaş həmin orqanların, yalnız birində fəaliyyət göstərə bilər. (Misal üçün, dövlət işçiləri eyni halda parlament üzvü ola bilməzlər).

Deməli, hakimiyyət orqanlarının müstəqil olması hakimlərin ixtiyarlarını azaldır və bəzi fəsadların qarşısını alır. Bu vaxt xalqın azadlığı isə çoxalır.

Lakin hakimiyyət orqanlarının bir-birindən müstəqil surətdə fəaliyyət göstərməsini özündə ehtiva edən bir sıra siyasi sistemlərdə də dövlət başçılarına verilən ixtiyar hüdudları fərqlidir. Misal üçün, həmin sistemlərin bəzisində siyasi, iqtisadi və ticarət məsələlərində icra orqanlarının ixtiyar hüdudları çox az bəzisində isə genişdir. Məhz buna görə, icra orqanlarının ixtiyar hüdudlarını məhdudlaşdırmaq üçün hakimiyyət orqanlarının müstəqil olmasından əlavə, digər yollar da mövcuddur.

Dövlətin, yəni icra orqanlarının ixtiyar hüdudlarının genişlənməsi və ya azalması hökumət və dövlət institutunda baş verən digər dəyişkənlikdir.

**Müxtəlif sosial institutların qarşılıqlı əlaqələrinin kəmiyyət və keyfiyyətində baş verən dəyişikliklər**

Şübhəsiz, bütün sosial institutlar bir-birinə təsir bağışlayırlar. Həmin qarşılıqlı təsir nəticəsində isə onların arasında müəyyən uyğunluqlar yaranır. Buna görə də müəyyən sosial institutda yaranan dəyişkənlik digər institutlara da təsir göstərir.

Sosial institutlarının hər birinin digər institutlardakı təsirindən bir neçə nümunə gətirəcəyik:

a) Ailə institutunun digər institutlardakı təsiri. Ər-arvadın «əhalini azaltma metodlarına» diqqətsizliyi cəmiyyətdə əhalinin sürətlə inkişafına səbəb olur. Cəmiyyətin sürətlə inkişafı isə əhalinin məişət problemlərini həll etmək üçün bir sıra yeni iqtisadi proqramların həyata keçməsini tələb edir. Habelə, bir çox mütəxəssislər bildirirlər ki, cəmiyyətin inkişaf etdiyi hər bir mərhələdə vətəndaşlara uyğun üslublar mövcuddur. Bununla da cəmiyyətin bütün vətəndaşları ən yüksək maddi rifahdan bəhrələnə bilərlər. Beləliklə, cəmiyyətin əhalisinin azalması digər insanların maddi rifahının azalmasına səbəb ola bilər (ailə institutunun iqtisadiyyat institutundakı təsiri). Ailənin təhsil sahəsindəki təsiri də danılmazdır. Misal üçün, cəmiyyətdə mövcud olan cinayətkarların çox hissəsi atanın, ananın və ya hər ikisinin ölümü ya ayrılması ilə dağılan ailələrdəndirlər.

b) İqtisadiyyat institutunun digər institutlardakı təsiri. Aydın məsələdir ki, insanların gəlir həcmi onların ailə qurmasında, öz fiziki imkanlarından istifadə etməsində, övladlarının sayında, habelə ölkədə baş verən müxtəlif

cismi və psixoloji xəstəliklərdə, qidalanma sahəsində, əhalinin tibbi sağlamlığında, onların mənzillərinin və paltarlarının keyfiyyətində və sosial həyatın digər sahələrində təsir qoyur. Yoxsul insanlar zənginlərdən daha az təhsil imkanlarından istifadə etməyə müvəffəq olurlar. (iqtisadiyyatın təhsildə təsiri). Hər hansı bir cəmiyyətin iqtisadi böhran vəziyyəti həmin cəmiyyətin iqtisadi və hüquqi qanunlarının dəyişməsinə səbəb ola bilər (iqtisadiyyatın hüquqda təsiri). Habelə ölkədə mövcud olan iqtisadi bərabərsizlik öz həddini aşarsa və hakim siyasi sistem bu ədalətsizliyin inkişafında təqsirkar bilinərsə, bu vaxt həmin ədalətsizlik bir sıra etirazlara səbəb olur, bu da həmin sistemin dəyişilməsi ilə nəticələnə bilər (iqtisadiyyatın dövlət institutundakı təsiri).

v) Təhsil institutunun digər institutlardakı təsiri. Bizim əqidəmizə görə, sosial institutlardan heç birinin təsiri təhsil institutu qədər deyil. Digər sosial institutlarda baş verən dəyişkənliklər sosial həyatın müxtəlif vasitələrini dəyişdirir. Təhsil isə həyatın ruhunu və məqsədini dəyişdirir. Misal üçün, müəyyən bir cəmiyyətin iqtisadiyyatı dəyişərək təsərrüfat və heyvandarlıq mərhələsindən sənaye mərhələsinə keçə bilər. Lakin bununla belə həmin cəmiyyətin vətəndaşlarının mənəvi və psixoloji durumu sabit olaraq qala bilər. Bu onu göstərir ki, iqtisadi dəyişkənliklər insan həyatının mənəvi aspektləri ilə birbaşa əlaqəli deyil və bu baxımdan birinci dərəcəli əhəmiyyət daşımır. Hərçənd bir çox sosioloqlar iqtisadiyyatı çox mühüm qələmə vermiş və cəmiyyətləri habelə cəmiyyətlərdə baş verən müxtəlif tarixi mərhələləri iqtisadiyyat əsasında müxtəlif qisimlərə ayırmışlar. Lakin təhsil sisteminin dəyişməsi cəmiyyətdə insanların mənəvi və psixoloji vəziyyətinin dəyişməsinə, habelə onların rəftarlarının etik normalarının və əqidələrini düzgün istiqamətdə yönəldir. Bu səbəbdən, təhsil sistemində baş verən dəyişkənliklər bir çox böyük dəyişkənliklərə səbəb olur.

q) Hüquq institutunun dəyişkənliklərinin təsiri. Cəmiyyətin vətəndaşlarının hər biri ailə, iqtisadiyyat, təhsil və dövlət institutları çərçivəsində müəyyən hüquq və vəzifələrə malik olduqları üçün hüquq institutunun dəyişkənlikləri (bu dəyişkənliklər özünü siyasi, iqtisadi və ya məhkəmə qanunlarında göstərir) bütün digər sosial institutları dəyişkənliyə məruz qoyur.

ğ) Dövlət institutunun dəyişkənliklərinin təsiri. Bəzi siyasi sistemlərdə dövlət bütün sosial, iqtisadi, mədəni və hüquqi sahələrə tam nəzarət edir. Həmin ölkələrdə siyasi qüdrət, yalnız hakim partiyanın əlindədir. Yəni

xalqın nəzarət mexanizmi tamamilə aradan qaldırılmışdır. Həmin sistemlərdə müxalifətçi qüvvələr müxtəlif yollarla, o cümlədən işgəncə və ya qətl vasitəsilə əzilirlər. Burada hakim partiyanı, yalnız bir nəfər idarə edir və həmin şəxs dövlətin və partiyanın məqsədlərini həyata keçirmək və vətəndaşların azadlıqlarını və müstəqilliklərini tapdalamaq üçün bütün səylərini həyata keçirir. Belə sistemlərdə dövlətin müxtəlif İctimai və sosial sahələrdə dəxalət etməsi üçün müəyyən qanuni çərçivələr mövcud deyildir. Həmin ölkələrdə dövlət təhsil sistemini tamamilə ələ keçirmək, habelə, bütün kütləvi informasiya vasitələrini öz məqsədlərinə tərəf yönəltməklə onların hamısını vahid məqsədlərə xidmət göstərməyə cəlb edir. Dövlət onun təyin etdiyi müəyyən vəzifələrdən boyun qaçırmaq istəyən şəxslər və ya qruplar qarşısında tolerantlıq göstərmir. Şübhəsiz, belə siyasi sistemlərdəki dövlət müxtəlif sosial institutlarda ən yüksək təsir qabiliyyətinə malik olur. Bütövlükdə, totalitar xüsusiyyətlərdən uzaqlaşan siyasi sistemlər cəmiyyətin sosial institutlarına daha az təsir göstərə bilirlər. Başqa sözlə, hər bir dövlətdə başçıların ixtiyar hüdudları nə qədər azalarsa, dövlət institutunun digər institutlardakı təsiri bir o qədər azalacaqdır.

Bununla belə ən demokratik siyasi sistemlərə malik olan ölkələrdə də dövlət elə bir qüdrətə malikdir ki, cəmiyyətin bir çox siyasi institutlarını öz təsiri altına sala bilər. Bu səbəbdən, hər bir siyasi sistemin süqut etməsi və ya yeni siyasi sisteminin yaranması sosial institutlarda bir çox dəyişkənliklərə səbəb olur. Məhz buna görədir ki, sosioloqlar hər bir cəmiyyətin vəhdətinin sonuncu şərtini həmin cəmiyyətin siyasi sisteminin düzgün formalaşması hesab edirlər. Hər bir cəmiyyətin vətəndaşlarının çox hissəsi ailə institutu ilə bağlı təşkilatlarda fəaliyyət göstərsələr də (bu fəaliyyətlər təhsil, iqtisadiyyat və hüquq sahəsində də ola bilər), lakin sosioloqların fikrincə, bütün bunlardan daha əhəmiyyətlisi vətəndaşların dövlət institutu ilə əlaqəli olan təşkilatlardakı fəaliyyətidir. Deməli, cəmiyyət qarşılıqlı maddi və mənəvi əlaqələri olan, habelə ortaq sosial fəaliyyətlərə, xüsusilə ortaq siyasi sistemə malik olan insanlar toplumundan ibarətdir.

# 2. Sosial dəyişiklikləri yaradan amillər

Hər şeydən öncə qeyd etməliyik ki, sosial dəyişiklikləri yaradan amillərin özü də bir sıra digər amillərin, həmçinin, həmin amillərin özü də öz növbəsində digər amillərin təsiri nəticəsində yaranmışlar və... Bu səbəbdən, sosial dəyişikliklərin amilləri dedikdə, cəmiyyətdə baş verən dəyişkənliklərin vasitəsiz səbəbləri nəzərdə tutulur. Hərçənd vasitəsiz səbəblərdən ikisi, üçü və ya bir neçəsi də digər vahid səbəbin nəticələri ola bilərlər.

İctimai dəyişkənliklərə gəldikdə isə deyə bilərik ki, onlar ya məqsədyönlü və şüurlu şəkildə həyata keçirlər, ya da təsadüf nəticəsində baş verirlər. Əlbəttə, bir cəhətdən bütün sosial dəyişkənliklər qanunauyğundurlar. Çünki bütün insanların hər birinin azad iradəsindən yaranırlar. Lakin insanların azad iradəsi ilə həyata keçən işlər onların istəmədiyi nəticələrə də səbəb ola bilər. Ona görə ki, insanların işləri daimi olaraq bir-biri ilə uyğunlaşmır. Yəni onların işləri bəzən bir-birinə mane ola bilər. Lakin əsas məsələ budur ki, görəsən, sosial dəyişkənliklər bütün əhali tərəfindən həyata keçir, yoxsa bir neçə şəxsin və sosial qrupların istəyi ilə yaranırlar. Bu əsasla, sosial dəyişkənlikləri iki hissəyə bölmək olar. Zəruri və ya təsadüfi dəyişikliklər, azad iradədən doğan dəyişikliklər.

Birinci: Zəruri və ya təsadüfi olan dəyişkənliklər. Bu dəyişkənlikləri yaradan amillərdən bəzisi aşağıdakılardır:

a) Təbii hadisələr. İnsanların iradə və ixtiyar çərçivəsindən tam xaric olan zəlzələ, vulkan püskürmələri, sel, qıtlıq, yoluxucu xəstəliklərin çoxalması və sair sosial problemlər əhalinin sayını azaldır və xəstəlik, yoxsulluq və digər problemləri çoxaldır.

b) Müharibə. Cəmiyyətin vətəndaşları biganə və xarici düşmənlər tərəfindən hücuma məruz qalarlarsa, bu vaxt onlar təbii hadisələrin

yaratdığı problemlərlə üzləşəcəklər. İstər özlərini müdafiə etsinlər və qalib gəlsinlər, istərsə də düşmən qarşısında məğlub olsunlar.

v) İnsanların öncədən gözləmədiyi nəticələr. Bəzən bir şəxs və ya bir qrup insan müəyyən olunmuş məqsədə çatmaq üçün fəaliyyət göstərirlər. Lakin həmin fəaliyyət sonda onların gözləmədiyi nəticə ilə üzləşir və onların həyatında bir sıra dəyişkənliklərə səbəb olur. Təsəvvür edin, səhrada köçəri həyat yaşayan insanlar özləri və heyvanları üçün azuqə tapmaq məqsədi ilə axtarışa çıxırlar. Lakin bu vaxt onlar çox gözəl ab-havalı bir əraziyə çatırlar. Belə ki, bundan sonra orada yaşamağa başlayır və köçəri həyatını kəndli həyatına çevirirlər.

q) Şəxsi məqsədlər və fərdi mənafelər üçün həyata keçən işlərin bəzi nəticələri. Bir şəxs özünün şəxsi mənafelərini əldə etmək üçün bir sıra fəaliyyətlərə başlayır. Lakin həmin fəaliyyətin nəticəsindən onun özü ilə bərabər başqaları da bəhrələnirlər. Bu isə tədricən sosial həyatda dəyişkənliyə səbəb olur. Halbuki, həmin şəxs cəmiyyətə xidmət etmək və sosial dəyişkənliklər icad etmək fikrində deyildi. Habelə, digər insanlar da müəyyən sosial dəyişkənliyi həyata keçirmək üçün onun fəaliyyətinin nəticələrindən istifadə etməmişlər. Qeyd edək ki, yeniliklərdən çoxu (istər kəşflər, istər ixtiralar) bu qəbildəndirlər.

Tanınmış ünsürlərin yeni tərkibi kimi tərif edilən ixtira barəsində bir məqamı xatırlamalıyıq. İxtiralar təkcə maddi əşyalar üzərində deyil, qeyri maddi sahələrdə də həyata keçir. Siyasi partiya, gizli səsvermə, habelə fəhlə İctimai birlikləri qeyri-maddi ixtiraların nümunələridir.

ğ) İnteqrasiya: İnteqrasiya bir cəmiyyətin xüsusiyyətlərinin digər bir cəmiyyətə keçməsinə deyilir. Bu isə həmin cəmiyyətin digər cəmiyyətlərlə təmasda olması ilə baş verir. Bir çox cəmiyyətlərin sürətli sosial dəyişkənliklərə məruz qalması onların spesifik coğrafi məkanda olmasına görədir. Çünki belə olan halda həmin cəmiyyətlərin vətəndaşları digər cəmiyyətin vətəndaşları ilə əlaqə yaradır və onların mədəniyyətlərini mənimsəyirlər. Məhz buna görədir ki, qarşılıqlı əlaqələrdən uzaq olan cəmiyyətlərdə sosial dəyişmələr halları az müşahidə olunur. Danılmaz faktdır ki, müəyyən bir cəmiyyətin coğrafi mövqeyi və onun digər cəmiyyətlərlə təmasda olması insanların iradə və ixtiyar çərçivəsindən kənarda olan amillərin təsiri nəticəsində baş vermişdir. Habelə, müxtəlif təmaslar nəticəsində digər cəmiyyətlərin mədəniyyətinin mənimsənilməsi

şüurlu şəkildə sosial dəyişkənliyi icad etmək məqsədi ilə həyata keçməmişdir. Yəni hər hansı sosial bir rəftar öncədən planlaşmır.

Bütövlükdə, sosioloqlar ixtira və inteqrasiyanı sosial dəyişkənliklərin bünövrəsi adlandırırlar. Çünki bu iki amil nəticəsində cəmiyyətə yeni üzvlər daxil olur. Habelə, tədqiqatçılar inteqrasiyanın nəticəsində baş verən dəyişkənliklərin ixtiradan yaranan dəyişkənliklərdən daha çox olmasını vurğulayırlar. Onların fikrincə, sosial dəyişkənliklərin çoxunun mənşəyi inteqrasiya amilidir.

d) Elm və texnologiyanın inkişafı. Hər bir cəmiyyətdə maarif və insanların məişət həyatını təmin edən vasitələr daimi olaraq çoxalmaqdadır, elm və texnologiyanın inkişafı isə sosial dəyişkənliklərin yaranmasında mühüm təsirə malikdir. Halbuki, bu, şüurlu sosial rəftarın nəticəsi deyildir.

e) Əhalinin sayı. Əhalinin sayının çoxalması və azalması cəmiyyətin müxtəlif sahələrində dəyişkənlik yarada bilər. Belə ki, insanların sayının çoxalması ictimai təşkilatların çoxalmasına və ixtisaslaşmasına səbəb olur. Halbuki, cəmiyyətin sayının çoxalması və ya azalması insanların hamısının və ya əksəriyyətinin müəyyən məqsədə çatmaq üçün təyin etdiyi İctimai rəftarın nəticəsi deyildir. Ailə həyatı qurmuş kişi və qadın müəyyən maraqlara əsasən ya övladlarının sayını çoxaldır, ya da bunu etmir. Onlar adətən əhalinin sayının çoxalmasının, ya da azalmasının sosial nəticələrinə diqqət yetirmirlər.

ə) Sosial ziddiyyətlər. Burada sosial ziddiyyətlər dedikdə müxtəlif cəmiyyətlər arasında baş verən ziddiyyətlər deyil, vahid cəmiyyətin daxilində İctimai qruplar arasında baş verən ziddiyyətlər nəzərdə tutulur. Cəmiyyətdaxili qruplaşmalardakı ziddiyyətlər Marks və onun tərəfdarlarının bildirdiyi kimi ümumi təsirə malik olmasa da, müasir dövrdə sosial dəyişkənliklərin amillərindən biri hesab olunur. Nəsillər arasındakı ziddiyyətlər, xüsusən bugünkü gənclərin qlobal xüsusiyyətləri tarixin müəyyən mərhələlərində mədəni və sosial dəyişkənliklərin yaranmasında böyük təsirə malik ola bilər.

Sosial ziddiyyətlər həmçinin cəmiyyətdə mövcud olan müxtəlif sosial institutlar arasındakı ziddiyyətlərə aid edilə bilər. Misal üçün, qərb cəmiyyətlərində, xüsusilə Amerika Birləşmiş Ştatlarında təhsil sistemi qarşılıqlı məhəbbət və bir-birinə qarşı güzəşt etmək kimi təlimləri xristian dininin təlimləri kimi təbliğ edir. Halbuki, həmin ölkələrdə cərəyan edən iqtisadiyyat mal-dövlət əldə etmək üçün güzəştsiz və rəhimsiz rəqabəti

təbliğ edir. Sosial ziddiyyətlər ümumi kütləni narahat edərsə, insanlar yeni metodları qəbul etməyə hazır olurlar. Halbuki, adi vəziyyətlərdə onlar yeni metodlar qarşısında müqavimət göstərirlər.

İkinci: Azad iradədən yaranan dəyişikliklər. Bu növ dəyişkənlikdə cəmiyyətin bütün vətəndaşları və ya onların çox hissəsi ortaq məqsədlərə malik olaraq müəyyən məqsədi həyata keçirtmək məqsədilə ümumi fəaliyyətə başlayır. Adətən, belə fəaliyyətləri sosial hərəkatlar da adlandırırlar. Belə dəyişikliklərin amillərindən bəzisi aşağıdakılardır:

a) Mövcud vəziyyətdən ümumi narazılıq. Öz şəxsi həyatında dəyişkənlik yaratmaq istəyən insan ya mövcud vəziyyəti zərərli görür və həmin zərərin qarşısını almaq üçün bu işi həyata keçirir, ya da yeni vəziyyəti daha faydalı hesab edir və bu əsasla daha çox faydalanmaq istəyir. Fərdlərdə olduğu kimi cəmiyyətlərdə də belədir. Yəni hər hansı bir cəmiyyət özündə müəyyən sosial və universal dəyişkənlik təsəvvür etmək istəyirsə, bu vaxt o, bəyənilməyən vəziyyətdən çıxaraq bəyənilən vəziyyətə daxil olmaq istəyir. Ya da az faydalı olan sosial qurumdan daha çox faydalı olan sosial sistemə keçmək istəyir. Ümumiyyətlə, hər bir şüurlu fərdi və İctimai iş ziyandan qaçmaq, ya da müəyyən faydanı cəlb etmək məqsədi ilə həyata keçir. Əlbəttə, zərər və fayda həm dünyəvi, maddi, həm də mənəvi ola bilər. Deməli, hər hansı bir ictimai hərəkat dörd məqsəddən birinin həyata keçməsi üçün formalaşır.

– Maddi ziyanları qaytarmaq

Yəni cəmiyyət maddi yoxsulluqdan əziyyət çəkir və bu problemi həll etməyə çalışır.

– Maddi mənfəəti əldə etmək

Yəni insanların məişət həyatı o qədər də pis deyil. Lakin onlar daha faydalı və yüksək səviyyəli vəziyyət yaratmaq istəyirlər.

– Mənəvi ziyanları qaytarmaq

Burada cəmiyyət özünün müəyyən mənəvi və əxlaqi problemlərlə üzləşdiyini hiss edir və cəmiyyətdə mənəvi və psixoloji kamilləşməyin həyata keçməsi üçün həmin mənəvi zərərləri cəmiyyətdən uzaqlaşdırmaq istəyir.

– Mənəvi mənfəəti əldə etmək

Yəni cəmiyyət özünün mənəvi və əxlaqi problemlə üzləşdiyini hiss etmir, lakin mövcud mənəvi durumu o qədər də bəyənmədiyi üçün bu

sahədə inkişaf etmək fikrinə düşür. Əlbəttə, İctimai hərəkatlar adətən eyni halda həmin məqsədlərdən bir neçəsini həyata keçirmək üçün çalışırlar.

b) Dəyərlər. Öncə qeyd etdiyimiz kimi, marksizm məktəbi bildirirdi ki, dəyərlər cəmiyyətdə uzun-müddətli sosial dəyişkənlikdə heç bir təsir qabiliyyətinə malik deyildir və sosial dəyişkənliklər, yalnız sinfi mübarizələrdə təzahür edən iqtisadi qüvvələrin qarşılıqlı təsiri nəticəsində baş verir. Lakin marksizmdən fərqli olaraq bildiririk ki, dəyərlər həm fərdi rəftarlarda, həm də sosial proseslərdə çox mühüm təsir amili kimi çıxış edir. Deməli, onların sosial dəyişkənliklərdəki təsiri danılmazdır. Xüsusilə də dəyərlər kamil ideologiya şəklində hazırlansalar, həmin funksiyanı daha yaxşı yerinə yetirərlər.

v) Cəmiyyətdəki dahi şəxsiyyətlər. Peyğəmbərlər və digər İctimai islahatçılardan bir çoxu sosial hərəkatların yaranmasında çox mühüm təsir bağışlayırlar. Biz Tomas Karlayl və digər idealpərəstlər kimi tarixi bir neçə dahi şəxsiyyətin müvəffəqiyyətlərinin nəticəsi hesab etmirik. Habelə, biz Hegel və digər tarixpərəstlər kimi bu əqidədə deyilik ki, dahi şəxsiyyətlər tarixin oyuncaqlarıdırlar. Yəni tarixi şəxsiyyətlər həyata gəlməsəydilər də, tarixin ümumi hərəkəti gördüyümüz kimi olacaq idi. Biz qəhrəmanpərəstlik və tarixpərəstlik ideyalarından fərqli olaraq, cəmiyyətin dahi şəxsiyyətlərinin sosial hərəkatlarındakı aşkar təsirini danmırıq.

Burada bir məsələni xatırlatmalıyıq ki, tarixdə müxtəlif müharibələri fəth edən şəxsiyyətlər, tanınmamış qitələri və əraziləri kəşf edənlər, ixtiraçılar, alimlər, sənaye sahibləri və bu kimi insanların çoxunun əhəmiyyəti təsadüfi dəyişkənliklərin yaranmasında müşahidə edilir. Bizim cəmiyyətdəki dahi şəxsiyyətlərdən məqsədimiz isə şüurlu şəkildə cəmiyyətdə bir çox İctimai hərəkatlar yaradan, onları sürətləndirən və ya onlara rəhbərlik edən İctimai islahatçılardır.

q) Təhsil. Təhsil özünün ən geniş mənasında insanların mövcud vəziyyətdən, habelə cəmiyyətdə hakim olan dəyərlərin yanlış olmasından, hakimlərin insanlara qarşı zorakılığından, digər tərəfdən isə ideal dəyərlərdən və cəmiyyətlərdən agah olmalarında böyük və əvəzsiz təsirə malikdir. Deməli, təhsil həm insanların elmini artırır, həm də onları ideal dəyərlərə və cəmiyyətlərə doğru yönəldir. Başqa, sözlə təhsil sosial dəyişkənliklər qarşısında müqavimət hissini azaldır və bu yolla sosial hərəkatlara yeni ruh bağışlayır.

Qeyd edək ki, bəzi sosial dəyişkənlikləri təsadüfi adlandırmaq, yalnız ona görədir ki, cəmiyyətin vətəndaşlarının hamısı və ya əksəriyyəti həmin dəyişkənlikləri planlı şəkildə həyata keçirməmişlər. Yəni insanlar onları həyata keçirmək üçün öncədən müəyyən proqramlar hazırlamamış və bu barədə kollektiv fəaliyyət göstərməmişlər. Çünki ilahi və dini baxımdan heç bir hadisə təsadüfi deyildir. Allah-Təala bütün hadisələr üçün hikmətli tədbir görmüşdür. Hərçənd insanlar həmin məqsədləri nəzərə almır və öz işlərini həmin hədəflərə çatmaq üçün yerinə yetirmirlər.

Bundan əlavə, bir çox təsadüfi və ya məcburi adlandırdığımız işlər də ilahi mənzərdən insanların iradəsi ilə əlaqələndirilir. Bizim zahiri görüşlərimizdə zəlzələ, sel, qıtlıq və digər təbii hadisələr təbii amillərin nəticəsidir. Və bizim həmin hadisələrin yaranmasında heç bir təsirimiz yoxdur. Lakin Qurani-kərim belə hadisələrin çox hissəsini də bizim öz rəftarlarımızın nəticəsi adlandırır.

«Allah (itaətsizlik və nemətə nankorluğun aqibəti barəsində düşməndən və pis hadisələrdən) amanda və xatircəm olan, ruziləri hər tərəfdən bol-bol gələn cəmiyyəti məsəl çəkir. Belə olan halda, onlar Allahın nemətlərinə nankorluq etdilər, Allah da etdiklərinin cəzası olaraq onlara aclıq və qorxu libası geyindirdi və onlara onun tamını dadızdırdı.»[90]

«Əgər şəhər və kəndlərin əhalisi iman gətirsəydilər və təqvalı olsaydılar, şübhəsiz, göydən və yerdən onların üzünə bərəkətlər açardıq. Lakin onlar (bizim ayələrimizi) təkzib etdilər. Belə olduqda, onları əldə etdiklərinin cəzası olaraq yaxaladıq.»[91]

Bu iki şərif ayədən məlum olur ki, həm yer və göy bərəkətlərinin nazil olması iman və təqvaya bağlıdır, həm də ilahi nemətlərin əldən getməsi Allaha qarşı küfr etməyin məhsuludur, bir sözlə, təbii hadisələrin bir çoxu insanların pis və ya yaxşı əməllərinin nəticəsidir.

Sosial dəyişkənliklərdə təsir göstərən amillərə diqqət yetirdikdə görürük ki, cəmiyyətdə baş verən dəyişmələrin hamısı daxili amillərin nəticəsi deyil, onlardan çoxu xarici amillərin təsiri nəticəsində yaranmışdır. Çünki təbii hadisələri də sosial dəyişkənliklərin daxili amilləri hesab etsək, şübhəsiz, müharibə, qələbə, mədəniyyət əlaqələri və inteqrasiya xarici amillər sayılır. Deməli, cəmiyyətdə həyata keçən dəyişkənliklərin hamısını daxili amillərə istinad edən mütəfəkkirlərin ideyaları düzgün deyildir.

Habelə, unutmamalıyıq ki, cəmiyyət obyektiv real şəxsiyyətə malik olmadığından sosial dəyişkənliklər cəmiyyətdə yaşayan fərdlərə nisbət

verilir. Yəni insanlar qarşılıqlı münasibətlərə malik olduqları üçün onların arasında bir sıra sosial dəyişkənliklər peyda olur.

# 3. Sosial dəyişikliklərin sürəti

Qeyd edək ki, sosial dəyişkənliklər bir an ərzində deyil, uzunmüddətli proseslər olaraq tədricən həyata keçir. Başqa sözlə desək, sosial dəyişkənliklər hərəkət cinsindəndirlər. Lakin Buna baxmayaraq, sosial dəyişmələr tarixin müəyyən mərhələlərində və yaxud bəzi sahələrdə daha sürətli baş verdiyi üçün sosioloqlar sosial dəyişiklikləri iki qismə ayırmışlar:

1. İnqilabi dəyişkənliklər.
2. Tədrici dəyişmələr.

# 4. Sosial dəyişkənliklərdə münaqişə və sülh

Cəmiyyətdə baş verən təsadüfi dəyişmələrin əksi olaraq insanların azad iradəsindən qaynaqlanan dəyişmələr sosial hərəkatlar adlanırlar. Həmin sosial hərəkatlar isə iki qismə bölünür: Birinci qisim hərəkatlar bütün cəmiyyətin mənafeyini və əhalinin maddi və mənəvi inkişafını təmin edən dəyişkənliklər yaratmağa səy göstərirlər. Belə sosial hərəkatlarda əhalinin hamısı sosial sahələrin birinin lazımi səviyyədə olmamasını və onların maddi və mənəvi inkişafına maneçilik göstərməsini dərk edirlər. Məhz buna görə də cəmiyyətdə islahat aparmağı zəruri hesab edirlər. Onlar ideal həyat üçün lazım olan vasitələri əldə edir və cəmiyyəti saflaşdırmağa çalışırlar. Bu cür hərəkatlardan biri sosial mühəndislik hərəkatıdır. Həmin hərəkat dünyanın çox ölkələrində mövcuddur. Burada cəmiyyətin gələcəkdə yaranan problemlərinin qarşısı alınır və dəqiq proqramlar həyata keçirtməklə cəmiyyətin sabahı saflaşdırılır. Bu ideya ilə çıxış edən hərəkatlarda vətəndaşların hamısı cəmiyyəti islah etmək və saflaşdırmağın zəruri olmasını duyduqları üçün İctimai qruplar arasında ziddiyyət baş vermir. Yəni bu hərəkatlar sosial münaqişələrlə nəticələnmirlər. Bu baxımdan, həmin hərəkatlar bir-iki sosial institutlarda müəyyən dəyişkənliklər yaratsalar da, bütövlükdə, sülh şəraitində həyata keçir.

İkinci qismə aid olan hərəkatlarda isə yalnız xalqın bir hissəsinin faydalandığı dəyişkənliklər icad edilir. Vətəndaşların digər hissəsi isə həmin dəyişkənliklərdən ya faydalanmırlar, ya da onlara bu yolla ziyan dəyir.

İkinci qismə aid olan hərəkatlarda həmin hərəkatları özünə faydalı hesab etməyən şəxslər cəmiyyətdə dəyişkənliklər qarşısında müqavimət göstərir və hərəkatın tərəfdarları ilə mübarizə aparır. Bu aspektdən həmin hərəkatlar bir çox hallarda konflikt və münaqişə şəraitində keçir.

Şübhəsiz bu təsəvvür yanlışdır ki, bütün münaqişəli sosial hərəkatlarda tərəfdarların və müxalifətçilərin maraqları maddi və iqtisadi mənafelərinin qorunmasıdır. (Marksın tərəfdarları belə düşünürlər). Çünki bəzi vaxtlar dini və məzhəbi təəssübkeşlik cəmiyyətdə bir sıra münaqişələrin yaranmasına səbəb olur. Tarix boyu müxtəlif dinlər və məzhəblərin tərəfdarları arasında baş verən müharibələri buna nümunə göstərmək olar. (Qeyd etmək lazımdır ki, dini təəssübkeşlik bəzən haqq, bəzən isə batildir. Haqq dinə iman gətirmək, ona vəfalı olmaq, onun müqəddəs həqiqətlərini müdafiə etmək çox bəyənilmiş və düzgün əməldir. Lakin haqq dini nəfsani və şeytani meyllərə qurban vermək və yaxud batil və əsassız dinə və məzhəbə görə təəssübkeşlik hissi ilə çıxış etmək, şübhəsiz, nadürüst bir işdir. Müasir dövrdə dini və məzhəbi təəssübkeşlik adətən pislənir. Hətta bəzən təəssübkeşlik ifadəsi mənfi dəyər kimi səslənir. Lakin bilmək lazımdır ki, bəzi din və məzhəb təəssübkeşi adlanan insanlar həmin hisləri milli və ideoloji təəssübkeşliklə səhv salırlar. Beləliklə, müasir dövrdə də sosial konfliktlərin çoxunun əsas səbəbi maddi və iqtisadi mənafelər deyil, təəssübkeşlik hissi ola bilər.

# IX FƏSİL

# Sosial müvazinət, böhran və sosial dəyişkənlik

# Ön söz

Bu hissədə üç əsas məsələni, yəni sosial müvazinət, sosial böhran və sosial dəyişkənlik məsələlərini araşdırmışıq. İlk öncə göstərmişik ki, hər bir insan öz mənafeyini təmin etmək məqsədi ilə sosial həyata üz gətirir və onun üzvü olur. Burada bir məsələni xüsusi nəzərə almaq lazımdır. Bütün mənafeni təmin edə bilən cəmiyyəti təsəvvür etmək xəyaldan başqa bir şey deyil, çünki bütövlükdə hər bir cəmiyyətdə yaşayan fərdlərin tələbləri bir-birinə ziddir və bir çox hallarda üst-üstə düşmür. Belə olan halda, həmin cəmiyyətə hakim olan siyasi, hüquqi və iqtisadi sistem cəmiyyətdə yaşayan insanların hamısının eyni zamanda tələblərini təmin edə bilməz. Buna baxmayaraq, cəmiyyətə hakim olan sistem elə bir vəziyyətdə olsa ki, həmin cəmiyyətin üzvlüyünü qəbul edən insanlar bütövlükdə öz həyatlarını faydalı hiss etsinlər, bu cəmiyyətdə sosial müvazinət və sabitliyin bərqərar olmasını vurğulamaq mümkündür.

Hər bir cəmiyyətdə yoxsulluq və haqsızlıq halları genişlənərsə və yaxud cəmiyyət özünün qlobal və beynəlxalq mövqeyini itirərsə, həmçinin əgər hər hansı bir cəmiyyət mənəvi və əxlaqi inkişafdan məhrum qalarsa, bu vaxt cəmiyyətin müvazinətdən çıxması və sosial böhranın yaranmasına şərait yaranacaqdır. Sosial böhranın yaranması üçün sadalanan fəsadların yaranması lazım olsa da, kifayət etmir. İnsanlar həmin fəsadların gerçəkliyini əsaslı şəkildə dərk etməsələr və yaxud yoxsulluğun və haqsızlığın qaçılmaz olmasına inansalar, vətəndaşlar sosial fəsadları aradan qaldırmaq və onları islah etməyin yollarını bilməsələr, həmçinin əgər insanların mədəniyyəti və onların mənəvi durumu elə bir vəziyyətdə olsa ki, həmin sosial fəsadların pisliyini anlamasalar bu zaman sosial böhran yaranmayacaq və cəmiyyət mövcud vəziyyətin dəyişməsinə doğru hərəkət etməyəcəkdir. Məhz buna görə də hər bir cəmiyyətin mədəni və ideoloji liderləri və müəllimlərinin vəzifəsidir ki, insanları cəmiyyətdə mövcud olan müxtəlif fəsadlardan agah etsinlər və hakim dairəyə icazə verməsinlər ki, öz

hiylələri ilə insanları xəbərsiz saxlasınlar və onları inandırsınlar ki, həmin ictimai fəsadlar ilahi istək, tale, zamanın rolu, tarixin məcburiyyəti və s. amillərin nəticəsində yarandığından qaçılmazdır. Cəmiyyətin ziyalı şəxsiyyətləri və ideoloqları sosial fəsadların aradan qaldırılması yollarını insanlara öyrətməli, onların mədəniyyət və dəyərlər sistemində islahat aparmalı, mənəvi və ideoloji düşüncə tərzini yüksəltməlidirlər ki, mövcud fəsadların pisliyini tam dəqiqliklə dərk etsinlər. Onlar insanların şəxsiyyətini düzgün formalaşdırmalıdırlar ki, insanlar təkcə özlərinin şəhvani tələbləri dalınca deyil, həm də haqq, ədalət, şərəf, sosial və beynəlxalq mövqe və digər yüksək insani keyfiyyətlərə qiymət versinlər və özlərinin itirilmiş hüquqlarını yenidən əldə etmək və ülvi dəyərləri yenidən cəmiyyətdə bərpa etmək məqsədi ilə bütün zəhmətlərə qatlaşsınlar.

Şübhəsiz, hakim dairə də bu vaxt mövcud vəziyyəti qoruyub saxlamaq üçün bütün vasitələrə əl atır və özünün təsiredici və inandırıcı qüvvələrini fəallaşdırır ki, sosial islahatçıların mədəniyyət və ideologiya sahəsindəki səylərinə mane olsun. Xüsusilə həmin ideoloq və ziyalıların insanlara bağışladıqları təsirin qarşısını alsın. Lakin bütün bu səylərə baxmayaraq sosial böhran yaranır, tədricən genişlənir, dərinləşir və nəhayət geniş sosial və ictimai üsyana çevrilir. Biz burada həmin sosial etirazlardan üçünü, yəni tətillər, çevriliş və inqilab faktını araşdırmışıq.

Sonra insanların bütün mənafeyini təmin edə bilən yeganə inqilab növünü, yəni İslam inqilabının xüsusiyyətlərini sadalamışıq. Bu inqilabın ən əsas xüsusiyyəti onun mədəni inqilab olmasıdır. Çünki insanın insanlığı onun biliyinə, dünyagörüşünə və inandığı dəyərlərə bağlıdır. Buna görə, insanların mənafeyini düşünən və həqiqi humanist dəyərləri özündə ehtiva etməyə çalışan inqilab hər şeydən öncə vətəndaşların mədəniyyətini fikirləşməli və onlara düzgün dünyagörüşü və mədəniyyəti aşılamalıdır. Belə bir inqilabın son məqsədi və qayəsi tövhid (təkallahlıq) əqidəsini, habelə ilahi dəyərləri yaşatmaq və ucaltmaqdır. Belə bir inqilabı təcrübə edən cəmiyyətdə insanların mənəvi durumu saflaşacaq və onlar paklaşacaqlar. Bu səbəbdəndir ki, İslam inqilabı Allah yolunda cihad adlanmışdır. Lakin hər bir inqilab, o cümlədən İslam inqilabı hərbi və siyasi qələbələr əldə etdikdən sonra bir sıra təhlükələrlə üzləşə bilər. Hər bir inqilab qarşılaşdığı bütün təhlükələri tanımalı və onlarla mübarizə etməyin yollarını araşdırmalıdır. Qeyd edək ki, inqilabın xaricdəki düşmənləri daha çox vətəndaşların əxlaqi dəyərlərini və əqidələrini fəsada çəkməyə

çalışırlar. Həmçinin, inqilabın ölkədaxili təhlükələri iki sahəyə, yəni, elm və əxlaq sahəsinə aid olur. Bu iki faktı nəzərə alaraq deyə bilərik ki, inqilabın əsas təhlükələri mədəniyyət sahələrinə aid olur. Deməli, inqilab olan cəmiyyətdə sosial stabilliyi qorumaq üçün ən köklü və faydalı metod təlim-tərbiyə fəaliyyətlərinin genişlənməsidir. İnqilab edilən cəmiyyətdə yaşayan insanlar və burada hakim olan şəxslər təlim-tərbiyədən yararlanmasalar, bu vaxt inqilabın davamına ümid etmək olmaz. Yəni hətta inqilabın rəhbəri və hakimiyyət dairələrində olan məsul şəxslərdən bir neçəsi ruhi cəhətdən tam sağlam və səlahiyyətli olsalar da, bütövlükdə insanlar və hakimiyyətdə olan bütün şəxslər sağlam təlim-tərbiyəyə malik olmadıqlarından ciddi təhlükə yenə də mövcud olacaqdır. Diqqət edin, on dörd əsr öncə İslam peyğəmbəri həzrəti Məhəmmədin misilsiz rəhbərliyi altında formalaşan və həyata keçən İslam inqilabı qısa bir müddətdən sonra yolunu azdı və Peyğəmbərin ən qatı düşməni olan Əbu-Süfyanın övladları iş başına gəldilər. Deməli, İslam peyğəmbərinin rəhbərliyi ən ülvi və kamil rəhbərlik forması olsa da, bununla belə o Həzrətin inqilabının təhlükəsizliyi tam təmin oluna bilmədi. Çünki inqilabın öz həyatına davam etməsi bilavasitə xalqın düzgün təlim-tərbiyəsi ilə əlaqəlidir.

Deməli, inqilab öz həyatına davam etməsi, yəni özünün bütün məqsədlərinə nail olması üçün ən təsirli və faydalı iş sözün ən geniş mənasında mədəniyyət sahəsindəki fəaliyyətdir.

# 1. Sosial sabitlik

Öncə bildirdik ki, cəmiyyət obyektiv və fərdlərdən müstəqil vəhdətə və gerçəkliyə malik deyildir. Cəmiyyətin vəhdət və vücuda malik olmasının əsas səbəbi isə onun fərdlərinin müştərək xüsusiyyətidir. Bu əsasla deyirik: Ortaq xüsusiyyətə malik olan bir qrup insan həmin ortaq cəhətə əsasən vahid cəmiyyət təşkil edirlər. Həmin ortaq cəhət aşağıdakılardan biri ola bilər:

Soy, rəng, cinsiyyət, din, məzhəb, əqidə, milliyyət, ictimai vəziyyət, sosial vəzifə, sosial mövqe, mənzil və vətən. Misal üçün, vahid bir dinə, məsələn müqəddəs İslam dininə sitayiş edən insanları vahid cəmiyyət adlandırmaq olar. Hərçənd onlar müxtəlif soylara, dillərə və yaxud cinsiyyətə malik olsalar da. Habelə, vahid ərazidə və ölkədə yaşayan insanları vahid cəmiyyətin üzvləri hesab etmək olar, hərçənd onlar müxtəlif dinlərə və məzhəblərə sitayiş etdikləri baxımdan müxtəlif cəmiyyətlərə mənsubdurlar. İki insan ortaq xüsusiyyətə malik olduqları üçün bir cəmiyyətin üzvü sayıla bilərlər. Bir sözlə, müxtəlif xüsusiyyətləri nəzərə alaraq müxtəlif cəmiyyətlər təsəvvür etmək olar.

Bununla belə sosioloqlar insanları təkcə sosial institutlar əsasında müxtəlif kateqoriyalara ayırırlar. Çünki həmin institutlardır ki, insanları bir araya toplayır və onlara vəhdət bağışlayır. İnsanları bir araya cəmləşdirməyə səbəb olan qarşılıqlı əlaqələr, münasibətlər və həmkarlıqlar həmin sosial institutlar çərçivəsində mümkün olur. Sosioloqlar bildirirlər ki, soy, rəng, dil, vətən kimi amillər insanların bir araya toplanmasında təsir qüvvəsinə malik olsalar da, bu qəbildən olan təsirlər ikinci dərəcəli hesab olunmalıdır. Çünki onları həqiqətən bir araya toplayan amil sosial institutlardır.

Renessans hərəkatından sonra Avropada bütün sosial sahələr rasional müstəvidə təhlil edilməyə başladı. Bu vaxt avropalıların sosial institutlardan biri hesab etdikləri din də siyasətdən ayrılaraq sosial və siyasi sahədə

özünün yüksək əhəmiyyətini itirdi və daha cəmiyyəti bir araya toplaya bilən amil kimi nəzərə alınmadı. Yeni dövrdə sosioloqların hamısı dövlət və siyasət institutunu əsas götürür və bu institut digər sosial institutların əsas vəhdət amili olaraq cəmiyyətin vahid şəxsiyyətə malik olmasının təməli kimi nəzərə alınır, şübhəsiz, dövlət və siyasət institutu digər sosial institutlara, xüsusilə iqtisadiyyat və hüquq institutuna tam təsir bağışlayır. Bu səbəbdən, müasir dövrdə müəyyən siyasi sistemin idarə çərçivəsində yaşayan və nəticədə ortaq sosial institutlara aid olan insan toplumu vahid cəmiyyət adlanır. Yəni cəmiyyətlərin fərqlənməsi onların dövlət sisteminin fərqlənməsi ilə ölçülür.

Hər halda, cəmiyyət obyektiv şəxsiyyətə və gerçəkliyə malik olmadığı üçün fərdlərin müəyyən siyasi, iqtisadi və hüquqi sistemə malik olan cəmiyyətin üzvlüyünü qəbul etmələri tam məcburiyyət şəraitində olmur. Yəni hər bir insan müəyyən bir cəmiyyətdən imtina edərək digər bir cəmiyyətin üzvü olursa və yaxud müəyyən bir ölkənin vətəndaşlığını rədd edərək digər bir ölkənin vətəndaşlığını qəbul edir və başqa bir siyasi, iqtisadi və hüquqi sistem çərçivəsinə daxil olursa, bu onun tam azad iradəsi əsasında baş verir.

Müəyyən bir cəmiyyətin üzvlüyünü qəbul etmək ixtiyari işdir, lakin sual olunur ki, hər bir ixtiyari iş müəyyən bir məqsədlə həyata keçir. Bəs fərdlərin digər müəyyən bir cəmiyyətə qoşulmasının əsas məqsədi nədir? Bu sualın ümumi cavabı belədir: Hər bir insan daimi olaraq özünün mənfəətini və məsləhətini təmin etmək dalıncadır. Lakin o tez bir zamanda başa düşür ki, eyni zamanda özünün fərdi müstəqilliyini və azadlığını qoruyaraq mənfəətlərini təmin edə bilmir. O özünü qorumaq üçün başqa insanlarla birləşməli və vahid cəmiyyət formalaşdırmaq üçün çalışmalıdır. Əlbəttə, bu yolda özünün müstəqilliyini, habelə hüquq və mənafeyinin bir hissəsini əldən verəcəkdir. Burada insan müqayisə etməyə başlayır və müəyyən bir cəmiyyətə daxil olduğu təqdirdə, orada əldə etdiyi mənafeni həmin cəmiyyətdəki zərərlərdən çox görərsə, həmin cəmiyyətə qoşulur və cəmiyyətdə olan sosial məhdudiyyətləri və vəzifələri qəbul edir.

İnsanın həm maddi həm də mənəvi mənafeyini ehtiva edən bu müqayisəsi bəzən tam şüurlu, bəzən isə bilmədən həyata keçir. (Hər bir insan yaşadığı cəmiyyətdə hakim olan siyasi, hüquqi və iqtisadi sistemlə uyğunlaşır və ona qarşı çıxmırsa, bu həmin şəxsin yaşadığı cəmiyyətin üzvlüyünü öncədən müqayisə etmədən qəbul etməsini göstərir.) Qeyd edək

ki, cəmiyyətin üzvlüyünü qəbul etmək dəqiq və ətraflı mütaliədən sonra da baş verə bilər. Lakin bəzən bu, hakim olan siyasi sistemin aldadıcı təbliğatının təsiri nəticəsində də baş verir. (Hakim sistem müxtəlif üsullarla vətəndaşları inandırmaq istəyir ki, cəmiyyətdə yaşayan vətəndaşların xoşbəxtliyini təmin edir və onlar üçün çalışır.)

Hər halda, cəmiyyətdə yaşayan fərdlərin hamısı və ya əksəriyyəti həmin cəmiyyətdə yaşamağın mənafeyini buradakı zərərlərdən daha çox hesab etsə, (istər bu qəzavət düzgün olsun, istərsə də onların qeyri-dəqiq yanaşmalarının nəticəsi olsun həmin cəmiyyət sabit və stabil adlanır.

# 2. Sosial böhran

Sosial böhran o vaxt başlanır ki, hakim olan siyasi hüquqi və iqtisadi sistem tədricən zəidləyir, bu vaxt insanların cəmiyyətdəki məhdudiyyətləri, ağrıları və çətinlikləri onların mənafeyini üstələyir, yaxud hakim sistemin fırıldaqları insanlar tərəfindən başa düşülür və hamısı anlayır ki, hakim sistem onları aldadıbmış. İnsanlarda belə bir xüsusiyyətin müəyyən dərəcəyə çatması sosial böhranın yaranmasına zəmin yaradır. Yəni cəmiyyət bu vaxt stabil vəziyyətdən çıxır və xalq hakim sistemi kənarlaşdırmağa və digər bir sistemi iş başına gətirmək fikrinə düşür. İstər hakim sistem təqsirli olsun, istərsə də təqsirsiz. Yəni istərsə hakimiyyət bilərəkdən insanların ümumi mənafeyini tapdalasın, istərsə də bilməyərəkdən insanların təbii hüquqlarının aradan getməsinə şərait yaratsın.

Cəmiyyətdə böhran yaradan amilləri aşağıdakılarda xülasə edə bilərik:

1. Yoxsulluq hissi. Sosial böhrana səbəb olan ən əsas amillərdən biri yoxsulluqdur, çünki yoxsulluğu hiss etmək heç bir fitri istedada və elmi məlumata bağlı deyil, cəmiyyətin bütün üzvləri-qadınlar, kişilər, uşaqlar, böyüklər, alimlər və savadsızların hamısı eyni formada yoxsulluğu dərk edir və ondan əziyyət çəkirlər. Yoxsulluq amilinin təhrikedici qüvvəsi də olduqca çoxdur. Bu səbəbdən, iqtisadi yoxsulluqlar digər amillərdən daha çox hakim dairəyə həyəcan təbilini səsləndirir.

2. Zülm hissi. Bəzən cəmiyyətin fərdlərinin hamısı və ya əksəriyyəti kifayət qədər rifah içində yaşayır, lakin elə düşünür ki, hakim sistem onlara qarşı haqsızlıq edir və bir çox maddi və mənəvi hüquqlarından məhrum saxlayır. Belə ki, həmin haqsızlıq edən şəxslərin aradan götürülməsi onları daha çox rifaha çatdıracaq və ya onların mənəvi hüquqlarını daha kamil formada təmin edəcəkdir.

3. Beynəlmiləl və cahanşümul mövqeyi itirmək hissi. Müəyyən bir cəmiyyətdə yaşayan fərdlərin bir çoxu elə düşünə bilər ki, digər millətlər arasında onların müsbət mövqeyi yoxdur. Belə bir düşüncə xüsusilə siyasi

müstəqilliyini itirmiş və digər bir xalqın müstəmləkəsi altında yaşayan cəmiyyətlərdə müşahidə edilir. Bu cəmiyyətlərdə insanların iqtisadi və məişət vəziyyəti qənaətedici olsa, habelə öz cəmiyyətlərindəki digər qruplar tərəfindən haqsızlığa məruz qalmasalar da, ola bilsin ki, ayağa qalxsınlar və biganə xalqlara kölə və qul edildikləri üçün hakim sistemi aradan götürsünlər, beləliklə özlərinin beynəlxalq siyasi müstəqilliyini və mövqeyini möhkəmləndirsinlər.

4. Mənəvi və əxlaqi tərəqqidən məhrum olmaq hissi. Bu hiss çox nadir hallarda və təkcə ilahi peyğəmbərlərin, xüsusilə əziz İslam peyğəmbərinin ilahi təlimlərindən kifayət qədər bəhrələnmiş insanlarda müşahidə edilir. Çünki belə insanlar yaxşı bilirlər ki, onların fərdi və sosial həyatları ülvi dəyərlərlə zənginləşməlidir. Bu da, yalnız ilahi təlimlərdən faydalanmaqla hasil olur. Dini təlimlərdən yararlanan insanlar yaşadıqları cəmiyyətdə hakim olan şəxslərin idarəetmə tədbirlərinin xalqın həqiqi və mənəvi tərəqqidən uzaqlaşması ilə nəticələndiyini müşahidə etsələr, hakim sistemin əleyhinə üsyan edir və həmin sistemi aradan götürməyə çalışırlar. Hətta həmin hakim sistem cəmiyyətdə yoxsulluğu aradan götürsə, haqsızlığı bütün sahələrdə məhv etsə və cəmiyyətin beynəlxalq və qlobal mövqeyini qoruyub saxlasa da, bütün bunlar dini və mənəvi tərəqqi demək deyildir.

Burada iki məsələyə xüsusi diqqət yetirməliyik:

Birinci: Sosial institutların arasında dərin əlaqələr mövcud olduğundan, onların hər birində yaranan fəsadlar digərini də fəsada çəkəcəkdir. Maddi və iqtisadi yoxsulluq şəraitində yaşayan insanlar təbii ki, düzgün təlim-tərbiyədən uzaq düşəcək və fasid ictimai adətlərə, habelə batil əqidə və əxlaqa malik olacaqlar. Belə şəxslər yalançı və fırıldaqçı siyasətçilərin əlinin aləti olacaq və onların murdar məqsədlərinin inkişaf etməsində vasitəyə çevriləcəklər. Bir çox hallarda isə bu şəxslər cəmiyyətdə sosial islahatçı hərəkatların qarşısında böyük bir maneə olacaqlar. (Təkid edirik ki, maddi yoxsulluğun təsiri digər fəsadların yaranmasında danılmazdır) Digər tərəfdən, cəmiyyətdə yaşayan insanların bir hissəsinin mənəvi və mədəni sahədə süquta uğraması cəmiyyətin iqtisadi və məişət zəminində, habelə cəmiyyətə hakim olan hüquqi və siyasi sistemin fəsada çəkilməsində tam təsirə malikdir. Həmçinin, səlahiyyətsiz dövlət rəhbərləri nəinki cəmiyyətdə rifah və ədaləti bərpa edə bilmir, habelə onlar əqidə və əxlaq sahəsində bir çox rəngarəng fəsadların yaranmasına səbəb olurlar. Diqqət edin,

cəmiyyətdəki müxtəlif fəsadlar bir-biri ilə tam əlaqəlidirlər və müəyyən bir sosial institutdan digər instituta keçir.

İkinci: Tarix boyu hər bir cəmiyyətdə insanların mənəvi və ülvi dəyərlərini düşünən (yalnız onların maddi və məişət məsələlərini deyil) və cəmiyyətdə yaranan mənəvi boşluqdan əziyyət çəkən insanların sayı çox az olmuşdur. Bu səbəbdən, hərçənd müəyyən bir dönəmdəki sosial hərəkatın yaranma səbəbinin, yalnız ülvi və mənəvi dəyərləri himayə etmək təsəvvürü yanlış olmasa da, bir çox hallarda ictimai hərəkatlar belə bir xüsusiyyətə malik deyildir. Burada bir məsələni xüsusi vurğulamaq lazımdır, adətən cəmiyyətdə mənəvi və maddi fəsadlar bir-biri ilə tam əlaqəlidir. Yəni hər bir cəmiyyətdə mənəvi fəsadlar maddi çatışmazlıqlara da səbəb olur. Bu səbəbdən, onu əsas götürərək ictimai islahatçılar hətta tam mənəvi və əxlaqi məqsədlərlə islahata başlasalar da, cəmiyyətdə mövcud olan maddi və məişət problemlərini də önə çəkərək mövcud iqtisadi yoxsulluq və ədalətsizliyi əsas götürməklə hakim sistemin siyasi iqtisadi və hüquqi səlahiyyətini şübhə altına ala və beləliklə çoxlu tərəfdar yığaraq hakim sistemin devrilməsinə nail ola bilərlər.

İslam dini baxımından hərçənd «məqsəd vasitəni doğrultmur» ideyası məqbul sayılmır, lakin cəmiyyətin maddi baxımdan problemlərini əsas götürərək, yalnız mənəvi islahatı düşünən ictimai hərəkatları gücləndirmək iki dəlillə düzgündür:

1. Bütövlükdə, ilahi dinlər təkcə ibadət yerləri ilə məşğul olmur. Onlar cəmiyyətin fərdi, ictimai, maddi, mənəvi problemlərini islah etmək məqsədini güdür. Belə ki, müəyyən bir ilahi ictimai sistemi formalaşdırmaq həmin cəmiyyətdə yaşayan insanların həyatının bütün sahələrini, o cümlədən onların maddi və məişət problemlərini həll etməkdən sonra müyəssər olur. Deməli, müəyyən bir sosial sistemin ülvi məqsədi insanların əxlaqi və mənəvi dəyərlərini saflaşdırmaq və onları mənəvi tərəqqiyə çatdırmaq olsa da, həmin ictimai sistem insanların maddi və məişət problemini də tam həll etməlidir.

2. İnsanların iqtisadi problemləri və çatışmazlıqları onların həyatında tam vasitəsiz təsir mexanizminə malik olduğu üçün digər problemlərdən daha aşkar və aydın gözə çarpır. Deməli, iqtisadi problemlər insanları mövcud vəziyyətin əleyhinə üsyan etmək üçün daha güclü təhrikedici amilə çevrilə bilər. Halbuki, mənəvi çatışmazlıqlar belə bir ümumi təsir qüvvəsinə malik deyildir. İqtisadi yoxsulluq və ədalətsizliyi önə çəkmək burada ülvi

məqsədlərlə heç bir təzadlı mövqedə olmayan bir vasitə kimi istifadə edilə bilər.

# 3. Hakim sistemin mövcud vəziyyəti qorumaq üçün çalışmaları

Müəyyən bir şəxsin bizim meylimizə və istəyimizə uyğun olaraq hərəkət etməsini tələb ediriksə, bu üç yoldan birinin vasitəsilə həmin işi görməyə vadar edə bilərik: Onlardan biri budur ki, biz onun bədəninə birbaşa maddi təzyiq göstəririk. Yəni zor tətbiq etməklə həmin şəxsi istədiyimiz işi görməyə məcbur edirik. Misal üçün, həmin şəxsi həbs edirik ki, filan işi görməsin yaxud xəstə uşağın əl-qolunu bağlayıb dərmanı boğazına tökürük. İkinci yol bundan ibarətdir ki, həmin şəxsi mükafat verməklə həvəsləndirir, maraq yaradırıq və yaxud onu cəzalandırmaqla qorxuduruq. Misal üçün, müəllim şagirdi hədiyyə almaqla həvəsləndirir və yaxud cəzalandırmaqla qorxudur. Üçüncü vasitə isə odur ki, həmin şəxsin əqidəsinə nüfuz edir və inandırırıq ki, bizim nəzərdə tutduğumuz işi həyata keçirsə, bu onun xeyrinə tamam olacaqdır.

Hakim sistem təyin etdiyi qanunlara insanları tabe etdirmək üçün bu üç yoldan yararlanır. Belə ki, hakim sistemin stabil olaraq öz həyatına davam etməsi vətəndaşların onun əleyhinə üsyan etməməsindən asılı olduğu üçün hökumətdə olan insanlar öz mövqelərini möhkəmləndirmək və mövcud vəziyyəti qorumaq məqsədilə bir sıra tədbirlər həyata keçirirlər ki, aşağıda xülasə olunur:

1. Məcburedici qüvvələrdən istifadə etmək. Hər bir hakimiyyət sistemi insanları qanunlara tabe etmək, hakimiyyətin əleyhinə qalxmamaq üçün bir çox hallarda iki təzyiqedici qüvvədən, yəni polis və ordudan istifadə və zor vasitəsilə insanları özünə tabe edir. Bu səbəbdən, xalqına etimad göstərməyən və özünün gələcəyindən qorxan hakimiyyət hərbi və polis qüvvəsini daha da artırır.

2. Maraqlandırıcı qüvvələrdən istifadə etmək. İqtisadi qüdrət ən böyük və təsirli qüvvələrdən biridir. Hakim sistemin iqtisadi təşkilatlara və müəssisələrə emal etdiyi qüdrət nə qədər çox olsa, bir o qədər xalqı işsizliyin aradan götürülməsi, inflyasiyanın azalması və vergilərin aşağı səviyyəyə endirilməsi isə maraqlandıra, yaxud zavod və fabrikləri bağlamaq, fəhlələri işdən çıxarmaq və s. vasitələrlə qorxuda bilər. Deməli, hakim dairə bu iki vasitə ilə vətəndaşları özünə tabe etmək ixtiyarındadır. Habelə hakim sistem böyük iqtisadi imkanlara malik olarsa, bu vaxt cəmiyyətin böyük və nüfuzlu şəxsiyyətlərini pulla özünə tabe edə bilər.

3. İnandırıcı qüvvələrdən istifadə etmək. Hakim sistemin ixtiyarında olan ən faydalı və təsirli qüvvə inandırıcı qüvvələrdir. Çünki öncə qeyd etdiyimiz iki qüvvə, yəni məcburedici və maraqlandırıcı qüvvələr təkcə hakim sistemi gücləndirə bilir. Halbuki, inandırıcı qüvvələr həm hakimiyyəti gücləndirir, həm də onu xalq arasında səlahiyyətli qüvvəyə çevirir. Hakimiyyət sisteminin xalqın gözündə səlahiyyətli olması isə həmin sistemin stabil olmasına ən mühüm zəmanətdir. İnandırıcı qüvvələr təhsil institutu sahəsində çalışan və insanların əqidə və inancına nüfuz edə bilən bütün şəxsləri ehtiva edir. Hakim sistemin inandırıcı qüvvələrdən istifadə edərək öz mənafeyini və istəklərini həyata keçirmək məqsədi ilə etdiyi fəaliyyətlərdən bəzisi aşağıdakılardır:

a) Yalan və əsassız xəbərlər yaymaq, habelə həqiqətləri gizlətməklə insanları aldatmaq. Cəmiyyətdə mövcud olan fəsad və çatışmazlıqlardan xalqın xəbərdarlığı hakim sistemin xeyrinə olmadığından, hakimiyyət daim bacardığı qədər insanları həmin problemlərdən xəbərsiz saxlamağa çalışır. Şübhəsiz, vətəndaşların hər biri hakimiyyəti səlahiyyətsizləşdirən reallıqların bir neçəsi ilə tanışdır. Bu vaxt hakimiyyət özündə olan həmin zəif cəhətləri və problemləri insanların fikrindən çıxarmaq onların yayılmasının qarşısını alarsa, böyük nailiyyətə çatmışdır. Faciənin dərinliyindən vətəndaşların xəbərdar olmaması üçün hakimiyyət öz eyiblərini gizli saxlamağa çalışır və çoxlu yalan məlumatlar nəşr etdirir, yaxud həqiqətlərdən, yalnız öz istəkləri və əqidələrini təsdiq edəcək qədər yayır. Habelə, müxtəlif üsullarla elə nümayiş etdirməyə çalışır ki, cəmiyyətdə olan problemlərin həlli o qədər də çətin deyil və tezliklə öz həllini tapacaqdır. Hakimiyyət qlobal vəziyyəti və beynəlxalq durumu bütövlükdə nəzərə alaraq cəmiyyətin vəziyyətini, tam ideal olmasa da nisbətən ideal qiymətləndirir.

b) Mövcud vəziyyəti təsdiq edən fikir və əqidələri yaymaq. Hakimiyyət daim çalışır ki, müxtəlif fəlsəfi və ideoloji sistemlərin, habelə din və məzhəblərin təlimlərindən, yalnız cəmiyyətdə cərəyan edən mövcud vəziyyəti təsdiqləyənləri seçsin və onları camaat arasında yaysın. İnsanların təbiət, ictimaiyyət, tarix yaxud ilahi iradənin məcburiyyəti altında olmasını bildirən ideoloji fikirləri yaymaq mövcud vəziyyəti qaçılmaz hesab etdiyindən bütün hakim sistemlər üçün faydalı olmuşdur. Habelə «Allahın işini Allaha, padşahın işini isə padşaha tapşırın», «padşah Allahın kölgəsidir» və «istər Allahın hökmü, istərsə də şahın hökmü birdir»-bu qəbildən olan təlimlər mövcud vəziyyəti qorumaq üçün çox faydalıdır. Məhz buna görə də cəmiyyətdə belə halları təsdiq edən təlimlərə tez-tez rast gəlinir. İfratçı və qatı nasionalizm əqidəsi (qatı nasionalizmə əsasən, necə deyərlər, milli dövlətə xəyanət millətə xəyanət deməkdir), habelə şovinizm (qatı vətənpərəstlik) və rasizm (qatı soypərəstlik) və buna oxşar ideologiyalar hakim sistemlər üçün faydalı nəticələr əldə etdiyindən daim hakimiyyət tərəfindən təbliğ olunur.

q) İstiqamət və müqavimət əhval-ruhiyyəsini zəiflədirmək. Hakim sistem siyasi və ictimai problemlər barədə düşünmək fürsətini vətəndaşlardan, xüsusilə cavanlardan almaq, həmçinin tənbəlliyə və biganəliyə tərəf yönəltmək üçün onları günaha, spirtli içkilərdən, habelə narkotik maddələrdən istifadə etməyə tərəf yönəldir. Belə vərdişlərə adət edən şəxslər təbii ki, öz cəmiyyətinə qarşı tam biganə və laqeyd olacaq və hakim sistemlə heç vaxt qarşı-qarşıya gəlməyəcəklər.

ğ) Rəqiblərin və müxaliflərin əleyhinə təbliğat aparmaq, onları ittiham etmək, həmçinin onların ideyalarını və fikirlərini ələ salmaq. Hakim sistem rəqiblərinin və müxaliflərinin xalq arasında nüfuzunun azalması üçün, habelə onların tərəfdarlarının artmasına maneə yaratmaq məqsədi ilə onların əleyhinə geniş təbliğat hücumu yaradır, çirkin məqsədlər daşımaqda müttəhim edir. Onları terrorist, düşmənlərin muzduru, casus, millət və vətənə xain, düşmənin beşinci sütunu və bu kimi ləqəblərlə ünvanlayır. Hakimiyyət bildirir ki, onun müxalifləri ölkəni daha pis vəziyyətə yönəltmək istəyirlər. Bu səbəbdən onların özlərini və əqidələrini istehza atəşinə tutur. Hər bir cəmiyyətdə hakim olan siyasi sistem öz rəqiblərini və düşmənlərini istər həqiqi islahatçı, istərsə də nəfsani və şeytani ideyalar daşıyıcıları olsunlar mənfi yüklü ləqəblərlə səsləyir. Misal üçün, onları burjua, feodal, mühafizəkar, mürtəce (şərq və ya şərq yönümlü

cəmiyyətlərdə), faşist, kommunist (qərb və ya qərbyönümlü cəmiyyətlərdə) adlandırır.

Hakim sistem bu qəbildən olan fəaliyyətlərlə həm özünün gücünü artırır, həm də özünü qanuni sistem kimi göstərməyə çalışır. Habelə, bu vaxt hakimiyyət özünün mövqeyini və xalq arasında nüfuzunu artırmağa çalışır. Bir sözlə, elə bir məqsədlərə nail olur ki, məcburedici və ya maraqlandırıcı qüvvələrin köməyi ilə həmin məqsədlərə nail olmaq mümkün deyil.

Lakin bəzən məcburedici, maraqlandırıcı və inandırıcı qüvvələrdən istifadə etmək də hakimiyyətə öz məqsədinə çatmaqda kömək etmir və cəmiyyəti böhran mərhələsinə daxil olmaqdan çəkindirə bilmir. Bu səbəbdən, hakim sistemlər müasir dünyada, xüsusilə üçüncü dünya ölkələrində daim çalışırlar ki, özlərindən daha qüdrətli ölkələrlə, super dövlətlərlə dostluq münasibətləri yaratsınlar ki, bu yolla böhran günlərində onların köməyi ilə süqutdan nicat tapsınlar. Hər bir siyasi hakimiyyətin özündən qüdrətli ölkələrlə imzaladığı hərbi və qeyri-hərbi müqavilələr çox hallarda daxili etirazların və üsyanların yatırılmasında faydalı olur.

Hakimiyyətdəki sabitlik onun sözügedən qüvvələrdən necə yararlanmasından bilavasitə asılıdır. Lakin bilmək lazımdır ki, hətta hakimiyyət həmin qüvvələrdən istifadə etməkdə müvəffəqiyyət qazansa da, bu, sona qədər olmayacaq və nəhayət bir gün cəmiyyət böhran mərhələsinə daxil olacaqdır. Yaranan böhran hakimiyyətin müxtəlif tədbirləri tərəfindən dayandırılmasa, sonda böyük sosial dəyişkənliklərə səbəb olacaq və hakim siyasi sistemin həyatına son qoyacaqdır.

# 4. Sosial tüğyanların və üsyanların növləri

Sosial tüğyan və üsyanların müxtəlif formalarını aşağıdakılarda xülasə etmək olar:

1. Tətillər. Tətillər, sözün ən geniş mənasında sosial hüquqlardan birinə təcavüzə etiraz olaraq həyata keçən bütün tətillərə deyilir. Misal üçün, müəyyən bir əyalətin sakinləri zəlzələ baş verdikdən sonra dövlətin köməklərinin onlara çatmamasından narazı olur və buna etiraz olaraq tətillərə başlayırlar.

Spesifik mənada tətillər fəhlələrin birgə olaraq işdən əl çəkmələrinə deyilir. Bu vasitə ilə onlar dövlətə təzyiq göstərir və tələblərinin hamısının və yaxud bir hissəsinin yerinə yetirilməsini istəyirlər.

Tətillər aşağıdakı forma və məzmunlarda ola bilər:

Ümumi xarakterli, sinfi xarakterli, təbii hüquqlara təcavüzə, qanuni hüquqlara təcavüzə etiraz olaraq, milli adət-ənənələrin tapdalanmasına etiraz olaraq, sənaye müdirlərinin qərarlarını dəyişdirmək, dövlətin iqtisadi siyasətlərini dəyişdirmək məqsədi ilə hakim sistemi devirmək məqsədi ilə.

Yuxarıda qeyd olunan bütün vəziyyətlərdə tətillər siyasi məsələlərlə birbaşa əlaqəlidir. Deməli, bütün tətil aksiyaları az-çox siyasi aspektlidir və hakim sistemlə ziddiyyət daşıyır.

Hakimiyyət cəmiyyətin ümumi vəziyyətini, habelə tətil aksiyasına çıxanların sayının çox olmasını, həmçinin onların tələblərinə etinasız olacağının nəticələrini nəzərə alaraq məsələyə sülhməramlı yanaşa, tətilə çıxanlarla müzakirə apara və onların tələblərinin bəzilərini qəbul edərək tətildən əl çəkməyə razılaşa bilər. Bəzən isə hakimiyyət reallıqlardan xəbərsiz olaraq, yaxud sənaye müdirlərinin və dövlətlilərin reaksiyasından qorxaraq tətilçilərin tələblərinə tam etinasızlıq edə və güc vasitəsi onları zorla yatıra bilər. Bu vaxt hakimiyyətin qüdrəti çox olarsa, etiraz aksiyaları

yatırılır və hakimiyyət öz tədbir və siyasətləri ilə vəziyyəti normallaşdırır. Əks təqdirdə isə tətillər genişlənir və hakim sistemin devrilməsinə zəmin yaranır.

2. Çevriliş, ya «Saray inqilabı». Çevriliş o deməkdir ki, hakim dairədən olan bir qrup şəxs hakim sistemdən olan digər şəxslərin əleyhinə qarşı üsyan edir və onları səhnədən kənarlaşdırmağa çalışır. Çevriliş bəzən dövlət adamlarının əli ilə, bəzi vaxtlar isə hərbi məsul şəxslər tərəfindən həyata keçirilir. Bu vaxt çevriliş «hərbi çevriliş» adlanır.

Çevrilişin inqilabla fərqi ondadır ki, çevriliş yuxarıdan, yəni hakimiyyətə mənsub olan şəxslər tərəfindən həyata keçirilir. Halbuki, inqilab ümum xalq tərəfindən baş verən üsyandır. Yəni inqilabda xalqa mənsub olan ümumi kütlələr hakimiyyətə qarşı üsyan edirlər.

Çevriliş hakimiyyət üzərində dava-dalaşın nəticəsi olduğundan, habelə təkcə rəqibləri aradan götürmək məqsədilə baş verdiyindən, təbii ki, cəmiyyətin ümumi mənafeyinə xidmət etmir. Hərçənd çevriliş edənlər xalqın ümumi razılığını əldə etmək üçün bir sıra zahiri islahatçı və xeyirxah işlər həyata keçirirlər. Əlbəttə, əsaslı dəyişkənliyə hazır olan bir cəmiyyətdə bir qrup dövlət və yaxud hərbi dairəyə mənsub olan şəxslərin hakimiyyəti devirmək, hakimiyyəti ələ keçirdikdən sonra onu xalqa həvalə edib, özlərinin hakimiyyətdən uzaqlaşmaq ehtimalı təsəvvür olunur. Lakin bu ehtimal çox zəifdir və indiyə qədər müşahidə edilməmişdir.

3. İnqilab. İnqilab sözü Quranda iki mənada işlənmişdir: «Qayıdış», «dəyişkənlik».

«İnqilab» sözü həm ərəb həm də fars dilində ən qədim zamanlardan Astronomiya elmində işlənən terminlərdən biri olmuşdur. Burada «inqilab» ulduzların qanunauyğun fırlanma hərəkətinə deyilmişdir. Diqqət edin, «inqilab» sözünün astronomiyadakı mənası onun lüğətdəki hər iki mənasını ehtiva edir. Yəni qayıdış və dəyişkənlik. Avropalılar Astronomiyadakı mənanı ifadə etmək üçün inqilab sözünü «revolution» sözü ilə bildirirdilər. 1666-cı ildən başlayaraq «revolution» sözü qərbdə yeni bir məna ifadə etməyə başladı. Burada xalqın hakimiyyət əleyhinə sürətli, həyəcanlı və ümumi qiyamı və üsyanı revaluşn, yəni inqilab adlandı. (Nə üçün qərblilər ictimai hərəkatların bu qismini Astronomiya elmindəki terminlə izah edirdilər? Bu suala cavab vermək bizim bəhsimizə aid olmadığı üçün onu araşdırmırıq.) Məhz buna görədir ki, fars dilinin tərcüməçiləri də

qərblilərdən götürərək xalqın hakimiyyət əleyhinə ümumi üsyanını inqilab adlandırdılar.

Hər halda, «inqilab» sözü humanitar və sosioloji elmlər sahəsində iki mənada işlənir:

1) Xalqın ümumi qiyamı nəticəsində cəmiyyətin siyasi ab-havasında sürətli və fundamental dəyişkənlik. Həmin dəyişkənliyin nəticəsi olaraq müəyyən bir siyasi, hüquqi və iqtisadi sistem çevrilərək digər siyasi, hüquqi və iqtisadi sistemlə əvəz olunur.

2) Qeyri-siyasi, lakin əsaslı dəyişkənlik. Qeyd edək ki, bu dəyişkənlik sürətsiz və insidentsiz baş verir. Elmi inqilab, sənaye inqilabı, mədəni inqilab, ədəbi inqilab, incəsənət sahəsindəki inqilab və bu kimi inqilabları inqilabın ikinci növünə misal göstərmək olar. İnqilab sözünün iki mənasının ortaq cəhəti əsaslı və ümumi dəyişkənlikdir. İndiki bəhsimizdə inqilab sözündən məqsəd onun birinci mənasıdır. İnqilabın ikinci mənası barədə isə burada söhbət açmayacağıq.

Müəyyən bir inqilabın zor tətbiq etmədən baş verməsi əqli baxımdan qeyri-mümkün olmasa da, lakin indiyə qədər belə bir hadisə müşahidə edilməmişdir və gələcəkdə də belə bir faktın həyata keçməsi çox zəif ehtimal edilir. Bizim dini və məzhəbi mətnlərimizdə xəbər verildiyi kimi, tarixin sonuncu inqilabı olan on ikinci imam həzrət Mehdinin inqilabı da insidentsiz olmayacaq, çoxlu qan töküləcəkdir. İnqilabın daim zor ilə baş verməsinin səbəbləri də aydındır. Hakimiyyət həmişə öz mənafeyini (inqilab baş verdiyi təqdirdə) təhlükədə görür, buna görə də inqilab cərəyanının müqabilində müqavimət göstərir və bu yolda heç bir addımdan əsirgəmir.

Bundan sonra biz, yalnız inqilab barədə danışacağıq və ictimai üsyanların digər növləri, o cümlədən tətillər və çevriliş haqda söhbət açmayacağıq.

# 5. İslam inqilabının xüsusiyyətləri

Biz müsəlmanlar İslam dinini insanların həyatındakı bütün problemləri, o cümlədən əqidəyə, əxlaqa, davranışa, habelə fərdi, sosial, maddi və mənəvi sahələrə aid olan problemləri ən yaxşı tərzdə həll edə bilən din və ideoloji məktəb hesab etdiyimizdən, inanırıq ki, xalqın bütün mənafeyini təmin edə bilən və onlar üçün yeni problemlər yaratmayan yeganə inqilab növü İslam inqilabıdır. Yəni bütün aspektlərdə (istisnasız olaraq) müqəddəs İslam dininin dünyagörüşündən və dəyərlərindən faydalanan inqilab. Aşağıda bu kamil və faydalı inqilabın ən mühüm xüsusiyyətlərini sadalayırıq:

1. İslam inqilabı hər şeydən öncə siyasi, hüquqi və iqtisadi inqilab deyil, mədəni inqilabdır. Şübhəsiz, bu, İslam inqilabının siyasi, hüquqi və iqtisadi xüsusiyyətlərə malik olmasını inkar etmək deyil. Başqa təbirlə desək, İslam inqilabı tamamilə maddi və iqtisadi yoxsulluq, sosial və hüquqi haqsızlıq, ölkənin beynəlxalq və qlobal səviyyədə mövqeyinin aradan getməsi və bu kimi mühüm və təsirli amillərin insanların həyatındakı mənfi rolundan qafil və xəbərsiz qalmadığı ilə bərabər, daha çox insanların mənəvi və əxlaqi tərəqqidən məhrum olmasına nigarandır. İslam inqilabında yoxsulluq və haqsızlıq kimi sosial problemlərlə mübarizə aparılırsa, bu, həmin problemlərin insanların mənəvi və əxlaqi tərəqqisində buraxdığı mənfi təsirə görədir.

2. İslam inqilabının sonuncu və ülvi məqsədi insanları mənəvi kamilləşdirməyə çatdırmaq olduğundan, habelə həmin məqsədin insanların, yalnız öz ixtiyari işləri nəticəsində həyata keçməsinə görə, həmin inqilabın rəhbərləri xalqı daha çox özlərinə tərəf çəkmək üçün zor tətbiq, etmir insanların özlərinin inqilabın məqsədləri ilə tanış olması üçün çalışır, səy göstərirlər ki, vətəndaşlar şüurlu şəkildə inqilabçılara qoşulsunlar və tam şüurlu tərzdə hakim sistemin dəyişilməsini və yeni inqilabi hakimiyyətin iş başına gəlməsini tələb etsinlər.

3. İslam inqilabının rəhbərləri öz məqsədlərinə nail olmaq üçün ilk öncə haqq əqidələrin insanlar tərəfindən düzgün qəbul olunmasına çalışır, sonra həmin doğru əqidələrdən inqilabın ülvi məqsədləri istiqamətində bəhrələnirlər. İslam inqilabının liderləri digər inqilab liderlərindən fərqli olaraq, inqilaba kömək məqsədi ilə olsa da belə yanlış əqidələrdən istifadə etmir, habelə insanların emosional hislərindən istifadə edərək onları qeyri-rasional fəaliyyətlərə tərəf yönəltmirlər. İslam inqilabının rəhbərləri çalışırlar ki, insanların emosiyalarını, yalnız düzgün əqidələr və rasional düşüncələrə tabe etsinlər. Sonra onların düzgün emosiyalarından öz məqsədlərinə nail olmaq üçün yararlansınlar. Məhz buna görədir ki, İslam dininin düzgün, obyektiv dəyərlərini və hökmlərini təbliğ etmək inqilab rəhbərlərinin ən mühüm proqramlarından birini təşkil edir. Çünki İslam dininin mahiyyətini düzgün təbliğ etmək və insanları İslam dininə inandırmaq onlarda fədakarlıq əhval-ruhiyyəsi yaradır.

4. İslam inqilabının rəhbərləri, həmçinin inqilabın məqsədlərini dəqiq və aşkar müəyyənləşdirməyə çoxlu təkid edirlər. Bu səbəbdən onlar nasionalist, şovinist və bu kimi ideyalardan uzaqlaşaraq, yalnız ədalətin bərpası üçün çalışırlar. Halbuki, digər inqilabların rəhbərləri bir çox hallarda öz məqsədlərini gizli saxlayır və bu yolla xalqın bütün kütlələrini özlərinə tərəf çəkməyə çalışırlar. Onlar bu vasitə ilə hakimiyyətin devrilməsini sürətləndirir və inqilabı qələbə ilə sona çatdırmağa səy göstərirlər. İslam inqilabının rəhbərləri eyni halda bütün insanlara qarşı xeyirxahdırlar və cəmiyyətdə yaşayan bütün fərdlərin mənafeyini bütün aspektlərdə tələb edirlər. Onlar öz məqsədlərini tam aşkar şəkildə elan edir və xalqın əyri yola düşməməsi üçün haqq dəyərləri batil dəyərlərdən ayırmağa çalışırlar.

5. İslam inqilabının rəhbərləri həqiqətləri gizlətmir və yalan xəbərləri nəşr etdirmirlər. Bütövlükdə onlar xalqı aldatmaqdan çəkinirlər. Bundan əlavə çalışırlar ki, xalqın məlumatını çoxaltsınlar və onların mədəniyyət və rasional müstəvidə düşüncə tərzlərini yüksəltsinlər.

6. İslam inqilabında çalışılır ki, bütün bacarıqlı şəxslər tanınsın və işə cəlb edilsin. Çünki bu inqilab müəyyən bir fərdin və yaxud dəstənin iş başına gəlməsini tələb etmir. Onun əsas məqsədi bütün fərdlərin və qrupların həqiqi və obyektiv mənafeyə çatmasıdır. Şübhəsiz, faydalı və bacarıqlı insanları işə cəlb etmək üçün inqilabın heç bir əsaslarından və ülvi ideyalarından uzaqlaşılmır.

7. Digər tərəfdən, İslam inqilabı biganələrə və düşmənlərə arxalanmır. Qeyd etmək lazımdır ki, burada bigana sözündən məqsəd, yalnız İslam dini və İslam inqilabının ülvi məqsədləri ilə düşmənçilik edən cəmiyyətlər, ölkələr və millətlərdir. Çünki İslam dininin düşmənlərindən uzaqlaşmaq, bu müqəddəs dinin dostları ilə dostluq etmək İslam dininin ideologiyasının bir hissəsidir. Buna görədir ki, bu inqilab, yalnız öz dostlarına arxalanır və başqalarına bağlı olmadan müstəqil şəkildə fəaliyyət göstərir.

8. İslam inqilabı bir sıra sabit və dəyişməz hüquqi və əxlaqi qanunları ehtiva edən İslam dininə əsaslandığı üçün, hər bir problemdə xalqdan və yaxud mütəxəssislərdən rəy sorğusu keçirməyə möhtac deyildir. Məhz bu səbəbdəndir ki, həmin inqilabda heç bir şəxs və yaxud qrup hüquqi və ictimai qanunların dəyişməsi ilə özlərinin xüsusi mənafeyini təmin etməyə maraq göstərə bilməzlər.

9. İslam inqilabının rəhbərlərinin hakimiyyəti ilk növbədə Allah-Təalanın hakimiyyətinin, sonra isə Allahın ən böyük vəlisinin hakimiyyətinin nümayəndəliyidir. Bu isə hakim sistemin sabit olaraq öz həyatına davam etməsinə xüsusi zəmanət verir.

10. Nəhayət, öncə sadaladığımız xüsusiyyətlərdən daha əhəmiyyətlisi və heç bir elmi və təcrübi hesablamalara sığmayan bir xüsusiyyət də İslam inqilabında mövcuddur. Bu inqilab Allah-Təalanın qeybdən gələn xüsusi köməkləri ilə idarə olunur. Başqa təbirlə desək, İslam inqilabında tam sədaqət və ixlasla çalışan insanlar Allah-Təalanın qeybdən gələn köməklərindən yararlanır və məğlubolunmaz bir ilahi şəxsiyyətlərə çevrilirlər.

# 6. İnqilabı təhdid edən təhlükələr və onlarla mübarizə yolları

İslam inqilabının qələbəsindən sonra onu təhdid edən və stabilliyini pozan təhlükələr ilk öncə iki qismə bölünürlər: xarici təhlükələr, daxili təhlükələr.

1. Xarici təhlükələr. Bu təhlükələr də öz növbəsində dörd hissəyə ayrılır: Hərbi, iqtisadi, əxlaqi və əqidəyə aid olan təhlükələr.

Birinci: Hərbi təhlükələr. Yeni qurulmuş inqilabi cəmiyyət və inqilabi sistem düşmənlər tərəfindən hücuma məruz qalaraq zor vasitəsilə devrilə bilər. Bununla mübarizə aparmaq üçün həmin cəmiyyətdə fədakarlıq, müqavimət və insanlarda qəhrəmanlıq əhval-ruhiyyəsinin qorunması və güclənməsi gərəkdir. Habelə, insanlara özlərini müdafiə etmək üçün hərbi fənlər öyrədilməli, həmçinin hərbi sursatın hazırlanması ön plana keçməlidir.

İkinci: İqtisadi təhlükələr. İnqilab edilmiş cəmiyyətdə insanların iqtisadi və maliyyə vəziyyətini pisləşdirmək məqsədi ilə düşmənlər həmin cəmiyyəti iqtisadi və ticarət mühasirəsinə alaraq iqtisadi böhran yarada bilərlər, nəticədə xalq inqilabdan sonra iş başına gəlmiş dövlətə qarşı bədbin olur və yeni sistemin əsasları zəiflənir. Bununla mübarizə aparmaq üçün ilk öncə insanlarda səbir və qənaət əhval-ruhiyyəsi yaradılmalı, güclənməli, sonra isə düzgün məntiqli və tədbirli proqramlarla ölkənin düşmənlərə iqtisadi bağlılığı aradan götürülməli və kənd təsərrüfatı, sənaye və ticarət sahəsində iqtisadi müstəqillik siyasəti yeridilməlidir.

Bütövlükdə, dünya təcrübəsində hərbi və iqtisadi təhlükələr çox yüksək tərzdə tədqiq edilmiş, onunla mübarizə zəminində kifayət qədər məlumat və təcrübələr əldə olunmuşdur. Tanınması çətin olan, həm də onunla mübarizə yolu bəzi çətinlikləri yaradan təhlükələr, yalnız əxlaq və əqidə sahəsində yaranan təhlükələrdir.

Üçüncü: Əxlaqi təhlükələr. Düşmənlər müxtəlif pozğunluqlar, o cümlədən cinsi fəsadlar, spirtli içkilər, narkotik maddələr və s. adətləri insanlar arasında yaymaqla xalqın əxlaqını fəsada tərəf çəkə bilərlər. Bu vaxt insanlar nəinki etdikləri inqilabın keşiyində dayanmayacaq, hətta həmin inqilaba və yeni sistemə bədbin olacaqlar. Nəticədə onun süqut etməsini və başqa bir hakimiyyətlə əvəz olunmasını tələb edəcəklər.

Əxlaqi təhlükələrlə mübarizə yolu isə insanları düzgün dini və əxlaqi dəyərlərə uyğun tərbiyələndirmək və insanların əxlaqını pozğunluğa yönəldən vasitələrin cəmiyyət arasında yayılmağının ciddi şəkildə qarşısını almaqdır.

Dördüncü: Əqidə zəminində yaranacaq təhlükələr. Biganə düşmənlər həmçinin bəzən insanların dini və məzhəbi təlim-tərbiyələrini və inanclarını tənqid atəşinə tutur və guya onların düzgün əqidələrinin batil olmasını sübuta yetirirlər. Bir sözlə, ideoloji və mədəni hücuma keçirlər. Bəzi vaxtlar isə dini və məzhəbi hökmlərin zahirinə hücum etmir, lakin onları elə təfsir edirlər ki, dinin və şəriətin təlimlərinin əsas mahiyyəti aradan gedir və daha həqiqi dini təlim-tərbiyədən əsər-əlamət qalmır. Düşmənlər tərəfindən həyata keçən ikinci iş, yəni dini və məzhəbi mətnlərin yanlış təfsiri və şərhi daha çox yayılmış metodlardandır. Bu iş bəzən aşağıdakı ünvanlarla həyata keçir:

«Dini və məzhəbi təlimlərin və hökmlərin dərin və şüurlu təbiri», «Dini mərifətin təkamülü», «Dini ideologiyanın yenidən təfsiri», «Din hökmlərinin və təlimlərinin zamanın dəyişkən ehtiyaclarına uyğunlaşması», «Dinin sadələşməsi və bütün insanlar üçün asan formada təqdim olunması.»

Bu proqram bəzən elə insanlar tərəfindən həyata keçir ki, ya müsəlman deyildirlər və ya müsəlman olsalar da bir sıra qeyri-islami ideoloji məktəblərə bel bağlamışlar. Bu metodla cəmiyyətdə yaşayan inanclı insanlar tədricən və heç bir səs-küy olmadan əqidə fasidliyinə tərəf yönəlirlər. Bu isə şübhəsiz, cəmiyyətin digər zəminlərdə də fəsada çəkilməsinə səbəb olacaqdır.

Əqidə fəsadlarının nəticəsi tez bir zamanda zahir olmur və həmin fəsadları dərk etmək üçün hər bir insan müəyyən qədər mənəvi, ruhi və ideoloji tərəqqiyə malik olmalıdır. Halbuki, cəmiyyətdə yaşayan insanların çox hissəsi həmin mənəvi və ideoloji səviyyəyə malik deyildir. Məhz buna görədir ki, insanların bir çoxu əqidə təhlükələrini ümumiyyətlə təhlükə adlandırmırlar. Bu isə həmin təhlükələrin daha xətərli olmasını göstərir. Bu

səbəbdən, əqidə təhlükələrinin əhəmiyyətini düşünən və cəmiyyətin ideoloji islahatına, habelə inqilabdan sonra yaranmış yeni sistemə düşən şəxslər həmin təhlükələrlə mübarizə yollarını yaxşı öyrənməli və onları tam ciddiyyətlə həyata keçirməlidirlər. Onlar dinin və məzhəbin aradan getməsinəvə islami və qeyri-islami dəyərlərdən və təlimlərdən sintez olunmuş yeni ideologiyalar müsəlmanların problemlərini həll edən dərman kimi onlara satılmasına icazə verməməlidirlər.

2. Daxili təhlükələr. Bu təhlükələri də iki hissəyə bölmək olar: hakimlərin təhlükələri və xalqın təhlükəsi.

**Hakimlərin təhlükələri**

Bu təhlükələr iki dəstəyə ayrılırlar: Elm sahəsinə aid olan təhlükələr və əxlaq sahəsinə aid olan təhlükələr.

1. Elm sahəsinə aid olan təhlükələr. İnqilabi hakimiyyət öz məqsədlərinə ən yaxşı formada nail olmaq üçün onun hakimləri və bütövlükdə həmin sistemdə çalışan bütün müdirlər lazım olan səviyyədə elmi məlumatdan və bilikdən yararlanmalıdırlar.

Ölkəni düzgün idarə etmək üçün lazım olan məlumatlar aşağıdakılardır:

Birinci: Dini ideologiyanın təlimlərini düzgün öyrənmək. Ona görə ki, məsul şəxslər ölkəni idarə etdikləri zaman dinin ideoloji təlimlərindən kənara çıxmasınlar.

İkinci: Cəmiyyətin müxtəlif müəssisələrində və təşkilatlarında lazım olan bilikləri əldə etmək. Çünki cəmiyyətin çoxsaylı və müxtəlif idarə və təşkilatlarını düzgün idarə etmək, bununla bağlı elmlərə tam əhatəli olmadan mümkün deyildir.

Üçüncü: Beynəlxalq və qlobal vəziyyəti düzgün təhlil etmək, çünki təkcə dinin ideoloji təlimlərini düzgün öyrənmək, onlara inanmaq, habelə əlaqəli elmi fənlərlə yaxından tanış olmaq və onları mənimsəmək düzgün proqram hazırlamaq üçün kifayət etmir. Ona daxildən və ölkədən xaricdə olan ümumi vəziyyəti və abı-havanı bilmək də zəruridir.

2. Əxlaq sahəsinə aid olan təhlükələr. İnqilabi sistemin müvəffəqiyyətə çatması üçün hakimlərin və bütövlükdə bütün məsul şəxslərin təkcə elmi tərəqqiyə çatması kifayət deyil, bundan əlavə, onlar əxlaq baxımından sağlam olmalı və nəfsani istəklərin çərçivəsindən müəyyən qədər kənarlaşmalıdırlar.

Deyə bilərik ki, pulpərəstlik və vəzifəpərəstlik əxlaqi fəsadların ən böyükləridir. Digər fəsadlar isə bu iki fəsaddan qaynaqlanır. Deməli, məsuliyyət daşıyan insanlar mömin, saleh və təqvalı olmalıdırlar ki, bu iki böyük fəsaddan çəkinsinlər və pakizə şəxsiyyətə malik olsunlar. Hər bir şəxsin vəzifəsi və məsuliyyəti nə qədər yüksəkdirsə onun əxlaqi fəsadlardan çəkinmək zərurəti bir o qədər çoxdur.

**Xalqın təhlükələri**

Bu təhlükələr də iki hissəyə bölünür. Elm sahəsinə aid olan təhlükələr və əxlaq sahəsinə aid olan təhlükələr. Bu iki təhlükənin düzgün tanınması, habelə onlarla mübarizə yollarının aydınlaşması üçün bir müqəddimə təqdim edirik.

Müəyyən bir cəmiyyətdə yaşayan insanların hamısını istedad baxımından üç hissəyə ayırmaq olar:

Birinci dəstə: O şəxslərdirlər ki, fövqəladə və böyük istedada malikdirlər. Onların ictimai vəziyyəti istedadlarının hamısının çiçəklənməsinə şərait yaratmış, nəticədə çoxlu elm və maarifə malik olmuş və böyük və dahi alimlər kimi başqalarından seçilmişlər.

İkinci dəstə: O şəxslərdir ki, onlar çox az istedada malikdirlər belə ki, ən yaxşı təlim-tərbiyə metodları da onların istedadlarının yüksəlməsinə faydalı deyildir. Buna görə onlar demək olar ki, heç bir elmi nailiyyətə çatmamış və ağılsız insanlar kimi tanınmışlar.

Üçüncü dəstə: O şəxslərdirlər ki, nə birincilər kimi yüksək elmi və əqli səviyyəyə malikdirlər, nə də ikinci dəstə kimi ən aşağı səviyyədədirlər, onlar bu iki dəstənin arasındakı mövqedədirlər. Şübhəsiz, üçüncü dəstəyə aid olan insanların özləri də müxtəlif səviyyədədirlər. Məlum məsələdir ki, cəmiyyətdə yaşayan insanlar arasında birinci və ikinci dəstəyə aid olanların sayı azdır. Üçüncü dəstəyə aid olanlar isə cəmiyyətin çox hissəsini təşkil edirlər. Habelə, aydındır ki, müxtəlif cəmiyyətlərin mədəni və fikri səviyyəsi fərqli olduğundan, müəyyən bir insan bir cəmiyyətdə birinci dəstədən digər cəmiyyətdə isə üçüncü dəstədən sayıla bilər.

Elm sahəsində göstərdiyimiz bu təsnifat əxlaq sahəsində də mümkündür. Yəni əxlaqi və mənəvi xüsusiyyətlər baxımından da hər bir cəmiyyət iki azlıqdan və bir çoxluq təşkil edən dəstədən ibarətdir. Cəmiyyətdə sayları az olan bəzi insanlar bir sıra tərbiyə amillərinin köməyi ilə, habelə özlərinin

çoxlu ruhi məşqləri nəticəsində elə bir yüksək və mənəvi əxlaqi xüsusiyyətlərə nail olurlar ki, ömürlərinin axırına qədər həmin xüsusiyyətlər dəyişilmir və həmin xüsusiyyət bütün hüquqi və əxlaqi dəyərləri kamil və dəqiq formada riayət etməyə onları sövq edir. Azlıq təşkil edən digər insanlar isə elə bir rəzil və pis xüsusiyyətlərə malikdirlər ki, onların islah olunmasına və xüsusiyyətlərin dəyişməsinə, demək olar ki, heç bir ümid yoxdur və yalnız zor tətbiq etməklə onları bir sıra hüquqi və əxlaqi qanunlara boyun əyməyə məcbur etmək olar. Lakin insanların əksəriyyəti nə yüksək əxlaqi və mənəvi tərəqqiyə nail olmuş, nə də bu baxımdan xeyli süquta uğramışlar. Onlar cəmiyyətdə qəbul olunan dəyərlərə bəzən riayət edir bəzən isə riayət etmirlər. Yəni bəzi fəzilətlərə və bəzi rəzalət xüsusiyyətlərə malikdirlər. Hər halda, onlar təlim-tərbiyə qəbul edir və dəyişə bilirlər.

İndi əgər bu iki oxşar təsnifatı bir-biri ilə müqayisə etsək görərik ki, onlarda bəzi ortaq xüsusiyyətlər mövcuddur. Yəni bəzi böyük və dahi alimlər əxlaq baxımından süquta uğramış, beləliklə də üçüncü dəstəyə, hətta ikinci dəstəyə aid olmuşlar. Digər tərəfdən, əxlaq baxımından bir sıra dahi şəxsiyyətlər heç bir elmi dərəcəyə nail olmamış və elm baxımından üçüncü dərəcəyə aid olurlar. Hərçənd cəmiyyətdə həm elm, həm də mənəvi və əxlaqi səviyyə baxımından yüksək dərəcələrə nail olmuş insanlar da mövcuddur.

Lakin demək olar ki, hər bir cəmiyyətdə insanların əksəriyyəti həm elm, həm də əxlaq və mənəviyyat baxımından orta səviyyədədirlər. Belə insanlar kifayət qədər elm və mərifət, habelə fikri müstəqillik səviyyəsinə çatmadıqları, habelə dəyişməz və dərin əxlaqi xüsusiyyətlərə malik olmadıqlarından, bir çox hallarda bir-birinin təsirinə düşürlər. Məhz buna görə də müşahidə olunan təbliğatların çoxu həmin insanların üzərində təsir bağışlayır. Onların bu qədər yüksək təsirlənmə xüsusiyyəti azlıq təşkil edən şeytansifət insanların zəhərli təbliğatı zamanı çox zərərli olsa da, lakin düzgün və insani təlim-tərbiyə vaxtı olduqca xeyirli olur. Bunu nəzərə alaraq, insan simalı, lakin şeytan xüsusiyyətli azlıqlar öz təbliğatı ilə əksəriyyət insanları doğru və haqq yoldan çəkindirməkdən öncə, inqilabın hakimləri təlim-tərbiyənin ən faydalı metodlarından yararlanaraq insanları yaxından dini təlim-tərbiyə, elm və sənaye, habelə cəmiyyətin və dünyanın mədəni, siyasi, ictimai abı-havası ilə tanış etməli, həmçinin onları yüksək əxlaqi və mənəvi dəyərlərə uyğun tərbiyələndirməlidirlər ki, dinin və

inqilabın düşmənlərinin yalan təbliğatından istifadə edərək əyri yollara çəkilməsinlər. Hər halda, xalqın əksəriyyətinin haqq tərəfdarı və yaxud nahaq yolçusu olmaları hakim şəxslərin təlim-tərbiyəsindən bilavasitə asılıdır.

İnsanların ümumi təlim-tərbiyəsinin ən yaxşı səpkidə həyata keçməsi, habelə digər ictimai məsələlər və tələblərin ən yaxşı surətdə təmin edilməsi üçün elm və əxlaq baxımından yüksək səviyyəyə çatmış insanlar cəmiyyətin idarəçilik sisteminə daxil olmalı və iş başına keçməlidirlər. Belə insanlar cəmiyyətin ən mühüm və əhəmiyyətli işlərini öz öhdələrinə götürməsələr, təbii olaraq səlahiyyətsiz insanlar həmin vəzifəyə keçəcək, bu vaxt isə işin nəticəsi tam aydındır.

İndi isə elm baxımdan yüksək dərəcəyə çatmış, lakin əxlaq baxımından aşağı səviyyəli olan insanlar haqda: ilk öncə belə nəzərə çarpır ki, həmin insanların işlərində müşahidə olunan zərərlər həm elm, həm də əxlaq baxımından aşağı səviyyəli olan insanların ziyanlarından daha azdır. Çünki bunlar ən azı alimdirlər. Lakin həqiqət budur ki, əxlaq və mənəviyyat baxımından aşağı səviyyəli olan iki insanı bir-biri ilə müqayisə etdikdə, onlardan daha elmli olan şəxs daha zərərli və təhlükəlidir. Çünki, o özünün çirkin məqsədlərinə çatmaq üçün elm silahı ilə hazırlanmışdır. Hər halda, bu çirkin insanlar var-dövlətə və yüksək vəzifəyə nail olmaq üçün cəmiyyətin əksəriyyətinin yolunu tutur və onları min hiylə ilə aldadırlar. Onlar insanları özlərinə oyuncaq edərək bu yolla yeni qurulmuş inqilabın hakimiyyətini zəiflədir və məhvə doğru aparırlar. Deməli, onlar inqilabın və inqilabi hakimiyyətin ən böyük və təhlükəli düşmənləridirlər, hakimiyyət isə tam ciddi şəkildə onların işlərinə nəzarət etməli və onları tam dəqiqliklə nəzarətdə saxlamalıdır ki, ən kiçik işlərindən belə xəbərsiz qalmasın.

# 7. İnqilabın davamı

«İnqilabın davamı» bir neçə mənada işlənir. Biz burada onların hər birini ayrı-ayrılıqda izah edəcəyik:

1. İnqilabın qələbəsinin birinci mərhələsi inqilabçıların süqut etməkdə olan hakimiyyətin tərəfdarları üzərində siyasi və hərbi qələbəsidir. Lakin bu qələbə nəinki inqilabın yeganə məqsədi deyil, hətta onun mühüm məqsədi də hesab olunmur. İnqilabçılar siyasi və hərbi qüdrəti ələ keçirməklə, yalnız qarşılarındakı böyük bir maneəni aradan götürmüşlər. İnqilab öz ülvi məqsədlərinə nail olmaq üçün uzunmüddətli fədakarlıqlar və qəhrəmanlıqlar tələb edir. Yəni inqilabçılar son dərəcə şüurlu və tədbirli proqramlarla uzun müddət çalışmalıdırlar. Deməli, inqilabın siyasi və hərbi qələbəsi hər bir inqilabın qələbəsinin ən birinci və asan mərhələsidir. İnqilabın ən əsas və sonuncu məqsədi olan cəmiyyətin bütün aspektlərdə və sahələrdə dəyişməsi və yüksək səviyyəyə tərəqqi etməsi isə qısa müddətdə və asanlıqla əldə edilə bilməz. Məhz buna görə də, xalqın ən böyük səhvi ondadır ki, inqilabın siyasi və hərbi qələbəsini müşahidə etdikdən sonra işi bitmiş sayır və inqilabın bütün məqsədlərinə nail olmasını güman edirlər. Yaxud ən azı belə düşünürlər ki, daha inqilab ən çətin mərhələsini keçmişdir, digər məqsədlər isə ya öz-özünə, ya da hakimlərin vasitəsilə əldə olunacaqdır. Əgər xalq öz vəzifəsini bitmiş hesab edərsə və inqilabın bütün məqsədlərini həyata keçirtmək üçün hakimiyyətlə səmimi qəlbdən həmkarlıq etməzsə, nəinki inqilab öz məqsədlərinə çatmaqda aciz olacaq, hətta bu vaxt xəyanətkarların, ikiüzlülərin və fırıldaqçıların yenidən iş başına qayıtmasına zəmin və vəziyyətin inqilabdan öncəki vəziyyətə qayıtmasına tam şərait yaranacaqdır. Hərbi və siyasi qələbədən sonra da insanların hazırlığı tam qorunmalı hətta, güclənməlidir ki, bu vasitə ilə bütün fəsadlar və təhlükələr aradan qaldırılsın və inqilab öz ülvi məqsədinə nail ola bilsin.

İnqilabın davamı bu mənada tam düzgün, məqbuldur və insanlara təlim keçirilməlidir ki, inqilabın qələbəsindən sonra da yenə səhnədə qalsınlar.

2. Təbii olaraq, inqilab tərəfindən haram qazancları və yersiz hüquqları aradan qaldırmış, həmçinin, onları öz çirkin məqsədlərindən saxlamış, həmçinin xarici düşmənlər inqilabla qarşı-qarşıya dayanacaq və inqilab yolu ilə hakimiyyətə gəlmiş sistemi məhv etməyə çalışacaqlar. Həqiqətdə, onlar öz çirkin arzularına çatmaq üçün heç bir fəaliyyəti əsirgəməyəcəklər. Bu vaxt hərbi yürüş, daxili müharibə və keşməkeşlər, çevriliş, siyasi qətllər, adam öldürülməsi, adam oğurlanması, müxaliflərin işgəncəsi, insanlarda qorxu yaratmaq, küçə yürüşləri, tətillər, dövlət idarə və təşkilatlarında biganəlik, insanların gündəlik tələbatının qıtlığı, möhtəkirlik, bahalıq, iqtisadi və ticarət blokadası, yalan şayiələrin yayılması, cəmiyyətdə təbii surətdə mövcud olan çatışmazlıqları qat-qat böyük göstərmək, insanları inqilabın rəhbərliyinə və hakimiyyətdə olan şəxslərə qarşı bədbin etmək, inqilaba qarşı ümidsizləşdirmək, cəmiyyətdə əxlaq pozğunluqlarının, spirtli içkilərin yayılması, narkotik maddələrin çoxalması və s. təxribatçı və təhlükəli metodlar gözlənir. Habelə qeyd etmək lazımdır ki, həmin vaxtlar daxili və xarici düşmənlərin ən təhlükəli metodlarından biri insanlar arasında fikir ayrılığı və ixtilaf yaratmaqdır. Bunun zərəri nəinki inqilabı təhdid edir, hətta cəmiyyətin özünə yönəlir və bütövlükdə həmin cəmiyyət öz varlığını itirə bilər. İnqilaba zidd olan qüvvələr inqilabçı nəsli öz yolundan çəkindirməkdə ümidsizləşdikdən sonra, gənc nəsil sorağına gedir və onları müxtəlif ideoloji, mədəni fəaliyyətlərlə əyri yollara sürükləmək istəyir ki, sonrakı illərdə inqilabın tərəfdarları sırasında olmasınlar. Bunu nəzərə alaraq deyirik: Bütün xalq zəruri olaraq inqilabın daxili və xarici düşmənlərinin müxtəlif hiylələrindən qafil olmamalı və onları layiqincə cavablandırmalıdırlar. İmkan verməməlidirlər ki, düşmənlərin təxribatçı fəaliyyətlərinin nəticələri cəmiyyəti və inqilabı öz təsiri altına salsın. Xüsusilə xalq tam ciddiyyətlə ixtilaf yaradan fəaliyyətlərlə mübarizə aparmalı və düşmənlərə icazə verməməlidir ki, xalqı bir-birindən ayırsınlar. Burada daha əhəmiyyətli olan müəllimlərin və cəmiyyətin mənəvi, mədəni və ideoloji liderlərinin vəzifəsidir. Onlar təlim-tərbiyənin ən faydalı metodlarından bəhrələnərək dini təlim-tərbiyəni inqilabın mədəniyyəti və ideologiyasını, cəmiyyətin və qlobal dünyanın mədəni, ictimai siyasi abı-havasını insanlara izah etməli və bu yolla nəinki hazırkı, hətta gələcək nəsli də din və dini ideologiyanın müdafiəçisi kimi hazırlamalıdırlar.

İnqilabının davamının bu mənası həm düzgün həm də məqbul hesab olunur. Çünki təkcə bu vasitə ilə inqilabın əldə etdiyi nailiyyətlər itmir və gələcək nəsil üçün qalır.

3. İnqilabın davamının üçüncü mənası haqda: bəzi ideoloqlar belə hesab edirlər ki, hər bir inqilabın rəhbərləri keçmiş hakimiyyəti devirdikdən və hakimiyyətə gəldikdən sonra bütün səylərini mövcud vəziyyəti qorumağa sərf edir və özlərinin inqilabi əhval-ruhiyyələrini mühafizəkar əhval-ruhiyyəyə çevirərək əsaslı və hərtərəfli dəyişkənliklər yaratmaq barədəki ideyaları süst cilvələndirirlər. İnqilabın məqsədləri tədricən yaddan çıxır və dünənin inqilabçıları bu gün hakimiyyətə gəldikdən sonra, indi inqilabi əhval-ruhiyyə ilə yaşayan şəxsləri radikallıqda və xəyalpərəstlikdə günahlandırırlar. Onlar belə şəxsləri qeyri-obyektiv adlandırır və mövcud problemlərə diqqətsiz olmaqda və həmçinin hakimiyyətin ictimai dəyişkənliklər meydanındakı məhdudiyyətlərini nəzərə almamaqda suçlayırlar. Beləliklə, onlar da keçmiş hakimiyyətin xüsusiyyətini əldə edir və hətta keçmiş hakimiyyətin etdiyi zülmkarlıqlardan çəkinmirlər. Bir sözlə, hər bir inqilab hakimiyyətə gəldikdən sonra tədricən öz fəallığını itirir və inqilabın ziddinə çevrilir. Bu səbəbdən, yenidən təzə bir inqilaba ehtiyac duyulur. Onlar hazırkı hakimiyyəti qüdrətdən kənarlaşdırır və yeni inqilabi hakimiyyət yaradırlar. Həmin mütəfəkkirlərin fikrincə, inqilabın davamının bu cür təfsiri nəinki tarixi və təcrübi qərinələrlə təsdiq edilir, həm də fəlsəfədə ümumi və cahanşümul bir qanunun tam nümunələrindən biridir. Bu qanun «dialektika» adlanır. Həmin cahanşümul fəlsəfi qanuna əsasən, hər bir hadisənin içindən başqa bir hadisə yaranır ki, onunla ziddiyyət təşkil edir. Bu ziddiyyətin nəticəsində isə üçüncü bir proses meydana gəlir. Üçüncü hadisə keçən iki hadisəni özündə cəmləşdirir və ehtiva edir. Yenidən üçüncü hadisə öz növbəsində ziddini özündə yaradır və beləliklə dialektika tarixin sonuna qədər davam edir.

Bu nəzəriyyə inqilabın daxili və xarici düşmənlərinin əlində çox yaxşı bir bəhanəyə çevrilmişdir. Çünki onlar özlərinin inqilaba zidd fəaliyyətlərini doğru, düzgün hesab edir və həmin fəaliyyətlərin bir gün qalib olacağını qəti şəkildə bildirirlər. Onlar hazırda başladıqları inqilabi fəaliyyətləri və sonda həyata keçirəcəkləri inqilabı daha kamil və yaxşı inqilab hesab edirlər.

Habelə, bu nəzəriyyənin rəvac tapması insanların hazırkı inqilabın davam etməsinə olan inamını azaldır və onları inqilab rəhbərlərinə qarşı

bədbin edir. Nəticədə yenə də xəyanətkarların və fırıldaqçıların fəaliyyətinə zəmin yaranır.

Lakin bu nəzəriyyəni yayan şəxslərin maraqlarından, habelə onun pis nəticələrindən əlavə deməliyik ki, həmin nəzəriyyə öz-özlüyündə də rədd olunur. Həmin nəzəriyyənin fəlsəfi və rasional dayağı olan dialektika qanunu əqli və fəlsəfi baxımdan dəyərsizdir. Bundan əlavə, hansı zərurətə əsasən inqilab rəhbərləri inqilabın təyin etdiyi düzgün yoldan çəkinir və keçmiş hakimiyyətin əyri yollarına tərəf yönələcəklər? Düzdür, inqilabçılar fəsada tərəf yönələ bilərlər, yəni bu, mümkündür. Lakin fəlsəfi və əqli baxımdan zəruri deyil. Yəni bu olmaya da bilər. İnqilabçıların fəsada çəkilməsi əql baxımından qəti və zəruri olmasa, xalqın yenidən qiyam etməsi və inqilab yaratması zərurəti haradan irəli gəlir? Xalqın bundan öncəki hərəkatı (bu hərəkat inqilab edərək yeni bir hakimiyyəti iş üstünə gətirdi) buna görə idi ki, onlar yoxsulluq və haqsızlıqla üzləşmiş, özlərinin beynəlxalq və qlobal mövqelərini dünyada itirilmiş hesab edirdilər. Yaxud onlar özlərini mənəvi və əxlaqi tərəqqidən məhrum olmuş düşünürdülər. Halbuki, inqilabdan sonra yaranmış indiki hakimiyyət əgər həmin maddi və mənəvi mənafeni təmin etmək üçün öz səylərini əsirgəmirsə, xalqın yenidən qiyam etməsini hansı səbəblərə bağlamaq olar? Bu yeni qiyam cəmiyyətin öz mənafeyinin ziddinə qiyam etmək deyilmi?

Deməli, heç bir təbii və qaçılmaz qanun yoxdur ki, ona əsasən heç bir inqilab öz həyatına davam etmək qabiliyyətində olmasın və müxtəlif inqilablar bir-birinin ardınca yaransınlar. Digər tərəfdən, bir məsələni yaddan çıxartmamalıyıq. Heç bir təbii və məcburi qanun inqilabın davam etməsinə zəmanət vermir və bütünlükdə humanitar və sosial elmlər sahəsində məcburi və qaçılmaz qanunlardan söhbət açmaq absurddur. Çünki insanlara aid olan hadisələr daim onların idrakı, istəyi və seçimi ilə həyata keçir. Hər bir siyasi sistem, o cümlədən inqilab vasitəsilə yaranan siyasi sistem bir neçə xüsusiyyətlərə malikdir. Xalqın inqilabın əleyhinə qiyam etməsi isə iki haldan birində mümkündür. Biri o vaxtdır ki, həmin xüsusiyyətlər onların tələblərinə uyğun gəlməsin. Başqa sözlə desək, xalq inqilaba lazım olan xüsusiyyətləri bəyənməsin. Digəri isə o zaman baş verir ki, inqilabın həmin xüsusiyyətləri onların tələblərinə cavab versə də, onlar agahsızlıq üzündən hakimiyyətin həmin xüsusiyyətlərə malik olmadığını güman etsinlər. Deməli, inqilabın düşmənləri həqiqətləri gizlətmək və müxtəlif yalanlar yaymaqla inqilabı xalqın gözündə zəif və mənfi

göstərməyənə, habelə müxtəlif mədəni və ideoloji təxribatçı fəaliyyətlərlə xalqın dəyərlər və mədəniyyət sistemini dəyişdirib yeni dəyərlər sistemi təqdim etməyənə qədər inqilab əleyhinə heç bir qiyam formalaşmayacaqdır. Lakin düşmənlər yuxarıda qeyd etdiyimiz işlərin hər birinə nail olsalar xalqın qiyamına şərait yaranmışdır. Bir sözlə, xalqın qiyam etməsi insanların iradəsinə əsaslanan hər bir iş kimi, bir tərəfdən onların idrakına, biliyinə və təhlilinə, digər tərəfdən isə onların əxlaqi davranışına, tələblərinə və meyllərinə bağlıdır. Deməli, xalqın ideologiyası və yaxud əxlaqi dəyərləri zəifləməyənə qədər onlar inqilabın və inqilabdan sonra yaranan hakimiyyətin gerçəkliyini müdafiə edir və daim himayə edəcəklər.

Dediklərimizdən belə bir nəticə çıxarmaq olar ki, xalqı inqilab yaratmağa yönəldən səbəb onu yaşatmağa da dəvət edir. Fərdi məsələlərdə də belədir. Yəni misal üçün, hər bir insanı mal-dövlət qazanmağa sövq edən daxili amil həmin var-dövləti qazandıqdan sonra onu qorumağa da məcbur edir. Deməli, hər bir şəxsi ailə həyatı qurmağa və övlad sahibi olmağa tərəf çəkən amil onu öz həyat yoldaşını müdafiə etməyə, habelə övladlarının sağlamlığını qorumağa da sövq edir. Hətta demək olar ki, insanlar əldə etdikləri nemətləri və qazancları qorumaq üçün daha çox maraqlıdırlar. Çünki qazandıqdan sonra hər bir şəxs ondan faydalanmağın ləzzətini dərk edir və onun əhəmiyyətinə varır. Misal üçün, ədalətsizlikdən, yoxsulluqdan və haqsızlıqdan əziyyət çəkən xalq bütün bunları aradan qaldırmaq üçün qiyam edir və bu vaxt inqilab baş verir. İnqilabdan sonra onlar ədalətin və rifahın ləzzətini gördükdə onu tam müdafiə edirlər. Deməli, bu vaxt onların inqilaba və yeni hakimiyyətə qarşı qiyam etməsi tam mənasızdır.

Burada bəziləri deyə bilər ki, xalq inqilab etdikdən sonra öncəki məqsədlərini və ülvi hədəflərini itirir və daha inqilab səhnəsində qalmağa səy etmirlər. Yəni onu müdafiə və himayə etmək əhval-ruhiyyəsini itirirlər. Onların cavabında deyirik:

Birinci: İnqilabın məqsədlərinə bir, iki, üç və ya on il müddətində nail olmaq mümkün deyil:

İkinci: Mənəvi məsələlərdə məqsədə nail olandan sonra süstlük və tənbəllik tam mənasızdır. İnsanlar inqilabın dəyərlərinə və ülvi məqsədlərinə inanırlarsa onlar öz yüksək əhval-ruhiyyələrini itirməyəcəklər.

Üçüncü: Həmin şəxslərin iddia etdikləri süstlük və tənbəlliyin baş verməsi zəruri deyil, yalnız mümkündür. Yəni insanların təbii olaraq təbiəti belə tələb edir ki, öz məqsədlərinə nail olduqdan sonra bir az tənbəlləşsinlər

və iş fəaliyyətindən dayansınlar. Yəni asayiş və istirahət məqsədi ilə işdən əl götürsünlər. Lakin bu təbii tələb məcburi amil deyil, yalnız təbii bir səbəbdir. Hətta bu təbii istək insanın əldə etdiyi nailiyyəti və qazancı qorumaq üçün yüksək maraqla onun müdafiəsində durmaq istəyi ilə ziddiyyət təşkil edir. Bu ziddiyyət prosesində o öz asayiş və rahatlığını bir kənara qoyub əldə etdiyi nailiyyəti tam müdafiə edə bilər. (Bu məsələ inqilab rəhbərlərinin hansı səviyyədə öz mədəni fəaliyyətləri ilə xalqı tam agah saxlamalarından asılıdır).

Bir sözlə, heç bir fəlsəfi və məcburi qanun inqilabın aradan getməsinə hökm vermir. Habelə heç bir fəlsəfi və qəti məcburi qanun da bir inqilabın yaşamasına zəmanət vermir. Bunların hər ikisi xalqa təlim verilməlidir. Bu iki məsələni tam dərinliklə düşünmək xalqı inqilaba və inqilabi hakimiyyətə qarşı ümidsiz olmaqdan saxlayır. Eyni halda onları daha çox işləməyə, fədakarlıq, qəhrəmanlıq və agahlıq hisləri ilə daha çox yaşamağa dəvət edir. İnsanlar bilməlidirlər ki, ilahi dəyərlərə və düzgün dünya görüşünə bağlandıqları, habelə inqilabı gücləndirən və zəiflədirən amilləri düzgün təhlil etdikləri və öz cəmiyyətlərinin habelə beynəlxalq aləmin mədəni, siyasi, sosial məsələlərini doğru-düzgün düşündükləri vaxt öz dostlarını və düşmənlərini daha yaxşı tanıyacaq və özlərinin inqilabi əhval ruhiyyəsini qorumaqla məğlubedilməz bir insana çevriləcəklər. Beləliklə, onların inqilabı və inqilabı hakimiyyəti qorunacaq və inkişaf edəcəkdir.

# X FƏSİL

# Rəhbərlik

# Ön söz

Bir insanın cəmiyyətdəki təsir növlərindən biri rəhbərlik yolu ilə təsir göstərməsidir. Ona görə də cəmiyyətdə belə bir təsirə malik olan şəxslərin xüsusiyyətləri haqda danışmaq faydasız olmazdı. Lakin biz rəhbərlik barədə geniş söhbət açmayacağıq. Çünki biz, yalnız ictimai və siyasi hərəkatların rəhbərliklərini nəzərdə tuturuq. Yəni burada rəhbərliyin bütün növlərini və qisimlərini araşdırmaq niyyətində deyilik. Digər tərəfdən, yalnız layiqli cəmiyyət rəhbərlərinin xüsusiyyətlərini sadalayır və ləyaqətsiz ictimai rəhbərlərin və liderlərin xüsusiyyətlərini isə araşdırmayacağıq. Çünki ləyaqətli liderlərin xüsusiyyətlərini sadaladıqdan sonra onlara ehtiyac duyulmur.

Hər bir ictimai və siyasi hərəkat zəruri və qəti olaraq təkamül və tərəqqi yolunu keçmir. Yəni mövcud vəziyyətin dəyişməsi daim daha yaxşı və bəyənilən vəziyyətin yaranmasına səbəb olmur. Deməli, bəzi ictimai və siyasi hərəkatların dəyişməsi hətta ideal vəziyyətdən qeyri-ideal vəziyyətə doğru ola bilər. Bunu nəzərə alaraq deyirik: Hər bir siyasi və ictimai lider ya səlahiyyətlidir, ya da səlahiyyətsiz. Səlahiyyətli liderin yeganə məqsədi ictimai vəziyyəti normallaşdırmaq, insanları səadətə və maddi, mənəvi kamala doğru dəvət etməkdir. Fasiq rəhbər isə yalnız özünün maddi və dünyəvi mənafeyini düşünür və xalqı aldadaraq onları elə bir tərəfə yönəldir ki, bununla, yalnız cəmiyyət süquta və ziyana doğru hərəkət edir. Bu əsasla Qurani-kərim ictimai və siyasi liderləri iki hissəyə bölmüşdür. Onlardan biri «hidayət rəhbərləri» digəri isə «zəlalət rəhbərləri» adlanırlar.

Bu hissədə ləyaqətli rəhbərlərdən danışarkən onların üç xüsusiyyəti: elm, əxlaq və əməl haqda danışmışıq. Öncə qeyd etdiyimiz kimi, fasiq və ləyaqətsiz rəhbərlərin xüsusiyyətləri isə bu bəhsdən sonra əziz oxucularımıza aydınlaşacaqdır.

# Ləyaqətli rəhbərlərin xüsusiyyətləri

Bizim əqidəmizə görə, ləyaqətli rəhbərin ən əsas xüsusiyyətləri aşağıdakılardır:

**1. Məqsədi kifayət qədər tanımaq**

Rəhbər özünün son məqsədini düzgün tanımalı və təhlil etməlidir. Çünki o təkcə özünü deyil, müəyyən bir dəstəni də həmin məqsədə doğru aparır.

Qurani-kərim buyurur: «(Ya Peyğəmbər) De: Bu Mənim yolumdur. Mən və mənə tabe olan hər bir kəs bəsirət və gözüaçıqlıqla Allaha tərəf dəvət edirik. Allah bütün eyib və nöqsanlardan pak (və uzaqdır) və mən müşriklərdən deyiləm.» («Yusuf» surəsi, ayə: 108)

**2. Məqsədə tam inanmaq**

Siyasi və ictimai lider səmimi qəlbdən özünün və başqalarının müəyyən etdikləri məqsədə doğru tam inamla hərəkət etməsini təsdiqləməlidir və buna inanmalıdır ki, nəyin bahasına olursa olsun, həmin məqsədə nail olacaqlar. Beləliklə, onlar bütün fəaliyyətlərini həmin məqsədə doğru yönəltməlidirlər:

Qurani-kərimdə buyurulur: «Peyğəmbərimiz Rəbbi tərəfindən ona nazil olana iman gətirdi.» («Bəqərə» surəsi, ayə: 285)

**3. Ədalət və təqva**

Xalqın rəhbəri də digər insanlar kimi bir sıra maddi və dünyəvi mənafeyə malikdir ki, həmin mənafelər onun son və ülvi məqsədi ilə ziddiyyət təşkil edə bilər. Bu səbəbdən, o, nəfsini paklamasa və ədalət,

təqva prinsiplərinə sadiq qalmasa, öz işlərində nailiyyət əldə edə bilməyəcəkdir.

Deməli, dünyəvi və maddi tələblər onun əsil məqsədinə qarşı çıxarsa, bu vaxt dünyəvi tələbləri özündən kənarlaşdırmalı və yalnız son məqsədə çatmaq üçün irəliləməlidir.

**4. İctimai əsasların arxalandığı qayda-qanunları tanımaq və onları müəyyənləşdirmək**

Yəni elə bir qanunları ki, onlardan yayınmaq düzgün deyil.

Şübhəsiz, hər bir ictimai hərəkat qısa müddətdə nəticəyə çatmayacaqdır. Hər bir hərəkat son mənzilə çatmaq üçün uzun və çox mərhələli bir proses keçməlidir. İctimai hərəkatın həyatında və müxtəlif mərhələlərində cürbəcür problemlər yaranır ki, onların hər birində özünəməxsus seçimlər və qərarlar olmalıdır. Bütün bu qərarların, seçimlərin və fəaliyyətlərin cərəyanında son məqsəd nəzərə alınmalı və yaddan çıxarılmamalı, yəni hər şeydən əhəmiyyətli olan son məqsəd digər məsələlər cərəyanında tapdalanmamalıdır. Bütün bunlara nail olmaq üçün ictimai hərəkatın hüdudlarını müəyyənləşdirən qanunlar tam nəzərə alınmalı və onlardan bir addım da yayınmaq olmaz. Bu səbəbdən, hər bir siyasi və ictimai rəhbərin əsas vəzifələrindən biri hərəkat prosesində daha əhəmiyyətli məsələləri təhlil edib müəyyənləşdirmək və düzgün seçimlə son məqsəddən qafil olmamaqdır.

**5. Cəmiyyətdə mövcud olan zəif cəhətləri tanımaq və onları müxtəlif kateqoriyalara ayırmaq**

Cəmiyyətin zəif yerlərini dəqiq müəyyənləşdirmək hər bir siyasi və ictimai lideri düzgün qərar çıxarmağa tərəf yönəldir. Əksinə, bütün bunlardan xəbərsiz olmaq onu müxtəlif zamanlarda yanlış seçimə sövq edəcəkdir.

**6. İctimai hərəkatın qarşısındakı maneələri tanımaq və onlarla mübarizə üsullarını müəyyənləşdirmək**

Hər bir siyasi rəhbər daxildən, ya xaricdən siyasi və ictimai hərəkatın qarşısında maneə törədən şəxsləri yaxşı tanımalıdır. O həmçinin onlarla

mübarizə yollarını da düzgün təhlil etməlidir. Bəzən bir sıra ictimai vəziyyətlər tələb edir ki, bəzi müxaliflər tez aradan götürülsün bəzilərinə isə bir müddət möhlət verilsin və yaxud onlardan bəziləri, yalnız təhdid olunsun, bəziləri dialoqa dəvət edilsin.

### 7. Uzaqgörənlik və proqramlaşdırma

Hər bir rəhbər uzaqgörən olmalıdır. Son məqsədi, stabil və dəyişməz həyat qanunlarını, cəmiyyətdə və xalqda mövcud olan zəif xüsusiyyətləri, habelə ictimai hərəkatın qarşısında dayanan maneələri nəzərə alaraq obyektiv, şüurlu və tam məntiqli bir proqram hazırlamalıdır ki, ictimai hərəkatın həyatının davamı tam dəqiqliklə müəyyənləşsin.

### 8. İctimai hərəkatın tədrici proses olduğuna daim təkid etmək

Hər bir rəhbər bilməlidir ki, insanların psixoloji xüsusiyyətləri, habelə onların əqidə və rəyləri sürətlə dəyişmir. Deməli, əsaslı ictimai dəyişkənliklər tədricən baş verir.

### 9. Hazırkı insan qüvvələrini cəlb etmək və gələcək iş adamlarını təlim-tərbiyə etmək

Rəhbər mövcud şəraitdə iş qabiliyyətinə malik olan şəxsləri cəlb etməli və onların hər birindən necə və harada istifadə etməyi bacarmalıdır. Lakin o həmçinin bilməlidir ki, hər bir ictimai hərəkat özünün son məqsədinə nail olmaq üçün çoxmərhələli bir həyat keçdiyindən və hər bir mərhələdə fərqli maneələrlə üzləşdiyindən mövcud insanlar ictimai hərəkatın başlanması üçün kifayət etsələr də, onun davamına kifayət etməyəcəklər. Deməli, siyasi və ictimai rəhbər gələcəkdə lazım olan iş qabiliyyətli şəxsləri düzgün təlim-tərbiyə və onlardan gələcəkdə istifadə etməlidir. Bu təlim-tərbiyə daim davam etməlidir. Habelə hazırkı iş başında olan şəxsləri də düzgün təlim-tərbiyə etmək rəhbərin ən əhəmiyyətli vəzifələrindən biridir. Rəhbər öz işçilərini elm və bilik bacarığı baxımından gücləndirməli, habelə onları əxlaq və mənəvi meyl aspektindən ruhlandırmalıdır. Qurani-kərim buyurur:

«Həqiqətən Allah möminlərin canlarını və mallarını Cənnətin müqabilində satın alıb. (Bu malın verilmək tərzi belədir ki, onlar) Allah

yolunda vuruşurlar, beləliklə öldürürlər və öldürülürlər.» («Tövbə» surəsi, ayə: 111)

Bundan sonrakı ayədə isə Allah-Təala belə bir müamiləni bacaran və Allah yolunda kafirlər və müşriklərlə vuruşan insanların xüsusiyyətlərini sadalayır və buyurur:

«(Bu möminlər) Tövbə edənlər, ibadət edənlər, həmdi-səna deyənlər, oruc tutanlar, (cihad və din elmi kəsb etmək üçün) səfər edənlər, rüku edənlər, səcdə edənlər, yaxşı işlərə dəvət edənlər, pis əməllərdən çəkindirənlər və Allahın sərhədlərini qoruyanlardır. Bu möminlərə müjdə ver.» («Tövbə» surəsi, ayə: 112)

Bu ayədə bildirilir ki, ilahi hərəkatda iştirak edən şəxslər, yalnız yüksək, müqəddəs təlim-tərbiyədən faydalanmış insanlar ola bilər.

## 10. İşçi qüvvələrin arasında ixtilafın qarşısını almaq

Məlum məsələdir ki, hər bir cəmiyyətdə və hərəkatda mövcud olan işçi qüvvələr elm, məntiq, tədbir, uzaqgörənlik, habelə əxlaq və etika baxımından eyni səviyyəli deyildirlər və müxtəlif əqidə və elmi səviyyələrə malikdirlər. Bütün bu fərqli cəhətlər onların əməldə bir-biri ilə ziddiyyətinə gətirib çıxaracaqdır. Rəhbərin ən əsaslı vəzifələrindən biri hərəkatın haqq mehvərini təyin etdikdən yəni hərəkatın son məqsədini və dəyişməz qayda-qanunlarını müəyyənləşdirdikdən sonra bütün işçi qüvvələri həmin haqq mehvərin ətrafına toplamaq və onların arasındakı ixtilafın çoxalmamasına çalışmaqdır. Bunu nəzərə almaq lazımdır ki, hər bir sosial hərəkatın düşmənlərinin ən böyük arzusu və istəyi, habelə onların hərəkatla müxalifətinin ən sərt və təsirli növü hərəkatın işçi qüvvələri və üzvləri arasında ixtilaf yaratmaqdır. Bu vaxt ictimai lider bütün səylərini işçi qüvvələrin arasındakı mövcud ixtilafları azaltmağa və ya tamamilə aradan götürməyə yönəltməli və beləliklə, hərəkatı son məqsədə tərəf hidayət etməkdir:

«Və hamılıqla Allahın ipindən (dindən, kitabdan və vəhy gətirənlərdən) möhkəm yapışın və parçalanmayın» («Ali-İmran» surəsi, ayə: 103)

«Parçalanan və aşkar dəlillər gətirdikdən sonra ixtilafa düçar olan kəslər kimi olmayın. Onlar üçün böyük bir əzab vardır» («Ali-İmran» surəsi, ayə: 105)

«Ənam» surəsinin 65-ci ayəsində Allah-Təala bildirir ki, Onun fərmanından çıxanlar Allah tərəfindən əzaba düçar olacaqlar. Bu əzab isə onların parçalanmasıdır:

«De: «O sizə başınızın üstündən, ya ayaqlarınızın altından əzab göndərməyə yaxud sizi dəstə-dəstə bir-birinizin canına salmağa və bəzinizin əzabınızı bəzinizə daddırmağa qadirdir.» Gör Biz müxtəlif ayə və nişanələri necə gətiririk, bəlkə başa düşdülər.» (Ənam» surəsi, ayə: 65)

Allah-Təala Öz əziz İslam peyğəmbərinə əmr etdi ki, Mədinə şəhərinin bir qrup münafiqləri tərəfindən tikilən məscidlə öz müxalifətini bildirsin və hətta həmin məsciddə namaz belə qılmasın. Çünki bu məscid müsəlman cəmiyyətinə zərər vurmaq kafirləri gücləndirmək möminlər arasında ixtilaf yaratmaq və öncədən Allah-Təala və Peyğəmbəri ilə vuruşan insanlar üçün ictimai dayaq olaraq düzəlmişdir («Tövbə» surəsi, ayə: 107-110). Allah-Təala bununla bildirmək istədi ki, möminlər arasında ixtilaf salmaq, kafirləri gücləndirmək və Allah-Təala və Onun Peyğəmbərinin düşmənləri üçün ictimai dayaq yaratmaq kimidir. İnsanlar arasında ixtilaf yaratmağın qarşısını almağın əhəmiyyəti buradan bəlli olur ki, Musa peyğəmbər Harun peyğəmbərdən soruşarkən ki, «sən nə üçün camaatı buzova sitayiş etməkdən çəkindirmədin?» Harun peyğəmbər onun cavabında dedi:

«Həqiqətən mən (onlara təzyiq göstərəcəyim təqdirdə) sənin «İsrail övladlarının arasında təfriqə saldın və mənim tapşırığıma əməl etmədin» deyəcəyindən qorxdum.» («Taha» surəsi, ayə: 94)

## 11. Son məqsəd və dəyişməz qanunlar üzərində qəti mövqe seçmək

Hər bir rəhbər istər öz tərəfdarları qarşısında, istərsə də düşmənləri ilə üzləşərkən hərəkatın son məqsədi və dəyişməz qanunları barədə aşkarcasına danışmalıdır. Bu vaxt bəzi məqamları gizli saxlamaq ləyaqətli və həqiqi rəhbərin şənində deyildir. İslam peyğəmbəri öz peyğəmbərliyinin ilk çağlarında Allah tərəfindən yaxın qohum-əqrəbasını İslam dininə dəvət etməyə əmr edildi:

«(Əvvəlcə) Yaxın qohumlarını qorxut və xəbərdarlıq et» («Şüəra» surəsi, ayə: 214).

Sonra Allah-Təala o həzrətə əmr etdi ki, öz dini təbliğatını aşkara çıxartsın:

«Buna görə də, sənə əmr olunanı aşkar şəkildə bəyan et və müşriklərdən üz çevir.» («Hicr» surəsi, ayə: 94)

Bu ayə nazil olduqdan sonra İslam peyğəmbəri tam aşkar şəkildə təbliğ edir və öz dostuna, düşməninə aydınlaşdırırdı ki, onun son məqsədi, yalnız təkallahlıq, yalnız Allah-Təalaya qeyd-şərtsiz itaət etməkdir. Allah-Təala İbrahim peyğəmbəri və onun zamanında yaşayan möminləri bu barədə bizə nümunə kimi göstərmiş və möminlərdən ona iqtida etməyi istəmişdir.

«Şübhəsiz, İbrahimin və onunla birlikdə olanların rəftarında sizin üçün gözəl bir örnək vardır. O zaman onlar öz qövmlərinə (kafirlərinə) demişdilər: «Həqiqətən, biz sizdən və Allahdan başqa ibadət etdiklərinizdən uzağıq. Biz sizi təkzib edirik. Yeganə olan Allaha iman gətirməyincə həmişə bizimlə sizin aranızda ədavət və düşmənçilik olacaqdır.» («Mumtəhinə» surəsi, ayə: 4)

Həmçinin qeyd etmək lazımdır ki, Quranın 109-cu surəsi olan «Kafirun» surəsi də İslam peyğəmbərinin bu barədə yüksək nümunə olduğunu bildirir.

### 12. Sirr saxlamaq

Son məqsəd və dəyişməz qanunları istisna etməklə, digər məsələlərdə bəzən siyasi və ictimai rəhbər müəyyən bir məsələni başqalarından və hətta öz yaxın dostlarından belə gizlətməyə məcbur ola bilər. Deməli, bütün vəziyyətlərdə hər şeyi açıq aşkar söyləmək və sirr saxlamamaq rəhbərin eyiblərindən biri sayılır. Çünki insanların hamısı bütün həqiqətləri bilmək qabiliyyətinə malik deyildir. Həmçinin, bəzi məsələlər ifşa olunduqda ictimai hərəkat zərər və ziyan görə bilər. Allah-Təala insanların bəzisini məzəmmət edərək buyurur:

«Əgər onlara əmin-amanlıq və qorxu barəsində bir xəbər çatsa onu yayarlar.» («Nisa» surəsi, ayə: 83)

### 13. Son məqsədə və dəyişməz qanunlara uyğun əməl etmək barədə tam ciddi olmaq

Bilmək lazımdır ki, hər bir hərəkatın son məqsədi, ülvi qayəsi və dəyişməz qanunları onun fəlsəfi gerçəkliyini formalaşdırır. Yəni əgər həmin ülvi məqsəd və qanunların həyata keçməsinə zərurət olmasaydı, həmin ictimai hərəkatın heç bir faydası olmazdı. Deməli, həmin məqsəd və dəyişməz qanunlar heç bir şəraitdə yaddan çıxmamalı və hərəkatın rəhbəri

hətta tərəfdarlarının hamısını və ya əksəriyyətini əldən verdiyi, yaxud ictimai hərəkatın sürətinin azaldığı təqdirdə də həmin dəyişməz qanunlar, son məqsəd üzərində tam qəti mövqe seçməli və sazişə getməməlidir. Rəhbər bütün qanunlara tam riayət etməyi vacib və zəruri bilməli və onlarda şəkk etməməlidir. Şübhəsiz, bununla yanaşı rəhbər zaman və məkan şəraitindən ən faydalı şəkildə yararlanmalı, lakin hərəkatın əsas məqsədlərini qurban verməməlidir. Quranda və sünnədə Peyğəmbərin İslam hərəkatının məqsədlərini və qanunlarını qorumaq üzərində tam qəti mövqedə olmasına dair çoxlu sübutlar mövcuddur. Taif əhli o həzrətə təklif etdilər ki, əgər peyğəmbər namaz qılmaqdan və Allah qarşısında səcdə etməkdən onları azad edərsə, digər dini məsələlərdə Peyğəmbərə tabe olacaq və İslam dinini qəbul edəcəklər. Hətta onlar kafirlər və müşriklərlə müharibədə Peyğəmbərə kömək edəcəklərinə də söz verdilər. O həzrət isə namazın müqəddəs İslam dininin ən əhəmiyyətli rüknlərindən olduğuna görə, həmin təklifi rədd etdi. Halbuki, zahirdə bu təklif İslam hərəkatının inkişafı üçün çox faydalı idi. Peyğəmbər bu təklifi rədd edərkən buyurdu:

«Namaz olmayan dində xeyir-bərəkət də yoxdur.» İsra surəsinin 73-75-ci ayələri də bu haqdadır:

«Həqiqətən az qalmışdı ki, (müşriklər) vəhy etdiyimizdən başqa şeyi yalandan Bizə isnad etməyin üçün səni vəhy etdiyimizdən döndərsinlər və onda (belə olacağı təqdirdə) səni mütləq özlərinə dost götürərdilər və əgər səni möhkəm və sabitqədəm etməsəydik, həqiqətən az qalmışdı ki, onlara tərəf azacıq meyl edəsən. (Əgər elə olsaydı) Onda Biz sənə iki qat dünya əzabı və ikiqat Axirət əzabı daddırardıq, sonra Bizim qarşımızda özünə birköməkçi tapmazdın.» («İsra» surəsi, ayə: 73-75)

Habelə Allah-Təala Öz peyğəmbərinə əmr edərək buyurur:

«Ya peyğəmbər, Allahdan qorx və kafirlərə və münafiqlərə itaət etmə, çünki Allah daim biləndir və hikmət sahibidir. Sənə Rəbbin tərəfindən vəhy olunana tabe ol. (və müşriklərin saziş bağlamaq təklifinə əhəmiyyət vermə). Həqiqətən, Allah daim etdiklərinizdən xəbərdardır!» («Əhzab» surəsi, ayə: 1, 2)

Bu ayələrdə bildirilir ki, kafirlər və müşriklər müəyyən bir vasitə ilə o həzrəti özlərinə tabe etməyə şərait yaratmışdılar. Allah-Təala isə peyğəmbəri bu işdən çəkindirir. «Qələm» surəsinin 8 və 9-cu ayələrində oxuyuruq:

«Elə isə (səni və Allahın ayələrini) təkzib edənlərə itaət etmə. Çünki, onlar çox istəyirlər ki, (sən) yumşaqlıq göstərəsən və saziş bağlayasan, onlar da yumşaqlıq göstərsinlər və səninlə saziş etsinlər.» («Qələm» surəsi, ayə: 8, 9)

Quran ayələrində, hədislərdə və tarixdə çoxlu dəlil-sübutlar mövcuddur ki, sazişə dəvət edən fəaliyyətlər qarşısında Peyğəmbərin tam qəti mövqe seçməsini bildirir və tam aydın şəkildə göstərir ki, İslam peyğəmbəri ömrünün sonuna qədər düşmənlərlə saziş etməyərək müqavimət göstərdi.

## 14. İkinci dərəcəli və əhəmiyyətsiz məsələlərdə tolerantlıq etmək

Hər bir siyasi və ictimai lider hərəkatın son məqsədi və dəyişməz qanunları qəbilindən olmayan məsələlərdə başqalarıyla müdara etməli və tolerant şəxsiyyətinə malik olmalıdır. Habelə, o öz dostlarının və tərəfdarlarının səhvləri və çatışmazlıqları qarşısında tam səbirli olmalı və onlarla dözümlülük şəraitində yaşamalıdır. Çünki onların hamısı elm və əxlaq baxımından yüksək səviyyədə olsalar da, təbii ki, bir sıra zəif cəhətlərə malikdirlər. Deməli, onların hər birini həmin zəif cəhətləri nəzərə alaraq özündən uzaqlaşdırsa, bu vaxt ictimai hərəkatın inkişafı dayandırılacaqdır. Şübhəsiz, insanların zəif cəhətlərinə göz yummaq və onların təlim-tərbiyəsində çalışmaq iki fərqli məsələdir. Rəhbər bu iki vəzifənin hər ikisini həyata keçirməli və eyni vaxtda yerinə yetirməlidir. Allah-Təala Öz Peyğəmbərinə xitab edərək buyurur:

«Allah tərəfindən olan rəhmətin bərəkəti sayəsində onlarla (öz ümmətinlə) mülayim oldun və əgər qaba və daş ürəkli olsaydın, onlar mütləq sənin ətrafından dağılışardılar. Belə isə, onları əfv et, onlar üçün bağışlanmaq dilə və işlərdə məsləhətləş və qəti qərara gəldikdən sonra Allaha təvəkkül et ki, şübhəsiz, Allah təvəkkül edənləri sevir.» (Ali-İmran» surəsi, ayə: 159)

Yəni sənin ilahi rəhmətin sayəsində insanlarla mehribanlıq etməyin və onlara qarşı mülayim olmağın insanları pərakəndəlikdən çəkindirir və İslam hərəkatını dayanmaqdan saxlayır. Xalqın zəif cəhətləri və eyibləri qarşısında göz yum, onları əfv et və Allah-Təaladan istə ki, onları bağışlasın və pis əməllərini düzəltsin. (Təbiidir ki, Allah-Təaladan başqalarının bağışlanmağını istəyən hər bir şəxs özü də başqalarının xeyrini istəyir onlara təlim-tərbiyə verir və onlara öyüd-nəsihət verməklə onların

rəftarlarını islah etməyə çalışır). Həmçinin, Allah-Təala o həzrətə əmr edir ki, möminləri özündən uzaqlaşdırmasın:

«Rəblərinin razılığını qazanmaq və Ona yaxınlaşmaq istəyərək səhər-axşam Onu çağıranları öz yanından qovma! Nə onların hesabından (etiqadi və əməli vəzifələrindən və savablarından) bir şey sənin öhdənədir və nə də sənin hesabından bir şey onların öhdəsinə ki, (bu səbəbdən) onları qovasan və (nəticədə) zalımlardan olasan.» («Ənam» surəsi, ayə: 52).

«Hud» surəsinin bir neçə ayəsində oxuyuruq:

«Beləliklə onun (Nuh peyğəmbərin) qövmünün küfr edən böyükləri və başçıları dedilər: Biz səni, yalnız özümüz kimi bir bəşər görürük (sən nə mələksən, nə də maddi baxımdan və məqam cəhətdən bir üstünlük sahibi). Və sənə bizim alçaqlarımızdan başqa (onlar da) fikirləşmədən və elə ilk baxışda tabe olan bir kəs görmürük. Həmçinin, sizdə heç bir üstünlük görmür, yalançı hesab edirik. («Hud» surəsi, ayə: 27) Nuh peyğəmbər isə onların cavabında buyurdu:

«Mən iman gətirənləri qovan deyiləm.» («Hud» surəsi, ayə: 29)

«Və ey mənim qövmüm, əgər mən onları (öz yanımdan) qovsam, Allah qarşısında mənə kim kömək edəcəkdir?» («Hud» surəsi, ayə: 30)

### 15. Başqalarının şəxsiyyətini dəyərləndirmək

Hər bir siyasi və ictimai rəhbər öz tərəfdarlarını və himayəçilərini özündən uzaqlaşdırmamaqdan əlavə, onların şəxsiyyətini də dəyərləndirməlidir. Əgər rəhbərin rəftarı elə bir səviyyədə olsa ki, onun tərəfdarları təhqir olunsun və şəxsiyyətləri tapdalansın, bu vaxt rəhbərə qarşı istəkləri azalacaq və onunla həmkarlıq etməkdən yayınacaqlar. Bu isə ictimai və siyasi hərəkatın ziyan görməsi ilə tamamlanacaqdır. Bundan əlavə, ətrafdakıların təhqir olunduğu təqdirdə siyasi və ictimai hərəkat məğlubiyyətə uğramasa da təhqir olunmuş işçi qüvvələrindən heç bir zaman düzgün və tədbirli iş baş verməyəcəkdir. Başqalarının şəxsiyyətinə dəyər verməyin əlamətlərindən və təzahürlərindən biri məsləhətləşmək və müxtəlif məsələlərdə onların rəyini öyrənməkdir. Bundan əlavə, insanların rəyinə və nəzərinə etina olunsa və onlar müxtəlif proqramlarda və ciddi qərarlarda özlərini iştirakçı kimi hiss etsələr, bu zaman müxtəlif layihələrə qarşı məcburi əhval-ruhiyyədə olmayacaqlar, nəticədə öz işlərini tam ciddiyyətlə həyata keçirəcəklər. Bu səbəbdən, Allah-Təala Öz

Peyğəmbərinə (başqalarının rəylərindən və fikirlərindən tam ehtiyacsız olsa da belə) onlarla məsləhətləşməyi əmr edir:

«İşlərdə onlarla məsləhətləş» («Ali-İmran» surəsi, ayə: 159)

### 16. Tənqidi qəbul etmək

Hər bir rəhbər onun işləri barədə mövcud olan müxtəlif tənqidlərə qarşı etinasız olmamalı, onları tam diqqətlə dinləməlidir. Çünki məsumlardan başqa bütün insanlar daim əxlaq və əməl baxımından səhv etmək və yanılmaq təhlükəsi altındadırlar. Həmin eyibləri və çatışmazlıqları aradan qaldırmaq üçün hər bir rəhbər tənqidləri qəbul etmək ruhiyyəsinə malik olmalıdır. Hətta məsum imamlar siyasi və ictimai rəhbər məqamında başqalarını təlim-tərbiyə etmək, yaxud onların məsum imam olmağına bəzilərinin şübhə ilə yanaşdığı üçün, başqalarının tənqidlərini eşidir və xalqa müraciət edərək onlardan istəyirdilər ki, öz rəylərini və fikirlərini bildirsinlər.

### 17. Təvazökarlıq

Ləyaqətli rəhbərin xüsusiyyətlərindən biri də həmkarlarına qarşı təvazökar olmasıdır. Allah-Təala Öz peyğəmbərinə əmr edir ki:

«Yer üzündə təkəbbür və məğrurluqla yol getmə. Çünki sən (nə qədər qüvvətli olsan da) heç vaxt (öz addımlarınla) yeri yara bilməz və heç vaxt ucalıqda dağlara çata bilməzsən.» («İsra» surəsi, ayə: 37)

«Öz təvazökarlıq qanadını möminlərin üstünə sər.» («Hicr» surəsi, ayə: 88).

«Və öz (məhəbbət) və təvazökarlıq qanadını möminlərdən sənə tabe olan hər bir kəsin üzərinə endir (Cəzbedici çətirini onların başları üzərində aç).» («Şüəra» surəsi, ayə: 215)

İslam peyğəmbəri zahiri həyatında təvazökarlığından o qədər başqa insanlara oxşayırdı ki, müəyyən bir məclisdə olarkən həzrəti tanımayan şəxslər onu başqa insanlardan seçmirdilər.

### 18. Başqalarına qarşı xeyirxah olmaq və onlara ürək yandırmaq

Təbiidir ki, hər bir insan əslində öz mənfəətini və xeyrini tələb edir və başqasına elə bir zaman tabe olur ki, onun tam xeyirxah olduğunu

yəqinliklə dərk etsin. Məhz buna görədir ki, rəhbər başqalarına qarşı əsil xeyirxah insan olmalı və bunu insanlara sübut etməyə çalışmalıdır ki, nəticədə onlar da rəhbərə qarşı daha çox meyl göstərsinlər. Allah-Təala əziz İslam peyğəmbərinin xüsusiyyətlərini sadalayarkən buyurur:

«Həqiqətən, sizə özünüzdən olan bir peyğəmbər gəlib ki, əziyyət və zərərə düşməyiniz ona ağırdır. O sizi çox istəyir və möminlərə qarşı çox mərhəmətli və mehribandır.» («Tövbə» surəsi, ayə: 128)

## 19. Başqalarına yaxşılıq etmək

İnsanlara qarşı xeyirxah olmağı sübut etməyin yollarından biri onlara yaxşılıq etmək və pislikləri qarşısında yaxşı münasibət göstərməkdir. Allah-Təala Öz Peyğəmbərinə əmr edir ki, pislikləri yaxşılıqla cavablandır:

«Onların pislik və hörmətsizliklərini ən gözəl üsulla dəf et.» («Muminun» surəsi, ayə: 96)

Allah-Təala «Fussilət» surəsinin 34-cü ayəsində isə buyurur:

«Yaxşı iş (gözəl əqidə, əməl və söz) ilə pis iş əsla bir deyil. (Buna görə də sənə yetişən pislikləri) ən gözəl üsulla dəf et. Onda səninlə düşmənçilik edən şəxs birdən (elə dəyişər ki,) sanki yaxın dost və qohumdur.» («Fussilət» surəsi, ayə: 34)

Habelə, Allah-Təala İslam peyğəmbərindən istəyir ki, inadkarlıq üzündən onun dəvətini qəbul etməyən kafir və müşriklərdən əl çəksin, ağılsız sözlərinə cavab verməsin və öz xeyirxahlığını və sülhsevərliyini onlara göstərsin:

«(Ey peyğəmbər!) Buna görə də onlardan üz döndər və salam de! Tezliklə biləcəklər.» («Zuxruf» surəsi, ayə: 89)

## 20. Rəhbər xalqdan öz işləri qarşısında muzd tələb etməməlidir

İnsanlara qarşı xeyirxahlığı sübut etməyin yollarından biri muzd tələb etməmək və onların işlərinin düzəlməsi və təlim-tərbiyəsi yolunda fədakarlıq etməkdir. Əgər hər bir rəhbər ictimai islahat yolunda öz şəxsi mənafeyinə göz yumar və xalqın mənafeyini özününkündən üstün tutarsa, xalq onun xeyirxah olduğuna inanacaq və yəqin edəcəkdir ki, o özünün deyil, xalqın xidmətindədir. Beləliklə, xalqın ürəklərinə yol tapacaqdır. Bunu nəzərə alaraq Qurani-kərim on altı ayə bildirir ki, Allahın peyğəmbərləri heç bir zaman xalqdan muzd tələb etməmiş və bu yolda öz

xeyirxahlıqlarını onlara sübuta yetirmişlər. (Müraciət edin: «Ənam» surəsi, ayə: 90; «Yunus» surəsi, ayə: 72; «Hud» surəsi, ayə: 29, 51; «Yusuf» surəsi, ayə: 104; «Furqan» surəsi, ayə: 57; «Şüəra» surəsi, ayə: 109, 127, 145, 164, 180; «Səbə» surəsi, ayə: 47; «Yasin» surəsi, ayə: 21; «Sad» surəsi, ayə: 86; «Tur» surəsi, ayə: 40; «Qələm» surəsi, ayə: 46).

Hər halda, hər bir rəhbər öz tərəfdarları ilə münasibətində birinci növbədə onlara sübut etməlidir ki, tam xeyirxah bir insandır.

## 21. Rəhbər tam nizam-intizamlı olmalı və digərlərini da belə olmağa çağırmalıdır

Başqalarının zəif cəhətləri qarşısında səbirli olmaq, onları özündən uzaqlaşdırmamaq, mehribanlıq etmək, səhvlərini bağışlamaq, şəxsiyyətlərinə dəyər vermək, məsləhətləşmək, tənqidlərini qəbul etmək, təvazökarlıq etmək, insanlara yaxşılıq etmək, onlardan heç bir muzd tələb etməmək və s. xüsusiyyətlərin hamısı çox düzgün və zəruridir, lakin bununla yanaşı hər bir rəhbər başqalarını tam nizam-intizamlı olmağa çağırmalı və bunu onlardan tələb etməlidir. Başqa sözlə, rəhbər tam ciddiyyətlə xalqdan, xüsusilə onunla həmkarlıq edən məsul şəxslərdən tələb etməlidir ki, ona tabe olsunlar. Rəhbərlə həmkarlıq edən qüvvələr müxtəlif işlərdə və proqramlarda müdaxilə edə, iştirakçı ola, işlərinə tənqid edə bilərlər, lakin rəhbər onların rəylərini və şəxsi fikirlərini eşitdikdən, bütün rəyləri nəzərə aldıqdan və müəyyən bir qərara gəldikdən sonra heç bir şəxs həmin qərarın ziddinə hərəkət etməməlidir. Deməli, hər bir şəxs rəhbərin qərarından öncə öz rəyini bildirmək hüququna malikdirsə, müəyyən bir qərardan sonra müxalif olmaq ictimai hərəkat qarşısında maneə törədəcəkdir. Bu səbəbdən, Allah-Təala Öz Peyğəmbərinə camaatla məsləhətləşməyi tövsiyə etdikdən sonra peyğəmbərdən tələb edir ki:

«Qəti qərara gəldikdən sonra Allaha təvəkkül et ki, şübhəsiz, Allah təvəkkül edənləri sevir.» («Ali-İmran» surəsi, ayə: 159)

Bu ayə onu göstərir ki, hər bir qərara gəlmək, yalnız sənin öhdənədir- başqasının yox. Deməli, qəti qərara gəldikdən sonra onu həyata keçir.

## 22. Həmkarlarının fəsada yönəlməsinin qarşısını almaq

Öncə bildirdik ki, başqalarının zəif cəhətləri və səhvləri qarşısında səbirli olmaq onların çatışmazlıqlarını və eyiblərini yaddan çıxarmaq deyil. Hər bir

rəhbər eyni halda başqalarının fəsada uğraması qarşısında tamamilə ayıq olmalı və tam hikmətli tədbir və düşüncə ilə onların fəsada çəkilməsinin qarşısını almalıdır.

### 23. Cəmiyyətdə və ölkədə gedən proseslərin hamısından xəbərdar olmaq

Hər bir rəhbər cəmiyyətdəki və ölkədəki məsələlərin və proseslərin bəzisindən xəbərsiz qalarsa təbii olaraq onun rəhbərliyi bəzi çatışmazlıqlar və problemlərlə üzləşəcəkdir. Xüsusilə, bunu nəzərə almaq lazımdır ki, bəzi şəxslər həmin xəbərsizlikdən sui-istifadə edəcək, həqiqəti gizlətmək və yalan xəbərlər yaymaqla xalqı aldatmağa çalışacaqlar. Buna görə hər bir rəhbər çox güclü və əmanətdar kəşfiyyat sisteminə malik olmalıdır ki, ictimai hərəkatın daxilində gedən hadisələrdən doğru və düzgün məlumat əldə edə bilsin.

### 24. Şücaətli olmaq

Heç bir ictimai hərəkat düşmənsiz və təhlükəsiz deyil. Deməli, düşmənlə üzləşməyi bacarmayan və təhlükə hiss etdiyi zaman geri çəkilən qorxaq rəhbər məğlubiyyətə uğrayacaqdır.

### 25. Müqavimət və istiqamət göstərmək

Bu ən çətin şərtlərdən biridir. Çünki heç bir şəxsin problemlərlə üzləşən zaman qüvvəsi və bacarığı sonsuz deyil. Hər bir ictimai hərəkatın qələbəsi isə onun rəhbərinin çox yüksək bacarığı və qüvvəsinə bilavasitə bağlıdır. Yəni rəhbər müxtəlif çətinliklər və problemlər qarşısında dözümlü olmaq üçün çox geniş əhval-ruhiyyəyə və zərfiyyətə malik olmalıdır. Allah-Təala digər ilahi peyğəmbərlər kimi, hər bir adi insanı diz çökdürən problemlərlə üzləşən İslam peyğəmbərini dəfələrlə səbirli olmağa və müqavimət göstərməyə tövsiyə etmiş və Peyğəmbərini buna çağırmışdır. Allah-Təala buyurur:

«Odur ki, sənə əmr olunduğu kimi (əqidəndə, əməllərində və dinin təbliğ edib çatdırılmasında) sabitqədəm, möhkəm ol və həmçinin səninlə birgə üz tutan kəslər (də belə olsunlar).» («Hud» surəsi, ayə: 112)

Bir hədisdə bildirilir ki, İslam peyğəmbəri buyurmuşdur:

«Hud surəsinin bu ayəsi məni qocaltdı»

Alimlər bu cümlənin bəyanında bildirmişlər ki, həmin ayədə həm İslam peyğəmbəri həm də möminlər və onun tərəfdarları səbirli olmağa və müqavimət göstərməyə əmr olunmuşlar. İslam peyğəmbərini daha çox çalışmağa sövq edən və onu qocaldan cəhət isə ayədə olan ikinci məqamdır. Yəni möminlərin və Peyğəmbərin tərəfdarlarının səbirli və dözümlü olmasına çağırış.

«Səbirli ol və sənin səbrin, yalnız Allahın köməyilədir.» («Nəhl» surəsi, ayə: 127)

Yəni ey peyğəmbər, səbirli olmaq üçün Allah-Təaladan yardım diləməlisən.

«Özlərinin Rəbbinin razılığını diləyən halda sübh vaxtı və axşam çağı Onu çağıranlarla birgə özünü səbrə vadar et.» («Kəhf» surəsi, ayə: 28).

«Buna görə də, səbir et. Əlbəttə, Allahın (onların məğlub və əzaba düçar olmaları barəsindəki) vədi haqdır.» («Qafir» surəsi, ayə: 77).

«Şübhəsiz, (səmimi qəlbdən) «Bizim Rəbbimiz Allahdır!» deyən, sonra (əməldə) möhkəm duran kəslərə (dünyada qeyb köməyi şəklində yaxud ölüm zamanı, ya da qəbirdən qaldırılan zaman) mələklər nazil olar (və deyərlər): « əsla qorxmayın və qəmgin olmayın, sizə vəd olunmuş Cənnətlə müjdə olsun!» («Fussilət» surəsi, ayə: 30)

«Allahın elçilərindən möhkəm əzm sahibləri səbir etdikləri kimi səbir et» («Əhqaf» surəsi, ayə: 35)

«Rəbbinin hökmünə səbir et. Çünki sən Bizim gözümüz önündəsən.» («Tur» surəsi, ayə: 48)

Bu şərif ayədə Peyğəmbərə ürək-dirək verilir və onun Allah tərəfindən daim himayə olunduğu bildirilir ki, o həzrət düşmənlərin müxalifət etməsindən nigaran qalmasın.

«Rəbbinin hökmünə səbir et və balıq sahibi (Yunus) kimi olma! O zaman o, qəm qüssə ilə dolu bir qəlblə (balığın qarnında Allahı) səslədi.» («Qələm» surəsi, ayə: 48).

Bu şərif ayə Yunus peyğəmbərin başına gəldiyi əhvalata işarə edir. Belə ki, Yunus peyğəmbər öz təbliğatından müsbət nəticə almadıqdan və ilahi əzabın təzahürlərini müşahidə etdikdən sonra öz qövmündən ayrılıb getdi. Bu ayədə Allah-Təala İslam peyğəmbərindən istəyir ki, hətta qövmünün Allah tərəfinə qayıtmasına heç bir ümidi qalmasa belə, onları buraxmasın və öz təbliğatına davam etsin.

Hər bir rəhbər səbirli və dözümlü olmasından əlavə, öz tərəfdarlarını da səbirli olmağa və müqavimət göstərməyə dəvət və tövsiyə etməlidir, daim onlara bildirməlidir ki, həyata keçirdikləri hərəkatın yolu önündə yaranacaq çox böyük və çoxsaylı problemlərə və çətinliklərə qalib gəlməyin əsaslı şərti səbirli olmaq və istiqamət etməkdir. Beləliklə, səbir və dözüm xüsusiyyətini hər bir rəhbər öz tərəfdarlarında da möhkəmlətməlidir. Bu səbəbdən, Qurani-kərimin bir neçə ayəsində möminlər səbirli və dözümlü olmağa çağırılmışlar:

«Ey iman gətirənlər, səbir və namazdan kömək diləyin ki, həqiqətən Allah səbir edənlərlədir.» («Bəqərə» surəsi, ayə: 153)

«Sizi mütləq bir az qorxu və aclıqla, eləcə də mal, can və məhsulların azlığı ilə imtahan edəcəyik. Səbir edənlərə müjdə ver.» («Bəqərə» surəsi, ayə: 155)

«Yoxsa siz (möminlər,) sizdən əvvəl olmuş kəslərin başlarına gələnlər hələ sizin başınıza gəlməmiş Cənnətə daxil olacağınızımı güman edirsiniz?! Onlara maddi və cismani ziyanlar dəydi, sarsıntı və narahatçılıq keçirdilər, o yerə kimi ki, Allahın elçisi və onunla birgə olan möminlər «Allahın köməyi və yardımı nə vaxt yetişəcək?» deyirdilər. «(Dedik:) Bilin, Allahın köməyi həqiqətən yaxındır.» («Bəqərə» surəsi, ayə: 214)

Bu şərif ayədən məlum olur ki, xoşbəxtlik, yalnız müsəlman olmaq və Allah-Təalanın və Onun Peyğəmbərinin asan əmrlərinə və nəhylərinə tabe olmaqla ələ gəlmir. Bu yolda səbirli olmalı və vəzifə yolunda yaranan böyük problemlər və çətinliklər qarşısında dözümlü olmalıyıq. Allahın köməyi və qələbə isə yalnız çətinliklərə dözməkdən və bu yolda səbirli olduqdan sonra yetişir. O da bu şərtlədir ki, möminlər öz dözümlərini əldən verməməlidirlər.

Burada Talut və Calutun da əhvalatını söyləmək faydasız olmazdı. Musa peyğəmbər vəfat etdikdən sonra Bəni-İsrail qövmünün başçıları öz peyğəmbərlərindən birinə dedilər: «Bizə bir sərkərdə təyin et ki, onun fərmanı ilə Allah yolunda vuruşaq.» Peyğəmbər onların cavabında dedi: «Ehtimal vardır ki, müharibə vacib olduqdan sonra vuruşmayasınız!» Onlar cavabında dedilər: «Biz ki, öz şəhərimizdən, evlərimizdən və ailə-uşaqlarımızdan uzaq düşmüşük, nə üçün Allah yolunda vuruşmayaq?» Lakin müharibə təyin olduqdan sonra onların bir neçə nəfəri istisna olmaqla hamısı müharibədən üz döndərdi. Nəhayət, peyğəmbəri onlara xəbər verdi ki, Allah-Təala Talutu sizə sərkərdə təyin etmişdir. Onlar özlərinin

səviyyəsiz mədəniyyətlərinə uyğun olaraq elə güman edirdilər ki, rəhbərliyə təyin olan şəxs var-dövlətli və ictimai baxımdan yüksək məqama malik olmalıdır. Bu səbəbdən etiraz edərək dedilər: «Var dövləti olmayan Talut necə bizə sərkərdəlik edə bilər? Biz sərkərdəliyə ondan daha ləyaqətliyik.» Peyğəmbər cavabında dedi: «Allah-Təala onu sizin üçün sərkərdəlik etməyə seçmiş və ona artıq elm və cismani güc vermişdir. Allah hökmdarlıq və şahlığı istədiyi şəxsə verir.» Talut qoşunla birgə (öz qərargahlarından) ayrılarkən dedi: «Həqiqətən, Allah sizi bir çay ilə imtahan edəcəkdir. Odur ki, kim ondan (doyunca) içsə, məndən deyil və kim ondan içməsə məndəndir, əlinə bir ovuc su götürən istisna olmaqla (ki, o də məndəndir).» Beləliklə, onların az bir hissəsi istisna olmaqla, hamısı ondan içdilər. Talut və onunla birgə iman gətirənlər çaydan keçdikdən sonra bir ovucdan çox su içənlər dedilər: «Bizim bu gün Calut və onun qoşunu ilə qarşılaşmağa taqətimiz yoxdur.» Allaha qovuşacaqlarına inananlar (Axirətə imanları olanlar isə) dedilər: «O qədər az saylı dəstə Allahın köməyi ilə çox saylı dəstəyə qalib gəlib ki! Allah səbirlilərlədir.» Onlar Calut və onun qoşunu ilə vuruşmaq üçün qarşılaşdıqları zaman dedilər: «Ey Rəbbimiz, bizim (qəlblərimizə) səbir və dözüm nazil et, qədəmlərimizi möhkəmləndir və bizə kafir qövm üzərində kömək et. Sonra Allah-Təalanın köməyi və istəyi ilə onlar Calutun qoşununu məğlub etdilər və Talutun qoşunundan olan Davud adlı bir şəxs Calutu öldürdü. (Müraciət edin: «Bəqərə» surəsi, ayə: 246, 251).

Quranın bu əhvalatından nəticə çıxarırıq ki, yalnız dözümlülər və özlərinin rahatlıqlarını təmin etməyə çalışmayan insanlar qələbəyə nail ola bilərlər. Hər bir rəhbər ictimai hərəkatda nailiyyət qazanmaq üçün öz tərəfdarlarını dözümlü, səbirli, dünya malına etinasız və qənaətli şəxs kimi tərbiyə etməlidir.

Hər bir cəmiyyətdə başqalarından daha dözümlü və səbirli olan şəxs rəhbərlik və rəyasət üçün böyük imtiyaza malikdir:

«Səbir etdikləri və ayələrimizə yəqinliklə inandıqları üçün Biz onlardan əmrimizlə (insanlara) haqq yolu göstərən imamlar təyin etdik.» («Səcdə» surəsi, ayə: 24)

**26. İctimai hərəkatda indiyə qədər görülən işləri araşdırmaq və təhlil etmək**

Hər bir rəhbər ictimai hərəkatın cərəyan etdiyi vaxtda vaxtaşırı olaraq həmin müddətdə həyata keçən işləri araşdırsın və onların doğru-düzgün olub-olmamasını müəyyənləşdirsin ki, gələcəkdə səhvlər təkrarlanmasın.

Mülahizə etdiyiniz xüsusiyyətlər həqiqi və ideal rəhbərin ən əsas xüsusiyyətlərinin qısa izahı idi. Göründüyü kimi, bu xüsusiyyətlərdən bəzisi bir-birinə zidd nəzərə çarpırlar. Rəhbərlik vəzifəsinin çox dəqiq zərif və çətin olmasının əsas səbəbi də məhz budur. Yəni rəhbər zahirdə ziddiyyətli görünən xüsusiyyətləri özündə cəmləşdirməli və onların hər birinə öz yerində riayət etməlidir.

# XI FƏSİL

# İdeal cəmiyyət

# Ön söz

Bəşər tarixinin ən qədim zamanlarından indiyə qədər ideal cəmiyyət yaratmaq təsəvvürü və ideyası daim bir çox alimləri və dünyanın yüksək dərəcəli mütəfəkkirlərini özünə məşğul etmişdir. Bu səbəbdən onların hər biri ideal cəmiyyətin yaranması üçün fərqli proqramlar və ideyalar hazırlamışlar. İdeal cəmiyyətin ən qədim memarları arasında Platonun adı daha çox səslənir. O özünün «Respublika» traktatında habelə, «Timaos» və «Kritiyas» traktatlarının bəzi hissələrində ideal dövlət və cəmiyyət ideyasını önə çəkmişdir. Platondan sonra İslam mütəfəkkirləri arasında bir çox alimlər və filosoflar, o cümlədən Farabi özünün «İdeal dövlət nəzəriyyələri» kitabında, habelə Əbülhəsən Amiri özünün «Səadət və səadətləndirmə» kitabında, həmçinin Nizami Gəncəvi «İskəndərnamə» əsərində ideal cəmiyyətin təsviri barədə söhbət açmışlar. Xristian dünyasında da çoxsaylı yazıçılar bu barədə bəzi ideyalar irəli sürmüşlər: Avqustin «Allah şəhəri» kitabında, Tomas Mor «Məkansız» əsərində, tanınmış ingiltərəli alim və filosof Frensiz Bekon (1561-1626) özünün «Yeni Atlantika» kitabında, italiyalı ictimai mütəfəkkir və filosof Tomasso Kompanela (1568-1639) «Günəş şəhəri» kitabında, habelə iyirminci əsrin tanınmış mütəfəkkir filosofu Bertrant Rassel bir insan nəslinin ömrü müddətində insan əqlinin bəşər cəmiyyətini tam dəyişmək ideyasını qəti şəkildə irəli sürərək özünün elmi dünya görüşündə gələcək elmi cəmiyyəti təsvir etmişdir. Həmin cəmiyyətdə istehsal, təlim-tərbiyə, habelə təbliğat sahəsində ən faydalı və yüksək səviyyəli metodlar həyata keçir.

Digər tərəfdən, bir sıra ictimai mütəfəkkirlər ideal cəmiyyət barədə danışmağı və həmin ideyanı irəli sürməyi bir növ xülya adlandırmışlar. Onların fikrincə bu nəinki faydasız, hətta zərərlidir. Çünki belə qaranlıq ideyalar təsəvvür olunduğu kimi gerçəklikdə həyata keçmirlər. Bundan əlavə həmin ideyaya inanan insanların obyektivliyi azalır və onlar belə bir

mühüm məsələdən yayınırlar ki, bütövlükdə heç bir ictimai və sosial əməl gözləndiyi nəticəni dəqiqliklə və tamamilə doğrultmur.

Lakin bilmək lazımdır ki, ideal cəmiyyət ideyası nə zərərli və nə də faydasızdır. Bu şərtlə ki, ideal cəmiyyət ideyası aşağıdakı üç xüsusiyyətə malik olsun:

1. Həmin ideya tamamilə obyektiv olmalıdır. Yəni bioloji, psixoloji, və sosioloji faktları nəzərdən qaçırmamalı və yaddan çıxarmamalıdır.

2. İdeal cəmiyyət ideyası həm də həmin cəmiyyətin necə formalaşmasını göstərməlidir. Yəni burada ideal cəmiyyətin yaranması üçün hansı metodların lazım olduğu tamamilə müəyyənləşməlidir. «Bütün ideal cəmiyyət ideyalarını qeyri-obyektiv və xəyal adlandırmağa əsas verən budur ki, ümumiyyətlə, onların hamısında həmin ideyanı təqdim edən şəxs gələcək həyatı bilavasitə hazırkı həyatın üzərinə qoyur və hazırkı fasiq və ya cahil cəmiyyəti ideal cəmiyyətlə əlaqələndirir. Lakin bununla belə, həmin mütəfəkkir fasiq cəmiyyətin ideal cəmiyyətə çevrilməsinin hansı üsullarla mümkün olmasını bildirmir.

3. İdeal cəmiyyət ideyasını irəli sürən mütəfəkkir həmin cəmiyyətin həyata keçməsi üçün bir sıra son, orta və ibtidai məqsədlər müəyyənləşdirməlidir. Belə ki, mərhələlərdən bəzisinin həyata keçməsinin daha asan olması insanlarda həmin cəmiyyəti formalaşdırmağa maraq yaratsın və onları mövcud şəraiti dəyişdirmək üçün ictimai mübarizəyə yönəltsin. Bundan əlavə, həmin ideyada qeyd olunmalıdır ki, ideal məqsədə çatmamaq heç bir inkişafın əldə olunmaması demək deyil. Bu üç xüsusiyyətə malik olan ideya çox böyük mənafeyə malik olacaqdır. Həmin mənfəətlərin ən əhəmiyyətlisi odur ki, sosial fəaliyyətlərin məqsədini müəyyənləşdirəcəkdir. Hər bir rasional düşüncəyə əsaslanan iş müəyyən bir məqsəd daşımalıdır. Deməli, ağıllı və tədbirli iş görmək üçün ilk öncə həmin işin məqsədini təyin etməliyik. Məhz buna görədir ki, cəmiyyətdə islahat aparmaq üçün hər bir addımdan öncə həmin islahatın son və ülvi məqsədini, habelə orta məqsədlərini təyin etməliyik. Biz, yalnız özümüzün ümumi məqsədlərimizi və ideal cəmiyyətin ümumi layihəsini formalaşdırdıqdan sonra burada son məqsədi həyata keçirtmək üçün ən yaxşı metodları araşdıra və həmin metodlardan ən əlverişlisini seçə bilərik. Öz məqsədimizin dalınca nə qədər şüurlu və ziddiyyətsiz hərəkət etsək və bu yolda istifadə etdiyimiz vasitələr həmin məqsədlə uyğunlaşsa, bir o qədər işimiz tədbirli və nəticəli olacaqdır.

Bunu da qeyd etmək lazımdır ki, ideal cəmiyyət kimi ideyaların həyata keçirilməsi mümkün olmasa da, bu, ən azı mövcud cəmiyyətlərin eyiblərinin bəzisini aşkara çıxarır və onları aradan qaldırmaq üçün insanlarda maraq yaradır. Bundan əlavə mövcud cəmiyyətlərin təhlilində də həmin ideyalar siyasət əhlinə kömək edir və bəzən göstərir ki, cəmiyyətdə digər hakimiyyət sistemləri formalaşarsa bu hansı nəticələrə malik olacaqdır. Hətta ideal cəmiyyət ideyalarının bir çoxunda əsas məqsəd mövcud cəmiyyətləri tənqid etməkdir. İnsanların vəziyyətinin yaxşılaşmasını istəyən və buna maraqlı olan şəxslər də həmin ideyaları təxribat deyil bir növ islahat kimi qələmə verirlər.

İslam hökmləri və təlimlərinə əsasən, ideal cəmiyyət ideyasını təqdim etmək olar. Həmin cəmiyyətin isə öncə söylədiyimiz üç xüsusiyyəti olacaqdır. İslam hökumətinə əsaslanan bu ideya tamamilə obyektivdir, həm də həmin cəmiyyətə necə nail olmağın yollarını izah edir. Qeyd edək ki, təsvir edilən ideal cəmiyyətin bir gün formalaşacağı və həyata keçəcəyi dini və məzhəbi mətnlərimizdə öncədən xəbər verilmişdir. İslama əsaslanan ideal cəmiyyətin ən son və ülvi məqsədi insanların həqiqi kamilliyə çatmasıdır. Bu da, yalnız Allaha sitayiş, ilahi əmrlərə və nəhylərə tamamilə tabe olmaq, Allah-Təalanın razılığını əldə etmək və Onun dərgahına yaxınlaşmaqla həyata keçir. Bilmək lazımdır ki, qeyd etdiyimiz bu məfhumların hamısı müxtəlif və çoxmərhələli məfhumlardır ki, onların hər bir mərhələsi insanların bir hissəsində özünü göstərir. İslamın ideal cəmiyyətində ən azı insanlar Allah-Təala qarşısında açıq-aşkar günah etmirlər. Yəni Allahın hökmlərinin əleyhinə getmək və pis işlər görmək başqalarının gözü qarşısında olmur. Şübhəsiz, bütün səylər buna yönəlməlidir ki, insanlar hətta gizlində də günah etməsinlər. Lakin hər halda ən azı bu məsələ özünü doğruldur ki, onlar aşkar surətdə günah etmirlər.

Bundan sonrakı mərhələlər isə cəmiyyətin təlim-tərbiyə sisteminin nailiyyətindən və insanların özlərinin iradə və istəklərindən asılı olur.

İslam dininə əsaslanan ideal cəmiyyətin tərifində deyə bilərik: Bu cəmiyyətdə yaşayan insanlar İslam dininin hökmlərinə və təlimlərinə uyğun əqidə, əxlaq və əməllərə sahibdirlər, lakin bu tərif bir çox qaranlıq məqamlara malikdir. Habelə, orada daha geniş təfsilatlı ideya irəli sürə bilərik. Lakin həmin ideya bir çox tədqiqatlara əsaslanmalıdır. Bizim isə bu hissədə izah etdiyimiz məqam çox qısa və qaranlıq təriflə çox geniş və təfsilatlı tərifin arasında yerləşən bir tərifdir.

# İslam dininə əsaslanan ideal cəmiyyətin forması

Allah-Təala ideal İslam cəmiyyətinin yer üzündə həyata keçəcəyini vəd etmişdir:

«Allah sizdən (müsəlmanlardan) iman gətirib yaxşı işlər görən kəslərə vəd etmişdir ki, onları mütləq özlərindən qabaq olmuşları canişin etdiyi kimi, yer üzündə Öz canişini və hakim edəcək. Onlar üçün bəyəndiyi dini (İslam dinini) mütləq onlar üçün bərqərar edərək möhkəmləndirəcək və hallarını, şübhəsiz, qorxu və vahimədən sonra əmin-amanlıq və xatircəmliklə əvəz edəcəkdir. Belə ki, yalnız Mənə ibadət etsinlər və heç nəyi Mənə şərik qoşmasınlar. Kim bundan (bu böyük nemətdən) sonra nankorluq etsə, beləlləri doğrudan da itaətsizdirlər.» («Nur» surəsi, ayə: 55)

İdeal müsəlman cəmiyyəti tarix boyu yaranmış və gələcəkdə yaranacaq digər cəmiyyətlərdən fərqləndirən cəhət, yalnız onun ideologiyası və dünyagörüşü sistemidir. Həmin ideal cəmiyyət elə bir cəmiyyətdir ki, onun tərkibində yaşayan insanlar özlərinin həqiqi səadət və kamillik yolunda addımlayır və çalışırlar. Başqa sözlə, həmin cəmiyyət hər bir cəmiyyətin yaranmasından əsas məqsəd olan son məqsədinə nail olmuşdur. Qeyd edək ki, hər bir insan dünya həyatındakı yaşayışı müddətində dörd rabitə növünə malikdir: Allah-Təala ilə rabitə, özü ilə rabitə, təbiət (cansızlar, bitkilər və heyvanlar) ilə rabitə və digər insanlarla rabitə. Bunu nəzərə alaraq, ideal cəmiyyətin xüsusiyyətlərini belə sadalaya bilərik:

1. Hər bir insanın Allah-Təala ilə rabitəsi. İdeal islami cəmiyyətdə hər bir insan aləmi yaradan Allahın varlığına və təkliyinə iman gətirir və fəlsəfi baxımdan Onu bütün digər mövcudatın, o cümlədən insanın ilk səbəbi bilir və özünü həmin ilk səbəbdən yaranan bir varlıq kimi tanıyır. Başqa təbirlə desək, bütün mövcudatın, yəni insanların, o cümlədən özünün Allah-Təala ilə «xaliq məxluq əlaqəsinə» malik olduğunu təsdiqləyir.

Habelə, ideal müsəlman cəmiyyətinin üzvü inanır ki, Allah-Təala vəhy vasitəsilə yəni ayələr göndərməklə insanlarla əlaqə saxlayır və onlar da dua etməklə, habelə namaz qılıb, digər ibadətləri yerinə yetirməklə Allah-Təala ilə əlaqə saxlamalıdırlar.

Habelə, bu şəxs etiraf edir ki, Allah-Təala Rəbbimizdir. O isə Allah-Təalanın bəndəsidir. Allah-Təala hədsiz qüdrətə və şövkətə malikdir. İnsan isə Onunla müqayisədə son dərəcə zəif və acizdir. Deməli, Allah qarşısında özünü aciz sanmalı və Ona tam tabe olmalıdır. İnsan Allah-Təala qarşısında təkəbbürlü olmamalı və özünü müstəqil və ehtiyacsız varlıq kimi hiss etməməlidir.

Bütün bunlardan əlavə, müsəlman ideal cəmiyyətində yaşayan hər bir şəxs təsdiq edir ki, Allah-Təala insanlara yaxşılıq edir, onları Öz rəhmətinə şamil edir və bağışlayır. Lakin bununla yanaşı bəzən onları Öz əzabına, qəzəbinə, ədalət və intiqam bəlasına düçar edir. Bunu nəzərə alaraq insan həm Allah qarşısında şükür etməli, həm də Allahın əzabından çəkinərək təqvalı olmalıdır.

Bütövlükdə deyə bilərik ki, ideal İslam cəmiyyətində hər bir şəxs təkallahlı, mömindir və həqiqətən kafirlikdən uzaqdır. Unutmayaq ki, bütün cəmiyyəti məhvə doğru aparan amil məhz onların Allah qarşısında müşrik və kafir olmasıdır. Allah-Təala Qurani-kərimdə cəmiyyətlərdən bir çoxunun həlakət olmasının əsas səbəbini məhz onların əhalisinin əksəriyyətinin müşrik olması hesab edir:

«(Ya peyğəmbər!) De: «Yer üzündə gəzin-dolanın, beləliklə baxın görün ki, sizdən öncəkilərin aqibəti necə oldu?! Onların əksəriyyəti müşrik idi.»[92]

Habelə Qurani-kərimdə «Şüəra» surəsinin yeddi ayəsində keçmiş insanların bir hissəsinə ilahi əzabın nazil olmasının əsas səbəbi onların əksəriyyətinin kafir və müşrik olması bildirilmişdir:

«Həqiqətən, bunda (bu hekayətdə Allahın tövhidi, qüdrəti, qəzəbi və rəhmətinə dair) bir nişanə (ibrət) vardır. Onların (müşriklərin) əksəriyyəti haqqa iman gətirən deyildilər.»[93]

Bundan əlavə, ideal cəmiyyətin həyata keçəcəyini vəd edən ayədə həmin cəmiyyətin son məqsədi insanların Allah-Təala qarşısında bəndəliyi və şərik qoşmaması bildirilmişdi. Başqa sözlə, ideal İslam cəmiyyətinin ən ümdə xüsusiyyəti tək Allahlıq və müşriklikdən uzaqlaşmaqdır. Bütövlükdə deyə bilərik ki, insanların yaranmasından əsas məqsəd, habelə insanların həyatındakı sosial və fərdi məsələlərin son qayəsi Allahpərəstlik və tək

Allahlıqdır. Yəni insanlar həyatlarında Allah-Təalaya yaxınlaşmağa çalışmalıdırlar. Bu məqsəd daim nəzərə alınmalı və insanların bütün işləri həmin məqsədə doğru tənzimlənməlidir.

2. Hər bir insanın özü ilə rabitəsi. İdeal İslam cəmiyyətində hər bir şəxs bilir ki, onun cismi, bədəni, nəfsi, ruhu və bütövlükdə bütün əldə etdiklərinin hamısı ilahi əmanətdir və onlarla düzgün şəkildə rəftar etməlidir. İnsan öz bədənində və ruhunda özü istədiyi kimi bütün növlərdə təsərrüf edə bilməz. Deməli, o, yalnız Allah-Təalanın icazə verdiyi kimi özü ilə davranmalıdır.

3. İnsanın təbiətlə rabitəsi. İdeal İslam cəmiyyətində hər bir şəxs təbiət qarşısında, yəni cansızlar, bitkilər və heyvanlarla müqayisədə özünü iki mühüm vəzifənin daşıyıcısı hesab edir: Birinci o özünü Allah-Təalanın əmanətçisi bilir, ikincisi isə o özünü Allahın yer üzündə xəlifəsi və canişini hesab edir. Başqa sözlə, həm çalışır ki, təbiətdə olan ilahi nemətləri bacardığı qədər məhv etməsin, digər tərəfdən də mümkün qədər təbii mövcudatın inkişaf etməsinə səy göstərir. Düzdür, təbiət insanın köməyi olmadan da özünə xas olan inkişaf yolunu keçir. Lakin Allah-Təala insanlardan istəmişdir ki, onlar da təbiətin inkişaf etməsində təsir göstərsinlər: Yəni həm təbiəti məhv etməsinlər və istifadə edərkən israfa yol verməsinlər, həm də yer üzündə abadlıq işləri aparsınlar və ilahi nemətlərin daha çox təzahür etməsinə çalışsınlar:

«Sizi (ilk ata və ananızı bilavasitə, onların nəslini isə vasitə ilə) yerdən (torpaqdan) yaradan və sizə orada həyat verən və sizdən oranı abadlaşdırmağınızı istəyən Odur (Allahdır).»[94]

Deməli, ideal müsəlman cəmiyyətində insanlar təbiətlə üzləşərkən həm ədalətli, həm də Allahın canişini rolunu oynayırlar. Onlar bu iki mühüm və əsaslı vəzifənin öhdəsindən layiqincə gəlmək üçün həm bu barədə olan vacib təlimləri və rüknləri öyrənməli, həm də buna aid olan elmləri, fənləri və sənayeni çox dəqiq mənimsəməlidirlər.

4. İnsanın başqa insanlarla rabitəsi. İdeal cəmiyyətdə hər bir şəxs özünün başqaları ilə rabitəsini və əlaqəsini ədalət və yaxşılıq əsasları üzrə tənzimləyir. Yaxşılıq etmək prinsipindən daha əhəmiyyətli olan ədalətin mənası budur ki, hər bir şəxs özünün və başqalarının hüquqlarını və ixtiyar çərçivəsini, habelə cəmiyyətdə olan vəzifələrini daim nəzərdə tutur və əməldə onlara riayət edir. Qeyd edək ki, Allah-Təala cəmiyyətlərin məhv olmasının digər səbəbini cəmiyyətdə cərəyan edən zülmkarlıq bilir:

«De: «Mənə xəbər verin, Allahın əzabı qəflətən, yaxud aşkar halda sizə gəlsə, zalımların dəstəsindən başqasımı həlak olar?!»[95]

Hər bir insanın başqaları ilə rabitəsi sosial institutlar çərçivəsində formalaşdığı üçün ideal cəmiyyətdə sosial institutların mahiyyətini qısa da olsa araşdırırıq:

a) Ailə institutu. İdeal İslam cəmiyyətində ailə institutunu möhkəmləndirmək, gücləndirmək və bu mühüm sosial institutun dağılmasının qarşısını almaq üçün çox səylər həyata keçir. Bundan əlavə, həmin cəmiyyətdə ailə qurmaq çox şərafətli və fəzilətli iş kimi təbliğ edilir, həm də həmin sosial institutun ən yaxşı səviyyədə qurulması üçün çalışılır.

b) İqtisad institutu. İdeal müsəlman cəmiyyətində insanların iqtisadi fəaliyyətini yaxşılaşdırmaq üçün faydalı olan bütün elmlər, fənlər təbliğ olunur və yayılır ki, insanlar özlərinin məişət və iqtisadiyyat vəziyyətlərini düzəltməyi öyrənsinlər.

v) Siyasət və dövlət institutu. İdeal cəmiyyətin idarəetmə sistemində hər bir şəxsin yeri onun elmi, əxlaqı və əməli əsasında tam diqqətlə müəyyənləşir. Başqa sözlə, hər bir şəxsin müqəddəs İslam dininin təlimlərindən, cəmiyyətin və dünyanın mədəni və ictimai və siyasi vəziyyətindən, müxtəlif elm və fənlərdən nə qədər məlumatlı, habelə onun hansı səviyyədə iman, təqva və ədalət şəxsiyyətinə malik olması həmin şəxsin müxtəlif siyasi və ictimai vəzifələrin hansı birində çalışmasını müəyyənləşdirir. Hər bir şəxs sadalanan xüsusiyyətlərdən nə qədər çox bəhrələnərsə, bir o qədər yüksək siyasi və ictimai vəzifəyə təyin ediləcəkdir. Deməli, cəmiyyətin rəhbəri orada yaşayan insanların ən ağıllısı, imanlısı, təqvalısı və ədalətlisidir. Bu əsasla, dövlət və siyasət institutu ən yaxşı formada həyata keçir və formalaşır. Həmin institut istər bilavasitə, istərsə də bir sıra proqramların vasitəsilə digər institutlara böyük təsir bağışladığından, beləliklə digər institutlar da ən yaxşı formada tənzimlənir.

q) Hüquq institutu. Ailə, iqtisadiyyat və dövlət institutu düzgün formalaşmaq üçün hüquq institutuna möhtacdır. İdeal müsəlman cəmiyyətində, ümumiyyətlə İslam dininin təlimlərindən və hökmlərindən, xüsusilə İslamın hüquqi qanunlarından daha çox elm əldə edən, öz cəmiyyətini və digər cəmiyyətlərin mövcud vəziyyətini müxtəlif siyasi, iqtisadi, mədəni və ictimai aspektlərdə yaxşı təhlil edə bilən və bununla yanaşı mömin, təqvalı və ədalətli olan insan özünün düzgün tədbirindən istifadə edərək İslamın hüquqi əsaslarını və qanunlarını əsas götürür və

onları mövcud vəziyyətə tətbiq edir. Beləliklə, tam ədalətli bir hüquqi sistem müəyyənləşir. Həmin hüquq sistemi cəmiyyətdə yaşayan bütün insanların sosial hüquq və təkliflərini və onların arasında yaranacaq ixtilafları və qarşıdurmaları həll edir.

ğ) Təhsil institutu. İndiyə qədər sadaladığımız dörd sosial institutun hamısı təhsil institutu ilə əlaqəlidir. İdeal cəmiyyətdə təhsil institutu hər bir şəxsə Allah-Təala, özü və təbiətlə kəmiyyət və keyfiyyət baxımından necə davranmağını, habelə özünün əqidə, əxlaq və əməl hüdudlarından çıxmamağı öyrətməklə yanaşı, insanların bir-biri ilə ictimai münasibətlərini də onlara öyrədir və elə tərbiyə edir ki, bir-birinin ictimai hüquq və vəzifələrini tanısınlar, hörmətlə yanaşsınlar və əməldə onlara təcavüz etməsinlər.

İdeal müsəlman cəmiyyətində təhsil institutu hər şeydən öncə İslam dininin ideoloji əsaslarını insanların hər birinə öyrədir: İnsanların Allah-Təala ilə əlaqədar bildiklərini (tövhid məsələlərini), insanın cisim və bədəndən əlavə, nəfs və ruha malik olmasını, onun həqiqi gerçəkliyi və şəxsiyyətinin həmin ruha bağlılığı, ruhun əbədiliyi, onun kamilliyə və tərəqqiyə çatmasının, yalnız insanın əməlləri ilə mümkün olmasını öyrədir. Belə ki, insan özünün azad və ixtiyari işlərinin savabını və yaxud əzabını digər bir dünyada görəcəkdir, insanın əqidəsi, əxlaqı və işləri, yalnız Allah-Təalanın vəhy vasitəsilə peyğəmbərlərinə, xüsusilə əziz İslam peyğəmbərinə göndərdiyi təlimlərə və hökmlərə uyğun olduğu vaxt o xoşbəxtliyə və əbədi səadətə çata bilər (nübuvvət və peyğəmbərlik əqidəsi). İnsanın yaranmasında əsas məqsəd budur ki, o özünün ixtiyari əməlləri ilə Allah-Təalanın razılığını əldə etsin, Onun dərgahına yaxınlaşsın və özünün həqiqi kamillik zirvəsinə nail olsun. İnsan bəzən tək yaşadığı, yəni cəmiyyətdən uzaqlaşdığı halda da hansısa kamala yetişə bilər.Llakin bir sıra hallarda onun müəyyən bir kamala yetməsi, yalnız ictimai həyat çərçivəsində mümkün olur və bütövlükdə həmin kamalın mövzusu, yalnız ictimai münasibətlər və əlaqələrdir. İctimai həyatın son məqsədi və qayəsi, habelə cəmiyyətin təşkil olmasının əsas məqsədi də həmin ikinci növə aid olan kamal xüsusiyyətləri əldə etməkdir. Nəhayət təhsil institutunda İslam dininin dəyərlər sistemində hansı işin yaxşı və hansı işin pis olması insanlara öyrədilir. Təhsil institutu insanlara dini və məzhəbi təlimləri lazımı qədər öyrətdikdən və həmin təlimlər barədə suallara cavab verdikdən

sonra onları həmin inanclar əsasında tərbiyə edir və əxlaq, əməl və mənəviyyat sahəsində tərəqqiyə doğru yönəldir.

İnsanlara din və məzhəb barədə lazım olan təlimləri öyrətdikdən və onları həmin tərbiyə əsasında tərbiyə etdikdən sonra (bu iki vəzifə təhsil institutunun ən əhəmiyyətli vəzifəsidir) onlara maddi və iqtisadi ehtiyaclarını ödəmək üçün müxtəlif fənləri, elmləri və sənətləri öyrətmək zəruridir. İslam dini baxımından, bədən ruhun bir vasitəsi olduğu kimi maddəyə, cismə və bədənə aid olan işlər də insanın ruhi və mənəvi kamilliyinə xidmət etməlidir. Bu səbəbdən, insanların maddi və cismani məsələlərinə diqqət yetirmək dəyər baxımından onların mənəviyyatına, ruhuna və əxlaqına diqqətdən aşağıdır. Hərçənd zaman baxımından belə olmaya da bilər. Yəni insanların bəzi maddi və iqtisadi ehtiyacları onların mənəvi və əxlaqi təlim-tərbiyəsindən ön plana keçə bilər. Bu mümkündür.

İdeal İslam cəmiyyətində hər bir şəxs təkcə özünün şəxsi mənafeyinə fikirləşmir və başqalarını özünün ehtiyaclarını və istəklərini ödəmək üçün bir vasitə hesab etmir, əksinə başqa insanlara Allah-Təalanın bəndəsi kimi baxır və çalışır ki, bütün insanlar həqiqi tərəqqiyə ən yaxşı səviyyədə nail olsunlar. Məhz buna görə, o başqaları qarşısında da məsuliyyət hiss edir. Deməli, ideal müsəlman cəmiyyətində istisnasız olaraq bütün şəxslər bir-birinin təlim-tərbiyəsi ilə məşğul olur və onların ictimai münasibətlərinin çox hissəsi, yalnız təlim vermək, başqalarını yaxşı işlərə dəvət etmək, pis işlərdən çəkindirmək, haqqa tərəf yönəltmək və səbirli və dözümlü olmağa tövsiyə etməkdən ibarət olur. Bütün bunları əsas götürərək deyirik: İdeal cəmiyyət agah, mömin, təqvalı və ədalətli insanlardan təşkil tapmışdır. Quran ayəsinin bildirdiyi kimi, onlar iman gətirib saleh əməllə məşğul olan insanlardır. Yəni onlar həm İslam dininin hökmlərinə və təlimlərinə iman gətirmiş, həm bu müqəddəs dinin dəyərlərini istər əxlaqda, istərsə də hüquq zəminində icra edirlər.

İman və saleh əməl şərti ilə formalaşan tövhid əqidəli ideal müsəlman cəmiyyətinin bir sıra düşmənləri və müxalifləri də vardır. Onlar həmin cəmiyyətin tək Allahlıq xüsusiyyətini məhv etməyə çalışırlar. İdeal müsəlman cəmiyyətində yaşayan insanlar beləlparticularly ilə şiddətlə mübarizə aparırlar. Çünki onlar bilirlər ki, bu insanlar onların malına, canına və namusuna təcavüz edənlərdən daha zərərli və təhlükəlidirlər. Çünki insanların malı, canı və namusu, yalnız Allaha sitayiş etmək prinsipinin mövcud olması şərti ilə qorunur. Deməli, insanların imanı və onların

təkallahlıq əqidəsi ilə mübarizə aparan insanlarla müharibə etmək və onların qarşısında cihad etmək ən dəyərli və yüksək cihad növüdür:

«Heç bir fitnə salmayıncaya (şirkin kökü kəsilincəyə) və din (itaət), yalnız Allaha məxsus oluncaya qədər onlarla vuruşun.»[96] İdeal müsəlman cəmiyyəti təkallahlıq ideyasını yüksəltmək, özünü müdafiə etmək, habelə cəmiyyətdə yaşayan insanların malını, canını və namusunu qorumaq üçün hərtərəfli hazırdır: Bu cəmiyyət bir tərəfdən qeyrət, şücaət, fədakarlıq, və Allah yolunda canından keçmək əhval-ruhiyyəsinə malikdir, digər tərəfdən də müharibə və müdafiədə zəruri olan elmlərə, fənlərə sahibdir. Həmçinin, ideal cəmiyyət düşmənlərinin və müxaliflərinin əldə etdikləri bütün silahları öncədən hazırlamışdır: «Allahın düşmənini, öz düşməninizi və onlardan qeyri sizin tanımadığınız və Allahın tanıdığı digər düşmənləri qorxutmaq üçün onların müqabilində bacardığınız qədər qüvvət və bağlanmış və bəslənmiş atlar tədarük görün.»[97]

Bu hərtərəfli hazırlıqla ideal müsəlman cəmiyyəti heç bir təcavüzdən qorxmayacaqdır. Çünki xarici düşmənlərin ona təcavüz etməyə cürətləri çatmayacaqdır. (Vətəndaşlar da bir-birinə qarşı haqsızlıq və bir-birinin hüquqlarına təcavüz etməyəcəklər. Çünki onların əksəriyyəti təqvalı, ədalətlidir. Təqvasız və haqsız olan azlıq isə tam ədalət prinsipinə əsaslanan hakimiyyətdən çəkinərək haqsızlıq etməyəcəkdir. Beləliklə, daxildə tam təhlükəsizlik bərqərar olacaqdır.) Qurani-kərimdə Allah-Təala vəd edir ki, möminləri müdafiə edəcək və haqsızlığa məruz qaldıqları halda ilahi hökmlərə əməl edən şəxslərə mütləq kömək edəcəkdir. Quranda həmin şəxslər barədə oxuyuruq:

«O kəslərə ki, əgər yer üzündə onlara qüdrət (hakimiyyət) və güc versək namaz qılar, zəkat verər, (insanları ağıl və şəriət tərəfindən) bəyənilən bütün işlərə vadar edər və (onları) hər bir nalayiq və çirkin işdən saxlayarlar. Bütün işlərin sonu Allaha məxsusdur.»[98]

Bu ayədən məlum olur ki, həqiqi möminlərin xüsusiyyətləri aşağıdakılardır.

1. Onlar Allah-Təala qarşısında ibadət etməyə və Allahla əlaqələrini möhkəmləndirməyə çalışırlar.

2. Başqalarının maddi, iqtisadi ehtiyaclarını nəzərə alır və onları aradan götürmək üçün çalışırlar.

3. İnsanların əqidədə, əxlaqda və əməldə əyri yollara düşməsindən narahatdırlar və başqalarının işlərinə nəzarət edirlər ki, onlar əyri yollara

çəkilməsinlər. Qeyd edək ki, ideal İslam cəmiyyətində olan digər xüsusiyyətlər də bu üç xüsusiyyətdən qaynaqlanır.

# XII FƏSİL

# Cəmiyyətlərin idarə edilməsində ilahi qanunlar

# Ön söz

Keçən on bir fəsildə bir sıra sosioloji və sosiologiya fəlsəfəsinə aid olan bəhsləri qısa da olsa araşdırdıq. İndi isə Qurani-kərimin bəzi sosioloji qanunlarını «cəmiyyətlərin idarə edilməsində ilahi qanunlar» başlığı ilə araşdırmağa çalışacağıq.

Deyə bilərik ki, «sünnə» sözünün mənalarından biri davamlı üsul, yol və metoddur. Bu söz həmin mənada ərəb dilində və Qurani-kərimdə həm insana aid edilmiş, həm də Allah-Təala barəsində işlənmişdir. Üsuli-fiqh (fiqh elminin əsasları) elmində də həmin mənaya əsasən, məsum şəxsiyyətlərin sözü, işi və təqriri (başqalarının işini təsdiq etməsi) «sünnə» adlanmışdır.

İslam dininin sosioloji qanunlarının «cəmiyyətlərin idarə edilməsində ilahi qanunlar» adlandırılması Qurandan götürülmüşdür. Hərçənd Qurani-kərim «sünnə» sözünü kafir, müşrik, zülmkar, fasiq cəmiyyətlərə və qövmlərə əzab nazil olması barədə işlədir, lakin ilahi təlimlərin və işlərin heç birinin əbəs və hesab-kitabsız olmadığını və onların hamısının Allahın hikmət sifətindən qaynaqlandığını nəzərə alaraq deyə bilərik ki, ilahi sünnə termini daha ümumi məna daşıya bilər. Yəni burada «sünnə» sözü Allahın işlərində mövcud olan qanunlar, yaxud Allah-Təalanın kainatı və insanları idarə edərkən həyata keçirdiyi metodlar və üslublar mənasını daşıya bilər.

Öncə bildirdiyimiz kimi, Qurani-kərimdə «sünnə» sözü həm Allah-Təalaya, həm də insanlara nisbət verilir. Bu şərif kitabda bir tərəfdən sünnə barədə aşağıdakı təbirlərlə üzləşirik: «Sünnətullah» (Allahın sünnəsi və qanunu), «sünnətuna» (Bizim sünnəmiz), digər tərəfdən isə Quranda digər təbirlər də mövcuddur. O cümlədən sünnətul-əvvəlin (keçmişdə yaşayanların sünnəsi)», sünnətu mən qəd ərsəlna qəbləkə min rusulina (səndən öncəki ilahi peyğəmbərlərin sünnəsi) və «sunənəlləzinə min qəblikum» (sizdən öncə yaşayan insanların sünnəsi).

Qeyd edək ki, bu məsələ onu bildirmir ki, sünnə iki qismə bölünür. Yəni həqiqətdə, yalnız bir sünnə mövcuddur. Həmin vahid sünnə həm Allah-Təalaya, həm də insanlara istinad edilə bilər.

Bundan əlavə, ilahi sünnədən danışarkən məqsəd o deyil ki, filan iş bilavasitə Allah-Təaladan sadir olunmuşdur. Yəni burada bir çox təbii və adi, habelə fövqəltəbii və qeybi vasitələr mövcud olduğu halda, eyni halda həmin iş Allaha da istinad edilə bilər. Allah-Təala bizim ilahi baxışlarımızı və görüşlərimizi möhkəmləndirmək və gücləndirmək məqsədi ilə Qurani-kərimdə təbii prosesləri, maddi hadisələri və işləri Özünə nisbət vermişdir. Bununla da insanla bağlı bütün hadisələr və işlər (istər fərdi, istərsə də ictimai işlər) Allah-Təalaya nisbət verilir və bu vasitə ilə Allah-Təala bizim tövhid əqidəmizi möhkəmləndirir. Misal üçün, bir qövmün dağılmasını və məhv olunmasını digər qövm vasitəsilə həyata keçsə də Özünə nisbət verir. İstər hücum edən və qalib olan insanlar haqq əhli olsun, istərsə də batil əhli. Bu baxımdandır ki, biz ictimai qanunları bəşər cəmiyyətlərində tədbir və idarəçilik məsələlərindəki ilahi qanunlar adlandırırıq.

Bütövlükdə, ilk baxışda ilahi qanunları iki qismə bölmək olar. Onlardan biri insanların əbədi həyatına və onların başqa dünyada görəcəkləri savab və yaxud əzaba aid olan Axirət sünnələrdir. Burada qeyd etmək lazımdır ki, sosiologiya insanların maddi həyatdakı ictimai rəftarını və onların nəticələrini araşdırdıqda, təbii ki, bu sünnələr barədə araşdırma aparmır. Sünnələrin digər növü isə insanların dünya həyatına aid olur. Dünya həyatında mövcud olan sünnələr də öz növbəsində iki qismə bölünür. Onlardan bəzisi insanların fərdi rəftarlarına aiddir (bu baxımdan sosiologiya bəhslərinə aid olmur), digəri isə insanların fərdi rəftarlarına deyil, onların ictimai, yaxud fərdi-ictimai rəftarlarını əhatə edən sünnələrdir. Biz, yalnız dünyəvi sünnələrin bu qismini araşdıracağıq.

# 1. Dəyişməz sünnələr

İslam dini baxımından, insanın yaranışında məqsəd odur ki, o ixtiyari işləri ilə öz kamillik zirvəsinə çatsın. Bu baxımdan, insanın ən ülvi məqsədi Allah-Təalaya yaxınlaşmaqdır. Orta məqsədi isə Allah-Təala qarşısında bəndəlik etmək və ibadət edərək Onun razılığını əldə etməkdir. Allah-Təala insanları həmin məqsədlərinə yaxınlaşdırmaq və bu yolda onlara müəyyən vasitələr təqdim etmək məqsədi ilə bir sıra dəyişməz sünnələrə malikdir ki, onlardan ən əsası iki sünnədir: Peyğəmbərlər vasitəsilə insanları doğru yola hidayət etmək və insanları yoxlamaq, müxtəlif vasitələrlə imtahana çəkmək.

1. Peyğəmbərlərin vasitəsilə hidayət etmək sünnəsi. Hidayət sünnəsi çox ümumi bir məna daşıyır. Lakin bunun sosial aspekti yoxdur. Hidayət sünnəsinin bu ümumi mənası bütün varlığın və kainatın hamısının tədbirinə və idarə olunmasına aiddir. Yəni Allah-Təala kainatda və varlıq aləmində olan bütün mövcudatı hidayət etmişdir:

«Dedi: Bizim Rəbbimiz hər bir şeyə onun məxsus yaradılışını əta edən, sonra (ona) doğru yol göstərəndir.»[99]

Habelə, hidayət sünnəsinin məhdud bir mənası da vardır ki, o da ictimai cəhətə malik deyildir. Yəni hidayət sünnəsinin həmin məhdud mənası da, yalnız fərdi məna daşıyır. Həmin mənaya əsasən, Allah-Təala insanların hər birinə əql vermişdir ki, onun vasitəsilə müəyyən qədər həqiqətləri dərk etsin və yaxşını pisdən ayırsın.

«Və ona (insana) iki aydın yolu (xeyir və şər yolunu) göstərdik»[100]

Qeyd edək ki, hazırkı bəhsimizdə, yəni peyğəmbərlərin vasitəsilə insanların hidayət olunması sünnəsi bəhsində yuxarıda qeyd olunan iki mənanın heç biri əsas götürülmür. Burada, yalnız sosial aspektə malik olan hidayət, yəni insanların peyğəmbərlər vasitəsilə ictimai həyatda hidayət olunması nəzərdə tutulur.

Nə üçün insanların peyğəmbərlər vasitəsilə hidayət olunmasını sosial və ictimai sünnə adlandırırıq? Çünki Qurani-kərimin, habelə məsumların

hədislərinin və həmçinin tarixi sübutların bildirdiyinə görə, peyğəmbərlər fərdlərə deyil, cəmiyyətlərə göndərilmişdir. Başqa sözlə desək, peyğəmbərlərdən hər biri müəyyən bir cəmiyyəti hidayət etmək üçün seçilmiş və göndərilmişdir. Yəni onların Allah tərəfindən göndərilməsində məqsəd istər kiçik, istərsə də böyük cəmiyyətləri hidayət etməkdir. Deməli, burada cəmiyyətlərdə yaşayan fərdlərin hər birinin hidayət olunması yeganə məqsəd olmamışdır.

Deyilə bilər ki, cəmiyyətin hidayət olunması onun fərdlərinin və üzvlərinin hidayət olunması ilə müyəssərdir. Yəni biz, yalnız cəmiyyətdə yaşayan fərdlərin hamısının hidayət olunmasından sonra həmin cəmiyyətin hidayət olunmasını vurğulayırıq. Bu söz düz olsaydı, biz qəbul etməliydik ki, heç bir peyğəmbər heç bir cəmiyyəti hidayət etməyə müvəffəq olmamışdır, çünki hər bir cəmiyyətdə hər bir zaman cəmiyyətin üzvlərindən bir hissəsi bir sıra səbəblərə görə, ya bütövlükdə öz peyğəmbərlərinin sözlərini və dəvətini eşitməkdən məhrum olurdular ya da onu təhrif olunmuş şəkildə eşidirdilər. Buna görə də ilahi hidayətdən məhrum qalırdılar. Həqiqətdə «peyğəmbərlərin vasitəsilə insanların hidayət olunması sünnəsi» o deməkdir ki, Allah-Təala hər bir ümmət üçün bir peyğəmbər seçmiş və onu həmin cəmiyyətin insanlarını (adi üsullarla) mümkün olan qədər Allah yoluna hidayət etməyə göndərmişdir. Bu vaxt həmin ümmətin və cəmiyyətin üzvlərindən bəzisi hər hansı bir səbəbə görə öz peyğəmbərlərinin hidayətindən faydasız qalsalar da, bütövlükdə həmin ümmətin və cəmiyyətin hidayət olunması vurğulanır. Peyğəmbərlərin vasitəsilə hidayət olunma sünnəsini fərdi xarakterli adlandırsaq, bu o deməkdir ki, biz hər bir cəmiyyətdə yaşayan bütün insanların ilahi peyğəmbərlər vasitəsilə hidayət olunmasını vurğulayırıq. Bu isə əsassız müddəadır.

Sözügedən sünnənin qeydsiz-şərtsiz habelə ibtidai adlanması isə ona görədir ki, peyğəmbərlərin göndərilməsi insanların rəftarlarının və ya əməllərinin nəticəsi deyildir, çünki hətta ilk yaranan insan, yəni Adəm peyğəmbərin özü peyğəmbər idi.

Qurani-kərimdən məlum olur ki, hər ümmətin və cəmiyyətin peyğəmbəri olub:

«Hər bir ümmət üçün bir peyğəmbər vardır.»[101]

«Əlbəttə, Biz hər bir ümmətin içərisindən bir peyğəmbər seçdik ki: «Allaha ibadət edin və (şeytan və insan) tağutlarından uzaq olun.»[102]

«Elə bir ümmət olmamışdır ki, onların içindən qorxudan bir (peyğəmbər, yaxud onun məsum vəsisi və ya saleh bir alim) gəlib-getməmiş olsun.»[103]

Lakin bizə tamamilə aydın deyil ki, Quranda qeyd olunan ümmət yəni heç bir zaman peyğəmbərsiz olmayan ümmətlərin əsas meyarı nədir? Başqa sözlə, «hər bir ümmətin peyğəmbəri olmuşdur» cümləsindən bu nəticəyə gəlmək olmaz ki, hər bir dəstə və ya insan toplusunun, şübhəsiz, peyğəmbəri olmuşdur. Çünki Quran terminologiyasında ümmət kənd, şəhər, əyalət, ölkə, qitə və bu kimi mənaları dəqiq ifadə etmir. Deməli, Quran iddia etmir ki, hər bir insan toplumuna bir peyğəmbər göndərilmişdir. Çünki, «Furqan» surəsinin 51-ci ayəsində Allah-Təala buyurur:

«Əgər istəsəydik, hər bir cəmiyyətə bir qorxudan (peyğəmbər) göndərərdik).»

Hər halda, peyğəmbərlərin vasitəsilə insanların hidayət olma sünnəsinin mənası budur ki, hər bir nisbətən böyük insan toplumunda və yaxud başqa sözlə desək, hər bir mərkəz xarakteri daşıyan topluma bir peyğəmbər göndərmişik:

«Sənin Rəbbin mərkəzlərinə Bizim ayə və nişanələrimizi oxuyan bir peyğəmbər göndərmədən, əsla şəhərləri və kəndləri məhv etməmişdir.»[104]

Yəni ilahi qəzəbə düçar olan cəmiyyətlər və ya kəndlərin hər birində deyil, təkcə onların mərkəzlərində peyğəmbərlər olmuşdur.

Cəmiyyətlərin idarə olunmasında qeyd-şərtsiz ilahi sünnələrdən digəri budur ki, Allah-Təala peyğəmbərləri seçib göndərməklə yanaşı, insanları da bir sıra çətinliyə mübtəla edir ki, onlarda peyğəmbərlərin haqq dəvətini qəbul etmək üçün şərait və zəmin yaransın. Qeyd edək ki, bu sünnə öncəki sünnənin, yəni peyğəmbərlərin vasitəsilə insanların hidayət olunma sünnəsinin şaxələrindən ola bilər: Bu sünnə barədə Quranda oxuyuruq:

«Şübhəsiz, Biz səndən əvvəlki ümmətlərə (də peyğəmbərlər) göndərdik. Beləliklə, onları yoxsulluq və kasıblığa, xəstəlik və cismani əziyyətlərə düçar etdik ki, bəlkə boyun əyələr və yalvarıb-yaxaralar.»[105]

«Biz peyğəmbər göndərdiyimiz hər bir şəhər və kəndin əhalisini xəstəlik, çətinlik və yoxsulluğa düçar etdik ki, bəlkə (Bizim dərgahımıza) yalvarıb-yaxarsınlar.»[106]

2. İnsanların imtahana çəkilməsi sünnəsi. Həm ictimai xarakter daşıyan, həm də fərdi məsələlərdə cərəyan edən bu sünnənin həyata keçməsi üçün insanlar bir sıra seçim qarşısında olmalıdırlar. İnsanların imtahana çəkilməsi üçün mövcud olan vasitələr bəzən onların xoşuna gəlir, bəzən isə onları

bəyənmirlər. Başqa sözlə desək insanların imtahan edilməsinin gerçəkləşməsi üçün mütləq həm onların xoşuna gələn, həm də onların xoşuna gəlməyən vasitələr mövcud olmalıdır. İnsanlar xoşladıqları, şeylərin bəzisindən çəkinməli bəzisinin önündə səbir etməlidirlər ki, onların imtahana çəkilməsi gerçəkləşsin. Deməli, dünya həyatında həm rifah, həm də çətinliklər dəyişməz bir qanundur və bütün bunlar ilahi tədbirdə öncədən nəzərdə tutulmuşdur. Bunu bilmək lazımdır ki, dünyada bütün insanların rifahda yaşaması əslində qanun deyil. Yəni biz dəyişməz bir qanun olaraq bütün insanların əslində rifahda yaşamasını, lakin sonra bəzi problemlər səbəbindən çətinliyə düşməsini vurğulaya bilmərik. Həmçinin insanların hamısının dərdli və əzablı həyat yolu keçəcəyinə və bəzilərinin bir sıra səbəblər üzündən rifahlı həyat yaşamasına qərar verə bilmərik. Yəni burada birmənalı danışmaq tam yanlışdır.

İnsanların imtahana çəkilməsi sünnəsi haqda mövcud olan ayələrdən bəzisi aşağıdakılardır:

«Bəqərə» surəsinin 155-ci ayəsində oxuyuruq:

«Sizi mütləq bir az qorxu və aclıqla, eləcə də mal, can və məhsulların azlığı ilə imtahan edəcəyik. Səbir edənlərə müjdə ver.»

«Bəqərə» surəsinin 214-cü ayəsi isə belədir:

«Yoxsa siz (möminlər) sizdən əvvəl köçmüş kəslərin başlarına gələnlər hələ başınıza gəlməmiş Cənnətə daxil olacağınızımı güman edirsiniz?! Onlara maddi və cismani ziyanlar dəydi, sarsıntı və narahatçılıq keçirdilər, o yerə kimi ki, Allahın elçisi və onunla birgə olan möminlər «Allahın köməyi və yardımı nə vaxt yetişəcək?» deyirdilər. (Dedik:)» Bilin, Allahın köməyi, həqiqətən, yaxındır.»

«Ali-İmran» surəsinin 140-144-cü ayələrində Allah-Təala buyurur:

«Əgər sizə yara və zərər-ziyan dəydisə o biri dəstəyə onun kimi yara və zərər ziyan dəydi. Biz bu günləri iman gətirənləri Allahın üzə çıxartması, həmçinin sizin aranızda şahidlər götürmək üçün insanların arasında növbə ilə dolandırırıq. Allah zalımları sevmir. Və həmçinin iman gətirənləri xalis etmək və saflaşdırmaq, kafirləri tədriclə məhv etmək üçün! Yoxsa Allah aranızdan cihad edənləri və səbirliləri məlum etməmiş (üzə çıxarmamış və Onun əzəli elmi xaricdə gerçəkləşməmiş) Cənnətə daxil olacağınızımı güman edirsiniz?!»

«Ali-İmran» surəsinin 186-cı ayəsində bildirilir: «Mallarınız və canlarınız barədə mütləq imtahan ediləcəksiniz.»

«Ənfal» surəsinin 28-ci ayəsi isə bildirir:

«Bilin ki, mallarınız və övladlarınız imtahan vasitəsidir və həqiqətən böyük mükafat məhz Allahın yanındadır.»

«Tövbə» surəsinin 16-cı ayəsində oxuyuruq:

«Yoxsa sizlərdən cihad edənləri və Allahdan, Onun peyğəmbərindən və möminlərdən başqasını özlərinə dost etməyənləri Allahın hələ aydınlaşdırıb üzə çıxartmadığı halda (onlar haqqında olan əzəli elmi gerçəkləşməmiş özbaşınıza) buraxılacağınızımı zənn edirsiniz? Allah əməllərinizdən xəbərdardır.»

«Yusuf» surəsinin 109-110-cu ayələrində də imtahan sünnəsi barədə oxuyuruq:

«Və səndən öncə (bəşər cəmiyyətinin hidayəti üçün mələkləri, qadınları və səhrada yaşayanları deyil), yalnız şəhər və kənd əhalisindən olub vəhy nazil etdiyimiz kişiləri göndərmişik. Məgər onlar özlərindən əvvəl olmuş kimsələrin aqibətlərinin necə olmasını görmək üçün yer üzündə seyr etməyiblər?! Əlbəttə, Axirət evi təqvalılar üçün daha yaxşıdır. Heç düşünmürsünüz?! (Bizim peyğəmbərlərimiz dəvət, qövmlər isə inkar etdilər və) nəhayət peyğəmbərlərimiz naümid olan və (qövmlər) onlara yalan deyilməsini güman edən zaman birdən köməyimiz onlara yetişdi. Beləliklə, istədiyimiz kəslər xilas edildilər. (Əlbəttə), Bizim əzabımız günahkar qövmdən sovuşdurulmur.»

«Ənbiya» surəsinin 35-ci ayəsi də bu barədədir:

«Sizi pislik və yaxşılıq (xəstəlik və sağlamlıq, yoxsulluq və sərvət) ilə imtahan edirik və bizə tərəf qaytarılacaqsınız.»

Ənkəbut surəsinin ikinci və üçüncü ayəsində isə oxuyuruq:

«Məgər insanlar «iman gətirdik» demələri ilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?! Şübhəsiz, (Biz) onlardan əvvəlkiləri (Öz cari sünnəmizə uyğun olaraq, onların qarşısına vəzifələr qoyaraq) imtahan etmişdik. Beləliklə, Allahın əzəli elmi düz danışanlar barəsində də, yalançılar barəsində də həyata keçər. Və düz danışanların doğruluğu və yalançıların yalanı aşkar olunar.»

«Təğabun» surəsinin 15-ci ayəsində isə bildirilir:

«Həqiqətən, mal-dövlətiniz və övladlarınız (dünya zinəti olduqlarına və başınızı qatdıqlarına görə sizin üçün) ancaq bir imtahan vasitəsidir. Ən böyük mükafat Allah yanındadır.»

Bütün bu ayələri araşdırdıqdan sonra bir neçə nəticəyə gəlirik:

Birinci: Allahın imtahan sünnəsi həm fərdi məsələlərdə, həm də həyatın sosial sahələrində cərəyan edir.

İkinci: Heç bir fərd və ya cəmiyyət imtahan olunmaqdan boyun qaçıra bilməz.

Üçüncü: İnsanların imtahana çəkilməsi üçün mövcud olan vasitələr bunlardır: «xeyirli işlər»: mal, can, və övlad kimi, «pis işlər»: malın, canın və məhsulların azalması, habelə yoxsulluq, çətinlik, aclıq və qorxu kimi. Deməli, belə yaxşı və pis vasitələr az-çox həyatda mövcud olmalıdır.

Dördüncü: Möminlər imtahana çəkilərkən mücahidlər, səbirlilər və sədaqətlilər tanınır və yalandan özlərini imanlı, səbirli və sədaqətli təqdim edən, habelə özlərini Allah yolunda cihad edən şəxs kimi tanıtdıran insanlar məlum olurlar.

Burada cəmiyyətlərin idarə olunmasında Allah-Təalanın iki qeyd-şərtsiz sünnəsinə işarə etmək yerinə düşərdi. Qeyd edək ki, bu iki sünnə də imtahan sünnəsinin şaxələrindən hesab olunur. Onlardan biri budur ki, Allah-Təala insanların az-çox maddi və dünyəvi nemətlər barədə çətinliyə düşməsini istəmişdir. Çünki insanların hamısı tam rifahda yaşasaydılar və onların həyatı tamamilə asudə olsaydı, bəzən qürurlanar və Allah-Təala qarşısında üsyan edərdilər. Həyatda bəzən problemlərlə üzləşmək həm insanları qəflət yuxusundan ayıldır və həm də başqalarının ibrət almasına şərait yaradır. Həmçinin, həmin şəxs başqalarının da imtahana çəkilməsi üçün zəmin yaradır.

«Əgər Allah Öz bəndələrinin ruzisini bol etsəydi, şübhəsiz, yer üzündə zülm və tüğyan edərdilər. Lakin O, istədiyini qədər və ölçü ilə nazil edir. Çünki O, bəndələrdən xəbərdar və görəndir.»[107]

Burada qeyd olunası digər sünnə isə (bunu müstəqil bir sünnə də hesab etmək olar) budur ki, Allah-Təala insanları bir-birindən fərqli yaratmışdır. Yəni insanlar Allah-Təala tərəfindən bir sıra təbii fərqlərə malikdirlər. Yaddan çıxarmayaq ki, insanın hətta öz ixtiyarında olan işləri də tamamilə Allah-Təalanın qəza-qədərinə və tədbirinə bağlıdır. Başqa təbirlə desək, Allah-Təalanın müəyyən bir işə tam nəzarəti həmin işin insan tərəfindən azad şəkildə görülməsinə zidd deyil. Deməli, insanların ixtiyarında olan işlərdən yaranan fərqlər də Allah-Təalanın iradəsinə bağlıdır və bunun yaranma səbəbi isə yalnız insanın imtahana çəkilməsidir. Hərçənd həmin işin bir imtahan vasitəsi olması o işi həyata keçirən insanların ixtiyar sahibi olmasına zidd deyil:

«Əgər Allah istəsəydi, şübhəsiz, sizin hamınızı bir ümmət edərdi. Lakin sizi, sizə verdiyi şeylə imtahan etmək istədi.»[108]

«Sizi, sizə verdiyi şey barəsində imtahan etmək üçün yer üzündə Öz canişinləri, yaxud keçənlərin canişinləri edən və bəzinizi bəzinizdən (maddi və mənəvi baxımdan) dərəcələrlə üstün edən Odur.»[109]

«Onların bəzilərini bəzilərindən bir neçə dərəcə üstün etmişik ki, bəziləri bəzilərini xidmətə götürsünlər.»[110]

# 2. Qeyd-şərtli sünnələr

İlahi peyğəmbərlər Allah-Təalanın vəhyini, dəvətini insanlara çatdırdıqdan və mümkün qədər onları doğru yola hidayət etmək üçün çalışdıqdan, habelə insanların imtahana çəkilməsi üçün şərait yaratdıqdan sonra, xalq, camaat və insanlar öz ixtiyarlarına əsasən ya haqq və xeyirli yolu, ya da batil və şər yolunu seçirlər. İnsanların ilahi təlimlər və hökmlər qarşısında yaxşı, ya pis mövqe seçmələri onların bir sıra ilahi sünnələrdən üz çevirməsinə səbəb olur. Həmin sünnələr insanların rəftarlarına bağlı olduğundan, başqa təbirlə desək, yalnız onların işindən asılı olduğundan «qeyd-şərtli sünnələr» adlana bilərlər.

İnsanların işlərindən sonra Allah-Təalanın emal etdiyi ən ümumi sünnə imdad və kömək sünnəsidir. Yəni Allah-Təala həm maddi və dünyəvi sahədə çalışan, batil və şər yolunda addımlayan şəxslərə, həm də Axirət üçün çalışan və mənəvi zirvələrə ucalmağa səy edənlərə kömək edir. Deməli, hər iki dəstədə çalışan insanların öz məqsədlərinə çatmaq üçün Allah-Təala vasitə yaradır.

Nə üçün biz Allah-Təalanın bütün insanlara, istər haqq əhli, istərsə də batil əhlinə imdad etməsini və kömək göstərməsini qeyd-şərtli sünnələrdən adlandırdıq? Bunun əsas səbəbi odur ki, həmin sünnələr insanların əməllərindən sonra həyata keçir. Yəni əvvəlcə onlar dünya və ya Axirət dalınca getməyi seçirlər, öz yollarında çalışırlar sonra isə ilahi köməklər onlara çatır. Keçən iki sünnə isə belə deyildi. Yəni peyğəmbərlərin vasitəsilə insanların hidayət olunması və imtahan sünnəsi insanların əməllərindən sonra həyata keçmirdi. İnsanlar istəsəydilər də, istəməsəydilər də, peyğəmbərlər onlara Allahın ayələrini oxuyur və düzgün yola dəvət edirdilər. Habelə, onlar Allah tərəfindən imtahana çəkilirdilər.

Quranda imdad sünnəsini bildirən ayələrin bəzisi aşağıdakılardır:

«İsra» surəsinin 18, 19, 20-ci ayələri:

«Kim, yalnız bu ötəri (dünyanı) istəsə, Biz dünyada istədiyimiz şeyi istədiyimiz şəxsə verməkdə tələsər, sonra onun üçün Cəhənnəmi müəyyənləşdirərik ki, orada məzəmmət olunmuş və qovulmuş halda yanar. Və kim Axirəti istəsə və mömin olan halda Axirət üçün ona layiq tərzdə çalışsa, onda belə şəxslərin səyləri qəbul ediləcək və mükafatlandırılacaqdır. Bunların və onların (Axirət və dünya istəyənlərin) hər birinə Rəbbinin əta etdiyindən kömək yetirərik. Və sənin Rəbbinin ətası (bəxşişi) əsla (bir kəsə) qadağan olunmamışdır.»

«Şura» surəsinin 20-ci ayəsi:

«Kim Axirət əkini istəsə (Axirət məhsulu üçün əməl toxumu əksə) onun əkinini artırarıq və kim dünya əkini istəsə ondan ona verərik və həmin şəxsin Axirətdə daha bir payı olmayacaqdır.»

«Hud» surəsinin 15-ci və 16-cı ayələri:

«Biz (dini qəbul etməyib) dünya həyatını və onun zinət və bəzəyini istəyənlərin əməllərini dünyada kamil surətdə onlara verərik və dünyada onlardan əsla bir şey kəsilməz. Onlar o kəslərdir ki, Axirətdə onlar üçün ondan başqa bir şey (pay) yoxdur. Onların yerinə yetirdikləri orada puç və təsirsiz olacaqdır və etdikləri əməllər boşa çıxacaqdır.»

Bu şərif ayələrdə mühüm məqamlardan biri odur ki, həmin ayələrə əsasən, Allahın dünya dalınca olan insanlara köməyi bəzi hüdudlar çərçivəsində həyata keçir. («İstədiyimiz qədər», «istədiyimiz şəxsə», və «dünya malından bir hissə» təbirlərinə diqqət yetirin.) Halbuki, Axirət istəyənlərə ilahi köməklər tam sonsuz və hədsizdir. («Onların səyləri yerinə yetiriləcəkdir» və «onun əkinini artıracağıq» kimi təbirlərə diqqət yetirin.) Bunun əsas səbəbi odur ki, dünya əhlinin meylləri və istəkləri bəzən bir-birinə ziddir və onların hamısının yerinə yetirilməsi nə mümkün, nə də ilahi məsləhətə və hikmətə uyğundur. Lakin Axirət əhlinin istəkləri bir-biri ilə ziddiyyət daşımır və onların hamısı bütün istəklərinə çata bilər. Bu şərtlə ki, onlar daha çox ilahi mərifət qazanmağa, daha pak niyyətə malik olmağa və daha yaxşı əməl və iş görməyə çalışsınlar.

İlahi imdad sünnəsindən sonra Quranda digər sünnələrlə də rastlaşırıq ki, onlardan bəzisi haqq əhlinə bəzisi isə yalnız batil yolun yolçularına aiddir:

### 1. Yalnız haqq əhlinə aid olan qeydli-şərtli sünnələr

Haqq əhli peyğəmbərlər tərəfindən olan ilahi hidayəti qəbul edir. Onun vasitəsilə hidayət olunur, iman gətirir və düzgün işlər görürlər. Habelə, onlar ilahi peyğəmbərlərə və Allah tərəfindən təyin olunmuş hakimlərə tam itaət edirlər. Bütün bunlar Allahın hidayət neməti qarşısında şükür etməyin növləridir ki, Allah-Təala Öz bəndələrinə təqdim etmişdir. Deməli, haqq əhli ilahi hidayət nemətinin şükrünü bacardığı qədər yerinə yetirir. Quranda bu barədə oxuyuruq:

«Əgər şükür etsəniz, sizə mütləq (nemətləri) artıraram.»[111]

Bir cəhətdən demək olar ki, haqq əhlinə aid olan ilahi sünnələrin hamısı Allahın nemətlərinin çoxalmasının göstəricisidir. Bu sünnələri dörd adla ünvanlandıra bilərik:

Mənəvi və Axirət nemətlərinin çoxalması; imanın zinətləndirilməsi; maddi və dünyəvi nemətlərin çoxalması və düşmənlərə qələbə çalmaq.

a) Mənəvi və Axirət nemətlərinin çoxalması:

«Allah doğru yola yönəldilmiş kəslərin hidayətini artırır.»[112]

«(Allah) Doğru yolda olanların hidayətlərini (daha da) artırıb və onlara vəziyyətlərinə münasib pəhrizkarlıq (ruhu) bəxş edib.»[113]

«Ey iman gətirənlər, əgər Allahdan qorxsanız, O sizə (haqla batili bir-birindən) ayırd edən bir qüvvə verər, sizin (kiçik) günahlarınızı təmizləyər və sizi bağışlayar.»[114]

«Şübhəsiz, iman gətirib yaxşı işlər görən kəsləri Rəbbi imanlarına görə hidayət edər.»[115]

«Və kim Allaha iman gətirsə, Allah onun qəlbini yönəldər (hidayət edər).»[116]

b) İmanı qiymətləndirmək:

«Lakin Allah imanı sizə sevdirdi, onu qəlblərinizdə cilvələndirdi və küfr, itaətsizlik və günahı nəzərinizdə nifrətə layiq etdi.»[117]

v) Maddi və dünyəvi nemətlərin çoxalması:

«Əgər onlar (həqiqi) Tövrata və İncilə və Rəbləri tərəfindən onlara nazil olana əməl etsəydilər, şübhəsiz, başlarının üstündən və ayaqlarının altından ruzi yeyərdilər.»[118]

«Əgər şəhər və kəndlərin əhalisi iman gətirsəydilər və təqvalı olsaydılar, şübhəsiz, göydən və yerdən onların üzünə bərəkətlər açardıq.»[119]

«(Mənim dəvətim bundan ibarətdir) ki: Allahdan başqasına ibadət etməyəsiniz. Həqiqətən mən Onun tərəfindən sizin üçün bir qorxudan və müjdə verənəm. Və öz Rəbbinizdən bağışlanmaq istəyəsiniz, sonra (tövbə

edərək) Ona tərəf qayıdasınız ki, sizi müəyyən müddətədək gözəl bəhrələrindən bəhrələndirsin və hər bir fəzilət sahibinə öz dəyərini əta etsin. Və əgər üz döndərsəniz, şübhəsiz, mən sizin üçün böyük günün əzabından qorxuram.»[120]

«(Nuh) Dedi: Ey mənim qövmüm, şübhəsiz, mən sizin üçün açıq-aşkar bir qorxudan (peyğəmbərəm). (Göndərilmişəm ki,) Allaha ibadət edəsiniz, Ondan qorxasınız və mənə itaət edəsiniz. (Belə edin ki,) O da günahlarınızdan keçsin və sizə müəyyən bir müddətədək möhlət versin. Həqiqətən, Allah tərəfindən əcəl yetişdiyi zaman əsla təxirə salınmaz. Kaş bunu biləydiniz!»[121]

«Öz Rəbbinizdən bağışlanmaq diləyin, O çox bağışlayandır. Beləliklə, göydən sizə bol yağış göndərsin və sizə mal-dövlət və oğullarla yardım etsin, sizin üçün bağlar yaratsın və çaylar axıtsın.»[122]

«(Mənə vəhy olundu ki,) Şübhəsiz, əgər (ins və cin) yolda (əqidə və əməlin düz yolunda) sabitqədəm olsalar, mütləq onları bol su (maddi və mənəvi bərəkətlər) ilə sirab edərik.»[123]

q) Düşmənlərə qalib gəlmək. Quranda haqq əhlinin batil yolda olanlar qalib gələcəyini bildirən ayələri yeddi hissəyə bölmək olar:

– Haqqın batil üzərində qalib gələcəyini vurğulayan ayələr. Bu qələbə iki mənaya əsaslana bilər: Onlardan biri haqqın elm yolunda batil üzərində qələbəsi, digəri isə haqqın döyüş meydanında batilə qalib gəlməsi. Bu iki mənanın hər ikisi düzdür. Yəni bir çox sübutlara görə bu şərif ayələrdə hər iki məna nəzərdə tutulmuşdur:

«Allah Öz kəlmələri ilə haqqı bərqərar edərək möhkəmləndirmək və kafirlərin kök və nəslini kəsmək istəyir. Belə ki, günahkarların xoşuna gəlməsə belə, haqqı bərqərar və batili məhv etsin.»[124]

«Haqq gəldi və batil məhv oldu, həqiqətən batil həmişə məhvə məhkumdur.»[125]

«Əksinə, Biz haqqın vasitəsilə batilin başına vurarıq, onun beyninə çatar. Beləliklə, batil birdən məhv olar.»[126]

«De: Şübhəsiz, mənim Rəbbim haqqı təlqin edir. O, qeybləri kamil şəkildə biləndir. De ki: haqq (İslam dini) gəldi. Batil (şirk və bütpərəstlik) təsirini itirdi, çünki (onlar) nə (öz işlərindən və dünya işlərindən) bir şeyə başlayar və nə də bir şeyi yeniləşdirər.»[127]

«Allah Özünün kəlmələri vasitəsilə batili məhv edir və haqqı gerçəkləşdirir. Həqiqətən, O, ürəklərdə olanları bilir.»[128]

– Allah-Təalanın Öz peyğəmbərlərinə, habelə Ona itaət edənlərə kömək etməsini və onlara qələbə bağışlamasını bildirən ayələr:

«Şübhəsiz, Allah firqəsi (dəstəsi) qalibdir.»[129]

«Sonra (bəla nazil olan zaman) elçilərimizə və iman gətirənlərə nicat verərik. Möminlərə bu cür, öhdəmizə götürdüyümüz kimi nicat veririk.»[130]

«Allah şübhəsiz, Ona (Onun dininə) yardım edənə yardım edəcəkdir.»[131]

«Möminlərə daim kömək etmək Bizim öhdəmizdə olan bir haqdır və vacibdir.»[132]

«Şübhəsiz, göndərilmiş bəndələrimiz barəsində bizim qəti hökmümüz keçmişdir. Belə ki, şübhəsiz, yardım edilənlər onlardır və əlbəttə, qalib Bizim qoşunumuzdur.»[133]

«Həqiqətən, Biz Öz peyğəmbərlərimizə və (onlara) iman gətirənlərə dünya həyatında və şahidlərin ayağa qalxdıqları gündə (qiyamətdə mükafat və cəzanın icrası istiqamətində) kömək edərik.»[134]

«Ey iman gətirənlər, əgər Allaha (Onun peyğəmbərinə, dininə və kitabına) yardım etsəniz, Allah da sizə yardım edər və qədəmlərinizi möhkəmləndirər.»[135]

«Allah yazmış və qərara almışdır ki, «Mən və peyğəmbərlərim qalib gələcəyik.» Şübhəsiz, Allah qüvvətli, qüdrətli və məğlubedilməzdir.»[136]

– Allah-Təalanın Öz peyğəmbərlərinə və möminlərə yardım göstərməsindən bir neçə nümunə təqdim edən ayələr:

«Nə çox peyğəmbərlər ki, onlarla birlikdə çoxlu ilahi şəxsiyyətlər vuruşmuşlar. Beləliklə, onlar Allah yolunda düçar olduqları şey müqabilində süstləşərək zəifləmədilər və əyilərək təslim olmadılar. Allah səbirliləri sevir. Onların dedikləri söz, yalnız bu idi ki: «Ey Rəbbimiz, bizim günahlarımızı və işimizdəki israfçılığımızı bağışla, qədəmlərimizi möhkəmləndir və bizə kafir dəstəyə qarşı kömək et. Beləliklə, Allah onlara bu dünyanın mükafatını və Axirətin gözəl mükafatını əta etdi. Allah yaxşılıq edənləri sevir.»[137]

«Musa öz qövmünə dedi: Allahdan kömək diləyin və səbir edin. Şübhəsiz, yer üzü Allaha məxsusdur. (yerin yaradılışı, qorunması və sakinlərinin idarə olunması Onun istək və iradəsi ilə həyata keçir.) İstədiyini onun varisi edir. (Gözəl) Aqibət pəhrizkarlarındır.» ; « Və həmişə zəif və az hesab edilən dəstəni o torpaqların çox xeyir-bərəkətli etdiyimiz şərq və qərblərinin varisi etdik. Rəbbinin İsrail övladlarına olan gözəl sözü onların

səbirlərinin mükafatı olaraq tamamilə gerçəkləşdi, Fironun və onun qövmünün tikdiklərini və çardağa qaladıqlarını viran və məhv etdik.»[138]

Bu barədə, habelə Quranın aşağıdakı ayələrinə müraciət edə bilərsiniz: «Əraf» surəsi, ayə: 64, 72, 78, 79, 83, 84, 91-93, 165; «Yunus» surəsi, ayə: 73; «Hud» surəsi, ayə: 58, 66, 94; «Yusuf» surəsi, ayə: 110; «Ənbiya» surəsi, ayə: 9, 71, 74, 75, 88; «Şüəra» surəsi, ayə: 65, 119, 170, 171; «Nəml» surəsi, ayə: 53, 57; «Ənkəbut» surəsi, ayə: 15, 24, 32; «Saffat» surəsi, ayə: 76, 114-116, 134, 135; «Fussilət» surəsi, ayə: 18; «Qəmər» surəsi, ayə: 34.

«Həqiqətən, Allah sizə Bədrdə (döyüş) gücsüz və pənahsız olduğunuz halda kömək etdi. Buna görə də Allahdan qorxun ki, bəlkə şükür edəsiniz.»[139]

«O zaman (Bədr müharibəsi meydanında) Rəbbinizdən kömək istəyirdiniz. Beləliklə, (Allah) sizin duanızı qəbul etdi ki: Mən mütləq sizə arxaları ilə minləri gətirən min mələklə kömək edəcəyəm.»[140]

«Həqiqətən, Allah sizə bir çox yerlərdə, həmçinin «Hüneyn» günü kömək etdi.»[141]

«Möminləri imanlarının üstünə iman artırmaq üçün onların qəlblərinə xatircəmlik və rahatlıq nazil edən Odur. Göylərin və yerin orduları Allaha məxsusdur. Allah həmişə biləndir və hikmət sahibidir.»[142]

«Nəticədə (Allah-Təala) onlara (ürək) rahatlığı və xatircəmlik nazil etdi və onlara yaxın qələbəni mükafat verdi. Həmçinin, götürəcəkləri çoxlu qənimətləri (mükafat verdi). Allah həmişə yenilməz qüdrət və hikmət sahibidir.»[143]

«(Yada sal) O zamanı ki, kafirlər öz qəlblərində cahiliyyət qəzəb və təəssübü yerləşdirdilər. Onda Allah Öz peyğəmbərinə və möminlərə xatircəmlik və qəlb rahatlığı nazil etdi və təqva kəlməsini onlara qoşdu. Və onlar ona və onun əhlinə daha layiq idilər. Allah həmişə hər şeyi biləndir.»[144]

«Ey iman gətirənlər, qoşunlar sizə üz tutduqları zaman Allahın sizə olan nemətini yada salın! Biz onların üzərinə külək və sizin görmədiyiniz qoşunlar göndərdik. Hər zaman Allah etdiklərinizi görəndir. O zaman (şəhərinizin) yuxarı və aşağı tərəfindən sizə üz tutmuşdular. O zaman gözlər əyilmiş və ürəklər ağıza gəlmişdi və (siz) Allah (barəsində) nalayiq gümanlara düşmüşdünüz. (Məhz) O zaman möminlər imtahan edilmiş və möhkəm sarsılmış, iztiraba düçar olmuşdular.»[145]

«(Allah-Təala) Qəlblərinə (kafirlərin qəlblərində) qorxu saldı.»[146]

– Haqq əhlinə dünya və Axirət xeyir-bərəkətini vəd edən ayələr:

«Mallarınız və canlarınız barədə mütləq imtahan ediləcəksiniz və mütləq sizdən əvvəl (səmavi) kitab verilmiş şəxslərdən və həmçinin müşriklərdən çoxlu cansıxıcı sözlər eşidəcəksiniz. Əgər səbir və təqvaya yiyələnsəniz, bu (dözümlülük) həqiqətən, böyük və əhəmiyyətli işlərdəndir.»[147]

«Və zülmə məruz qaldıqdan sonra Allah yolunda hicrət etmiş kəsləri, şübhəsiz, dünyada gözəl bir yerdə yerləşdirəcəyik. Və əlbəttə, əgər bilsələr Axirət mükafatı daha böyükdür. Həmin o kəslər ki, səbir etdilər və həmişə özlərinin Rəbbinə təvəkkül edirlər.»[148]

«Şübhəsiz, (səmimi qəlbdən), «bizim Rəbbimiz Allahdır» deyən, sonra (əməldə) möhkəm duran kəslərə mələklər nazil olarlar (və deyərlər): «Əsla qorxmayın və qəmgin olmayın, vəd olunmuş Cənnətlə müjdə olsun sizə! Biz dünya və Axirətdə sizin dost və yoldaşlarınızıq. Burada nəfsiniz nə çəksə və hər nə istəsəniz, hazırdır.»[149]

«Allaha və Onun peyğəmbərinə itaət edin, bəlkə rəhm olunasınız.»[150]

«Ey iman gətirənlər, Allaha itaət edin, Onun peyğəmbərinə və (peyğəmbərin məsum canişinləri olan) öz əmr sahiblərinizə tabe olun, beləliklə, əgər bir şey barəsində mübahisəniz olsa, Allaha və Axirət gününə imanınız varsa, onu Allaha və Onun peyğəmbərinə həvalə edin, bu daha xeyirli və nəticə baxımından daha gözəldir.»[151]

– Haqq əhlinin bu dünyada qalib gələcəyini vəd edən ayələr:

«Heç vaxt süstləşməyin və kədərlənməyin ki, əgər mömin olsanız, siz üstünsünüz.»[152]

«Həqiqətən, Allah iman gətirmiş kəsləri müdafiə edir. Əlbəttə, Allah heç bir nankor xəyanətkarı sevmir. Məcburi müharibəyə məruz qalanlara cihad və döyüş icazəsi verildi. Çünki onlara zülm olunmuşdur. Allah onlara kömək etməyə, əlbəttə, tam qadirdir. O kəslərə ki, öz evlərindən haqsız yerə (heç bir günahları olmadan), yalnız «Bizim rəbbimiz tək olan Allahdır» dediklərinə görə çıxarılmışlar. Əgər Allah insanların bəzisini bəzisi ilə dəf etməsəydi, əlbəttə, rahiblərin monastırları, xaçpərəstlərin kilsələri, yəhudilərin məbədləri və müsəlmanların Allahın adı çox zikr edilən məscidləri viran olardı. Allah, şübhəsiz, ona yardım edənə yardım edəcəkdir. Həqiqətən, Allah qüvvətli və yenilməzdir. O kəslərə ki, əgər yer üzündə onlara qüdrət (hakimiyyət) və güc versək, namaz qılar, zəkat verər,

bəyənilən bütün işlərə vadar edər və (onları) hər bir nalayiq və çirkin işdən saxlayarlar. Bütün işlərin sonu Allaha məxsusdur.»[153]

«Allah sizdən (müsəlmanlardan) iman gətirib yaxşı işlər görən kəslərə vəd etmişdir ki, onları mütləq özlərindən qabaq olmuşları canişin etdiyi kimi yer üzündə canişin və hakim edəcək, onlar üçün bəyəndiyi dini (İslam dinini) mütləq onlar üçün bərqərar edərək möhkəmləndirəcək və onların halını şübhəsiz, qorxu və vahimədən sonra əmin-amanlıq və xatircəmliklə əvəz edəcəkdir. Belə ki, yalnız Mənə ibadət etsinlər və heç nəyi Mənə şərik qoşmasınlar. Kim bundan sonra nankorluq etsə, beləlləri doğrudan da itaətsizdirlər. Namaz qılın, zəkat verin və bu peyğəmbərə itaət edin ki, bəlkə rəhm olundunuz.»[154]

«Biz istədik ki, o yerdə zəif salınmışlara mərhəmət göstərək və onları imam, varis edək. Və onlar üçün o torpaqda qüdrət və hakimiyyət vasitələri hazırlayaq.»[155]

– Allah-Təalanın haqq dininin yəni İslam dininin cahanşümul və digər dinlərin hamısına qalib olmasını bildirən ayələr:

«Onlar sözləri ilə Allah nurunu (Onun dinini və kitabını) söndürmək istəyirlər, halbuki, Allah kafirlərə xoş gəlməsə də belə, Öz nurunu kamilləşdirmək istəyir. Öz peyğəmbərini müşriklərə xoş gəlməsə də belə hidayət və haqq din ilə bütün dinlərə qalib etmək üçün göndərən Odur.»[156]

– Haqq əhlini yer üzünün varisləri hesab edən ayələr:

«Musa öz qövmünə dedi: Allahdan kömək diləyin və səbir edin. Şübhəsiz, yer üzü Allaha məxsusdur, istədiyini onun varisi edir. (Gözəl) Aqibət pəhrizkarlarındır.»[157]

«Həqiqətən Biz zikrdən (Musanın Tövratından) sonra Zəburda (Davudun müqəddəs kitabı) yazdıq və qərara aldıq ki, bu yerin varisi Mənim saleh bəndələrim olacaqlar.»[158]

## 2. Batil əhlinə aid olan qeyd-şərtli sünnələr

Bu sünnələri aşağıdakı adlarda ünvanlaya bilərik:

Zəlalətin çoxalması, əməllərin zinətləndirilməsi, "istidrac" sünnəsi, möhlət verilmə, düşmənlər qarşısında məğlub olmaq, çətinliklərə və əzablara düçar olmaq, günahkarların cəmiyyətdə çoxalması, "istisal" sünnəsi. Biz ilk öncə bu sünnələrin hər birinə, sonra isə onların bəzisinin bəzisi ilə toqquşması barədə olan bir məqama işarə edəcəyik:

– Zəlalətin çoxalması. Haqq əhlinə mənəvi və Axirət nemətləri istiqamətində, habelə düz yola hidayət olunma yolunda kömək edildiyi kimi, batil əhli də özlərinin zəlalət yolunda imdad alırlar:

«Sonra isə çirkin işlər görənlərin aqibəti Allahın ayələrini təkzib və onlara istehza etmək oldu.»[159] Yəni günahkarlar günah və haqsızlıq etmək nəticəsində Allahın hidayət nurunu itirdilər və Onun ayələrini təkzib etməyə və kafir olmağa başladılar.

«Onlar (haqdan) üz döndərdikdə, Allah da onların dönük qəlblərini dönüklükdə buraxdı və Allah fasiq qövmü doğru yola yönəltməz.»[160]

– Əməllərin zinətləndirilməsi. İnsanlara Allah tərəfindən ilahi dəvət gəldikdən və batil əhli öz ixtiyarları ilə əyri yolu seçdikdən sonra şeytan onlara vəsvəsə etməyə başlayır və işlərini onlar üçün zinətləndirir. Lakin burada bir məqama diqqət yetirmək lazımdır, şeytanın yaranışı və onun işləri sonda Allah-Təalaya istinad edildiyindən və ilahi qəza-qədər çərçivəsində həyata keçdiyindən, bəzi Quran ayələrində şeytanın bu işi (insanların işlərini onların gözündə zinətləndirməsi) Allah-Təalaya nisbət verilmişdir:

«Dedi: Ey Rəbbim, məni (Öz dərgahından uzaqlaşdırmaqla) azğınlığa atdığına görə, mən də yer üzündə (bütün pislikləri) onlar (insanlar) üçün zinətləndirəcək və hamısını azdıracağam. Sənin (rəhmətini şamil etməklə) onların arasından seçdiyin bəndələrin istisna olmaqla.»[161]

«Şeytan etdiklərini bəzəyərək onlara gözəl göstərdi.»[162]

«Və (xatırla) o zamanı ki, şeytan onların gözlərində (batil) əməllərini zinətləndirdi.»[163]

«Və beləcə şərikləri (müşriklərin Allaha şərik qoşduqları bütlər və cinlər) müşriklərin çoxuna övladlarını öldürməyi də zinətləndirdi.»[164]

«Biz (küfr və inadkarlıqlarına görə dünyada) onlar üçün (şeytan və cinlərdən) dost və yoldaşlar təyin etdik. Onlar (həmin şeytan və cinlər) bunlara indiki və gələcək nəfsi istəklərini gözəl göstərdi.»[165]

«Biz hər bir ümmət üçün əməllərini beləcə zinətləndirdik.»[166]

«Həqiqətən, Axirət gününə iman gətirməyənlərin (çirkin və batil) əməllərini nəzərlərində zinətləndirdik. Buna görə də onlar daim dərbədər bir vəziyyətdədirlər.»[167]

«Dünya həyatı kafirlərin gözündə zinətlənmişdir və onlar möminlərə istehza edirlər. Halbuki, təqvalılar qiyamət günü onlardan üstündürlər.»[168]

«Kafirlərin etdikləri əməllər, onlar üçün beləcə zinətlənmişdir.»[169]

«Onlar (kafirlər) üçün gördükləri pis işlər zinətlənmişdir.[170]

«İsraf edənlərə etdikləri əməllər beləcə zinətləndirilmişdir.»[171]

«Küfr edən kəslər üçün onların məkr və hiylələri zinətləndirilib və onlar (haqq) yoldan saxlanılaraq məhrum ediliblər. Allahın azğınlıqda boşladığı kəsə əsla yol göstərən olmayacaqdır.»[172]

«Pis əməlləri onun üçün zinətlənmiş olan və onları gözəl görən bir kəs (həqiqəti görən mömin kimidirmi?)»[173]

«Belə isə məgər (işləri) öz Rəbbi tərəfindən dəlil-sübut (təməli) üzərində olan kəslər (möminlər kimi ağıl və şəriətə əsaslananlar) pis əməlləri özlərinə gözəl göstərilən və öz nəfsi istəklərinə tabe olan kəslər kimidirlərmi?!»[174]

– İstidrac sünnəsi. Zəlalətin artırılması və batil yolda olan insanlara imdad edilməsi sünnəsinin bir növü sayıla bilən bu sünnənin mənası odur ki, Allah-Təala batil yolda olan insanların maddi və dünyəvi nemətlərini artırır ki, onlar məğrurlaşsınlar və öz yollarında daha da möhkəmlənsinlər. Habelə, öz küfrlərini və günahlarını artıraraq Allah-Təalanın daha böyük və çətin əzabına layiq olsunlar:

«Küfr edən kəslər onlara verdiyimiz möhlətin öz xeyirlərinə olmasını güman etməsinlər. Əslində Biz onlara möhlət veririk ki, onlar günahı artırsınlar. Onlar üçün alçaldıcı bir əzab vardır.»[175]

«Beləliklə, elə ki, yadlarına salınmış şeyi unutdular, (imtahanın sona çatması və nəzərdə tutulan şeylərin tədricən həyata keçirilməsi məqsədi ilə dünya nemətlərindən) hər şeyin qapılarını onların üzlərinə açdıq. Onlara verilən şeyə xoşhal olaraq ürək bağladıqları zaman, (günahlarının cəzası olaraq) onları qəflətən yaxaladıq, birdəfəlik aciz və naümid oldular. Beləliklə, zülm etmiş dəstənin kökü və nəsli kəsildi. Həmd və şükür aləmin və aləmdəkilərin Rəbbi olan tək Allaha məxsusdur.»[176]

«Sonra o pislik və çətinliyin yerinə yaxşılıq və xoşluq gətirdik, nəhayət (mal və övlad baxımından) artdılar və (yenə də ayılmayaraq) «bizim atalarımıza da narahatlıq və rahatlıq üz vermişdi» dedilər. Belə olduqda, özləri də bilmədən, qəflətən onları yaxaladıq.»[177]

«Bizim ayələrimizi təkzib edənləri tezliklə tədricən bilmədikləri yerdən yaxalayacağıq. Onlara möhlət verirəm. Həqiqətən Mənim məkr və tədbirlərim möhkəmdir.»[178]

«Beləliklə, küfr edən kəslərə möhlət verdim, sonra onları yaxaladım. Buna görə də Mənim əzabım (bax gör) necə olmuşdur?!»[179]

«Belə isə, bu kəlamı (Quranı) təkzib edənləri Mənim öhdəmə burax ki, tezliklə onları özləri də bilmədikləri yerdən, tədriclə (əbədi əzaba və bədbəxtçiliyə tərəf) yaxınlaşdıracağıq. Və Mən onlara möhlət verirəm və həqiqətən, Mənim məkrim və tədbirim möhkəm və sabitdir.»[180]

– Möhlət vermə sünnəsi. Bu sünnənin mənası odur ki, Allah-Təala bir sıra bizim bilmədiyimiz məsləhətləri nəzərə alaraq batil yolda çalışan insanları cəzalandırmaqda tələsmir, onlara bir müddət möhlət verir ki, bəlkə onların hamısı və yaxud bəzisi peşman olaraq tövbə etsinlər və Allah yoluna qayıtsınlar, ya onların nəslindən haqtələb mömin və saleh insanlar yaransın:

«Əgər Allah insanları zülmlərinə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin onlara müəyyən müddətədək möhlət verir. Beləliklə, müddətləri başa çatdıqda nə bir saat gecikər, nə də bir saat qabağa keçə bilərlər.»[181]

«İnsanların öz əlləri ilə etdikləri (böyük günahlar) üzündən suda və quruda fəsad (zəlzələ, tufan, qıtlıq, xəstəlik, müharibə, qətl, əmniyyətsizlik) aşkar olub. Bununla (Allah) onlara etdiklərinin bəzisini daddırır ki, bəlkə Allaha tərəf qayıtsınlar.»[182]

«Və əgər Allah insanları etdikləri (günahlara) görə cəzalandırsaydı, yer üzündə heç bir canlını (diri) qoymazdı. Lakin (Allah əzəli elmində təyin edilmiş "lövhi-məhfuz"da sabit olan) müəyyən bir müddətədək təxirə salır. Əcəlləri yetişdikdə Allah bəndələri görəndir (və hər kəslə əməlinə uyğun rəftar edəcəkdir).»[183]

«Sizə yetişən müsibətlər özünüzün qazandığınız günahlara görədir və O (hələ) onların çoxundan keçir.»[184]

– Düşmənlər qarşısında məğlub olmaq.

«Biz İsrail övladlarına (Tövrat) kitablarında qəti hökm verdik və elan etdik ki: Şübhəsiz, siz yer üzündə iki dəfə fəsad törədəcək və böyük bir itaətsizliyə mürtəkib olacaqsınız. Beləliklə, o iki itaətsizliyin birincisinin (cəzasının) vəd edilmiş vaxtı çatanda, Özümüzün çox döyüşkən olan bəzi bəndələrimizi sizin üzərinizə göndərərik. Beləliklə, onlar (sizi öldürmək üçün hətta) evlərin içini axtararlar (ki, heç kimi diri qoymasınlar). Bu baş verəcək qəti bir vəddir. Sonra onlar üzərində qələbə və hakimiyyəti yenidən sizə qaytarar, sizə mallar və oğullarla kömək edər və sizi say baxımından çox edərik. Əgər yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmisiniz və əgər pislik etsəniz özünüzə aiddir. Digər (itaətsizliyin cəzasının) vəd edilmiş vaxtı çatanda üzlərinizi (məğlubiyyətin və əzabın şiddətindən) qəmli və qara

etmək, birinci dəfə daxil olduqları kimi, məsçidə daxil olmaq və əllərinə keçəni məhv etmək üçün (üzərinizə düşmənlər göndərərik). (İkinci məğlubiyyətdən sonra əgər tövbə edib haqqa üz tutsanız) ümid var ki, Rəbbiniz sizə rəhm etsin (və dövlət və müstəqilliyinizi yenidən qaytarsın) və əgər (fəsada) qayıtsanız, Biz də (cəza verməyə) qayıdarıq. Biz Cəhənnəmi kafirlər üçün dar bir zindan etmişik.»[185]

«Əgər küfr edənlər sizinlə vuruşsalar mütləq sizə arxa çevirər (və məğlub olar), sonra bir başçı və yardım edən tapmazlar. (Peyğəmbərlərin bu qələbəsi yazısı) Əvvəlcədən (lövhi-məhfuzda, baş verməsi isə ümmətlərdə) keçmiş ilahi bir qanundur və sən Allahın qanununda əsla bir dəyişiklik tapmazsan.»[186]

«İsrail övladlarından bir dəstə iman gətirdi və bir dəstə kafir oldu. Biz də iman gətirənlərə düşmənləri üzərində kömək etdik, beləliklə də onlar qalib gəldilər.»[187]

Burada bir məsələni xatırlatmaq lazımdır. «Fəth» surəsinin 4-7-ci ayələrində bildirilir ki, göylərin və yerin qoşunları Allaha məxsusdur, habelə «Müddəssir» surəsinin 31-ci ayəsində oxuyuruq: «Rəbbinin qoşunlarını Onun Özündən başqa heç kəs bilmir». Bu iki ayəni nəzərə alaraq deyirik ki, Allah-Təala batil yolda olanların düşmənlər qarşısında məğlub olması üçün müxtəlif vasitələr qərar vermişdir. Batil yolda olan insanlarla müharibə edənlərin özləri ya batil, ya da haqq əhlidirlər. Qurani-kərim bildirir ki, Allah-Təala cihad edən möminlərə bir neçə vasitə ilə imdad edir.

Bəzən daxili köməklər göstərir. Yəni kafirlərin və müşriklərin qəlblərində qorxu yaradır. Bəzi vaxtlar isə möminlərin qəlblərinə rahatlıq bəxş edir və düşmən qoşununun sayını onların gözündə az göstərir. Bəzi vaxtlar isə burada təbii və xarici amillər kömək rolunu oynayır. Misal üçün, külək əsir, yağış yağır və yaxud bir sıra fövqəltəbii köməklər göstərilir, mələklər və görünməyən qoşunlar möminlərin köməyinə gəlir. Bu imdad yolları, habelə bizim bilmədiyimiz digər üsulların hamısı Allah-Təala üçün eyni səviyyədədir. Onların hər birinin seçimi isə Allahın dərin hikmətinə bağlıdır.

– Bəzi çətinliklərə düçar olmaq. Allah-Təala batil yolda olanları bir sıra müsibətlərə və çətinliklərə düçar edir ki, bəlkə onlar ayılsınlar və tövbə etsinlər:

«Küfr edən kəslərə daim etdiklərinin cəzası olaraq əzici bir müsibət yetişər, yaxud onların evlərinin yaxınlığında nazil olar ki, Allahın (son) vədəsi yetişsin. Həqiqətən Allah vədəyə xilaf çıxmaz.[188]

«Pis əməl, məkr (hiylə), yalnız öz əhlini bürüyər. Məgər onlar keçmişdəkilər barədə (ilahi) sünnədən başqa bir şeymi gözləyirlər? Sən Allahın sünnəsində (qoyduğu qayda-qanunda) heç bir dəyişiklik tapmazsan.»[189]

Qeyd edək ki, insanları ədəbləndirmək və onları yuxudan ayıltmaq məqsədi ilə yaranan bu müsibətlər bəzən başqa insanlar vasitəsilə həyata keçir. Misal üçün, haqq əhli və yaxud batil əhlindən bir dəstə batil yolda olan başqa bir dəstə ilə müharibə və onları çox ağır çətinliklərə mübtəla edir. Bəzən isə həmin müsibətlər və çətinliklər təbii və qeyri insani amillərin vasitəsilə yaranır. Misal üçün, zəlzələ baş verir, sel gəlir, qıtlıq yaranır və bu kimi hadisələr.

– Günahkarların cəmiyyətdə çoxalması. Əgər tənbeh xarakterini daşıyan çətinliklərin və müsibətlərin heç biri təsir bağışlamır və insanlar onlardan sonra tövbə edib Allah dərgahına qayıtmırlarsa, bu vaxt batil əhli tamamilə məhv olmağa layiq olurlar. Bu ümumi həlak olmanın müqəddiməsi isə cəmiyyətdə günahkarların çoxalması və fəsadın tamamilə rəvac tapmasıdır:

«Beləcə, Biz hər bir toplumda (onların küfr və günah üzündən haqdan üz döndərmələrinin cəzası olaraq) günahkar camaatın başçılarını hiylə-kələk işlədən (və peyğəmbərlərin dəvətlərinə iman gətirmələrinə mane olan) etdik. Lakin onlar, yalnız özlərinə hiylə-kələk işlədirlər və dərk etmirlər»; «Tezliklə günah etmiş kəslərə işlətdikləri hiylənin cəzası olaraq Allahın yanında zillət, xarlıq və şiddətli əzab yetişəcəkdir.»[190]

«Biz hər hansı bir cəmiyyəti (azğınlıqlarına görə) həlak etmək istəyəndə, onların böyüklərinə və əyyaşlarına (qiyamətdə bəhanə gətirmələrinə yer qoymamaq üçün bir daha Allaha itaət etmələrini) əmr edərik (yaxud onların dünyadakı imkanlarını artırarıq). Belə olduqda, onlar həmin mühitdə Allaha qarşı itaətsizlik edərlər. Beləliklə, Bizim qəti və əzəli hökmümüz onların barəsində gerçəkləşər və onları şiddətlə həlak edərik.»[191]

– Həlak etmə sünnəsi. Əgər batil yolda olan insanlar öz yollarından əl çəkməyərək küfrlərinə israr etsələr və Allahın hikməti onlara bundan artıq möhlət verməyi və cəzalarını təxirə salmağı məsləhət görməsə, bu vaxt onların bütövlükdə məhv olmasına və həlak edilməsi sünnəsinə növbə çatır.

Bu sünnə Allah-Təalanın qəti və dəyişməz sünnələrindən biridir ki, haqq əhlinin son qələbəsinin bir nişanəsi hesab edilir.

Bir çox Quran ayələrində Allah-Təala insanlardan istəyir ki, yer üzündə gəzib-dolansınlar, yaxşı nəzarət edib fikirləşsinlər və görsünlər ki, batil yolda olan insanların aqibəti necə olmuşdur, o cümlədən, bu barədə aşağıdakı ayələrə müraciət edə bilərsiniz:

«Ali-İmran» surəsi, ayə: 137; «Ənam» surəsi, ayə: 11; «Əraf» surəsi, ayə: 84, 86, 103, «Yunus» surəsi, ayə: 39, 73; «Yusuf» surəsi, ayə: 109; «Nəhl» surəsi, ayə: 36; «Nəml» surəsi, ayə: 14, 51, 52, 69; «Qəsəs» surəsi, ayə: 40; «Rum» surəsi, ayə: 9, 42; «Fatir» surəsi, ayə: 44; «Saffat» surəsi, ayə: 73, «Qafir» surəsi, ayə: 21, 82; «Zuxruf» surəsi, ayə: 25; «Muhəmməd» surəsi, ayə: 10

Habelə, bir çox digər şərif ayələrdə bildirilir ki, keçmişdə yaşayan zülmkar və günahkar qövmlər və cəmiyyətlər tamamilə məhv edilmişlər, bu haqda isə aşağıdakı ayələrə müraciət edə bilərsiniz:

«Ənam» surəsi, ayə: 6; «Əraf» surəsi, ayə: 4; «Ənfal» surəsi, ayə: 54; «Yunus» surəsi, ayə: 13; «İsra» surəsi, ayə: 17; «Kəhf» surəsi, ayə: 59; «Məryəm» surəsi, ayə: 74, 98; «Taha» surəsi, ayə: 128; «Ənbiya» surəsi, ayə: 6, 9; «Həcc» surəsi, ayə: 45; «Qəsəs» surəsi, ayə: 58; «Səcdə» surəsi, ayə: 26; «Yasin» surəsi, ayə: 31; «Sad» surəsi, ayə: 3; «Zuxruf» surəsi, ayə: 8; «Əhqaf» surəsi, ayə: 27; «Muhəmməd» surəsi, ayə: 13; «Qaf» surəsi, ayə: 36; «Qəmər» surəsi, ayə: 51.

Quranın bir çox ayələrində keçmiş qövmlərin hər birinin həlak edilmə əzabına düçar olması ayrı-ayrılıqda qeyd edilmişdir: Nuh qövmü, Hud qövmü, Saleh qövmü, Lut qövmü, Şüeyb qövmü, Fironun tərəfdarları, Səbt səhabələri, Rəss səhabələri, Qəryə səhabələri, Tubbə qövmü, Fil səhabələri və s. Qeyd edək ki, həmin qövmlərin həlak olmasının əsas səbəbi isə bir çox hallarda kafirlik, müşriklik, zülmkarlıq, fəsad və s. amillər olmuşdur.

«Şüəra» surəsinin yeddi ayəsində, yəni 67, 103, 121, 139, 158, 174, 190-cı ayələrində keçmiş insanların bəzisinin həlak olmasını bildirdikdən sonra oxuyuruq:

«Onların çoxu mömin olmamışlar».

Sonda iki məqamı xüsusi vurğulamağı lazım görürəm:

1. Əvvəla, Allaha şükür etmək nəticəsində nemətlərin çoxalması Allahın dəyişməz, istisnasız və qəti sünnələrindən biridir:

«Əgər nemətlər qarşısında şükür etsəniz mütləq nemətlərinizi artıracağam.»[192]

Lakin nankorluq nəticəsində nemətlərin azalması o qədər də qəti deyil və burada istisna halları ola bilər. Allah-Təala yuxarıdakı ayənin davamında buyurur:

«Əgər nankorluq etsəniz, Mənim əzabım çox şiddətlidir.»[193]

İkinci təbir yəni nankorluq qarşısında şiddətli əzab barədə olan ibarə təkcə təhdidedici xarakteri daşıyır və nankorluq edənlərin nemətlərinin mütləq azalmasını və əzaba düçar olacağını bildirmir. Başqa sözlə, təbirdən, yalnız bunu anlayırıq ki, nemətlər qarşısında nankorluq etmək ilahi əzabın nazil olmasına zəmin və şərait yaradır, ya ən azı insanın nemətlərini əlindən alır. Lakin burada digər bir sünnə, misal üçün, möhlət vermə sünnəsi bunun qarşısını, yəni ilahi əzabın qarşısını ala bilər və həmin əzabın təsirinə maneə törədə bilər. Deməli, nankorluq edənlərin nemətlərinin kəsilməsi və Allahın əzabının onlara nazil olması sünnəsi odun yandırıcı xüsusiyyətə malik olması kimi, yalnız obyektiv və fəlsəfi şərait yaradır. Yəni Allah qarşısında nankorluq etmək, yalnız ilahi əzabın nazil olmasına şərait yaradır, lakin onun mütləq nazil olacağını vurğulamır.

«Ənfal», surəsinin 53-cü ayəsində oxuyuruq:

«(Müşriklər üçün olan) Bu (əzablar) ona görədir ki: Allah (öz qanunlarına əsasən) bir qövmə verdiyi neməti onlar özlərində olanı dəyişməyincə dəyişdirmir. Şübhəsiz, Allah eşidən və biləndir.»

Yuxarıdakı ayədən məlum olur ki, insanlar imandan, şükürdən və təqvadan nankorluq və günahkarlıq kimi vəziyyətlərə keçməyincəyə qədər onların nemətləri əllərindən alınmır. «Rəd» surəsinin 11-ci ayəsi isə belədir:

«Həqiqətən, Allah heç bir dəstə üçün (mövcud) olanı (nemət və firavanlığı, yaxud bəla və çətinliyi) onlar özlərində olanı dəyişdirməyincə, dəyişdirmir. Allah hər hansı bir dəstə üçün pislik istəyəndə, onun qarşısı əsla alınmaz və onlar üçün Ondan başqa heç bir yardımçı və başçı yoxdur.»

Birinci ayə tamamilə nemətlərin kəsilməsini bildirir, ikinci ayə də bu mənanı çatdırır. Yəni Allah-Təala insanlara verdiyi və bəxş etdiyi nemətləri, yalnız onlar özlərinin mənəvi və daxili vəziyyətlərini dəyişdirdiyi təqdirdə onlardan alır. Əgər Allah onlarla belə rəftar etsə, deməli Allah-Təala onlara pislik etmək istəmişdir. Allah-Təala hər bir mövcuda pislik etsə, heç bir mövcud onun qarşısını ala bilməz. Göründüyü kimi, ikinci ayə də qəti şəkildə bunu bildirmir ki, insanların nəfsani və daxili vəziyyətləri

dəyişdikdə dərhal Allah-Təala onlara pislik edəcəkdir. Ayə təkid edir ki, insanlar iman, şükür və təqva yolunda olduqları halda Allahın nemətləri onlardan alınmayacaqdır. Habelə, «Əgər küfr etsəniz Mənim əzabım şiddətlidir» ayəsi də onu bildirmir ki, Allah-Təala nankorları mütləq cəzalandıracaq. Bir sözlə, insanlar şükür vəziyyətindən nankorluq vəziyyətinə keçdikdə onların nemətlərinin alınması və ilahi əzabın onlara nazil olması bir ilahi sünnə olsa da, bu sünnə bəzi vaxtlar bir sıra maneələrə görə həyata keçmir. Çünki Allah-Təalanın digər sünnələri bunun qarşısını ala bilər.

Burada digər bir sual meydana çıxa bilər: Əgər bir cəmiyyət Allahın bəlasına və müsibətlərinə düçar olarsa, onlar haqq yoluna qayıtmayınca həmin bəla içərisində qalacaqlar, yoxsa yox? Biz öz tədqiqatlarımızda belə bir məsələni aydınlaşdıra bilməmişik ki, çətinliklərin və ilahi əzabın aradan getməsi, yalnız insanların peşman olub tövbə etməsi ilə mümkün olsun. Əksinə, bəzi şəraitlərdə Allah-Təala insanlara möhlət verir, yaxud Özünün geniş rəhmətinə əsasən, insanları çətinliklərdən və müsibətlərdən qurtarır və onlara nicat verir.

Deməli, burada qəti və dəyişməz olan budur ki, insanlar ilahi nemətlər qarşısında şükür etsələr, öz nemətlərini itirməyəcəklər. Nankorluq isə ilahi əzabın nazil olmasına zəmin və şərait yaratsa da, həmin əzabın nazil olması Allah-Təalanın digər sünnələrinə bağlıdır. Burada ilahi sünnələrin hansı birisinin hakim olması isə bizim üçün tam aydın deyil və yalnız ilahi hikmətə və tədbirə bağlıdır.

2. Biz indiyə qədər haqq əhli və batil əhlindən danışmışıq. Lakin göründüyü kimi Qurani-kərim bu iki dəstənin hər birini müəyyən vəsflər və xüsusiyyətlərlə tanıtdırır. Quranda haqq əhlinin xüsusiyyətlərindən bəzisi aşağıdakılardır:

Muhtədi – hidayət olunmuş; mömin – Allah-Təalaya və qiyamət gününə iman gətirmiş; müvəhhid – vahid Allaha sitayiş edən; Allahpərəst – daim Allahı özünə Rəbb görən; müttəqi – günahlardan çəkinən və Allah qarşısında pis işlərdən pəhriz edən və Allah-Təalanın, ilahi peyğəmbərlərin və məsum şəxslərin itaətində olan; möhsin – yaxşı işlər görən; taib – tövbəkar; müstəğfir – Allahdan bağışlanmaq istəyən; müstəinu billah – Allah-Təaladan kömək diləyən; mütəvəkkil – Allaha təvəkkül edən; mustəqimun ələt-təriqə – doğru yolda sabitqədəm olan; sabir – səbir edən; müqimus-salat – namaz qılan və namazı bərpa edən; zəkat verən; insanları

yaxşılıqlara dəvət edən; insanları pisliklərdən çəkindirən; Allah-Təalanın köməkçisi; Allah-Təala yolunda köç edən və Allah-Təala yolunda cihad və müharibə edən. Qurani-kərimdə batil yolda olan insanların xüsusiyyətləri və adlarından bəzisi isə aşağıdakılardır:

Zaiğ – düz yoldan əyri yola çəkilən; kafir; müşrik; Allahın nişanələrini və ayələrini yalan sanan; ilahi nişanələr və ayələrə istehza edən; öz nəfsinə tabe olan; fasiq; günahkar; pis işlər görən; zülmkar; yer üzündə fəsad edən; yer üzündə təkəbbürlük edən; israfçı; əyyaş və hiyləgər.

Yuxarıda qeyd olunan adları haqq və batil əhlinin nişanələri və xüsusiyyətləri adlandıra bilərik. Başqa sözlə, haqq əhli odur ki, Axirət həyatı üçün çalışır. Batil əhli isə yalnız dünya həyatını görür və onun üçün çalışır. Deməli, haqq əhli Axirəttələb, batil əhli isə dünyatələbdir.

# Qeydlər

---

[1] İngilis dilində «sosiology» və fransız «sociologie» sözü bu məfhumda işlənir.

[2] Auguste Konte.

[3] Raymond Boudon.

[4] Bax 3-cü hissə 7-8-ci bölmə.

[5] Bax 2-ci hissə, 5-6-cı fəsil, xüsusilə 7-ci fəsil.

[6] «Hucurat» surəsi, ayə: 11.

[7] «Yusuf» surəsi, ayə: 98.

[8] «Şəms» surəsi, ayə: 14.

[9] «Nəhcül-bəlağə», xütbə: 201.

[10] «Bəqərə» surəsi, ayə: 49.

[11] «Bəqərə» surəsi, ayə: 50.

[12] «Bəqərə» surəsi, ayə: 51, 92; «Nisa» surəsi, ayə: 153.

[13] «Bəqərə» surəsi, ayə: 51, 92.

[14] «Bəqərə» surəsi, ayə: 52; «Nisa» surəsi, ayə: 153.

[15] «Bəqərə» surəsi, ayə: 52.

[16] «Bəqərə» surəsi, ayə: 55 «Nisa» surəsi, ayə: 153.

[17] «Bəqərə» surəsi, ayə: 56.

[18] «Bəqərə» surəsi, ayə: 57.

[19] «Bəqərə» surəsi, ayə: 61.

[20] «Bəqərə» surəsi, ayə: 63, 93 «Nisa» surəsi, ayə: 154.

[21] «Bəqərə» surəsi, ayə: 64.

[22] «Bəqərə» surəsi, ayə: 65; «Maidə» surəsi, ayə: 60.

[23] «Bəqərə» surəsi, ayə: 72.

[24] «Bəqərə» surəsi, ayə: 74.

[25] «Bəqərə» surəsi, ayə: 75.

[26] «Bəqərə» surəsi, ayə: 87, 91; «Ali-İmran» surəsi, ayə: 21, 112, 181, 183; «Nisa» surəsi, ayə: 155.

[27] «Ali-İmran» surəsi, ayə: 21.
[28] «Nisa» surəsi, ayə: 154.
[29] «Nisa» surəsi, ayə: 156.
[30] «Nisa» surəsi, ayə: 157.
[31] «Ali-İmran» surəsi, ayə: 112.
[32] «Əraf» surəsi, ayə: 167.
[33] «Nəcm» surəsi, ayə: 38-41.
[34] «Zilzal» surəsi, ayə: 7, 8.
[35] «Ali-İmran» surəsi, ayə: 75.
[36] «Qəsəs» surəsi, ayə: 29.
[37] «Taha» surəsi, ayə: 40.
[38] «Yusuf» surəsi, ayə: 109; «Rum» surəsi, ayə: 9; «Fatir» surəsi, ayə: 44; «Ğafir» surəsi, ayə: 21, 82; «Muhəmməd» surəsi, ayə: 10.
[39] «Şüəra» surəsi, ayə: 67, 103, 121, 139, 158, 174, 190.
[40] «Kəhf» surəsi, ayə: 110; «Fussilət» surəsi, ayə: 6.
[41] «Maidə» surəsi, ayə: 104.
[42] «Ənkəbut» surəsi, ayə: 25.
[43] «Bəqərə» surəsi, ayə: 13.
[44] «Əhqaf» surəsi, ayə: 11.
[45] «Mumtəhənə» surəsi, ayə: 4.
[46] «Ənam» surəsi, ayə: 90.
[47] «İsra» surəsi, ayə: 71.
[48] «Hud» surəsi, ayə: 98, 99.
[49] «Şüəra» surəsi, ayə: 214.
[50] «Qəsəs» surəsi, ayə: 4.
[51] «Qəsəs» surəsi, ayə: 4.
[52] «Qəsəs» surəsi, ayə: 4; «Bəqərə» surəsi, ayə: 49; «Əraf» surəsi, ayə: 141; «Taha» surəsi, ayə: 47; «Mömin» surəsi, ayə: 25.
[53] «Əraf» surəsi, ayə: 113, 114; «Şüəra» 41, 42.
[54] «Əraf» surəsi, ayə: 123, 124; «Taha» surəsi, ayə: 71; «Şüəra» surəsi, ayə: 49.
[55] «Əraf» surəsi, ayə: 127.
[56] «Şüəra» surəsi, ayə: 29.
[57] «Əraf» surəsi, ayə: 123; «Taha» surəsi, ayə: 71; «Şüəra» surəsi, ayə: 49.
[58] «Taha» surəsi, ayə: 57, 58, 59, 60, 61, 62, 63; «Şüəra» surəsi, ayə: 34, 35; «Qəsəs» surəsi, ayə: 36; «Mömin» surəsi, ayə: 24.
[59] «Şüəra» surəsi, ayə: 27; «İsra» surəsi, ayə: 101.

[60] «Mömin» surəsi, ayə: 26.
[61] «Şüara» surəsi, ayə: 53-56.
[62] «Taha» surəsi, ayə: 51.
[63] «Qəsəs» surəsi, ayə: 36.
[64] «İsra» surəsi, ayə: 102.
[65] «Nəml» surəsi, ayə: 14.
[66] «Qəsəs» surəsi, ayə: 38; «Qafir» surəsi, ayə: 36, 37.
[67] «Qafir» surəsi, ayə: 26.
[68] «Zuxruf» surəsi, ayə: 51-53.
[69] «Bəqərə» surəsi, ayə: 258.
[70] «Zuxruf» surəsi, ayə: 54.
[71] Ali-İmran» surəsi, ayə: 103.
[72] «Ali-İmran» surəsi, ayə: 64.
[73] «Yasin» surəsi, ayə: 47.
[74] «Zuxruf» surəsi, ayə: 32.
[75] «Ənam» surəsi, ayə: 165.
[76] «Bəqərə» surəsi, ayə: 273.
[77] «Bəqərə» surəsi, ayə: 213.
[78] «Ali-İmran» surəsi, ayə: 19.
[79] «Ali-İmran» surəsi, ayə: 105.
[80] «Yunus» surəsi, ayə: 19.
[81] «Yunus» surəsi, ayə: 93.
[82] «Casiyyə» surəsi, ayə: 16, 17.
[83] «Maidə» surəsi, ayə: 14.
[84] «Rum» surəsi, ayə: 31, 32.
[85] «Ənbiya» surəsi, ayə: 105.
[86] «Qəsəs» surəsi, ayə: 5.
[87] «Nisa» surəsi, ayə: 75.
[88] «Fatir» surəsi, ayə: 15.
[89] «Muhəmməd» surəsi, ayə: 38.
[90] «Nəhl» surəsi, ayə: 112.
[91] «Əraf» surəsi, ayə: 96.
[92] «Rum» surəsi, ayə: 42.
[93] «Şüəra» surəsi, ayə: 67, 103, 121, 139, 158, 174, 190.
[94] «Hud» surəsi, ayə: 61.
[95] «Ənam» surəsi, ayə: 47.

[96] «Ənfal» surəsi, ayə: 39; «Bəqərə» surəsi, ayə: 193.
[97] «Ənfal» surəsi, ayə: 60.
[98] «Həcc» surəsi, ayə: 41.
[99] «Taha» surəsi, ayə: 50.
[100] «Bələd» surəsi, ayə: 10.
[101] «Yunus» surəsi, ayə: 47.
[102] «Nəhl» surəsi, ayə: 36.
[103] «Fatir» surəsi, ayə: 24.
[104] «Qəsəs» surəsi, ayə: 59.
[105] «Ənam» surəsi, ayə: 42.
[106] «Əraf» surəsi, ayə: 94.
[107] «Şura» surəsi, ayə: 27.
[108] «Maidə» surəsi, ayə: 48.
[109] «Ənam» surəsi, ayə: 165.
[110] «Zuxruf» surəsi, ayə: 32.
[111] «İbrahim» surəsi, ayə: 7.
[112] «Məryəm» surəsi, ayə: 76.
[113] «Muhəmməd» surəsi, ayə: 17.
[114] «Ənfal» surəsi, ayə: 29.
[115] «Yunus» surəsi, ayə: 9.
[116] «Təğabun» surəsi, ayə: 11.
[117] «Hücurat» surəsi, ayə: 7.
[118] «Maidə» surəsi, ayə: 66.
[119] «Əraf» surəsi, ayə: 96.
[120] «Hud» surəsi, ayə: 2, 3.
[121] «Nuh» surəsi, ayə: 2- 4.
[122] «Nuh» surəsi, ayə: 10-12.
[123] «Cin» surəsi, ayə: 16.
[124] «Ənfal» surəsi, ayə: 7, 8.
[125] «İsra» surəsi, ayə: 81.
[126] «Ənbiya» surəsi, ayə: 18.
[127] «Səbə» surəsi, ayə: 48, 49.
[128] «Şura» surəsi, ayə: 24.
[129] «Maidə» surəsi, ayə: 56.
[130] «Yunus» surəsi, ayə: 103.
[131] «Həcc» surəsi, ayə: 40.

[132] «Rum» surəsi, ayə: 47.
[133] «Saffat» surəsi, ayə: 171-173.
[134] «Qafir» surəsi, ayə: 51.
[135] «Muhəmməd» surəsi, ayə: 7.
[136] «Mücadilə» surəsi, ayə: 21.
[137] «Ali-İmran» surəsi, ayə: 146-148
[138] «Əraf» surəsi, ayə: 128, 137.
[139] «Ali-İmran» surəsi, ayə: 123, bundan sonra gələn dörd ayəyə müraciət edin.
[140] «Ənfal» surəsi, ayə: 9, bundan sonra gələn üç ayəyə müraciət edin.
[141] «Tövbə» surəsi, ayə: 25, bundan sonra gələn iki ayəyə müraciət edin.
[142] «Həcc» surəsi, ayə: 4.
[143] «Fəth» surəsi, ayə: 18, 19.
[144] «Fəth» surəsi, ayə: 26.
[145] «Əhzab» surəsi, ayə: 9-11.
[146] «Həşr» surəsi, ayə: 2.
[147] «Ali-İmran» surəsi, ayə: 186.
[148] «Nəhl» surəsi, ayə: 41, 42.
[149] «Fussilət» surəsi, ayə: 30, 31.
[150] «Ali-İmran» surəsi, ayə: 132.
[151] «Nisa» surəsi, ayə: 59.
[152] «Ali-İmran» surəsi, ayə: 139.
[153] «Həcc» surəsi, ayə: 38-41.
[154] «Nur» surəsi, ayə: 55, 56.
[155] «Qəsəs» surəsi, ayə: 5, 6.
[156] «Tövbə» surəsi, ayə: 32, 33; bundan əlavə: «Fəth» 8, 9.
[157] «Əraf» surəsi, ayə: 128.
[158] «Ənbiya» surəsi, ayə: 105.
[159] Rum» surəsi, ayə: 10.
[160] «Səf» surəsi, ayə: 5.
[161] «Hicr» surəsi, ayə: 39, 40.
[162] «Ənam» surəsi, ayə: 43.
[163] «Ənfal» surəsi, ayə: 48, «Nəhl» surəsi, ayə: 63; «Nəml» surəsi, ayə: 24 «Ənkəbud» surəsi, ayə: 38.
[164] «Ənam» surəsi, ayə: 137.
[165] «Fussilət» surəsi, ayə: 25.
[166] «Ənam» surəsi, ayə: 108.

[167] «Nəml» surəsi, ayə: 4.
[168] «Bəqərə» surəsi, ayə: 212.
[169] «Ənam» surəsi, ayə: 122.
[170] «Tövbə» surəsi, ayə: 37.
[171] «Yunus» surəsi, ayə: 12.
[172] «Rəd» surəsi, ayə: 33.
[173] «Fatir» surəsi, ayə: 8.
[174] «Muhəmməd» surəsi, ayə: 14.
[175] «Ali-İmran» surəsi, ayə: 178.
[176] «Ənam 44, 45.
[177] «Əraf» surəsi, ayə: 95.
[178] «Əraf» surəsi, ayə: 182, 183.
[179] «Rəd» surəsi, ayə: 32.
[180] «Qələm» surəsi, ayə: 44, 45.
[181] «Nəhl» surəsi, ayə: 61.
[182] «Rum» surəsi, ayə: 41.
[183] «Fatir» surəsi, ayə: 45.
[184] «Şura» surəsi, ayə: 30.
[185] «İsra» surəsi, ayə: 4-8.
[186] «Fəth» surəsi, ayə: 22, 23.
[187] «Səf» surəsi, ayə: 14.
[188] «Rəd» surəsi, ayə: 31.
[189] «Fatir» surəsi, ayə: 43.
[190] «Ənam» surəsi, ayə: 123, 124.
[191] «İsra» surəsi, ayə: 16.
[192] «İbrahim» surəsi, ayə: 7.
[193] «İbrahim» surəsi, ayə: 7.

# Kitab haqqında

Kitabın adı: Quranda camiyyət və tarix
Müəllif: Misbah Yəzdi
Mütərcim: Mail Yaqubov
Tex. redaktor: S. Yusifzadə
Çap tarixi: 2009
Tiraj: 3000 1z 500